İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edlir.
"Scientific works" of the institute have been published since 1934.
«Научные труды» института издаются с 1934 года.

İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətirək:
We bring to the attention Order No. 150 of the Institute:
Доводим до сведения приказ № 150 института:



Приказ №150
От 17/I-34г.
Временно утвердить редакционной Коллегии
Аз.НИИПТ в составе ответ. редактора
т. Мамедова Гулам / Директора ин-та/
секретаря т. Малахалбизева и членов т.
Араслы.
Тов. Малахалбизеву 19/I к 1 часу дня предста-
вить план выпуска научных трудов
Института.
Директор ин-та :

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2026.93.1
https://archive.org/details/elmi-s-rl-r-2025-6-1– Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-92-number-6-2025-pdf/284768102 – SlideShare
https://www.calameo.com/read/007335995e7baec127401– Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 93, № 1, 2026

НАУЧНЫЕ ТРУДЫ

том 93, № 1, 2026

SCIENTIFIC WORKS

volume 93, № 1, 2026

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə
tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2026

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy, associate professor*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc.prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2026

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике, доцент*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2026

BAŞ REDAKTORDAN
ОТ ГЛАВНОГО РЕДАКТОРА
FROM THE EDITOR-IN-CHIEF

PROFESSOR MUSEYİB İBRAHİM OGLU İLYASOV – 75
PROFESSOR MÜSEYIB IBRAHIM ILYASOV – 75
ПРОФЕССОР МУСЕИБ ИБРАГИМ ОГЛЫ ИЛЬЯСОВ – 75

UOT 37.1

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/ 0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).5-7

XEYİRXAH İNSAN, TƏCRÜBƏLİ MÜƏLLİM, İSTEDADLI ALİM

Akif Nuragha Abbasov
scientific secretary at the Institute of Education of the Republic of Azerbaijan,
doctor of pedagogical sciences, professor, honored teacher

A KINDLY PERSON, EXPERIENCED TEACHER, TALENTED SCIENTIST

Акиф Нурага оглы Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, заслуженный учитель

ДОБРЫЙ ЧЕЛОВЕК, ОПЫТНЫЙ ПРЕПОДАВАТЕЛЬ, ТАЛАНТЛИВЫЙ УЧЕНЫЙ

Xülasə. Müseyib İbrahim oğlu İlyasov 1951-ci il fevralın 11-də Oğuldərə kəndində müəllim ailəsində anadan olub. Əslən Azərbaycanımızın dilbər guşəsi Laçın rayonundandır. Oğuldərə kənd məktəbində orta təhsil, Gəncə Dövlət Pedaqoji İnstitutunda - ali təhsil, Azərbaycan Dövlət Pedaqoji Universitetində doktorantura təhsili almışdır. Laçın rayonunun Oğuldərə kənd məktəbində müəllim, direktor müavini, Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, kafedra müdiri işləmişdir. Pedaqogika elmləri doktoru, professor, əməkdar müəllimdir. Anadan olmasının 75 illiyi tamam olur.

***Açar sözlər**: Müseyib İlyasov, yubiley, müəllim, xeyirxah insan, istedadlı alim, təcrübəli müəllim*

Abstract. Museyib Ibrahim Ilyasov was born on February 11, 1951, in the village of Oguldara to a family of teachers. He hails from a picturesque corner of Azerbaijan, the Lachin region. He received his secondary education in the village of Oguldara, his higher education at the Ganja State Pedagogical Institute, and his doctorate from the Azerbaijan State Pedagogical University. He worked as a teacher, deputy director of the village of Oguldara in the Lachin region, and lecturer and head of department at the Azerbaijan State Pedagogical University. He is a Doctor of Pedagogical Sciences, professor, and honored teacher. Museyib Ilyasov is 75 years old.

***Keywords**: Museyib Ilyasov, anniversary, teacher, kind person, talented scientist, experienced teacher*

Аннотация. Мусеиб Ибрагим оглы Ильясов родился 11 февраля 1951 года в селе Огулдере в семье учителей. Родом он из живописного уголка нашего Азербайджана, Лачинского района. Среднее образование получил в селе Огулдере, высшее – в Гянджинском Государственном Педагогическом Институте, прошел докторантуру в Азербайджанском Государственном Педагогическом Университете. Работал учителем, заместителем директора в школе села Огулдере Лачинского района, преподавателем и заведующим кафедры в Азербайджанском Государственном Педагогическом Университете, является доктором педагогических наук, профессором и заслуженным учителем. Мусеибу Ильясову исполняется 75 лет со дня рождения.

***Ключевые слова**: Мусеиб Ильясов, юбилей, учитель, добрый человек, талантливый ученый, опытный преподаватель*

Ötən əsrin yetmişinci illərində Bakının hündür məkanlarının birində, hazırda Şəhidlər xiyabanın qonşuluğunda, Dağüstü parka yaxın bir Çəmbərəkənd deyilən coğrafi ərazi, keçmiş yaşayış sahəsi, məhəllə vardı.

Köhnə Bakının yadigarı idi Çəmbərəkənd. İndi ondan əsər-əlamət qalmayıb. Yerində əvvəlcə "Moskva" mehmanxanası, sonradan elə həmin yerdə daha gözəl və möhtəşəm hotel kompleksi inşa edildi. Təbii ki, Çəmbərəkəndin bir hissəsində.

Çəmbərəkənddə evlər bir-birinin yanında və bir-birinin ayaq tərəfində (yuxarıdan aşağıya) sıralanırdı. Mən M.F. Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda (hazırda ADU) II kursda, ingilis-Azərbaycan dilləri müəllimi ixtisası üzrə təhsil alırdım. Çəmbərəkənddə Mirzə kişinin kiçicik evlərinin birində (ev demək mümkündürsə, əslində daxmasında) qalırdım. Qonşuluqda başqa institutda oxuyan tələbələr kirayənişin idilər.

Tələbəlik illəri idi. İndiki tələbəlik illərindən çox fərqli. Ali təhsili başa vuranda bilirdin ki, doğma rayonuna, yaxud hansısa başqa rayona təyinat alacaq, işə başlayacaqsan. İşlə təminat çox da problem yaratmırdı.

Qonşuluqdakı tələbələrlə rastlaşanda haləhval tutur, bu zaman təbii ki, bir-birimizə sual verirdik. Mən soruşanda "Necəsən?" Novruzdan cavab alırdım: "Sağ ol, zərər yoxdur".

Əvvəllər təəccüb edərdim. Elə bilirdim elə deməklə zarafata salır. Sonra alışdım. Sən demə, bizim "Sağ ol, yaxşıyam" cavabımıza alternativ onların, yerlərinin cavabı imiş. Amma gözəl sözdür – "zərər yoxdur". Yəni hər şey qaydasındadır.

Bu əhvalatı niyə nümunə gətirdim?

İndi insanlar sanki 30-50 il bundan əvvəlki insanlar deyil. Həmişə olduğu kimi, aramızda yaxşıları da var, yaxşı olmayanları da. Xeyirxahları da var, bədxahları da. Bu, təbiidir. Olmalıdır. Fəqət sayı artıb yaramazların. Ya-laqların, yaltaqların, tor quranların, paxılların, mərdimazarların. Belələrindən zərər görürsən.

Təbii ki, deyilənlər hər şəxsə aid deyil. Həyatda, ətrafımızda həm də elə şəxslər vardır ki, onlar ömründə kiminsə xətrinə dəyməyiblər, xeyirxahlığı, yaxşılığı özlərinə bayraq ediblər. Zərər vurmaq nədir, zərəri, ziyan vurmağı özlərinə yaxın buraxmayıblar.

Belə zərərsiz insanlardan biri də Müseyib müəllimdir. Pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim Müseyib İbrahim oğlu İlyasov. Dostumuz.

Bu xeyirxah dostumuzun bu il fevral ayının 11-də anadan olmasının 75 illiyi tamam olur.

Müseyib İbrahim oğlu İlyasov 1951-ci il fevralın 11-də Oğuldərə kəndində müəllim ailəsində anadan olub. Əslən Azərbaycanımızın dilbər guşəsi Laçın rayonundandır. Burada orta məktəbi bitirib, Gəncə Dövlət Pedaqoji İnstitutunda (hazırda GDU) ali təhsil aldıqdan sonra doğulub boya-başa çatdığı Oğuldərə kənd 8 illik məktəbində müəllim, daha sonra direktor müavini vəzifəsində çalışıb. Az müddətdə Laçında

nümunəvi müəllim və bacarıqlı təhsil təşkilatçısı kimi tanınmış, iş təcrübəsi rayonda yayılmışdır.

M.İ. İlyasov kənd məktəbində vur-tut 6 il (1971-1977) işlədi. Pedaqoji elmlərə dərin marağı, dissertasiya müdafiə edərək elmi dərəcə almaq arzusu onu Bakıya gətirdi.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsil alan Müseyib müəllim "Kənd məktəblərarası tədris istehsalat kombinatlarında şagirdlərin peşəyönümünün pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyası müdafiə etdi (1987, elmi rəhbəri professor Hüseyn Əhmədov).

O, hələ 1980-ci ildə, aspirantura təhsilini başa vuranda pedaqoji universitetdə Pedaqogika kafedrasının müəllimi təyin olunmuşdu. Sonralar kafedranın baş müəllim (1989) olmuş, dosent vəzifələrinə seçilmişdir (1991).

Respublika televiziyasında ayda bir dəfə efirə çıxan "İstehsalatın əsasları. Peşə seçmə" adlı televiziya tədris proqramının aparıcısı olmuş (1984-1995-ci illər), peşəseçmənin əsasları ilə əlaqədar maraqlı, diqqətəlayiq və məzmunlu verilişlər aparmışdır.

Müseyib İlyasov 2011-ci ildə pedaqogika elmləri doktoru elmi dərəcəsi almaq üçün "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" mövzusunda dissertasiya müdafiə etmişdir. Elmlər doktorudur. 2017-ci ildə professor elmi adını almışdır.

Pedaqogika elmləri doktoru, professor Müseyib İlyasov pedaqogika elmi sahəsi üzrə elmi kadrların yetişməsində yaxından iştirak edir. Onun elmi rəhbərliyi ilə bir çox doktorant və dissertant dissertasiya müdafiə etmişdir. M.İ. İlyasov eyni zamanda dissertasiya müdafiələri zamanı dəfələrlə rəsmi opponentlik etmişdir. ADPU-da fəaliyyət göstərən pedaqoji elmlər üzrə Dissertasiya Şurasının üzvü olmuş, bir müddət şuranın nəzdindəki elmi seminarın sədri vəzifəsini yerinə yetirmişdir.

Hazırda Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Filologiya və pedaqogika" ixtisasları üzrə Ekspert Şurasının üzvüdür.

Pedaqoji kadrların hazırlanmasında da fəallıq göstərir. Tələbələrə mühazirə oxuyur. Bir müddət ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikasının müdiri vəzifəsində çalışmışdır (2013-2025-ci illər). Hazırda universitetin Təhsil menecmenti kafedrasının professorudur.

Müseyib müəllimin tədqiqatları pedaqogika elminin bir sıra sahələrini özündə birləşdirir. Lakin daha çox təhsilalanların peşə seçməyə hazırlanması; müəllimlik peşəsi və müəllim hazırlığı problemləri üzrə tədqiqat aparır.

Professor xeyli diqqətəlayiq əsərlərin müəllifidir. Onların bəzilərini diqqət mərkəzinə gətirək: "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları", "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri", "Müasir təhsil: ənənədən innovasiyaya", "Məktəbdə peşəyönümü işinin sistemi", "Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi", "Peşəyönümün əsasları", "Müəllimin pedaqoji ustalığı" "Peşə, sənət və ixtisas seçimi haqqında söhbətlər", "Pedaqoji tədqiqatların metodları və metodologiyası".

Müseyib müəllim qışın oğlan çağında dünyaya göz açıb. Xalq təqviminə görə, kiçik çillə hər il 31 yanvar - 1 fevral gecəsindən etibarən 20 fevraladək (20 gün) davam edir. Böyük çillədən (21 dekabr - 30 yanvar) sonra qədəmini qoyan bu dövr nisbətən kəskin soyuq və küləklərlə, sərt şaxtalarla, qarın ətrafı ağ örpəyə bürüməsi ilə səciyyələnir. Bahar fəslinə təbiətin yolu qışdan keçir. Müseyib müəllim 75 qışı, 75 baharı yola salıb. Arzumuz budur ki, daha 25 qışı və 25 baharı da arxada qoysun. Xoş əməllər, xeyirxahlıq, yaxşılıq carçısı ola-ola!

Pedaqogika elmləri doktoru, professor, əməkdar müəllim Müseyib İbrahim oğlu İlyasovu 75 illik yubileyi münasibətilə təbrik edirik!!!

Redaksiyaya daxil olub: 06.01.2026

.

UOT 37.1

İlham Ağaqardaş oğlu Cavadov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0004-8522-320X
E-mail:i.cavadov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).8-14

MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN VƏ PEŞƏKARLIQ SƏVİYYƏSİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Ilham Agagardash Javadov
deputy director of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy, Associate Professor

THE IMPACT OF A TEACHER'S PEDAGOGICAL PRACTICE AND PROFESSIONAL COMPETENCE ON THE QUALITY OF EDUCATION

Ильхам Агагардаш оглы Джавадов
заместитель директора Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике, доцент

ВЛИЯНИЕ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ И УРОВНЯ ЕГО ПРОФЕССИОНАЛИЗМА НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

Xülasə. Məqalədə müasir Azərbaycanın ümumtəhsil məktəblərində müəllimin rolu, pedaqoji fəaliyyətinin mahiyyəti və peşəkarlıq səviyyəsinə təsir edən əsas amillər tədqiq edilmişdir. Aparılmış təhlildə müəllimin yalnız bilik verən deyil, eyni zamanda şagirdlərin dünyagörüşünü, düşüncə tərzini, davranış və dəyərlərini formalaşdıran aparıcı şəxs olması vurğulanmışdır. Müəllimin yüksək elmi biliklərlə yanaşı, milli-mənəvi və əxlaqi dəyərlərə, humanist və demokratik dünyagörüşünə malik olması, şagirdlərin şəxsiyyət kimi inkişafı və yaradıcı düşüncə bacarıqlarının formalaşması üçün əsas şərt kimi qoyulmuşdur.

Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi dövlət strategiyasının prioritet istiqamətlərindən biridir. Təhsilalanların nailiyyətləri müəllimin akademik bacarıqları, tədris təcrübəsi və peşəkarlıq səviyyəsi ilə sıx bağlıdır. Professor Ə.Ə. Ağayevin fikrincə, təhsilin keyfiyyətinə nail olmaq üçün müəllimin milli, mənəvi və əxlaqi dəyərlərə sahib olmaqla bərabər həm də yüksək peşə biliklərinə malik olması vacibdir. Professor Ə.Ə. Əlizadə isə müəllimin pedaqoji ustalığını təlimin keyfiyyətinə təsir edən başlıca amil kimi qiymətləndirir.

Təhlillərin nəticəsində, təhsilin keyfiyyətinin birbaşa müəllimin peşəkarlığından və pedaqoji ustalığından asılı olduğu qənaətinə gəlinmişdir. Müasir müəllim sadəcə bilik ötürən deyil, həm də istiqamətləndirən, yolgöstərən, fərdi xüsusiyyətləri nəzərə alaraq innovativ üsullardan istifadə etməklə təlimi fərdiləşdirən şəxsdir. Onun məqsədi şagirdlərə bərabər təlim şəraiti yaratmaq, motivasiyanı təmin etmək və müasir biliklərlə təchiz olunmuş vətəndaşlar yetişdirməkdir. Beləliklə, müəllimin peşəkarlığı, pedaqoji ustalığı və şəxsi keyfiyyətləri təhsil prosesinin keyfiyyətinə birbaşa təsir göstərir və müasir təhsilin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Açar sözlər: *təhsilin keyfiyyəti, pedaqoji fəaliyyət, təlim prosesi, keyfiyyət təminatı, müəllim fəaliyyəti*

Abstract. The thesis investigates the role of the teacher, the nature of their pedagogical activity, and the main factors influencing their level of professionalism in the general education schools of modern Azerbaijan. The analysis conducted highlights that the teacher is not only a transmitter of knowledge but also

a key figure who shapes pupils' worldview, mindset, behaviour, and values. It is posited that alongside high academic knowledge, a teacher must possess national-moral and ethical values, and a humanist and democratic worldview, as a key prerequisite for the development of pupils as individuals and the formation of their creative thinking skills.

The modernisation of human resources in the education sector is one of the priority directions of the state strategy. The achievements of learners are closely linked to the teacher's academic skills, teaching experience and level of professionalism. According to professor A.A. Agayev, to achieve quality education, it is essential for a teacher to possess not only national, moral and ethical values, but also high professional knowledge. Professor A.A. Alizadeh, for his part, assesses a teacher's pedagogical mastery as the primary factor influencing the quality of instruction.

As a result of the study, it has been concluded that the quality of education directly depends on the teacher's professionalism and pedagogical mastery. The modern teacher is not merely a transmitter of knowledge, but also a guide and mentor who personalises learning by using innovative methods that take individual characteristics into account. Their aim is to create equal learning opportunities for pupils, ensure motivation, and nurture citizens equipped with modern knowledge. Thus, a teacher's professionalism, pedagogical mastery, and personal qualities directly influence the quality of the educational process and serve as the primary driving force of modern education.

Keywords: *quality of education, pedagogical activity, teaching process, quality assurance, teacher activity*

Аннотация. В статье исследуется роль учителя в современных азербайджанских общеобразовательных школах, сущность его педагогической деятельности и основные факторы, влияющие на уровень профессионализма. В проведенном анализе подчеркивается, что учитель является не только носителем знаний, но и ведущей фигурой в формировании мировоззрения, образа мышления, поведения и ценностей учащихся. Владение учителем национально-духовными и моральными ценностями, гуманистическим и демократическим мировоззрением, наряду с высокими научными знаниями, ставится в качестве базового условия развития учащихся как личностей и формирования навыков творческого мышления. Модернизация кадрового потенциала в сфере образования является одним из приоритетных направлений государственной стратегии.

Достижения обучающихся тесно связаны с академическими умениями, педагогическим опытом и уровнем профессионализма учителя. По мнению профессора А.А. Агаева, для достижения качества образования важно, чтобы учитель не только обладал национальными, духовными и нравственными ценностями, но и имел высокие профессиональные знания. Профессор А.А. Ализаде оценивает педагогическое мастерство учителя как основной фактор, влияющий на качество образования.

В результате анализа сделан вывод о том, что качество образования напрямую зависит от профессионализма и педагогического мастерства учителя. Современный учитель - это не просто носитель знаний, но и наставник, направляющий и показывающий путь, который, учитывая индивидуальные особенности учащихся, использует инновационные методы и тем самым персонализирует обучение. Его цель – создание равных условий обучения для учащихся, обеспечение мотивации и воспитание граждан, вооружённых современными знаниями. Таким образом, профессионализм, педагогическое мастерство и личностные качества учителя напрямую влияют на качество образовательного процесса и выступают главной движущей силой современного образования.

Ключевые слова: *качество образования, педагогическая деятельность, учебный процесс, обеспечение качества, деятельность учителя*

GİRİŞ

Qloballaşan dünyada ümumtəhsil məktəblərinin işinin səmərəli təşkil olunmasının ən mühüm şərtlərindən biri müəllimlərin öz ixtisasını və onun tədrisi metodikasını mükəmməl bilməklə yanaşı, həm də hərtərəfli bilik, bacarığa və müsbət insani keyfiyyətlərə malik olmasıdır. Bu gün Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiya olunduğu bir şəraitdə müəllimlərin üzərinə daha çox məsuliyyət düşür. Hər bir müəllim öz elmi-pedaqoji və peşə ixtisas səviyyəsini əvvəlki illərdən daha çox artırmağın qayğısına qalmalı, ənənəvi təlim metodları ilə kifayətlənməməli, yeni pedaqoji texnologiyalardan milli-mənəvi, ümumbəşəri zəmində günün tələblərinə müvafiq istifadənin əlverişli yollarını axtarmalı və əməli işində tətbiq etməlidir. Çünki, təhsilin keyfiyyəti bilavasitə müəllimin yaradıcı potensialından, peşəkarlıq səviyyəsindən, yeni təlim və pedaqoji texnologiyaların tədris prosesinə tətbiqindən çox asılıdır.

MATERİALLAR VƏ METODLAR

Müasir Azərbaycan ümumtəhsil məktəblərinin cəmiyyətin günü-gündən dəyişən ehtiyac və tələbləri səviyyəsində modernləşdirildiyi bir şəraitdə təlim-tərbiyə prosesinin səmərəli təşkili və idarə olunmasında müəllimlərin rolu danılmazdır. Çünki tədris prosesində müəllimlər şagirdlərə müvafiq elm sahələrinə uyğun bilik və bacarıqlar öyrətməklə bərabər həm də onların dünyagörüşünü, düşüncə tərzini, davranış və dəyərlərini formalaşdıran peşəkarlardır. Bu baxımdan müəllimlər yüksək elmi biliklərə sahib olmaqla yanaşı, həm də humanist və demokratik dünyagörüşünə malik olmalıdırlar.

Məhz belə olan halda, şagirdlərin şəxsiyyət kimi qəbul olunması, onların müstəqil düşüncə və yaradıcı fəaliyyət bacarıqlarının formalaşması mümkün olur. Bunun üçün müəllimlər öz fəaliyyətlərinin planlaşdırılmasında və təşkilində təlimin əsas vəzifələrinə (öyrədici, inkişafetdirici və tərbiyəedici) istinad etməlidir. Çünki müəllimin fəaliyyətində təlimin bu üç əsas vəzifəsi birgə reallaşdırılarsa müasir dövrün tələblərinə cavab verən şəxsiyyət yetişdirmək olar. Əks təqdirdə şagird şəxsiyyətinin inkişafı birtərəfli gedəcək, dövlətin təhsil qarşısında qoyduğu tələb, cəmiyyətin təhsildən gözləntiləri təmin olunmayacaq. Yekunda haqlı olaraq cəmiyyətdə təhsilin keyfiyyətinin müasir dövrün dəyişən ehtiyac və tələblərinə cavab vermədiyi fikri formalaşacaqdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ikinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur [1]. Təhsilalanların savadlı və səriştəli mütəxəssis kimi formalaşması isə müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılı olub təhsilalanların nailiyyətləri ilə sıx əlaqəlidir. Məhz buna görə də son illərdə dövlət səviyyəsində müəllim nüfuzunun və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, eləcə də istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində ciddi addımlar atılmışdır.

Məktəbdə təlim-tərbiyə prosesinin əsas hərəkətverici qüvvəsi olan müəllimlərin fəaliyyətinə verilən tələblər, onların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi məsələsinə pedaqoji mətbuatda fərqli yanaşmalar mövcuddur.

Professor Ə.Ə. Ağayev hesab edir ki, *"yeni tələblərə cavab verən pedaqoji kadr olmadan təhsili yenilik səviyyəsinə qaldırmaq mümkün deyildir. Məktəb binasının olması, avadanlıqlarla təchizat, kompüter texnologiyasının yerləşdirilməsi hələ hər şey deyil. Hər şey müəllimdən, təhsili idarə edən insanlardan, onların vətəndaşlıq amalından, ləyaqət, mənəviyyat, mədəniyyət və müasir tələblərə cavab verən peşə-ixtisas hazırlığından asılıdır."* [2, s. 83].

Göründüyü kimi illərin təcrübəsinə sahib pedaqoq alim Ə.Ə. Ağayev təlim prosesində uğurun açarı kimi müəllim amilinə xüsusi önəm verir. Alimin yanaşmasına görə müəllimin milli, mənəvi və əxlaqi dəyərləri onun peşə-ixtisas hazırlığından öndə gəlir. Bu yanaşma bizə deməyə imkan verir ki, ahəngdar insanın - şəxsiyyətin yetişməsi üçün müəllim ilk öncə müsbət ümuminsani keyfiyyətlərə, sonra isə zəruri peşə bilik və bacarıqlarına sahib olmalıdır. Müəllimin missiyası cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşdırmaq olduğundan, sözün həqiqi mənasında elə müəllim özü də hərtərəfli inkişaf etmiş, özünü daim təkmilləşdirməyə hazır olan şəxs olmalıdır. Çünki, qloballaşan müasir dünyada süni intellektin və kompüter texnologiyasının insan həyatına sürətlə sirayət etməsi günbəgün yeni biliklərin öyrənilməsini, milli-mənəvi və ümumbəşəri dəyərlər nəzərə alınmaqla tədris prosesində tətbiqini zəruri edir. Təbii ki, söylədiyimiz bu yanaşmaların tədris prosesində tətbiqi müəllimdən pedaqoji ustalıq tələb edir.

Görkəmli professor Ə.Ə. Əlizadə müəllim şəxsiyyətini məktəbdə əsas sima, təlim-tərbiyə prosesinin aparıcı qüvvəsi hesab edirdi. Alimin fikrincə, müəllimin pedaqoji ustalığı təlimin keyfiyyətinə təsir edən başlıca amillərdəndir. Pedaqoji ustalıq kifayət qədər formalaşmadıqda müəllimlər, xüsusilə gənc müəllimlər çox vaxt şagirdlərin müəyyən situasiyalarda necə hərəkət edəcəyini vaxtında müəyyən edə bilmir. Nəticədə şagirdin davranış və rəftarını, eləcə də onun keçirdiyi psixi halları adekvat qiymətləndirə bilmir [4, s. 268-269].

Buradan da göründüyü kimi, təhsilin keyfiyyəti müəllimin peşəkarlığından, onun pedaqoji ustalığından asılıdır. Ona görə də haqlı olaraq müəllim fəaliyyətinin qiymətləndirilməsində onun pedaqoji bilik və bacarıqları (pedaqoji, psixoloji və fənn bilikləri), şəxsi keyfiyyətləri (tolerantlıq, empatiya, əxlaqi, sosial, milli və bəşəri dəyərləri) ilə yanaşı, pedaqoji ustalığının da (sinifdə pozitiv və konstruktiv mühit yaratmaq, fərqli təlim üsullarında istifadə etməklə sinifdə

fəal öyrənmənin təmin olunması və s.) diqqət mərkəzində saxlanılması vacib şərtdir. Bu zaman, tədris prosesində bərabərlik və humanizm bərqərar olar, nəticədə təhsilin keyfiyyətinin artırılması mümkün olar. Çünki, tədris prosesində müasir təlim üsullarını tətbiq etməklə müasir biliklər vermək, müasir düşüncəli vətəndaşlar yetişdirmək mümkündür. Bu gün müəllimin məqsədi sinifdə olan bütün şagirdlərə eyni təlim şəraiti yaratmaq, dərsdə onların fəallığını təmin etmək, səmərəli öyrənmələri üçün onlarda motivasiya yaratmaqdır. Ənənəvi yanaşmada olduğu kimi bu gün müəllim sadəcə olaraq bilikləri ötürən yox, eyni zamanda istiqamətləndirən, yolgöstərən, sərbəst öyrənməyə şərait yaradan bir şəxsdir.

Professor M.İ. İlyasov *"Müasir təhsil: ənənədən innovasiyaya"* adlı monoqrafiyasında müəllim aşağıda qeyd olunan bir sıra peşə bacarıqlarını və keyfiyyətləri önə çəkilir. Tədqiqatçının yanaşmasına görə, müəllim:

- təhsilin məzmununun şəxsiyyətyönümlüyünü təmin etmə;
- pedaqoji prosesdə təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alma və təlimi diferensiallaşdırılma;
- innovativ metodlardan və yeni təlim texnologiyalarından istifadə;
- kreativ düşüncə, təhsilin məqsəd və vəzifələrini dərk etmə;
- təlimin məzmununu dərindən mənimsəmə, pedaqoji prosesin tamlığına nail olma;
- özünütəhsil, özünütəkmilləşdirmə meylinin olması;
- öz nüfuzunun yüksək olmasına çalışma və buna xələl gətirə biləcək hər bir şeyə qarşı mübariz olma bacarıqlarına sahib olmalıdır [5, s. 206-212].

Müəllimin sadalanan peşə bacarıqları və keyfiyyətləri göstərir ki, müəllim təhsil siyasətini dərindən anlamalı, daim yenilikləri izləməli və öyrənməli, əldə etdiyi bilik və bacarıqları isə öz tədris fəaliyyətində yaradıcı və çevik şəkildə tətbiq etməlidir. Belə olan halda həm müəllimin peşəkarlığı, həm də təhsil prosesinin keyfiyyəti yüksələr.

Buradan da göründüyü kimi alimlər müəllim fəaliyyətini çoxşaxəli bir proses olmaqla, şagird şəxsiyyətinin formalaşmasında həlledici amil kimi dəyərləndirilir.

Elmi-metodik ədəbiyyatın təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, müəllim təhsil prosesinin əsas simasıdır. Onun pedaqoji fəaliyyəti və peşəkarlıq səviyyəsi təhsilin keyfiyyətinə təsir edən əsas amil kimi dəyərləndirilir. Müəllimin yeniliyə açıq olması və onu öz işində yaradıcılıqla tətbiq etməsi müasir cəmiyyətin ehtiyac və tələblərinə cavab verən şəxsiyyətin formalaşmasına geniş imkanlar açar. Təhsilin keyfiyyəti bilavasitə müəllimin yaradıcı potensialından, peşəkarlıq səviyyəsindən, yeni pedaqoji texnologiyaların tədris prosesinə tətbiqindən çox asılıdır. Ona görə də müəllimin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin keyfiyyət göstəriciləri müəyyənləşdirilərkən onun şəxsi keyfiyyətləri, pedaqoji bacarıqları, dərs dediyi şagirdlərin nailiyyətləri və müasir təlim texnologiyalarına yiyələnmə səviyyəsi, onları öz işində tətbiq etmə bacarığı nəzərə alınmalıdır.

NƏTİCƏLƏR

Beləliklə, aparılmış təhlillərin nəticəsi olaraq deyə bilərik ki, ümumtəhsil məktəblərində müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin davamlı inkişafı üçün aşağıdakı başlıca istiqamətlər həmişə diqqət mərkəzində saxlanılmalıdır:

1. Məktəbdə təlim-tərbiyə işinə rəhbərlik və pedaqoji monitorinq planlaşdırılarkən məktəbin direktoru əsas diqqətini müəllimin elmi-pedaqoji və metodik hazırlığının artırılmasına yönəltməlidir. Qeyd etmək lazımdır ki, təlim işində məktəbdaxili monitorinq təkcə onu nəzərdə tutmur ki, müəllimin dərsinin və işinin nöqsanları müəyyən edilsin, eyni zamanda həm onu aradan qaldırmaq üçün müəyyən göstərişlər verilməli, həm də rast gəlinə biləcək çətinliklərin, nöqsanların bir daha baş verməməsi üçün əvvəlcədən müvafiq tədbirlərin görülməsi ilə bağlı tövsiyələr verilməlidir.

2. Məktəbin başlıca məsələlərindən biri də şagirdlərin bilik və bacarıq səviyyəsinin, eyni zamanda fərdi keyfiyyətinin inkişafı olduğundan müəllim fəaliyyətinin səmərəlilik meyarı kimi bu cəhətin də nəzərə alınması vacibdir. Çünki, məktəbdə təlim-tərbiyə işinin səviyyəsi və pedaqoji fəaliyyətin səmərəsi birbaşa olaraq müəllimin peşəkarlıq dərəcəsindən, pedaqoji ustalığından və şagirdlərlə iş prosesində tətbiq etdiyi metodların səmərəliliyindən asılıdır.

3. Müəllimin təlim fəaliyyətinin keyfiyyətinin əsas göstəricilərindən biri kimi onun məktəb sənədlərini işləmə səviyyəsidir. Məktəbdə gündəlik dərs planlarının, sinif jurnalının və məktəbli kitabçasının mövcud təlimata uyğun işlənilməsi müəllimlərin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin sistemli, məsuliyyətli və şəffaf şəkildə həyata keçirildiyini göstərən əsas göstəricilərdən biri hesab olunur. Bu sənədlərin düzgün aparılması həm tədris prosesinin keyfiyyətinə, həm də müəllimin metodik səriştəsinə birbaşa təsir göstərir.

4. Müəllimin şəxsi təhsili, müasir dərsə verilən tələbləri nəzəri cəhətdən bilmələri, həmin biliklərin təlim prosesinə tətbiqi, dərs prosesində təlimin texniki vasitələrindən istifadə bacarığı və tədris vaxtından səmərəli istifadəsi təlimin keyfiyyətinin artırılmasında mühüm şərtdir. Bunların vaxtında həyata keçirilməsi pedaqoji kollektivin təlim-tərbiyə işinin təşkilində olan məktəbdaxili nöqsanların və bu nöqsanları doğuran səbəblərin vaxtında aşkara çıxarıb aradan qaldırılmasına imkan verir.

5. Təlimin səmərəli təşkili, mənimsəmənin keyfiyyəti müəllimin nitq və ünsiyyət bacarıqlarından da çox asılıdır. Müəllimin nitqi şagirdlər üçün aydın, səlis və rəvan olmalıdır. Müəllim qısa, məntiqi və ifadəli danışmağı bacarmalıdır. Müəllimin nitqi aydın, rabitəli olmasa o, şagirdləri biliklərin əsasları ilə silahlandıra bilməz. Nitq qabiliyyəti müəllimlik peşəsinin güzgüsüdür. Müəllimin fikirləri şagirdlərə aydın çatdıra bilməsi, onlarda təlimə maraq oyadır, şagirdlərin dərsi başa düşməsini asanlaşdırır.

6. Məktəbdə təlim prosesinin səmərəsi müəllimin bilik, bacarıq və pedaqoji səriştəsi ilə yanaşı, həm də onun şəxsiyyətinin müsbət mənəvi-əxlaqi keyfiyyətləri ilə də bilavasitə əlaqədardır. Müəllimin şəxsi mədəniyyəti onun biliyində, qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri və praktik hazırlığında özünü göstərir. Müəllim yüksək mədəniyyətə malik olmalıdır, oturuşunda, duruşunda, cəmiyyətdə davranışında, insanlarla ünsiyyətində nümunə olmalıdır. Müəllim pak, təmiz əxlaq sahibi olmalıdır.

7. Müəllimlərin yaradıcı və qabaqcıl təcrübəni öyrənmək məqsədilə elmi-praktik konfranslarda iştirakı, pedaqoji mətbuatda çıxışları, fənn proqramlarının, dərs vəsaitlərinin, dərsliklərin və metodik tövsiyələrin tərtibində iştirakı ümumtəhsil məktəblərində təlimin keyfiyyətinə müsbət təsir edir. Çünki, müəllimlər bu fəaliyyətlər vasitəsilə öz pedaqoji dünyagörüşlərini genişləndirir, yeni metod və texnologiyaları mənimsəyir və əldə etdikləri bilik və bacarıqları dərs prosesinə tətbiq etməklə təlimin səmərəliliyini artırırlar.

8. Ümumtəhsil məktəblərində müəllimin fəaliyyətinin güzgüsü dərs hesab edilir. Bu mənada ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin əsas formalarından biri kimi müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və qabaqcıl təcrübənin öyrənilməsi və yayılması istiqamətində mühüm vasitələrdən biri olan açıq dərslərin təşkilidir. Ona görə də dərsin düzgün təşkili zamanı təlimdə müsbət nəticələr əldə edilir. Bu baxımdan açıq dərslərin təşkili və keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Açıq dərslər təlimin keyfiyyətini, müəllimin pedaqoji fəaliyyətini və şagirdlərin biliklərə yiyələnmə səviyyəsini müəyyən etməkdə məktəbdaxili monitorinqin ən yaxşı forması sayılır. Açıq dərslərin təşkili müəllimin pedaqoji fəaliyyətində olan nöqsanları vaxtında aşkara çıxarıb aradan qaldırmağa kömək edir. Açıq dərslərin təşkilində və dinlənilməsində məktəbin direktoru, müavinləri, fənn metodbirləşmələrinin rəhbərləri və məktəbin qabaqcıl təcrübəli müəllimləri də iştirak etməlidir. Çünki açıq dərslərin keçirilməsində məqsəd yalnız dərsin metodik cəhətdən necə təşkil edildiyini və müəllimin konkret bir dərsi necə aparmasını müəyyən etməkdən ibarət deyil, həm də bütövlükdə dərs prosesində müəllimin pedaqoji səriştəsinin təcrübəli müəllimlər tərəfindən müşahidə edilməsidir. Təcrübəli müəllimlərin də açıq dərslərinin təşkilinin böyük əhəmiyyəti vardır. Belə halda təcrübəli müəllimlərin köməyi ilə gənc müəllimlərə praktik surətdə dərsə verilən tələblərə necə əməl etməyi öyrətmək olur. Açıq dərslər dinlənildikdən sonra müəllimlərə göstərişlər verməklə yanaşı, məktəbin təcrübəli müəllimlərinin iş təcrübəsini də nümunə göstərmək lazımdır. Açıq dərslərin bu cür planlaşdırılması bir növ həm özünənəzarətdir, həm də müəllimin bacarığı, dərs zamanı istifadə etdiyi tədris üsulları və şagirdlərin bilik səviyyəsi haqqında obyektiv fikir deməyə məktəb rəhbərliyinə imkan verir. Əlbəttə ki, dərs dinlənildikdən sonra müəllimin dərs fəaliyyəti fənn metodbirləşmələrində və yaxud direktoryanı müşavirədə müzakirəyə çıxarılmalıdır.

MÜZAKİRƏ

Ümumi təhsildə keyfiyyətə nail olmaq üçün ali təhsil müəssisələri tərəfindən ilkin pedaqoji kadr hazırlığı proqramlarında yuxarıda qeyd olunan başlıca istiqamətlərin diqqət mərkəzində saxlanılması vacib şərtdir. İstər sinfin idarə olunması, istər məktəb sənədlərinin aparılması, istərsə də müəllim-şagird-valideyn əməkdaşlığının səmərəli şəkildə qurulması üçün müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin davamlı inkişafı məktəb rəhbərlərinin və təhsili idarəedənlərin daim diqqət mərkəzində olmalıdır.

Professorlar Ə.Ə.Ağayev [2], Ə.Ə. Əlizadə [6], M.İ. İlyasov [7] tərəfindən aparılan tədqiqatlar göstərir ki, müəllimlərin pedaqoji bilik və ustalığı məktəbdə təlim-tərbiyə prosesinin keyfiyyətinə birbaşa təsir edir. Bizim nəticələrimiz bu yanaşmanı təsdiqləyir və göstərir ki, yalnız akademik biliklər deyil, həm də müəllimin milli-mənəvi və əxlaqi keyfiyyətləri şagirdlərin şəxsiyyət kimi inkişafında həlledici rol oynayır. Əvvəlki işlərdə daha çox müəllimlərin fənn biliklərinin, innovativ metodlardan istifadə və fərdi yanaşma bacarıqlarının əhəmiyyəti vurğulanırdı, lakin bizim tədqiqat müəllimlərin peşəkar bacarıqlarının artırılması məqsədilə görülməsi zəruri olan metodik və pedaqoji tədbirlər təklif edir. Bu fərq müasir texnologiyaların təhsilə daxil olması və şagirdlərin fərdi ehtiyaclarının artması ilə izah olunur. Beləliklə, işimiz həm mövcud bilikləri təsdiqləyir, həm də müəllim fəaliyyətinin çoxfunksiyalı aspektlərini vurğulayaraq bu sahəyə yeni töhfələr verir.

Fikrimizcə, müəllimlərin peşəkar inkişafı məqsədilə təşkil olunan ixtisasartırma kurslarının plan və proqramları tədqiq olunan problem baxımından ətraflı şəkildə təhlil olunmalı, geniş tədqiqata cəlb olunmalıdır. Çünki bu gün peşəkar inkişaf kursları ehtiyaclara görə müəyyən edilməlidir. Bu ehtiyaclarda bizim tədqiqat nəticəsində təklif etdiyimiz istiqamətlər üzrə aparılmış təhlillərə əsaslanmalıdır. Hər bir məktəb rəhbəri (direktor və direktor müavinləri) öz məktəbində çalışan müəllimlərin qeyd olunan aspektlərdən fəaliyyətlərini təhlil etməli, təhlillərin əsasında müəllimlərin peşəkar inkişaf ehtiyacları müəyyən olunmalıdır.

Ümumilikdə, tədqiqatın nəticələri göstərdi ki, müəllimlərin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin davamlı inkişafının təmin olunması şagirdlərin təlim nəticələrinin yaxşılaşdırılmasına və təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. İnzibati dəstək, tədris resurslarından sistemli və məqsədyönlü istifadə, eləcə də müəllimlərin peşəkar inkişaf proseslərinə aktiv cəlb olunması məktəblərdə təhsilin keyfiyyətinə bilavasitə təsir edən səmərəli öyrənmə mexanizmlərinin müəyyən olunmasına şərait yaradır. Bütün bu tapıntılar müəllimlərin peşəkar bacarıqlarının inkişaf etdirilməsinə sistemli yanaşmanın vacibliyini təsdiqləyir.

YEKUN NƏTİCƏ

Beləliklə, araşdırmalar göstərir ki, ümumtəhsil məktəblərində müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin davamlı inkişafı yuxarıda qeyd olunan başlıca istiqamətlərin ardıcıl və sistemli şəkildə həyata keçirilməsi üçün ölkədə ilkin müəllim hazırlığına diqqət artırılmalı, pedaqoji ixtisaslarda təhsil almaq istəyən abituriyentin şəxsi keyfiyyətləri, peşəyə maraq və motivasiyası qiymətləndirilməlidir. Pedaqoji fəaliyyətə maraq və həvəsin olması müəllimin təlim-tərbiyə işində yüksək müvəffəqiyyətlər əldə etməsinə zəmin yaradır. Müəllim peşəsi tələb edir ki, bu sahədə çalışan insanlar peşəsini ürəkdən sevsinlər, yüksək ixtisas hazırlığına malik olmaqla yanaşı, həm də uşaq psixologiyasını dərindən bilsinlər. Müəllim öz şagirdi üçün şəxsi nümunə olduğu kimi direktor da hər işində rəhbərlik etdiyi kollektivin üzvləri üçün şəxsi nümunə olmalıdır.

Ali təhsil müəssisələrində pedaqoji kadr hazırlığı sahəsində pedaqoji-psixoloji və fənlərin tədrisi metodikasının inteqrativ tədrisinə üstünlük verilməli, tədris proqramına pedaqoji-psixoloji, metodik aspektdə dövrün tələbinə uyğun fənlər daxil edilməlidir. Eyni zamanda müəllim hazırlığının əsas istiqamətlərindən biri kimi pedaqoji təcrübəyə xüsusi diqqət yetirilməli, bu sahədə beynəlxalq təcrübəyə, xüsusilə də Türkiyə təcrübəsinə istinad edilməlidir.

Problemin aktuallığı. Rəqəmsal texnologiyaların geniş vüsət aldığı müasir şəraitdə müəllimin rolu sadəcə bilik ötürücüsü olmaqdan çıxaraq, öyrənmə prosesinin əsas bələdçisinə və fasilitatoruna çevrilmişdir. Müəllimin peşəkar kompetensiyaları şagirdlərin potensialının üzə çıxarılmasında, onların tənqidi təfəkküründün inkişafında və bütövlükdə təhsilin keyfiyyətinin yüksəldilməsində həlledici strateji faktor kimi çıxış edir. Buna görə də müəllimin peşəkar inkişafı və metodik hazırlığı təhsil sisteminin rəqabətədavamlılığının təmin edilməsində prioritet istiqamətdir.

Problemin elmi yeniliyi. Tədqiqat nəticəsində pedaqoji kadr hazırlığı sahəsində elmi-pedaqoji ədəbiyyatda müxtəlif fikirlər ortaya çıxmışdır ki, bu da problemin araşdırılmasının konseptual yeniliyini şərtləndirir.

Problemin praktik əhəmiyyəti. Elmi məqalədə təklif olunan ideyalardan, müddəalardan və nəticələrdən pedaqoji kadr hazırlığı sahəsində metodik vasitələrin, monoqrafiyaların hazırlanmasında, müəllimlərin ixtisasartırma proqramlarının təkmilləşdirilməsində, habelə ümumi təhsil müəssisələrində təlimin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi prosesində istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/9779
2. Ağayev, Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik / Ə.Ə. Ağayev. – Bakı: Adiloğlu, –2006. – 138 s.
3. Cavadov, İ.A. Müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi // – Bakı: Təhsil, mədəniyyət incəsənət, –2005. № 1 (21), – s. 14-16.
4. Джавадов, И.А. (2025) Влияние использования инновационных технологий на управление качеством образования в общеобразовательных школах // – Краснодар: Успехи гуманитарных наук, № 3, – с. 164-169.
5. Cavadov, İ.A. Təhsilin keyfiyyəti: məktəbdaxili idarəetmənin yeni prioritetləri // – Bakı: ARTPİ-nin Elmi əsərləri, –2025. № 4, – s. 27-31. DOI: 10.69682/arti.2025.92(4).27-31
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. –Bakı: Pedaqogika, 2004. – 432 s.
7. İlyasov, M.İ. Müasir təhsil: ənənədən innovasiyaya / M.İ. İlyasov. – Bakı: Elm və təhsil, 2021. – 376 s.

Redaksiyaya daxil olub: 03.02.2026

UOT 378

Sevinc Leffk qızı Axundova
Bakı Slavyan Universiteti dosenti,
pedaqogika üzrə fəlsəfə
https://orcid.org/0000-0002-6419-0662
E-mail: sevinc.axundova.l@bsu-uni.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).15-21

ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ "PEDAQOGİKA" FƏNNİNİN TƏDRİSİNİN OPTİMALLAŞDIRILMASINDA SƏRİŞTƏƏSASLI YANAŞMA

Sevinj Leffk Akhundova
associate professor of
Baku Slavic University, doctor of filosophy in pedagogy

A COMPETENT APPROACH TO OPTIMIZING THE TEACHING OF PEDAGOGY IN HIGHER PEDAGOGICAL EDUCATIONAL INSTITUTIONS

Севиндж Леффк гызы Ахундова
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике

КОМПЕТЕНТНОСТНЫЙ ПОДХОД В ОПТИМИЗАЦИИ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТА «ПЕДАГОГИКА» В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Xülasə. Təhsildə optimallaşdırma proseslərin tədqiqi, bir çox alim-pedaqoqların məsələ ilə bağlı araşdırmaları, Azərbaycan Respublikasının hüquqi normativ sənədlərdə səriştəlilik ilə bağlı müddəalar məqalədə yer alıb. Səriştəli yanaşma təhsil prosesində ən optimal pedaqoji texnologiyalarının seçilməsi və tətbiqi təhsilalanların yüksək səviyyədə təlim nəticələrə nail olması, peşə bacarıqlarının formalaşdırılmasını şərtləndirir. Məqalədə aparılan təhlillər bu fikri təsdiq edir. Belə ki, "Pedaqogika" fənninin tədrisinin optimallaşdırılmasında interaktiv texnologiyaların rolu, müəllimin pedaqoji ustalığı və səriştəliliyi önəmli amil kimi məqalədə vurğulanır, problemli mühazirələrin təşkilinin əhəmiyyəti və tətbiqi xüsusiyyətləri araşdırılır. Səriştəli yanaşma pedaqogikanın optimallaşdırılmasının əsas vasitələrindən olaraq, səriştəəsaslı təhsilin həyata keçirilməsinin səmərəli metodik mexanizmi kimi məqalədə tədqiq edilir.

Açar sözlər: *optimallaşdırma, səriştəli yanaşma, pedaqoji texnologiyalar, interaktivlik, təhsilalan, təhsilverən, mühazirə, seminar, probleməsaslı təlim*

Abstract. The article includes the research of many scientists-pedagogues on the issue, and the provisions related to competency in the legal normative documents of the Republic of Azerbaijan. The selection and application of the most optimal pedagogical technologies in the educational process determines the achievement of high-level learning outcomes by students and the formation of professional skills. The analyses conducted in the article confirm this idea. Thus, the application of interactive technologies in the optimal teaching of the subject of "Pedagogy" is studied in the article as an important factor in the pedagogical mastery and competence of the teacher. The importance and practical features of organizing problem lectures as a way to optimize lecture sessions in teaching the subject of pedagogy are examined here. The competency-based approach, as one of the main means of optimizing pedagogy, is studied in the article as an effective methodological mechanism for implementing competency-based education.

Key words: *optimization, competent approach, pedagogical technology, interactivity, student, educator, lecture, seminar, problem-based learning*

Аннотация. В статье имеет место анализ исследований ученых-педагогов по данной теме, рассматриваются вопросы компетентности в нормативно-правовых документах Азербайджанской Республики. Выбор и применение наиболее оптимальных педагогических технологий в учебном

процессе определяет достижение студентами высоких результатов обучения и формирование профессиональных навыков. Проведенные в статье исследования подтверждают эту идею. Так, применение интерактивных технологий, педагогическое мастерство и компетентность преподавателя являются важными аспектами в преподавании предмета «Педагогика». Компетентностный подход, как одно из основных средств оптимизации педагогики, изучается в статье как эффективный методологический механизм реализации современного образования.

Ключевые слова: *оптимизация, компетентностный подход, педагогические технологии, интерактивность, обучаемый, обучающий, лекция, семинар, проблемное обучение*

Giriş. XXI əsrin ikinci onilliyindən başlayaraq dünya təhsil sistemlərində əsaslı dəyişikliklər gedir, ümumi və qlobal təhsil məkanın formalaşması və inkişafı üçün dünya dövlətləri tərəfindən əhəmiyyətli addımlar atılır. Eyni zamanda, sürətlə inkişaf edən texnologiyalar, əmək bazarının və cəmiyyətin dəyişən tələbləri, cəmiyyətdə inklüzivlik tendensiyalarının aktuallaşdırılması təhsil sistemlərinə təsir göstərir, sistemlərin sifarişçilərinın tələblərinə uyğunlaşdırılmasını şərtləndirir. Azərbaycanın Respublikasının təhsil sistemi də bu təsirlərdən kənarda deyil. Dünya təhsil sistemlərində gedən innovativ tendensiyalar izlənilərək milli təhsilin dövlətin, cəmiyyətin tələblərinə xidmət etməsi üzrə gələcəyəyönlü işlər görülür. Təhsilin məzmunun, təhsilverənlərin və tədris resurslarının təkmilləşdirilməsi, təhsil strategiyalarının, tədrisin forma və metodlarının inkişaf etdirilməsi təhsil işçilərin qarşısında yeni vəzifələr qoyur. Təhsilin ənənəvi bilikyönlü paradiqması səriştəyönümlü, təcrübəyönümlü təhsil paradiqması ilə əvəzlənməsi təhsil sisteminin inkişafında zəruri olan mərhələyə çevrilir. Bu işin həyata keçirilməsi üçün pedaqoji prosesdə gedən optimallaşdırılma tendensiyalarının gücləndirilməsi olduqca əhəmiyyətlidir.

Pedaqoji fəaliyyətdə, ümumilikdə, təhsildə, təlim-tərbiyə prosesində məqsədə nail olması üçün çoxsaylı variantlar mövcuddur. Konkret şəraitdə isə onların ən yaxşı variantın seçilməsi, onun pedaqoji sistemdə tətbiq edilməsi optimallaşdırmanın əsas vəzifələinrdəndir. Tətbiqi ilə yüksək nailiyyətlər əldə edilməsi mümkün olan variantlar müqayisə edilir, ən səmərəlisi seçilir, dəyərləndirir. Pedaqoji prosesdə optimallaşdırma müasir təhsilin şəxsiyyətyönlü, nəticəyönlü kimi prinsiplərin həyata keçirilməsi üçün vacibdir.

Optimallaşdırma prosesinə səriştəli yanaşma

Təhsildə optimallaşdırma prosesinin metodoloji bazası olduqca zəngindir. Tədqiqatımızın bu hissəsində bir neçə elmi yanaşmanın misal gətirilməsi mövzunun məzmununa fayda verər. Təhsildə *sistemli yanaşma* optimallaşdırmanın metodoloji əsasını təşkil edir və pedaqoji prosesin bütün komponentlərinə vahid qanunauyğun əlaqələri kontekstində baxılmasını tələb edir. Pedaqoji proses və hadisələrin öyrənilməsi, onların müəyyən, uyğun mənada diversifikasiyası sistemliyin qorunmasını aktual edir. Sistemli yanaşma obyektlərin vahid öyrənilməsinə, bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərin funksionallığının, qarşılığı və vahidliyi aspektində öyrənmənin təşkilidir. İ.P. Podlasıya görə, pedaqoji sistem – bir biri ilə qarşılıqlı əlaqədə və asılılıqda olan struktur komponentlərin səliqəli çoxluğudur [10, s. 576]. Optimallaşdırmada pedaqoji prosesin bütün komponentləri, qanunauyğunluqları vəhdətdə götürülür. Optimallaşdırma mövcud vəziyyətə, şəraitə uyğunlaşdırmağı nəzərdə tutsa da, yeni şərait yaradılmasını və fəaliyyətin ona tabe edilməsini tələb edir. Ali məktəblərdə tədris-tərbiyə prosesinin optimallaşdırma fəaliyyətində sistemli yanaşma pedaqoji fəaliyyətin bütün struktur komponentlərinin (məqsəd, metod, vasitə, obyekt və hadisə) sistemli şəkildə, ardıcıllıqla təhlilini nəzərdə tutur.

Təhsildə optimallaşdırmanın metodoloji əsasını səriştəli yanaşma təşkil edir. Səriştəlilik terminini ilk dəfə 1950-1960-ci illərdə Noam Chomsky “linguistic competence” – “dil səriştəliliyi” termini kimi təqdim etmişdir. Fərdin dil qabiliyyəti ilə bağlı istifadə olunan bu termin sonradan ümumu psixoloji və pedaqoji kontekstdə tədqiqatlarda istifadə olunurdu. 1973-cü ildə David McClellandın yazdığı “Testing for competence rather than for intelligence” adlı məqaləsində səriştəliliyi xüsusi bir mühüm statusa malik kateqoriya kimi təqdim etmişdir, onun praktiki, psixoloji və pedaqoji aspektləri baxımından əhəmiyyətli kateqoriya kimi təhlil etmişdir. 1984-cü ildə Djon Raven “Müasir cəmiyyətdə səriştəlilik” əsərində səriştəliliyin dərin psixoloji təbiətinin izahını vermişdir, sosial kontekstini təhlil etmişdir. Psixoloqa görə

"Eductive ability" – məna çıxarma qabiliyyətini səriştəlilik konstruktun əsası kimi dəyərləndirirdi [11, s. 1-20]. Mövzu ilə bağlı araşdırmalar davamlı şəkildə tədqiqatçının digər əsərlərində tədqiq edilmişdir. Səriştəliliyin təhsildə inkişafı və qiymətləndirilməsi məsələlərini təhlil etmişdir. Müəllif göstərir ki, təhsil sistemi səriştəliliyi inkişaf etdirmək üçün bilikvermə ilə məhdudlaşmamalı, təhsil insanlarda situasiyadan məna çıxarma bacarığını motivasiya və sosial kontekstlə əlaqəli qiymətləndirmələr üsullarını tətbiq etməyi öyrətməlidir [12]. Təhsildə kompetensiyalı yanaşma dedikdə, prof. P.B. Əliyev qeyd edir ki, birinci növbədə, fərdin, cəmiyyətin istəklərini nəzərə almaqla insanın tanış olmadığı situasiyada problemləri həll etməsi üçün koqnitiv səriştələr nəzərdə tutulur [7].

Səriştə əsaslı yanaşma təhsilimizin normativ hüquqi bazasında əks olunur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın birinci istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılmasıdır. Azərbaycan Respublikasının "Ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsi Sənədi"nə əsasən, kompetensiya (səriştə) – şəxsin hər hansı bir işi düzgün icraetmə bacarığı, müvafiq bilik, bacarıq və yanaşmadan istifadə edərək, fəaliyyəti peşəkar mühitdə tələb olunan standartlarına uyğun icraetmə bacarığıdır [1]. Hazırda Azərbaycanda islahatın aktiv fazasını yaşayan təhsil sistemi, eyni zamanda təhsilin bütün strukturları səriştəli yanaşmadan kənarda qala bilməz. Təhsil sisteminin strukturunun yeniləşdirilməsi və məzmununun modernləşdirilməsi onun son məqsədinin hansı səviyyədə dərk olunmasından asılıdır. Təhsilin məzmununun modernləşdirilməsi onun humanistləşdirilməsi və bütöv bir varlıq kimi qəbul edilməsi ilə sıx bağlıdır. "Səriştəlilik" geniş bilik, bacarıq və vərdişlər sisteminin formalaşmasında şəxsi, institusional və ictimai inkişafın əsas amili kimi tədris-təlim prosesinin keyfiyyətinin artmasında, səmərəliliyinin yüksəldilməsində, optimallaşdırılmasında əsas istiqamətlərdən biri hesab olunur.

Səriştəli yanaşma mexanizmləri

Səriştəli yanaşma təhsil prosesində ən optimal pedaqoji texnologiyaların seçilməsi və tətbiqi təhsilalanların yüksək səviyyədə təlim nəticələrə nail olması, peşə bacarıqların formalaşmasını şərtləndirir. Pedaqogika fənninin optimal tədrisində pedaqoji texnologiyaların rolu olduqca böyükdür. Pedaqoji prosesdə texnologiya nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verir. Pedaqoji texnologiyalar elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyətini təmin edən vasitələrdir. Müasir pedaqoji texnologiyalar – pedaqoji prosesin tərkib hissəsi olub, təhsilin səmərəli qurulması baxımından, fəaliyyətin nəticəyönlü olması üçün mühüm əhəmiyyətə malikdir.

Hazırda dünya təcrübəsində bir çox pedaqoji texnologiyalar geniş tətbiq edilir. Məcid İsmixanova görə " təlim texnologiyası – qarşıya qoyulmuş məqsəd baxımından təlimin təşkili və idarə edilməsinə yönəlmiş əməliyyatlar sistemi başa düşülür. Bu zaman təlimin bütün komponentləri – məqsəddən nəticəyə və onun qiymətləndirilməsinə qədər bir sistem halında götürülür" [8, s.118]. Müasir pedaqoji ədəbiyyatda pedaqoji texnologiyalarının bir çox təsnifatları mövcuddur: ənənəvi, interaktiv, proqramlaşdırılmış, problemli təlim, ənənəvi, distant və s. Müasir təhsil fəal və interaktiv təlim formalarının geniş tətbiqini nəzərdə tutur. İnteraktiv texnologiyaların tətbiqi pedaqogika fənninin optimal şəkildə tədrisi üçün böyük əhəmiyyət kəsb edir. Britaniyalı tədqiqatçı Rupert Vegerifin fikrincə, interaktivlik sadəcə texnologiyaların istifadəsi ilə məhdudlaşmamalı, əksinə, sinifdəki pedaqoji münasibətlərin keyfiyyəti, açıq dialoq, müzakirə və fikir mübadiləsində qurulmalıdır [15,s.21].

İnteraktivliyin üstün cəhətləri ondadır ki, təhsilalanların hamısı öyrənmə prosesinə cəlb olunaraq, düşünmək, rəy söyləmək, ümumi (qrup) müzakirələrdə iştirak və nəticə cıxarmaq kimi imkanlar əldə edirlər. Tələbələrin öyrənmə prosesində qarşılıqlı əlaqədə olması tapşırıqların yerinə yetirilməsində, problemlərin həlli yolunda hər kəsin fərdi töhfəsinə imkan yaranır. İnteraktivliyin yaradılması fikir, ideyaların, fəaliyyət tərzlərinin mübadiləsini aktuallaşdırır. Bu əlaqənin üstünlüyü ondadır ki, müzakirələr və fikir mübadiləsi xoşməramlılıq, dəstək göstərmək şəraitində keçir, təhsilalanların idrak fəaliyyəti aktivləşir, onlarda digərlərini dinləmək və kooperasiyalı şəkildə işləmək, əməkdaşlıq etmək bacarıqları inkişaf edir. İnteraktiv iş formaları üçün subyektlərin qarşılıqlı aktivliyinin yük-

sək səviyyədə olması, onların emosional, mənəvi birliyinin nümayiş etdirilməsi xarakterikdir.

Tədris prosesində interaktiv texnologiyaların tətbiqində müəllimin peşəkarlığı və səriştəliliyi xüsusi əhəmiyyət daşıyır. Dərslərdə qoyulan məqsədlərə və vəzifələrə nail olması üçün, optimallaşdırmanı həyata keçirmək üçün müəllimin metodiki ustalığı xüsusi rol oynayır. Bir sıra pedaqoji ədəbiyyatların təhlili göstərdi ki, müəllimin metodiki ustalığı tədqiqatçılar tərəfindən aşağıdakı kimi təsvir olunur:

- bilik və praktik bacarıqların məcmusu;
- müəllimlərin yüksək bilik və bacarıqlarının olması və onlardan tədris prosesində yaradıcı şəkildə istifadə etməsi;
- pedaqoji-psixoloji prosesə vahid yanaşmanın olması;
- didaktik məqsədlərin yerinə yetirilməsi.

Öyrənmə prosesi özlüyündə müəyyən kəşflərin əldə olunması ilə səciyyələnərək, müəyyən müsbət emosional hallar ilə, ruh yüksəkliyi ilə müşayiət olunur. Peşəkar müəllim məşğələlər zamanı müsbət emosional psixoloji mühitin yaradılmasına çalışmalıdır, təhsil prosesinin bütün iştirakçılarının mənəvi – emosional sıçrayışına nail olmalıdır. Bunun üçün mövzu ilə əlaqədar maraqlı fakt və informasiyaların, qarşılıqlı fəaliyyətə əsaslanan öyrənmə forma və üsulların seçilməsi, təhsilalanların təlim təşəbbüslərinin dəstəkləməsi önəmlidir.

Mühazirə və seminar dərslərində interaktivliyin təmin olması

Mühazirə məşğələlərində interaktivliyi təmin etmək üçün elə iş formalarından istifadə etmək lazımdır ki, tələbələrin tədris materialının şərhində fəal iştirakı təmin olunsun, bu növ mühazirələr monoloji xarakterli yox dialoq üslubunda, problemli sualların qoyulması ilə səciyyələnir. İnteraktiv şəklində keçirilən mühazirələrin əsas məqsədi – təhsilalanların idrak fəaliyyətinin fəallaşdırılmasıdır. Harvard Universitetinin professoru Eric Mazur mühazirənin passiv formatından kənar duraraq fəal və interaktiv öyrənmə ilə bağlı 10 il ərzində təcrübə keçirmişdir. O, Peer İnstruction metod vasitəsilə dərslərində təhsilalanların konseptual anlama səviyyəsini artırmaq məqsədini hədəfləyərək, tələbələrin fəallıq, diqqət, anlayış səviyyələrini mühazirə zamanı yüksəlməsinə nail olmuşdur. Müəllif metodun əsas mərhələlərini belə müəyyən etmişdir: qısa mühazirə, konseptual sual ("Concept Test"), tələbələrin düşünməsi və cavabı, qrupda müzakirə ("Peer discussion"), təhsilalanların təkrar cavabı, müəllimin izahı və təhlil [6, s. 970-977]. Alimin Peer İnstruction metodun əsas mərhələsindən biri konseptual sualın qoyulması mərhələsi özündə problemin formalaşdırılması ideyasını ehtiva edir. Bu hal yanaşmanı və o cümlədən mühazirəni problemli mühazirə növünə yaxınlaşdırır.

Probleməsaslı təlimin tədris prosesinə inteqrasiyası amerikalı alim Hovard S. Barrousun adı ilə bağlıdır. Alim düşünmə prosesinin stimullaşdırmasını təlimin problemi əhatə etməsində görürdü. John Biggs və Catherine Tang "Constructive Alignment" – Konstruktiv Uyğunlaşdırma nəzəriyyəsinin müəllifləridir. Bu konseptin əsas ideyası müasir təhsildə səriştəyə əsaslanan və məqsədyönlü öyrənmə modellərin tətbiqi ideyası durur. John Biggs konstruktiv uyğunlaşmanı belə izah edir: "Yaxşı tədrisin açarı tələbələri onların nəzərdə tutulan təlim nəticələrinə nail olmaları ilə nəticələnəcək öyrənmə fəaliyyətlərinə cəlb etməkdir" [3, s. 95]. Nəzəriyyənin əsas 4 elementlərini müəlliflər aşağıdakı kimi göstərirlər:

- səriştəəsaslı təlim məqsədləri;
- fəal öyrənmə fəaliyyətləri;
- ölçəbilən qiymətləndirmə üsulları;
- yuxarıdakı üç elementin uyğunlaşdırılması.

Pedaqoji ədəbiyyatlarda mühazirələrin bir çox növləri göstərilir: problemli mühazirələr, leksiya- məsləhət, mühazirə-konfrans, mühazirə-diskussiya, binar mühazirələr, leksiya-vizuallaşdırma və sair. Mühazirələrin strukturu ümumilikdə üç əsas hissələr: giriş, əsas və yekundan ibarət olunduğu məlumdur. Lakin interaktiv mühazirələrin hər növünün özünəməxsus xüsusi bir quruluşu ilə səciyyələnir.

Professor Fərrux Rüstəmova görə probleməsaslı mühazirələr müvafiq tədris proqramının ən aktual və daha mürəkkəb məsələlərinə həsr edilir, yeni informasiyalar tələbələrə hazır bilik kimi yox problem şəklində təqdim edilir [14, s. 321]. Mühazirəni mövzuya dair suallar, tapşırıqlar və situasiyalarının köməyi ilə quranda təhsilalanları dialoqa və əməkdaşlığa yönəltməkdir. Aşağıda problemli mühazirənin mühüm elementlərinə diqqət yetirək:

Giriş	Auditoriyanın diqqətinin cəlb edilməsi, motivasiyanın yaradılması	Müəyyən maraqlı bir faktın danışması, maraqlı və gözlənilməz replika, yumoristik şərh
Problemin Qoyuluşu	Mövzunun aktuallığının göstərilməsi, ziddiyyətlərin təhlil edilməsi, problemin formalaşdırılması	Auditoriyanın maraqlarının, ehtiyaclarının nəzərə alınması, faktlara, sənədlərə istinad olunması, təsdiq olunan mövqelərin səsləndirilməsi, problemə dair səhv mövqelərin təhlili
Problemin strukturlaşdırılması, alt problemlərə, məsələlərə bölünməsi	Problemin dəqiq müəyyən edilməsi, formalaşdırılması, əsas və alt vəzifələrin müəyyən edilməsi	Problemin həlli məntiqinin əsaslandırılması, problemin, ideyaların, fərziyyələrin həlli sxeminin müəyyən edilməsi, nəticənin proqnozlaşdırılması
Müəllimin yanaşması	Təhlil əsasında müəllim yanaşmasının sərgilənməsi	Təsdiqedici mülahizələr, arqumentlər, müqayisə, təhlilin aparılması
Ümumiləşdirmə, yekun	Auditoriyanın diqqətini əsas fikirə vurğulanması, yekunlaşdırılması	Əsas fikrin, ideyanın seçimi, əsas arqumentə müraciət olunması. Hadisələrin inkişaf perspektivinin göstərilməsi

Probleməsaslı mühazirələrin təşkilində müəllim hazır tezislərdən kənar duraraq, mövzunun ayrı-ayrı müddəalarını, faktları təhlil edir, onlar arasında əlaqə yaradır, bir birindən asılılığını göstərir, elmi fərziyyələri meydana gətirir, onları izah edir. Təhsilverənləri nəticələrin formalaşdırılmasına yönəldərək, müstəqil halda onlarla nəticələrin əldə olunmasına nail olur, kəşf etməyin sevincini yaşadır. Mühazirələrdə problemli sualların qoyulması, problemli situasiyaların yaradılması tələbələrin idrak fəaliyyətini kəskin surətdə aktivləşdirər, dərs prosesində əks əlaqələrin güclənməsinə xidmət edər, dərsin produktivliyini artırar, mövzunun mənimsəmə əmsalını yüksəldər.

Ali təhsil müəssisələrində tədrisin geniş yayılmış digər təşkili forması - seminarlardı. Seminar dərsləri təhsilalanların informasiya, məlumatların əldə edilməsi üzrə bacarıqlarını inkişaf etdirir, tələbələri müstəqil işləmək, yaradıcı olmağa öyrədir, qruplarla iş formasını təbliğ edir.

Pedaqoji ədəbiyyatlarda seminar dərslərinin interaktiv formaları olduqca müxtəlifdir: seminar- konfrans, seminar- disput, seminar- debat və sair. Seminar dərslərin təşkilində kiçik qruplarla iş texnologiyası olduqca effektivdir. Belə seminarların əsas məqsədi qrup halında işləmək, müzakirə etmək və kooperativ şəkildə qərarlar vermək bacarıqların formalaşdırılması və inkişafıdır. Qruplarla iş zamanı sinergetik effektin yaranması mühüm məsələlərdən olaraq, ideyaların istehsalın nəticəsidir. Seminar məşğələsinin formasının seçimi öyrənilən mövzudan, onun məzmunundan, araşdırmaya tövsiyə olunan mənbələrdən, tələbə kontingentin hazırlıq səviyyəsindən, işgüzarlığı, intizamından və əvvəlki məşğələlərdə metod və texnologiyalardan istifadə təcrübəsindən asılıdır

Seminar və praktik məşğələlərin təşkilində interaktivliyi təmin edən üsullardan biri keys texnologiyası və ya konkret situasiyaların təhlili üsuludur. Metodun əsas mahiyyəti - əməli öyrətmədir, konkret praktik situasiyaların təhlilini apararkən problemlərin həllini tapmaqdır. Üsul həm praktik, həm nəzəri cəhətdən zəngin və çoxsahəli yanaşmalara əsaslanır. Amerikalı alim Robert K. Yin keys metodu yalnız kəşfiyyat işi ilə məhdudlaşan üsul kimi yox hərtərəfli tədqiqat strategiyası kimi qiymətləndirir [13]. Alimin fikrincə, keys metodunun tətbiqində necə, niyə tipli suallardan və müxtəlif mənbələrdən çox sayda sübütedici material istifadə olunmalıdır.

Bu metodun köməyi ilə bir çox bacarıqların formalaşması hədəflənir:

- problemlərin müəyyən edilməsi və həlli;
- informasiyalarla işləmək, detallara diqqət yetirmək;
- çox mənbəli sübutlarla işləmək;
- informasiyaları təhlil etmək, sintez etmək, problemin həlli variantlarını işləmək və seçim etmək, arqumentləşdirmək, altrenativ həlli yolları-nı dəyərləndirmək;
- digərlərin sözünü dinləmək, fərqli mövqedə olanlara hörmət nümayiş etdirmək, qərarları qəbul etmək.

Sərişteli təhsilverən məşğələlərdə interaktivliyin təmin olunması üçün oyun xarakterli texnologiyalardan geniş istifadə etməlidir. Dünya təcrübəsində və milli təhsilimizdə qeyri-standart təlim formaları bərqərar olunmaqdadır. Məsələn: duel, turnir, treninq, estafet-yarış, kou-

çinq, məhkəmələr və sair. Oyun texnologiyalardan geniş yayılmış məşğələlərdən rollu oyunlar, işgüzar təlim oyunların adlarını nümunə kimi vermək olar.

Aşağıdakı cədvəldə Bakı Slavyan Universitetinin İbtidai sinif müəllimliyi ixtisasının I tədris ili təhsilalanların bir neçə fənni üzrə aralıq imtahanın nəticələri göstərilib. Nəticələr bir akademik qrupda ənənəvi və qeyri-ənənəvi strukturda olan dərslərdə təhsilalanların nailiyyətləridir. Burada Pedaqogika və Azərbaycan tarixi fənlərinin nəticələri təqdim olunur.

Cədvəl 1. İnteraktiv və ənənəvi tədrisin nəticələri

	Pedaqogika fənni (interaktiv öyrənmə)	Azərbaycan tarixi fənni
A -alanlar	9	2
B -alanlar	11	5
C- alanlar	6	10
D- alanlar	1	6
E- alanlar	1	4
F- alanlar	0	1

Cədvəldən göründüyü kimi, qeyri-ənənəvi üsulla interaktivliyi təmin etməklə, keçirilən məşğələlərdə təhsilalanların yekun nəticələri yüksəlir. Pedaqogika fənni üzrə aralıq qiymətləndirmənin keyfiyyət faizi 93 təşkil edir, Azərbaycan tarixi fənni üzrə keyfiyyət faizi 64-dür. Bu nəticə onu göstərir ki interaktiv öyrənmə, Pedaqogika fənnində aralıq qiymətləndirmədə təhsilalanların böyük əksəriyyəti yüksək və orta nəticələr sərgiləyib. Bu, interaktiv metodların fənnin tədrisində daha səmərəli, daha səmərəli tətbiq olduğunun göstəricisidir.

İnteraktiv öyrənmə səriştəəsaslı yanaşmanın əsas vasitələrdəndir, səriştəəsaslı təhsilin həyata keçirilməsinin səmərəli metodik mexanizmdir, öyrənmənin keyfiyyətini yüksəldən, şəxsə və nəticəyə yönəldən, öyrənməni maksimum dərəcədə optimallaşdıran mühüm didaktik amildir. Eyni zamanda yanaşma təhsilalanlarda kommunikativ səriştələri, informasiyanın əldə olunması, müzakirə, diskussiya aparmaq, tənqidi və yaradıcı düşünmə, refleksiya etmək bacarıqları formalaşdırır və inkişaf etdirir.

Problemin aktuallığı. Çağdaş məktəb üçün minimum vaxt və güc sərf etməklə maksimum nəticələrin əldə edilməsi, təhsilverənlər ilə tədrisin dizaynının effektiv qurulması, qısa zaman ölçüsündə təhsilalanların təlim nəticələrinə yiyələnməsi kimi məsələlər tədrisin dominant məsələsi olaraq qalmaqdadır. “Pedaqogika” fənninin tədrisinin optimallaşdırılmasında təhsilverənlərin səriştələlərinin yüksək səviyyədə olması, öyrənmə prosesinin təlim nəticələrinə səmərəli nailiyyəti əsas şərtlərdəndir.

Problemin elmi yeniliyi. Pedaqojiyönlü ali təhsil müəssisələrində “Pedaqogika” fənninin optimal tədrisinin əsas mexanizmləri müəyyənləşdirilmiş, həyata keçirilməsi yolları tədqiqatda yer almışdır.

Proqramın praktik əhəmiyyəti. Tədqiqat “Pedaqogika” fənninin tədrisinin təkmilləşdirilməsinə, öyrənmə prosesində təhsilalanların təlim nəticələrinə yüksək səviyyədə yiyələnməsinə xidmət etmək, auditoriyada gedən proseslərin daha tələbəyönlü qurulmasıdır.

Nəticə. Beləliklə, təhsil prosesində səriştəli yanaşma təhsilverənlərin yüksək metodiki hazırlığına malik olmasını ehtiva edir. Bununla belə, problemyönümlü, interaktiv öyrənmənin təşkili təhsilin keyfiyyətinin artmasına yönəldilir, tələbə mərkəzli tədrisin qurulmasını şərtləndirir, öyrənmə prosesini daha funksional və tətbiqyönlü edir, müasir təhsil sisteminin tələblərinə cavab verən peşəkar mütəxəssisləri formalaşdırır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strateqiya // - Bakı şəhəri, 19 yanvar 2015. https://e-qanun.az/framework/29145
2. Biggs. J., Tang, C. Teaching for quality learning at university (4th ed.). McGraw-Hill Education. (2011).
3. Comeniuus, J.A. The Great Didactic of John Amos Comenius (M.W. Keatinge,Trans.) Russell & Russell, reprint, – 2005, – 485s.

4. Crouch, C. H., & Mazur, E. (2001). Peer Instruction: ten years of experience and results. American Journal of Physics, 69(9), 970 – 977. https://doi.org/10.1119/1.1374249
5. Əliyev, P.B. Təhsilalanlarda kompetensiyaların strukturlaşdırılmasına və qiymətləndirilməsinə verilən tələblər / Azərbaycan məktəbi https://as-journal.edu.az
6. İsmixanov, M. Pedaqogikanın əsasları / M. İsmixanov. – 2013. –303s.
7. Paşayev, Ə. Pedaqogika: Dərs vəsaiti / Ə. Paşayev, F. Rüstəmov. –Bakı: Elm və təhsil, –2010, –464 s.
8. Подласый И., П., Педагогика в 2-х томах, Москва, –2013, –704 с.
9. Raven, J., &Stephenson,(Eds.). Competence in the Learning Societe. New York: Peter Lang. (2001).
10. Yin, Robert K. Case Study Research Design and Methods (4th ed.). Thousand Oaks, CA: Sage Publications. (2009).
11. Fərrux Rüstəmov, Tamilla Dadaşova, Ali məktəb pedaqogikası, –2007. –568s.
12. Wegerif, R. Dialogic, Education and Texnology: Expanding the Spase of Learning. Springer. New York (2007), İSBN: 978-0-387-71141-3

Redaksiyaya daxil olub: 12.01.2026.

UOT 336.7

Аиша Фаиг гызы Аллахвердиева
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики
https://orcid.org/0009-0000-9796-6239
E-mail: allahverdiyeva1814@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).22-25

МЕХАНИЗМЫ ОПТИМИЗАЦИИ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМИ РЕСУРСАМИ В ПЕДАГОГИЧЕСКИХ УНИВЕРСИТЕТАХ АЗЕРБАЙДЖАНА

Aişə Faiq qızı Allahverdiyeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı

AZƏRBAYCANIN PEDAQOJİ UNİVERSİTETLƏRİNDƏ MALİYYƏ RESURSLARININ İDARƏ OLUNMASININ OPTİMALLAŞDIRILMASI MEXANİZMLƏRİ

Aisha Faiq Allahverdiyeva
doctorial student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

MECHANISMS FOR OPTIMIZING FINANCIAL RESOURCE MANAGEMENT IN PEDAGOGICAL UNIVERSITIES OF AZERBAIJAN

Аннотация. В статье исследуется значение оптимизации управления финансовыми ресурсами в устойчивом развитии педагогических вузов Азербайджана. Анализируются современные источники финансирования, существующие проблемы и направления совершенствования финансового менеджмента в высших учебных заведениях педагогического профиля. Особое внимание уделяется вопросам рационального использования бюджетных средств, расширения внебюджетных источников, внедрения цифровых технологий в систему финансового учета и отчетности. Сделан вывод о том, что оптимизация управления финансовыми ресурсами является ключевым условием устойчивого развития педагогических вузов, повышения качества образовательных программ и укрепления международной конкурентоспособности системы высшего педагогического образования.
Ключевые слова: *финансовые ресурсы, оптимизация, педагогические вузы, финансирование образования, финансовый менеджмент*

Xülasə. Məqalədə Azərbaycanda pedaqoji ali təhsil müəssisələrinin inkişafında maliyyə resurslarının idarə olunmasının optimallaşdırılmasının rolu araşdırılır. Müasir maliyyələşmə mənbələri, mövcud problemlər və maliyyə menecmentinin təkmilləşdirilməsi istiqamətləri təhlil edilir. Xüsusi diqqət büdcə vəsaitlərindən səmərəli istifadə, büdcədənkənar mənbələrin genişləndirilməsi, maliyyə uçotu və hesabat sistemində rəqəmsal texnologiyaların tətbiqi məsələlərinə yönəldilmişdir. Nəticədə göstərilir ki, maliyyə resurslarının idarə olunmasının optimallaşdırılması pedaqoji ali məktəblərin davamlı inkişafının, təhsil proqramlarının keyfiyyətinin artırılmasının və Azərbaycanın ali pedaqoji təhsil sisteminin beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsinin əsas şərtidir.
Açar sözlər: *maliyyə resursları, optimallaşdırma, pedaqoji ali təhsil müəssisələri, təhsilin maliyyələşdirilməsi, maliyyə menecmenti*

Abstract. The article examines the importance of optimizing the management of financial resources in the sustainable development of pedagogical universities in Azerbaijan. Modern sources of financing, existing problems, and directions for improving financial management in higher education institutions of a pedagogical profile are analyzed. Special attention is paid to the rational use of budget funds, the expansion of extrabudgetary sources, and the introduction of digital technologies into the financial accounting and

reporting system. It is concluded that the optimization of financial resource management is a key condition for the sustainable development of pedagogical universities, the improvement of educational programs, and the strengthening of the international competitiveness of the higher pedagogical education system.

Keywords: *financial resources, optimization, pedagogical universities, education financing, financial management*

Введение. Современная система образования Азербайджана переживает этап активных преобразований, направленных на модернизацию содержания учебных программ, повышение качества подготовки педагогов и интеграцию в международное образовательное пространство. Особая роль в этом процессе принадлежит педагогическим вузам, так как именно они готовят будущих учителей, от профессионализма которых зависит уровень школьного образования и, следовательно, развитие общества в целом.

Однако успешное функционирование вузов невозможно без устойчивой финансовой базы. В условиях ограниченности государственных ресурсов перед системой образования стоит задача более рационального использования имеющихся средств. С каждым годом возрастает значимость оптимизации управления финансовыми ресурсами, предполагающей внедрение стратегического подхода, развитие много источникового финансирования и применение современных технологий финансового учета.

Современная эпоха характеризуется стремительным развитием технологий, глобализацией и усилением конкуренции в образовательной сфере. В этих условиях образование становится не только социальным институтом, обеспечивающим подготовку специалистов, но и важнейшим стратегическим ресурсом развития государства. Экономическая и социальная устойчивость страны во многом зависят от того, насколько эффективно функционирует система образования, и особенно высшая школа, которая формирует кадровый потенциал для всех отраслей экономики (UNESCO, 2021).

Особое значение в этом контексте имеют педагогические вузы, так как именно они подготавливают будущих учителей. Качество школьного образования напрямую зависит от уровня профессиональной подготовки педагогических кадров. В свою очередь, возможности вузов реализовывать образовательные и научные программы определяются их финансовыми ресурсами и эффективностью их использования.

В Азербайджане на образование ежегодно выделяется значительная часть государственного бюджета. По данным Государственного комитета статистики, в 2023 году расходы на образование составили около 11,2% бюджета страны и приблизительно 4,5% ВВП (Stat.Az, 2024). Для сравнения, средний показатель по странам ОЭСР составляет около 5-6% ВВП (OECD, 2022). Несмотря на сопоставимые масштабы, в Азербайджане сохраняется необходимость более рационального использования средств, что связано с ограниченностью бюджета, ростом административных расходов и потребностью в модернизации инфраструктуры.

Ситуация осложняется тем, что педагогические университеты традиционно обладают меньшим потенциалом для прив-ле-чения внебюджетных ресурсов, чем технические или экономические вузы. Это делает задачу оптимизации управления финансами особенно актуальной. Речь идет не только о необходимости строгого контроля за расходами, но и о создании стратегических механизмов планирования, которые позволят прогнозировать развитие вузов в долгосрочной перспективе.

Методология.

Методологическая основа исследования опирается на междисциплинарный подход, сочетающий методы педагогики, экономики и управления. В работе использован **системный подход**, позволяющий рассматривать финансовые ресурсы педагогических вузов как комплекс взаимосвязанных элементов, обеспечивающих устойчивое функционирование и развитие образовательной организации.

Применялся **сравнительный метод**, с помощью которого проанализированы модели финансирования вузов в Азербайджане и странах ОЭСР. Данные международных организаций (OECD, 2022; UNESCO, 2021) сопоставлены с национальной статистикой (Stat.Az,

2024), что позволило выявить сильные и слабые стороны национальной практики.

Документальный анализ охватывал нормативно-правовую базу: Закон Азербайджанской Республики «Об образовании» (2009), Постановления Кабинета Министров (2020), а также стратегические документы, касающиеся финансирования и управления образованием.

В качестве **эмпирической базы** использовались статистические данные о расходах на образование, структуре бюджетных ассигнований, доле внебюджетных источников. Эти сведения были сопоставлены с международными данными, что позволило выявить закономерности и сформулировать выводы.

Методология включает также **аналитико-прогностический компонент**: на основе анализа текущих тенденций и международных практик предложены возможные сценарии оптимизации финансового менеджмента в педагогических вузах.

Ограничением исследования является то, что оно не включает результаты социологических опросов профессорско-преподавательского состава или руководителей вузов. Однако использование документальных, статистических и международных данных обеспечивает достаточную глубину анализа.

Теоретические основы управления финансовыми ресурсами

Финансовые ресурсы образовательных учреждений представляют собой совокупность денежных средств, необходимых для реализации основных задач вуза: подготовки специалистов, проведения научных исследований, модернизации инфраструктуры и обеспечения социальной поддержки студентов и преподавателей. Для педагогических вузов эта задача имеет особое значение, так как качественное образование будущих учителей требует значительных вложений как в учебный процесс, так и в научно-методическое обеспечение.

Оптимизация управления финансовыми ресурсами предполагает комплекс мероприятий, направленных на повышение эффективности их использования. Это не только строгий учет расходов и доходов, но и разработка долгосрочной финансовой стратегии, позволяющей заранее прогнозировать потребности в ресурсах и определять приоритетные направления инвестирования. В современных условиях особое значение приобретает прозрачность финансовой деятельности, которая обеспечивает доверие со стороны государства, партнеров и общества.

Современные проблемы финансирования педагогических вузов в Азербайджане

Несмотря на меры государственной поддержки, педагогические вузы сталкиваются с рядом трудностей. К ним относятся ограниченность государственного бюджета, слабое развитие внебюджетной деятельности, недостаточная интеграция цифровых инструментов в финансовое управление, а также несбалансированное распределение средств между образовательными, научными и административными направлениями.

В условиях модернизации образования возникает необходимость формирования много источниковой модели финансирования, сочетающей бюджетные и внебюджетные ресурсы.

Пути оптимизации

Для того чтобы педагогические вузы Азербайджана могли эффективно развиваться, необходимо внедрение комплексного подхода к управлению финансовыми ресурсами. Прежде всего, речь идет о развитии стратегического планирования, основанного на четком определении приоритетов и долгосрочных целей вуза.

Перспективным направлением является внедрение цифровых платформ финансового учета и анализа, которые позволят сделать процессы прозрачными и оперативными. Такие системы уже используются в ряде стран и доказали свою эффективность в снижении административных расходов и повышении качества отчетности.

Важным условием оптимизации является расширение внебюджетных источников финансирования. Педагогические университеты могут активнее развивать платные образовательные программы, курсы повышения квалификации для учителей, подготовительные курсы для абитуриентов. Кроме того, следует расширять участие в международных грантовых программах, сотрудничество с частным сектором и неправительственными организациями.

Оптимизация также предполагает перераспределение финансовых потоков в сторону поддержки инновационных проектов, мо-

дернизации инфраструктуры и повышения заработной платы профессорско-преподавательского состава. Это позволит повысить мотивацию сотрудников и укрепить научно-исследовательский потенциал вузов.

Заключение

Оптимизация управления финансовыми ресурсами должна рассматриваться как один из ключевых факторов устойчивого развития педагогических вузов Азербайджана. Эффективное распределение и привлечение средств позволит не только улучшить качество образовательных программ, но и создать условия для научного развития, международного сотрудничества и повышения престижа педагогической профессии.

Таким образом, именно грамотная финансовая политика может стать основой модернизации педагогического образования в стране. В долгосрочной перспективе это будет способствовать формированию конкурентоспособной системы подготовки педагогических кадров, отвечающей вызовам XXI века и способной обеспечить высокие стандарты качества образования в Азербайджане.

Актуальность проблемы. Данное исследование затрагивает ключевые вызовы, стоящие перед системой высшего педагогического образования Азербайджана, связанные с эффективностью управления финансовыми ресурсами, ограниченностью бюджетных средств и необходимостью модернизации финансовых механизмов. Работа направлена на повышение устойчивости педагогических вузов, улучшение качества подготовки будущих учителей и укрепление конкурентоспособности образовательной системы страны.

Научная новизна проблемы. Ис-сле-дование вносит вклад в развитие теории управления образованием, предлагая новое комплексное рассмотрение взаимосвязей между финансовыми механизмами, стратегическим планированием и результативностью деятельности педагогических вузов Азербайджана. Работа заполняет существующий пробел, формируя научно обосно-ванную модель оптимизации финансового менеджмента, адаптированную к национальным условиям и современным международным тенденциям.

Практическая значимость проблемы. Полученные результаты обладают прикладным характером и могут быть использованы в процессе совершенствования финансовой политики в педагогических университетах. Представленные выводы и рекомендации помогают руководителям образовательных учреждений выстраивать более эффективные модели планирования и распределения ресурсов, усиливать прозрачность финансовых процессов и обеспечивать устойчивое развитие образовательных программ, что способствует повышению качества подготовки педагогических кадров в Азербайджане.

Литература

1. Abbasov, N.M. Mədəniyyət siyasəti və mədəni dəyərlər / N.M. Abbasov. – Bakı: Qanun, – 2009. – 256 s.
2. Ahmadov, H. Education Funding System in Azerbaijan as One of the Main Directions of the State Strategy for the Development of Education // Universidady Sociedad. – 2022. – T. 14, № 6. – S. 333-339. Доступ из Web of Science: https://www.webofscience.com/wos/woscc/full-record/WOS:000897544600035 Доступ из Scopus: https://www.scopus.com/record/display.uri?eid=2-s2.0-85143225316
3. Аллахвердиева, А.Ф. Влияние сертификации учителей на их мотивацию // Научные труды Института образования Азербайджанской Республики. – Баку, 2023.
4. Закон Об Образовании Азербайджанской Республики. – Баку, 2009.
5. Bilalov, B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi / B.Ə. Bilalov. – Bakı: Elm, – 2006. – 312 s.
6. Əsədova, M.R. Təhsil müəssisələrinin maliyyə idarəçiliyində müasir yanaşmalar / M.R. Əsədova. – Bakı: Elm və Təhsil, – 2022. – 228 s.
7. OECD. Education at a Glance 2022: OECD Indicators. –Paris: OECD Publishing, – 2022. – 450 p.
8. Постановление Кабинета Министров Азербайджанской Республики «О правилах финансирования государственных образовательных учреждений». – Баку, 2020.
9. State Statistical Committee of the Republic of Azerbaijan. Education Expenditure and GDP Data, 2023-2024. – Baku, 2024.
10. Сулейманова, А.Я. Современные тенденции управления образовательными учреждениями. – Баку: Нурлан, – 2021. – 190 с.
11. UNESCO. Global Education Monitoring Report 2021/2022: The Role of Funding in Ensuring Quality Education. – Paris: UNESCO Publishing, – 2021. – 470 p.
12. World Bank. Azerbaijan Education Sector Analysis: Strengthening Governance and Financing. – Washington, D.C.: The World Bank, – 2023. – 120 p.

13. Zeynalov, R.A. Təhsil sistemində idarəetmə mexanizmlərinin optimallaşdırılması. – Bakı: Elm və Təhsil, – 2021. – 210 s.

Redaksiyaya daxil olub: 22.01.2026

UOT 374

Tura Əli qızı Əliyeva
Gəncə Dövlət Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-4237-8751
E-mail: tureeliyeva@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).26-30

YENİYETMƏLƏRİN SOSİALLAŞMASININ MƏRHƏLƏLƏRİ VƏ FUNKSİYALARI

Tura Ali Aliyeva
senior lecturer at Ganja State University,
doctor of philosophy in pedagogy

STAGES AND FUNCTIONS OF SOCIALIZATION OF TEENAGERS

Тура Али гызы Алиева
старший преподаватель Гянджинского Государственного Университета,
доктор философии по педагогике

ЭТАПЫ И ФУНКЦИИ СОЦИАЛИЗАЦИИ ПОДРОСТКОВ

Xülasə. Məqalənin əsas mahiyyətini yeniyetmə şagirdlərin sosiallaşmasında mövcud problemlər və onların həlli yolları, elmi əsaslarla həyata keçirilməsi üçün təşkil olunan yeni yanaşmalar, modellər, elmi ideyalar təşkil edir. İzah olunur ki, şagird özünüidarəetmə orqanının fəaliyyətinin mahiyyəti bir sıra şagirdlərə cəmiyyətdə demokratik münasibətlərin əsaslarını, kollektivdə və müstəqil həyatda özünü idarə etməyi öyrətməkdir. Özünüidarəetmə orqanını təşkil etmək üçün əvvəlcədən lazımi metodik ədəbiyyat toplamaq və iclasların tematik məzmununu müəyyənləşdirmək və iş planı tərtib etmək lazımdır.

Tədqiqatdan belə bir nəticəyə də gəlmək olur ki, gənclərin sosiallaşması fərdin öz xarakterindən, xüsusiyyətlərindən, ətraf mühitin, məktəbin, ictimai cəmiyyətin təsiri və fərdin təhsil aldığı məktəbin sosioloji əsaslarla qurulmasından asılı olaraq dəyişə bilir.

Açar sözlər: *yeniyetmə, sosiallaşma, sosiallaşmanın mərhələləri, sosiallaşmanın funksiyaları, şəxsiyyətinin formalaşması*

Abstract. The main essence of the article is the existing problems of socialization of adolescent students and ways to eliminate them, new approaches, models and scientific ideas organized for their implementation on scientific grounds. It is explained that the essence of the activity of the student self-government body is to teach a number of students the basics of democratic relations in society, self-government in collective and independent life. To organize a self-government body, it is necessary to collect the necessary methodological literature in advance, determine the thematic content of meetings and draw up a work plan.

In the result of the study, it is possible to come to the conclusion that the socialization of youth can change depending on their own character, personality characteristics, the influence of the environment, school, social society and the sociological basis of the school where the person is studying.

Key words: *teenager, socialization, stages of socialization, functions of socialization, personality formation*

Аннотация. Основная суть статьи заключается в существующих проблемах социализации учащихся-подростков и путях их устранения, новых подходах, моделях и научных идеях, организованных для их реализации на научных основаниях. Поясняется, что суть деятельности органа ученического самоуправления заключается в обучении ряда учащихся основам демократических отноше-

ний в обществе, самоуправления в коллективной и самостоятельной жизни. Для организации органа самоуправления необходимо заранее собрать необходимую методическую литературу, определить тематическое содержание заседаний и составить план работы.

В результате исследования можно прийти к выводу, что социализация молодежи может меняться в зависимости от собственного характера, особенностей личности, влияния среды, школы, социального общества и социологической основы школы, в которой учится личность.

Ключевые слова: *подросток, социализация, этапы социализации, функции социализации, формирование личности*

Cəmiyyət stabilliyə can atan sistemdir, onun zəmini isə dövlətdir. Cəmiyyətin stabilliyi, bir çox hallarda, nəsillərin varisliyi ilə, gənclərin cəmiyyətin və dövlətin əsas dəyər və normalarının yaradıcı dərk edilməsi ilə müəyyənləşir. Bu varislik geniş mənada tərbiyə ilə təmin olunur.

"Sosiallaşma" anlayışı ilə ictimai təcrübənin xüsusiyyətləri təsvir olunur, bu prosesin optimallığı isə bilavasitə vətəndaşın tərbiyəsi vasitələrindən asılıdır. Vətəndaşın sosiallaşması hər bir şəxs tərəfindən peşə, siyasi və hüquqi həyat fəaliyyəti məkanında müəyyən bilik, norma, dəyərlər sisteminin və ənənələrinin mənimsənilməsi yolu ilə vətəndaşın cəmiyyətin bərabərhüquqlu üzvü kimi fəaliyyət göstərməsidir.

Vətəndaş tərbiyəsi formalaşan vətəndaş şəxsiyyətinin məqsədyönlü pedaqoji təşkiletmə və idarəolunma prosesidir və yekun məqsədi şəxsiyyətin vətəndaş sosiallaşmasıdır. Beləliklə, hər bir cəmiyyət vətəndaş tərbiyə sisteminin, böyüyən nəslin vətəndaş sosiallaşmasının mühüm institutu kimi effektiv işində marağı var.

Yeniyetmələrin sosiallaşması dinamik olduğu üçün o bir neçə mərhələlərlə yerinə yetirilir. Bu məsələlərdə məlumatın çatdırılması, münasibətin formalaşması, məlumata münasibət, davranış sisteminin qurulması və sosial fəaliyyətin dərk olunması əhatə olunur.

Araşdırmalar göstərdi ki, sosiallaşmanın gedişində 7 əsas mərhələ nəzərə alınmalıdır və bunlar aşağıdakılardan ibarətdir: sosiallaşmanın I mərhələsində sosial məlumatı bilik, vərdiş, bacarıq, hiss və duyğu səviyyəsində şəxs tərəfindən qavranmasıdır. Mütləq məlumatın vaxtında çatdırılması nəzərə alınmalıdır; sosiallaşmanın II mərhələsində alınmış məlumatın şəxsi sosial təcrübə ilə əlaqələndirməsi və bunun əsasında onlarda şəxsi münasibətlərin formalaşdırılması nəzərə alınmalıdır; sosiallaşmanın III mərhələsində alınmış məlumatlar ya qəbul edilməli, ya da ondan imtina olunmalıdır; sosiallaşmanın IV mərhələsi dəyər istiqamətlərinin formalaşdırılması və fəaliyyətə göstərişlərin verilməsidir; sosiallaşmanın V mərhələsinin əsasında rəftar, əməl və məntiqi ardıcıllığa malik davranış sisteminin qurulması durur; sosiallaşmanın VI mərhələsi davranış normalarının reallaşdırılmasından və stereotiplərin formalaşdırılmasından ibarətdir. Sosiallaşmanın VII mərhələsi öz sosial fəaliyyətinin dərk olunması və qiymətləndirilməsidir.

Sosiallaşma mərhələli proses kimi şəxslərin şüurunda və davranışında büruzə verir və məntiqi mərhələlərdən ibarət olur. Sosiallaşma məntiqi tamamlanmaya – özünüqiymətləndirməyə çatdıqda, bu proses yeni keyfiyyət formasında təkrarlanır.

Müasir cəmiyyətdə ictimai inkişafın əsas problemi cəmiyyətin hər bir üzvü ilə münasibətlərin harmonik inkişafıdır, yəni onun sosiallaşmasıdır. Cəmiyyət üçün ən aktual problem gənc nəslin məqsədyönlü sosiallaşmasıdır. Çünki uşaqlıq, yeniyetməlik və gənclik dövründə şəxsiyyətin əsas strukturlarından biri olan sosiallaşma amilləri baş qaldırır və tədricən formalaşır. Sosial mühit dinamik olduğu üçün sosiallaşma zamanı müxtəlif sistemlərlə, birliklərlə, insanlarla yeni əlaqələrin və münasibətlərin yaranması nəticəsində yeni-yeni keyfiyyətlər əldə olunur.

Yeniyetməliyin sosiallaşmasının əsas iki forması seçilir: yönəldilmiş forma (yəni məqsədyönlü, istiqamətləndirilmiş forma) və yönəldilməmiş forma (Yəni öz-özünə əmələ gəlmə forması, istiqamətləndirilməmiş forma). Sosiallaşmanın yönəldilmiş, məqsədyönlü forması müəyyən cəmiyyət tərəfindən xüsusi tərtib edilmiş, həmin cəmiyyətin maraq və məqsədlərinə uyğun şəkildə insana təsir sistemidir. Yönəldilməmiş, öz-özünə əmələ gəlmiş, kənardan istiqamətləndirilməmiş sosiallaşma forması – individdə, səmimi sosial əhatədə müəyyən sosial vərdişlərin avtomatik formalaşmasıdır.

Yuxarıdakıları nəzərə alaraq qeyd etmək olar ki, hər hansı sosial institut; məktəb, ailə, birlik cəmiyyət və s. insana həm yönəldilmiş şəkildə və həm də yönəldilməmiş şəkildə təsir

göstərə bilir və hər şey bu və ya digər sosial institutun proqramından asılı olaraq dəyişir.

Ədəbiyyatda sosiallaşmanın qoyuluşunun təhlili və aparılmış tədqiqatlar əsasında müəyyən edilmişdir ki, yeniyetmələrin sosiallaşmasının əsasını səviyyələrin müəyyənləşməsi təşkil edir.

Yeniyetmənin cəmiyyətin tələbatlarına uyğunlaşması və sosiallaşmasının hansı ardıcıllıqla baş verməsi aşağıdakı səviyyələrdə müşahidə olunur:

1. Passiv səviyyə. Yeniyetmə özünü həmyaşıdlarla bərabər tutmur, aşağı kommunikasiya səviyyəsinə malikdir, onun dar dünyagörüşü var, sosial istiqamətlənməsi zəifdir, öyrənmə qabiliyyəti aşağıdır, müəyyən vacib həyatı dəyərlərdən qismən bəhrələnir, onda cəmiyyətə məxsus qayda-qanunlara tabe olmamaq hissi yaranır, sosiallaşma baş verən sosial-iqtisadi, siyasi-mədəni proseslərin dəyərlənməsini bacara bilməməyi bu səviyyəyə xas olan xüsusiyyətlərdən biridir.

2. Sosial və şəxsi cəlbetmə səviyyəsi. Tədricən yeniyetmə qrupa aid olmasını dərk edir, özünü həmyaşıdlarla bərabərləşdirir, öz nöqteyinəzərini müdafiə edir, tədris edilən fənlər üzrə müvəffəqiyyət əldə edir, ictimai inkişafın vacib ünsürlərindən xəbərdardır, digərləri üçün dəyərli və faydalı olmaq arzusundadır, özünü təkmilləşdirməyə və özünüinkişafa can atır.

3. Fəal səviyyə. Özünü həmyaşıdlarla tam bərabərləşdirməsi, sosiumun hüquqlarının və vəzifələrinin tam yerinə yetirilməsi, yüksək ünsiyyət, sosiumun həyatında fəal iştirak, öz nöqteyi-nəzərinin fəal müdafiəsi, ideyaların olması və onları müdafiə etmək bacarığı, özünü ifadə, özünü reallaşdırma, şəxsi təsdiqlənmə, özünü müəyyənləşdirmə, motivasiyanın yüksək səviyyəsi, uyğunlaşmaq bacarığı.

Sosiallaşma səviyyələrini müəyyənləşdirəndən sonra sosiallaşma prosesinin mərhələlərini qeyd etmək lazımdır. Şərti olaraq sosiallaşmanın 3 mərhələsi qeyd edilir və bunların hər biri axaraq digərindən əmələ gəlir, bir birinin əlaqələrini tamamlayırlar və yeniyetmənin durumunda, inkişafında, nə qədər müvəffəq və ya qeyri müvəffəq olmasını göstərirlər. Bunlar aşağıdakı mərhələlərdə ayrı-ayrılıqda göstərilirlər:

1. Hazırlıq mərhələsi. Bu mərhələ sosiallaşmanın ən aşağı mərhələsidir, yeniyetmənin cəmiyyətdə istifadə olunan qaydalara və normalara aşağı səviyyədə daxil olmasını göstərir, yeni qarşılıqlı əlaqə forma və üslubları ilə tanışlığı, yeniyetməyə təqdim olunan məlumatın qavranılması, şəxsi mövqeyin qəbul edilməsini nəzərdə tutur.

2. Uyğunlaşma mərhələsi. Bu mərhələ yeniyetmənin, müntəzəm dəyişən sosiumun həyatına uyğunlaşmasını, onu müxtəlif, vacib, həyati əhəmiyyətli ünsiyyətin və qarşılıqlı əlaqələrin formalarına və növlərinə qatılmasını, dünyagörüşünün genişlənməsini, maraqlarının və qabiliyyətlərinin realizə edilməsini nəzərdə tutur.

3. Özünü realizə etmə mərhələsi. Bu mərhələdə sosiallaşmanın və şəxsi özünü müəyyənləşmənin ən yüksək mərhələsidir. Məhz bu mərhələdə yeniyetmə tərəfindən həyatın mənası və məqsədi başa düşülür, dərk edilir və qəbul olunmağa başlanılır.

Aşağı hazırlıq mərhələsindən yüksək, özünü realizəetmə mərhələsinə müvəffəqiyyətlə keçid, sosiumda qəbulu və başa düşülməsi üçün həvəs göstərməsi və çalışması, sosiumda özünə layiqli mövqe tutması, fərdi münasibət göstərməsi, sosial yetkinliyə çatmasını çox zaman yeniyetmənin özündən asılıdır.

İctimai inkişafın əsas problemi cəmiyyətin hər bir şəxsiyyətlə münasibətlərinin, əlaqələrinin əhangdarlığıdır, yəni onun uyğun olaraq sosiallaşmasıdır. Uşaqlıq, yeniyetməlik, gənclik dövründə şəxsiyyətin əsas strukturları formalaşır və onların keyfiyyət xüsusiyyətləri cəmiyyətin, ətraf mühitin pedaqojiləşməsindən asılı olur.

Yetişən gəncliyin sosiallaşması mürəkkəb, arasıkəsilməz, fasiləsiz prosesdir və burada bir tərəfdən şəxsin fərdi tələbatları ictimai tələ-batlara uyğunlaşır və bu fəal, yaradıcı, ümumbəşəri dəyərlərin mənimsənilməsi prosesidir, digər tərəfdən cəmiyyət davranış və mənəviyyat nor-malarını formalaşdırır, insanlar arasında evdə, məktəbdə, məktəbdən kənar müəssisələrdə, insanı əhatə edən digər sosial mühitlərdə pedaqoji məqsədəuyğun münasibətlər formalaşdırır [4,s.27].

Yeniyetmənin sosiallaşması fərdlə cəmiyyət arasında mürəkkəb, çox- mərhələli və münaqişəli, qarşılıqlı əlaqəli prosesdir [2, s.34]. Bu prosesin nəticəsində şəxsiyyətdə müəyyən sosial və şəxsi keyfiyyətlərin inkişafı müşahidə olunur; şəxsi dəyərləndirmə, özünə arxayınlıq, qərar qəbulunda müstəqillik, dünyaya, özünə şəxsi münasibət, sosial münasibətləri şəxsi mənəviyyatı və ümumi qəbul edilmiş sosium mədəni dəyərlərə istinad edərək öyrənilməsi, sosial kompetentliyin inkişafı, şəxsi arzu və tələbatlarının

cəmiyyətin tələbatları ilə uyğunlaşması (Mən istəyirəm; Mən bacarıram; Mən varam və s.). Məhz bu yaş dövrü insan həyatında ən məsuliyyətli dövr sayılır, çünki bu yaş dövründə insanın real yetişməsi baş verir, mənəviyyatının əsası qoyulur, cəmiyyətə, insanlara, özünə qarşı münasibətlər, sosial münasibətlər formalaşır [3, s.202]. Müasir məktəb təcrübəsi göstərdi ki, müəllimlərin diqqəti əsasən şəxsiyyətin xarici inkişaf faktorlarına, yeniyetmənin bilik, bacarıq və vərdişlər əldə etməsi prosesinə yönəlir. Ona görə də, yeniyetmənin öz təkrarolunmaz şəxsiyyəti, mənəviyyatı ilə bağlı bir sıra ciddi münaqişələr meydana gəlir. Münaqişələrin səbəbləri: a) yeniyetmənin sosiallaşma səviyyəsinin obyektiv tələbatları ilə bu tələbatı ödəyən nəzəri-metodoloji və təşkilati təminatın lazımi səviyyədə təşkil olunmaması; b) yeniyetmənin sosiumun həyatında fəal iştirak etməyə can atması, özünüreallaşdırması, şəxsi özünütəsdiqi və özünümüəyyənləşdirməsi ilə ümumtəhsil müəssisəsində şəxsiyyətin sistemli sosiallaşması üçün pedaqoji şəraitin uyğun gəlməməsi; c) mövcud münaqişələrin həlli üçün ümumtəhsil məktəblərində pedaqoji şəraitin olmaması, yeniyetmənin sosiallaşmasının optimal pedaqoji imkan və yollarının müəyyənləşdirilməməsi.

Tədqiqatın nəticəsində müəyyənləşdirə bildik ki, məktəbli-yeniyetmələrin sosiallaşma prosesi aşağıdakı mərhələlərdən keçir:

1. Yeniyetmənin sosiallaşması, şəxsiyyətin sosial əhəmiyyətli keyfiyyətləri mənimsəmə prosesidir. Bu proses şəxsin özünü dərk etməsinə, dünyaya və şəxsən özünə olan şəxsi münasibətinə istiqamətlənir: sosial münasibətlərin a) daxili motivlərə və ümumi qəbul edilmiş sosial mədəni dəyərlərə istinad etməklə mənimsənilməsidir; b) sosial səriştəlilik vərdişlərinin inkişafı və sosial təqdir edilmiş davranışın qəbul edilməsidir; c) şəxsi arzuların və imkanların sosium tərəfindən təqdim edilmiş tələblərinə uyğunluğudur.

2. Yeniyetmənin sosiallaşma prosesinin yerinə yetirilməsi istiqamətlənmiş model çərçivəsində baş verir. Bura sosiallaşma prosesinin nəzəri-metodoloji əsasları, pedaqoji şəraitləri, metodları, vasitələri və formaları daxildir.

3. Yeniyetmənin sosiallaşması prosesi pedaqoji və psixoloji şərtlərin kompleks nəzərə alınması nəticəsində reallaşa bilir.

Prof. A.O. Mehrabov və prof. R.İ. Əliyev xüsusi olaraq vurğulayırlar ki, "...sosial mühit dinamik olduğu üçün sosiallaşmanın nəticəsində sosial həyat zamanı sistemlərlə, birliklərlə, insanlarla yeni əlaqələrin, münasibətlərin bağlanması nəticəsində yeni-yeni keyfiyyətlər əldə olunur" [4, s.26].

Deməli, yuxarıda qeyd etdiyimiz kimi, sosiallaşmanın yönəldilmiş, məqsədyönlü forması müəyyən cəmiyyət tərəfindən xüsusi tərtib edilmiş, insanın həmin cəmiyyətin maraq və məqsədlərinə uyğun formalaşmasına yönəlmiş təsir sistemidir. Sosiallaşmanın yönəldilməmiş, yəni öz-özünə əmələ gəlmə forması isə, yeniyetmədə müəyyən sosial vərdişlərin avtomatlaşmış şəkildə formalaşmasıdır.

Yuxarıda söylədiklərimizdən belə qənaətə gəlmək olur ki, hər hansı sosial institut, məktəb, ailə, ictimai təşkilatlar və birliklər insana müxtəlif formalarda təsir göstərir və məktəbin, ailənin, ictimai təşkilatların fəaliyyətindən asılı olaraq dəyişir.

Prof. A.N. Abbasovun qeyd etdiyi kimi, yeniyetmələrin sosiallaşması prosesində sosiallaşmanın ümumi funksiyalarının nəzərə alınması da önəmlidir. Yəni, sosiallaşma normativ tənzimləyici funksiya daşıyır, yeniyetmənin cəmiyyətdə həyat fəaliyyətini formalaşdırır və tənzimləyir; sosiallaşma sosial münasibətlər sistemində yeniyetmənin ideyalarını istiqamətləndirir, onu fərdiləşdirir; sosiallaşma yeniyetmənin həyat tərzini müəyyənləşdirən dəyərlər sistemini formalaşdırır; sosiallaşma yeniyetməni digər insanlarla, insan qrupları ilə, sistemlə qarşılıqlı münasibətlərə gətirir, həyat tərzini formalaşdırmaq üçün onu məlumatlarla təmin edir; sosiallaşma yeniyetməni qeyri-standart situasiyalardan çıxış yolu axtarmaq, əhatəsində olduğu dünyanı kəşf etmək və dəyişdirmək təşəbbüsünü yaradır, onun çatışmayan fiziki, psixi və zehni xüsusiyyətlərinin və xassələrini tamamlayır [1, s.261].

Deməli, sosiallaşma funksiyaları yeniyetmənin təkcə inkişaf prosesini açmır, onun həm məzmununu müəyyənləşdirir, həm də şəxsin inkişafının müəyyən qədər perspektiv yollarını işıqlandıraraq fəallığını gücləndirir. Funksiyalar kompleks şəkildə reallaşır və şəxsə müəyyən fəaliyyət sahəsində özünü göstərməyə imkan yaradır.

Nəticə. Özünüidarəetmə orqanının inkişafı şagirdlərə sosial münasibətlərin mürəkkəbliyini başa düşməyə, sosial mövqeyi formalaşdırmağa, lider funksiyalarını realizə edəndə öz imkanlarını müəyyənləşdirməyə kömək göstərir.

Problemin elmi yeniliyi gənclərin sosiallaşmasının fərdin öz xarakterindən, xüsusiyyətlərindən, ətraf mühitin, məktəbin, ictimai cəmiyyətin təsiri və

fərdin təhsil aldığı məktəbin sosioloji əsaslarla qurulmasından asılı olmasıdır.

Problemin praktik əhəmiyyətini yeniyetmə şagirdlərin sosiallaşmanın mərhələ və funksiyalarının tətbiqinin geniş praktikaya yol tapması təşkil edir.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika. Dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. – Bakı: Mütərcim, – 2024. – 400 s.
2. Ağayeva, B.S. Şagirdlərin sosiallaşması üzrə tərbiyə işinin təşkili / B.S. Ağayeva, V.H. Vahidova– Bakı: Mütərcim,– 2011. – 84 s.
3. Kazımov, N.M. Seçilmiş əsərləri. 7-ci cild / N.M. Kazımov. – Bakı: OKA Ofset,– 2012.– 323 s.
4. Mehrabov A.O., Əliyev R.İ. Demokratik cəmiyyətdə rəqabətəqabil şəxsiyyətin formalaşdırılması // Təhsil, mədəniyyət, incəsənət. – Bakı, – 2003, № 3.
5. Vahidov, F.B. Sosiologiya. Dərs vəsaiti. / F.B. Vahidov. – Bakı: Təknur, –2008. – 308 s.
6. Əliyeva, T.Ə. İntellektual inkişaf üçün autyst tənzimləmə məktəblərinin diaqnostikası // T.Ə. Əliyeva, https://journals.arti.edu.az/uploads/f_20250513091458207903166 2.pdf
7. Семейно-центрированная модель коррекционной работы с подростками; Особенности реагирования родителей на присутствие в семье ребенка-инвалида. Вероятностные пути психологической помощи. //Мир психологии. –2003, № 3, –с. 231-246.
8. Социально значимые закономерности в толерантных и нетолерантных реакциях современных детей. //Мир психологии, –2014, № 1, –с. 95-105.
9. Факторы риска для формирования дефицита внимания и гиперактивности у детей. //Мир психологии, –2002. 3. –с. 196-209.

Redaksiyaya daxil olub: 13.01.2026

UOT 376.5

Şiruyə Məhəmmədəli qızı Azadəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi pedaqogika kafedrasının dosenti,
pedaqogika elmləri doktoru
https://orcid.org 0000-0001-5210-3456
E-mail: shiruye.azadeliyeva@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).31-37

ALİ MƏKTƏBDƏ TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRİN YENİDƏNTƏRBİYƏYƏ EHTİYACI OLAN YENİYETMƏLƏRLƏ APARILACAQ TƏLİM-TƏRBİYƏ İŞLƏRİNƏ HAZIRLANMALARI

Shuriya Mahammadaly Azadaliyeva
associate professor of the department of General pedagogy at
Azerbaijan State Pedagogical University
doctor of pedagogical sciences

PREPARATION OF STUDENTS FOR CONDUCTING EDUCATIONAL WORK WITH ADOLESCENTS IN NEED OF REPAIR, IN THE PROCESS OF STUDYING AT A HIGHER EDUCATIONAL INSTITUTION

Шируя Магомедали гызы Азадалиева
доцент кафедры Общей педагогики
Азербайджанского Государственного Педагогического Университета,
доктор педагогических наук

ПОДГОТОВКА СТУДЕНТОВ К ПРОВЕДЕНИЮ УЧЕБНО-ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ С ПОДРОСТКАМИ, НУЖДАЮЩИМИСЯ В ПЕРЕВОСПИТАНИИ, В ПРОЦЕССЕ ОБУЧЕНИЯ В ВЫСШЕМ УЧЕБНОМ ЗАВЕДЕНИИ

Xülasə. Müasir pedaqoji prosesdə yenidən tərbiyəyə ehtiyacı olan yeniyetmələrlə iş, müəllimin peşəkar fəaliyyətinin mühüm komponentlərindən biridir. Bu səbəbdən ali məktəblər pedaqoji ixtisaslarda təhsil alan tələbələrin belə yeniyetmələrlə düzgün pedaqoji ünsiyyət qurma, onların sosial-psixoloji problemlərini anlama və konstruktiv müdaxilə strategiyalarını tətbiq etmə bacarıqlarını formalaşdırmağa xüsusi diqqət yetirirlər. Təlim prosesində tələbələrə nəzəri biliklərlə yanaşı, praktiki fəaliyyətlər – müşahidə, psixoloji-pedaqoji diaqnostika, fərdi və qrup tərbiyə metodlarının seçilməsi və tətbiqi, konfliktlərin idarə olunması, sosiallaşma problemlərinin həlli üzrə məşğələlər təşkil olunur. Tələbələrin yenidən tərbiyəyə ehtiyacı olan yeniyetmələrlə işləməyə hazırlanması həm pedaqoji, həm psixoloji, həm də sosial aspektlər üzrə kompleks yanaşma tələb edir. Bu hazırlıq təmin olunduqda gələcək müəllimlər çətin tərbiyə olunan yeniyetmələrin davranış problemlərini daha effektiv idarə edir, onların şəxsiyyətinin formalaşmasına müsbət təsir göstərir və məktəb mühitində sağlam sosial münasibətlərin qurulmasına töhfə verirlər.
Açar sözlər: *ali məktəb, təlim prosesi, dərslik, yenidəntərbiyə, sinifdənxaric*

Abstract. In the modern pedagogical process, working with adolescents in need of re-education is one of the important components of a teacher's professional activity. For this reason, higher education institutions pay special attention to forming the skills of students studying in pedagogical specialties to establish correct

pedagogical communication with such adolescents, to understand their socio- psychological problems and to apply constructive intervention strategies. In the training process, students are provided with theoretical knowledge, as well as practical activities-observation, psychological and pedagogical diagnostics, selection and application of individual and group education methods, conflict management, and solving socialization problems. Preparing students to work with adolescents in need of reeducation requires a comprehensive approach in terms of both pedagogical, psychological, and social aspects. When this preparation is provided, future teachers more effectively manage the behavioral problems of difficult adolescents, have a positive impact on the formation of their personality, and contribute to the establishment of healthy social relationships in the school environment.

Key word's: *higher education, educational process, textbook, reeducation, outside the classroom*

Аннотация. В современном педагогическом процессе работа с подростками, нуждающимися в перевоспитании, является одной из важных составляющих профессиональной деятельности педагога. Именно поэтому вузы уделяют особое внимание формированию у студентов педагогических специальностей навыков правильного педагогического общения с такими подростками, понимания их социально-психологических проблем и применения конструктивных стратегий вмешательства. В процессе обучения студентам предоставляются как теоретические знания, так и практические занятия – наблюдение, психолого-педагогическая диагностика, подбор и применение индивидуальных и групповых методов воспитания, управление конфликтами, решение проблем социализации. Подготовка студентов к работе с подростками, нуждающимися в перевоспитании, требует комплексного подхода, включающего педагогические, психологические и социальные аспекты. При такой подготовке будущие педагоги более эффективно решают поведенческие проблемы трудных подростков, оказывают положительное влияние на формирование их личности, способствуют установлению здоровых социальных отношений в школьной среде.

Ключевые слова: *высшее образование, учебный процесс, учебник, перевоспитание, внеклассная работа*

Ali məktəblərdə pedaqogika və psixologiyanın tədrisi tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanmasında mühüm rol oynayır. Təlim prosesi yalnız nəzəri biliklərin mənimsənilməsi ilə məhdudlaşmır, həm də tələbələrdə pedaqoji fəaliyyətin prinsipləri, metodları və təşkilati bacarıqları formalaşdırır. Pedaqoji və psixoloji fənlər tələbələrə tərbiyə, özünütərbiyə və yenidəntərbiyənin mahiyyətini, məqsəd və vəzifələrini öyrətməklə onların praktik fəaliyyətə hazırlığını təmin edir.

Bu fənlərin proqram və dərslikləri sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin təşkili, şagirdlərin intizamının möhkəmləndirilməsi, hüquq və mənəvi tərbiyə, kollektivdə tərbiyə və fərdi yanaşmaların tətbiqi kimi məsələlərdə tələbələrə bilik və bacarıqlar verir. Təlim prosesi vasitəsilə tələbələr həm nəzəri, həm də praktik səviyyədə yenidəntərbiyə prosesinə hazırlanır, psixoloji xüsusiyyətləri və davranış mexanizmlərini anlamağı, onları müvafiq pedaqoji metodlarla səmərəli yönləndirməyi öyrənirlər.

Beləliklə, ali məktəblərdə pedaqoji və psixoloji fənlərin tədrisi tələbələrin gələcək müəllim kimi fəaliyyətində yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə işə hazırlıq üçün əsaslı zəmin yaradır.

Ali məktəblərdə pedaqogikanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanması imkanları. Tələbələrin biliklərə, nəzəri məlumatlara yiyələnmələrində təlim prosesinin rolu böyükdür. Ali məktəblərdə tədris olunan fənlərin proqramlarına əsasən, öyrənilən mövzular sistemlə, bilik və məlumatlar arasında varisliyə əməl olunmaqla şagirdlərə, tələbələrə çatdırılır.

Beləliklə, demək mümkündür ki, pedaqoji ali məktəblərdə, yaxud universitet və institutların pedaqoji fakültələrində təlim prosesinin, ayrı-ayrı fənlər üzrə mühazirə və seminar məşğələləri zəngin imkanlar açır.

Təlim prosesi mürəkkəb bir sistem olmaqla diqqəti cəlb edir. Bu prosesdə çoxsaylı amillər meydana çıxır. Təlimin məzmunu, müəllimlərin öyrədici və tələbələrin tədris idraki fəaliyyəti həmin amillərdəndir. Təlim gedişində biliklər əldə olunur, təhsilləndirici, inkişafetdirici və tərbiyəedici funksiyalar yerinə yetirilir. Bütün bunlarla yanaşı, tələbələrdə dünyagörüşü, idraki və praktik bacarıq və vərdişlər, müstəqil fikir

yürütmək və yaradıcı qabiliyyətlər təşəkkül tapır və inkişaf edir.

Təlim prosesi proqram materialı ilə yaxından tanış olmaq və bu zaman mövzunu şüurlu mənimsəmək tələbatı yaradır. "Proses" anlayışı latın mənşəlidir, "irəliyə hərəkət" mənasını verir. Təlim prosesi ifadəsi altında təhsil alanın, o cümlədən tələbənin idrak yolu ilə biliksizlikdən biliyə, natamam və qeyri-səhih bilikdən daha tam və dəqiq biliyə hərəkəti başa düşülməlidir.

İnstitut və universitetlərdə keçilən bir çox fənlərin təhsilalanların yenidəntərbiyəsi baxımından imkanları vardır. Biz ali məktəblərdə tədris olunan bəzi fənlərin, o cümlədən pedaqogika və psixologiya fənlərinin proqram və dərslikləri ilə tanış olub, onları təhlil etdik. Bu fənlər mühazirə və seminar məşğələlərinin tələbələri yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə sinifdənxaric tədbirlərə hazırlaması imkanlarını öyrəndik.

"Pedaqogika" dərsliyində oxuyuruq: "Pedaqogika dedikdə, uşaqların təhsilinin, təliminin və tərbiyəsinin mahiyyəti, qanun və qanunauyğunluqları, məqsəd və vəzifələri, məzmunu, prinsip və metodları, pedaqoji prosesin təşkilinin səmərəli forma və yolları, bu və ya digər məktəb tipinin idarə olunması və s. bu kimi məsələlərdən bəhs edən elm nəzərdə tutulur" [5,s119].

Yuxarıdakı tərif pedaqogikanın elmlər və tədris fənləri sırasında əhəmiyyətli yer tutduğunu göstərir.

"Pedaqogika" proqramının 2010-cu il nəşrini nəzərdən keçirdik. İzahat vərəqində oxuyuruq: "Proqramdakı mühüm mövzuların bəziləri təlimin nəzəri əsaslarına, təlim və təhsil nə-zəriyyəsi olan didaktikaya, təlim prosesinin mahiyyəti və funksiyalarına, didaktikanın anlayışlar sisteminə, mənimsəmə prosesinin quruluşu, təhsilin məzmunu və təhsilin məzmununu əks etdirən sənədlərə həsr olunmuşdur".

Deməli, proqramda didaktikanın əsas anlayışlarına – təhsil və təlimə mühazirə və seminarlarda geniş yer ayrılması nəzərdə tutulmuşdur. Deməli, tədqiq etdiyimiz problemin başlıca problemlərindən biri olan təlim prosesinə aydınlıq gətirilməsi planlaşdırılır.

Yenidəntərbiyə məsələsi tərbiyə və özünütərbiyə ilə sıx surətdə bağlıdır. Aydınlaşdırdıq ki, tədqiqatda haqqında danışılması nəzərdə tutulan digər mühüm məsələlər də diqqət mərkəzindədir. Belə ki, tərbiyənin prinsip və metodlarına, sinifdənxaric və məktəbdənkənar işlərin əsas istiqamətlərinə, səmərəli formalarına, ailə tərbiyəsinə, sinif rəhbərinin, məktəb ictimai təşkilatlarının, o cümlədən şagird özünüidarə orqanlarının fəaliyyətinə dair tələbələrə zəruri məlumatların verilməsi məqsədəuyğun hesab edilib.

Tələbələr pedaqoji peşə sahibi kimi ilk növbədə ümumi təhsil məktəblərində pedaqoji təcrübədə olarkən sinif müəllimi, yaxud fənn müəllimi rolunda sinfə qədəm qoyurlar. Bu xüsusda "Pedaqogika" fənn proqramında deyilir: "Pedaqogika kursu tələbələrin pedaqoji təcrübəyə nəzəri cəhətdən hazırlığını təmin edir, onlara ilk pedaqoji bacarıq və vərdişləri aşılayır".

Yenidəntərbiyə problemi ümumi təhsil və ali təhsil müəssisəsində təhsilalanların intizamı gözləməsi və onun möhkəmləndirilməsi ilə bilavasitə bağlıdır. Proqramdakı iyirmi beşinci mövzu "Şagird təşkilatlarına rəhbərlik" adlanır. Burada digər problemlərlə yanaşı, "Təlim müvəffəqiyyətinin və intizamın möhkəmləndirilməsi üzrə iş. Şagirdlərlə sinifdənxaric və məktəbdənkənar işin planlaşdırılması" kimi əhəmiyyətli məsələlərin üzərində dayanılması məsləhət bilinib.

Bu, bir həqiqətdir ki, məhz hüquqi maarifləmə və hüquq tərbiyəsi üzrə məqsədyönlü, sistemli və fasiləsiz aparılan işlər nəticəsində istər yeniyetmələrin, istərsə də gənclərin yenidəntərbiyənin səmərəliliyinə nail olunur. Bu baxımdan heç də təsadüfi deyildir ki, proqramın on birinci mövzusu "Hüquq tərbiyəsi" adlanır. Həmin mövzunun məzmununa diqqət yetirək: "Təhsil alanların təşəkkül tapıb formalaşmasında hüquq tərbiyəsinin rolu və əhəmiyyəti. Hüquq tərbiyəsinin mahiyyəti, məqsəd və vəzifələri. Şagirdlərin hüquq mədəniyyətinin formalaşmasında ayrı-ayrı fənlərin imkanları.

Məktəblilərin hüquq tərbiyəsinin həyata keçirilməsi yolları. Hüquq tərbiyəsi ilə mənəvi tərbiyənin oxşar və fərqli cəhətləri. Şagirdlərdə şüurlu intizam və intizamlılıq tərbiyəsi. Hüquq tərbiyəsi üzrə sinifdənxaric və məktəbdənkənar tədbirlər. "Polisin gənc dostları", "Hərəkətin gənc inspektoru" dəstələri, "Gənc hüquqşünas" klub və məktəbləri. Məktəblilərin öz hüquq və vəzifələrini bilmələrinin vacibliyi. Qanun və hüquq pozğunluqlarına qarşı barışmazlıq. Xalq pedaqogikasında qanuna hörmət tərbiyəsi məsələləri".

Göründüyü kimi, tanış olduğumuz məzmun imkan verir ki, tələbələr hüquq tərbiyəsinin mahiyyəti, məqsəd və vəzifələri, təşkilinin səmərəli yolları və s. barədə aldıqları biliklər bir yandan tələbələrin özlərində qanuna hörmət tərbiyəsi aşılayır, hüquq mədəniyyəti formalaşdırır, digər tərəfdən istər pedaqoji təcrübədə olduqları vaxtlarda, istərsə də müəllim işləyəcəkləri məktəbdə yeniyetmələrin yenidən tərbiyə olunması işini uğurlu təşkil edib aparmaqda onlara kömək göstərəcəkdir.

Proqramın on altıncı mövzusu məktəblilərlə sinifdənxaric və məktəbdənkənar işlərin təşkilimə həsr edilmişdir. Mövzu öyrənilərkən məqsədəuyğun sayılır ki, tələbələrə sinifdənxaric və məktəbdənkənar işin vəzifələri; sinifdənxaric işin əsas istiqamətləri və formaları (kütləvi, qrupla, fərdi); söhbət, məruzə, disput, müzakirə, sinifdənxaric oxu, görüşlər və s.; konfranslar, dərnək məşğələləri, müxtəlif klubların işi; divar qəzetləri, şifahi jurnallar, bülletenlər, tematik axşamlar, səhərcik, bədii özfəaliyyət dərnəyinin çıxışı və s. barədə və onların keyfiyyətlə təşkil olunmasına dair məlumatlar verilsin.

Bundan başqa, tərbiyə işləri üzrə direktor müavininin işi, hüquq və vəzifələri; onun sinifdənxaric və məktəbdənkənar işə rəhbərliyi və işinin planlaşdırılması; tərbiyə işləri üzrə direktor müavininin peşə keyfiyyətləri barədə təsəvvürün yaradılması məqsədəuyğun sayılır.

Biz "Pedaqogika" dərsliyini də nəzərdən keçirdik. Məlum olduğu kimi, pedaqoji və psixoloji ədəbiyyatda "tərbiyə" anlayışı ilə bərabər eyni zamanda "özünütərbiyə" və "yenidəntərbiyə" anlayışlarına rast gəlinir. Dərslikdə "tərbiyə" və "özünütərbiyə" anlayışlarının mahiyyəti aydınlaşdırılır, daha sonra "yenidəntərbiyə" anlayışı üzərində dayanılır. Diqqət yetirək: "Yenidəntərbiyə dedikdə, tərbiyəçinin uşaqda təşəkkül tapmış yanlış mühakimə, mülahizə, baxış, əqidə və qiymətləndirmənin, habelə şəxsiyyətin formalaşması prosesinə əngəl törədən davranış təcrübəsinin dəyişdirilməsinə yönəldilmiş məqsədəuyğun, mütəşəkkil, planlı və sistemli fəaliyyət nəzərdə tutulur [2,s.97].

Tərbiyəyə nisbətən yenidəntərbiyə daha çətin və uzunsürən prosesdir. Bir yandan şagirddə özünü göstərən mənfi hallar aradan qaldırılır, digər tərəfdən müsbət keyfiyyətləri inkişaf etdirilir. Bu isə asan başa gəlmir. Mənfi davranış təcrübəsi, ətrafdakılara xoşagəlməz münasibət və ünsiyyət tərzi artıq formalaşmışdır. Təsəvvürümüzə gətirək ki, şagird mənfi emosiya və hisslər, münasibət, meyllər yaradan qeyri-sağlam mühitə düşmüşdür. Onu şəxsiyyət üçün arzuolunmaz keyfiyyətlərdən, davranış tərzindən azad etməkdən ötrü çox çalışmaq, vaxt itirmək, məhəllənin, həmyaşıdlarının, yaşlıların mənfi təsirlərini neytrallaşdırmaq lazımdır. Bütün bu işlərlə məşğul olmaq tərbiyəçidən möhkəm iradə, enerji, səbir, hövsələ, soyuqqanlıq tələb edir ki, heç də hər bir müəllim, valideyn bu kimi çətinliklərə tablaşmır, yaxud dözmək istəmir. Uşağı isə həyatın fərəhli yollarına çıxarmaq, xoşbəxtliyin sirrini ona anlatmaq lazımdır".

Nəzərdən keçirdiyimiz "Pedaqogika" dərsliyində Tərbiyənin aşağıdakı əsas prinsiplərinin adları çəkilir: "1. Tərbiyədə məqsəd aydınlığı; 2. Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasının quruculuğu ilə əlaqələndirilməsi; 3. Yaşauyğunluq; 4. Fərdi xüsusiyyətlərin nəzərə alınması; 5. Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik; 6. Nikbinlik (uşağın müsbət cəhətlərinə istinadən qüsurlarının aradan qaldırılması); 7. Şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq); 8. Tələblərdə vahidliyin gözlənilməsi; 9. Tərbiyə prosesinə kompleks yanaşma; 10. Kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün tərbiyə" [5, s. 65].

Təhsilalanların yenidəntərbiyəsi üzrə iş apararkən də həmin prinsiplərdən bəhrələnmək mümkündür. Odur ki, tələbələr təlim prosesində bu prinsiplərin mahiyyətinə fikir verməli, gələcək pedaqoji fəaliyyətlərində onlardan bəhrələnməyi bacarmalıdırlar.

Dərslikdə "tərbiyənin metodları"na həsr olunmuş ayrıca mövzu var. Tərbiyənin metodlarına belə tərif verilir: "Tərbiyənin metodları dedikdə, tərbiyənin vəzifələrinə çatmaq üçün tərbiyəçinin (valideynin, müəllimin) istifadə etdiyi yol və vasitələr, üsullar sistemi başa düşülür".

Tələbələr fənn proqramına və dərsliyə əsasən, tərbiyənin aşağıdakı metodları ilə tanış olurlar: şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə, "inandırma metodları"); fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar (başqa sözlə, "alışdırma metodları"); şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, "rəğbətləndirmə və cəzalandırma metodları"); müəllimin şəxsi nümunəsi; tərbiyə-

də nəzarət, özünənəzarət və özünüqiymətləndirmə (başqa sözlə, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təhlili) metodu (2).

Dərslikdə "Məktəblilərlə sinifdənxaric iş" və "Məktəbdənkənar iş" adlı fəsillər vardır. "Məktəblilərlə sinifdənxaric iş" fəsli aşağıdakı bölmələri əhatə edir: "Sinifdənxaric işin əhəmiyyəti və xüsusiyyətləri" və "Sinifdənxaric işin təşkili formaları və mahiyyəti".

Dərslikdəki fəsillərdən biri "Hüquq tərbiyəsi" adlanır. Bu fəsildə nəzərdən keçirilən məsələlər bunlardır: "Hüquq tərbiyəsinin mahiyyəti", "Hüquq tərbiyəsinin vəzifələri", "Hüquq tərbiyəsinin məktəbdə həyata keçirilməsi yolları". Göründüyü kimi, haqqında danışılan məsələlər məqalədə üzərində dayandığımız yenidəntərbiyə problemi ilə birbaşa əlaqədardır.

Dərslikdə "sinifdənxaric iş" anlayışından danışılarkən deyilir: "Məktəbdə şagirdlərlə aparılan təlim-tərbiyə işləri təlim prosesi, dərslə məhdudlaşmır. Əks təqdirdə, bu, pedaqoji prosesin səmərəliliyinə mənfi təsir göstərər, məktəbə marağı azaldardı. Pedaqoji kollektivin üzvləri şagirdlərin asudə vaxtları barədə də düşünür, onların dərsdən sonrakı saatlarını şən, mənalı və məzmunlu, maraqlı keçməsi qayğısına qalır və eyni zamanda rəngarəng tədbirlər təşkil etməklə gənc nəslə tərbiyəvi təsir göstərirlər".

Ali məktəblərdə psixologiyanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanması imkanları. Biologiyanın qanunlarını yadımıza salaq: qışda paltarsız çölə-bayıra çıxdıqda – insan donar, bataqlıqdan su içsə – yatalağa yoluxmaq ehtimalı yüksəl olar, insan uzun müddət susuz qalsa, zəifləyər, haldan düşər. Pedaqogika və psixologiyanın da, təlimin, təhsil-tərbiyənin də, buna bənzər qanunları, qanunauyğunluqları var. Ata-analar, pedaqoji kollektivlərin üzvləri, müəllimlər həmin qanunları, qanunauyğunluqları pozarlarsa, bir çox problemlər baş qaldırar, "çətin" uşaqlar, yeniyetmələr meydana çıxar. Bu faktlar inkaredilməzdir [6, s.191].

Bizim uşaqlar bizim səhvlərimizin güzgüsüdürlər. pedaqoji təcrübədə nəinki təhsil-tərbiyə ilə, habelə yenidəntərbiyə ilə məşğul olmaq lazım gəlir. Həmin zərurət yeniyetmənin davranış və rəftarında pis adətlər, mənfi motivasiya və şəxsiyyətində müvafiq istiqamət yarandıqda baş qaldırır. Bu kimi hallarda, adətən söhbət çətin yeniyetmədən, yaxud sosial davranışlı təhsilalandan gedir. Çətin yeniyetmə ilə iş yenidəntərbiyə üzrə pedaqoji prosesi nəzərdə tutur. Yeniyetməyə gəldikdə, onun davranışındakı müxtəlif kənaraçıxmaların qarşısını almaq, yaxud aradan qaldırmaq üzrə müəllimin (valideynin, tərbiyəçinin) sistemli, məqsədyönlü və fasiləsiz fəaliyyəti başa düşülür.

Yenidəntərbiyə tərbiyəçi üçün də, yeniyetmə üçün də çətin və mürəkkəb bir prosesdir. Yeniyetmə yeni yolun perspektivinə maraqlı olmalı, müəllim (valideyn, tərbiyəçi) isə ona inanmalıdır. Tərbiyəçi keçmişi və bu günkü vəziyyəti təhlil etməli, yenidəntərbiyə olunanın keçmişini yada salmadan, yaxud xatırlamadan onun fərəhli gələcəyini görməyi bacarmalıdır.

Ali məktəblərdə tələbələr yeniyetmələrin yenidəntərbiyə olunması işinə hazırlanmaları üçün, hər şeydən əvvəl onlara yuxarıda haqqında danışılan məsələlər barədə məlumat verilməlidir. Tələbə oğlan və qızlar yenidəntərbiyənin mahiyyətini, həyata keçirilməsinin başlıca istiqamətlərini aydın təsəvvür etməlidirlər. Bu məqsədlə təlim prosesinin – mühazirə və seminar məşğələlərinin imkanlarından faydalanmaq mümkündür.

Bu sahədə məqsədyönlü iş müəyyənləşdirildikdə tələbənin qarşısında belə bir sual durur: yeniyetmənin yenidəntərbiyəsi üzrə işini necə səmərəli qurmaq olar? Bu zaman hansı üsul və vasitələrdən, metod və priyomlardan istifadə etmək lazımdır? Yeniyetmənin əməyə və idmana münasibətini necə dəyişmək olar? Yeniyetməni müsbət fəaliyyətə nə stimullaşdırmağa qadirdir? Onu xoşagəlməz hərəkətlərdən necə çə-kindirmək olar? Yeniyetməni özünütərbiyə və özünütəhsil, özünüdəyişmə, özünütəkmilləşdirmə işinə necə cəlb etmək olar? Yenidəntərbiyəyə ehtiyacı olan hər bir yeniyetmə ilə işdə tələbənin qarşısında bu kimi suallar dayanır. Bu prosesə, yəni yenidəntərbiyənin həyata keçirilməsi, təşkili üzrə işə o. ciddi hazırlaşmalıdır. Bu məqsədlə yenidəntərbiyəyə ehtiyacı olan hər bir yeniyetməni diqqətlə öyrənməlidir. Yenidəntərbiyə üzrə iş zamanı yeniyetmənin diqqəti belə bir cəhətə yönəlməlidir ki, o özünün xoşagəlməz, ətrafdakılarda narahatlıq doğuran davranışını dəyişdirməyə psixoloji cəhətdən hazır olmalıdır. Əgər yeniyetmə onunla aparılan təlim-tərbiyə, yenidəntərbiyə işlərindən nəticə çıxararaq özünütərbiyə ilə məşğul olursa, deməli, bu. Onun

böhrandan çıxma vəziyyətidir. Bu mərhələdə tələbə məsləhətçi rolunu ifa edir.

Digər ali məktəb fənləri kimi tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanmasında psixologiya fənni də özünəməxsus rol oynayır.

Ali məktəblərdə pedaqogika və psixologiyanın tədrisi tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanmasında əhəmiyyətli imkanlar yaradır. Təlim prosesi yalnız nəzəri biliklərin mənimsənilməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrdə pedaqoji fəaliyyətin prinsiplərini, metodlarını və təşkilati bacarıqları formalaşdırır.

Tədqiq olunan fənlər tələbələrə yenidəntərbiyənin mahiyyətini, məqsəd və vəzifələrini, prinsip və metodlarını öyrədir, onları sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin planlaşdırılması və həyata keçirilməsi üçün hazırlayır. Təhlil göstərir ki, tələbələr bu prosesdə həm nəzəri bilikləri mənimsəyir, həm də praktik bacarıqlarını inkişaf etdirirlər. Psixologiya fənni onların yeniyetmələrin davranış xüsusiyyətlərini anlama və onları səmərəli yönləndirmə qa-biliyyətlərini gücləndirir.

Nəticələr göstərir ki, ali məktəblərdə tədris olunan pedaqoji və psixoloji fənlər tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə işə hazırlığında effektiv mexanizm rolunu oynayır. Təlim prosesində nəzəri biliklərlə praktik fəaliyyətin inteqrasiyası tələbələrin peşəkar hazırlığını artırır, gələcək müəllim kimi onların yenidəntərbiyə prosesini səmərəli təşkil etməsinə şərait yaradır. Bu nəticələr əvvəlki tədqiqatlarla uyğunlaşır və ali təhsil müəssisələrinin pedaqoji hazırlıq səviyyəsinin yenidəntərbiyə işində əhəmiyyətini təsdiqləyir.

Nəticə. Respublikamızda təhsilalanlarda, o cümlədən tələbələrdə tolerantlığın formalaşdırılması problemi kifayət qədər araşdırılmamış, nəzəri və təcrübi iş əsasında tolerant şəxsiyyətin və onun formalaşdırılması və inkişafı imkanlarının nəzərdən keçirilməsinə əsas elmi yanaşmalar ümumiləşdirilmiş və əks etdirilmiş, tələbələrdə tolerantlığın formalaşdırılmasına təsir edəm daxili və xarici amillər müəyyənləşdirilmiş, müəyyən edilmişdir ki, tələbənin tolerant mövqeyi onun tolerant şüur və düşüncəsinin, tolerant təfəkkürünün inkişafına, tolerant davranışının motivasiyasına kömək göstərmişdir. Ümumilikdə, təcrübi-eksperimental iş irəli sürülən fərziyyənin doğruluğunu təsdiq etdi. Beləliklə, məqalədə məqsədə nail olundu, qarşıda dayanan vəzifələr yerinə yetirildi.

Problemin elmi yeniliyi. ali məktəblərdə pedaqogikanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanması imkanları.

Problemin praktik əhəmiyyəti. ali məktəblərdə psixologiyanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlimtərbiyə işlərinə hazırlanması imkanları.

Problemin aktuallığı. respublikamızda təhsilalanlarda, o cümlədən tələbələrdə tolerantlığın formalaşdırılması problemi kifayət qədər araşdırılmamış, nəzəri və təcrübi iş əsasında tolerant şəxsiyyətin və onun formalaşdırılması və inkişafı imkanlarının nəzərdən keçirilməsinə əsas elmi yanaşmalar ümumiləşdirilmiş və əks etdirilmişdir.

Ədəbiyyat

1. Abbasova, Q. Təhsilin sosial-pedaqoji məsələləri: ali məktəblər üçün dərs vəsaiti / Q. Abbasova, R. Mahmudova, H. Əlizadə. – Bakı: Turan evi, –2008. –201 s.
2. Abbasov, A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. / A.N. Abbasov. –Bakı: Mütərcim, –2013. –360 s.
3. Ağayev, Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. / Ə. Ağayev. – Bakı: Adiloğlu, – 2006. – 138 s.
4. Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik. / R. Aslanova. – Bakı: –2004. – 264 s.
5. Əhmədov, H.H. Pedaqogika: Eksperimental dərs vəsaiti (orta ixtisas məktəblərinin pedaqoji fakültələri üçün). / H.H. Əhmədov. – Bakı: ABU, – 2006. – 296 s.
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Ə.Ə. Əlizadə. – Bakı: Ozan, – 1998. –368 s.
7. F. Rustamov, F. Karimova S. Rustamova. Pedagogy. – Bakı: Elm və təhsil, – 2021. –387 p.
8. Азадалиева Ш.М. (2015) Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921–1991 гг.) // Annales – Analiza Istrske in Mediteranske Študije. Series Historia et Sociologia. – Koper (Slovenia), 2015. – S. 359–368. (Web of Science)
9. Azadaliyeva Sh.M. (2023) The role of Heydar Aliyev in the development of education in Azerbaijan // Proceedings of the 4th International Conference on Humanities and Social Sciences (ICSHRS). – Dubai, April 14-16,– P. 115-120

10. Əhmədov T, Səidova İ. (Azərbaycanda universitetlərin karyera mərkəzlərinin effektivlik göstəriciləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. № 5, – s.224-232
11. Cavadov İ, Baxşıyev Ç, Kərimova L. Ali təhsil müəssisələrində keyfiyyət təminatı sistemində Avropa standartları və təlimatlarının (esg) tətbiqinin əhəmiyyəti // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2024. № 2, –s.10-15
12. Rustamov F. A (2025) Comprehensive Analysis of Family Pedagogy: Theoretical Foundations, Sociocultural Dynamics, Legal Frameworks, and Modern Strategies for Organizing Educational and Upbringing Processes in Contemporary Families. https://imcra-az.org/uploads/public_files/2025-11/8898581212.pdf
13. Darling-Hammond, L. (2017). Teaching for Social Justice: Foundations of Pedagogy. San Francisco: Jossey-Bass
14. Karlberg, M., Klang, N. & Svahn, J. (2024). Positive behavior support in school – a quasi-experimental mixed methods study and a randomized controlled trial. BMC Psychology, 12, 521.
15. Nylén, K., Karlberg, M., Klang, N., & Ogden, T. (2021). Knowledge and Will: An Explorative Study on the Implementation of School-Wide Positive Behavior Support in Sweden. Frontiers in Psychology, 12, Article 618099. https: //doi. org/ 10.3389/ fpsyg.2021.618099
16. Ormiston, H., Husmann, P., Wikel, K., Reisinger, D., & Curtin, M. (2025). Educational Services and School Reintegration Supports for Youth After Acute Behavioral Health Unit Hospitalization. Continuity in Education, 6(1), 162-178. DOI:10.5334/cie.178.
17. Marraccini, M. E., Lee, S., & Chin, A. J. (2019). School reintegration post-psychiatric hospitalization: Protocols and procedures across the nation. School Mental Health, 11(3), 615-628.

Redaksiyaya daxil olub: 11.12.2025

UOT 37.0

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: lale23@mail.ru
https://orcid.org/ 0000-0003-0686-3627
https://doi.org/10.69682/arti.2026.93(1).38-42

YENİ PEDAQOJİ TƏFƏKKÜRÜN TƏLƏBİ – TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI

Lala Akif Mammadly
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy

THE REQUIREMENT OF A NEW PEDAGOGICAL THINKING IS THE FORMATION OF AN ACTIVE LIFE POSITION IN STUDENTS

Лала Акиф гызы Мамедли
ведущий специалист Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике

ТРЕБОВАНИЕ НОВОГО ПЕДАГОГИЧЕСКОГО МЫШЛЕНИЯ – ФОРМИРОВАНИЕ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ У СТУДЕНТОВ

Xülasə. Azərbaycanımız 2020-ci ildə tarixi nailiyyətini əldə etdi. Torpaqlarımız düşmən tapdağından azad edildi. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, Milli Ordumuzun, zabit və əsgərlərimizin rəşadəti ilə qələbə çaldıq. Ərazi bütövlüyümüz təmin olundu. Hazırda işğaldan azad olunmuş ərazilərdə, şəhər, rayon və kəndlərdə sürətlə və yüksək səviyyədə bərpa işləri görülür, ölkəmizdə dinc quruculuq işləri həyata keçirilir. Cənab Prezident uğurlu daxili və xarici siyasət yürüdür. Belə günlərdə Azərbaycan vətəndaşlarından, o cümlədən şagirdlərdən, tələbələrdən həyatda fəal mövqe tutmaq tələb olunur.
***Açar sözlər**: yeni pedaqoji təfəkkür, fəal mövqe, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması, tələbələr*

Abstract. In 2020, Azerbaijan achieved historic success. Our lands were liberated from enemy clutches. We achieved victory under the leadership of the Supreme Commander-in-Chief, President Ilham Aliyev, and thanks to the courage of our National Army, officers, and soldiers. Our territorial integrity was ensured. Currently, rapid and large-scale restoration work is underway in the liberated territories, cities, districts, and villages, and peaceful construction work is underway in our country. The President is pursuing successful domestic and foreign policies. On days like these, the citizens of Azerbaijan, including schoolchildren and students, are called upon to actively participate in life.
***Keywords**: new pedagogical thinking, active position. active life position, formation of active life position, students*

Аннотация. В 2020 году Азербайджан добился исторического успеха. Наши земли были освобождены от вражеских лап. Мы победили под руководством Верховного Главнокомандующего, Президента страны Ильхама Алиева, и благодаря мужеству нашей Национальной армии, офицеров и солдат. Наша территориальная целостность была обеспечена. В настоящее время на освобожденных от оккупации территориях, в городах, районах и селах ведутся оперативные и масштабные восстановительные работы, а в нашей стране – мирные строительные работы. Президент проводит успешную внутреннюю и внешнюю политику. В такие дни от граждан Азербайджана, включая школьников и студентов, требуется активное участие в жизни.

***Ключевые слова**: новое педагогическое мышление, активная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции, студенты*

Azərbaycanımızın tərəqqisi, daha da inkişaf etməsi şəraitində əxlaq amili əməyə, insanların fəaliyyətinə nüfuz edərək, onların yaradıcılığını, elmdə, əməkdə, istehsalatda, mədəniyyət və incəsənətdə, sənayedə, kənd təsərrüfatında, ümumiyyətlə, həyatımızın bütün sahələrdə uğurlarının artmasının real qüvvəsinə çevrilir.

Respublikamız insanlar arasında yeni, daha təkmil münasibətlər əsasında inkişaf edir. Gənc nəsil öz həyatlarının təşkili gedişində bu münasibətlərə cəlb edilirlər. Məktəb təhsili şagirdlərin tərbiyələnməsində mühüm rol oynayır, həmin əsasda ali məktəbdə bu istiqamətdə məqsədyönlü işlər görülür. Harada təhsil almasından, harada işləməsindən asılı olmayaraq şəxsiyyət daim təkmilləşmə, tərbiyələnmə, özünütərbiyə dərsləri keçməlidir. Yalnız belə olan təqdirdə o, fəal həyat mövqeyinə yiyələnə bilər. Tərbiyə üzrə aparılan işlər tələblərin dünyaya, insanlara münasibətlərini müəyyənləşdirir. Bu əsasda insanın mənəvi xüsusiyyətləri inkişafda olur, mənəvi mədəniyyəti təşəkkül tapır.

Fəal həyat mövqeyinin formalaşdırılması tələbələrlə bütün tərbiyə işi prosesində – mühazirə və seminar məşğələlərində həyata keçirilir. Mənəvi normaları sadəcə öyrənmək deyil, onları dərk etmək, hiss etmək, duymaq, davranışında möhkəmləndirmək lazımdır.

Dos. E.R. Hüseynova ümumtəhsil məktəbi şagirdlərində fəal vətəndaşlıq mövqeyinin tərbiyələndirlməsi üzrə tədqiqatlar aparır [1; 6] Müəllifin fikrincə, "Vətəndaşlıq mövqeyinin səmərəli formalaşdırılması üçün yuxarı sinif şagirdlərində vətəndaşlıq məsuliyyətinin, Vətən qarşısında müqəddəs borcun tərbiyə olunmasını tələb edir. Vətəndaşlıq məsuliyyəti özündə aşağıdakı cəhətləri birləşdirir: şagirdin öz hüquq və vəzifələrinə dərk olunmuş və müsbət münasibəti; bu hüquq və vəzifələri cəmiyyətin tələbləri ilə uzlaşdırmağa daxili tələbatı" [1, s. 45].

N. İmamverdiyeva, S. Cəfərova və N. Mirzəliyeva ali məktəblərin magistratura səviyyəsi üçün yazdıqları "Yeniyetmə və gənclərin asudə vaxtının təşkili" kitabının [2] bir paraqrafını "Yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşması" probleminə həsr etmişlər. Müəlliflər "fəal həyat mövqeyi" anlayışının mahiyyətinə aydınlıq gətirmişlər. Diqqət yetirək: "Fəal həyat mövqeyi insanın elmi dünyagörüşünə, kollektivçilik əhval-ruhiyyəsinə malik olmasına, siyasi cəhətdən şüurlu olmasını, sosial həyat tərzi normalarına sahib olması amili kimi rol oynayır.Yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşması dedikdə yeniyetmə və gənclərin onları və yaşadıqları cəmiyyəti narahat edən bütün müzakirələrdə, qərarlarda, mexanizmlərdə, proseslərdə, fəaliyyətlərdə, kampaniyalarda, fəaliyyət və proqramlarda haqlı iştirakının təmin edilməsidir" [2, s. 69]

Müəllim tərbiyə işinin tələbələrin inkişafına necə təsir göstərdiyinə, tələbənin necə inkişaf etdiyinə, mənəvi təkmilləşmənin yeni pilləyə necə yüksəldiyinə diqqət yetirməlidir. Şəxsiyyətin mənəvi şüurunun səviyyəsi onun davranışını və fəaliyyətini müəyyənləşdirir. İnsanların şüurluluğu nə qədər yüksək olarsa, onların həyat mövqeyi də fəal olar. Şüurun formalaşdırılması prosesi sürəkli və mürəkkəbdir.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasına hisslərin təsiri böyükdür. Tərbiyədə hisslərə dayaq onun səmərəliliyini artırır. Odur ki, müəllimlərin əksəriyyəti tələbələrin hisslərinə əsaslanır. Fəal həyat mövqeyinin formalaşdırılması zamanı nəzərə almaq lazımdır ki, tələbə ətraf mühitin, müxtəlif həyati vəziyyətlərin təsiri altında da olurlar. Təşəkkül tapan növbəti təcrübə heç də həmişə ali təhsil müəssisəsinin məqsədlərinə uyğun gəlmir. Odur ki, tərbiyə işini tələbələrin mənəvi təcrübəsini nəzərə alınması əsasında qurmalıdır.

Uşaqlıq, yeniyetmə və gənclik illərində ailədə və təhsil müəssisəsində şəxsiyyətin formalaşdırılması – insanın cəmiyyət üçün hazırlanmasının son dərəcə məsul mərhələləri hesab edilir. Böyüməkdə olan nəsil, o cümlədən tələbələr tərbiyə vasitəsilə xalqın maddi və mənəvi sərvətlərinə yiyələnməyə, insanlığın zəngin təcrübəsinə qoşulur. Əməyin, idrakın, ünsiyyətin və s. bu və ya digər sahəsində şəxsi təcrübəyə sahiblənməsi və zənginləşməsi baş verir. Fəal həyat mövqeyinin qazanılması – təhsilalanların sosiallaşmasını, həyata, cəmiyyətə faydalı şəxs olmaq istiqamətində çalışmasını nəzərdə tutur.

Tərbiyə prosesinin mahiyyəti izah olunarkən ictimai münasibətlər təcrübəsinə istinadən böyüyən insanların bütün həyat fəaliyyəti təcrübəsinin formalaşdırılması özünü göstərir. Məhz bu zaman onların dünyaya, ayrı-ayrı insanlara,

fəaliyyətə, biliklərə, əməyə çoxcəhətli münasibəti meydana gəlir. Şəxsi təcrübəyə sahiblənmədə əsas məsələ budur ki, dəyərli, obyektiv yaranan ictimai münasibətlər şüurlu surətdə dərk edilsin, təhsilalanın xüsusi, özünəxas, şəxsi, subyektiv tələbatına, hərəkət və əməllərinə, motivlərinə çevrilsin.

Münasibətlər, fəlsəfi kateqoriya olmaq baxımından bu və ya digər şəxsin ətraf aləmlə əlaqəsinin dialektikasını əks etdirir. Burada subyektin subyektə münasibəti özünü göstərir.

Münasibətlər, etika elminin kateqoriyası olmaq baxımından insanlar arasında mənəvi-əxlaqi əlaqələr şəklində, xeyir, şər, rəhmdillik və ədalətlilik mövqelərindən mənəvi-əxlaqi dəyər halında təzahür edir.

Münasibətlər, pedaqoji kateqoriya olmaq baxımından həmin mövqeyin bir sıra müxtəlif sahələrdə, o cümlədən ünsiyyətdə, qarşılıqlı münasibətlərdə, fəaliyyətdə, kollektivdə təzahürü kimi diqqət mərkəzinə gəlir.

Münasibətlər, psixoloji kateqoriya olmaq baxımından insanın ən ümumi mövqeyi kimi aydınlaşdırılır.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması baxımından mənəvi münasibətlərin rolu daha çoxdur. Həmin münasibətlər şəxsiyyətin həyat və fəaliyyətinin, demək olar ki, bütün sahələrinə nüfuz edir. Tərbiyə zamanı insanların, o cümlədən tələbələrin elə xassə və münasibətlərinin yenidəntərbiyəsinə, təshih olunmasına ehtiyac olur ki, onlar kortəbii, neqativ təsirlərin gedişində əxz edilir, münasibətlərin və ünsiyyətin həyatdan götürülmüş mənfi təcrübəsində cəmlənir.

Tərbiyə prosesinin məramı insan (tələbə) şəxsiyyətinin təşəkkül etdirilməsidir. Bu zaman ayrı-ayrı şəxslərin özlərinin psixi xassələrindən, xassələrindən, səy, tələb və imkanlarından həmin prosesin çox incə asılılığı və şərtlənməsi diqqət mərkəzinə gəlir.

Şəxsiyyətin formalaşdırılmasında müsbət və mənfi 1iymətləndirmələrin qarşılıqlı əlaqədə olan dialektikası aydın xarakter alır. O zaman ki, tələbə öz şəxsiyyətinin təkmilləşdirilməsində onların rolunu nəzərə alsın. Öz keyfiyyətlərini, davranış və rəftar tərzini müsbət qiymətləndirilməsi onlara dəyərli münasibətə gətirib çıxarır. Eyni zamanda müsbət keyfiyyətlər yaxşı inkişaf edər, tənqidi təfəkkür tələbənin təkmilləşməsi, özünü tərbiyəsi keşiyində dayanar. Özünüqiymətləndirmə qiymətləndirmənin özünəməxsus formasıdır.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasında özünüqiymətləndirmə son dərəcə mühüm rol oynayır. Özünü qiymətləndirmə müsbət keyfiyyətlərin daha da dolğunlaşmasına, zənginləşməsinə imkan verir. Tələbələrin həyatın bütün sahələrində fəal mövqe tutmalarına şərait yaradır. Tələbə tərəfindən özünün, öz keyfiyyətlərini qiymətləndirilməsi həm də onun yeni mənəvi normaları mənimsəməsinə münasibəti üzrə mövqeyi sayılır.

Mənəvi münasibətlər, mənəvi başlanğıc, mənəvi motivlər, tələbələrin davranış, rəftar, ünsiyyət tərzinin mənəvi təzahürləri vasitəsi ilə şəxsiyyəti ahəngdar və hərtərəfli inkişaf etdirmək sisteminin hər hansı (zehni tərbiyə, estetik tərbiyə, fiziki mədəniyyət, hüquq tərbiyəsi, vətənpərvərlik tərbiyəsi və b.) komponentlərinə daxil olur. Beləliklə, tələbələrin mənəvi təşəkkülünün, əxlaqi saflığının qarşılıqlı zənginləşməsi və onun başqa cəhətlərinin tərbiyələnməsi mümkün olur. Tələbəni tərbiyə prosesinə fəal daxil edə bilsək, özünütərbiyə vasitəsi ilə tələbələrin əxlaqi təşəkkülü daha sərbəst və asan olur. Mənəvi normalar müxtəlif cəhətli əməli fəaliyyətdə, insanlarla qarşılıqlı münasibətlərdə özünə yer alaraq, tələbələrin gündəlik hərəkət, davranış və rəftarlarında, ünsiyyət tərzlərində möhkəmlənir.

Fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm vəzifənin uğurla həyata keçirilməsi zamanı ilk növbədə tələbələrdə *vicdanlılıq və doğruçuluğun*, *borc və məsuliyyət* hisslərinin təşəkkül etdirilməsi qayğısına qalmaq lazımdır.

Vicdanlılıq və doğruçuluq eyni zamanda yüksək şüurlu intizamla sıx surətdə bağlıdır. Vicdanlılıq yüksək vətəndaşlığa əsaslanmaqdan, Heç də təsadüfi deyildir ki, yalançılıq, məsuliyyətsizlik, vicdansızlıq, işə, vəzifisinə laqeydlik, yaltaqlıq, ikiüzlülük və s. bu kimi keyfiyyətlərə, adətən intizamsızlıq kimi yanaşılır. Vicdanlılıq, məsuliyyətlilik və doğruçuluğun rolu və əhəmiyyəti isə, intizamlılıq çərçivəsini müsbət mənada hətta aşır. Tələbənin haqqında danışılan müsbət mənəvi keyfiyyətləri onun insanlığa, dünyaya, cəmiyyətə, insanlara, özünə bütün münasibətlərinin bünövrəsində dayanır. Bu keyfiyyətlər tələbələrin istiqamətliliyi ilə. Onun əqidəliliyi və ideyalılığı ilə qırılmaz tellərlə qarşılıqlı əlaqədə olur. Bu və ya digər tələbənin prinsipi-

allığı həmin dəyərli keyfiyyəti qəbul edilmiş prinsiplərə vicdanla əməl etmək və çətin məqamlarda güzəştə getmədən onların müdafiəsində durmaq, insanın mübarizə apardığı vicdanlılıq və düzlüyün, borc və məsuliyyətin təsirli ifadəsinə əsaslanmaq, Azərbaycan cəmiyyətinə xidmət göstərməkdir. Bu ikiüzlülüyə, riyakarlığa, haqsız və qərəzli tənqidə önəm verməyən həqiqi yoldaşlıq ruhunun kollektivçilik ruhunun ifadəsidir. Bu, ictimai mülkiyyətə məsuliyyətli və vicdanlı münasibətin təməlidir. Bu, ailə münasibətlərinin, nikahın, valideyn və övladların münasibətlərinin zəruri mənəvi bazasıdır. Ümumiyyətlə, vicdanlılıq insanın, o cümlədən tələbənin şəxsi vicdanının timsalıdır.

Tələbədə vicdanlılığın tərbiyə olunması onun həyat və fəaliyyətinin, ünsiyyət mühitinin mənəvi baxımdan sağlamlaşdırılmasını və təmizliyini şərtləndirir. Həmin mənəvi keyfiyyətlər vicdan, borc, məsuliyyət, doğruçuluq, namus, ismət, milli və şəxsi şərəf və ləyaqət kimi mühüm hisslər kimi əlaqəli normaların əsasıdır.

Tərbiyə nəzəriyyəsində çox zaman belə suala cavab axtarılır: təhsilalanların mənəvi tərbiyəsində birinci yeri tutan nədir – onun şüurunun formalaşdırılması, yoxsa davranış təcrübəsinin təşəkkül etdirilməsi?.Təbii ki, bu sula fərqli cavablar verilir. Gəlin biz özümüz bu suala cavab tapaq.

Fikrimizcə, haqqında söz açılan problemin düzxətli və birtərəfli həlli düzgün ola bilməz. Əxlaqi şüura etikanın nəzəri əsaslarının daxil olunması və əməli fəaliyyət vaxtı möhkəmləndirilməsi verbalizm (*söz oynatmaq*) meydana gətirir. Mənəvi tərbiyədə söz zorakılığını yaradır. İnsanın, o cümlədən tələbənin mənəvi baxımdan formalaşıb təşəkkül tapmasından ötrü onun mənəvi şüurunun tərbiyələndirilməsi vacibdir.

Beləliklə, anlayışları əsasən dəqiq göstərir, ancaq işdə onlara əməl etmir. Bu, bir həqiqətdir ki, mənəvi şüura özünəməxsus təsir olmadan tələbənin hərəkət və əməllərinin təsadüfi xarakterə malik olması mümkündür. Belə hallarda ümumiləşdirmə və mənəvi davranışın sistemini müəyyən etməz. Odur ki, gəldiyimiz nəticə belədir: tələbənin mənəvi şüurunun, mənəvi davranışının və mənəvi qurulmasında xüsusi diqqət istəyir.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm işə onlar hələ kiçik yaşlarında olarkən başlamaq lazımdır. Deməli, bu sahədə ailə, valideynlər, ailənin digər yaşlı üzvləri məsuliyyət daşıyırlar.

Ölkəmizin Əsas Qanununun – Azərbaycan Respublikasının Konstitusiyasının "Nikah hüququ" adlanan 34-cü maddəsi beş bənddən ibarətdir. Maddənin 3-cü bəndində deyilir: "Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlətimiz çoxuşaqlı ailələrə yardım göstərir" [3]. Bu bəndə görə, dövlət nikah və ailənin qayğısına qalır, analıq, atalıq, uşaqlığı qanunla qoruyur.

4-cü bənddə deyilir: "Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur" [3]. Ölkəmizin Əsas qanunu ər ilə arvadın hüquq bərabərliyini elan etməklə yanaşı uşaqlara qayğı göstərməyi, onları tərbiyələndiməyi valideynlərin həm hüququ, həm də borcu hesab edir.

Deməli, ailədə tərbiyə sahəsində valideynin vəzifələrinə həm də onlarda fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm bir vəzifə daxil edilmişdir.

4-cü maddənin 5-ci bəndində göstərilir: "Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar" [3]. Konstitusiyamız uşaqlara münasibətdə ataanaların hüquq və vəzifələrini müəyyənləşdirməklə yanaşı eyni zamanda valideynlərə münasibətdə uşaqların da hüquq və vəzifələrinə aydınlıq gətirmişdir.

Ümumtəhsil, orta ixtisas və ali təhsil müəssisələrinin qarşısına da mühüm vəzifələr qoyulmuşdur. Deməli, fəal həyat mövqeyinin formalaşdırılması üzrə iş ailədən sonra təhsil müəssisələrində də davam etdirilir. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununda bu xüsusda yazılmışdır: "Maddə 4. Təhsilin əsas məqsədi:

1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə

yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq"dır [4].

Bu maddədə fəal həyat mövqeyinin formalaşdırılmasının adı çəkilməsə də, qeyd olunan mənəvi keyfiyyətlərin tərbiyələndirilməsi son nəticədə gənc nəsli həyatda fəal mövqe tutmağa hazırlayır.

Yuxarıda deyilənlərdən aşağıdakı nəticəyə gəlmək mümkündür: yeni pedaqoji təfəkkürün tələbə həm də budur ki təhsilalanlarda, o cümlədən tələbələrdə sistemli, ardıcıl, məqsədyönlü şəkildə fəal həyat mövqeyi formalaşdırılsın. Bu istiqamətdə pedaqoji kollektiv üzvlərinin səyləri gücləndirilsin.

Problemin aktuallığı. Fəal həyat mövqeyi tərbiyəsi hər zaman lazımdır. Problem az tədqiq olunduğundan bu məsələnin araşdırılması vacibdir.

Problemin yeniliyi. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması problemi diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Gənc tədqiqatçılar bu məqalədən bəhrələnəcəklər.

Ədəbiyyat

1. Hüseynova, E.R. Şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması təhsil müəssisəsinin mühüm vəzifəsi kimi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2023, № 6, s. 44-47.
2. İmamverdiyeva, N. Yeniyetmə və gənclərin asudə vaxtının təşkili: ali məktəblərin magistratura səviyyəsi üçün / N. İmamverdiyeva, S. Cəfərova, N. Mirzəliyeva. – Bakı: Füyuzat, -2023. -136 s.
3. Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897
4. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. https://e-qanun.az/framework/18343
5. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmdəli. -Bakı: Mütərcim, 2020. – 608 s.
6. Hüseynova, E.R. Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında Azərbaycan ailəsinin rolu // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018, № 2, s. 13-18.

Redaksiyaya daxil olub: 04.02.2026

UOT 37.1

Rəhiməxanım Rzabala qızı Məmmədzadə
Azərbaycan Dillər Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-2256-3185
E-mail: ragimaxanum.mamedzade@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).43-49

TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ:
Yoxlayıcı eksperimentin təşkili və nəticələri

Rahimakhanim Rzabala Mammadzade
senior lecturer at the Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

INDICATORS OF THE EFFECTIVENESS OF WORK ON THE FORMATION OF NATIONAL QUALITIES OF STUDENTS USING EDUCATIONAL TECHNOLOGIES:
Organization and results of the testing experiment

Рагимаханум Рзабала гызы Мамедзаде
старший преподаватель Азербайджанского Университета Языков,
доктор философии по педагогике

ПОКАЗАТЕЛИ ЭФФЕКТИВНОСТИ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ НРАВСТВЕННЫХ КАЧЕСТВ УЧАЩИХСЯ С ИСПОЛЬЗОВАНИЕМ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ:
Организация и результаты проверочного эксперимента

Xülasə. Eksperimentin öyrədici mərhələsində aparılmış məqsədyönlü, sistemli, fasiləsiz iş nəticəsində kontrol qruplarla müqayisədə eksperimental qruplarda xeyli müsbət dəyişiklər baş verdi. Mənəvi keyfiyyətlərinin inkişafı nəticəsində tələbələrin tərbiyəlilik səviyyələri artdı. Bu tədqiqatla bağlı məqsədyönlü, sistemli və fasiləsiz aparılan işlər sayəsində mümkün oldu.
***Açar sözlər**: eksperiment, pedaqoji eksperiment ,tərbiyə texnologiyaları, mənəvi keyfiyyətlər, tələbələr, eksperimentin yoxlayıcı mərhələsi*

Abstract. As a result of targeted, systematic, and continuous work conducted during the educational phase of the experiment, significant positive changes occurred in the experimental groups compared to the control groups. The development of moral qualities led to an increase in the students' moral upbringing. This study was made possible by targeted, systematic, and continuous work.
***Keywords**: experiment, pedagogical experiment, educational technologies, moral qualities, students, the testing type of the experiment*

Аннотация. В результате целенаправленной, систематической и непрерывной работы, проводимой на учебном этапе эксперимента, в экспериментальных группах произошли существенные позитивные изменения по сравнению с контрольными. В результате развития нравственных качеств повысился уровень нравственной воспитанности обучающихся. Проведение данного исследования стало возможным благодаря целенаправленной, систематической и непрерывной работе.
***Ключевые слова**: эксперимент, педагогический эксперимент, образовательные технологии, нравственные качества, обучающиеся, проверочный этап эксперимента*

Aparılmış səmərəli işlər sayəsində tələbələrin mənəvi tərbiyəlilik səviyyəsi artdı. tərbiyəlilik Aşağıdakı cədvəllər bu barədə əyanı təsəvvür yaradır.

Sorğuya eksperiment qrupun 30, kontrol qrupun 31 müəllimi cəlb olunmuşdu.

Eksperimental və kontrol qrup müəllimlərinə verilmiş suallarla cəvəldən tanış olmaq mümkündür:

Cədvəl 1.
Müəllimlərlə aparılmış sorğunun nəticələri

s/№	Suallara alınan cavablar	Səviyyələr											
		Yüksək				Orta				Aşağı			
		eks.		kont		eks.		kont		eks.		kontr	
		nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%
1	Pedaqoji ədəbiyyatda hansı pedaqoji (təhsil) texnologiyaları özünə yer almışdır	19	63	13	42	10	33	11	35	1	3	7	23
2	Hansı təlim texnologiyaları ilə tanışsınız?	18	60	11	33	10	33	12	39	2	7	9	29
3	Tərbiyə texnologiyalarından hansılarının adlarını çəkə bilərsiniz?	24	80	16	52	6	20	10	32	--	-	5	16
4	Tərbiyə texnologiyası dedikdə nə başa düşülməlidir?	22	75	14	45	7	23	9	29	1	3	8	26
5	Pedaqoji (təhsil) texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız?	21	70	13	42	7	23	8	26	2	7	10	32
6	Təlim texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız?	18	60	13	42	10	33	8	26	2	7	10	32
7	*V.A. Suxomlinskinin "Kollektiv humanist tərbiyə texnologiyası"*nın mahiyyəti nədən ibarətdir	21	70	15	48	7	23	11	35	2	7	5	16
8	Respublikamızda pedaqoqlardan kim tərbiyə texnologiyaları sırasına yeni bir tərbiyə texnologiyası əlavə etmişdir?	18	60	12	39	11	37	9	29	1	9	10	32
9	Həmin tərbiyə texnologiyası necə adlanır?	21	70	10	32	7	23	9	30	2	7	12	39
10	Ş.A. Amonaşvilinin "Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası"nın mahiyyəti nədən ibarətdir?	20	67	14	45	9	30	7	23	1	3	10	32
11	O.S. Qazmanın "*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası"*nın mahiyyəti nədən ibarətdir?	22	73	15	48	8	27	10	32	_	_	6	19
12	G.K. Selevkonun "Tələbə şəxsiyyətinin özünütəkmilləşdirmə texnologiyası"nin mahiyyəti nədən ibarətdir?	17	57	11	35	10	33	10	32	3	10	10	32
13	A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının mahiyyəti nədən ibarətdir?	21	70	16	52	9	30	12	39	_	_	3	9

Qeyd: Sorğuda eksperiment qrupun 30, kontrol qrupun 31 müəllimi iştirak etmişdir.

Birinci suala (“Pedaqoji ədəbiyyatda hansı pedaqoji (təhsil) texnologiyaları özünə yer almışdır”) eksperimental qrup tələbələrinin 19 nəfəri (63%), kontrol qrup tələbələrinin 13 nəfəri (42%) – yüksək, eksperimental qrup tələbələrinin 10 nəfəri (33%), kontrol qrup tələbələrinin 11 nəfəri (35%) – orta səviyyəli cavablar vermişdir. Aşağı göstərici eksperimental qruplarda 7% (2 nəfər), kontrol qruplarda 29% (9 nəfər) olmuşdur.

Eksperimental qrupun müəllimləri aşağıdakı pedaqoji (təhsil) texnologiyalarına diqqəti yönəltmişlər:

- Şagird (tələbə) fəaliyyətinin aktivləşdirilməsinə və intensivləşdirilməsinə yönələn pedaqoji texnologiyalar (aktiv təlim metodları)
- Tədris prosesinin idarə olunması və təşkilinin səmərəliliyinə yönələn pedaqoji texnologiyalar
- Bu və ya digər tədris mövzusuna uyğun gələn pedaqoji texnologiyalar
- Tədris materialının didaktik təkmilləşdirilməsinə və yenidən qurulmasına yönələn pedaqoji texnologiyalar
- Təbiətə əsaslanan texnologiyalar
- Sosial-təhsil texnologiyaları
- Təhsil texnologiyaları
- İnkişaf etdirici təhsil texnologiyaları
- Məktəbdaxili idarəetmə texnologiyaları

Kontrol qruplardan olan müəllimlər isə, “Tədris prosesinin idarə olunması və təşkilinin səmərəliliyinə yönələn pedaqoji texnologiyalar”, “Təbiətə əsaslanan texnologiyalar”ı, “Təhsil texnologiyaları”nı qeyd etmişlər.

2-ci sualda deyilir: “Hansı təlim texnologiyaları ilə tanışsınız?” suala eksperimentdə iştirak edən müəllimlərin 18 nəfəri (60%) – yüksək; 10 nəfəri (33%) – orta və 2 nəfəri (7%) – aşağı; kontrol qrup müəllimlərinin 11 nəfəri (33%) – yüksək, 12 nəfəri (39%) – orta, 9 nəfəri (29%) – aşağı səviyyədə cavab vermişlər.

Eksperimentə cəlb edilən müəllimləri aşağıdakı təlim texnologiyalarının adlarını qeyd etmişlər:

- Layihəyə əsaslanan texnologiya
- Tənqidi düşünmə texnologiyası
- Yeni və müasir informasiya vasitələrindən istifadəyə əsaslanan pedaqoji texnologiyalar
- Modul təlim texnologiyası
- Problemli tədris texnologiyası (problemli təlim)
- Oyun texnologiyası
- Yaradıcı seminar texnologiyası
- İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT)

Kontrol qrup müəllimləri “Layihəyə əsaslanan texnologiya”nın, “Problemli tədris texnologiyası (problemli təlim)”in, və “Yeni və müasir informasiya vasitələrindən istifadəyə əsaslanan pedaqoji texnologiyalar”ının adlarını çəkmişlər.

3-cü sual (“Tərbiyə texnologiyalarından hansılarının adlarını çəkə bilərsiniz?”) aşağıdakı şəkildə cavablandırılmışlar: yüksək səviyyə: eksperimental qrup müəllimlərində – 80% (24 nəfər), kontrol qrup müəllimlərində – 52% (16 nəfər); orta səviyyə: eksperimental qrup müəllimlərində – 6% (20 nəfər), kontrol qrup müəllimlərində – 32% (10 nəfər); aşağı səviyyə: eksperimental qrup müəllimlərində 0%, kontrol qrup müəllimlərində 16% (5 nəfər).

Əgər kontrol qrup müəllimləri yalnız 2 tərbiyə texnologiyasının (Ş.A. Amonaşvilinin “*Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası*” və V.A. Suxomlinskinin *”Kollektiv humanist tərbiyə texnologiyası”*) adlarını çəkmişlərsə, eksperimental qrup müəllimləri aşağıdakı tərbiyə texnologiyaların qeyd etmiş, onların mahiyyətinə, məzmununa, məqsəd və vəzifələrinə aydınlıq gətirmişlər.: S.T.Şatski, L.V.Zankov, E.N.İlin, Q.K.Selevko və b.-nın *”Əməkdaşlıq tərbiyə texnologiyası”;* V.A.Suxomlinskinin *”Kollektiv humanist tərbiyə texnologiyası”;* A.N. Abbasovun “*Heç kim səni görməyəndə tərbiyə texnologiyası*”; Ş.A. Amonaşvilinin “*Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası”;* O.S.Qazmanın “*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası”;* N.E. Şurkovanın *”Qrup tərbiyə işinin təşkili və aparılması texnologiyaları*”; L.İ.Novikova, V. A.Karakovski və N. L. Selivanovanın “*Sistemli yanaşmaya əsaslanan tərbiyə texnologiyası*”; I.P. İvanovanın *”Kollektiv yaradıcı tərbiyə texnologiyası” və* G.K. Selevkonun *”Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası”*.

“Pedaqoji (təhsil) texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız?” sualını (5-ci sual) alınan cavablarla tanış olaq:

Yüksək səviyyə: eksperimental qruplarda –21 müəllim (70%), orta səviyyə – 7 nəfər (23%), aşağı səviyyə – 2 (7%); kontrol qruplarda: yüksək səviyyə –13 müəllim (42%), orta – 8 nəfər (26%((), aşağı –10 (12%a) olmuşdur.–

"Təlim texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız?" sualına (6-cı sual) alınan cavablar:

Yüksək səviyyə: eksperimental qruplarda –18 müəllim (60%), orta səviyyə – 10 nəfər (33%), aşağı səviyyə –2 (7%); kontrol qruplarda: yüksək səviyyə – 13 müəllim (42%), orta – 8 nəfər (26%), aşağı –10 (32%a) olmuşdur.–

11-ci suala ("O.S. Qazmanın "*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası"*nın mahiyyəti nədən ibarətdir?") aşağıdakı cavab alınmışdır: yüksək səviyyə: eksperimental qrup müəllimlərində –73% (22 nəfər), kontrol qrup müəllimlərində –48% (15 nəfər); orta səviyyə: eksperimental qrup müəllimlərində – 27% (8 nəfər), kontrol qrup müəllimlərində – 32% (10 nəfər); aşağı səviyyə: eksperimental qrup müəllimlərində 0% (0 nəfər), kontrol qrup müəllimlərində 19% (6 nəfər).

12-ci sual ("G.K. Selevkonun "Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası"nin mahiyyəti nədən ibarətdir?") aşağıdakı kimi cavablandırılmışdır: yüksək səviyyə: eksperimental qrup müəllimlərində – 57% (17 nəfər), kontrol qrup müəllimlərində – 35% (11 nəfər); orta səviyyə: eksperimental qrup müəllimlərində - 33% (10 nəfər), kontrol qrup müəllimlərində - 32% (10 nəfər); aşağı səviyyə: eksperimental qrup müəllimlərində 10% (3 nəfər), kontrol qrup müəllimlərində 32% (10 nəfər).

13-cü suala (A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının mahiyyəti nədən ibarətdir?) aşağıdakı cavablar verilmişdir: yüksək səviyyə: eksperimental qrup müəllimlərində –70% (21 nəfər), kontrol qrup müəllimlərində –52% (16 nəfər); orta səviyyə: eksperimental qrup müəllimlərində – 30% (9 nəfər), kontrol qrup müəllimlərində – 39% (12 nəfər); aşağı səviyyə: eksperimental qrup müəllimlərində 0% (0 nəfər), kontrol qrup müəllimlərində 9% (3 nəfər).

Yoxlayıcı eksperiment zamanı bir daha suallarla tələbələrə müraciət etdik (suallar cədvəldə özünə yer almışdır): 2-ci cədvələ əsasən eksperimental və kontrol qrupların göstəriciləri ilə tanış olaq:

Cədvəl 2.
Eksperimental və kontrol qrup tələbələri ilə aparılmış sorğunun nəticələri

s/ №	Suallara alınan cavablar	Səviyyələr											
		yüksək				orta				Aşağı			
		eks.		kont		eks.		kont		eks.		kontr	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
1	Özünütərbiyə ilə məşğul olursanmı?	49	58	35	41	33	39	40	46	3	3	11	13
2	Özünütərbiyə zamanı hansı mənəvi keyfiyyətinin inkişaf etdirilməsi qayğısına qalırsan? 2.1.qaqyğıkeşlik 2.2.xeyirxahlıq 2.3.ədalətlik 2.4. düzlük və doğruçuluq	 25 25 21 21	 29 29 22 5	 13 11 10 12	 15 13 12 14								
3	Ailədə valideynlərindən hansı tərbiyənlə daha çox məşğul olub? 3.1. ana 3.2. ata 3.3. hər ikisi	 35 25 25	 41 29 29	 25 20 20	 29 2 23	 60 42				-	-		

4	Ata-ananın məsləhətlərinə, öyüd-nəsihətinə: 4.1. qulaq asıram, 4.2.daha çox müstəqillik göstərirəm	30 55	35 65	60 42									
5	Səncə, mənəvi keyfiyyətlərindən hansının təkmilləşdirilməsinə ehtiyac vardır 5.1. tolerantlıq 5.2.dəqiqlik 5.3. müstəqillik 5.4 təşəbbüskarlıq	24 20 19 22	28 24 23 2	20 25 20 21	23 29 23 24								
6	Mühazirələr zamanı müəllimin mövzuları tərbiyəvi baxımından əlaqələndirmə səviyyəsi	41	48	35	41	42	49	36	42	3	3	15	17
7	Seminar məşğələsində müəllim mövzuları tərbiyəvə baxımından əlaqələndirmə səviyyəsi	43	51	37	43	40	47	35	41	2	2	16	18
8	Tərbiyə texnologiyalarının tətbiqi ilə keçirilən seminar məşğələlərinə münasibətin necədir?	50	59	39	45	35	41	37	43	_	_	10	12
9	Hansı tərbiyə texnologiyası xoşuna gəlir?	40	47	31	36	43	51	43	50	2	2	12	14
10	Haradan başlanır Vətən?” sualına necə cavab verərdin?	45	53	33	38	40	47	48	56	_	_	5	6
11	Böyüklərə hörmətlə yanaşmaq nə üçün lazımdır?	49	57	32	37	36	42	41	48	_	_	13	15
12	Vətənin müdafiəsi kimin borcudur? 12.1. əsgərlərin 12.2. mənim 12.3. bizim	33 39 24	39 46 28	40 23 25	45 27 29								
13	44 günlük Vətən müharibəsindəki qələbəmiz səndə hansı hissləri qüvvətləndirib?	51	60	43	50	34	40	43	56	_	_	_	_
14	İnsan nə üçün sadə və təvazökar olmalıdır?	40	47	31	36	45	53	46	55	_	_	7	8
15	Həqiqi dost necə olmalıdır	42	49	30	35	41	48	48	56	2	2	8	9
16	Nə üçün belə deyirlər: “Vicdanın səsinə qulaq as”.	44	52	33	38	40	47	39	45	1	1	14	16
17	Biz nə üçün ədalətli olmalıyıq?	46	54	31	36	37	43	46	53	2	2	9	10

18	Bir çox adamların yaramaz əməllərini görüb, asanlıqla, fırıldaqla var-dövlət qazanmalarının şahidi olaraq düz və doğrucul olmaq hökmən lazımdırmı?	49	58	32	37	36	42	43	50	_	_	11	13
19	İnsanlar şəxsi, yoxsa ictimai mənafeyi əsas götürməlidirlər?	50	59	34	39	33	39	42	49	2	2	10	12
20	Yalançılıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir?	53	62	31	36	32	38	41	48	_	_	14	16
21	Yaltaqlıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir?	50	59	37	43	34	40	35	41	1	1	14	16

Qeyd: Sorğuda eksperimental qrupdan 85, kontrol qrupdan 86 tələbə iştirak etmişdir

Yoxlayıcı eksperiment zamanı eksperimental və kontrol qrup tələbələrinin göstəricilərinin müqayisəsi aparılmışdır. Bəzi göstəricilərlə tanış olaq:

Cədvələ daxil olan birinci sualda tələbələrdən soruşulur: "Özünütərbiyə ilə məşğul olursanmı?" Aydınlaşdı ki, eksperimental qrupda: tələbələrin özünütərbiyə ilə məşğul olması eksperimental qrupda: yüksək – 58% (49 nəfər), orta – 39% (33 nəfər), aşağı – 3% (3 nəfər); kontrol qrupda: yüksək – 41% (35 nəfər), orta səviyyə – 46% (40 nəfər), aşağı – 13% (11 nəfər).

5-ci sualda deyilir: "Səncə, mənəvi keyfiyyətlərindən hansının təkmilləşdirilməsinə ehtiyac vardır?" Bu sualla bağlı 4 keyfiyyətin adı çəkilir və eksperimental və kontrol qrupların göstəriciləri təqdim olunur: tolerantlıq, dəqiqlik, müstəqillik və təşəbbüskarlıq. Diqqət edək: tolerantlığa eksperiment qrupdan 24 (28%), kontrol qrupdan 20 (23%) tələbə; dəqiqliyə eksperiment qrupdan 20 (24%), kontrol qrupdan 25 (24%) tələbə; müstəqilliyə eksperiment qrupdan 19 (23%), kontrol qrupdan 20 (23%) tələbə; təşəbbüskarlığa eksperiment qrupdan 22 (25%), kontrol qrupdan 21 (24%) tələbə dəyər vermişdir.

6-cı sualla ("Mühazirələr zamanı müəllimin mövzuları tərbiyəvi baxımından əlaqələndirmə səviyyəsi") bağlı: eksperimental qrupda 41 tələbə (48%) müəllimin mühazirələrdə mövzuları tərbiyəvi baxımından yüksək səviyyədə; 42 tələbə (49;%) – orta səviyyədə; 3 tələbə (3%) – aşağı səviyyədə əlaqələndirdiyini; kontrol qruplarda 35 tələbə (41%) – yüksək; 36 tələbə (42%) – orta; 15 tələbə (17%) aşağı səviyyədə əlaqələndirdiyini bildirmişdir.

"Seminar məşğələsində müəllim möv-zuları tərbiyəyə baxımından əlaqələndirmə səviyyəsi"ndən söz açılanda (7-ci sual) eksperimental qrupda 43 tələbə (51%) müəllimin mühazirə-lərdə mövzuları tərbiyəvi baxımından yüksək səviyyədə; 40 (47%) tələbə - orta səviyyədə; 2 tələbə (2%) – aşağı səviyyədə əlaqələndirdiyini; kontrol qruplarda 37 tələbə (43%) - yüksək; 35 tələbə (41%) – orta; 16 tələbə (18%) aşağı səviyyədə əlaqələndirdiyini bildirmişdir.

8-ci sual "Tərbiyə texnologiyalarının tətbiqi ilə keçirilən seminar məşğələlərinə münasibətin necədir?" adlandırılmışdır. Eksperimental qrupdan olan 50 tələbənin (59%) münasibəti – çox yaşı; 35 tələbənin (41%) – orta olmuşdur. Eksperimental qrupdan olan tələbələrin heç birinin tərbiyə texnologiyalarının tətbiqi ilə keçirilən seminar məşğələlərinə münasibəti mənfi olmamışdır.

Kontrol qrupdan olan 39 tələbənin (45%) münasibəti – çox yaxşı; 37 tələbənin (43%) – orta, 10 nəfərin (12%) mənfi olmuşdur.

"Böyüklərə hörmətlə yanaşmaq nə üçün lazımdır?" – 11-ci sualdır.

Eksperimental qrupdan olan 49 tələbənin (57%) münasibəti – yüksək; 36 tələbənin (42%) – orta səviyyəli olmuşdur. Aşağı səviyyəli cavab olmamışdır.

Kontrol qrupdan olan 32 tələbənin (37%) münasibəti – çox yaxşı; 36 tələbənin (42%) – orta, 13 nəfərin (15%) aşağı olmuşdur.

12-ci sualla tanış olaq: "Vətənin müdafiəsi kimin borcudur?" Cədvəldə bu suala 3 cavab öz əksini tapmışdır: əsgərlərin, mənim, bizim.

Eksperimental və kontrol qrupların göstəricilərində deyilir: eksperimental qrup tələbələrinin 39%-i (33 nəfər), kontrol qruplarının 45%-i (40 nəfər) – əsgərlərin; eksperimental qrup tələbələrinin 46%-i (39 nəfər), kontrol qrup tələbələrinin 27%-i (23 nəfər) – "mənim"; eksperimental qrup tələbələrinin 28%-i (24 nəfər), kontrol qrup tələbələrinin 29%-i (25 nəfəri) – "bizim" cavabını vermişdir.

13-cü sual qürurvericidir. Sualda deyilir: "44 günlük Vətən müharibəsindəki qələbəmiz səndə hansı hissləri qüvvətləndirib?"

Cavablarla tanış olaq. Eksperimental qrupda: yüksək səviyyə - 60% (51 nəfər), orta – 40% (34 nəfər); kontrol qrupda: yüksək səviyyə –50% (43 nəfər),orta səviyyə - 56% (43 nəfər). Nə eksperimental, nə də kontrol qruplarda aşağı səviyyə müşahidə olunmamışdır.

Bəzi cavablarla tanış olaq:

Tələbə Tahir: Azərbaycanın erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımız 44 günlük müharibə, qələbəmiz nəticəsində azad olundu. Haradasa 30 il o torpaqlarımızın həsrətini çəkmişik. Şəxsən məndə Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan ordusuna böyük rəğbət, məhəbbət hissləri artdı, alovlandı.

Tələbə Gülşən: Azərbaycan torpaqları Nadir şahın dövründə 4 milyon kvadrat kilometri, Şah İsmayıl Xətayi dövründə –3 milyon kvadrat kilometrdən artıq idi. Bədxahlarımız illərlə torpaqlarımıza daraşıb onları öz aralarında bölüşdürmüşlər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cənubi Qafqazdakı Azərbaycan torpaqları artıq 113, 9 min kv.km təşkil edirdi. Sovet dövründə və ikinci dəfə müstəqilliyimizi əldə etdiyimiz dövrdə ərazimiz 86,6 min kv.km idi. Müstəqilliyimiz dövründə Ermənistan Respublikası havadarlarının dəstəyi ilə ərazimizin beşdə birini tutmuşdu.

Tələbə Zahir: Məhz Ali Baş Komandanın, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin başçılığı, müzəffər ordumuzun səyi ilə işğal olunmuş ərazilərimiz geri qaytarıldı, erməni ordusu darmadağın olundu, Ermənistan təslimçilik aktını imzaladı.

Tələbə Nərgiz: 44 günlük müharibə milli şərəf və ləyaqətimizi özünüzə qaytardı.

Beləliklə, aparılmış məqsədyönlü və sistemli iş nəticəsində eksperimental qrupların göstəriciləri kontrol qrupun göstəricilərindən yüksək olmuşdur.

Problemin aktuallığı. Tələbə gənclərdə mənəvi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi üçün tərbiyə texnologiyalarından istifadə aktuallığa malikdir. Təqdim olunan məqalədə yoxlayıcı eksperimentin nəticələri öz əksini tapır.

Problemin yeniliyi. Tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi baxımından tərbiyə texnologiyalarından faydalanma yeniliyi baxımından maraq doğurur. Yoxlayıcı eksperiment səmərəlilik göstəriciləri barədə aydın təsəvvür yaradır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. –Bakı: Mütərcim, –2020. – 608 s.
2. Abbasov, A.N. İxtisasa giriş: Ali təhsil müəssisələri üçün dər vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. –Bakı: Mütərcim, –2020. – 164 s.
3. Abbasov, A.N. Ailə pedaqogikası: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. –Bakı: Mütərcim, –2020. –272 s.

Redaksiyaya daxil olub: 17.10. 2025

UOT 37.033

Sevinc Tofiq qızı Vəliyeva
Naxçıvan Müəllimlər İnstitutunun
Pedaqogika və psixologiya kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org//0009-0000-0710-6324
E- mail:veliyeva_1979@bk.ru
https://doi.org/10.69682/arti.2026.93(1).50-56

HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ TƏLİM XARAKTERLİ SİNİFDƏNXARİC MƏŞĞƏLƏLƏRDƏ AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA, TƏBİƏTİNƏ QAYĞIKEŞ MÜNASİBƏT FORMALAŞDIRMAĞIN İMKANLARI VƏ YOLLARI

Sevinj Tofig Valiyeva
head of the department of Pedagogy and psychology
at Nakhchivan Teachers Institute
doctor of philosophy in pedagogy

POSSIBILITIES AND WAYS OF DEVELOPING A CARING ATTITUDE TOWARDS THE FLORA, FAUNA AND NATURE OF AZERBAIJAN IN EXTRACURRICULAR ACTIVITIES ON THE SUBJECT "EXPLORING THE WORLD"

Севиндж Тофиг гызы Велиева
заведующий кафедрой Педагогики и психологии,
Нахчыванского Института Учителей
доктор философии по педагогике

ПУТИ И ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ БЕРЕЖНОГО ОТНОШЕНИЯ К ФЛОРЕ, ФАУНЕ И К ПРИРОДЕ АЗЕРБАЙДЖАНА ВО ВНЕКЛАССНЫХ ЗАНЯТИЯХ ОБУЧАЮЩЕГО ХАРАКТЕРА ПО ПРЕДМЕТУ ПОЗНАНИЕ МИРА

Xülasə. İbtidai sinif müəllimləri Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlər təşkil etməklə, bu məşğələlərin imkanlarından faydalanmaqla, kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılmasına nail ola bilərlər.

Məqalədə həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları diqqətə çatdırılır.

***Açar sözlər**: həyat bilgisi, Həyat bilgisi fənni, təlim xarakterli sinifdənxaric məşğələlər, Azərbaycanın flora və faunası, təbiətinə qayğıkeş münasibət, təbiətə qayğıkeş münasibətin formalaşdırılması*

Abstract. Primary school teachers can achieve the formation of a careful attitude towards the flora and fauna of Azerbaijan in younger students by organizing extracurricular activities on the subject "Exploring the World" and using the opportunities of these activities.

The article draws attention to the possibilities and ways of forming a careful attitude towards the flora and fauna of Azerbaijan in extracurricular activities on exploring the world.

***Key words**: life sciences, life sciences subject, educational extracurricular activities, flora and fauna of Azerbaijan, caring attitude towards nature, formation of caring attitude towards nature*

Аннотация. Учителя начальных классов могут добиться формирования у младших школьников бережного отношения к флоре и фауне Азербайджана, организуя внеклассные занятия по предмету «Познание мира» и используя возможности этих занятий.

В статье обращается внимание на возможности и пути формирования бережного отношения к флоре и фауне Азербайджана во внеклассной деятельности по предмету Познание мира.

***Ключевые слова**: познание мира, предмет Познание мира, внеклассные занятия обучающего характера, флора и фауна Азербайджана, бережное отношение к природе, формирование бережного отношения к природе*

II sinif şagirdləri ilə məşğələdə müəllim Əhməd Cəmilin "Vətən" şeirini yada salır. Məktəblilər Rəşid Behbudovun ifasında "Vətən" nəğməsini dinləyirlər. Musiqinin sədaları altında monitorda ölkəmizin gözəl təbiəti göz oxşayır. Əsrarəngiz mənzərələr bir-birini əvəz edir: Xəzər dənizinin qumlu sahilləri, Göy Gölün əsrarəngizliyi, yaşıllıqlar və gül-çiçəklərlə dövrələnmiş Maralgöl, enliyarpaqlı meşələr, göy çəmənlər, nadir quşlar, daha nələr nələr.

Mahnı sona yetir. Şagirdlər Azərbaycan təbiətinin təsiri altındadırlar. Bu təbiətə görə, maddi və mənəvi sərvətlərimizə görə milli iftixar hissləri keçirirlər. Müəllimin sualına cavab olaraq şagird deyir:

– Azərbaycanımız gözəl təbiətə malikdir. Bizim borcumuz, vəzifəmiz bu gözəlliyi qorumaq və inkişaf etdirməkdir.

Digər şagird:

– Biz ölkəmizin bitki və heyvanat aləminə qayğı ilə yanaşmalıyıq. Təbiətə qayğısız, laqeyd münasibət bəsləyən şəxsləri başa salmaq lazımdır ki, havamız, suyumuz, qidamız nə qədər saf, təmiz, təbii olsa, ömrümüz bir o qədər uzun olar.

Başqa şagird:

– Parklarda, bağ-bağçalarda meyvə ağacları, rəngbərəng gül-çiçək olur. Baxımsız olduqda onlar quruya bilər. Bitkilər də, ağaclar da, kollar da canlıdır. Nəfəs alırlar. Yaşıllıq bizim üçün oksigen istehsal edir. özümüzü bu oksigendən məhrum edə bilmərik.

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə müəllimin tapşırığına əsasən, məktəblilər bitki və heyvanat aləminə, təbiətə dair atalar sözləri və məsəllərinə müraciət edir, bayatılar, şeirlər deyirlər. Tapmaca söyləyib cavabını tapırlar.

Təlim xarakterli sinifdənxaric məşğələdə mükafatlanma həyata keçirilir. Müsabiqə elan olunur: kim vətənin ekoloji aləminə, atmosferinə, flora və faunasına, hidrosferi və biosferinə, qoruqlarına, balıqlarına dair məzmunlu faktlar və məlumatlar çatdırarsa, rəğbətləndirəcəkdir. Şeir, mahnı müsabiqəsi də keçirmək mümkündür.

Müəllim onlara Vətənimizə aid bir şeiri təqdim edir. Müəllifi bilinməyən "Belə sevdim, mən Vətəni" şeirində Vətənə məhəbbətlə yanaşı onun təbiətinin gözəllikləri təsvir olunub. Həmin şeirlə bağlı şagirdlərə suallar verilir.

Şeirə münasibət bildirmək, tərənnüm olunan başlıca məsələləri vurğulamaq məktəblilərə tapşırıla bilər. Müəllim ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmağın və təbiəti qorumağın vacibliyinə diqqəti yönəldir.

Müəllim:

Vətən bizim ürəyimiz,
O, suyumuz, çörəyimiz.
Ölsək belə, gərəyimiz,

Belə sevdim, mən Vətəni, – söyləyən şair Vətənin bizim ürəyimiz, suyumuz, çörəyimiz olduğuna diqqəti yönəldir. İnsanın mövcudluğu üçün başlıca rol oynayan şeyləri diqqət mərkəzinə gətirir. Hətta "ölsək belə, Vətənimizin yenə də "gərəyimiz" olduğunu deyir.

Şagirdlərin gəldikləri qənaət: "Çox gözəl mənalandırmadır".

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə təqdim olunan şeirin aşağıdakı beyti üzrə şagirdlərə sual verilir:

Göy Gölü var, Xəzəri var,
Xəbislərin nəzəri var.

Müəllim: – Şair nə üçün "Xəbislərin nəzəri var" deyir? Kimlərdir bu xəbislər?

Şagirdlər cavablandırmağa çalışırlar:

– Azərbaycanımızın gözəl dənizi var – Xəzər dənizi. Gölləri də var: Göy Göl. Bu gözəllik düşmənlərimizi narahat edir, yuxularını ərşə çəkir.

Başqa sual. Şagird: – Bizim daha hansı gölümüz var?

Müəllim:

– Ölkəmizdə təxminən müxtəlif xarakterli 450 göl mövcuddur. Onlardan Maralgöl, Böyükşor, Qanlıgöl, Ağgöl , Qaragöl və başqaları

Şagird: – Bizim qürbətdə olan gölümüz də var.

Müəllim: – Doğrudur. Göycə gölü hazırda ermənilər məskunlaşdığı ərazidə yerləşir. Həmin ərazi tarixən Azərbaycan torpağı olub. Azərbaycanlıların, Aşıq Ələsgərin vətəni olub və hazırda da vətənidir o torpaqlar.

Müəllimin sualı: – Göy Göl, Maralgöl harada yerləşir?

Məktəbli: – Göy Göl Gəncə şəhəri yaxınlığındadır. Maralgöl də həmçinin.

Göycə gölü

Müəllim:

– Göycə gölü barədə nə deyə bilərsiniz?

Şagird:

–Xəzər dənizində, Kür çayında, Göy Göldə, Araz çayında, Maralgöldə olduğu kimi Göycə gölündə də zəngin balıq və canlılar aləmi mövcuddur. Bu göllər yaşıllıqlarla, meşələrlə, əhatə olunublar. Meşələrdə heyvanlar və quşlar məskunlaşıblar. Göllərimiz, çaylarımız, bulaqlarımız ölkəmizin təbiətini gözəlləşdirir.

Məşğələnin ruhuna uyğun olaraq misralar səslənir. Həmin misralarda uca dağların baş-başa dayandığı, düzlərin isə, bir tamaşa; dərələri – dərin, yaylaqların səpsərin olduğu; Vətənin qoynunun da gözəlliyi, doğmalığı tərənnüm edilir.

Müəllim: – Uşaqlar, şeirlə bağlı fikrinizi bildirin.

Məktəbli: – Şeiri dinlədikcə Kəpəz dağı, İlandağ, Şahdağı, Əlincədağ, Tufandağ, Dəli dağı, Talış dağları, Böyükdüz dağı yada düşür.

–Müəllim: – Uşaqlar, siz bilirsinizmi ki, Azərbaycanımızın ərazisinin təxminən 60 faizini dağlıq ərazilər tutur.

Şagird: – Müəllim, bunu bilmirdik. Yaxşı ki, öyrəndik.

Müəllim: – Bu dağlardan hansılar barədə məlumat verə bilərsiniz?

Şagird S.: – İcazənizlə Kəpəz dağı barədə məlumat verim.

Müəllim: – Buyur.

Şagird S.: – Göygöl rayonunun ərazisindədir. 3066 metr hündürlüyündədir. Zəlzələlər səbəbindən Kəpəz neçə dəfələrlə uçqunlara məruz qalmışdır. Axırıncı uçqun 1139-cu ildə olmuşdur. Kəpəzin yerindən qopan sal daşlar, qaya parçaları Ağsu çayının dərəsinə yuvarlanmış, çayın qarşısını qapayaraq Göy Gölü, Maralgölü meydana çıxarmışdır.

Müəllim: – Çox yaxşı. Yoldaşlarına çox yaxşı məlumat çatdırdın. Daha kimin sözü var?

Şagird V.: – Mən İlandağ barədə danışmaq istəyirəm. Bu dağ Culfa rayonunun ərazisindədir. 2415 metr hündürlüyündədir.

Şagird Ü.: – Müəllim, olar ki, mən əlavə edim?

Müəllim: – Buyur.

Şagird Ü.: – Dağ vulkan səciyyəlidir. Zirvəsinin aldığı formaya bu dağı Haça dağ da adlandırırlar.

Şagird P.: – İlandağla bağlı bir rəvayət var. Nuh peyğəmbərin gəmisi, sən demə, Gəmiqaya ilə yanaşa digər bir dağ zirvəsinə də çırpılıbmış. Toxunuşdan gəmi çox yırğalanıb. Bunu görən Nuh peyğəmbər üzünü gəmidəkilərə tutaraq: "İlan, dağdır", – söyləyib. Həmin rəvayət dillərdə dolaşıb, "İnan dağ" "İlandağ" şəklini alıb.

Şagird B.: – Mən Əlincə dağı barədə məlumat vermək istəyirəm. Bu dağ zirvəsinin hündürlüyü 1821, 4 metrdir. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yerləşir.

Şagird G.: – Əhməd Cəmil "Vətən" şeirində "düzlərimiz" söyləyəndə ola bilsin ki, Cıdır düzünü fikrində tutub. Cıdır düzü Şuşa şəhərindədir. Bu düzdə vaxtilə müxtəlif oyunlar ("Yaylıq oyunu", "Papaq oyunu" və s.) yarışlar, qaçış və covqan oyunları təşkil edilirdi. Özü də yarışlar atlardan başqa həm də dəvələrlə keçirilirmiş. Qoç və dəvə döyüşləri, olurmuş. Burada pəhləvanlar güclərini sınayarlarmış. Qələbə qazananlar mükafatlandırılarmış.

Şagird T.: – Azərbaycanın maddi və mənəvi sərvətləri həmişə qibtə doğurub. Dostlar buna sevinib, düşmənlər od tutub yanıb.

– Respublikamız dünyada çayları, sərin bulaqları, gölləri, yaylaqları, təmiz havası, dərman bitkiləri, ətirli çiçəkləri ilə tanınır. Çay və göllərimizin sahillərində maral, ceyran, cüyür gəzib dolaşmış, qidalanmış, saf sudan içmişlər. İnsanlar saf sulu, göy rəngə çalan suyunu bəyənərək gölə Göygöl adını vermişlər. Ölkəmizin bitki və heyvanat aləmi ekoloji mühiti zənginləşdirən, saflaşdıran amildir. Onlara qayğı varsa, qorunursa ekologiya da mühafizə edilmiş olur.

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə şəkillər üzrə tapşırıq və suallar əsasında şagirdlər bu və ya digər flora və fauna nümunəsi barədə məlumat verirlər.

Qızılgül **–** güllərin şahıdır. Bayramlarda, ad günlərində, toy məclislərində insanlar, sevgililər bir-birlərinə qızıl gül təqdim edir, sevinclərini bir-birlərinə çatdırırlar. Qızılgül evləri bəzəyir, ətri gözəldir, özü qəşəngdir, göz oxşayır, mənzilə, məclislərə yaraşıq verir. Qızılgül kolunun hündürlüyü haradasa 1,5-2,0 metr olur. Gövdəsi yaşıl, yaxud qırmızı-yaşıl tikanlıdır. Çiçəyi 100-ə qədər ləçəyi əhatə edir. Qızılgülün 300-ə yaxın növü, 3 min sortu mövcuddur. Həmin növlərdən biri olan efiryağlı qızılgül əlli ilə qədər yaşaya bilir.

Qızıl gül ləçəyindən ətir, mürəbbə, yağ hazırlanır. 1 kiloqram qızıl gülü əldə etmək üçün 4 ton ləçək lazındır. Bu yağın qiyməti az qala 10 min dollara çatır.

Yer üzündə zanbağın 240 cinsinə və 4000 növünə rast gəlmək mümkündür.

Suallar: 1. Qızılgül kolunun hündürlüyü neçə metr olur? 2. Siz hansı gülü daha çox xoşlayırsınız? 3. Siz qızılgülü xoşlayırsınız? 4. Qızılgülün neçə növü vardır?

Zanbaq gülü. Qızılgül kimi zanbaq da bayramların, ad günlərinin, toyların bəzəyidir. Zanbaq gülünün adı "türban" mənasına verən fars sözü "toliban"dan alınmışdır. Bu, təsadüfi deyildir. Zanbaq gülünün qönçəsi baş örtüyünə oxşayır. Onun vətəni İran hesab edilir.

Zanbaq göy və qara, hamar və çoxləçəkli, iri və kiçik, alçaq boylu olur. Onun təxminən 3 metr hündürlüyə çatan növlərinə də rast gəlmək mümkündür.

Zanbaq İrandan Türkiyəyə aparılıb, lalə adlandırılıb. Deyilənə görə, Türk sultanının bağbağçasında yaz aylarında haradasa 500 min zanbaq çiçək açarmış. Hər il zanbaq gülü ilə bağlı bayram mərasimləri təşkil olunurmuş.

Hazırda da yaz girəndə İstanbul şəhərinin Əmirgan parkında zanbaq (lalə) festivalı olur.

Zanbaq bütün dünyada yayılmışdır, sevilir. İndi Yer üzündə zanbaqların 2500-dən çox növü var.

***Suallar*:** 1. Zanbaq gülünün adı hansı sözdən götürülmüşdür? 2. Zanbaq gülünün qönçəsi nəyi xatırladır? 3. Zanbaq gülü hansı rənglərdə olur? 4. Türkiyə sultanının zanbağa münasibəti necə olub? 5. Türk sultanının bağında neçəmin zanbaq çiçək açarmış? 6. Hazırda yaz ayında Türkiyənin hansı ərazisində zanbaq (lalə) festivalı keçirilir? 7. Yer üzündə zanbağın neçə növü var?

Qərənfil gülü. Gül-çiçəklər arasında Qərənfil gülünün həmişə öz ad-sanı, şöhrəti olub. Qızılgül, Ətirşah, Zanbaq, Lalə... kimi. Bayram günlərində, təntənəli mərasimlərdə digər qiymətli, gözəl güllər kimi Qərənfildən də dəstək bağlayıb, çələng bağlayıb təqdim edərdilər. 8 Mart – Qadınlar günündə xanımlara qərənfillər verər, onları təbrik edərdilər.

Qərənfil müxtəlif rənglərdə olur: ağ, qırmızı, çəhrayı, sarı, çəhrayı kantlı və s.

Qərənfil ilin bütün fəsillərində olur. Əkilib bitdiyi kimi, istixanalarda da yetişdirilir. Bakıda qərənfil gülçülükləri mövcuddur. Məsələn, Nardaran gülçülüyü.

Rəngindən asılı olaraq bu gülün mənası var. Belə ki, qırmızı qərənfil qızılgül kimi – eşq və sevgidən, çəhrayı qərənfil məsumluq, həssaslıq və məhəbbətdən, ağ qərənfil - təmizlik və saflıqdan xəbər verir.

Sevgi, məhəbbət, eşq, məsumluq, saflıq rəmzi olan qərənfil ölkəmizdə birdən-birə göz yaşlarına büründü. Sevinci, xoşbəxtliyi, bəxtiyarlığı, xoş müjdəsi yoxa çıxdı. Həmin vaxtdan nə aç, nə çox, düz 34 il ötür. 1990-cı il yanvarın 19-dan20-nə keçən gecə Qırmızı ordu dəstələri tanklarla, zirehli texnika ilə Bakıya soxuldular. Erməni özbaşınalığına, vəhşiliyinə, torpaq iddiasına göz yuman Sovet rejiminə qarşı azadlıq səsinə qaldıran dinc sakinlər güllələbaran edildilər. Neçə yüz Azərbaycan vətəndaşı öldürüldü, yüzlərlə şəxs itkin düşdü. Gül yetişdirənlər qərənfil güllərini gətirib küçələrdə iz buraxmış qan ləkələrinin üzərinə düzdülər. Bakıda, rayon və şəhərlərdə "Şəhidlər xiyaban"ları salındı. Şəhid məzarlarını, xiyabanları qərənfillər bəzədi. Həmin gündən respublikamızda qərənfil matəm gülü elan olundu.

30 ildən çoxdur ki, ad günlərində, bayramlarda, toyda insanlar daha qərənfillə bir-birlərini təbrik etmirlər. Rəhmətə getmiş əzizlərini, 20 yanvar şəhidlərini, Qarabağ müharibəsində həlak olanları ziyarət edəndə qərənfil gülündən istifadə edirlər.

Bu məlumatı kiçikyaşlı məktəblilərə çatdıram müəllim daha sonra onları Z. Kazımova "Bir gülün dəyişən taleyi: Qərənfil gülü" hekayəti ilə tanış edirlər. Həmin tanışlıqdan sonra şagirdlərə suallar verilir.

Suallar və tapşırıq: 1. Bu hekayənin müəllifi kimdir? (*Zeynəb Kazımova*). 2. Baba hər il yanvarın 19-da Zərifəni hara aparırdı? (*Şəhidlər xiyabanına*). 3. Baba gül mağazasına yaxınlaşıb hansı güldən aldı? (*Qərənfil gülündən*). 4. Şəhidlər xiyabanına yaxınlaşanda baba adəti üzrə nəvəsinə neçə dənə gül verirdi? (2 gül). 5. Baba Zərifəyə nə üçün 3, 5 gül deyil, 2 gül verirdi? Yəni tək yox, həmişə cüt gül verirdi? (*ad günlərində, toylarda, bayramlarda verilən güllər, adətən tək olur, matəm mərasimlərində verilən güllər isə, cüt*). 5. Baba Zərifənin "Nə üçün biz həmişə bu güldən alıb gətiririk. Niyə başqa güllərdən almırıq?" – sualına baba nə cavab vedi? (*baba qanlı, qara yanvarı yada salır*). 6. He-

kayədə göstərildiyi kimi, Zərifə ayaq saxlayıb məzar daşında öz əksini tapmış Fərizə ilə İlhamın şəklinə baxdı. Onlar kim idi? (*onlar ər-arvad idilər. Toyları təzə olmuşdu. İlhamın şəhid olduğunu eşidən Fərizə də özünə qəsd edir. Ulu eşqin təntənəsi*). 7. Qərənfil əvvəlki on illiklərdən fərqli olaraq daha sevinci, şadlığı deyil bəs nəyi ifadə edir? (*kədəri, hüznü*).

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə qeyd olunur: Azərbaycanın təbiəti gözəldir. Dünyada doqquz iqlim qurşağı var, onun doqquzu respublikamızdadır. Təbiətin gözəl olmağı o demək deyil ki, yalnız bu gəzəlliklərdən faydalanasan, nemətlərindən bəhrələnəsən. Bu gözəlliyi qorumaq, zənginləşdirmək lazımdır. Bu özü Vətən, yurd sevgisi, ekoloji mühitin saflaşdırılması qayğısına qalmaq deməkdir.

Müəllim şagirdlərə müraciətlə soruşa bilər:

–"Bu gözəlliyi qorumaq, zənginləşdirmək lazımdır", – deyirik. Bunu necə başa düşmək lazımdır.

Şagird: – Bizim hər birimiz yaşıllaşdırma hərəkatına qoşulmalıyıq. Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanım Əliyeva, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq kampaniyasının (**İDEA**) sədri Leyla xanım Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə hər il ölkəmizdə ağacəkmə aksiyaları həyata keçirilir, minlərlə ağac basdırılır, onlara qulluq göstərilməsi təmin olunur. Belə ki, 2024-cü ilin oktyabr ayının 29-da Xətai rayonunda, "Gənclik" parkında belə bir tədbir təşkil edilmişdi. Beləliklə, Heydər Əliyevin adını daşıyan Fondun "Regional İnkişaf İctimai Birliyinin və "İDE" könüllülərinin, eləcə də Avropa Azərbaycan Məktəbi şagirdlərinin fəal iştirakı ilə 600 ədəd Eldar şamı əkilmişdir.

Bunu da qeyd etmək lazımdır ki, son zamanlar respublikamızda yaşıllaşdırma və abadlaşdırma işləri geniş vüsət almış, ağacların qanunsuz kəsilməsi, onların tərg edilməsi, budağının sındırılması və s. bu kimi hallar çox azalmışdır. Təbiətin qorunması xüsusi nəzarət altındadır. Bu, çox yaxşı haldır. Ekoloji problemlərin qarşının alınmasının vasitələrindən biri kimi özünü göstərir.

Leyla Əliyevanın rəhbərliyi ilə IDEA İctimai Birliyinin üzvləri Bakıda qanunsuz ağac kəsilməsi hallarının qarşısını almaqdadırlar. Bakı şəhərində, digər şəhər və rayonlarımızda yüzlərlə, minlərlə yeni ağaclar əkilir. IDEA İctimai Birliyi ağacəkmə mərasimlərini genişləndirməklə Azərbaycanın florasının, təbiətinin qorunmasının zəruriliyini vətəndaşlara, o cümlədən yeniyetmə və gənclərə çatdırır. Beləliklə, insanlar ekoloji problemlərə, ekoloji böhrana qarşı birgə mübarizəyə çağırır.

Şagird: – Belə aksiyalarda bizin hər birimiz də yazından iştirak etməliyik.

Şagird: – Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Əcnəbiləri ölkəmizə cəlb edən Azərbaycanın qədim tarixə malik olması, abidələrinin qədimiliyi, maddi və mənəvi sərvətlərinin bolluğu, təbiətinin gözəlliyi, florası və faunası, incəsənəti, mədəniyyəti, mətbəxinin zənginliyi, xalqımızın qonaqpərvərliyi, insanlarının mehribanlığı, respublikamızda hökm sürən tolerantlıq mühiti, xalqların, millətlərin burada qaynayıb-qarışması, dost və qardaş münasibətində olmasıdır.

Təlim xarakterli sinifdənxaric işin bu şəkildə aparılması kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına rəğbət və məhəbbətin inkişafına, təbiətə qayğı ilə yanaşmanı formalaşdırmaq üçün geniş imkanlar açır.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə öyrədici materiallardan faydalanarkən heyvanlara, gül-çiçəklərə dair şifahi xalq yaradıcılığı nümunələrindən faydalanmaq mümkündür.

Təlim xarakterli sinifdənxaric məşğələlər zamanı Azərbaycanımızın florasına aid də öyrədici materiallar yada salınır. Çiçəklərlə bağlı rəvayət nəzərdən keçirilə bilər. Diqqət yetirək:

Azərbaycan dili, musiqi və Həyat bilgisi fənləri üzrə dərslərdə Azərbaycanın flora və faunası, təbiəti ilə tanışlıq hələ onların ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğıkeş münasibətin təşəkkül tapacağına zəmanət vermir. Təlim xarakterli sinifdənxaric məşğələ və tədbirlərdən də faydalanmaq lazımdır.

Həyat bilgisi üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə şagirdlərin təbiətə aid rəsm əsərləri ilə tanış olmaları da faydalıdır. Səyyar Bəhlulzadənin aşağıdakı məşhur rəsmlərini onlara təqdim etməklə fikirlərini öyrənmək mümkündür:

I-IV siniflərin Həyat bilgisi dərsliklərində təbiətə aid şeirlər nədənsə azlıq təşkil edir. Təlim xarakterli sinifdənxaric məşğələlərdə kiçikyaşlı məktəblilərin xalqımızın görkəmli şairləri-

nin, həmçinin gənc şagirdlərinin təbiətə aid şeirlərindən seçmələrlə tanış olmaları təmin edilməlidir. Bu baxımdan Səməd Vurğunun "Təbiət ilhama çağırır məni" şeri səciyyəvidir. Şagirdlərdə Azərbaycanımızın flora və faunasına rəğbət, məhəbbət hisslərinin inkişafına öz köməyini göstərir, təbiətimizə, onun gözəlliklərinə qayğını tələbata çevirir. Şeiri dinləyən şagirdlərə suallar verilir. Diqqət yetirək:

Suallar və tapşırıq: 1. Şeirin müəllifi kimdir? 2. Müəllif haqqında nə bilirsiniz? 3. Şair ilin hansı fəslindən söz açır? 4. Dağlar nə zaman yam-yaşıl geyinir? 5. Qaynar bulaqlar nə edir?6. Güneylər döşündəki qara nə olur? 7. Şair təbiətdən niyə ilham alır? 8. Dan yeri söküləndə təbiətdə nə kimi dəyişiklik olur? 9. Tarla və zəmilər niyə şadlanır? 10. Şeir qəhrəmanı nəyi özünə şöhrət hesab edir? 11. Haralar sərin olur? (fikrinizi şeirə əsasən deyin) 12. Su insanın həyatında nə kimi rol oynayır? 13. Hara su gəlir? 14. Torpağa insanın nəyi gəlir? 15. Şair Vətəni niyə bağrına basır? 16. Səməd Vurğunun "Təbiət ilhama çağırır məni" şerini əzbərləyin.

Həyat bilgisi fənn üzrə təlim xarakterli sinifdənxaric məşğələdə öyrədici materialın təqdimatından sonra alınan nəticələr sübut yetirdi ki, şagirdlərə bitki və heyvanat aləmi, ölkəmizin təbiətinə, dair bilik və məlumatlar onlarda maraq doğurur. Bu zaman şagirdlər Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət bəsləyirlər.

Sorğunun nəticələrindən görünür ki, təqdim edilən materiallardan faydalanan məktəblilər artıq bitki və heyvanat aləminə qayğı ilə yanaşmağa başlayırlar. Ağacları, gül-çiçəyi, meyvə və giləmeyvə ağaclarını, bitkiləri və heyvanları sevir, qoruyur, hər birinə həssaslıqla yanaşır, başqalarından da bu münasibəti gözləyirlər. Bu cür münasibət şagirdləri flora və faunamıza, Azərbaycanın flora və faunasına, təbiətinə yaxınlaşdırır.

Qənaətlərimiz:

-I-IV siniflərdə həyat bilgisinin öyrədilməsi zamanı şagirdlərdə Azərbaycanın flora və faunasına, təbiətinə, ekologiyasına qayğı ilə yanaşmaya nail olmaq üçün zəruri imkanlar yaranır;

– Kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətə qayğıkeş münasibət formalaşdırmaq üçün təlim xarakterli sinifdən xaric məşğələlərdən istifadə olunması faydalıdır.

– Təlim xarakterli sinifdənxaric məşğələlər keçirilərkən kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmaya istiqamətlənən tədbirlərə geniş yer verilə bilər. "Ekoloji böhran: buna səbəb kimdir, yaxud nədir?", "Ölkəmizin ekologiyası", "Azərbaycanın florası", "Ölkəmizin faunası", "Azərbaycan təbiətinin gözəllikləri", "Gəzməli, görməli yerlərinmiz", "Azərbaycan gölləri", "Azərbaycan çayları" və s. mövzularda söhbətlərin təşkili faydalıdır. Tədbirlər vaxtı şagirdlərin təbiətə qayğılı münasibətə dair fikirlərini və maraqlı məlumatlarını dinləmək olar. Söhbətlərdə təbiətin, onun gözəlliklərinin, yaşıllıqların mühafizəsi, onlara qayğının göstərilməsi ilə bağlı məlumatlar çatdırılar. Söhbətlər vaxtı bağların, meşələrin, parkların, meşədə məskunlaşmış canlıların qorunması, onlara qayğı göstərilməsi ilə bağlı tövsiyələr və məsləhətlər verilir.

–Təlim xarakterli sinifdənxaric tədbirlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğının göstərilməsi ilə bağlı görüşlər də şagirdlərdə ekoloji mədəniyyətin təşəkkülünə güclü təsir göstərir. Bu fikir baxımından ümumtəhsil məktəblərində Azərbaycanın flora və faunasının mühafizəsi, təbiətə qayğıkeş münasibətin formalaşdırılması ilə əlaqədar məşhur şəxslərlə görüşlər təşkil edilə bilər. Həmin görüşlərdə məktəblilər fiziki və zehni əməyin gözəllikləri, texnikanın, bədii və elmi təfəkkürün uğurları barədə məlumata yiyələnirlər.

Problemin aktuallığı. Diqqət Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmsından gedir. Vasitə kimi Həyat bilgisi dərsləri seçilib.

Problemin yeniliyi. Həyat bilgisi fənninin tədrisində Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmsı məsələləri üzərində dayanılır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2016. – 460 s.

2. Abbasov, A.N. Ailə dəyərləri: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2024. – 108 s.
3. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-1-ci-sinif-ucun-darslik-1689493243-274.pdf
4. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-2-ci-sinif-ucun-darslik-1720091726-165.pdf
5. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-3-cu-sinif-ucun-darslik-1703741054-414.pdf
6. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-4-cu-sinif-ucun-darslik-1689335496-323.pdf
7. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-4-cu-sinif-ucun-metodik-vasait-1697805095-566.pdf
8. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-3-cu-sinif-ucun-metodik-vasait-1669207871-786.pdf
9. https://www.trims.edu.az/noduploads/book/hayat-bilgisi-fanni-uzra-2-ci-sinif-ucun-metodik-vasait-1726148053-720.pdf
10. https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-1-ci-sinif-ucun-metodik-vasait-1695369958-579.pdf

Redaksiyaya daxil olub: 03.02.2026

UOT 37.013.46

Dilşad Xanverdi qızı Talıbova
Gəncə Dövlət Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-2811-1975
E-mail: talibovadilsad@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).57-61

AĞIL TƏRBİYƏSİNİN MƏNTİQİ KÖKLƏRİ

Dilshad Khanverdi Talibova
sinior lecturer at Ganja State University,
doctor of philosophy in pedagogy

LOGICAL ROOTS OF MIND EDUCATION

Дильшад Ханверди гызы Талыбова
старший преподаватель Гянджинского Государственного Университета,
доктор философии по педагогике

ЛОГИЧЕСКИЕ ОСНОВЫ УМСТВЕННОГО ВОСПИТАНИЯ

Xülasə. Məqalədə ağıl tərbiyəsinin məntiqi əsasları verilir, onun məntiqi kökləri üzə çıxarılır və əsaslandırılır. Bununla bağlı prof. N.M. Kazımov tərəfindən söylənilən müasir elmi ideyalar təzələnmiş və onlara aydınlıq gətirilmişdir. Müəyyənləşdirilir ki, məfhumun təşəkkülü - dialektik prosesdir, hər bir məfhum tarixi inkişafın, adamların ictimai istehsal təcrübəsinin məhsuludur. Məfhumun məhdudlaşdırılması zamanı şüurumuz ardıcıl olaraq bir obyektdən digərinə, bir məfhumdan başqasına keçir. Yekun olaraq aydın olmuşdur ki, xarici aləmin cisim və hadisələrinə xas olan oxşarlıq və fərq əlamətləri baş beyin qabığında cərəyan edən fizioloji proseslərdə, psixoloji və məntiq hadisələrində, o cümlədən məfhumlarda, habelə məfhum üzərindəki əməliyyatlarda: tərifdə, təsnifdə, məhdudlaşdırmada, ümumiləşdirmədə və mühakimədə əks-səda verir. Bu cür əks-səda bizim istək və arzularımızdan asılı deyil, obyektiv prosesdir. Məqalə müasir pedaqoji ideyaların inkişafı üçün mühüm rol oynayır.
Açar sözlər: *ağıl tərbiyəsi məfhumu, ağıl tərbiyəsinin məntiqi və psixoloji kökləri, müqayisə priyomu, elmi ümumiləşdirmə*

Abstract. The article provides the logical foundations of mental education, reveals and substantiates its logical roots. In this regard, modern scientific ideas expressed by prof. N.M. Kazimov were updated and clarified. He found out that the formation of a concept is a dialectical process, each concept is a product of historical development, the experience of people of social production. During the limitation of a concept, our consciousness consistently moves from one object to another, from one concept to another. In conclusion, it turned out that the signs of similarity and difference characteristic of objects and phenomena of the external world are reflected in physiological processes, psychological and logical phenomena occurring in the cerebral cortex, including concepts, as well as in operations on concepts such as definition, classification, limitation, generalization and judgment. Such a process does not depend on our desires, but is an objective process. The article plays an important role in the development of modern pedagogical ideas.
Key words: *mind education, logical and pedagogical roots of mind education, method of comparison, scientific generalization*

Аннотация. В статье представлены логические основы умственного воспитания, раскрыты и обоснованы его логические корни. В связи с этим были обновлены и уточнены современные научные идеи, высказанные проф. Н.М. Казимовым. Выяснено, что образование понятия - это диалектический процесс, каждое понятие - продукт исторического развития, опыта людей общественного производства. Во время ограничения понятия наше сознание последовательно переходит от одного

объекта к другому, от одного понятия к другому. В заключение выяснилось, что признаки сходства и различия, характерные для предметов и явлений внешнего мира, находят отражение в физиологических процессах, психологических и логических явлениях, происходящих в коре головного мозга, включая понятия, а также в операциях над понятиями как определение, классификация, ограничение, обобщение и суждение. Такой процесс не зависит от наших желаний, а является объективным процессом. Статья играет важную роль для развития современных педагогических идей.

Ключевые слова: *понятие умственного воспитания, логические и педагогические корни умственного воспитания, прием сравнения, научное обобщение*

Həyatımızın bütün sahələrində yaradıcı düşünməyə, qurub yaratmağa, xalq təsərrüfatının, elm və mədəniyyətin inkişafını sürətləndirməyə qadir olan adamlara müstəqillik qazanmış respublikamızın ehtiyacı indi xeyli artmışdır. Belə bir ehtiyacın ödənməsinə təfəkkür tərzlərinin özəyi hesab etdiyimiz və ağılın sönməz məşəli adlandırdığımız müqayisə bacarığı əhəmiyyətli dərəcədə kömək edə bilər.

Məfhum məntiq elmində ən sadə kateqoriyalardan biridir. Məfhumun mahiyyətini daha dərindən başa düşmək üçün onun məzmunu ilə həcmi arasındakı fərqi nəzərə almaq lazım gəlir.

Məlumdur ki, hər hansı məfhumun iki başlıca göstəricisi vardır: həcmi və məzmunu. Məfhumun həcmi həmin məfhumun əhatə etdiyi obyektlərin məcmusu ilə təyin edilir. Məfhumun əhatə etdiyi obyektlərdəki əlamətlərin məcmusu isə onun məzmununu təşkil edir.

Ümumiliyindən və ya xüsusiliyindən asılı olmayaraq hər bir məfhum müvafiq obyektlərdəki oxşarlıq və fərqin birliyini ifadə edir. Sual olunur: əgər hər hansı bir məfhumda həm oxşar və həm fərqli əlamətləri əks olunursa, onda ümumi və xüsusi məfhumların bu cəhətdən spesifik xüsusiyyətləri nədən ibarətdir? Bu suala düzgün cavab vermək üçün nəyin: ümumiliyin, yoxsa xüsusiliyin məfhumda üstünlük təşkil etdiyini nəzərə almaq lazım gəlir. Ümuminin (məsələn, ağacın) əks olunduğu xüsusi məfhumda (məsələn, palıd ağacında) xüsusilik üstünlük təşkil edir. Bu xüsusilik imkan verir ki, həmin xüsusini (palıd ağacını) digər xüsusilərdən (çinardan, cökədən, söyüddən və s.) ayıraq.

Xüsusinin (palıdın da) əks olunduğu ümumi məfhumda (ağacda) üstünlük təşkil edən isə xüsusilik deyil, bütün xüsusiləri (çinarı, cökəni, söyüdü və s.) əhatə edən ümumilikdir (ağaclıqdır). Deməli, obyektiv varlığın özü kimi ümumi və xüsusi məfhumlar da dialektik vəhdətdə olurlar. Dialektika həm də orasındadır ki, bu məfhumların hər ikisində (ümumidə də, xüsusidə də), oxşar və fərqli əlamətlərinin vəhdəti ifadə olunur. Ümumilikdə oxşarlıq, xüsusilikdə isə fərq üstünlük təşkil edir. Buna görə də məfhumda yalnız ümumiliyin (oxşarlığın) əks olunduğunu, xüsusiliyin (fərqin) isə əks olunmadığını söyləyən məntiqşünaslarla razılaşmaq mümkün deyil.

Məfhumun başlıca əlaməti olmaq etibarilə oxşarlıq və fərqin məhz vəhdət halında inikası həmin məfhumun təşəkkülündə özünü daha qabarıq göstərir.

Məfhumun təşəkkülü dialektik prosesdir, hər bir məfhum tarixi inkişafın, adamların ictimai istehsal təcrübəsinin məhsuludur.

Məsələnin göstərilən cəhətləri sırasında bizi məfhumun təşəkkülündə müqayisənin rolu da maraqlandırır. Prof. N.M. Kazımovun fikrincə, filosofların əksəriyyəti məfhumun yaranmasında, müqayisənin rolunu Kant kimi inkar edə bilməmişlər; lakin onlar müqayisənin rolunu müxtəlif cisimlər arasında yalnız ümumi, yəni oxşar əlamətlərin aşkara çıxarılması ilə məhdudlaşdırırlar [2, s.101].

Əslində isə müqayisə cisimlər və ya hadisələr arasında yalnız oxşar əlamətləri müəyyənləşdirməklə məhdudlaşmır. Məfhumun formalaşmasında fərqli əlamətlərin, yəni obyektlər arasındakı spesifik xüsusiyyətlərin nəzərə alınması da mühüm əhəmiyyət kəsb edir.

Cisim və hadisələrdə oxşar və fərqli əlamətlərin varlığı, bu əlamətlərin məfhumlarda vəhdət halında əks olunması və müvafiq sözlərlə ifadəsi onların məfhum üzərində aparılan bütün məntiq əməliyyatlarında təzahürünü şərtləndirir. Buna görə də tərif, təsnif, məhdudlaşdırma, ümumiləşdirmə, mühakimə kimi məntiq əməliyyatlarını müqayisə cəhətdən qısaca səciyyələndirmək lazımdır.

Müəyyən qrup obyektlərə dair biliklər tərifdə sistemləşdirilir. Hər bir tərifdə müvafiq oxşar və fərq əlamətlərinin vəhdəti ifadə edilir. Tərif üçün səciyyəvi cəhət budur ki, əvvəlcə oxşarlıq, sonra isə fərq göstərilir: fərq oxşarlığa, yəni xüsusi ümumiyə aid edilir. Oxşarlıq göstərilmə-

dən fərqi tərifdə anlamaq mümkün deyil [4, s.31].

Buna görə də tərifdə qabaqca tərif verilən obyektin hansı cinsə mənsub olduğu qeyd edilir, sonra isə onu həmin cinsə aid olan digər növ obyektlərdən fərqləndirən əlamətlər göstərilir.

Tərifdə adı çəkilən cins əlaməti bir qrup obyekti edir, haqqında tərif verilən obyekt də həmin obyektlər qrupuna aid edilir.

Fikrimizi "paraleloqram" məfhumuna verilən tərifdə konkretləşdirək. "Paraleloqram" – qarşı tərəfləri paralel olan dördbucaqlıdır. Göründüyü kimi, paraleloqram üçün ən yaxın cins məfhumu dördbucaqlıdır. Paraleloqramı başqa dördbucaqlılardan fərqləndirən növ əlaməti isə qarşı tərəflərin paralelliyidir. Deməli, paraleloqrama tərif vermək üçün romb, kvadrat və s. haqqında təsəvvürə malik olmaq gərəkdir. Bununla bərabər, həmin fiqurları birləşdirən ümumi əlamətin – dörd tərəfin, yaxud dörd bucağın onların hamısına xas olmasıdır. Buna görə də yuxarıda sadalanan fiqurların hamısı dördbucaqlıdır. Dörd tərəfin olmasına baxmayaraq, dördbucaqlılar bəzi əlamətlərə görə bir-birindən fərqlənir. "Paraleloqram dördbucaqlıdır" dedikdə, biz onu dördbucaqlılara aid edirik və onun bütün dördbucaqlılara oxşadığını söyləyirik. Paraleloqram məfhumuna verilən tərifin ikinci hissəsi paraleloqramın digər dördbucaqlılardan fərqini əks etdirir. Deməli, paraleloqramın tərifi iki cəhəti: həm paraleloqramın başqa dördbucaqlılarla oxşarlığını, həm də onun digər dördbucaqlılardan fərqini eyni zamanda əks etdirir.

Oxşarlıq və fərqin birliyi təsnifdə də ifadə olunur. Təsnif xarici aləmin cisim və hadisələrini müəyyən oxşar əlamətə görə qruplaşdırmaq kimi başa düşülür [1, s.65]. Cisim və hadisələr təsadüfi əlamətlərinə görə deyil, mühüm əlamətinə görə qruplaşdırılır. Başlıca əlamətinə görə cisim və hadisələrin müəyyən qruplara aid edilməsi, yəni təsnif məfhumun həcmini müəyyənləşdirməyə xidmət edir, məsələn, "üçbucaq" məfhumunu bucağın xarakterinə görə təsnif etdikdə biz onu itibucaqlı üçbucağa, düzbucaqlı üçbucağa, korbucaqlı üçbucağa ayırırıq. Üçbucaqlıları tərəflərin qarşılıqlı münasibəti əsasında da təsnif etmək olur. Göründüyü kimi, cisim və hadisələrin təsnifi, yəni qruplaşdırılması zamanı onlar oxşar əlamət zəminində (bizim misalda üçbucaq əsasında) fərqləndirilərək bu və ya digər qrupa (düzbucaqlı üçbucağa, korbucaqlı üçbucağa və s.) aid edilir. Başqa sözlə desək, məfhumun həcmi bölünəndə, yəni təsnif ediləndə bir qrup oxşar cisimlərin fərqi qeyd edilir.

Məfhumun məhdudlaşdırılması zamanı şüurumuz ardıcıl olaraq bir obyektdən digərinə, bir məfhumdan başqasına keçir. Bu zaman hər sonra gələn məfhumun həcmi əvvəlki məfhumun həcminin bir hissəsini təşkil edir (Bitki-ağac-yaşəmən-ağ yaşəmən). Nəhayət, biz gəlib xüsusi məfhumda dayanırıq. Məfhumun məhdudlaşdırılmasında bir məfhumdan digərinə keçdikcə hər sonra gələn məfhumun məzmunu yeni-yeni əlamətlər hesabına zənginləşir.

Bu yeni əlamətlər əvvəlki məfhumun həcminin yalnız bir hissəsinə aid olur. Sonra gələn məfhumun məzmununa yeni əlamətlərin əlavə olunması həmin məfhumu əvvəlki məfhumdan fərqləndirməyə imkan verir [3, s.91]. Başlıca cəhət orasındadır ki, hər sonra gələn məfhum əvvəlki məfhumdan fərqlənsə də məhdudlaşdırma əməliyyatı ümumi oxşarlıq çərçivəsində cərəyan edir. Ümumi oxşarlıq çərçivəsində məfhumların fərqləndirilməsi ona görə mümkün olur ki, məhdudlaşdırma prosesində məfhumun həcmi daralır, lakin yox olmur, məfhumun həcmində müəyyən oxşar hissə, cəhət qalır. Deməli, məhdudlaşdırma əməliyyatını müəyyən məfhumun həcminə daxil olan oxşar obyektlərin ardıcıl şəkildə fərqləndirilməsi kimi başa düşmək olur.

Ümumiləşdirmə məntiqdə məhdudlaşdırmanın əksi olan əməliyyat kimi anlaşılır. Ümumiləşdirmə zamanı adamın şüuru dar həcmli məfhumlardan geniş həcmli məfhuma doğru hərəkət edir.

Buna baxmayaraq, ümumiləşdirilən məfhumların məzmunu oxşar cisimlərdəki fərq əlamətlərinin atılması hesabına yoxsullaşır; həmin məfhumların həcmi isə cisimlərdəki oxşar əlamətlərin aşkara çıxarılması hesabına genişlənir. Göründüyü kimi, ümumiləşdirilən cisimlərdəki oxşar və fərq əlamətlərini nəzərə almadan ümumiləşdirmələr aparmaq mümkün deyil. Ümumiləşdirmə oxşar və fərq əlamətlərinin inikası ilə müşayiət edilir.

Deməliyik ki, məfhumlar üzərində məntiq əməliyyatlarının hamısı: tərif də, təsnif də, məhdudlaşdırma da, ümumiləşdirmə də mühakimə formasında cərəyan edir. Məlumdur ki, hər hansı mühakimədə iki əsas cəhət olur: nə haqqında söhbət gedir və nə deyilir. Müəyyən bir şey haqqında məlum cəhətin qeyd edilməsi cisim və ha-

disələrdəki oxşar və fərqin fikirdə əks olunduğunu qəbul etməyə mane olmur. Mühakimənin iqrar formasında da oxşar və fərq əlamətləri nəzərdə tutulur. Mühakimənin iqrar formasında (məsələn, palıd ağacdır) oxşarlıq qabarıq şəkildə ifadə edilir, fərq isə nəzərdə tutulur: palıd kol və ya ot deyil. Fikrin inkar formasında isə, əksinə, diqqət, birinci növbədə, fərqli əlamətə yönəlir, oxşarlıq nəzərdə tutulur. Məsələn, "daş yumşaq deyildir" mühakiməsində daş bütün yumşaq cisimlərdən fərqləndirilir: bərk cisimlərə onun oxşarlığı isə arxa plana keçir. Deməli, oxşarlıq və fərq əlamətlərinin bu və ya digər nisbətdə inikası mühakimənin bütün növlərinin başlıca xüsusiyyətlərindən biridir.

Başlıcası budur ki, oxşarlıq və fərq əlamətləri mühakimədə vəhdət halında əks olunur. Oxşarlıq və fərq arasındakı dialektikanı, məsələn, "Ağacın yarpaqları yaşıldır", "Məhəmməd insandır", "Dərslik kitabdır" kimi mühakimələrdə daha aydın görmək olur. "Dərslik kitabdır" dedikdə biz dərslik və kitab arasında yalnız bərabərlik işarəsi qoymuruq. Dərsliyin kitab olduğu iqrar edildikdə onlar arasındakı fərq əlamətləri nəzərdə tutulur: dərslik, əlbəttə kitabdır, jurnal və ya qəzet deyil. Eyni zamanda o, sadəcə dərslik olmayıb, həm bilik mənbəyidir, həm də bilik toplusudur və s. Bir varlıq kimi dərslik özünün eynidir; bir dərslik kimi o, başqa kitablara da oxşayır; eyni zamanda dərslik adi kitab deyil. Özünə bənzər kitabların hamısından bəzi cəhətlərinə görə fərqlənir.

Bütün məfhumlarda belədir: hər bir məfhumun özünün eyni olduğu digər məfhumlardan fərqində aşkara çıxarılır.

Müqayisə olunan obyektlər adamın müqayisə etmək bacarığından asılı deyil. Müqayisə etmək üçün adam öz diqqətini müvafiq əşyalara və ya hadisələrə yönəldir, onlar arasındakı oxşarlığı, yaxud fərqi müəyyənləşdirməyə çalışır. İki əşyanın müqayisə edilməsi həmin əşyaların keyfiyyətinə heç bir təsir göstərmir. Əksinə, müqayisə edilən obyektlərin necəliyindən asılı olaraq müqayisənin özü yeni-yeni xüsusiyyətlər kəsb edir. Deməli, müqayisə tutuşdurulan obyektlərdən asılıdır; müqayisə olunan obyektlər isə müqayisə prosesindən asılı deyil.

Müqayisə edilən obyektlərin əlamətləri ilə bu əlamətlər haqqındakı fikirlər eyni şey deyil. Müqayisə zamanı əşyaların keyfiyyət və əlamətləri haqqında bizdə əmələ gələn təsəvvür və anlayışlar dəqiq olmaya bilər. Lakin həmin keyfiyyət və əlamətlər müqayisə zamanı əmələ gələn təsəvvür və anlayışların dəqiq olub-olmadığından asılı deyil. Əşyalardakı əlamətlərin müqayisə zamanı beynimizdə əks olunması heç də o demək deyil ki, həmin əlamətlər şüurda, yaxud şüur tərəfindən yaradılır.

Müqayisə mənbələri və müqayisə prosesi arasındakı münasibətə dair anlayış ikincinin, yəni müqayisə prosesinin birindən asılı olduğunu iqrar etməklə məhdudlaşmır.

Müqayisə və onun obyektləri arasındakı münasibətə dair məsələdə subyektiv mövqedə duranlar, yəni müqayisə yolu ilə əldə edilən biliklərin obyektiv biliklər olduğunu inkar edənlər də vardır. Məsələn, Amerika alimi Hamiltona görə, müqayisə maddi aləmin cisimləri haqqında bizə bilavasitə biliklər deyil, bilvasitə biliklər verir; biz müqayisə yolu ilə bilavasitə əşyaların guya özlərini deyil, onların bizdə doğurduğu subyektiv təəssüratları dərk edə bilərik.

Şərh edilən fikirlərdən belə bir nəticəyə gəlirik ki, cisim və hadisələr arasındakı oxşar və fərq əlamətləri mühakimənin formalarında da əks olunur. Mühakimənin bir formasında oxşarlıq, digər formasında isə fərq daha qabarıq ifadə edilir.

Yekun olaraq deyilməlidir ki, xarici aləmin cisim və hadisələrinə xas olan oxşarlıq və fərq əlamətləri baş beyin qabığında cərəyan edən fizioloji proseslərdə, psixoloji və məntiq hadisələrində, o cümlədən məfhumlarda, habelə məfhum üzərindəki əməliyyatlarda: tərifdə, təsnifdə, məhdudlaşdırmada, ümumiləşdirmədə və mühakimədə əks-səda verir. Bu cür əks-səda bizim istək və arzularımızdan asılı deyil, obyektiv prosesdir.

Bizdən asılı olmayaraq cərəyan edən belə bir obyektiv prosesin olduğunu bildikdə və onu nəzərə aldıqda biz, istər-istəməz, ona uyğun fəaliyyət göstərməli, düşüncə tərzimizi ona uyğun qurmalı oluruq. Başqa sözlə, təbiət və cəmiyyət hadisələrinin mahiyyətinə dərindən nüfuz etmək üçün, yəni bizi maraqlandıran cisim və hadisələrdəki oxşarlıq və fərqin, onları doğuran səbəblərin nələrdən irəli gəldiyini əsaslı anlamaq üçün müqayisədən istifadə etməliyik: müqayisəni şüurumuzun yenilməz silahına, sönməz məşəlinə çevirməliyik.

Nəticə. Müqayisə ağılın kəsərini, şüurun itiliyini artıran, idrak prosesinə düzgün istiqamət verən sönməz məşəldir. Bu sönməz məşəl öyrənilən materialın dərindən dərk olunmasına və möhkəm yadda qalma-

sına və deməli, lazım gəldikdə asanlıqla yada salınmasına münasib psixoloji şərait yaradır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, təlimdə müqayisədən istifadənin ədəbiyyatda şərh edilmiş, təlimdə müqayisənin əlamətləri və təzahür formaları üzə çıxarılmış, şagirdlərdə müqayisə bacarıqlarını formalaşdırmağın ümumi qaydalarına və metodik xüsusiyyətlərinə aydınlıq gətirilmişdir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, aparılmış tədqiqat işindən, onun məzmunundan, nəticə və təkliflərindən pedaqogika dərsliklərinin tərtibində, mühazirə mətnlərinin hazırlanmasında, orta ümumtəhsil məktəblərində təlim və tərbiyənin təşkili prosesində, gənc tədqiqatçıların işlərində istifadə oluna bilər.

Ədəbiyyat

1. Dadaşova, D.S. Müasir mərhələdə məktəbəqədər müəssisə rəhbərinin innovativ fəaliyyəti // https://journals.arti.edu.az/uploads/f_20240417122949210959522l.pdf.
2. Kazımov, N.M. Məktəb pedaqogikası. Dərslik. 5-ci nəşri / N.M. Kazımov. – Bakı: OKA Offset, – 2009. – 436s.
3. Kazımov, N.M. Müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi / N.M. Kazımov. – Bakı: Maarif, – 2002. – 67s.
4. Kazımov N.M. Seçilmiş əsərləri. 7-ci cild / N.M. Kazımov. – Bakı: OKA Ofset,– 2012.– 223 s.
5. Kazımov, N.M. Təlim prosesində məntiqi təfəkkürün inkişafı // Bakı: Elm və Təhsil, –2010.–192 s.
6. Həşimov, Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə / Ə.Ş.Həşimov. – Bakı: Maarif, – 1991. – 94s.
7. Горностаева, З.Ю. Эффективность приема сравнения во время использования наглядности. – Автореф…канд.пед.наук. –М., 2015. – 24 С.
8. Букреева, О.М. Развитие сравнения как мыслительного процесса в связи с формированием исторических понятий у учащихся V–VIII классов. – М.: Учпедгиз, 2011. – 176 с.
9. Полякова, А.В. Дифференцирование сходных грамматических материалов в зависимости от условий обучения // Начальная школа. – 2008. – № 4. – С. 34–38.

Redaksiyaya daxil olub: 23.01.2026

UOT 373

Şahkərəm Mirzəməmməd oğlu Məmmədov,
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org /0009-0005-8387-7987
E-mail: sahkerem_59@mail.ru

Nadir Kavı oğlu Babayev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Cəlilabad filialının elmi katibi
https://orcid.org /0009-0005-1258-9777
E-mail: nadirbabayev1952@gmail.com

AZƏRBAYCANDA MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR

Shahkaram Mirzamamad Mammadov,
associate professor of the Baku Slavic University,
doctor of philosophy in pedagogy

Nadir Kavi oglu Babaev
scientifiic secretary of the Jalilabad branch of the
Azerbaijan State Pedagogical University

REFORMS IMPLEMENTED IN THE FIELD OF PRESCHOOL EDUCATION IN AZERBAIJAN

Шахкерем Мирзамамед оглы Мамедов,
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике

Надир Кави оглы Бабаев
ученый секретарь Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета

РЕФОРМЫ, РЕАЛИЗОВАННЫЕ, В СФЕРЕ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

Xülasə. Məqalədə 5 ildən az olmayaraq müəyyən dövr üçün vahid dövlət tələblərini əks etdirən dövlət təhsil standartları və məktəbəqədər təhsil sahəsində həyata keçirilən bir sıra islahatlar nəzərdən keçirilir. Qeyd olunur ki, dövlət təhsil standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan ümumi normalar məcmusudur. Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir. Dövlət təhsil standartları və onların qüvvədə olan müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

Açar sözlər: *məktəbəqədər təhsil, dövlət təhsil standartları, təhsil islahatları, fiziki hazırlıq, şəxsiyyətyönümlü hazırlıq, sosial hazırlıq, intellektual hazırlıq*

Abstract. The article examines the state educational standard, which reflects uniform state requirements that have been in effect for at least 5 years, as well as a number of reforms implemented in the field of

preschool education. It is noted that the state educational standard is a set of general norms developed on the basis of scientific and pedagogical principles in accordance with the needs of the individual, society and the state. The state educational standard is determined based on tested progressive criteria in the field of education, national and human values. The state educational standard and the term of its validity are determined by the relevant executive authority. The state educational standard determines the content of education, organization, material-technical and educational base, infrastructure, indicators of the quality of training of teaching staff, the level of knowledge, skills and abilities of students at each level of education.

Key words: *preschool education, state educational standards, educational reforms, physical training, personality-oriented training, social training, intellectual training*

Аннотация. В статье рассматривается государственный образовательный стандарт, отражающий единые государственные требования, действующие не менее 5 лет, а также ряд реформ, реализуемых в сфере дошкольного образования. Отмечается, что государственный образовательный стандарт представляет собой совокупность общих нормативов, разработанных на основе научных и педагогических принципов в соответствии с потребностями личности, общества и государства. Государственный образовательный стандарт определяется с учетом апробированных прогрессивных критериев в сфере образования, национальных и общечеловеческих ценностей. Государственный образовательный стандарт и срок его действия определяются соответствующим органом исполнительной власти. Государственный образовательный стандарт определяет содержание образования, организацию, материально-техническую и образовательную базу, инфраструктуру, показатели качества подготовки педагогических кадров, уровень знаний, умений и навыков обучающихся на каждом уровне образования.

Ключевые слова: *дошкольное образование, государственные образовательные стандарты, образовательные реформы, физическая подготовка, личностно-ориентированная подготовка, социальная подготовка, интеллектуальная подготовка*

Giriş. Müzakirələr zamanı məktəbəhazırlığın ümumi təhsilə aid olub-olmaması ilə bağlı fikir ayrılıqları ortaya çıxır. Müasir reallıq ondan ibarətdir ki, məktəbəqədər yaşlı uşaqların sayı çox, uşaq bağçalarının sayı isə kifayət qədər azdır. Bu, bütün dünyada belədir. Uşaqların hamısını bağçalarla təmin etmək mümkün deyil. Odur ki, Azərbaycanda belə bir çıxış yolu tapılıb. Həm ölkə Prezidentinin fərman və sərəncamlarına uyğun olaraq, həm də Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəbəqədər təhsil və tərbiyə müəssisələrinin yaradılması, mövcud olanların təmir edilməsi və standartlara uyğunlaşdırılması məqsədi ilə böyük işlər gedir. Artıq 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi prosesində böyük uğur əldə olunub və onların 79%-ə qədəri məktəbəhazırlığa cəlb edilib. Böyük çətinliklərə baxmayaraq, bu, həllini ümumi təhsil müəssisələrinin tərkibində məktəbəhazırlıq qrupları yaradılmaqla tapdı. Yəni Elm və Təhsil Nazirliyi Prezidentin müvafiq sərəncamına uyğun olaraq mövcud maddi-texniki bazadan səmərəli istifadə edərək 5 yaşlı uşaqları məktəbəhazırlığa cəlb etdi. Məktəbəhazırlıq, ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsil bir təhsil müəssisəsində təmin edildiyindən biz artıq məktəbəhazırlığa da təhsilin bir səviyyəsi kimi baxa bilərik və bu, qanunda da öz əksini tapdı. Bu yanaşma belə bir sual doğurur: Bu, 12 illik təhsil sisteminə keçiddirmi? Bir halda ki, Bolonya prosesinə qoşulmuşuq, dünya təhsil sisteminə inteqrasiya edirik, uşaqların müasir dövrdə inkişaf sürətini nəzərə alırıq, təhsilin fasiləsizliyi prinsipindən çıxış edərək, deməli gec-tez bu məsələni həll etməliyik. Odur ki, 5 yaşlıların da təhsilə bu şəkildə cəlb edilməsi, ümumi təhsilin bir səviyyəsini təşkil etməsi, şərti olaraq 12 illik təhsilə keçidin başlanğıcı kimi də nəzərdən keçirilə bilər. Ancaq, məsələ burasındadır ki, ümumi orta təhsildə ümumi bütün biliklər verilir və təhsilin bu pilləsində ixtisaslaşma özünü göstərir.

Beləliklə, ümumi təhsil pilləsinin 4 səviyyəsi var və 5 yaşlı uşaqların məktəbəhazırlığa cəlb edilməsi ilə bağlı "Təhsil haqqında" Qanuna edilən dəyişiklik nəzərə alınmaqla ümumi təhsilin səviyyələri Qanunun müvafiq maddəsində öz əksini tapır, yəni bölgü 4 səviyyə üzrə aparılıb.

Ümumi təhsil pilləsinin səviyyələri aşağıdakılardır:

1) məktəbəhazırlıq mərhələsi (5 yaş);
2) ibtidai təhsil (I-IV siniflər);
3) ümumi orta təhsil (V-IX siniflər);
4) tam orta təhsil (X-XI siniflər) [3, 7].

Uşağın məktəbə hazırlanması təhsil sisteminin bir nömrəli məsələsidir. Hər hansı uşaq bu mərhələni lazımi səviyyədə keçmədən I sinifdə təlim prosesində müvəffəqiyyət qazana bilməz.

Məktəbəhazırlığın əsas məqsədi – 5 yaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbəhazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etməkdir.

Məktəbə hazırlığın vəzifələri – uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasıdır.

Məktəbəqədər təhsilin proqramında (kurikulumunda) məktəbəqədər yaşlı uşaqların ilkin həyati bacarıq və vərdişlərə yiyələnməsi tələb olunur, onlara gələcək həyat fəaliyyətində lazım olacaq bacarıq və vərdişlərin aşılanması, qabiliyyətlərin formalaşması ön plana çəkilir. Onların bir şəxsiyyət kimi formalaşmasının bünövrəsi qoyulur.

Fiziki hazırlıq – uşağın sağlamlığının vəziyyəti, uşaq orqanizminin morfofunksional yetişkənliyi (yəni bədən hissələrinin öz funksiyasını yerinə yetirmək qabiliyyəti); hərəki fəaliyyətin, xüsusilə xırda motorikanın (xırda motorika əllər və barmaqların dəqiq və xırda hərəkətlər toplusudur; sinir, əzələ, dayaq-hərəkət və görmə sistemlərinin birgə fəaliyyəti nəticəsində yaranır) koordinasiyasının inkişafı; fiziki qabiliyyətlərin inkişafıdır.

Şəxsiyyətyönlü hazırlıq – müstəqillik, məsuliyyətlilik, fəallıq, təşəbbüskarlıq; başqasını dinləmək və öz hərəkətlərini onunla razılaşdırmağı bacarmaq; müəyyən edilmiş qaydalara riayət etmək, qruplarda çalışmağı bacarmaq; ünsiyyətin, özünüqiymətləndirmənin formalaşmasıdır.

İntellektual hazırlıq – obrazlı təfəkkürün, təxəyyülün, yaradıcılığın, məntiqi təfəkkürün inkişafı; idrakı fəaliyyət vasitələrinə (müqayisə etmə-təhlil, təsnifat, ümumiləşdirmə), ana dilinə və nitqin əsas formalarına (dialoq, monoloq), digər spesifik uşaq fəaliyyəti növlərinin daxilində təlim elementlərinə (quraşdırma, rəsm, yapma və müxtəlif oyunlara) yiyələnmək; prosesləri (obyektləri) müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxarmağı bacarmaqdır.

Sosial hazırlıq – yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin (vətənpərvərlik, humanistlik, digər millətlərə hörmət) inkişafı; – böyüklərlə və yaşıdları ilə ünsiyyətin qurulmasında yüksək mədəni davranış qaydalarının mənimsənilməsi; – öz hərəkətlərində əxlaq normalarının rəhbər tutulması və onlara riayət olunması.

İllər boyu ibtidai sinif müəllimi kimi çalışan böyük rus psixoloqu D.B. Elkonin öz fəaliyyətində məktəbəhazırlıq dövründə *təlimin xüsusiyyətlərindən* danışarkən, bu suallarla çıxış edirdi: *"Uşaqda bilmək, öyrənmək marağı varmı? Uşaq qarşısına sadə məsələ qoyub, onu mümkün yollarla həll edə bilirmi (müqayisə, müşahidə, sübut etmə)? Uşaq müstəqil şəkildə hər hansı bir hərəkətin həlli yollarını tapır, yoxsa digər həmyaşıdlarının davranışını təkrarlayır? Əqli işgüzarlığı nə səviyyədədir? Diqqətini cəmləşdirib, deyilənləri yadda saxlaya bilirmi?"*[9;236]. Bütün bu suallar məktəbəhazırlıq qrupunun müəllimini həmişə narahat etməlidir. İdrakı təfəkkürün passivliyinin təzahürü uşağın inkişafının uğursuzluğundan, onun gələcək məktəb təliminə hazırlıqlı olmadığından xəbər verir. Məktəb təlimi deyildikdə çox zaman uşağın oxumaq, yazmaq, saymaq bacarıqları nəzərdə tutulur. Amma uşaq bütün bu bacarıqlara yiyələnsə belə, o məktəbə hazır olmaya da bilər. Hazırlıq bütün bu bacarıqların hansı fəaliyyətə daxil edilməsindən asılıdır. Məktəbəqədər dövrdə uşaqların bilik və bacarıqları mənimsəməsi oyun fəaliyyətində həyata keçirilir, ona görə bu biliklər başqa bir struktur təşkil edir. Bunu məktəbə daxil olarkən nəzərə almaq lazımdır və uşağın məktəbə hazırlığını onun oxuma, hərflər, rəqəmlərlə tanışlıq, hesablama kimi bacarıq və biliklərinin formal səviyyəsinə görə yox, idrakı və əqli fəaliyyətin inkişaf səviyyəsinə görə ölçmək lazımdır. D.B. Elkoninin fikrincə, "*məktəbəhazırlıq səviyyəsini bilmək üçün diqqəti ən əvvəl iradi davranışın əmələ gəlməsinə yönəltmək lazımdır. Uşaq necə oyun oynayır, qaydalara riayət edirmi, üzərinə rollar götürürmü"*[9, s. 234]. Qaydaların uşaq davranışının daxili instansiyasına çevrilməsi – hazırlığın vacib xüsusiyyətlərindən sayılır.

3-6 yaş dövrü uşaqların inkişafında çox mühüm dövrdür. Məhz bu dövrdə uşaqların beyin hüceyrələrinin artması və onlar arasında əlaqələrin qurulması prosesi baş verir. Bunun da nəticəsində uşağın düşünmə, qavrama və ətraf mühitdə insanlar və əşyalarla qarşılıqlı təsir istiqamətində daha mürəkkəb mərhələyə keçməsi üçün zəruri dəyişikliklər baş verir. Beynin düzgün inkişafı şəraitində potensial dərketmə qabiliyyətləri artır. Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər təhsil uşaqların intellektual, fiziki, psixoloji və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, sadə əmək

vərdişlərinə yiyələnməsi, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin, hisslərin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

Məktəbəqədər təhsil müvafiq təhsil proqramı əsasında həyata keçirilir, məktəbəqədər təhsil üç yaşdan başlayır. Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq qrupları zəruridir. Məktəbə hazırlığın təşkili qaydaları müvafiq icra orqanı tərəfindən müəyyən edilir. Məktəbəqədər təhsil uşağın valideynlərinin və ya digər qanuni nümayəndələrin arzusu ilə məktəbəqədər təhsil müəssisələrində, ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ya ailədə həyata keçirilə bilər. Məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil edilir.

Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. Məktəbəqədər dövrdə sağlamlığın, hərtərəfli hərəki hazırlığın və ahəngdar *fiziki inkişafın* əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki tərbiyə yaxşı bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların və uşaq orqanizminin fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi sanitar-gigiyenik qulluğun təminatı, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi – hava, günəş və sudan geniş istifadə olunması, rasional qidalanma, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və hərəkət aktivliyinin təmin olunması uşaqların sağlam həyat tərzi keçirmələrini təmin edir. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşaqların hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması, bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, onlarda uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur. Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı vəziyyətdən çıxmaq qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır.

Ümumi inkişaf və təlim nəticələrinə görə uşaq: sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir; qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir; böyük, kiçik və hissi (sensor) – motor hərəkətlərini koordinasiya edir; təhlükəsizlik qaydalarına əməl edir.

İdrakın inkişafı. Uşağın idrakı inkişafı mürəkkəb prosesdir. Onun öz istiqamətləri, qanunauyğunluğu və xüsusiyyətləri var. İdraki inkişafın məqsədi idraki maraqların, uşağın tələbat və bacarıqlarının, onun emosional-hissi təcrübə əsasında müstəqil axtarıcılıq fəaliyyətinin formalaşdırılmasıdır. Bununla yanaşı, sensor, nitq inkişafı, idraki qabiliyyətlərin (müqayisə etməyi, fərqləndirməyi, ümumiləşdirməyi bacarmaq), ətraf aləm haqqında ilkin təsəvvürlərin və anlayışların, əşyavi fəaliyyətin, dərketmə tələblərinin formalaşdırılmasının (informasiya almaqda tələb, təlim zamanı fəallıq, ətraf aləmin dərk edilməsində müstəqillik) bünövrəsinin bu dövrdə qoyulmasıdır. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə etmək, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək kimi qabiliyyətlər nümayiş etdirirlər. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, təhlil və tərkib, təsnifetmə və sistemləşdirmə, ümumiləşdirmə kimi mühakimə qabiliyyətlər inkişaf edir və tənqidi, məntiqi, yaradıcı təfəkkürün inkişafını təmin edir.

Estetik və yaradıcı inkişaf. Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliy-

yətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı və uşaq musiqi alətlərində ifa, rəqs məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır. Yaradıcı əməli fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları, digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur.

Sosial-emosional inkişaf. Uşaq üçün erkən yaş dövrü davamlı olmayan emosional əhval-ruhiyyə, emosiyaların yaranması, həssaslığı ilə səciyyələnir. Bütün bunlar uşaqlarla psixoloji işin əsas istiqamətlərini–uşağın həyatının emosionallığına və onun tənzimlənməsinə köməyi müəyyən edir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər.

Nəticə. Təlim nəticələri inkişaf sahələrinin xarakteristikası ilə ölçülür. Yeni məzmuna görə məktəbəqədər müəssisələrdə köhnə təlim modelindən imtina zəruridir. Standartlar pedaqoji prosesdə tərbiyəçi-müəllimlərdən yeni iş formalarına müraciət etməyi tələb edir. Qeyd etmək lazımdır ki, standartlar uşaqların təlim yükünün azaldılmasına istiqamətlənmişdir. Hər bir uşağa fərdi yanaşma nəzərdə tutulmuş, uşaqların inkişafı üzrə vəzifələrin 4 inkişaf sahəsi üzrə: fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik; idrak; estetik və yaradıcı; sosial-emosional inkişafının həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Problemin aktuallığı. Məktəbəqədər təhsil Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin ilk pilləsinin ilk səviyyəsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsidir.

Məktəbəqədər təhsilin məqsədi erkən yaş dövründən başlayaraq uşaqların əqli, fiziki və yaradıcı potensialının, mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının və sağlamlığının, mühafizəsinin, ətraf aləmə həssas (şüurlu) münasibətinin və şəxsiyyətinin formalaşdırılmasından ibarətdir. Məktəbəqədər təhsil məktəbəqədər yaşlı uşaqların zəruri həyati bacarıqlara yiyələnmələrini və məktəb təhsilinə hazırlığını təmin edir. Məktəbəqədər təhsil uşaqların tərbiyəsinin milli-mənəvi və bəşəri dəyərlər ruhunda, milli dövlətçilik və azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılmasını təmin edir.

Problemin elmi yeniliyi. Sözügedən məqalədə indiyə qədər tədqiq edilən məsələlər ətrafında təhlillər və araşdırmalar aparılır, qeydlər edilir, əldə edilən nəticələr konkretləşdirilir, xülasələşdirilərək təqdim olunur.

Problemin praktik əhəmiyyəti. Məktəbəqə-dər təhsildə həyata keçirilən islahatlar uşaqlarda təlimə, yaradıcılığa və dərketməyə maraq yaranmasına xidmət edir. Bu zaman ətraf aləmin gözəllikləri duyulur, estetik cəhətdən qavranılır və bunun sayəsində müvafiq bədii nümunələr yaradılır. Aparılan islahatlar təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə estetik gözəlliyi görmək bacarığını və yaradıcı qabiliyyətlərin tətbiqi əhəmiyyətini formalaşdırır.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"// 24 oktyabr 2013-cü il tarixli, 13 nömrəli Sərəncam
2. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 14.04.2017, № 585-VQ
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. (2007 - 2010-cu illər)
4. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 29 mart 2019-cu il.
5. Abbasov, Ə. Əhmədov, A., Məktəbəqədər təhsilin konseptual problemləri // Kurikulum, 2011, № 2.
6. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət Standartı. AR NK-nin 2019-cu il 8 avqust tarixli 351 nömrəli Qərarı ilə təsdiq edilmişdir.
7. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 29 mart 2019-cu il.
8. Bağırova, L.Ş., Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri // –Bakı: Nərgiz, –2003.
9. Эльконин, Д.Б., Детская психология. Учебное пособие. // –Москва: Изд. Центр «Академия», –2007. – 384 с.

Redaksiyaya daxil olub: 13.01.2026

UOT 371.12

Kəmalə Rüstəm qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000 – 0002- 8448-2021
E-mail:kamala.quliyeva51@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).67-71

PEDAQOJİ AKMEOLOGİYANIN İNTEQRATİV XARAKTERİ VƏ ƏSAS PRİNSİPLƏRİ

Kamala Rustam Guliyeva
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

INTEGRATIVE CHARACTER AND BASIC PRINCIPLES OF PEDAGOGICAL ACMEOLOGY

Кямаля Рустам гызы Гулиева
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ИНТЕГРАТИВНЫЙ ХАРАКТЕР И ОСНОВНЫЕ ПРИНЦИПЫ ПЕДАГОГИЧЕСКОЙ АКМЕОЛОГИИ

Xülasə. Pedaqoji akmeologiya inteqrativ xarakterə malikdir və bir çox elmlərlə qarşılıqlı əlaqədədir. Bu elm müəllimin peşəkar inkişafının bir sıra prinsiplərini və əsas komponentlərini özündə birləşdirir. Təhsilin keyfiyyət təminatında, səriştəli müəllim kadrlarının hazırlanmasında bu elmin tətbiqi müəllimlərin yaradıcı mədəniyyətinin formalaşmasına, təhsildə əməkdaşlığa və humanizmə əsaslanan psixoloji mühitin yaradılmasını zəruri edir.
Açar sözlər: *pedaqoji akmeologiya, fərdilik və subyektivlik prinsipi, özünüinkişaf və özünüreallaşdırma prinsipi, dəyərlilik və mənəvi-etik prinsip, innovativ və yaradıcılıq prinsipi*

Abstract. Pedagogical acmeology has an integrative character and is interconnected with many sciences. This science combines a number of principles and basic components of the teacher's professional development. The application of this science to ensure the quality of education and training of competent pedagogical personnel requires the formation of a creative culture of teachers, the creation of a psychological environment based on cooperation in education and humanism.
Keywords: *pedagogical acmeology, principle of individuality and subjectivity, principle of self-development and self-realization, principle of value and moral-ethical principle, principle of innovation and non-creation*

Аннотация. Педагогическая акмеология носит интегративный характер и взаимосвязана со многими науками. Эта наука объединяет ряд принципов и основных компонентов профессионального развития учителя. Применение этой науки для обеспечения качества образования и подготовки компетентных педагогических кадров требует формирования творческой культуры учителей, создания психологической среды, основанной на сотрудничестве в образовании и гуманизме.

Ключевые слова: *педагогическая акмеология, принцип индивидуальности и субъективности, принцип саморазвития и самореализации, принцип ценности и морально-этический принцип, принцип новаторства и нетворчества*.

Akmeologiyanın əsas xüsusiyyətlərindən biri onun kompleks və inteqrativ xarakter daşımasıdır. Bu elm insanın inkişafına bir sistem kimi yanaşır və yalnız psixoloji deyil, həm də sosial, pedaqoji, fəlsəfi və menecment aspektlərini özündə birləşdirir. Akmeologiya bütövlükdə şəxsiyyətin formalaşma və özünüreallaşdırma mexanizmlərini tədqiq etdiyindən, pedaqogika ilə onun əlaqəsi qarşılıqlı təsir xarakteri daşıyır.

Müasir pedaqogika insanın bilik, bacarıq və dəyərlər sistemini formalaşdırmaqla yanaşı, onun şəxsiyyət potensialını üzə çıxarmağa, özünüinkişaf imkanlarını genişləndirməyə yönəlmişdir. Akmeologiya isə bu prosesin "zirvə mərhələsini" öyrənir, yəni insanın öz fəaliyyəti və təlimtədris təcrübəsində maksimum səmərə, peşəkarlıq və mənəvi məmnunluq səviyyəsinə çatma yollarını araşdırır. N. V. Kuzminanın sözləri ilə desək, "Pedaqoji akmeologiya müəllimin peşəkarlıq zirvəsinə çatmasının qanunauyğunluqlarını, onun özünüinkişaf və özünütəkmilləşdirmə mexanizmlərini öyrənir" (Kuzmina, 1990, C. 5).

Pedaqoji akmeologiyanın elmi əsasları psixologiya ilə də sıx bağlıdır. Şəxsiyyətin motivasiyası, emosional intellekt, refleksiya və özünütənqid kimi mexanizmlər akmeoloji inkişafın mühüm psixoloji göstəriciləridir. A. A. Derkaç qeyd edirdi ki, "akmeoloji inkişaf yalnız biliklərin toplanması deyil, həm də insanın daxili mənəvi strukturunun formalaşmasıdır" (Derkach, 2000). Deməli, pedaqoji akmeologiya psixologiyanın nəticələrinə əsaslanmaqla müəllimin daxili potensialını üzə çıxarma yollarını pedaqoji səviyyədə sistemləşdirir.

Digər mühüm istiqamət fəlsəfə ilə əlaqəlidir. Akmeologiyanın fəlsəfi əsasında insanın kamillik ideyası, məqsədyönlü özünüreallaşdırma, şəxsiyyətin dəyərlər sistemində yüksəlişi kimi anlayışlar dayanır. Humanist fəlsəfənin nümayəndələri – A.Maslou, K.Rocers və V.Frankl insanın öz "akme"sini tapmasını onun mənəvi mövcudluğunun əsas şərti kimi dəyərləndirmişlər. Müasir pedaqoji akmeologiya bu ideyaları praktik təhsilə tətbiq edərək müəllimin şəxsiyyətini inkişafın mərkəzi elementi kimi qəbul edir.

Menecment və liderlik elmləri də pedaqoji akmeologiyanın nəzəri bazasını zənginləşdirir. Müəllim yalnız bilik ötürən deyil, həm də sinif, məktəb və təlim mühitinin lideridir. Akmeoloji baxımdan liderlik insanları ruhlandırmaq, onlara nümunə olmaq və ortaq məqsədlərə yönəltmək bacarığıdır. Müəllimin bu bacarığını inkişaf etdirmək üçün akmeologiya səmərəli kommunikasiya, komanda idarəçiliyi, emosional balans və strateji düşünmə kimi keyfiyyətlərin formalaşmasını zəruri hesab edir.

Son onilliklərdə nevroelm və koqnitiv pedaqogika da akmeoloji istiqamətlərlə əlaqələndirilir. Müasir tədqiqatlar göstərir ki, insan beyninin neyroplastik xüsusiyyətləri sayəsində şəxsiyyət inkişafı həyat boyu davam edir. Bu isə akmeologiyanın əsas ideyasını – insanın istənilən yaş mərhələsində inkişaf və kamilliyə çatmaq potensialını elmi cəhətdən təsdiqləyir.

Beləliklə, pedaqoji akmeologiya pedaqogikanın, psixologiyanın, fəlsəfənin, menecmentin və koqnitiv elmlərin sintez nöqtəsində formalaşmışdır. Onun gücü məhz bu inteqrativlikdədir. Bu elmi yanaşma müasir təhsil mühitində müəllimin peşəkar və şəxsiyyət keyfiyyətlərinin balanslı inkişafını təmin etməyə, tədris prosesində humanist, yaradıcı və refleksiv yanaşmanı gücləndirməyə xidmət edir.

Pedaqoji akmeologiyanın əsas prinsipləri və elementləri

Pedaqoji akmeologiyanın mahiyyətini dərk etmək üçün onun əsas prinsiplərini və struktur elementlərini sistemli şəkildə təhlil etmək zəruridir. Bu prinsiplər insanın, xüsusilə müəllimin peşəkar və şəxsi inkişafının qanunauyğunluqlarını müəyyənləşdirir, onu "akme"yə, yəni kamillik zirvəsinə aparan inkişaf modelinin nəzəri bazasını yaradır:

1. Akmeoloji inkişafın prinsipləri

Akmeoloji yanaşma bir sıra fundamental prinsiplərə əsaslanır. Onların hər biri pedaqoji fəaliyyətin keyfiyyətini yüksəltmək və müəllimin potensialını tam reallaşdırmaq üçün nəzərdə tutulmuşdur.

a) Fərdilik və subyektlik prinsipi

Bu prinsipə görə, hər bir müəllim özünəməxsus inkişaf yoluna malikdir. Akmeologiya insanı obyekt deyil, öz inkişafının subyekti kimi dəyərləndirir. Müəllim yalnız xarici təsirlərlə deyil, daxili motivasiya, məqsədyönlülük və refleksiya vasitəsilə kamilliyə doğru irəliləyir. A. A.Bodalev belə qənaətə gəlmişdir ki, insan yalnız öz həyat fəaliyyətinə yaradıcı münasibət

bəslədiyi zaman akme vəziyyətinə çatır (Bodalev, 1998).

b) Özünüinkişaf və özünüreallaşdırma prinsipi

Bu prinsip insanın həyat və fəaliyyət prosesində öz bacarıqlarını aşkara çıxarma və onları sosial cəhətdən dəyərli məqsədlərə yönəltmə qabiliyyətini əhatə edir. Pedaqoji akmeologiyada bu, müəllimin peşəkar refleksiyası, öz təcrübəsini təhlil etməsi və onu davamlı təkmilləşdirməsi deməkdir. Akmeoloji inkişafın hər mərhələsi yeni biliklərə və yaradıcı axtarışlara açıq olmağı tələb edir.

c) Dəyərlilik və mənəvi-etik prinsip

Akmeologiya insanın yalnız intellektual deyil, həm də mənəvi kamilliyini zəruri sayır. Müəllimin "akme" səviyyəsinə çatması üçün peşəkar biliklərlə yanaşı, etik məsuliyyət, humanizm, tolerantlıq və əməksevərlik kimi mənəvi dəyərlərin formalaşması əsas şərtdir. Bu prinsip pedaqogikanın humanist istiqamətləri ilə sıx bağlıdır.

d) İnnovativlik və yaradıcılıq prinsipi

Pedaqoji akmeologiya yaradıcılığı müəllimin əsas inkişaf resursu kimi qəbul edir. Akme səviyyəsinə çatan müəllim müasir texnologiyaları səmərəli tətbiq edir, təlim prosesinə fərdi yanaşma gətirir, yeni metodik modellər formalaşdırır. Bu prinsip xüsusilə müasir təhsildə "innovativ pedaqogika" və "ağıllı tədris mühiti" anlayışları ilə səsləşir.

e) Davamlı inkişaf prinsipi

İnsanın inkişafı heç vaxt başa çatmır – bu, akmeologiyanın təməl ideyalarından biridir. Müəllimin professional və şəxsiyyət kamilliyi bir proses kimi qiymətləndirilir. Beləliklə, akmeoloji yanaşma "öyrənən müəllim" modelini dəstəkləyir və fasiləsiz təhsil ideyası ilə üst-üstə düşür.

2. Akmeoloji inkişafın əsas elementləri

Pedaqoji akmeologiyada inkişaf prosesi biri-biri ilə əlaqəli olan bir neçə komponentdən ibarətdir. Hər bir komponent müəllimin "*akme*"yə doğru irəliləyişində mühüm rol oynayır.

a) Motivasiya komponenti.

Bu, müəllimin öz peşəsinə, şagirdlərinə və təlim prosesinə qarşı daxili münasibətini müəyyənləşdirən psixoloji əsasdır. Akmeoloji baxımdan motivasiya insanın özünü reallaşdırmaq və faydalı olmaq istəyidir. N.V.Kuzminanın fikrincə, peşəkar akme yalnız yüksək motivasiyalı şəxsiyyətin fəaliyyətində mümkündür (Kuzmina, 1990).

b) Koqnitiv komponent.

Koqnitiv komponent müəllimin bilik, bacarıq və səriştə səviyyəsini əhatə edir. Akmeoloji modeldə bu komponent təkcə nəzəri biliklərin deyil, həm də onların praktik tətbiq qabiliyyətinin inkişafını nəzərdə tutur. Müəllimin biliklərinin dərinliyi və çevikliyi onun peşəkar akme səviyyəsinə çatmasının göstəricisidir.

c) Refleksiv komponent.

Refleksiya müəllimin öz fəaliyyətinə tənqidi yanaşmaq, nəticələri təhlil etmək və özünü təkmilləşdirmək bacarığıdır. Akmeologiya bu komponenti inkişafın əsas şərti hesab edir. Reflektiv düşüncə müəllimə öz təcrübəsini yenidən dəyərləndirməyə və mütəmadi yeniliklər axtarmağa kömək edir.

d) Kommunikativ komponent.

Pedaqoji fəaliyyətin mərkəzində insan-insan münasibətləri dayanır. Akmeoloji baxımdan müəllim üçün effektiv ünsiyyət, empatiya, emosional balans və komanda əməkdaşlığı bacarıqları "akme" vəziyyətinə çatmaq üçün vacib amillərdir.

e) Yaradıcı və transformativ komponent

Bu komponent müəllimin peşəkar fəaliyyətini dəyişdirici, yeniləyici və yaradıcı istiqamətdə inkişaf etdirmək qabiliyyətini ifadə edir. Akmeoloji inkişafda müəllim yalnız mövcud bilikləri tətbiq etmir, həm də yeni pedaqoji texnologiyaların müəllifinə çevrilir.

3. Akmeoloji mühit amili.

Akmeoloji inkişaf fərdi səylərlə yanaşı, mühitin dəstəyi ilə bağlıdır. Məktəbdə yaradılan akmeoloji mühit, yəni yaradıcılığa, təşəbbüsə, əməkdaşlığa və innovasiyaya açıq mühit müəllimin potensialının üzə çıxmasına şərait yaradır. Belə bir mühitdə müəllim həm də sosial-mənəvi dəstək alır və özünü reallaşdırma üçün optimal şərait tapır.

Azərbaycan təhsil sistemində pedaqoji akmeologiyanın tətbiq imkanları

Azərbaycan Respublikasında son illərdə təhsil siyasətinin əsas istiqamətlərindən biri müəllimlərin peşəkar inkişafının təmin olunması, onların şəxsiyyət və fəaliyyət baxımından müasir tələblərə uyğun formalaşmasıdır. Bu məqsədlə həyata keçirilən islahatlar – kurikulum islahatı, müəllimlərin sertifikatlaşdırılması, diaqnostik qiymətləndirmə və fasiləsiz peşəkar

inkişaf proqramları əslində pedaqoji akmeologiyanın əsas ideyaları ilə səsləşir.

Pedaqoji akmeologiyanın Azərbaycan təhsilinə gətirə biləcəyi dəyər, ilk növbədə, müəllimin şəxsiyyətinə yönəlmiş inkişaf modelinin qurulmasıdır. Əgər ənənəvi pedaqoji sistemdə diqqət, əsasən, bilik ötürməyə yönəlirdisə, akmeoloji yanaşma müəllimin şəxsiyyətini, onun peşəkar "mən"ini formalaşdırmağa, daxili potensialını üzə çıxarmağa xidmət edir. Bu, müəllimi sadəcə təlim prosesinin icraçısı deyil, təhsil fəlsəfəsinin yaradıcısı səviyyəsinə yüksəldir.

1. Müəllimin peşəkar inkişafında akmeoloji modelin tətbiqi Azərbaycan müəllimlərinin peşəkar inkişaf proqramlarına akmeoloji yanaşmanın inteqrasiyası zəruridir. Bu yanaşma aşağıdakı istiqamətlərdə özünü göstərə bilər:

Birinci, reflektiv tədris modellərinin tətbiqi. Müəllimlərin öz tədris fəaliyyətini sistemli təhlil etməsi, təcrübədən nəticə çıxarması və fərdi inkişaf planı hazırlaması akmeoloji refleksiyanın əsas təzahürüdür. Bu istiqamət artıq Təhsil İnstitutunun müəllimlər üçün hazırladığı "Fasiləsiz peşəkar inkişaf" proqramlarında hiss olunmağa başlamışdır.

İkinci, motivasiya və dəyərlər sisteminin formalaşdırılması. Müəllimlik peşəsi yalnız bilik və metodik bacarıqlarla deyil, həm də mənəvi dəyərlərlə möhkəmlənməlidir. Akmeoloji model bu istiqamətdə "müəllimin mənəvi lider" funksiyasını ön plana çəkir. Təhsil müəssisələrində müəllimin sosial nüfuzunun artırılması, mənəvi mükafatlandırma mexanizmlərinin gücləndirilməsi bu modelin mühüm elementi ola bilər.

Üçüncü, yaradıcı və innovativ fəaliyyətin stimullaşdırılması. Müasir Azərbaycan məktəblərində müəllimlərin innovativ təlim texnologiyalarından istifadə bacarığının artırılması, yaradıcı layihələrdə iştirakı üçün şərait yaradılmalıdır. Bu, pedaqoji akmeologiyanın "yaradıcı özünüreallaşdırma" prinsipinə tam uyğundur.

2. Akmeoloji mühitin formalaşdırılması.

Akmeologiyanın praktik nəticə verməsi üçün mühit amili həlledici əhəmiyyət daşıyır. Azərbaycan məktəblərində akmeoloji təhsil mühiti dedikdə, müəllim və şagirdin qarşılıqlı hörmətə, əməkdaşlığa, yaradıcı azadlığa əsaslanan bir təlim fəzası nəzərdə tutulur. Belə bir mühitdə müəllim özünü təkcə dərs deyən deyil, həm də öyrənən, düşünən, yenilik yaradan şəxs kimi hiss edir.

Akmeoloji mühitin formalaşması üçün aşağıdakı istiqamətlər mühümdür:

- məktəb rəhbərliyinin müəllim yaradıcılığına açıq münasibəti;
- pedaqoji fəaliyyətin yalnız nəticəyə deyil, prosesə və səy göstəricilərinə görə də qiymətləndirilməsi;
- müəllimlər arasında əməkdaşlıq və qarşılıqlı dəstək mədəniyyətinin təşviqi;

təhsildə psixoloji dəstək və kouçinq xidmətlərinin gücləndirilməsi.

Bu baxımdan, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəllimlərin mentorluq və kouçinq (fərdi inkişaf) proqramları üzrə fəaliyyətini genişləndirilməsi pedaqoji akmeologiyanın prinsiplərinə uyğun real addımlardan biridir.

3. Akmeoloji liderlik və menecment aspekti.

Pedaqoji akmeologiyanın Azərbaycan təhsilində tətbiq istiqamətlərindən biri də akmeoloji liderlik konsepsiyasıdır. Müasir məktəbin effektiv idarə olunması üçün direktor və rəhbər heyət də akmeoloji düşüncə tərzinə malik olmalıdır. Akmeoloji lider müəllim və şagirdlərin potensialını üzə çıxaran şərait yaradır, məktəbdə humanist və innovativ dəyərləri təşviq edir.

Bu sahədə dünya təcrübəsi göstərir ki, Finlandiya, Sinqapur və Cənubi Koreya kimi ölkələrdə müəllimlərin "akme-liderlik" kursları peşəkar inkişafın əsas mərhələsi kimi qəbul olunur. Azərbaycan təhsilində də bu təcrübədən istifadə olunması məqsədəuyğundur.

4. Təhsil islahatlarında akmeoloji yanaşmanın əhəmiyyəti.

Akmeoloji baxımdan təhsil islahatlarının əsas məqsədi müəllim və şagirdin şəxsiyyət kimi inkişafına xidmət etməkdir. Dövlət proqramlarında nəzərdə tutulan "şəxsiyyətyönlü təhsil", "səriştəyə əsaslanan kurikulum", "inklüziv təhsil", "müəllim hazırlığında fərdi inkişaf portfeli" kimi anlayışlar pedaqoji akmeologiyanın ideyaları ilə səsləşir.

Bu istiqamətdə həyata keçirilən islahatlar müəllimlərə peşəkar azadlıq, yaradıcı seçim və özünütəkmilləşdirmə imkanları təqdim edir. Məsələn, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (9) müəllim peşəkarlığının artırılması, yeni təlim texnologiyalarının tətbiqi və təhsildə humanist dəyər-

lərin gücləndirilməsi birbaşa akmeoloji yanaşmanın prinsiplərinə əsaslanır.

5. Akmeoloji yanaşmanın gözlənilən nəticələri

Pedaqoji akmeologiyanın Azərbaycan təhsilində tətbiqi aşağıdakı nəticələri verə bilər:

- müəllimin özünüdərketmə və özünütəkmilləşdirmə bacarığının artması;
- müəllim şəxsiyyətində yaradıcı və refleksiv mədəniyyətin formalaşması;
- tədris prosesində səmərəliliyin yüksəlməsi və şagird motivasiyasının artması;
- məktəb mühitində əməkdaşlıq, humanizm və peşəkar etika prinsiplərinin güclənməsi;
- təhsil islahatlarının dayanıqlı və dəyəryönlü xarakter alması.

Beləliklə, pedaqoji akmeologiya Azərbaycan təhsil sistemində müəllimin peşəkar inkişafını təmin etməklə yanaşı, bütövlükdə təhsilin keyfiyyətinə, dəyərlərinə və sosial funksiyasına yeni nəfəs gətirə bilər. Bu, milli təhsil modelimizin humanist və innovativ mahiyyətini dərinləşdirən mühüm istiqamət kimi dəyərləndirilə bilər.

Azərbaycan təhsil sistemində akmeoloji yanaşmaların tətbiqi müəllimlərin peşəkar inkişafını daha sistemli və şəxsiyyətyönlü edir. Refleksiv tədris, dəyərlər sisteminin gücləndirilməsi, yaradıcı fəaliyyətin təşviqi, akmeoloji mühitin formalaşdırılması və akmeoloji liderlik konsepsiyası bu yanaşmanın praktik nəticələrini təmin edir. Bu həm müəllimin, həm də şagirdin inkişafını dəstəkləyərək, təhsil sisteminin keyfiyyətinə və dayanıqlılığına müsbət təsir göstərir.

Beləliklə, pedaqoji akmeologiya milli təhsil sisteminin humanist, innovativ və şəxsiyyətyönümlü mahiyyətini gücləndirən mühüm elmi və pedaqoji vasitə kimi qiymətləndirilə bilər. Onun tətbiqi müəllim peşəsinin nüfuzunu artırır, təhsil mühitində etik və mənəvi dəyərləri yüksəldir və müəllimin özünüreallaşdırmasına şərait yaradır. Bu elmi istiqamət, eyni zamanda, Azərbaycan təhsilinin beynəlxalq standartlara uyğunlaşmasına və müəllim hazırlığı sahəsində yeni metodik modelin formalaşmasına xidmət edir.

Problemin aktuallığı. Cəmiyyətin intellektual potensialının formalaşmasında müəllimlərin rolu əvəzsizdir. Bu baxımdan müəllimlərin peşəkar inkişafını təmin edən elmi baza kimi pedaqoji akmeologiyanın əhəmiyyəti və onun pedaqoji səriştəliliyin yüksəlməsindəki rolu getdikcə artır. Müəllimlərin peşəkar inkişafının əsas qanunauyğunluqlarının müəyyən olunmasında pedaqoji akmeologiyanın başlıca prinsiplərinin nəzərə alınması vacibdir. Bu baxımdan milli təhsil modelinin humanist mahiyyətini dərinləşdirən mühüm istiqamət kimi akmeoloji yanaşmanın tətbiqi zəruridir.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, araşdırmalarda pedaqoji akmeologiyanın inteqrativ xarakteri , əsas prinsipləri, başlıca elementləri təhlil edilmiş və onlar pedaqoji fəaliyyətin inkişaf modelinin nəzəri bazasını yaratmaq üçün əsas model olaraq dəyərləndirilmişdir. Bu model isə pedaqoji akmeologiyanın Azərbaycan təhsilinə gətirə biləcəyi ən böyük töhfələrdən biri hesab edilə bilər.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələri təhsildə keyfiyyətin təmin olunmasına , müəllimlərin peşəkar inkişafına , onların səriştəliliyinin yüksəlməsinə töhfə verə bilər. Pedaqoji akmeologiyanın əsas prinsiplərinin və başlıca elementlərinin Azərbaycan təhsilinə tətbiqi məktəbdə sağlam mənəvi-psixoloji mühitin formalaşmasına, əməkdaşlıq mədəniyyətinin inkişafına və müəllimlərin peşə yüksəlişinə kömək edər.

Ədəbiyyat

1. Бодалев, А.А. Психология обшения / А.А. Бодалев. – Москва: МОДЭК, – 2002. – 256 с.
2. Деркач, А.А. Акмеология профессионального развития личности / А.А. Деркач. –Москва: МОДЕК, – 2004. – 752 с.
3. Кузьмина, Н.В. Профессионализм деятельности преподавателя высшей школы (акмеологический аспект) — М.: Педагогика, –1990. –285
4. Maslow, A.H. Motivation and Personality / A.H. Maslow. –New York, 1954. 394 p.
5. Rogers, C. On Becoming a Person: A Therapist's View of Psychotherapy / C. Rogers. –Boston, 1961. – 435 p.
6. Frankl V. Man's Search for Meaning. –New York, 1946. –29 p.
7. Bodalev, A.A. Psykologiya kommunikatsii i professional'noe razvitie lichnosti / A.A. Bodalev. – Moskva, 1998. –256 c.
8. Derkaç, A.A. Pedagogical Akmeology: Theory and Practice / A.A. Derkaç. –Moskva, MODƏK, – 2004. –536 p.

9. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://e-qanun.az/framework/29145

Redaksiyaya daxil olub: 26.01.2026

EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏ
ECOLOGICAL EDUCATION AND UPBRINGING
ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ

UOT 37.1

Ləman Əbdül qızı Mustafayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının coğrafiya müəllimi
https://orcid.org/0000-0002-7510-8847
E-mail: lemanmustafayeva32@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).72-75

ALİ TƏHSİLDƏ EKOLOJİ SAVADLILIĞIN FORMALAŞDIRILMASI

Laman Abdul Mustafayeva
geography teacher at
Shamakhi branch of Azerbaijan State Pedagogical University

FORMATION OF ECOLOGICAL LITERACY IN HIGHER EDUCATION

Ляман Абдул гызы Мустафаева
преподаватель географии
Шемахинского филиала Азербайджанского Государственного Педагогического Университета

ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ ГРАМОТНОСТИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

Xülasə. Bu məqalədə ali təhsil müəssisələrində ekoloji savadlılığın formalaşdırılmasının zəruriliyi, qarşıya çıxan çağırışlar, həyata keçirilən təlim strategiyaları və nəticələrin qiymətləndirilməsi araşdırılır. Qlobal ekoloji problemlərin artdığı bir dövrdə ali təhsilin ekolojiyönlü bilik, bacarıq və dəyərlərin aşılanmasında rolu xüsusi diqqət tələb edir. Məqalədə həm nəzəri yanaşmalar, həm də praktiki tətbiqlər şərh olunur, ekoloji savadlılığın yüksəldilməsi üçün səmərəli pedaqoji modellər təklif edilir.
***Açar sözlər**: ekoloji savadlılıq, ali təhsil, davamlı inkişaf, ekoloji təlim, yaşıl kampus*

Abstract. This article examines the necessity of forming ecological literacy in higher education institutions, the challenges encountered, the implemented training strategies, and the evaluation of the results. In an era of increasing global environmental problems, the role of higher education in instilling ecologically oriented knowledge, skills, and values requires special attention. The article comments on both theoretical approaches and practical applications, and proposes effective pedagogical models for improving ecological literacy.
***Key words:** environmental literacy, higher education, sustainable development, environmental training, green campus*

Аннотация. В статье рассматривается необходимость формирования экологической грамотности в высших учебных заведениях, возникающие при этом проблемы, реализуемые стратегии обучения и оценивание полученных результатов. В эпоху обострения глобальных экологических проблем роль высшего образования в формировании экологически ориентированных знаний, навыков и ценностей требует особого внимания. В статье рассматриваются как теоретические подходы, так и их практическое применение, а также предлагаются эффективные педагогические модели повышения экологической грамотности.

Ключевые слова: *экологическая грамотность, высшее образование, устойчивое развитие, экологическое обучение, зеленый кампус*

Müasir dövrdə ekoloji təhlükələr, iqlim dəyişikliyi, torpaqların deqradasiyası, biomüxtəlifliyin azalması, su ehtiyatlarının çirklənməsi və digər problemlər insan fəaliyyətinin nəticəsi kimi qlobal miqyas almışdır. Bu problemlərin aradan qaldırılması üçün yalnız texnoloji yeniliklər kifayət etmir. Cəmiyyətin bütün təbəqələrində ekoloji düşünmə tərzi və məsuliyyətli davranışın formalaşdırılması vacibdir. Bu baxımdan ali təhsil müəssisələri cəmiyyət üçün ekoloji cəhətdən savadlı mütəxəssislər hazırlayan əsas mənbədir. Ali təhsildə ekoloji savadlılıq tələbələrin təbiətə münasibətinin formalaşması, ekoloji riskləri qiymətləndirməsi, davamlı inkişaf prinsiplərini tətbiq edə bilməsi deməkdir. Ali məktəblərin tədris proqramlarında ekoloji təlimin gücləndirilməsi həm milli, həm də beynəlxalq səviyyədə aktualdır.

Ekoloji savadlılıq anlayışı və onun tərkib hissələri. Ekoloji savadlılıq fərdin ətraf mühit haqqında elmi əsaslı biliklərə malik olması, ekosistemlərin iş prinsiplərini anlaması, ekoloji problemləri qiymətləndirməsi, həmin problemlərin qarşısını almaq üçün qərar qəbul etməsi və təbiətə məsuliyyətli davranması ilə xarakterizə olunan kompleks anlayışdır. Bu anlayış yalnız məlumatlı olmağı deyil, həm də ekoloji dəyərlərin mənimsənilməsini, adekvat davranış formalarının gündəlik həyata tətbiqini özündə birləşdirir. Müasir dövrdə ekoloji savadlılıq qlobal ekoloji risklərin artması fonunda insanın sosial məsuliyyətinin mühüm indikatoruna çevrilmişdir. Ekoloji savadlılıq bir neçə əsas komponentdən ibarətdir və hər bir komponent fərdin ətraf mühitlə əlaqəli qərarlarında mühüm rol oynayır. Ekoloji bilik. Ekoloji bilik ekosistemlərin quruluşu, canlı və cansız komponentlərin qarşılıqlı təsiri, iqlim dəyişikliyi, su və torpaq resurslarının idarə olunması, təbii fəlakətlər, biomüxtəliflik və digər ekoloji proseslər haqqında elmi məlumatlara sahib olmaq deməkdir. Bu biliklər tələbəyə ətraf mühitdə baş verən hadisələrin səbəb-nəticə əlaqələrini anlamağa, ekoloji problemlərin mahiyyətini düzgün qiymətləndirməyə, davamlı inkişaf prinsiplərini başa düşməyə, antropogen təsirlərin təbiətə uzunmüddətli təsirini təhlil etməyə və s. imkan yaradır. Ekoloji bilik komponenti ali təhsildə xüsusi fənlərin tədrisi, seminarlar, ekskursiyalar və laboratoriya işləri vasitəsilə formalaşdırılır. Ekoloji dəyərlər. İnsanların təbiətə münasibətində formalaşan etik prinsiplər, mənəvi yanaşmalar və məsuliyyət hissidir. Bu dəyərlər təbiətin qorunmasına yönəlmiş fikir və davranışların əsasını təşkil edir. Əsas ekoloji dəyərlərə təbiətə hörmət və qayğı, resurslardan qənaətlə istifadə, gələcək nəsillərə qarşı məsuliyyət hissi, ekoloji ədalət (hamının sağlam mühitdə yaşamaq hüququ) və s. aiddir. Ekoloji dəyərlərin formalaşması yalnız nəzəri biliklərlə deyil, sosial fəaliyyət, könüllülük proqramları, kampus mədəniyyəti və kollektiv ekoloji aksiyalarda iştirakla möhkəmlənir. Bilik və dəyərlər praktiki bacarıqlarla tamamlanmalıdır. Ekoloji bacarıqlar, fərdin ekoloji problemləri araşdırmaq, təhlil etmək, qiymətləndirmək və həll etmək üçün istifadə etdiyi metodların məcmusudur. Bu bacarıqlara daxildir: ekoloji monitorinq aparmaq, ekoloji məlumatları analiz etmək və interpretasiya etmək, tullantıların idarə edilməsi üsullarını tətbiq etmək, resurslardan səmərəli istifadə üsullarını planlaşdırmaq, ekoloji risklərin qiymətləndirilməsi, müasir texnologiyalar (GIS, ekoloji sensorlar, rəqəmsal xəritələr və s.) ilə işləmək və s. Ali təhsil müəssisələrində bu bacarıqlar laborator məşğələləri, təcrübələr, layihə tapşırıqları və sahə tədqiqatları vasitəsilə formalaşdırılır.

Ekoloji savadlılığın son və ən mühüm komponenti ekoloji davranışdır. Bu davranış fərdin gündəlik həyatında təbiəti qorumağa yönəlmiş konkret addımlar atması ilə ölçülür. Ekoloji davranış nümunələrinə suya və enerjiyə qənaət etmək, tullantıları çeşidləmək və azaltmaq, plastik istifadəsini minimuma endirmək, ictimai nəqliyyata üstünlük vermək, ətraf mühitin çirklənməsinə qarşı sosial fəallıq göstərmək, ekoloji layihələrdə könüllü iştirak etmək və s. aid etmək olar. Əgər bilik və dəyərlər praktik davranışa çevrilmirsə, bu, ekoloji savadlılığın tam formalaşmaması deməkdir. Ekoloji savadlılığın mühüm tərkib hissələrindən biri də sistemli düşünmədir. Bu düşüncə tərzi tələbəyə aşağıdakıları anlamağa imkan verir: təbiətdə hər bir elementin bir-biri ilə əlaqəli olduğunu, insan fəaliyyətinin istənilən sahəsinin ekosistemə təsir göstərdiyini, hər bir ekoloji problemin çoxşaxəli və kompleks xarakter daşıdığını, qərarların yalnız

qısa deyil, uzunmüddətli nəticələrini də qiymətləndirməyi və s. Sistemli düşüncə ekoloji problemlərin həllində daha rasional və davamlı yanaşmanı təmin edir. Beləliklə, ekoloji savadlılıq çoxşaxəli anlayış olaraq bilik, dəyər, bacarıq və davranış komponentlərinin inteqrasiyası ilə formalaşır. Bu komponentlər ali təhsil sistemində kompleks şəkildə tətbiq olunduqda ekoloji məsuliyyətə malik mütəxəssis yetişdirmək mümkün olur. Ali təhsil müəssisələrində ekoloji savadlılığın formalaşdırılması kompleks və çoxşaxəli yanaşma tələb edən bir prosesdir. Bu proses həm nəzəri biliklərin, həm də praktiki bacarıqların inkişafını əhatə edir.

Universitet mühiti tələbələrdə ekoloji düşüncə tərzinin formalaşması üçün həm akademik, həm də sosial imkanlar yaradır. Bu bölmədə ekoloji savadlılığın inkişaf etdirilməsi üçün əsas mexanizmlər daha geniş şəkildə şərh olunur. Tədris proqramları ekoloji savadlılığın əsas təməlini təşkil edir. Fənlərin ekoloji aspektlərlə zənginləşdirilməsi tələbələrin ətraf mühitin qorunması ilə bağlı multidissiplinar biliklər əldə etməsinə şərait yaradır. Bu istiqamətdə görülə biləcək əsas işlər, müxtəlif ixtisasların (mühəndislik, iqtisadiyyat, tibb, memarlıq, pedaqogika və s.) proqramlarına ekoloji modulların əlavə edilməsi, ekoloji təhlükəsizlik, davamlı inkişaf, ətraf mühitin monitorinqi kimi fənlərin obligativləşdirilməsi, beynəlxalq ekoloji standartlara uyğun tədris materiallarının hazırlanması və yenilənməsi və s. aiddir. Bu yanaşma tələbələrin yalnız ekologiya üzrə deyil, digər sahələrdə də ekoloji məsuliyyət daşıyan mütəxəssislər kimi yetişməsinə imkan yaradır.

Layihə əsaslı təlim və tədqiqat fəaliyyətləri. Layihə əsaslı öyrənmə, tələbələrin ekoloji problemləri dərin araşdırmasına və onların həlli yollarını praktiki şəkildə sınamasına şərait yaradır. Bu yanaşma həm yaradıcı təfəkkürü, həm də analitik düşünməni inkişaf etdirir. Tələbələr tərəfindən kampus ərazisində tullantıların azaldılmasına yönəlmiş innovativ həllər, su resurslarının idarə olunması və qənaət mexanizmlərinin hazırlanması, alternativ enerji mənbələrinin tətbiqi üzrə eksperimental modellər, yaşıl zonaların artırılması və ekosistem bərpası və s. mövzular üzrə layihələr həyata keçirmək olar. Bu fəaliyyətlər tələbələrin həm ekoloji düşüncə tərzini gücləndirir, həm də real həyatda tətbiq oluna bilən nəticələr yaradır. Ekoloji könüllülük, sosial kampaniyalar və tələbə təşəbbüsləri. Könüllülük fəaliyyəti ekoloji savadlılığın praktiki tərəfini gücləndirən əsas mexanizmlərdən biridir. Tələbələr ekoloji aksiyalarda iştirak etməklə təbiətin qorunmasına birbaşa töhfə verir. Bu fəaliyyətlərə daxildir: "Təmiz kampus" aksiyaları, ağacəkmə kampaniyaları və yaşıllaşdırma tədbirləri, ekoloji marafonlar, forumlar və maarifləndirici yürüşlər, məktəblərdə və ictimai yerlərdə ekoloji maarifləndirmə və s. Bu cür fəaliyyətlər tələbələrdə sosial məsuliyyət hissini artırır və ekoloji davranışın şəxsi vərdişə çevrilməsinə kömək edir.

İnnovativ tədris metodları və rəqəmsal alətlər. Müasir təlim metodları ekoloji savadlılığın formalaşdırılmasında mühüm rol oynayır. İnnovativ metodlar tələbələrin ekoloji prosesləri daha dərindən qavramasına imkan verir. İstifadə edilə biləcək əsas metod və alətlər: Problembaza təlim: Tələbələr real ekoloji problemləri araşdıraraq həll yolları hazırlayır. Virtual laboratoriyalar: Tələbələrin laborator avadanlığı olmadan ekoloji təcrübələr aparmasına şərait yaradır. Simulyasiyalar və ekoloji modellər: İqlim dəyişikliyi, çirklənmə, enerji istehlakı kimi proseslərin kompüter modelləri vasitəsilə öyrənilməsi. GIS texnologiyaları: Ətraf mühitlə bağlı məlumatların coğrafi xəritələşdirilməsi. Bu metodlar tədrisi daha interaktiv və anlaşılan edir. Müəllim hazırlığı və peşəkar inkişaf. Ekoloji savadlılığın keyfiyyətli formalaşdırılması müəllimlərin hazırlıq səviyyəsindən birbaşa asılıdır. Ali təhsil müəssisələrində müəllimlər üçün davamlı təlimlərin təşkili zəruridir. Məsələn, müəllimlər üçün ekoloji yeniliklərə dair seminarlar və təlimlər, Beynəlxalq ekoloji təhsil proqramlarında iştirak, müasir metodologiyaların tətbiqi üzrə peşəkar inkişaf kursları kimi təlimlər keçirmək olar. Bu yanaşma təhsil prosesinin peşəkar səviyyədə həyata keçirilməsinə şərait yaradır.

Ekoloji savadlılıq yalnız dərsdə deyil, kampus mühitində də formalaşmalıdır. Tələbə gündəlik həyatda ekoloji davranış nümunəsi görməlidir. Bu məqsədlə cəmiyyətdə enerji qənaətli sistemlərin tətbiqindən, tullantıların çeşidlənməsi konteynerlərinin quraşdırılmasından, Suya qənaət sistemlərindən, ekoloji nəqliyyatın təşviqindən (velosiped yolları, elektrik nəqliyyat vasitələri) və s. İstifadə etmək lazımdır. Beləliklə, kampus özü ekoloji təlim məkanı kimi fəaliyyət göstərir.

Ali təhsilin təkcə bilik verməklə deyil, həm də cəmiyyətin ekoloji davranışına təsir göstərmə potensialı var. Məsələn, ekoloji məsuliyyətin artması. Universitet məzunları daha ekoloji düşüncəli və məsuliyyətli qərarlar verir. Ekoloji savadlı mütəxəssislər gələcəkdə şəhərsalma, enerji sektoru, sənaye və kənd təsərrüfatında daha az zərərli qərarlar qəbul edir. Universitet tələbələri və müəllimləri müxtəlif ictimai tədbirlər vasitəsilə ekoloji mədəniyyətin yayılmasına töhfə verir. Bildiyimiz kimi, startaplar, tədqiqat layihələri və yaşıl texnologiyalar məhz ekoloji savadlı gənclərin təşəbbüsü ilə inkişaf edir. Əksər ölkələr ali təhsildə ekoloji savadlılığın artırılması üçün yeni konsepsiyalar tətbiq edir. məsələn, Finlandiyada bütün universitetlərdə davamlı inkişaf strategiyası hazırlanır və tələbələr hər ixtisas üzrə müəyyən ekoloji kreditləri toplamalıdır. Kanada universitetlərində ekoloji könüllülük geniş yayılıb. Hər tələbə ən azı bir ekoloji layihədə iştirak etməlidir. Yaponiya da isə Kampusların enerji səmərəliliyi yüksək səviyyədədir və tələbələr ekoloji idarəetmə üzrə praktik bacarıqlar qazanır. Respublikamızda Son illərdə ekoloji təhsil gücləndirilsə də fənlərarası inteqrasiya zəifdir, ekoloji laboratoriyalar azdır, ekologiya üzrə layihələrin dəstəklənməsi məhduddur. Bu sahədə yeniliklər tətbiq olunarsa, ekoloji savadlılıq daha yüksək səviyyəyə qalxa bilər.

Problemin aktuallığı. Müasir dövrdə qlobal ekoloji böhranların dərinləşməsi, iqlim dəyişikliyi, atmosfer çirklənməsi, su ehtiyatlarının azalması, torpaqların deqradasiyası və biomüxtəlifliyin sürətlə itirilməsi cəmiyyətin bütün sahələrində ekoloji savadlılığın zəruriliyini artırır. Xüsusilə ali təhsildə ekoloji savadlılığın formalaşdırılması problemin aktuallığını daha da gücləndirir, çünki bugünkü tələbələr sabahın qərarvericiləri, mütəxəssisləri və müəllimləri olacaq. Onların ekoloji düşüncə və davranış səviyyəsi ölkənin davamlı inkişaf strategiyalarının həyata keçirilməsinə birbaşa təsir göstərir. Buna görə də ali təhsil müəssisələrinin tədris və idarəetmə prosesində ekoloji komponentin artırılması həm milli, həm də qlobal səviyyədə mühüm sosial-iqtisadi tələb kimi çıxış edir.

Problemin yeniliyi. Ali təhsildə ekoloji savadlılığın formalaşdırılmasının yeniliyi onun yalnız ənənəvi ekoloji biliklərlə məhdudlaşmamasında deyil, həm də yeni pedaqoji modellər, innovativ tədris metodları, rəqəmsal alətlər və təcrübəyə əsaslanan öyrənmə mexanizmlərinin tətbiqini tələb etməsindədir. Bu sahədə inteqrativ yanaşmalar, STEM, layihə əsaslı öyrənmə, interaktiv ekoloji simulyasiyalar, yaşıl kampus konsepsiyası yeni nəsil tələbələrin ekoloji məsuliyyətinin artırılması baxımından müasir və fərqli bir yanaşmadır. Problemin yeniliyi həm də ondan ibarətdir ki, ekoloji savadlılıq yalnız ekologiya ixtisasına aid bir istiqamət hesab olunmur, bütün ixtisaslara, o cümlədən iqtisadiyyat, tibb, mühəndislik, sosial elmlərə də inteqrasiya olunur. Beləliklə, ekoloji savadlılıq müasir ali təhsilin tərkib hissəsi kimi yeni sistemli yanaşma tələb edir

Problemin praktik əhəmiyyəti. Ali təhsildə ekoloji savadlılığın formalaşdırılmasının praktiki əhəmiyyəti çoxşaxəlidir. İlk növbədə, ekoloji düşüncəyə malik mütəxəssislər istehsalatda, idarəetmədə, təhsildə, energetikada və sosial sahələrdə daha məsuliyyətli qərarlar qəbul edirlər. Onlar resurslardan səmərəli istifadəni, tullantıların azalması və yenidən emal edilməsini, ekoloji risklərin qiymətləndirilməsini və dayanıqlı inkişaf prinsiplərinə əməl olunmasını təmin edir. Bundan əlavə, ekoloji savadlı kadrların hazırlanması ölkənin ekoloji təhlükəsizliyinin güclənməsinə, milli ekoloji siyasətin səmərəli həyata keçirilməsinə və ekoloji maarifləndirmənin genişlənməsinə şərait yaradır. Universitetlərdə formalaşan ekoloji layihələr, tədqiqatlar və könüllülük fəaliyyətləri isə cəmiyyətin ekoloji mədəniyyətinin artmasına real təsir göstərir. Beləliklə, problemin praktiki əhəmiyyəti həm fərdi, həm institusional, həm də ümummilli səviyyədə özünü göstərir.

Ədəbiyyat

1. Əliyeva, S. Ali təhsildə ekoloji savadlılıq və onun formalaşdırılması // Təhsil və Cəmiyyət. – 2020. №4. – s. 15–28.
2. Hacıyev, R. Ekoloji menecmentin ali məktəblərdə tətbiqi imkanları // Ekologiya və Həyat. – 2021. №2. – s. 44–58.
3. Hüseynova, L. Davamlı inkişaf prinsiplərinin tədrisə inteqrasiyası // Pedaqoji Araşdırmalar Jurnalı. – 2019. №1. – s. 31–47.
4. Məmmədov, A. Tələbələrdə ekoloji mədəniyyətin formalaşdırılması yolları // Təhsil Problemləri. – 2022. №3. – s. 52–66.
5. Quliyev, F. Yaşıl kampus modeli və onun tətbiqi // Azərbaycan Ekologiya Jurnalı. – 2023. №2. – s. 18–33.

6. Rüstəmova, N. Ekoloji davranış vərdişlərinin inkişafında ali təhsilin rolu // Sosial Elmlər və Təhsil. – 2021. №4. – s. 61–74.
7. Zamanov, T. Ali təhsildə ekoloji savadlılığın qiymətləndirilməsi metodları // Təhsil Tədqiqatları. – 2018. №3. – s. 25–39.Zamanov, T. Ali təhsildə ekoloji savadlılığın qiymətləndirilməsi metodları // Təhsil Tədqiqatları. – 2018. №3. – s. 25–39.

Redaksiyaya daxil olub: 03.12.2025

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

UOT 372.8

Asif Xatabala oğlu Hacıyev (Şirvanelli)
Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi məsləhətçisi
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/ 0000-0002-7084-9347
E-mail: haciyev_asif@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).76-80

LATIN QRAFİKALI AZƏRBAYCAN ƏLİFBASINA KEÇİDİN BƏZİ ÖZÜNƏMƏXSUS CƏHƏTLƏRİ

Asif Hatabala Hajiyev (Shirvanelliy)
senior scientific advisor of the Institute of Education
of the Republic of Azerbaijan
doctor of philosophy in pedagogy, associate professor,

SOME SPECIAL ASPECTS OF THE SWITCH TO THE LATIN GRAPHIC AZERBAIJAN ALPHABET

Асиф Хатабала оглы Гаджиев (Ширванелли)
старший научный советник Института Образования Азербайджанской Республики
доцент, доктор философии по педагогике

НЕКОТОРЫЕ СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ПЕРЕХОДА К АЗЕРБАЙДЖАНСКОМУ АЛФАВИТУ ПО ЛАТИНСКОЙ ГРАФИКЕ

Xülasə. Türk xalqları arasında siyasi, iqtisadi, ədəbi və mədəni əlaqələrin güclənməsində mühüm rol oynayan amillərdən biri vahid əlifba sistemindən istifadə ilə bağlıdır. Son 30 ildə müxtəlif səviyyələrdə aparılan məsləhətləşmələr latın qrafikalı ortaq türk əlifbasına keçid üçün möhkəm bünövrə hazırlamışdır. Həmin keçidin mərhələli şəkildə tədricən həyata keçirilməsi olduqca böyük əhəmiyyət daşıyır ki, bu baxımdan Azərbaycan Respublikasında qazanılmış təcrübənin öyrənilməsi maraqlı olardı. Məqalədə latın qrafikalı Azərbaycan əlifbasına keçidin özünəməxsus cəhətlərinə toxunulmuş və yekunda latın qrafikalı ortaq türk əlifbasının qəbulunda gözlənilməsi vacib olan prinsiplər şərh edilmişdir.
Açar sözlər: *Azərbaycan, əlifba, latın qrafikası, türk, keçid, əlyazma*

Abstract. One of the factors that play an important role in the strengthening of political, economic, literary and cultural relations between the Turkish peoples is related to the use of a single alphabet system.

During the last 30 years, consultations at various levels have prepared a solid foundation for the transition to a common Turkish alphabet with Latin script. The gradual implementation of that transition is very important, and in this regard, it would be interesting to study the experience gained in the Republic of Azerbaijan. In the article, the peculiar aspects of the transition to the Azerbaijani alphabet with Latin script

were touched upon, and in the end, the principles that should be expected in the adoption of the common Turkish alphabet with Latin script were explained.
Key words: *Azerbaijan, alphabet, Latin script, Turkish, transition, manuscript*

Аннотация. Одним из факторов, играющих важную роль в укреплении политических, экономических, литературных и культурных связей между тюркскими народами, является использование единой алфавитной системы. В течение последних 30 лет, консультации, проводившиеся на различных уровнях, заложили прочную основу для перехода к общему тюркскому алфавиту с латинским письмом. Поэтапное, постепенное осуществление данного перехода имеет весьма большое значение, и в этом отношении представляет интерес изучение опыта, накопленного в Азербайджанской Республике. В статье рассматриваются специфические особенности перехода к азербайджанскому алфавиту по латинской графике и в заключение разъясняются принципы, которые необходимо соблюдать при принятии общего тюркского алфавита с латинским письмом.
Ключевые слова: *Азербайджан, алфавит, латинское письмо, тюркский, переход, рукопись*

1926-cı ilin 26 fevral – 6 mart tarixində Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi ərəfəsində burada qaldırılan məsələləri bir daha nəzərdən keçirdikdə əlifba məsələsinin aparıcı mövqedə durduğu aydın olur. Müzakirəyə çıxarılan başlıca problem türk xalqlarının böyük əksəriyyətinin yüzilliklər boyu qədim ədəbiyyatının yazıya alındığı və artıq formalaşmış ədəbi dilinin əksini tapdığı ərəb qrafikalı əski əlifbadan latın qrafikalı yeni əlifbaya keçilməsi məsələsi idi ki, çoxsaylı müzakirələrin yekununda da bu keçidin zəruriliyi öz təsdiqini tapmış oldu.

Məhz qurultayın gəldiyi bu vacib qərar əsasında türk xalqlarının yeni əlifbaya keçidi az bir zaman ərzində gerçəkləşdirildi. Lakin 30-cu illərin sonunda Sovetlər Birliyinin tərkibində yaşayan türk xalqlarına kiril əlifbasının məcburən qəbul etdirilməsi və bu əlifba sisteminin türk xalqlarının təmsil etdiyi respublikalarda fərqli variantlarda tətbiq edilməsi onlar arasında mövcud olan ədəbi-mədəni bağlılığı xeyli zəiflətmiş oldu. Buna görə də SSRİ-nin dağılmasından sonra müstəqillik qazanmış bəzi türkdilli respublikalarda latın qrafikalı əlifba sistemi yenidən bərpa edildi. Lakin bu yenilənmənin mexaniki şəkildə deyil, bütün türkdilli xalqlar üçün vahid formada aparılması əsas şərt kimi önə çəkildi. Belə ki, 1991-ci ildə keçirilmiş Çağdaş Türk Əlifbaları Simpoziumunun və 2012-ci ildə Türk Dövlətləri Təşkilatının Ortaq Terminoloji Şurasının toplantısının yekun qərarında [1, s. 67-68] vahid variantda razılaşdırılmış latın qrafikalı ortaq türk əlifbasının bütün türk dövlətləri və qurumları tərəfindən qəbulunun zəruriliyi irəli sürülsə də, siyasi, iqtisadi amillərlə yanaşı, linqvistik mahiyyət daşıyan bəzi problemlər səbəbindən tam həyata keçirilmədi. Yalnız Türk Dövlətləri Təşkilatının nəzdində fəaliyyət göstərən Türk Akademiyasının, Türkiyənin Türk Kültür, Dil və Tarix Yüksək Qurumu və Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun birgə təşkilatçılığı ilə Türk Dünyası Ortaq Əlifba Komissiyasının 2024-cü ilin sentyabr ayında Bakıda keçirilən üçüncü toplantısında vahid əlifba sisteminə keçidlə bağlı yekun qərara gəlindi.

Araşdırma göstərir ki, son 30 ildə müstəqilliyini bərpa etmiş bir çox türk dövlətləri, o cümlədən Azərbaycan, Türkmənistan, Özbəkistan və Qazaxıstan latın əlifbasına ya tam keçmiş, ya da bu keçidi mərhələli şəkildə həyata keçirməkdədirlər [2, s. 100]. Fikrimizcə, qazanılmış tarixi təcrübə nəzərə alınmasa, türk xalqlarının hərtərəfli birliyinə nail olunmasında müəyyən problemlər yaşanacaqdır. Unutmaq lazım deyil ki, ərəb əlifbasının müsbət cəhətlərindən biri məhz ondan vahid formada istifadə olunması idisə, kiril əlifbasının mənfi cəhəti fərqli variantlarda tətbiqi idi. Deməli, ortaq latın əlifbasından istifadədə vahid yanaşılmanın gözlənilməsi mühüm şərt olaraq saxlanılmalıdır.

Gəlinən mülahizənin nə dərəcədə önəm kəsb etdiyinə əmin olmaq üçün latın qrafikalı Azərbaycan əlifbasının keçdiyi tarixi yolu izləmək kifayətdir. Bilindiyi kimi, hələ 1923-cü ildən latın əlifbasına mərhələli şəkildə aparılmaqla 1929-cu ildə birmənalı olaraq tamamlandı. 1929-1939-cu illər arasında cəmi 10 il istifadə edilməsinə baxmayaraq, onun tərkibində və bəzi hərflərin konfiqurasiyasında müəyyən dəyişiklik edildi. Belə ki, 1929-1933-cü illəri əhatə edən birinci mərhələdə böyük və kiçik olmaq üzrə “C c”, “Q q” və “Ç ç”, “K k” qrafemlərində qəbul

edilmiş hərflər 1934-1939-cu illəri əhatə edən ikinci mərhələdə qarşılıqlı şəkildə əvəzlənərək müvafiq qaydada “Ç ç”, “K k” və “C c”, “Q q” kimi istifadə olundu. Həmçinin ilkin mərhələdə [g] səsini bildirən “Ԍ ԍ” hərfi sonrakı mərhələdə “G g” hərfi ilə, [ğ] səsini bildirən “G g” hərfi “Ԍ ԍ” hərfi ilə, [ş] səsini bildirən “Z z” hərfi isə “Ş ş” hərfi ilə əvəz edildi. Diqqəti çəkən faktlardan biri də budur ki, [j] səsi hər iki mərhələdə “Ƶ ƶ” qrafik formasında əksini tapmışdı. Saitlərdən isə [ı] səsini bildirən “ Ɨ ɨ” hərfi sonrakı mərhələdə “Ь ь” hərfi ilə, [ö] səsini bildirən “Ө ө” hərfi “Ö ö” hərfi ilə, [u] səsini bildirən “Y y” hərfi isə “U u” hərfi əvəzlənmişdi. Beləliklə, həmin dövrdə cəmi onca il istifadədə olan latın əlifbasında 7 samit, 3 sait səsi bildirən 10 hərfin qrafik formasında dəyişiklik edilmişdi.

Keçən yüzilliyin 90-cı illərində öz müstəqilliyini bərqərar edən Azərbaycan xalqı 50 illik bir dövrdə istifadədə olan kiril qrafikasından imtina edərək latın qrafikalı Azərbaycan əlifbasına qayıtmağı seçim etdi. Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 1991-ci il tarixli qərarına əsasən, 1940-cı ilə qədər ölkəmizdə istifadə edilən 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbası kiçik dəyişikliklərlə bərpa olundu. Belə ki, həmin dövrdə [ğ] səsini bildirən böyük və kiçik “Ԍ ԍ” hərfləri “Ğ ğ” hərfləri ilə, [ı] səsini bildirən “Ь ь” hərfləri “I ı” hərfləri ilə, [j] səsini bildirən “Ƶ ƶ” hərfləri “J j” hərfləri ilə əvəzlənilmiş, kiçik “в” hərfi isə ilkin variantda qəbul edilmiş “b” formasına qaytarılmışdır. Bundan əlavə, 1929-1939-cu illərdə istifadədə olan “Ɲ ɲ” hərfi, dilimizdə ayrıca fonem kimi çıxış etmədiyi nəzərə alınaraq, ümumiyyətlə, əlifbadan çıxarılmışdır. Belə bir faktı da xüsusi qeyd etmək istərdik ki, hər iki mərhələdə dilönü [ə] saiti “Ә ə” hərfləri ilə verilmişdir. Maraqlıdır ki, bu səsin qarfik forması 1991-ci ildə Millətlərarası Çağdaş Türk Əlifbaları Simpoziumunda qəbul edilmiş “Ä ä” forması 2012-ci ildə Türk Dövlətləri Təşkilatının Ortaq Terminoloji Şurasının toplantısında “Ə ə” variantı ilə əvəzlənilmişdir. Fikrimizcə, bu aşağıdakı səbəblərlə bağlıdır:

Əvvəla, estetik və yazının sürətliliyi baxımından bəzi hərflərin üzərində nöqtə qoyuluşu ilə fərqləndirilməsi heç də optimal sayıla bilməz. Təhlil göstərir ki, ərəb əlifbasından imtina edilməsinin göstəricilərindən biri də nöqtəli hərflərin çoxluğu ilə əlaqədar idi.

İkincisi, “Ə ə” variantı Azərbaycanda latın qrafikasının tətbiq edildiyi birinci dövrdə, həm də kiril əlifbasından istifadə zamanı özünü doğrultmuşdu.

Görünür, bu faktlardan çıxış edilərək, “Ä ä” hərfi ilə müqayisədə “Ə ə” variantı üzərində dayanılmışdır.

Azərbaycanda latın əlifbasının tətbiqi 1992-2001-ci illər arasında birdən-birə deyil, tədricən həyata keçirilmiş və bu keçid ölkə başçısının “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyul 2001-ci il tarixli fərmanı [3] ilə sona çatdırılmışdır. Məhz həmin fərmandan sonra ölkədə Azərbaycan dilində çap edilən qəzet, jurnal, bülleten, kitab və digər çap məhsulları yalnız latın qrafikası ilə nəşr olunmuşdur. Məqsədyönlü şəkildə aparılan bu iş ümumtəhsil məktəblərində daha ciddi formada reallaşdırlmışdır. Belə ki, 1992/1993-cü tədris ilindən 1-ci siniflərdə latın əlifbasının öyrədilməsinə başlanılmış və yuxarı siniflərə keçdikcə davam etdirilmişdir. Bununla belə, bütün hərflərin çap forması saxlanılsa da, 2020/2021-ci tədris ilindən başlayaraq məktəb təcrübəsində praktik tətbiqini sadələşdirmək və yazının sürətini artırmaq məqsədilə bəzi hərflərin əlyazma şəklində müəyyən düzəlişlər edilmişdir [4, s. 15-16]. Belə ki, həmin dövrə qədər , , , , kimi ilgəkli yazılan hərflərin konfiqurası sadələşdirilərək ilgəksiz , , , , şəklində yazılması irəli sürülməklə təcrübədə tətbiq edilmişdir. Həmçinin həmin dövrə qədər əlyazma şəkilndə yazılan böyük hərfi çap formasına uyğunlaşdırılaraq oxşar variantda verilmişdir. V hərfinin şəklində yazılışı zamanı özündən sonrakı hərflərlə birləşməsində müəyyən problem yarandığına görə konfiqurasiyasında cüzi dəyişikliklə kimi, böyük Y hərfinin yazılışı isə kimi qəbul edilmişdir. Bundan əlavə, I sinifdə əlifba təlimi zamanı şagirdlərin yazı sürətini artırmaq məqsədilə aşağıdan sağa tərəf qapalı olan 17 böyük hərfin özündən sonrakı hərflərlə birləşməsi məqsədəuyğun sayılmamışdır. Bunlar aşağıdakı hərflərdir:



Məlum olduğu kimi, bu metodik yanaşma Türkiyə Təhsil Nazirliyinin təsbit etdiyi normalarda da öz əksini tapmış və yazarkən böyük T, F, V, D, N, P hərflərinin özündən sonra gələn hərflərlə birləşmədiyi qəbul edilmişdir.

Latın qrafikalı Azərbaycan əlifbasının Ortaq türk əlifbası ilə müqayisə Cədvəli

Latın qrafikalı Azərbaycan əlifbası			Əlyazma şəkli		Ortaq türk əlifbası	
1929-1933-cu illərdə	1933-1939-cu illərdə	1991-ci ildən sonra	İlkin variant	Dəyişikliyə ğramış hərflər (2020-ci ildən sonra)	1991-ci ildə qəbul edilmiş forma	2012-ci ildə qəbul edilmiş forma
A a	A a	**A a**			A a	A a
B b	B в	**B b**			B b	B b
C c	Ç ç	**C c**			C c	C c
Ç ç	C c	**Ç ç**			Ç ç	Ç ç
D d	D d	**D d**			D d	D d
E e	E e	**E e**			E e	E e
Ə ə	Ə ə	**Ə ə**			Ä ä	Ə ə
F f	F f	**F f**			F f	F f
Ƣ ƣ	G g	**G g**			G g	G g
G g	Ƣ ƣ	**Ğ ğ**			Ğ ğ	Ğ ğ
H h	H h	**H h**			H h	H h
X x	X x	**X x**			X x	X x
I ı,	Ь ь	**I ı**			I ı	I ı
I i	I i	**İ i**			İ i	İ i
Ƶ z	Ƶ z	**J j**			J j	J j
Q q	K k	**K k**			K k	K k
K k	Q q	**Q q**			Q q	Q q
L l	L l	**L l**			L l	L l
M m	M m	**M m**			M m	M m
N n	N n	**N n**			N n	N n
N̦ n̦	N̦ n̦	----			N̦ n̦	N̦ n̦
O o	O o	**O o**			O o	O o
Ɵ ɵ	Ɵ ɵ	**Ö ö**			Ö ö	Ö ö
P p	P p	**P p**			P p	P p
R r	R r	**R r**			R r	R r
S s	S s	**S s**			S s	S s
Ʒ ʒ	Ş ş	**Ş ş**			Ş ş	Ş ş
T t	T t	**T t**			T t	T t
Y y	U u	**U u**			U u	U u
U u	Y y	**Ü ü**			Ü ü	Ü ü

V v	V v	**V v**			V v	V v
-	-	-	-	-	W w	W w
J j	J j	**Y y**			Y y	Y y
Z z	Z z	**Z z**			Z z	Z z

Beləliklə, Latın qrafikalı Azərbaycan əlifbasının Ortaq türk əlifbası ilə müqayisə Cədvəlindən də göründüyü kimi, Azərbaycan əlifbası Ortaq türk əlifbasına tamamilə uyğunlaşdırılmışdır. Təklif olunan latın qrafikalı ortaq türk əlifbasının xüsusiyyətləri üzərində dayanarkən qeyd etməyi lazım bilirik ki, son variantda **müvafiqlik, varislik və vahidlik** prinsipi xüsusilə gözlənilmişdir. **Müvafiqlik** prinsipi aşağıdakı faktlardan irəli gəlir:

1. Bu əlifba bütün türk xalqlarının səs sistemini əhatə etməyə qadirdir.

2. Bildiyimiz kimi, latın qrafikalı əlifbadan istifadə baxımından digər türk dövlətləri ilə müqayisədə Türkiyə daha geniş təcrübəyə malikdir. 5 hərfi (Ə, X, Q, Ñ və W) çıxmaq şərtilə Türkiyədə tətbiq edilən 29 hərfin hamısı bu ortaq əlifbada əksini tapmışdır. Əgər gələcəkdə Türkiyə türkcəsinin türk xalqları arasında uluslararası dil kimi işlədiləcəyi qəbul ediləcəksə (məncə, Türkiyə dövlətinin siyasi nüfuzu, iqtisadi inkişafı bunu deməyə əsas verir), bu variant daha optimal görünür.

Digər baxımdan, təklif olunan variantın qəbulu bütün türk dillərinin lüğət ehtiyatının qarşılıqlı əlaqədə zənginləşməsinə geniş imkanlar açacaq, müxtəlif səbəblərdən bir-birindən uzaqlaşma hallarının qarşısını alacaqdır.

Latın qrafikalı ortaq türk əlifbasının işlənilməsində **varislik** prinsipinə əməl edilməsi ondan irəli gəlir ki, keçən yüzilliyin 20–30-cu illərində və son 30 ildə qazanılmış təcrübədən, müxtəlif mövqeləri birləşdirən, yaxınlaşdıran mülahizələrdən çıxış edilməlidir.

Vahidlik prinsipi isə latın qrafikalı ortaq türk əlifbasının müstəqil türk dövlətlərində və Rusiya Federasiyasının tərkibindəki türk qurumlarında heç bir dəyişiklik edilmədən qəbulunu şərtləndirir. Bu məqamda 18-20 noyabr (kasım) 1991-ci il tarixində İstanbulda keçirilən Millətlərarası Çağdaş Türk Əlifbaları Simpoziumunda Nadir Devletin çıxışı zamanı söylədiyi belə bir fikri xatırlatmaq istərdik:"İnsanlıq tarixində türklər qədər dəyişik əlifbalardan istifadə edən topluluqlar yox deyiləcək dərəcədə azdır" [1, s. 14]. Əgər türk xalqları gələcək inkişaflarını qarşılıqlı əməkdaşlıq, milli-mənəvi bağlılıqda görmək istəyirlərsə, onda təklif olunan ortaq əlifbaya istinad edilməklə öz dillərinin fonem sisteminə uyğun şəkildə qəbul etməlidirlər. Ulu dilçi Mahmud Kaşğarinin söylədiyi kimi, vaxtilə ərəb dili ilə "atbaşı yürüyən" [5, s. 6] türk dilinin daha da zənginləşməsini, çağdaş dönəmdə digər uluslararası dillər səviyyəsinə qalxması və geniş yayılmasını istəyiriksə, vahid mövqe nümayiş etdirilməlidir.

Problemin aktuallığı. Birinci Türkoloji Qurultayın 100 illiyinin keçirildiyi bir dönəmdə türk xalqları arasında ədəbi-mənəvi birliyin, hərtərəfli inteqrasiyanın gücləndirilməsi üçün latın qrafikalı vahid əlifbaya keçilməsi olduqca vacib bir məsələ kimi Türk Dövlətləri qarşısında durur. Bu işin səmərəli həyata keçirilməsi üçün keçilmiş yola bir daha nəzər yetirilməsi, buraxılmış nöqsanların aradan qaldırılması olduqca faydalıdır.

Problemin elmi yeniliyi. Məqalədə latın qrafikalı ortaq türk əlifbasına keçidin linqvistik əsasları təhlilə cəlb edilmiş, məktəb təliminde hərflərin əlyazma formasındakı dəyişikliklərin edilmə səbəbi açıqlanmışdır.

Problemin praktik əhəmiyyəti. Azərbaycan Respublikasında latın qrafikasına keçidin səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsi əlifba islahatı həyata keçirməyə hazırlaşan digər türkdilli respublikalar üçün təcrübi örnək rolu oynayacaqdır.

Ədəbiyyat

1. Milletlerarası Çağdaş Türk Alfabeleri Sempozyumu 18-20 Kasım 1991. – İstanbul: M.Ü. Türkiyat Araştırmaları Enstitüsü, –1992 – 72 s.
2. Ələkbərli F.Q. Ortaq türk əlifbasına dönüş: tarix və çağdaşlıq. –Türküstan: "Türkologiya" dərgisi, – 2017. № 5, –s. 88-101
3. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyul 2001-ci il tarixli fərmanı. "Azərbaycan müəllimi" qəz., – Bakı, 1-7 iyul 2001

4. Nurullayeva Ü., Bayramova İ., Zahidova Ş. [və b]. Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, –2020.–184 s.
5. Kaşğari M. Divanü Lüğat-it-Türk Tercümesi. Çeviren: B. Atalay (dörd ciltde). –Ankara: Türk Dil Kurumu Yayınları, –1985-1986.

Redaksiyaya daxil olub: 27.01.2026

RİYAZİYYATIN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING MATHEMATICS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

UOT 372.851

Firidə Firudin qızı Mustafayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının Riyaziyyat və kompüter elmləri kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8264-9097
E-mail: firide.mustafayeva@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).81-86

RİYAZİYYAT TƏLİMİNDƏ İQTİSADİ SAVADLILIĞIN FORMALAŞDIRILMASI: MÜASİR PEDAQOJİ YANAŞMALAR

Firida Firudin Mustafayeva
head of the department of Mathematics and computer sciences,
Shamakhi branch of the Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

FORMATION OF ECONOMIC LITERACY IN MATHEMATICS EDUCATION: MODERN PEDAGOGICAL APPROACHES

Фирида Фирудин гызы Мустафаева
заведующий кафедры Математики и компьютерных наук Шамахинского филиала
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ФОРМИРОВАНИЕ ЭКОНОМИЧЕСКОЙ ГРАМОТНОСТИ В МАТЕМАТИЧЕСКОМ ОБРАЗОВАНИИ: СОВРЕМЕННЫЕ ПЕДАГОГИЧЕСКИЕ ПОДХОДЫ

Xülasə. Məqalədə riyaziyyat fənninin həyatla əlaqələndirilməsi istiqamətində yeni yanaşmalardan biri – şagirdlərin iqtisadi biliklərə yiyələnməsi imkanları araşdırılır. Riyaziyyat dərslərinin yalnız nəzəri biliklərin mənimsədilməsi ilə məhdudlaşmayaraq, real həyatla, xüsusilə iqtisadi proseslərlə əlaqələndirilməsi məsələsi təhlil olunur, yeni tədris yanaşmaları olaraq, layihə əsaslı öyrənmə, problem əsaslı təlim və interaktiv metodlardan istifadə imkanları araşdırılır İbtidai və ümumi orta təhsil səviyyəsində iqtisadiyyatın sadə elementlərinin riyaziyyat dərsləri ilə inteqrasiyası, bu prosesin təlim motivasiyasına və funksional savadlılığın formalaşmasına təsiri geniş şəkildə şərh olunur. Həmçinin real həyat nümunələri, alış-veriş modelləri, büdcə planlaşdırması, faiz anlayışı və s. kontekstində riyazi biliklərin tətbiqinə yer verilir. Nəticə etibarilə, riyaziyyat fənninə iqtisadi məzmunun daxil edilməsi şagirdlərin fənlərarası biliklərini möhkəmləndirməklə yanaşı, onları real həyatda qarşılaşacaqları maliyyə və iqtisadi məsələlərin həllinə daha hazırlıqlı edir. Bu isə təkcə tədrisin keyfiyyətini artırmır, həm də cəmiyyət üçün iqtisadi baxımdan savadlı və məsuliyyətli fərdlər yetişdirilməsinə xidmət edir.

Açar sözlər: *iqtisadi biliklər, real həyat, funksional savadlılıq, tətbiqi təlim, inteqrasiya*

Abstrakt. The article examines one of the new approaches to connecting mathematics with life - the possibilities of students acquiring economic knowledge. The issue of connecting mathematics lessons with real life, especially economic processes, is analyzed, and the possibilities of using project-based learning, problem-based learning and interactive methods are explored as new teaching approaches. The integration of simple elements of economics with mathematics lessons at the primary and general secondary education levels, the impact of this process on learning motivation and the formation of functional literacy are widely commented on. Also, real-life examples, shopping models, budget planning, the concept of interest, etc. are used to apply mathematical knowledge in the context. As a result, the inclusion of economic content in mathematics not only strengthens students' interdisciplinary knowledge, but also makes them more prepared to solve financial and economic issues they will encounter in real life. This not only increases the quality of teaching, but also serves to educate economically literate and responsible individuals for society
Key words: *Economic knowledge, real life, functional literacy, applied learning, integration.*

Аннотация. В статье рассматривается один из новых подходов к связи математики с жизнью – возможности приобретения учащимися экономических знаний. Анализируется вопрос связи уроков математики с реальной жизнью, особенно с экономическими процессами, и исследуются возможности использования проектного обучения, проблемно-ориентированного обучения и интерактивных методов как новых педагогических подходов. Широко комментируется интеграция простых элементов экономики в уроки математики на уровне начального и общеобразовательного образования, влияние этого процесса на мотивацию к обучению и формирование функциональной грамотности. Также для применения математических знаний в контексте используются примеры из реальной жизни, модели покупок, планирование бюджета, понятие процента и т. д. В результате включение экономического содержания в математику не только укрепляет междисциплинарные знания учащихся, но и делает их более подготовленными к решению финансово-экономических задач, с которыми они столкнутся в реальной жизни. Это не только повышает качество обучения, но и способствует воспитанию экономически грамотных и ответственных для общества людей.
Ключевые слова*: экономические знания, реальная жизнь, функциональная грамотность, прикладное обучение, интеграция*

Müasir dövrdə təhsil sistemi qarşısında duran əsas tələblərdən biri şagirdlərin əldə etdikləri bilikləri real həyatda tətbiq edə biləcək səviyyəyə çatdırmaq və şagirdlərə yalnız nəzəri bilikləri deyil, həm də gündəlik həyatda tətbiq oluna bilən praktik bacarıqları aşılamaqdır. Müasir təhsil sisteminin inkişafı, cəmiyyətin dinamik ehtiyacları və əmək bazarının dəyişən tələbləri məktəbdə tədris olunan fənlərin məzmununa yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan fənlərin inteqrasiyası və xüsusilə riyaziyyatın həyatla əlaqələndirilməsi xüsusi əhəmiyyət daşıyır. Riyaziyyat fənni, iqtisadi biliklərin təşviqi üçün geniş potensiala malikdir. Bu fənn şagirdlərə yalnız hesablama bacarıqları deyil, həm də analitik düşüncə, məntiqi təhlil və qərarvermə vərdişləri aşılayır. Xüsusilə riyaziyyat fənninin həyatla əlaqələndirilməsi, onun gündəlik praktik problemlərin həllində tətbiqinə yönəldilməsi bugünkü pedaqoji yanaşmaların prioritet istiqamətlərindən biridir. Riyaziyyat fənnində iqtisadi məzmunlu tapşırıqların tətbiqinin əhəmiyyəti, innovativ tədris metodları və mövcud yanaşmalar istifadə edilməli, praktik nümunələr əsasında tapşırıqlar icra olunmalıdır. Bu kontekstdə riyaziyyat dərslərində iqtisadi biliklərin təşviqi şagirdlərin yalnız riyazi düşüncə bacarıqlarını deyil, həm də maliyyə savadlılığını inkişaf etdirməyə xidmət edir. Bu imkanlardan istifadə edərək, şagirdlərə iqtisadiyyatın ilkin anlayışları öyrədilə bilər.. Riyazi anlayışlar üzərində qurulan iqtisadi təfəkkür, gələcəkdə şagirdlərin maliyyə savadlılığına, düzgün qərarvermə bacarığına və planlaşdırma vərdişlərinə malik olmasına şərait yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, şagirdlərin erkən yaşlardan iqtisadi anlayışlarla tanışlığı onların gələcəkdə iqtisadi qərarvermə vərdişlərinə müsbət təsir edir. Kurikulum islahatlarının əsas xətti fənlərin inteqrasiyası və riyaziyyatın həyatla əlaqələndirilməsidir. Riyaziyyat fənni şagirdlərdə məntiqi təhlil, analitik düşüncə və qərarvermə bacarıqları formalaşdırdığı üçün iqtisadi biliklərin təşviqi baxımından geniş potensiala malikdir. Cəmiyyətin sürətli inkişafı, əmək bazarının tələblərinin dəyişməsi və iqtisadi münasibətlərin genişlənməsi məktəbdə tədris olunan fənlərin məzmununa yeni yanaşmaların daxil edilməsini zəruri edir. Riyaziyyat fənni analitik düşünmə, məntiqi təhlil və funksional savadlılığın for-

malaşmasında mühüm rol oynayan əsas komponentlərdən biridir. Riyaziyyat dərslərində iqtisadi məzmunlu məsələlərin tətbiqi maliyyə savadlılığının formalaşmasına, gündəlik iqtisadi proseslərin dərk olunmasına və şagirdlərin real situasiyalarda adekvat qərar vermə bacarıqlarının inkişafına şərait yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, şagirdlərin erkən yaşlardan iqtisadi anlayışlarla tanışlığı onların gələcək iqtisadi davranışlarına müsbət təsir göstərir. Bu baxımdan riyaziyyat dərslərində iqtisadi anlayışların tətbiqi şagirdlərin həm riyazi bacarıqlarının güclənməsinə, həm də iqtisadi prosesləri dərk etməsinə şərait yaradır. Riyaziyyatın həyatla əlaqələndirilməsi və iqtisadi məzmunlu məsələlərin dərslərdə tətbiqi müasir təlim strategiyalarının prioritet istiqamətinə çevrilmişdir.

Riyaziyyat və iqtisadiyyat bir-biri ilə sıx əlaqəli sahələrdir. Hər iki sahə analitik düşüncə və modelləşdirmə bacarığı tələb edir. Riyaziyyat və iqtisadiyyatın inteqrasiyasının əhəmiyyətindən danışarkən qeyd etmək lazımdır ki, iqtisadi biliklərin riyaziyyat dərslərində tətbiqi funksional savadlılığın əsas komponenti olan maliyyə savadlılığı, hesablama bacarığı, tənqidi düşünmə və real problemləri həll etmə vərdişlərini inkişaf etdirir. Bu bacarıqlar şagirdlərin gələcəkdə iqtisadi və sosial həyatlarını daha effektiv idarə etmələrinə kömək edir. Məsələn, faiz hesablamaları, kredit və əmanət anlayışları, qrafik və cədvəl təhlili kimi mövzular həm riyaziyyat dərslərində, həm də iqtisadiyyatda mühüm yer tutur. Bu səbəbdən tədris proqramlarında bu iki sahənin inteqrasiyası şagirdlər üçün daha maraqlı və faydalı ola bilər. Bu inteqrasiya, onların analitik düşünmə qabiliyyətini inkişaf etdirir və real həyatda maliyyə qərarları verməyə hazırlayır. Şagirdlərin erkən yaşlardan iqtisadi düşüncə tərzinə yiyələnməsi, onların həm şəxsi, həm də ictimai həyatlarında daha düzgün maliyyə qərarları verməsinə imkan yaradır. Həyat dəyişir, inkişaf edir. İnsanların güzəranını yaxşılaşdırmaq üçün yeni fəaliyyət növləri meydana çıxır. İndiki dövrdə – bazar münasibətləri şəraitində cəmiyyətin iqtisadi biliklərə ehtiyacı getdikcə artır. Deməli, şagirdlərin həyata hazırlanması işinə hələ ibtidai siniflərdən başlamaq lazımdır. İbtidai siniflərin hazırki 3-cü və 4-cü sinif riyaziyyat dərsliklərində şagirdlərin iqtisadi biliklərlə tanış edilməsinə dair imkanların az olmasına baxmayaraq gündəlik həyatdan və əlavə çap olunmuş materiallardan məqsədyönlü şəkildə istifadə edilə bilər.

Riyaziyyat dərslərində iqtisadi elementlərin tətbiqi zamanı tapşırıqlar real iqtisadi vəziyyətlər əsasında hazırlanmalıdır. Rol oyunu və stimulyasiyadan istifadə edərkən virtual mağaza, bank və ya ticarət oyunları vasitəsilə şagirdlər "mağaza sahibi", "alıcı", "maliyyə planlayıcısı" rollarında çıxış etməklə iqtisadi qərarlar verməyi öyrənirlər. Şagirdlər ailə büdcəsi, qənaət planı və ya sadə biznes layihəsi hazırlayaraq həm riyazi hesablama bacarıqlarını, həm də iqtisadi düşüncə tərzini inkişaf etdirirlər. Şagirdlərə "Ailə büdcəsinin planlaşdırılması", "Xəyali bir iş qurmaq", "Endirimli qiymətlərlə məhsul alma strategiyası" layihələri işlətmək məqsədəuyğundur.

Əməkdaşlıq əsaslı öyrənmə – Qrup tapşırıqları zamanı şagirdlər müxtəlif iqtisadi situasiyaları birlikdə təhlil edir və nəticələr çıxarırlar. İKT-dən istifadə rəqəmsal kalkulyatorlar, maliyyə tətbiqləri və simulyator proqramları dərsləri daha effektiv və maraqlı edir.

İbtidai siniflərin riyaziyyat dərsliklərində verilən çalışmalar şagirdlərdə əmək haqqı, pul, əmək məhsuldarlığı, iş norması, işçi qüvvəsi, müəyyən vaxt ərzində hazırlanan məhsulun miqdarı, detalların sayı, əkin sahəsi, bir hektarın məhsuldarlığı, birgə işə dair məlumatı özündə əks etdirir. İqtisadi biliklərin elementləri dərsliklərdə verilən mətnli məsələlərdə əks olunmuşdur. Həmin biliklər o zaman həyatilik kəsb edir ki, təqdim olunan məsələlər həll edilsin, alınan cavablar yoxlanılsın və müəllim əlavə müəyyən məlumat verməklə yekunlaşdırma aparsın. III-IV siniflərin riyaziyyat kursu üzrə həll edilən və şagirdlərin iqtisadi biliklərini formalaşdırmağa kömək edən məsələlər bunlardır:

1.Üçlük qaydasına və ya dördüncü mütənasib kəmiyyəti tapmağa aid məsələlər.

2. Birgə işə aid məsələlər.

3. Mütənasib bölməyə aid məsələlər

4.İki fərqə görə məchulların tapılmasına aid məsələlər və s.

Bu tip məsələlərin həlli prosesində şagirdlər qiymət, miqdar, dəyər, sahə, sahənin məhsuldarlığı, iş yeri, işçi qüvvəsi, günəmuzd, aylıq əmək haqqı, vahid zaman ərzində materialın norması, iş vaxtı, iş norması, ümumi məsrəf və s. kimi anlayışlarla tanış olurlar. Bu tanışlıq həm də kəmiyyətlər arasındakı funksional asılılıqları dərk etməyə imkan verir. Məsələn, fəhlə 30 de-

talı 10 saata hazırlamalı idi. Lakin fəhlə vaxta qənaət etməklə, 15 dəqiqədə 1 detal hazırlamaqla, 10 saata normadan artıq nə qədər detal hazırladı? Bu məsələnin həll edilməsi həm də tərbiyəvi xarakter daşıyır: şagirdlərdə əməyə məhəbbət, hörmət, gündəlik normanı yerinə yetirdikdə vaxta qənaət etmək kimi keyfiyyətləri aşılayır. Şagird məsələnin həlli nəticəsində müəyyən edir ki, fəhlə norma üzrə saatda 3 detal hazırlamalı idi, lakin saatda 4 detal hazırladı. Şagirdə onu da xatırlatmaq lazımdır ki, fəhlə hazırladığı hər bir artıq detal üçün əlavə əmək haqqı alır. Dərsliklərdə verilən həmin məsələlərin həllini şagirdlər əsasən hesablama və cavabı tapma istiqamətində qəbul etməyə çalışırlar. İqtisadi biliklərlə bağlı məsələlərin sinifdə həll edilməsini nəzərdə tutan müəllim həmin məsələ ilə bağlı onun informasiya dairəsini genişləndirməklə onu real həyatla daha çox əlaqələndirməli, əlavə diaqram və ya illüstrativ materiallardan istifadə etməlidir. Təcrübəli ibtidai sinif müəllimləri riyaziyyat təliminin keyfiyyətini yüksəltmək üçün, onu həyatla əlaqələndirirlər. Sinif otağında yazı taxtası və əyani vasitələr əsasında şagirdlərə aşkar edilən riyazi həqiqətlər gündəlik həyatla, həyati proseslər və faktlarla əlaqələndirilir. Şagirdlər qazandıqları riyazi bilikləri, informasiyaları həyatda axtarmağa çalışırlar. Şagirdlərin iqtisadi biliklərə aid təsəvvürlərini inkişaf etdirən məsələlərə nümunə olaraq torpağa hörmət münasibətinin tərbiyə edilməsinə aid məsələləri göstərmək olar. Bu məsələlərdə şagirdlər aşağıdakı həqiqətləri dərk edirlər:

Torpaq – Vətənimizin əsas sərvətidir. Torpağa təsərrüfatçı qayğısı – kənd zəhmətkeşinin əsas keyfiyyətidir. Riyaziyyat dərsində bunları əyani, konkret, inandırıcı faktlarla göstərmək olar. Məsələn, "Məktəbyanı sahədən şagirdlər 210 s kartof yığdılar. Bir adam bir ildə təxminən 105 kq kartof işlədir. Şagirdlərin topladığı kartof neçə nəfərə çatar?" Başqa bir məsələ. "Bir adam ildə təxminən 100 kq buğda işlədir. Respublikamızda 1 milyon 500 min ton tədarük edilmişdir. Həmin buğda nə qədər adama çatar?" Bu kimi məsələlər həm riyazi hesablamalar cəhətdən, həm də respublika əməkçilərinin işinin nəticəsinin konkret tətbiqi cəhətdən çox əhəmiyyətlidir. Şagird gündə yediyi çörəyin "havadan düşmədiyini", havayı başa gəlmədiyini dərk edir, əməyə, əməkçilərə, çörəyə hörmət edir.

Riyaziyyat dərslərində kənd əməkçilərinin konkret əməyinə aid məsələlər də vardır. Məsələn, "Südçülük ferması öhdəlik götürmüşdü: 5 ay ərzində (yaz-yay mövsümündə) hər inəkdən 3000 litr süd sağsınlar. Bir gündə hər inəkdən 20 litr süd sağmaqla, həmin planı yerinə yetirə bilərlərmi? (bir ayı 30 gün hesab etməli). Kənddə maldarlıqla məşğul olan ailələrdə süd sağımını necə artırmağa nail olmaları haqqında məlumatları şagirdlər öz valideynlərindən öyrəndikdən sonra yuxarıda qeyd etdiyimiz tipli məsələləri həll etmək daha səmərəli olur. Həmin məsələnin sualına cavab verməzdən əvvəl, aşağıdakı suala cavab almaq lazımdır: "Ferma kollektivi hansı tədbirlər hesabına götürdüyü öhdəliyi yerinə yetirə bilər?" Şagirdlər qoyulan suala aşağıdakı kimi cavablar verməklə (valideynlərdən öyrənməklə), əmək prosesi ilə əməkçilərin işə münasibəti ilə tanış olurlar:

1) heyvanların düzgün yemlənməsi və onlara qayğı göstərilməsi,

2) vaxtında sağılması və sağım qaydasına əməl etməsi,

3) əməkçilərin əməyinin düzgün təşkili və qiymətləndirilməsi.

İqtisadi anlayışlar çətin və abstrakt görünsə də, onları şagirdlərin yaş və idrak səviyyəsinə uyğun şəkildə təqdim etmək mümkündür, riyaziyyat fənninə iqtisadi elementlərin inteqrasiyası şagirdlərin həm riyazi biliklərinin praktiki tətbiqini asanlaşdırır, həm də onların maliyyə və iqtisadi proseslərə dair ilkin təsəvvürlərini formalaşdırır. İnteqrativ tədris yanaşmaları, layihə əsaslı və problem əsaslı metodlar vasitəsilə şagirdlər real həyatda qarşılaşacaqları situasiyaları modelləşdirə bilir, bu da onların analitik düşünmə, planlama və düzgün qərarvermə bacarıqlarını inkişaf etdirir.

Müasir təhsil konsepsiyalarına əsasən, riyaziyyat yalnız hesablama bacarıqlarının deyil, eyni zamanda funksional savadlılığın və gündəlik həyatda tətbiq edilə bilən düşünmə bacarıqlarının formalaşdırılmasına xidmət etməlidir. Bu baxımdan, şagirdlərin iqtisadi biliklərə yiyələnməsi riyaziyyat fənninin praktik yönümlü məzmununu gücləndirən mühüm amil kimi qiymətləndirilir.

Təhlil göstərir ki, layihə əsaslı öyrənmə, problem əsaslı təlim və interaktiv metodların tətbiqi riyaziyyat dərslərində iqtisadi məzmunun mənimsənilməsini daha səmərəli edir. Bu yanaş-

malar şagirdlərin real həyat situasiyalarını modelləşdirməsinə, məntiqi düşünməsinə və qərarvermə bacarıqlarının inkişafına şərait yaradır. Alış-veriş, büdcə planlaşdırması, gəlir-xərc balansı, faiz anlayışı kimi nümunələr riyazi anlayışların praktik tətbiqini nümayiş etdirməklə təlimin motivasiyaedici xarakterini artırır. İbtidai və ümumi orta təhsil səviyyəsində iqtisadiyyatın sadə elementlərinin riyaziyyat fənni ilə inteqrasiyası şagirdlərin fənlərarası əlaqələri dərk etməsinə, biliklərin sistemli şəkildə formalaşmasına və gündəlik həyatda istifadə olunmasına imkan yaradır. Təhlil nəticəsində müəyyən olunur ki, bu inteqrasiya şagirdlərin yalnız riyazi nailiyyətlərini deyil, həm də maliyyə savadlılığını, məsuliyyətli istehlak vərdişlərini və sosial-iqtisadi proseslərə şüurlu münasibətini formalaşdırır.

Tədqiqatın nəzəri mərhələsində riyaziyyat təlimində fənlərarası inteqrasiya, funksional savadlılıq və iqtisadi təhsil problemlərinə dair yerli və xarici elmi mənbələr, kurikulum sənədləri və müasir pedaqoji yanaşmalar sistemli şəkildə təhlil edilmişdir.

Müqayisəli təhlil metodu vasitəsilə ənənəvi riyaziyyat təlimi ilə iqtisadi məzmunlu inteqrativ təlim modelləri arasında fərqlər müəyyənləşdirilmişdir.

Empirik mərhələdə pedaqoji müşahidə, sorğu və diaqnostik qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Tədris prosesində layihə əsaslı öyrənmə, problem əsaslı təlim və interaktiv metodlar tətbiq edilərək, real həyat situasiyalarına əsaslanan tapşırıqlar (alış-veriş modelləri, sadə büdcə planlaşdırması, faiz və qənaət məsələləri) hazırlanmış və şagirdlərə təqdim edilmişdir. Bu tapşırıqların icrası zamanı şagirdlərin idrak fəallığı, əməkdaşlıq bacarıqları və riyazi biliklərin praktik tətbiq səviyyəsi müşahidə olunmuşdur. Beləliklə, seçilmiş metodologiya riyaziyyat dərslərində iqtisadi məzmunun tətbiqinin pedaqoji səmərəliliyini kompleks şəkildə qiymətləndirməyə, eləcə də bu yanaşmanın təlim prosesinə təsirini elmi əsaslarla müəyyənləşdirməyə imkan vermişdir.

Problemin elmi yeniliyi. Araşdırma nəticəsində: riyaziyyat dərslərində iqtisadi biliklərin mərhələli şəkildə inteqrasiyası üçün metodik model işlənmiş, ibtidai siniflərdə iqtisadi anlayışların tədrisi üçün yaşa uyğun iqtisadi təlim çərçivəsi hazırlanmış, iqtisadi məzmunlu məsələlərin tərbiyəvi funksiyası – əməksevərlik, məsuliyyət və qənaət kimi keyfiyyətlərin formalaşdırılması – elmi əsaslarla izah olunmuşdur. İnnovativ təlim metodları əsaslandırılaraq riyaziyyat–iqtisadiyyat inteqrasiyanın yeni pedaqoji modeli irəli sürülmüş, layihə əsaslı və situasiya əsaslı iqtisadi tapşırıqların riyaziyyat dərslərində tətbiqinin praktik mexanizmi işlənmişdir.

Problemin praktik əhəmiyyəti. Riyaziyyat dərslərində iqtisadi biliklərin təşviqi, şagirdlərin həm akademik, həm də həyat bacarıqlarını inkişaf etdirir Riyaziyyat dərslərinin həyatla əlaqələndirilməsi, xüsusən də iqtisadiyyatın sadə elementlərinin inteqrasiyası təlimin daha maraqlı və mənalı olmasına səbəb olur. Belə yanaşma şagirdlərin həm riyazi bacarıqlarını, həm də sosial-iqtisadi savadlılığını inkişaf etdirir və iqtisadi cəhətdən daha məsuliyyətli fərdlər kimi yetişməsinə yardım edir və onların maliyyə savadlılığı səviyyəsini yüksəldir. Nəticə etibarilə, belə yanaşmalar təhsilin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin gələcəkdə iqtisadi cəhətdən məsuliyyətli və savadlı vətəndaş kimi formalaşmasına töhfə verir. Gələcəkdə bu sahədə daha geniş empirik tədqiqatların aparılması və müəllimlər üçün metodik vəsaitlərin hazırlanması məqsədəuyğun hesab olunur. Riyaziyyat təlimində şagirdlərə iqtisadi biliklərin öyrədilməsi yollarından çoxsaylı riyaziyyat müəllimləri faydalana bilər.

Problemin aktuallığı. Əmək bazarının dəyişən tələbləri maliyyə savadlılığı və iqtisadi biliklərin erkən yaşlardan verilməsini zəruri edir. .Azərbaycan təhsil sistemində şagirdlərin iqtisadi düşüncəsinin inkişafı hələ də tam sistemli şəkildə həyata keçirilmir. Müasir cəmiyyət bazar münasibətləri şəraitində iqtisadi biliklərin erkən yaşlardan öyrədilməsini tələb edir. Təhsil sistemində funksional savadlılıq əsas prioritetdir və onun tərkib hissəsi olan maliyyə savadlılığı riyaziyyat vasitəsilə daha effektiv formalaşır. Azərbaycanda kurikulum standartları riyaziyyatın real həyatla əlaqələndirilməsini tələb etsə də, bu istiqamətdə metodik baza hələ də geniş deyil. Şagirdlərin gündəlik həyatda rastlaşdıqları iqtisadi situasiyaları dərk etməsi üçün tətbiqi və inteqrativ təlimə ehtiyac artır. Qlobal təhsil tendensiyaları riyaziyyatın tətbiqi istiqamətinin gücləndirilməsini zəruri edir. Bu cəhətdən iqtisadi biliklərin öyrədilməsi həmişə aktualdır.

Ədəbiyyat

1. Williams, T. (2021). Financial literacy in mathematics classrooms: Current trends and challenges. *Educational Studies in Mathematics*, 108(1), 1–6.

2. Stillman, G., Galbraith, P., Brown, J., & Edwards, I. (2022). Mathematical modelling in school education: Developments and challenges. *Educational Studies in Mathematics*, 109(2), 185–203.
3. Schleicher, A. (2024). Education for life: The role of functional and financial literacy. *International Journal of Educational Development*, 96, 102–118.
4. Məmmədova X. (2023). İbtidai sinif şagirdlərinin dünyagörüşünün formalaşmasında müəllimin rolu. *Elmi Əsərlər*,Cild 90, 2, 129-132.
5. Mustafayeva F.F. (2022). Riyaziyyat dərslərində oyunların əhəmiyyəti. *Elmi Əsərlər* Cild 89 ,4, 163-166.
6. Quliyev, A. Riyaziyyat təlimində funksional savadlılığın inkişafı yolları. Təhsil və Zaman, –Bakı, 2021. №2, –s. 45-50
7. Həsənova, S. İqtisadiyyat və riyaziyyatın inteqrasiyası: məktəb təcrübələri. Metodik Bülleten, –Bakı, 2021. №3, –s. 21-28
8. Mustafayeva, F.F. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). –Bakı, 2023. –165 s.
9. Mustafayeva, F.F. Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə (I-IV siniflər). –Bakı, 2023. –162 s.
10. Nəzərov, A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. –Bakı: ADPU-nəşriyyatı, –2021. –103 səh.
11. Hakan, U. Ortaokul Matematik Öğretmenlerinin Beceri Temelli Sorulara İlişkin Yaklaşımlarının İncelenmesi. –Gaziantep, 2023. –23 s.
12. Kazımov, Z.F., Tağıyeva S.C. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). / Z.F. Kazımov. –Bakı, 2017. –245 s

Redaksiyaya daxil olub: 08.01.2026

UOT 372.851

Fəxrəddin Feyzullah oğlu Əliyev,
Sumqayıt Dövlət Universitetinin Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının dosenti
https://orcid.org/0000-0002-2039-2334
E-mail:Faxraddin.Aliyev@sdu.edu.az

Ülkər Rafiq qızı Babayeva,
Sumqayıt Dövlət Universitetinin Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının assistenti
https://orcid.org/0000-0002-2484-8730
E-mail: ulkar.babayeva@sdu.edu.az

Röya Fikrət qızı Hətəmova
Sumqayıt Dövlət Universitetinin Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının assistenti
https://orcid.org/0000-0001-9082-2769
E-mail: roya.hetemova@sdu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).87-92

BEYNƏLXALQ RİYAZİYYAT OLİMPİADALARINA HAZIRLIQ MƏQSƏDLİ MÜXTƏLİF MƏSƏLƏLƏR

Fakhraddin Feyzullah Aliyev,
assistant professor of the department of Technology for teaching mathematics and informatics at the Sumgait State University

Ulkar Rafig Babayeva,
assistant professor of the department of Mathematics and informatics teaching technology at Sumgayit State University

Roya Fikrat Hatamova
assistant professor of the department of Mathematics and informatics teaching technology at Sumgayit State University

VARIOUS ISSUES IN PREPARATION FOR THE INTERNATIONAL MATHEMATICAL OLYMPIADS

Фахраддин Фейзулла оглы Алиев,
доцент кафедры Технологии преподавания математики и информатики Сумгаитского Государственного Университета

Улькар Рафиг гызы Бабаева,
ассистент кафедры Технологии преподавания математики и информатики Сумгаитского Государственного Университета

Роя Фикрат гызы Хатамова
ассистент кафедры Технологии преподавания математики и информатики Сумгаитского Государственного Университета

РАЗЛИЧНЫЕ ВОПРОСЫ ПОДГОТОВКИ К МЕЖДУНАРОДНЫМ МАТЕМАТИЧЕСКИМ ОЛИМПИАДАМ

Xülasə. Məqalədə Respublika və Dünya Olimpiadalarının hazırlıq proqramlarına uyğun olaraq, çoxhədli funksiyalar, onların müəyyən qiymətlərinin hesablanması, mürəkkəb –transendent əmsallı ədədlərin , mütləq qiymətli funksiyaların və orta məktəbdə dərindən araşdırılmayan dövri-periodik funksiyalara aid müxtəlif məsələlər həll edilmişdir.

Açar sözlər: *dövri funksiya, çoxhədli, məntiq, məsələ, natural ədədlər, bərabərsizlik, dəyişən, sabit, əmsal, mütənasib, triqonometriya*

Abstract. In accordance with the preparatory programs of the Republican and World Olympiads, the article addresses various issues related to polynomial functions, the calculation of their definite values, numbers with complex-transcendent coefficients, absolute-valued functions, and periodic functions that are not studied in depth in high school.

Key words: *periodic function, polynomial, logic, problem, natural numbers, inequality, variable, constant, coefficient, proportional, trigonometry*

Аннотация. В соответствии с подготовительными программами республиканских и всемирных олимпиад в статье рассматриваются различные вопросы, связанные с полиномиальными функциями, вычислением их определенных значений, чисел с комплексно-трансцендентными коэффициентами, абсолютных функций, периодических функций, которые не изучаются углубленно в средней школе.

Ключевые слова: *периодическая функция, многочлен, логика, задача, натуральные числа, неравенство, переменная, константа, коэффициент, пропорциональный, тригонометрия*

Hər kəsə məlumdur ki, ölkəmizdə həmişə riyaziyyat fənninə yüksək maraq olmuşdur və bu öz əksini həmişə şagird və tələbələrimizin müvəffəqiyyətli iştirakları ilə yadda qalan olmuşdur. Hal-hazırda da bu göstəricilər var və daha yüksəkdə olması üçün də ölkə səviyyəsində məqsədyönlü işlər görülməkdədir. Buna misal olaraq Riyaziyyat Olimpiada Mərkəzinin (ROM) yaradılması və milli alimlərimizin həmin mərkəzin işinə xarici ölkələrdən dəvət edilməsidir.

Bu istiqamətdə riyaziyyat müəllimləri öz üzərilərinə düşən vəzifənin bir qədər də artmasını hiss etməli, dünya riyaziyyatı ilə maraqlanmalı və onunla ayaqlaşmaq üçün işlər görməlidir.

Bizim ölkədə son 100 il Rusiya təhsili, o ölkənin alimlərinin təsiri, köməyi çox böyük olmuşdur, ancaq təkcə Rusiya ilə kifayətlənmək səhv olardı. Türkiyə, Çin, Yaponiya, Sinqapur və s. ölkələrin son illərdəki dəqiq elmlər sahəsində gördükləri işlər onu deməyə əsas verir ki, həmin ölkələrdə bu sahədə əməkdaşlıq bizləri də yaxın on illiklərin aparıcı inkişaf etmişləri sırasına qaldıra bilər. Olimpiada iştirakçıları bilməlidir ki, həmişə ən qısa, məntiqli yol axtarışında olmalıdırlar və özlərini həmişə bu yöndə inkişaf etdirməlidirlər. Çünki olimpiada məsələlərinin həlli adətən çox da uzun olmur, qısa, ancaq məntiqli və çətin ağla gələn metodlar olur.

Bu qeyd olunanları nəzərə alaraq son illərdə dünya riyaziyyat olimpiadalarının proqramları ilə tanış olmaq, riyaziyyatda daha çox hansı bölmələrə üstünlüklər verildiyini müəyyən etmək vacibdir. Ona görə də axtarışların nəticələri sövq edir ki, məqalədə göstərilən sahələrə baş vuraq.

Bunlar aşağıdakılardır:

- çoxhədli funksiyaların mükəmməl öyrənilməsi;
- funksiyaların əvvəllər çox az- bəsit formada tədris olunan periodik-dövri olan təsnifatına baş vurmaq;
- mütləq qiyməti və transendent məchul və əmsallarının verilməsi ilə tənlik və bərabərsizliklərin həllinin araşdırılması;
- sıralar nəzəriyyəsi, tətbiqi fiziki, statistic məsələlər və s.

Müxtəlif araşdırmalar-axtarışlar apararaq məqalədə adları qeyd olunan riyazi sahələrə aid məsələlər verilmiş və onların universal olmayan, xüsusi yanaşmalarla həlləri araşdırılmışdır. Beləliklə, bu məsələlərdən biri:

Məsələ 1. $f(x) = (x^2 + 2x + 2)^{2025} + (x^2 - 3x - 3)^{2025}$ çoxhədli funksiyasının $x -$ dəyişəninin tək nömrəli əmsallarının cəmini tapın.

Həllin araşdırılması: Fərz edək ki, $f(x)$ ixtiyari çoxhədli funksiyadır.

$f(x) = A_0x^n + A_1x^{n-1} + \cdots + A_{n-1}x + A_n$ (1) (1)- bərabərliyindən görünür ki, (1) düsturu ilə verilən çoxhədli funksiyanın bütün əmsalları-

nın cəmi $f(1)-$ qiymətinə, cüt və tək nömrəli əmsallarının fərqi isə $f(-1)-$ qiymətinə bərabər olacaq. Bu riyazi fikrin I hissəsinin mənası çox sadə, yəni, (1)- bərabərliyində $x=1$ qəbul etsək,

$$f(1)=A_0+A_1+A_2+\cdots+A_{n-1}+A_n$$

olar.

İkinci hissə isə, yəni cüt və tək nömrəli əmsalların fərqi isə çoxhədli funksiyada $x=-1$ qəbul etməklə alınar.

$f(-1)=A_0-A_1+A_2-A_3+\cdots-A_n+A_{n+1}$ $(n=2k)$ isə (2)

$f(-1)=-A_0+A_1-A_2+A_3+\cdots+A_{n-1}+A_n$ $(n=2k\pm1)$ olduqda (3) alınır.

Əgər (2) və ya (3) bərabərliklərinin birində cüt saylı qüvvətli əmsalların cəmini U ilə, tək nömrəli əmsalların cəmini V ilə işarə etsək, onda

$$\begin{cases} U+V=f(1) \\ U-V=f(-1) \end{cases} (4)$$

alarıq. (4) sistemini həll etməklə U və $V-$ni tapa bilərik.

$$U=\frac{f(1)+f(-1)}{2}$$

$$V=\frac{f(1)-f(-1)}{2}.$$

Bu ümumi hazırlıqlardan sonra məsələnin əsas həllinə keçid edə bilərik.

Məsələnin həlli: $f(x)=(x^2+2x+2)^{2025}+(x^2-3x-3)^{2025}$ qəbul etsək, $f(1)=0;\ f(-1)=2$ alarıq. Deməli, (4) sistemində

$$\begin{cases} U+V=0 \\ U-V=2 \end{cases}$$

qəbul edə bilərik. Buradan isə $U=1$ olduğu məlum olur. Məsələnin həllinin bu kimi metodu orta məktəb proqramından çox uzaq və ya çətindir. Bunu nəzərə alaraq, riyaziyyat olimpiadalarında iştirakçılara həmişə qeyri-standart həll metodu, məntiqi yanaşma yolu ilə həll edilə bilən məsələlər verilir. Bunu nəzərə alaraq, ikinci bir maraqlı həlli olan məsələyə baxaq:

Məsələ 2. x dəyişəninin ixtiyari, m əmsalının isə sabit qiymətində verilmiş

$$f(x+m)=\frac{1+f(x)}{1-f(x)}\ (1)$$

kimi müəyyən edilən funksiyanın periodik-dövri olduğunu göstərməli.

Məsələnin həllinin axtarışı: məsələnin tələbinə görə qurulan, axtarılan funksiya dövri olduğundan funksiyanın dövri olması şərtini ödəməlidir, yəni $f(x)$ elə bir funksiya olmalıdır ki, istənilən $T\neq0$ ədədi və $\forall x$ üçün

$$f(x+T)=f(x)$$

bərabərliyi ödənsin. Əvvəlcə verilmiş (1) funksiyasının $m=0$ qiyməti üçün tədqiq edək. Bu halda funksiya $f(x)=\frac{1+f(x)}{1-f(x)}$ (2) şəklinə düşər. Bu halda, yəni $m=0$ olduqda (2) bərabərliyi ilə müəyyən olunan $f(x)$ funksiyası yalnız və yalnız $x-$ dəyişəninin ixtiyari qiymətində ya $i-$yə, ya da $-i-$yə bərabər qiymət alacaq. Bu isə o deməkdir ki, istənilən sabit funksiya elə dövri funksiyadır. Yəni, $m=0$ qiyməti üçün məsələnin həllinin isbatı çox sadədir. $m-$ sabitinin $m=0$ qiyməti üçün (1) bərabərliyi isbat edildi. İndi isə $m-$in ixtiyari $m\neq0$ qiyməti üçün məsələnin həllini araşdıraq. (1) bərabərliyinin sağ tərəfi, yəni $\frac{1+f(x)}{1-f(x)}$ ifadəsi $m-$dən asılı deyil, bu faktın doğruluğu onu deməyə əsas verir ki, $f(x+m)=\frac{1+f(x)}{1-f(x)}$ kimi müəyyən edilən funksiyanın dövri olması üçün onun dövri olan T ədədi $m-$dən asılı olacaq. İndi məsələnin həllini tamamlamaq üçün T periodu ilə $m-$sabiti arasındakı əlaqəni müəyyən etməyə çalışaq:

I. Əgər qəbul etsək ki, $T-$periodu $m-$sabiti ilə mütənasibdir, yəni

$$T=2m, T=3m, T=4m, .., T=k\cdot m,$$

onda

$f(x+2m), f(x+3m), \ldots$ və s. qiymətlərini hesablamaqla məsələni həll etmiş olarıq.

II. Əgər hesab etsək ki, $m-$ sabiti T ilə mütənasibdir, yəni

$T=\frac{m}{2}, T=\frac{m}{3}, T=\frac{m}{4}, \ldots, T=\frac{m}{k}$, onda $f\left(x+\frac{T}{2}\right), f\left(x+\frac{T}{3}\right), \ldots, f(x+\frac{T}{k})$ qiymətlərin hesablaya bilməliyik ki, məsələnin həllinə cavab verək.

İndi isə $f(x+2m),\ f(x+3m)\ldots$ və s. qiymətlərinin hesablanması-dəyərləndirilməsini müəyyən edək:

1) Əvvəlcə $f(x+2m)-$in qiymətini tapaq:

$$f(x+2m)=f[(x+m)+m]=\frac{1+f(x+m)}{1-f(x+m)}=\frac{1+\frac{1+f(x)}{1-f(x)}}{1-\frac{1+f(x)}{1-f(x)}}=\frac{2}{-2f(x)}=-\frac{1}{f(x)}$$

2) $f(x+3m)=f[(x+2m)+m]=\frac{1+f(x+2m)}{1-f(x+2m)}=\frac{1-\frac{1}{f(x)}}{1+\frac{1}{f(x)}}=\frac{f(x)-1}{f(x)+1}$

3) $f(x+4m)=f[(x+3m)+m]=\frac{1+f(x+3m)}{1-f(x+3m)}=\frac{1+\frac{f(x)-1}{f(x)+1}}{1-\frac{f(x)-1}{f(x)+1}}=\frac{2f(x)}{2}=f(x).$

Bu qiymətləndirmələrdən aşağıdakı nəticəni almış oluruq: $f(x+4m)=f(x)$, yəni, ixtiyari x dəyişəni üçün $m\neq 0$ olduqda $f(x)$ funksiyası dövri funksiyadır.Bununla da məsələdə tələb olunan isbat başa çatdı.

Bu məsələni biz konkret funksiya ilə təsvir edək:

Misal 1. Triqonometriyadan məlumdur ki, ixtiyari x üçün $tg\left(x+\frac{\pi}{4}\right)=\frac{1+tgx}{1-tgx}$ eyniliyi doğrudur. Yuxarıdakı məsələdə isbat etdiyimiz riyazi fakta görə demək olar ki, bu halda tgx funksiyası ixtiyari x üçün dövri funksiya olacaq və onun periodu $4\cdot\frac{\pi}{4}=\pi$ −yə bərabər olacaq. Həqiqətən də bu belədir, yəni tgx funksiyasının periodu $T=\pi$ −dir.

Eyni qayda ilə göstərmək olar ki,

Misal 2. İxtiyari x dəyişəni və m −sabit ədədi üçün $f(x+m)=\frac{\sqrt{3}+f(x)}{1-\sqrt{3}f(x)}$ kimi təyin olunan funksiya dövri funksiyadır.

Qeyd edək ki, dövri funksiyalar bölməsi funksiyaların təsnifatında-növləri içərisində mürəkkəblik baxımından, xüsusi ilə də verilmiş funksiyanın periodik olub-olmamasını müəyyən etmək və ən kiçik periodunun tapılması ən çətin və maraqlı bölmə olduğundan qeyd olunan məsələ və onun həlli metodu müəllimlər və öyrəncilər üçün maraqlı olacaq.

İndi isə yenə orta məktəb proqramı üçün çətin və maraqlı olan qrafiklər mövzusuna aid maraqlı bir funksiyaya baxaq:

Məsələ 3. $y+|y|=x+|x|$ funksiyasının qrafikini-həndəsi təsvirini qurun.

Həllin araşdırılması: Orta məktəb riyaziyyat kursunda şagirdlərin ehtiyatla davrandıqları, bəzi hallarda isə mütləq qiymət anlayışının riyazi xüsusiyyətlərini düzgün mənimsəmədikləri üçün modul işarəsi daxil olan tənlik və bərabərsizlikləri, ədədi və ya hərfi ifadələrlə bağlı misalların həllində çətinlik çəkirlər. O ki qaldı modul işarəsi daxil olan funksiyasının qurulması ola. Bu məsələdə diqqətli araşdırma yolu ilə mərhələ-mərhələ modul işarəsini qiymətləndirməklə funksiyanı qiymətləndirək:

1) Əvvəlcə $x>0$ şərtini ödəyən x −lər üçün verilən funksiyanın $y+|y|=2x$ olduğunu və buradan da, $x>0$ şərtindən $y+|y|>0$ şərtinin doğru olduğunu qəbul edək. Bu isə o deməkdir ki, $y>0$ olmalıdır. Deməli, $y+|y|=2x$ tənliyi $y=x$ şəklinə düşür. Bu isə o deməkdir ki, verilmiş funksiya dəyişənin $x>0$ şərtini ödəyən qiymətlərində koordinat müstəvisinin I rübünün tənbölənin bütün nöqtələri olacaq (koordinat başlanğıcı $O(0;0)$nöqtəsi istisna olmaqla).

2) İndi isə arqumentin $x<0$ şərtini ödəyən qiymətlərində verilmiş funksiyanı qiymətləndirək: $x<0$ olduqda $y+|y|=x+|x|$ funksiyası $y+|y|=0$ şəklinə düşər. Bu bərabərlik isə bütün mənfi y −lər üçün, yəni $y<0$ şərtini ödəyən və $y=0$ qiymətində ödənilir. Bu isə o deməkdir ki, $x<0, y<0$ və $y=0$ şərtini ödəyən, yəni absis və ordinatı mənfi və $y=0$ olan bütün nöqtələr verilmiş funksiyanın nöqtələri-qrafiki olacaq. Bu nöqtələr çoxluğu koordinat müstəvisinin III rübünün bütün nöqtələri çoxluğudur.

3) $x=0$ olduqda isə verilmiş funksiya $y+|y|=0$ şəklini alır. Bu tənliyin həlli olan nöqtələr: $x=0$, yəni Oy oxunun nöqtələri, ancaq bir şərtlə ki, $y<0$ şərti ödənsin, əks halda $y+|y|=0$ ola bilməz. Deməli, bu halda həll funksiyanın həndəsi təsviri-qrafiki Oy oxunun mənfi istiqaməti olan nöqtələr olacaq.

4) Beləliklə, hər üç həlli birləşdirsək, $y+|y|=x+|x|$ funksiyasının qrafikini-həndəsi təsvirini alarıq:



Bu məsələnin həll metodundan istifadə etməklə 1) $y=\frac{x}{|x|}$, 2) $y=\frac{1}{x^2+1}$, 3) $y=|x-1|+$ $+|x-2|+|x-3|$ funksiyalarının qrafiklərinin həndəsi təsvirlərinin qurulması maraqlı olardı

Növbəti məsələ orta məktəb kursunda tez-tez rast gəlinən hovuz-nasos tipli məsələdir, ancaq fərqli məzmunda və təbii ki, fərqli yanaşma ilə həll metodunda.

Məsələ 4. İki qabdan birində 1 litr su var, digəri isə boşdur. I qabdan yarısını II qaba, sonra isə II qabdakının $\frac{1}{3}$ hissəsini I qaba, sonra I qabdan $\frac{1}{4}$ −ni II qaba ...və s. şəkildə növbə ilə tökürlər. 1000 sayda bu kimi qabın birindən digərinə qeyd olunan şərtlərlə su tökdükdən sonra hər qabda nə qədər su olacaq?

Məsələnin həllinin araşdırılması: Göründüyü kimi təkrar su yerdəyişmələrinin qaydası mürəkkəb, sayı isə kifayət qədər böyük saydadır. Bu səbəbdən də ardıcıl hesablama yolu ilə məsələni həll etmək mümkün olsa da, çox böyük zaman və hesablama aparacaq. Bu yerdə ağıllı-məntiqli metod köməyə gələr. O məntiqi axtaraq. Bunun üçün əvvəlcə bir neçə ardıcıl su yerdəyişməsinin cədvəlini tərtib edək və mümkün alqoritm axtaraq (əgər varsa). Ardıcıl yeddi sayda qabdan qaba deyilən şərtlərlə su tökək və nəticələri xüsusi cədvəldə qeyd edək:

Suyun bir qabdan digərinə tökülməsi №	1	2	3	4	5	6	7
I qabda	$\frac{1}{2}$	$\frac{2}{3}$	$\frac{1}{2}$	$\frac{3}{5}$	$\frac{1}{2}$	$\frac{4}{7}$	$\frac{1}{2}$
II qabda	$\frac{1}{2}$	$\frac{1}{3}$	$\frac{1}{2}$	$\frac{2}{5}$	$\frac{1}{2}$	$\frac{3}{7}$	$\frac{1}{2}$

Cədvəldə qeyd olunan qablardakı su miqdarlarını hər bir mərhələdə sadə şəkildə hesablayaraq doğru olduğuna əmin olmaq olar. Cədvəldə maraqlı bir qanunauyğunluq görünür: tək nömrəli hallarda suyun miqdarı bərabər olur. Bu fakt nə qədər cəlbedici olsa da əmin olmağa tam əsas vermir ki, bu həmişə, yəni 100-ci hala qədər davam edəcək yoxsa yox. Bu ona görə sual doğurur ki, hər dəfə bir qabdan digərinə eyni qədər deyil, fərqli-fərqli hissələrdə su əlavə edirik. I dəfə $\frac{1}{2}$, II dəfə $\frac{1}{3}$, III dəfə $\frac{1}{4}$, IV dəfə $\frac{1}{5}$ hissə və s. Qanunauyğunluğun həmişə doğru olduğuna əmin olmaq üçün riyazi induksiya metodunu tətbiq edək. Fərz edək ki, qəbul edilən fərziyyə $n=2k++1$ tək sayda hallarda doğrudur, yəni $(2k++1)$ −ci su tökməsindən sonra hər iki qabda eyni qədər su olacaq. Onda buradan belə bir nəticəyə gələ bilərik ki, $(2k++2)$ −ci köçürmədən sonra II qabda $\frac{1}{2}-\frac{1}{2k+3}\cdot\frac{1}{2}=\frac{k+1}{2k+3}$ l miqdarda, I qabda isə $\frac{k+2}{2k+3}$ l miqdarda su olmalıdır. Bu şəkildə davam etsək, $(2k++3)$ −cü köçürmədən sonra I qabda $\frac{k+2}{2k+3}-\frac{1}{2k+4}\cdot\frac{k+2}{2k+3}=$ $\frac{1}{2}$ litr su olacaq. Deməli, II qabda da $\frac{1}{2}$ litr su olacaq, yəni hər iki qabda eyni bərabər $\frac{1}{2}$ l. Bu analizdən sonra belə bir nəticəyə gələ bilərik ki, görünən məntiqi paylanma istənilən n üçün də

doğru olacaq və deməli $n = 999$ olarsa, hər qabda $\frac{1}{2}$ litr, 1000-ci halda isə, yəni n=1000 olduqda isə ikinci qabda $\frac{1}{2} - \frac{1}{10001} \cdot \frac{1}{2} = \frac{500}{1001}$ litr su, I qabda isə $1 - \frac{500}{1001} = \frac{501}{1001}$ litr su olacaq. Beləliklə, həlli əvvəlcə çox mürəkkəb və ya qeyri-mümkün görünən "nasos-hovuz" məsələsi ağıllı yanaşma ilə məntiqlə öz həllini tapdı.

Bu məsələnin həllini əsas tutaraq dinləyicilərə yeni bir tapşırıq-məsələ təklif edərdik.

Məsələ. İki qabdan birində 5 litr su, II də isə 5 litr spirt var. I-dən 1 litr suyu II qaba tökdülər. Məhlulu yaxşıca həll etdikdən-qarışdırdıqdan sonra 1 litr qarışıq məhlulu I qaba tökdülər. I qabda spirtin yoxsa II qabda suyun miqdarı çox olar?

Bu tip mürəkkəb məsələlər və onların qeyri-standart həll üsullarının öyrənilməsi məqalənin əsas elmi-praktik və tətbiqi yanaşması olduğu üçün hər bir riyaziyyat sevər üçün əhəmiyyətlidir.

Problemin elmi yeniliyi. Mürəkkəb çoxhədli funksiyanın qiymətəndirilməsi ,verilmiş funksiyanın dövri-periodik olub olmamasının araşdırılması, qeyri-standart modul funksiyanın araşdırılması və qrafik təsvirinin verilməsi kimi mürəkkəb məsələlərin həllinin xüsusi yeni metodiki yanaşmaları verilmişdir. Bu üsul və metodiki yanaşmalar müxtəlif məsələ və misalların tətbiqi ilə öz təsdiqini tapmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədə müxtəlif tip qeyri-standart dövri, modul və çoxhədli funksiyalar araşdırılmış, bəzi hallarda onların qiymətləndirilməsi, qrafik təsvirlərinin tapılması kimi əhəmiyyətli, praktik baxımdan yeni və çətin məsələlərin həllinə kömək edə bilən yanaşmalar müzakirə edilmişdir. Bu tip məsələlər riyaziyyatda həmişə maraq doğuran, həm də olimpiada kimi ciddi araşdıra bilmə qabiliyyətinin formalaşmasında əhəmiyyətli olan problemlər sırasında olduğundan praktik əhəmiyyəti çox mühümdür.

Problemin aktuallığı. Məqalədə araşdırılan, praktik əhəmiyyətcə vacib olan xüsusi tip olimpiada xarakterli, qeyri-standart məsələlər və onların yeni üsullarla həllindəki yeni yanaşmalar olimpiadalara hazırlıq üçün həm orta məktəb müəllim və şagirdləri, həm də ali məktəb tələbə və magistrləri üçün xüsusi əhəmiyyət kəsb etdiyindən aktualdır.

Ədəbiyyat

1. Туманов, С.И. Поиски решения задач / С.И. Туманов. –Москва: Просвещение –1969. –267 с.
2. Ивлев, Б.М. Задачи повышенной трудности по алгебре и началам анализа. Учебн. пособие для 10-11 кл. средн. Школы. / Б.М. Ивлев, С.И. Шварцбурд. –Москва: Просвещение, –1990. –350 с.
3. İbrahimov , Ə.Y. Çətinlik dərəcəsi yüksək olan riyaziyyat məsələlərinin həlli üzrə praktikum. / Ə.Y. İbrahimov , A.Y. Kreymer, S.N. Sadıqov. –Bakı, 1975. –287 s.
4. Yaqubov, M.H. Riyaziyyat. Məsələ və misallar. –Bakı: Çaşıoğlu, –2009. –310 s.
5. Яковлев Г.Н., Купцов Л.П. и др. Всероссийские математические олимпиады школьников. – Москва: Просвещение, –1992 г.
6. Кушнир А.И. Векторные методы решение задач. –Киев, 1994.
7. Huseynov, S.T. Harnack inequality for (p,q)-laplacian equations uniformly degenerated in a part of domian// Elektronic Jurnal of Differential Equations, vol. -2018(2018), no. 143, –pp. 1-7.
8. Huseynov, S.T. Quality theorems on the solutions of quasilinear second- order parablic equations with discontinuus coefficients. Computational Metod for Differential Equations. Vol.12, №.4, 2024, –pp. 703-709.
9. Цыпкин, А.Г. Справочник по математике. Для средних учебных заведений. / А.Г. Цыпкин. – Москва: Наука, –1984.

Redaksiyaya daxil olub: 27.01.2026

UOT 372.891

Namiq Tahir oğlu Ağaməmmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
elmlər doktoru proqramı üzrə doktorantı,
İsmayıllı rayonu Mücühəftəran kənd E. Həsənov adına tam orta ümumtəhsil məktəbinin direktoru
https://orcid.org/0000-0002-7183-9933
E-mail: naqamemmedov@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).93-98

LİTOSFER TAVALARININ HƏRƏKƏTİ VƏ YERİN GEOLOJİ İNKİŞAFI COĞRAFİ İNTEQRASİYA ASPEKTİNDƏ

Namig Tahir Agamammadov
doctorial student in the program of doctor science
of the Institute of Education of the Republic of Azerbaijan,
director of the E. Hasanov Secondary School in Mujuhaftaran village of Ismayilli district

LITHOSPHERIC PLATE MOVEMENT AND GEOLOGICAL DEVELOPMENT OF THE EARTH FROM THE ASPECT OF GEOGRAPHICAL INTEGRATION

Намиг Тахир оглы Агамамедов
докторант по программе доктора наук Института Образования Азербайджанской Республики
директор средней школы имени Э.Гасанова село Муджухафтаран Исмаиллинского района

ДВИЖЕНИЕ ЛИТОСФЕРНЫХ ПЛИТ И ГЕОЛОГИЧЕСКОЕ РАЗВИТИЕ ЗЕМЛИ В АСПЕКТЕ ГЕОГРАФИЧЕСКОЙ ИНТЕГРАЦИИ

Xülasə. Məqalənin əsas məqsədi coğrafiyanın tədrisində müxtəlif fənlərlə inteqrativ mövzuları təhlil etməkdir. Litosfer plitələrinin hərəkəti, Yerin geoloji inkişafı və mərkəzəqaçma qüvvəsi mövzularında apardığımız araşdırmalarda fizika və riyaziyyatın köməyi ilə coğrafi anlayışların dərk edilməsi aspektlərini açdıq. Fənlər tərəfindən bir-birinin məzmunundan istifadə edilməsi müasir yanaşmadır və inkişaf edir.
Açar sözlər: *litosfer tavaları, konvergent və divergent sərhədlər, nisbi və mütləq yaş, mərkəzəqaçma qüvvəsi*

Abstract. The main purpose of the article is to analyze integrative topics with various subjects in the teaching of geography. In our research on the movement of lithospheric plates, geological development of the Earth and centrifugal force, we opened the aspects of understanding geographical concepts with the help of physics and mathematics. The use of each other's content by subjects is a modern approach and is developing.
Keywords*: lithospheric plates, convergent and divergent boundaries, relative and absolute age, centrifugal force*

Аннотация. Основная цель статьи — анализ интегративных тем с различными предметами в преподавании географии. В нашем исследовании движения литосферных плит, геологического развития Земли и центробежной силы мы раскрыли аспекты понимания географических понятий с помощью физики и математики. Использование содержания друг друга в рамках предметных дисциплин — это современный и развивающийся подход.

Ключевые слова: *литосферные плиты, конвергентные и дивергентные границы, относительный и абсолютный возраст, центробежная сила.*

Yerin daxili quruluşu mövzusunda müəllimin fizika fənninə aid bilikləri yetərlidirsə, müştərək yanaşma tətbiq edə bilər. Burada litosfer tavalarının hərəkəti, maddələrin diferensiasiyası, ağır elementlərin nüvəyə, yüngül elementlərin isə Yer qabığında toplanması, dərinliyə doğru getdikcə mərkəzəqaçma qüvvəsinin dəyişməsi, temperatur və təzyiqin artmasına maddələrin reaksiyası fizika ilə inteqrasiyanı aktuallaşdırır. Bu sahədə inteqrasiya olunmuş elm sahəsi kimi geofizikanı qeyd etmək olar. Bir çox tərifl ər göstərir ki, coğrafiya fəza düşüncəsi vasitəsilə insanlarla fiziki mühit hadisələri və sosial dinamika arasında əlaqə quran elmi bir fənndir [10, s.185].

Geofizika elmi Yerin qatlarında və nüvəsində gedən fiziki proseslər və hadisələri öyrənir. Yerin daxili quruluşu üç təbəqədən ibarətdir: Yer qabığı, mantiya və nüvə. Hər təbəqənin öz fiziki-kimyəvi xüsusiyyətləri var. Nüvəyə doğru getdikcə temperatur və təzyiqin artması ehtimal olunur. Yer qabığı üst, bərk təbəqədir. Materik (çökmə, qranit, bazalt) və okean tipli (çökmə, bazalt) Yer qabığına bölünür. Müasir dövrdə müəllimdən şagirdləri tədqiqatçıya çevirmək tələb olunur. Fəal təlimin əsas xüsusiyyəti təlim prosesində müəllimin fasilitator, şagirdin tədqiqatçı roludur [8, s.118]. Şagirdlərin Yer qabığının formalaşması, inkişafı və litosfer tavalarının hərəkəti haqqında biliklər alması, onların elmi dünyagörüşünün formalaşmasına kömək edir və fənlərarası inteqrasiyada aktuallıq kəsb edir.

Yer qabığında baş verən geodinamik və geotermik proseslər

Yer qabığında hər 100 m dərinlikdə temperaturun 3° C artmasına geotermik qradiyent deyilir. Temperaturun 1° C artması üçün Yer qabığında geotermik pillənin orta qiyməti təqribən 33 m-ə bərabərdir. Yerin daxilindəki əsas enerji mənbəyi istilik enerjisidir. Bütün digər enerji növləri də son nəticədə istilik enerjisinə çevrilir [7, s.11]. Seysmik (geosinklinal) ərazilərdə geotermik pillə kiçik (Böyük və kiçik Antil adaları, İndoneziya, Yapon adaları, Yeni Zelandiya adası, Kamçatka, Apennin, Kiçik Asiya, Malakka yarımadası, And, Kordilyer, Alp, Himalay, Pamir dağları və s.), qədim platformalarda (Şərqi Avropa, Böyük Çin düzənliyi, Qərbi Avstraliya və s.) və daimi donuşluq (Qrenlandiya, Şpitsbergenarxipelağı, Yeni Torpaq, Kanada-Arktikaarxipelağı və s. zonalarında isə nisbətən az olur. Yer qabığında dərinliyə doğru temperaturun artmasının səbəbləri aşağıdakılardır:

– radioaktiv maddələrin parçalanması;
– süxurların sıxlığının artması;
– süxurların təzyiqinin artması.

Mantiya (silisium, oksigen, dəmir və s. maddələrdən ibarətdir) sözünün mənası latınca "örtük" deməkdir. Böyük təzyiq altında olan, sıx və bərk-plastik alt mantiyadan və daim hərəkətli, qatı maye halında olan üst mantiyadan ibarətdir. Əsas seysmik proseslərin, ən dərin fokuslu zəlzələlərin, vulkan ocaqlarının üst mantiyada olduğu fərz edilir. Mantiyada maddələrin ağırlığına görə diferensiasiyası baş verir. Ağır ərimiş maddələr yuxarı mantiyadan aşağı mantiyaya, nüvəyə çökür, yüngül maddələr isə böyük təzyiq altında yuxarı, Yer qabığına doğru qalxır [3]. Yer qabığının formalaşması prosesində müxtəlif kateqoriyalara məxsus maddələr temperatur, təzyiq və kimyəvi tərkibə görə bölünür və müəyyən qruplar əmələ gətirirlər. Coğrafiyada təbiətdə maddələrin dövranı, maddələrin ayrılması, əmələgəlmə şəraitinə görə maddələrin növləri tədris zamanı istifadə olunur. Geoloji proseslər zamanı maqmatik, sediment (çökmə), metomorfik diferensiasiya fərqlənir. Kimyada isə maddələrin xassələrinə, molekulyar quruluşlarına, fiziki müxtəlifliyinə görə diferensiasiyası mövcuddur.

Nüvə təbəqəsi yüksək sıxlığa və temperatura malik olmaqla Yerin mərkəzində yerləşir. Daxili və xarici nüvəyə bölünür. Nüvədəki temperatur (6000° C) Günəş səthindəki temperaturla təqribən eynidir (Şəkil 1).



Şəkil 1. Yerin daxili quruluşu

Mənbə: Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün coğrafiya fənni üzrə dərslik (1-ci hissə) s.28

"Litosfer tavalarının hərəkəti" mövzusu tədris olunarkən fizika fənni ilə inteqrasiya qurulması səmərəli ola bilər. Fizika təlimində elmi savadlılığın aşılanmasında şagirdlərdə onun digər fənlərlə (xüsusilə təbiət fənləri ilə) inteqrativ biliklər sisteminə malik olması, bilik və bacarıqların inkişaf etdirilməsi nəzərdə tutulur [2, s.75].

Alman astronomu, meteoroloqu və geofiziki Alfred Vegener 1912-ci ildə materiklərin üfüqi istiqamətdə hərəkət etməsi, yəni "materiklərin dreyfi" nəzəriyyəsini irəli sürmüşdür. Yer qabığı üst mantiya ilə birlikdə bərk təbəqə olan litosferi formalaşdırır. Bərk təbəqə olan litosfer geniş əraziləri əhatə etməklə, müxtəlif hissələrdən təşkil olunmuşdur. Onun qalınlığı okeanlarda 50-100 km, materiklərdə isə 200-250 km arasında dəyişir. Litosfer tavaları üst mantiyanın yumşaq plastik təbəqəsi olan astenosfer üzərində üfüqi istiqamətdə "sürüşür". Litosfer tavalarının hərəkəti mexaniki hərəkət olduğuna görə burada hesablama cismi, hesablama sistemi, maddi nöqtə, trayektoriya, yol, hərəkət, sürət, yerdəyişmə, zaman fasiləsi olmalıdır. Litosfer tavalarını yerdəyişməyə məcbur edən səbəblərə- mantiyanın üst hissəsində maddələrin yerdəyişməsindən əmələ gələn qüvvəni, mantiyadan Yer səthinə qalxan güclü maqma axını aid etmək olar. Litosfer tavalarının hərəkəti Yer səthində relyefin formalaşmasına, materiklərin yerdəyişməsinə və formalarının dəyişməsinə gətirib çıxarır. Litosfer tavaları hərəkət nəticəsində birbiri ilə toqquşa (konvergent sərhədlər) və aralana (divergent sərhədlər) bilər. Kiçik (Filippin, Karib, Ərəbistan, Kokos, Naska) və iri (Sakit okean, Avrasiya, Şimali Amerika, Cənubi Amerika, Afrika, Hind-Avstraliya, Antarktida) litosfer tavaları mövcuddur. Tavalar materik (Ərəbistan) və okean tipli (Sakit okean, Filippin, Kokos, Naska) olmaqla iki yerə bölünür. Digər tavalar qarışıq tipli (həm okean, həm materik) yer qabığına malikdir. Okean tipli yer qabığına malik litosfer tavalarının bir-birindən kənarlaşması nəticəsində orta okean silsilələri (məsələn, Şimali və Cənubi Atlantika silsilələri) və zirvələri olan Azor, İslandiya, Müqəddəs Yelena, Pasxa adaları əmələ gəlir. Litosfer tavalarının uzaqlaşması cavan okeanlar Atlantik və Hind okeanlarının sahələrinin artmasına səbəb olur. Hərəkət nəticəsində qədim okeanlar Sakit və Şimal Buzlu okeanların isə sürəti azalır. Materik tavalarının toqquşması quruda iri dağ silsilələrinin (Avrasiya, Afrika və Hind-Avstraliya tavalarının toqquşması nəticəsində Alp-Himalay qurşağı) əmələ gəlməsini labüd edir. Materik və okean tipli litosfer tavaları toqquşarsa, sahilboyu ərazidə quruda sıra dağlar (And dağları), adalar qövsü (Aleut və Marian adaları), okeanda dərin okean çökəklikləri (novları) Peru çökəkli-

yi, Aleut və Marian novları formalaşır. Litosfer tavalarının hərəkət sürəti müxtəlifdir. Misal üçün, "Yer qabığının quruluşu" xəritəsində Sakit okean tavası Avrasiya tavasına konvergent sərhəddə ildə 9,3 sm/il, bəzi yerlərdə 10,0 sm/il, Hind-Avstraliya tavası Avrasiya tavasına doğru 4,9 sm/il, Avrasiya və Sakit okean tavasına doğru müxtəlif yerlərdə 6,5 sm/il; 5,2 sm/il, Naska tavası Cənubi Amerika tavasına doğru isə 6,0 sm/il sürətlə hərəkət etdiklərini görmək olar. Coğrafiya, fizika və riyaziyyat müəllimləri kollegial şəkildə "Yer qabığının quruluşu" xəritəsini şagirdlərlə birlikdə araşdırıb perspektiv dövr üçün litosfer tavalarının hərəkət dinamikasını hesablaya bilərlər (Şəkil 2).



Şəkil 2. Litosfer tavalarının hərəkəti

Mənbə: Ümumi təhsil məktəblərinin 8-ci sinifləri üçün dərs vəsaiti-2023, 192 s., s.62

İnteqrasiya kontekstində süxurların tərkibində olan radioaktiv elementlərin parçalanma müddətini fizika və riyaziyyatla əlaqələndirmək olar. Süxurların yaşı nisbi və mütləq yaş hesablanması ilə müəyyən olunur. Nisbi yaş hesablanması coğrafiyanın biologiya ilə inteqrasiyasına aiddir. Mütləq yaş süxurların əmələ gəldiyi vaxtdan indiyə qədər keçən illərin miqdarıdır. Onun hesablanması radioaktiv metod vasitəsi ilə (süxurların tərkibində olan radioaktiv elementlərin uran, torium, radium parçalanma müddətinə görə) təyin olunur. Uran elementi Yer qabığında fasiləsiz şəkildə helium və qurğuşuna parçalanır, helium zaman keçdikcə səpələnir, qurğuşun isə süxurun tərkibində qalır. Mayenin hərəkəti baş verən kimi ikinci qüvvələr meydana çıxır ki, bu qüvvələr hərəkət əmələ gətirmir, onlar yalnız hərəkəti deformasiya edir. Bu qüvvələrə Koriolis qüvvəsi, sürtünmə qüvvəsi, mərkəzdənqaçma qüvvəsi aid olunur [1, s.9]. Yaxşı olar ki, dərsdə Dmitri İvanoviç Mendeleyevin kimyəvi elementlərin dövri sistem cədvəlini istifadə olunsun. Radioaktiv elementlərin parçalanma müddətləri elmə məlumdur. 1 qram uranın parçalanmasından bir ildə 27 x 10^{-6} sm^3 helium, 7,4 x10^{-9} qram qurğuşun alınır. 1 qram toriumin parçalanması isə bir ildə 27 x 10^{-6} sm^3 helium, 19,5 x 10^9 qram qurğuşun alınmasına səbəb olur. Qurğuşun və helium qazının miqdarına görə süxurların mütləq yaşını hesablamaq olar. Süxurların mütləq yaşının radioaktiv metodlarla təyini çox sürətlə inkişaf edir, təkmilləşir, tətbiq sahələri genişlənir [6, s.316].

Litosfer tavaları və Yerin geoloji inkişafı ilə bağlı məqalə coğrafiyanın fizika, kimya, biologiya və riyaziyyat fənləri ilə inteqrasiya olunmasına kömək edir. Geoloji eralar ərzində süxurların fiziki və kimyəvi dəyişikliyə məruz qalması, bioloji cəhətdən bitkilərin dəyişməsi, vaxt ölçüsünün riyazi hesablanması fənlərarası inteq-

rasiya üçün ilkin komponentlərdir. Tədris prosesində litosfer tavalarının hərəkətinin il ərzində santimetrlərlə ölçülməsi təhsilalanlarda uzun geoloji dövr haqqında təsəvvürlərin formalaşmasına gətirib çıxarır. Litosfer tavalarının konvergensiyası və divergensiyası haqqında riyazi-analitik informasiyalar Yer qabığının gələcək konfiqurasiyasını proqnozlaşdırmağa, toqquşma və uzaqlaşma zonalarında seysmik proseslərin dinamikasını təxmin etməyə imkan verir. Geoloji eralar ərzində baş verən coğrafi proseslərin (soyuqlaşma və istiləşmə) canlı aləmin təkamülünə təsiri nəticəsində canlıların ibtidai birhüceyrəlilərdən (sadə bakteriyalar və yosunlar), mürəkkəb çoxhüceyrəlilərə doğru inkişafı müəyyən olunmuşdur. Arxey erasında Yer qabığı və okeanlar formalaşdı, atmosferdə oksigen qazı demək olar ki, yox idi, vulkanizm prosesləri güclü idi, sadə bakteriyalar və yosunlar ortaya çıxdı. Proterozoy erasında çoxhüceyrəli canlıların əmələ gəlməsi, atmosferdə oksigen qazının artması, qitələrin formalaşmağa başlaması ilə diqqəti çəkir. Paleozoy erasında bitkilərin quruda yayılması, dağəmələgəlmə prosesinin güclənməsi (Kaledon, Hersin) əsas geoloji hadisələrdir. Mezazoy erasında iri sürünənlərin sürətli inkişafı, iri quşlar və məməlilərin əmələ gəlməsi, Pangeyanın parçalanması geoloji hadisələrdəndir. Mezazoy (Kimmeri) dağəmələgəlməsi baş vermişdir. Kaynozoy erasında müasir Yer səthi və biosferin əmələ gəlməsi, 4-cü dövr buzlaşması, Alp da əmələgəlməsi, insanın əmələ gəlməsi, müasir fauna və floranın formalaşması baş vermişdir. Geoloji eralar ərzində faydalı qazıntıların əmələ gəlməsi müəyyən dövrlərə uyğun olmuşdur. Göründüyü kimi, geoloji hadisələr və litosfer tavalarının hərəkəti mövzusuna görə fənlər üzrə inteqrasiya oluna bilər. Təcrübə göstərdi ki, fənnin yalnız ümumi məzmun çərçivəsində deyil, milli komponentin ayrıca istiqamət kimi formalaşdırılması da vacibdir [9, s. 212]. Xüsusi ilə, coğrafiya, fizika, kimya, biologiya və riyaziyyat məqsədli şəkildə qarşılıqlı öyrənilməsi tövsiyə olunur.

Problemin aktuallığı. Mövzuların inteqrativ öyrənilməsi pedaqoji prosesin ayrılmaz tərkib hissəsidir. Şagirdlərin mövzuya motivasiyasının artırılmasında fənlərarası inteqrasiya vacib elementə çevrilməkdədir. Multidissiplinar yanaşma mövzuların öyrədilməsində müasir dövrün mühüm pedaqoji problemi olaraq aktuallığını qoruyur. "Litosfer tavalarının hərəkəti və Yerin geoloji inkişafı" mövzusu inteqrativ yanaşmaya müvafiq olaraq problemli situasiya kontekstində aktual formada təhlil olunmuşdur.

Problemin yeniliyi. Məqalədə coğrafiya, fizika və riyaziyyat fənlərinin "Litosfer tavalarının hərəkəti və Yerin geoloji inkişafı" konteksti üzrə fənlərarası inteqrasiya prosesi öyrənilmiş, onun dərs mühitində tətbiqi imkanları konkret misallarla elmilik prinsipləri nəzərə alınmaqla əsaslandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Coğrafiyanın inteqrativ tədrisi metodikasının əsas məqsədi müxtəlif fənlər üzrə mövzulararası hibrid mühit formalaşdırmaq, oxşar və yaxın mövzuların birlikdə tədrisini təşkil etmək və tədris prosesində keyfiyyət dəyişikliyinə nail olmaqdır. Coğrafiya çoxqütblü fənn olduğu üçün onu dəqiq, təbiət və humanitar fənlərlə inteqrasiya etmək mümkündür. Məqaləmizdə mövzunun tələbinə uyğun coğrafi mövzular fizika, riyaziyyat fənləri ilə inteqrasiya olundu. Nəticədə litosfer tavalarının hərəkəti, yerin geoloji inkişafı və mərkəzəqaçma qüvvəsinin elmi-metodoloji təhlili deməyə əsas verir ki, riyaziyyat və fizika fənlərinin imkanlarından istifadə etməklə keçirilən dərslər elmilik cəhətdən daha dolğun və mükəmməl olur. Litosfer tavalarının hərəkəti konvergent və divergent sərhədlərin əmələ gəlməsinin səbəbidir. Bu sərhədlər Yer kürəsinin seysmik cəhətdən ən fəal zonalarıdır. Süxurların yaşının təyin olunması nisbi və mütləq yaşın hesablanması ilə mümkündür. Nisbi yaşı biologiya, mütləq yaşı isə riyaziyyat və fizika ilə əlaqəli öyrətmək metodik cəhətdən məqbul sayıla bilər.

Ədəbiyyat

1. Abdullayev, İ.M. Dəniz cərəyanları və okean sirkulyasiyası. Dərslik. / İ.M. Abdullayev. –Bakı: Bakı Universiteti, –2001. –142 s.
2. Abdurazaqov R., Məmmədova S. (2022). Fizika dərsində interaktiv keys metodunun tətbiqi metodikası. Azərbaycan məktəbi .№ 1 (698), səh. 73–84. https://as-journal.edu.az/fizika-d%C6%8Frsind%C6%8F-interaktiv-keys-metodunun-t%C6%8Ftbiqi-metodikasi
3. Ələkbərova, G. "Yerin daxili quruluşu mövzusunda" dərs nümunəsi // Azərbaycan müəllimi. –2013. –12 iyul. –s.6.
4. Ələkbərov, F. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün coğrafiya fənni üzrə dərslik (1-ci hissə). / F. Ələkbərov, Ş. Hüseynli, Ü. Qasımova. –Bakı: CN Poliqraf MMC, –2024. –88 s.

5. Eminov, Z.N. Ümumi təhsil məktəblərinin 8-ci sinifləri üçün dərs vəsaiti. / Z.N. Eminov, Q.M. Səmədov, A.R. Əliyeva. –Bakı: Çaşıoğlu Elm-İstehsalat MMC, –2023. –192 s.
6. Həbibov, T.C. Ümumi və tarixi geologiya. Dərslik /T.C. Həbibov. –Bakı: ADPU nəşriyyatı, –2016. –428 s.
7. Kərimov, Z.H. Geodinamika / Z.H. Kərimov. –Bakı: Elm nəşriyyatı, –2007. –158 s.
8. Verdiyeva, V.A. (2025). Coğrafiyanın tədrisində diyarşünaslıq işlərinin təşkilinin əhəmiyyəti// Azərbaycan Respublik
9. .asının Təhsil İnstitutunun Elmi əsərləri,-2025. Cild 92, №3, -s.117-121.
10. Tağıyeva V.A. Azərbaycan coğrafiyasının tədrisində məzmun və struktur yenilikləri// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,-2025. Cild 92, №6, -s.210-214.
11. Muhammad Nursa'ban, Ryogo Abe. (2020). Pedagogical Content of Spatial Thinking Geography of Prospective Teachers in AUE and YSU//Pedagogika / Pedagogy2019, t. 135, Nr. 3, p. 185–199 / Vol. 135, No. 3, pp. 185–199. https://ejournals.vdu.lt/index.php/Pedagogika/article/view/883/533

Redaksiyaya daxil olub: 02.12.2025

UOT 372.8:91

Aytac Vazeh qızı Tağıyeva
Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0003-2572-1659
E-mail:aytac760@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).99-103

5E TƏLİM MODELİNİN AZƏRBAYCAN COĞRAFİYASINA AİD MÖVZULARDA TƏHLİLİ

Aytac Vazeh Tagiyeva
doctorial student in the program of doctor of philosophy
of Baku State University

ANALYSIS OF THE APPLICATION OF THE 5E INSTRUCTIONAL MODEL IN TOPICS RELATED TO THE GEOGRAPHY OF AZERBAIJAN

Айтадж Вазех гызы Тагиева
диссертант по программе доктора философии Бакинского Государственного Университета

АНАЛИЗ ПРИМЕНЕНИЯ УЧЕБНОЙ МОДЕЛИ 5E В ТЕМАХ, СВЯЗАННЫХ С ГЕОГРАФИЕЙ АЗЕРБАЙДЖАНА

Xülasə. Məqalədə 5E təlim modelinin Azərbaycan coğrafiyasının VI və VII siniflər üzrə tədrisinə uyğunluğu şərh olunur və dərsliklərin məzmununda bu modelin mərhələlərinin ardıcıl şəkildə əks olunduğu göstərilir. Təhlil göstərir ki, 5E yanaşması şagirdlərin müşahidə, təhlil və tətbiq bacarıqlarını gücləndirərək coğrafi biliklərin daha dərindən mənimsənilməsinə şərait yaradır. Nəticə olaraq, model Azərbaycan coğrafiyası mövzularının tədrisi üçün səmərəli və məqsədyönlü metodoloji çərçivə kimi qiymətləndirilir.
Açar sözlər: *5E təlim modeli, tədqiqatyönlü öyrənmə, Azərbaycan coğrafiyası, konstruktivist yanaşma, şagird-mərkəzli təlim*

Abstract. The article discusses the compatibility of the 5E instructional model with the teaching of Azerbaijani geography in the 6th and 7th grades, demonstrating that the stages of the model are consistently reflected in the structure of the textbooks. The analysis shows that the 5E approach enhances students' observation, analysis, and application skills, thereby contributing to a deeper understanding of geographical concepts. Consequently, the model is evaluated as an effective and purposeful methodological framework for teaching topics related to the geography of Azerbaijan.
Keywords: *5E instructional model, inquiry-based learning, Azerbaijani geography, constructivist approach, student-centered teaching*

Аннотация. В статье рассматривается соответствие учебной модели 5E преподаванию географии Азербайджана в 6–7-х классах и показывается, что этапы данной модели последовательно отражены в содержании учебников. Анализ выявляет, что подход 5E укрепляет навыки наблюдения, анализа и практического применения, обеспечивая более глубокое усвоение географических знаний. В результате модель оценивается как эффективная и целесообразная методологическая основа для преподавания тем, связанных с географией Азербайджана.
Ключевые слова: *учебная модель 5E, исследовательское обучение, география Азербайджана, конструктивистский подход, обучение, ориентированное на ученика*

Son illərdə Azərbaycan təhsil sistemində aparılan kurikulum islahatları fənlərin məzmununun şagirdyönlü, tədqiqat əsaslı və fəaliyyətə söykənən model əsasında yenidən qurulmasını aktuallaşdırmışdır. Bu dəyişikliklərin mərkəzində dayanan fənlərdən biri də coğrafiyadır. Coğ-

rafiya fənninin məqsədi yalnız faktları öyrətmək deyil, həm də şagirdlərdə mühitə dair müşahidə bacarığını, səbəb-nəticə əlaqələrini qurma qabiliyyətini, məkan təfəkküründü və ekocoğrafi məsuliyyəti formalaşdırmaqdır. Bu məqsədlərin reallaşdırılması üçün ən uyğun yanaşmalardan biri konstruktivist təlimə əsaslanan 5E təlim modelidir.

5E modeli (Engage – Explore – Explain – Elaborate – Evaluate) şagirdin fəal öyrənməsini təşkil edən ardıcıl mərhələlərdən ibarətdir və müəllim-mərkəzli tədrisi şagird-mərkəzli prosesə çevirir. Modelin mahiyyəti ondan ibarətdir ki, şagird mövzunu bilavasitə tədqiqat yolu ilə kəşf edir, öz müşahidələrini şərh edir, nəticələri əsaslandırır və yeni vəziyyətlərə tətbiq edir. Bu yanaşma Azərbaycan məktəblərində tətbiq edilən yeni coğrafiya dərsliklərinin – xüsusilə VI və VII sinif dərsliklərinin – məzmunu ilə üst-üstə düşür. Dərsliklərin 2023-2024-cü tədris illəri üçün hazırlanmış versiyalarında həm motivasiya blokları, həm interaktiv suallar, həm də tədqiqat fəaliyyətinə yönəlik vizual materiallar 5E modelinə uyğunlaşdırılmışdır.

Azərbaycan coğrafiyası mövzuları – relyef, iqlim, təbii komponentlər, əhali, iqtisadi rayonlar, təbii sərvətlər və cəmiyyət-mühit əlaqələri – öz strukturuna görə tədqiqat yönümlü tədris üçün əlverişlidir. Bu mövzular konkret müşahidə tələb etdiyinə görə 5E modelinin tətbiqi şagirdlərdə coğrafi düşüncənin inkişafını sürətləndirir. Xüsusilə VI və VII sinif dərsliklərində təqdim olunan situativ məsələlər, xəritə üzərində tədqiqat tapşırıqları və vizuallar modelin mərhələlərinə uyğun olaraq qurulmuşdur (9, s. 10).

Məqalənin məqsədi 5E modelinin nəzəri mahiyyətini izah etməklə yanaşı, onun Azərbaycan coğrafiyası mövzularında real tətbiq imkanlarını sistemli şəkildə təhlil etməkdir. Tədqiqat həm dərslik materiallarının struktur təhlilinə, həm də modelin mərhələlərinin coğrafiya mövzularına necə inteqrasiya oluna biləcəyinə əsaslanır. Məqalə VI və VII sinif dərslikləri üzrə konkret nümunələr təqdim etməklə müəllimlər üçün praktik metodik çərçivə yaradır. Bununla yanaşı, modelin üstünlükləri, məhdudiyyətləri və tətbiq zamanı yarana biləcək çətinliklər də elmi əsaslarla şərh olunur.

5E modelinin Azərbaycan coğrafiyasının tədrisində tətbiqi həm kurikulumun məqsədlərinə uyğundur, həm də XXI əsr bacarıqlarının – tənqidi düşünmə, problem həlli, informasiya savadlılığı və məkan analizinin – formalaşmasını dəstəkləyir. Bu səbəbdən modelin coğrafiya dərslərinə inteqrasiyası pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir(2).

5E modelinin nəzəri əsası

Konstruktivist təlim nəzəriyyəsi müasir pedaqogikanın əsas istiqamətlərindən biri kimi XX əsrin sonlarından etibarən təhsil sisteminin metodoloji əsasını dəyişməyə başlamışdır. Bu yanaşmaya görə, şagird biliyi hazır şəkildə qəbul edən passiv dinləyici deyil, əksinə, öyrənmə prosesində bilik yaradan, müşahidə edən, əlaqə quran və nəticələr çıxaran aktiv subyektdir. Konstruktivizmə görə öyrənmə prosesi şagirdin əvvəlki bilikləri ilə yeni məlumatlar arasında əlaqə yaratmaqla bilik strukturunu genişləndirir. Məhz bu nəzəri bünövrə əsasında 1980-1990-cı illərdə ABŞ-da BSCS (Biological Sciences Curriculum Study) qrupunun rəhbəri R.W. Bybee tərəfindən 5E təlim modeli inkişaf etdirilmişdir(4).

5E modeli elmi biliklərin kəşf yolu ilə mənimsənilməsi prinsipi üzərində qurulmuş ardıcıl beş mərhələdən ibarətdir: *Engage, Explore, Explain, Elaborate, Evaluate*. Modelin hər bir mərhələsi şagirdin fəallıq səviyyəsini artırmaq, öyrənməni məntiqi ardıcıllıqla sistemləşdirmək və dərs materialını real həyatla əlaqələndirmək məqsədi daşıyır.

Ümumilikdə, 5E modeli barədə elmi ədəbiyyatın təhlilindən belə nəticəyə gəlmək olar ki, modelin düzgün tətbiqi bir çox fənlərin, o cümlədən coğrafiyanın tədrisində aşağıdakı müsbət nəticələri verir:

Şagird nailiyyətlərinin artması:	**5E strukturu biliklərin mərhələli öyrənilməsini və möhkəmləndirilməsini təmin etdiyi üçün şagirdlərin summativ qiymətləndirmə nəticələri yaxşılaşır.**
Yadda saxlamanın güclənməsi:	Şagirdlər yeni anlayışları tədqiqat apararaq özləri "kəşf etdikləri" üçün material yaddaşda daha uzun müddət qalır və anlayışlar dərin mənimsənilir.
Dərsə maraq və motivasiya:	Real həyatdan nümunələrlə başlanan və interaktiv tapşırıqlarla davam edən dərs prosesi şagirdlərin fənnə marağını artırır,

	öyrənməyə qarşı müsbət emosional fon yaradır.
Tədqiqat və əməkdaşlıq bacarıqları:	5E modelində şagirdlər qrup müzakirələri, birgə təhlillər aparırlar. Bu da kommunikativ bacarıqları və tənqidi düşüncəni inkişaf etdirir. Şagirdlərin sualvermə, hipotez irəli sürmə və nəticə çıxarma vərdişləri formalaşır.
Biliklərin transferi və tətbiqi:	"Dərinləşdirmə" mərhələsi sayəsində şagirdlər öyrəndikləri anlayışları yeni situasiyalara tətbiq etməyi öyrənirlər ki, bu da biliklərin real həyatda istifadə bacarığını formalaşdırır. Kontekstlərdə bilik tətbiqi öyrənməni daha mənalı edir və yüksək səviyyəli düşünməni tələb edir.

Cədvəl 1. 5E modelinin tətbiqinin şagird nailiyyətlərinə təsiri

Beləliklə, nəzəri və empirik tədqiqatlardan çıxarılan nəticələr 5E modelinin müasir təlimdə effektli yanaşma olduğunu təsdiqləyir. Xüsusən, coğrafiya kimi həm məzmun, həm də bacarıqlar yönü güclü olan bir fənn üçün bu modelin tətbiqi əlverişli görünür. Növbəti bölmələrdə 5E modelinin beynəlxalq təcrübədə coğrafiya tədrisində necə yer almasına və Azərbaycanın yeni coğrafiya dərsliklərində bu modelin necə reallaşmasına daha dərindən nəzər salırıq.

Azərbaycanda coğrafiya dərsliklərində 5E modelinin tətbiqi və xüsusi metodik yanaşma

Azərbaycanda ümumi təhsil pilləsində 2020-ci illərin əvvəllərindən etibarən kurikulumların təkmilləşdirilməsi və yeni nəsil dərsliklərin hazırlanması işləri həyata keçirildi. Coğrafiya fənni üzrə də VI sinifdən başlayaraq yeni dərslik komplektləri tərtib edildi və 2023-2024-cü tədris ilindən məktəblərdə tədris olunmağa başladı. Elm və Təhsil Nazirliyinin nəzdində Təhsil İnstitutunun hazırladığı metodik tövsiyələrə əsasən bu dərsliklər beynəlxalq miqyasda geniş istifadə olunan 5E modelinə uyğun qurulmuşdur. Dərsliyin hər bölməsi bir və bir neçə mövzunu əhatə edir və bölmə girişində real həyat, təbiət və ya texnologiya kontekstindən götürülmüş nümunələr və istiqamətləndirici suallar təqdim olunur. Bu quruluş 5E modelinin "Cəlb etmə" (Engage) mərhələsinin dərslikdə reallaşmasına xidmət edir. Məsələn, VI sinif dərsliyinin "Məkanı tanıyaq" adlı I bölməsi belə başlayır: "Yaşadığınız məkanı necə tanıyırsınız? Taksi sifariş edərkən sürücüyə hansı məlumatları vermək lazımdır?" kimi suallar və bir şəkil təqdim olunur. Şəkil gündəlik həyatdan tanış bir situasiyanı əks etdirir (məsələn, yaşayış məhəlləsinin şəkli) və şagirdlər bu haqda düşünməyə təşviq edilir. Bu cür giriş səhnəsi şagirdlərin mövzuya dair əvvəlcədən bildiklərini yada sal-mağa və müzakirəyə cəlb olunmasına xidmət edir. Metodik vəsaitdə deyilir ki, dərslikdəki bütün mövzularda *"Cəlb etmə"* və *"Araşdırma"* mərhələləri "Dərsə başlayarkən" başlığı altında birləşdirilmiş şəkildə verilir. Yəni, dərslik mövzularının əvvəlindəki tapşırıqlar həm motivasiya, həm də ilkin araşdırma funksiyasını yerinə yetirir. Bu tapşırıqlar adətən sual şəklində olub, şagirdləri düşünməyə, müşahidəyə və müzakirəyə istiqamətləndirir (8).

Bölmə daxilində alt-mövzular əsasən "*İzahetmə"* mərhələsinə uyğun gəlir – yəni coğrafi anlayışların birbaşa izah olunduğu, mətn və şəkillərlə təqdim edildiyi hissələrdir. Məsələn, VII sinif dərsliyinin "Hava şəraiti" bölməsində 4.1 "Dəyişkən hava" və 4.2 "Havada su" alt-mövzuları var. Bu alt-mövzularda hava hadisələrinin yaranması, bulud və yağıntı növləri kimi anlayışlar mətn, infoqrafik və şəkillərlə izah edilir. Şagirdlərin fəal öyrənməsini təmin etmək üçün mətn daxilində dayanıb düşünmə sualları, cütlərlə müzakirə tapşırıqları və sadə eksperiment təklifləri də verilir. Məsələn, "Havanın temperaturu necə dəyişir?" mövzusunda şagirdlərə bir stəkan isti və bir stəkan soyuq su nümunəsi verilib, istilik mübadiləsi haqqında nəticə çıxarma tapşırığı qoyula bilər. Bu, *Tədqiqat* (Explore) mərhələsinin praktik və interaktiv fəaliyyətinə nümunədir(10).

Bölmənin sonunda "Ümumiləşdirici tapşırıqlar" başlığı altında bir sıra sual və tapşırıqlar toplusu verilir. Ümumiləşdirici tapşırıqlarda Azərbaycan coğrafiyasına aid konkret suallar yer alır. Məsələn, yuxarıda bəhs etdiyimiz "Hava şəraiti" bölməsinin ümumiləşdirici tapşırıqlarından biri belədir: *"Azərbaycanda temperatur və yağıntı necə paylanır?"* – şagirdlər artıq hava hadisələrinin ümumi mexanizmini öyrəndikdən sonra onu öz ölkələri kontekstində tətbiq etməlidirlər. Digər bir tapşırıq *"Küləklər şəhəri"* adlanır – burada Bakı şəhərinin külәkləri (xəzri və

gilavar) fenomeni barədə mətn verilib, şagirdlərdən bunun coğrafi izahını vermələri tələb olunur. Göründüyü kimi, dərslik 5E modelinin dördüncü mərhələsində şagirdlərin qlobal anlayışları lokal şəraitə tətbiq etməsinə xüsusi önəm verir. Bu, Azərbaycan coğrafiyasının tədrisində milli kontekstin nəzərə alınmasını təmin etməklə bərabər, şagirdlərin nəzəri biliyi real örnəklərlə bağlama bacarığını formalaşdırır.

Sonuncu bölmə "Dəyərləndirmə" hissəsi ilə tamamlanır. Burada şagirdlərin əldə etdikləri bilik və bacarıqları yoxlamağa yönəlmiş tapşırıqlar, test sualları verilir. Məsələn, VII sinif dərsliyində "Hava şəraiti" bölməsinin sonunda qiymətləndirmə sualları iki hissədən ibarətdir: birinci hissə qapalı suallar (test), ikinci hissə açıq suallar. Qiymətləndirmə suallarından biri: *"Hava məlumatlarını haradan əldə edirik?"* kimi, şagirdlərin gündəlik həyatda öyrəndiklərini tətbiq etməsini də yoxlayır. Beləliklə, dərslik strukturu tam şəkildə 5E modelinin mərhələlərini əhatə edir: bölmənin əvvəlində motivasiya, alt-mövzularla izahat, ümumiləşdirici tapşırıqlarla dərinləşdirmə və sonda dəyərləndirmə(10).

Bu 5 dərs saatı birlikdə bir 5E dövrü kimi planlaşdırıla bilər:

1-ci dərs	**Engage**	***"İqlim necə yaranır?"* mövzusuna motivasiya. Müəllim qlobal miqyasda ekstremal iqlim hadisələrindən nümunələr göstərir (məs., quraqlıq və daşqın xəbərləri) və suallar verir. Şagirdlər müzakirə edirlər. (Dərslikdə "Məkanda iqlim" alt-mövzusu belə bir motivasiya ilə başlayır).**
2-ci dərs	Explore	Şagirdlər qruplarda müxtəlif coğrafi enliklər üçün iqlim məlumatlarını araşdırırlar. Məsələn, müxtəlif şəhərlərin iqlim diaqramları paylanır, şagirdlər bunları təhlil edib ümumi qanunauyğunluqlar tapırlar (ekvatora yaxın daim isti, qütblərdə soyuq, musson iqlimində fərqlər və s.). Müəllim istiqamətləndirir, lakin nəticələri şagirdlər çıxarır
3-cü dərs	Explain	Müəllim iqlimi formalaşdıran amilləri sistemli izah edir: enlik, dəniz səthindən hündürlük, okean axınları və s. Şagirdlərdən öz araşdırmalarındakı nümunələrlə bu amilləri əlaqələndirmələri tələb olunur. Nəticədə anlayışlar (iqlim qurşaqları, iqlim tipləri) formal şəkildə mənimsədilir.
4-cü dərs	Elaborate	Şagirdlər *"Azərbaycanda iqlim necədir?"* sualı üzərində işləyirlər. Qruplara Azərbaycanın müxtəlif bölgələrinin (Quba, Bakı, Lənkəran, Naxçıvan, Dağlıq Qarabağ və s.) iqlim məlumatları verilir. Hər qrup "öz bölgəsinin" iqlimini təsvir edir, daha sonra nəticələrini müqayisə edirlər: nə üçün Lənkəranda çox yağıntı düşür, amma Naxçıvanda az? Bu suallara cavab verərkən əvvəlki dərsdə öyrənilən amilləri tətbiq edirlər. Müəllim əlavə dərinləşdirici məlumat verir (məs., "dənizdən zirvəyə iqlim" konsepti – Xəzər sahilindən Böyük Qafqazın zirvəsinə doğru iqlim dəyişir).
5-ci dərs	Evaluate	Bu bölməyə dair əldə olunan biliklər qiymətləndirilir. Test sualları, xəritə üzərində tapşırıqlar, layihə təqdimatı ola bilər. Məsələn, qruplar poster hazırlayır: "İqlim dəyişmələrinin kənd təsərrüfatına təsiri" mövzusunda. Müəllim rubrikalarla qiymətləndirir və şagirdlərə əks əlaqə verir.

Cədvəl 2. VII sinif Coğrafiya dərsliyindən "İqlim" bölməsinin 5E modeli üzrə tədris strukturu

Bu model göstərir ki, Azərbaycan kurikulumu çərçivəsində 5E modelini bölmə səviyyəsində tətbiq etməklə fənn üzrə məzmun tam mənimsədilə və eyni zamanda tədqiqat bacarıqları inkişaf etdirilə bilər. Bu yanaşmanın üstünlükləri ondan ibarətdir ki, 5E-nin hər mərhələsi üçün kifayət qədər vaxt ayrılır, şagirdlər tələsmədən həm qlobal, həm də yerli nümunələri öyrənirlər. Əgər 5E modeli hər dərs üzrə ayrıca tətbiq olunsaydı, bəzən dərinləşdirməyə və ya qiymətləndirməyə vaxt çatmaya bilərdi; lakin bölmə miqyasında tətbiq zamanı zamanın daha səmərəli paylaşdırılması mümkündür. Digər tərəfdən, müəllim bütün bölməni vahid ssenari kimi planlaşdırmalı olduğu üçün məsuliyyət artır – bu da müəllimdən yüksək metodik bacarıq tələb edir. Buna görə, müəllifin təklif etdiyi bu modelin reallaşdırılması üçün müəllimlərin qabaqcıl təlimlərə cəlb olunması və onlara nümunəvi bölmə planları təqdim edilməsi vacibdir.

Yeni dərslik komplektlərinə daxil olan müəllim üçün metodik vəsaitlər də 5E modelinin tətbiqinə dair metodik göstərişlər təqdim edir. Məsələn, VI sinif coğrafiya metodik vəsaitində hər bir mövzu üzrə "Dərsə başlayarkən", "Tədqiqat sualları", "Təcrübə və müşahidələr"

və “Nəticə və təqdimetmə” bölmələri vardır. Bu bölmələr faktiki olaraq 5E-nin mərhələlərinə uyğundur. Vəsaitdə tövsiyə olunur ki, coğrafiya dərslərində müəllim əvvəlcə şagirdlərin maraq yaratsın, sonra onlara öz araşdırmalarını aparmaq imkanı versin, daha sonra birlikdə nəticələri müzakirə edib doğru elmi nəticələri formalaşdırsın və sonda öyrənilənləri gündəlik həyatdan nümunələrlə möhkəmləndirsin. Qeyd olunur ki, coğrafiya dərslərində əyani vəsaitlərin (xəritə, model, foto, video) istifadəsi 5E modelinin səmərəsini daha da artırır, çünki şagirdlərin dərketmə səviyyəsini zənginləşdirir. Misal üçün, şagirdlər “Google Earth” proqramında virtual ekskursiya edərək müxtəlif koordinat nöqtələrini incələyə bilərlər – Finlandiyada VR texnologiyası ilə aparılan oxşar təcrübə şagirdlərin böyük marağına səbəb olmuşdur. Bu yanaşma yuxarıda təqdim olunan “İqlim” mövzusu üzrə 5E modelinə də tətbiq oluna bilər; xüsusən dərinləşdirmə mərhələsində Azərbaycanın müxtəlif iqlim zonalarının xəritə üzərindən müqayisəli təhlili üçün rəqəmsal resurslardan istifadə şagirdlərin məkan təsəvvürlərini daha da gücləndirir.

Tədqiqatın nəticələri göstərir ki, 5E təlim modeli Azərbaycan coğrafiyasının VI və VII siniflər üzrə tədris məzmunu ilə yüksək səviyyədə uzlaşır və kurikulumun tədqiqat yönümlü fəlsəfəsini effektiv şəkildə reallaşdırır. Dərslik materiallarının analizi göstərir ki, mövzuların giriş hissəsində motivasiyanın yaradılması, xəritə və vizual resurslarla müşahidənin təşkili, anlayışların sistemli izahı və tətbiqyönlü situasiyaların təqdim olunması 5E modelinin mərhələlərini ardıcıllıqla dəstəkləyir. Modelin tətbiqi şagirdlərdə coğrafi təfəkkürün formalaşmasını, məkan və səbəb-nəticə əlaqələrinin dərk olunmasını, eləcə də faktlara əsaslanan qərarvermə və analitik düşünmə bacarıqlarının inkişafını təmin edir. Araşdırma göstərir ki, 5E yanaşması biliklərin sadəcə mənimsənilməsi ilə kifayətlənməyib, onların real coğrafi şəraitə tətbiqi və şagirdin tədqiqatçı mövqeyinin gücləndirilməsi baxımından da üstün metodoloji çərçivədir. Ümumilikdə, modelin Azərbaycan coğrafiyasının tədrisində geniş tətbiqi fənnin metodik səviyyəsini yüksəltməklə yanaşı, kurikulumun gözlənilən nəticələrinə daha effektiv nail olunmasına şərait yaradır.

Problemin aktuallığı. Müasir təhsil sistemində tədqiqatyönlü və şagird-mərkəzli təlimin önə çıxması 5E modelinin coğrafiya dərslərinə inteqrasiyasını aktuallaşdırmışdır. Bu modelin Azərbaycan coğrafiyası mövzularında tətbiqi şagirdlərin coğrafi təfəkkür və analitik bacarıqlarının inkişafı baxımından əhəmiyyətlidir.

Problemin yeniliyi. Tədqiqatda ilk dəfə 5E modelinin Azərbaycan coğrafiyasının VI–VII sinif dərsliklərinin məzmunu ilə uyğunluğu sistemli şəkildə təhlil edilmişdir. Modelin mərhələlərinin konkret mövzular üzrə tətbiqi yeni elmi-metodik yanaşma kimi təqdim olunur.

Problemin praktik əhəmiyyəti. Nəticələr müəllimlər üçün coğrafiya dərslərində 5E modelinin səmərəli tətbiqi, dərs planlaşdırması və qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi baxımından praktik tövsiyələr verir.

Ədəbiyyat

1. Abbasov, Ə. Coğrafiyanın tədrisinin elmi-metodik əsasları. – Bakı: Təhsil, –2010. – 192 s.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Ümumi təhsil pilləsi üzrə Coğrafiya fənn kurikulumu (yenilənmiş). – Bakı: ARTİ, –2022. – 44 s.
3. Bybee, R. W. The BSCS 5E Instructional Model: Creating Teachable Moments. – Arlington (VA): NSTA Press, –2014. – 44 s.
4. Bybee, R. W., Taylor, J., Gardner, A., Van Scotter, P., Westbrook, A., & Landes, N. The BSCS 5E Instructional Model: Origins, Effectiveness and Applications. – Colorado Springs: BSCS, –2006. – 52 s.
5. Duran, L. The 5E Instructional Model: A Learning Cycle Approach for Inquiry-Based Science Teaching. – Science Education Review, 2004, 3 (2), –s. 49–58.
6. Ergin, İ., Kanlı, U., & Tan, M. 5E modelinin tətbiqi və tədqiqat yönümlü öyrənmə. – Gazi Üniversitesi Eğitim Fakültesi Dergisi, 2007, 27 (2), s. 47–64.
7. Seyfullayeva, N. Coğrafiya tədrisində tədqiqatyönlü öyrənmə modelləri və onların tətbiqi. – Azərbaycan Coğrafiya Cəmiyyəti Xəbərləri, 2021, 2 (1), –s. 55–63.
8. Ələkbərov, F., Seyfullayeva, N., Şabanova, Y. Coğrafiya 6 (I hissə). – Bakı: Təhsil, –2023. – 84 s.
9. Ələkbərov, F., Seyfullayeva, N., Şabanova, Y. Coğrafiya 6 (II hissə). – Bakı: Təhsil, –2024. – 76 s.
10. Ələkbərov, F., Hüseynli, Ş., Qasımova, Ü. Coğrafiya 7 (I hissə). – Bakı: Təhsil, –2023. – 84 s.
11. Ələkbərov, F., Hüseynli, Ş., Qasımova, Ü. Coğrafiya 7 (II hissə). – Bakı: Təhsil, –2024. – 80 s.

Redaksiyaya daxil olub: 25.12.202

BİOLOGİYANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING BIOLOGY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

UOT 372.857

Qəzənfər Musa oğlu Əliyev
Azərbaycan Respublikasının Genetik Ehtiyatlar İnstitutunun
aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-4038-5967
E-mail: aliyevq.@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).104-107

BİOLOGİYANIN TƏDRİSİNDƏ KOSMOS–YER ƏLAQƏLƏRİNİN BİOSFERƏ TƏSİRİ VƏ EKOLOJİ NƏTİCƏLƏRİ HAQQINDA

Gazanfar Musa Aliyev
leading researcher at the Institute de Genetic of the Republic of Azerbaijan
doctor of philosophy in biology

ON THE IMPACT OF SPACE-EARTH RELATIONS ON THE BIOSPHERE AND THE ECOLOGICAL CONSEQUENCES IN THE TEACHING OF BIOLOGY

Газанфар Муса оглы Алиев
ведущий научный сотрудник
Института Генетических Запасов Азербайджанской Республики,
доктор философии по биологии

О ВЛИЯНИИ СВЯЗЕЙ КОСМОСА И ЗЕМЛИ НА БИОСФЕРУ И ЭКОЛОГИЧЕСКИХ ПОСЛЕДСТВИЯХ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

Xülasə. Günəş fəallığının uzun və ya qısa müddətli fəallığı ilə əlaqədar aparılan tədqiqatlar çox qiymətli nəticələrə dair müşahidələrin istifadəsi üçün geniş məlumatlar vermişdir.
Açar sözlər: *ekologiya, kosmos, yer, biosfer, Günəş*

Abstract. Studies of long-term and short-term solar activity have yielded extensive observational data with highly valuable results.
Keywords: *ecology, space, Earth, Sun*

Аннотация. Исследования, проведенные в связи с долгосрочной и краткосрочной активностью Солнца, дали обширную информацию для использования наблюдений с весьма ценными результатами.
Ключевые слова: *экология, космос, Земля, Солнце*

Biosferlə bağlı geokimyəvi, geofiziki, paleocoğrafi kosmoplanetar və s. tədqiqatlar biosferə dair nəinki müxtəlif sferalararası əlaqələri, eyni zamanda biosferin kosmik və planetar təsirlərinə dair qiymətli məlumatlar verir. Biosferin canlı və cansız aləminin hərəkəti, makro və mikro elementlərin böyük və kiçik dövranının Günəş fəallığı ilə əlaqəli olması haqqındakı tədqiqatlar mühüm əhəmiyyət kəsb edir.

Günəş fəallığının uzun və çox qısa müddətli fəallığı ilə əlaqədar aparılan tədqiqatlar çox qiymətli nəticələr verir. Günəş fəallığının Yerə təsiri atmosferin tərkibindən, Yer kürəsinin en və uzunluq dairəsindən, landşaft tiplərindən və s. asılı olaraq fəallığın yerli fərqləri yaranır. Günəş fəallığı nəticəsində kosmosdan Yerə istiqamətlənən elektron-hidrogen plazma axını bir çox halda 20-27 sutkadan bir neçə aya qədər davam edir.

Həmin proseslə əlaqədar nəinki səmada, hətta biosferdə böyük gərginlik yaranır. Nəzərə almaq lazımdır ki, həmin prosesdə və eləcə də, Günəş küləyinin təsiri ilə yerli mühitdən asılı olaraq canlı aləmə olan təsir zəif, optimal və güclü olur. Eyni zamanda radioaktiv və qısa dalğalar, ultra və rentgen şüalanmaları güclənir. Bir çox halda Günəş fəallığının daha aktiv istiqamətlənən vilayətlərində qamma şüalanmalarının axını çox güclü olur. Bir-iki sutka ərzində Yerdə güclü maqnit sahəsi yaranır. Heliobioloqların tədqiqatlarına əsasən demək olar ki, göstərilən proseslər canlı aləmin həyat tərzinə, populyasiyasına, davranışına, toxumalarına, orqanizmlərin biokimyəvi xassələrinə və s.-yə təsir göstərir.

Qeyd etmək lazımdır ki, Günəş fəallığının canlılara təsirinin sinxron dəyişikliklərinin tədqiqi çox mühüm elmi və həyati əhəmiyyət kəsb etməkdədir. Həmin prosesin insanlara və bütünlüklə cəmiyyətə təsirinə dair tədqiqatlar aparılmasına ehtiyac böyükdür.

Günəş fəallığının biosferə təsirinin qiymətləndirilməsi bioloji ekologiyada da strateji məsələdir. Bu sahədə mikroelementlərin geokimyəvi xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. V.İ.Vernadski tərəfindən biosferlə göstərilən proseslərin kəmiyyət və keyfiyyət göstəricilərinin ərazi fərqlərinin qiymətləndirilməsi, yəni günəş-biosfer vahidinin (GBV) ayrılması nəinki keçən əsrin, eyni zamanda müasir dövrün ən mühüm elmi nailiyyəti hesab etmək olar. Hər bir GBV-in çay axınlarına, oroqrafik sistemlərə tətbiq edilməsi aşağıdakı yarım sistemlər üzrə çox mürəkkəb axınları qiymətləndirmək mümkün olur. Həmin metodoloji yanaşma Sibir çaylarına tətbiq edilməklə aşağıdakı proseslər müşahidə edilmişdir: 1) Giriş-ehtiyatlarının daxil edilməsi; 2) Çay yatağı və qollarının kanallarla birlikdə kimyəvi maddələrinin ərazilərə, dəryaçalara axıdılması; 3) Çayların gətirdiyi materialların şelfzonasına axıdılması, oradan dənizə və okeana ötürülməsi. Həmin prosesdə daxili və xarici su hövzələrinə 5, 11, 22-23 illik dövriyyələr zamanı müxtəlif miqdar kimyəvi birləşmələr və mikroelementlərin axıdılmasını və proqnozlaşdırılmasını müəyyən etmək mümkün olur.

GBV-i ilə geokimyəvi və geofiziki proseslərin qiymətləndirilməsində coğrafi informasiya sistemlərinin yaradılmasının böyük əhəmiyyəti vardır. Həmin sahəyə dair təhlillər aparılmasında relyefin forması və morfometrik xüsusiyyətləri, landşaftın tipləri, iqlim və s. mühüm yer tutur. Göstərilənlərlə yanaşı antropogen proseslər, antropogen təsirlərin tipləri, ən başlıcası böyük şəhərlər, sənaye kompleksləri, nəqliyyat əlaqələri güclü təsir göstərir. GBV-də coğrafi qanunların və qanunauyğunluqların nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə GBV-də elektromaqnit sahəsinin, onunla əlaqədar insanlarda, heyvanlarda, bitkilərdə fizioloji dəyişikliklərin nəzərə alınması dövrümüzün ən aktual sahələrindəndir.

Günəş aktivliyinin, onun əhatə dairəsinin nəzərə alınması insanın ətraf mühitinin keyfiyyətinin, struktur xüsusiyyətlərinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir. GBV-i ilə ətraf mühitin qiymətləndirilməsi ekoloji tədqiqatların aparılmasında, ətraf mühitin mühafizəsi və bərpasında əhəmiyyəti böyükdür. Həmin tədbirlərin həyata keçirilməsi insanın mühitinin optimallaşdırılmasında və səhhətinin yaxşılaşdırılmasında mühüm məlumatlar verir.

Bir sıra alimlər Novikova, Byakov, Mixeyev və b. geomaqnit sahəsinin yaranmasının insan səhhətinə və fəaliyyətinə təsiri haqqında maraqlı nəticələr əldə etmişlər. Onların aldığı məlumatlara görə ətraf mühitin təsiri ilə insanlarda bir çox patoloji dəyişikliklər yaranır. Məsələn, istilikvurma, geomaqnit təsirlər, energetik metobalizm, bioloji aktiv maddələr və s. nəticəsində insanların ürək-damar fəaliyyəti pozulur. Göstərilən məsələlərin bəziləri ətrafında hələ keçən əsrin əvvəllərində tibbi coğrafiyaçıların da qiymətli ideyaları olmuşdur.

Ətraf mühit amillərinin (iqlim, geokimyəvi, geofiziki və s.) təsiri nəticəsində insanlarda və bütünlüklə cəmiyyətdə baş verən dəyişiklikləri öyrənməklə yanaşı, kosmik proseslər nəticəsində insanlarda baş verəcək bir çox xəstəlikləri, psixoloji proqnozlaşdırmaq mümkündür.

Günəş fəallığının artması və EMS-in Yer kürəsi ətrafında və Yer qabığında müəyyən gərginliklər yaratması da müşahidə edilmişdir. Bir çox halda EMS-i ilə Yer qabığında mineralların parçalanması ilə atmosferin dielektrik sahəsində aeroionlar yaranır. Havanın sinoptik şəraitindən asılı olaraq aeroionlar tək və kompleks atomlara malik olan qaz halına çevrilir, müsbət və mənfi yüklər yaradırlar.

Atmosferdə hündürlükdən inqradientlərin mürəkkəbliyindən, elektromaqnit sahəsinin əha-

tə dairəsindən və hərəkətindən asılı olaraq aeroionlar kiçik, orta və böyük olurlar.

Müşahidələr göstərir ki, bir çox böyük sənaye şəhərlərinin dağ-mədən sənayesinin yayıldığı ərazilərdə böyük aeroionların həcmi 50 min sm^2 olur. İndiyə qədər aparılan müşahidələrin nəticəsi göstərir ki, Günəş aktivliyi baş verən vaxtlarda aeroionlar EMS-də gərginliyi artırır.

Aeroionların orqanizmlərə təsiri müxtəlif şəraitlərdən asılı olaraq müsbət və mənfi ola bilir. Bunlar küləklərin istiqamətindən, davamiyyət müddətindən, keçdiyi ərazilərdən asılıdır. Deyilən prosesləri güclü (s. 4) və sinoptik təhlillər vasitəsilə səciyyələndirmək mümkün olur. **V.P.** Kaznaceyev (s. 4) göstərir ki, Alpin fion külәkləri çox zaman müsbət yüklü aeroionlardan ibarətdir. Həmin küləklər əsən zaman ərazidə yaşayan əhalinin ürək-damar xəstəlikləri artır. Miqren, astma xəstəlikləri olanların səhhəti ağırlaşır. Aeroionların artması ilə atmosferdə oksigenin miqdarı azalır, ionlaşma sürətlənir. Beləliklə, ekoloji gərginliklər artdıqca insanların qanında pH artır, qan təzyiqi aşağı düşür, bəzən şok vəziyyət yaranır.

Günəş fəallığı nəticəsində elektromaqnit mühitinin yaranması bioloji proseslərə və eləcə də insan orqanizminin toxumalarına müxtəlif dərəcədə təsir göstərir. Həmin prosesin öyrənilməsi sahəsində ümumi biologiyada və insan orqanizmlərinə təsirin öyrənilməsi fundamental mahiyyət kəsb edir. Göstərilənlərlə əlaqədar hüceyrələrin patoloji effektinin müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. Müşahidələr nəticəsində müəyyən etmişlər ki, əlverişli iqlim şəraitində hüceyrələrin potoloji effekti 90-100% olmuşdur. Əksinə Günəşin tutulması və "planetlərin paradı" zamanı hüceyrələrin inkişafı zəiflə-yir, bəzən də məhv olur.

Ümumiyyətlə, elektromaqnit dalğalarının öyrənilməsi və onların proqnozlaşdırılması insanların ətraf mühitlə əlaqəsinin nizamlanmasında, epidemiyalara qarşı profilaktik tədbirlərin həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır. Nəzərə almaq lazımdır ki, Günəş fəallığı ilə əlaqədar elektromaqnit sahəsinin davamiyyəti, gücü coğrafi en dairələrindən asılı olaraq müxtəlif olur. Kaznaçeyevin məlumatlarına görə, Norilsk və Novosibirskdə aparılan müşahidələr maraqlı olmuşdur. Müəyyən edilmişdir ki, Günəş fəallığı ilə əlaqədar 67-ci sm. en dairəsində elektromaqnit sahəsi mürəkkəbliyi ilə fərqlənmişdir. Elektromaqnit gərginlik polyar gecədən polyar gündüzə keçən dövrdə müşahidə edilmişdir. Həmin proses ilk növbədə canlıların toxumlarının dəyişməsində də özünü büruzə vermişdir.

Coğrafi dairələrindən asılı olaraq toxumların becərilərkən elektromaqnit təsirləri müxtəlif dərəcədə fərqlənir. Müşahidə edilmişdir ki, Norilskdə hüceyrələrin becərilməsində məhsuldarlıq 2 dəfə yüksək olur, nəinki Novosibirskidə. Beləliklə hüceyrələrin bölünmə fəallığı intensivləşir və zirvəyə çatır. Həmin proses 2 sutka ərzində üç dəfə sürətlə artır, 6-cı sutkada ölür.

Novosibirskidə hüceyrələrin təbəqəli artması 9-11 sutkada yəni Norilskdən gec başa gəlir. Maraqlıdır ki, Norilskdə məhv olma (ölüm) qısa müddətdə olur. Norilskdə hüceyrələrin məhv edilməsi üçün 5 mkq civəli birləşmə (seqlema) lazım gəlirsə, Novosibirskidə 3 mkq civəli birləşmə lazım gəlir. Deməli Norilskdə hüceyrələrin dözümlüyü yüksəkdir.

Günəş-yer əlaqələrində canlı və cansız maddələrin biosferdə öyrənilməsi üçün Günəş-biosfer vahidlərini müxtəlif rayonlarda ayırmaq lazım gəlir.

Yuxarıda göstərilənlərlə əlaqədar bir çox regionlarda xüsusilə Qafqazda və eləcə də Azərbaycanda müşahidələr aparmaq mümkün olarsa, ekoloji şəraitin, canlıların və eləcə də insanların artımını və məhsuldar qüvvələrin inkişafını nizamlamaq sahəsində müvafiq tədbirlər həyata keçirmək mümkün olar. İndiyə qədər belə tədqiqatlar polyar zonasında, heliogeofiziki tədqiqatlar aparmaq bioloji, psixofizioloji, ekoloji və s. məlumatlar əldə edilmişdir. Nəticədə metobolik ümumiləşdirmə aparılmışdır və bunlar şimal diyarı üçün mühüm əhəmiyyət kəsb edir. Deyilənlər Şimal en dairələri üçün orqanizmlərdə enerji və maddələr mübadiləsinin, eləcə də zülalların, mikroelementlərin yayılmasını və yerli şəraitə uyğunlaşmasının müəyyən edilməsi sahəsində mühüm yer tutur.

Kaznaçeyevin fikrincə, kompleks ekoloji amillər, xüsusilə iqlim, elektromaqnit sahəsi, əmək məişət şəraiti və s. insanlarda bioritmlərin fəaliyyətinə, psixoemosional dəyişikliklərin yaranmasına təsir göstərir.

Göstərilən ideyanın müəllifi ilə razılaşmaq olar ki, kosmik-planetar proseslərin canlı maddəyə və eləcə də insanlara təsiri məsələsi təbiətşunaslığın əsaslarını təşkil edir.

Müasir dövrün tədqiqatlarına əsaslanaraq demək olar ki, geoloji proseslər əsasında bioloji

aləmin formalaşması və həmin proseslərin noosferanın inkişafına zəmin yaratması haqqındakı biliklər təbiətşünaslığınəsasını təşkil edir.

Yer kürəsində həyatın yaranması, təkamülləşməsi və gələcəkdə ətraf mühitdə gedən proseslərin qanunauyğunluğunu müəyyən etmək üçün nəinki Yer kürəsinin bütünlüklə kosmoplanetar sisteminin keçmişini, eyni zamanda inkişaf mərhələlərini nəzərə almaq lazım gəlir.

Vernadski yazır ki, elm irəliyə doğru getməklə nəinki yenilik açır, eyni zamanda köhnəni, aradan gedənləri qiymətləndirir. Deyilənlərlə əlaqədar alimlər planetlərin geoloji birliyin tarixi inkişafına və təkamülləşdirilməsinə xüsusi əhəmiyyət verməyə başlamışlar. Deyilənlər bütünlüklə təbitşünaslığı əhatə etməklə yanaşı, sosial-iqtisadi amillərlə və nəticə etibarilə noosferanın təkamülləşməsi və ziddiyyətli problemlərin yaranması ilə əlaqədardır. Lakin bu sahədə çox az iş görülmüşdür. Ona görə də müasir dövrdə kataklizmlərlə əlaqədar bir çox proseslərin səbəbləri kifayət dərəcədə açılmır.

Bir çox qlobal və eləcə də ekocoğrafi problemlərin öyrənilməsində ən mühüm məsələlərdən biri odur ki, kosmoplanetar tədqiqatların tədqiqində çox böyük çatışmazlıq vardır. Mühüm çatışmazlıq ondan ibarətdir ki, geokimyəvi, geofiziki proseslərin, mikroskopik qlobal təhlillər aparılmır. Kaznaçeyevin fikri ilə razılaşmaq olar ki, atomlardan ibarət mikroaləmin öyrənilməsi canlı aləmin biosferdə yerinin qiymətləndirilməsində mühüm yer tuta bilər.

Kosmik aləmdə planetlərarası əlaqələrin qarşılıqlı təsiri ilə bağlı proseslərə aşağıdakıları da aid etmək olar: birincisi, planetlər və səma cisimlərinin müxtəlif məkan və zaman şəraitində olduqlarından onlar arasındakı qarşılıqlı əlaqə və təsirlərin qiymətləndirilməsini; ikincisi, canlı orqanizmlərin, xüsusilə insanların cansız təbiətin məhsulu kimi qiymətləndirilməsini.

Yer planetinin başqa cisimləri ilə əlaqəsi və biosferə təsiri barədə fizika, astronomiya, kosmologiya və digər elm sahələrinin məlumatları hələlik kifayətləndirici deyildir. Canlı və cansız təbiətin qarşılıqlı əlaqələri və təsirləri ilə bağlı tədqiqatları aşağıdakı istiqamətlərə yönəltməklə yaxşı nəticələr əldə etmək olar. Atom hissəciklərindən ibarət birləşmələrin təsir dairəsi ilə bağlı dəyişikliklər, biosfer – planet, biosfer – noosfer, planet – kosmos əlaqələri və s. kimi ekoloji proseslərin müxtəlif səviyyələrini əhatə edir. Deyilənlərlə əlaqədar biosferdə və kosmik aləmdə davam edən prosesləri misal gətirmək olar. Məsələn, canlı avtotrof maddələrlə qidalanan canlı heteretrof maddələr çevrilmələr nəticəsində yeni geoloji qüvvə yaradır. Həmin proses biosferdən kənar, cansız aləmdə də baş verir. Onlar atom hissəciklərinə qədər bölünərək yerdə biosferin tərkib hissəsinin formalaşmasında iştirak edirlər. Buna bənzər proseslər kosmik fəzada da baş verir. Atmosferdə və eləcə də troposferdə, stratosferdə gedən proseslər Yer və kosmos arasındakı əlaqələri daha əyani əks etdirir. Xüsusilə, troposferdə nəhəng buludlar hərəkət edərək toz halında olan orqanik maddələri, mikroorqanizmlər daşıyaraq bir çox halda maddə halında Yerin bir çox əyalətlərinə səpələyir. Buna oxşar proseslər biosferin yaranmasında və təkamülləşməsində də iştirak etmişdir. Yerdə gedən geokimyəvi, biokimyəvi proseslər nəticə etibarilə biosferin təkamülləşməsinə təsir göstərmişdir. Biosferin canlı və cansız aləmində gedən maddələr mübadiləsinin təkamülləşməsində elektromaqnit sahəsinin yaranmasını və onun təsirini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, bir çox tarixi mərhələlərdə maqnit sahəsinin modelləşdirilməsi ətraflı tədqiq edilməmişdir. Müasir dövrdə günəş fəallığı ilə əlaqədar maqnit sahəsinin biosferdə yayılmasını, eyni zamanda həmin prosesin insan orqanizminə təsirini öyrənmək mühüm əhəmiyyət kəsb edir.

Problemin aktuallığı. Müasir dövrün tədqiqatlarına əsaslanaraq demək olar ki, geoloji proseslər əsasında bioloji aləmin formalaşması və həmin proseslərin noosferanın inkişafına zəmin yaratması haqqındakı biliklər təbiətşünaslığın əsasını təşkil edir. Ona görə də "Kosmos – Yer əlaqələrinin biosferə təsiri və ekoloji nəticələri" mövzusuna dair biologiya fənninin tədrisində belə mövzuların keçirilməsi məqsədəuyğundur.

Problemin praktik əhəmiyyəti. Biologiya müəllimləri biosfer, kosmos və yer əlaqələrinin canlı maddənin yaranması və biosferin, kosmosun və yer qabığının funksiyasının öyrənilməsinin praktiki əhəmiyyəti kəsb edir.

Ədəbiyyat

1. Babayev, H. Ekologiya və müasir hidrosfer / H. Babayev. –Bakı: 2027. –492 s.

2. Əliyeva, R .Ekologiyanın əsasları / R. Əliyeva, Q. Mustafayev, S. Hacıyeva. –Bakı, 2006. –536 s.
3. Göyçaylı, Ş.Y. Ətraf mühitin mühafizəsi / Ş.Y. Göyçaylı, B.M. Əzizov. –Bakı, 2008. –278 s.

Redaksiyaya daxil olub: 03.12.2025

UOT 372. 857

Elnurə Fazil qızı Səfərova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
E-mail: seferovaelnure@mail.ru

Günel Əlimövsüm qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0001-6916-7955
https://doi.org/10.69682/arti.2026.93(1).108-110

BİOLOGİYA MÜƏLLİMİ HAZIRLIĞINDA STEAM METODOLOGİYASININ TƏTBİQİNİN KEYFİYYƏTƏ TƏSİRİ

Elnura Fazil Safarova,
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

Gunel Alimovsum Mammadova
teacher at Azerbaijan State Pedagogical University

THE IMPACT OF APPLYING STEAM METHODOLOGY ON THE QUALITY OF BIOLOGY TEACHER TRAINING

Эльнура Фазиль гызы Сафарова,
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

Гюнель Алимовсум гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ВЛИЯНИЕ ПРИМЕНЕНИЯ МЕТОДОЛОГИИ STEAM НА КАЧЕСТВО ПОДГОТОВКИ УЧИТЕЛЕЙ БИОЛОГИИ

Xülasə. Biologiya müəllim hazırlığında STEAM metodologiyasının tətbiqi həm pedaqoji innovasiyaların, həm də təhsil keyfiyyətinin yüksəldilməsi baxımından mühüm rol oynayır. Bu yanaşma tələbələrin fənlərarası inteqrasiyanı mənimsəməsinə, praktiki bacarıqlarını inkişaf etdirməsinə və yaradıcı düşüncə tərzini formalaşdırmasına şərait yaradır. Nəticədə pedaqoji təcrübənin keyfiyyəti yüksəlir, müəllim namizədləri isə müasir təhsil tələblərinə cavab verən peşəkar pedaqoqlar kimi yetişirlər. STEAM metodikasının tətbiqi şagirdlərin aktiv iştirakı və motivasiyası ilə müşahidə olunur. Şagirdlər daha həvəslə qrup fəaliyyətlərini həyata keçirirlər, dərslər daha interaktiv hala gəlir. Həmçinin, STEAM metodikasının tətbiqi şagirdlərin mənimsəməsinə də müsbət təsir göstərir. Lakin, bu metodikanın tətbiqi zamanı bəzi çətinliklər də yaranır. Bunlar əsasən, məktəblərdəki resurs və texniki imkanların məhdudluğudur ki, bu da metodikanın səmərəli şəkildə istifadəsinə mane olan amillərdən biridir.
Açar sözlər: *biologiya, STEAM, dərs, keyfiyyət, müəllim*

Abstract. The application of STEAM methodology in biology teacher training plays an important role both in fostering pedagogical innovations and in improving the quality of education. This approach enables students to

master interdisciplinary integration, develop practical skills, and cultivate creative thinking. As a result, the quality of pedagogical practice increases, and teacher candidates are trained as professional educators who meet modern educational requirements. The implementation of STEAM methodology is observed through active student participation and motivation. Learners engage more enthusiastically in group activities, and lessons become more interactive. Moreover, the use of STEAM methodology has a positive impact on students' comprehension. However, certain challenges arise during its application. These are mainly related to the limited resources and technical facilities in schools, which hinder the effective use of the methodology.

Key words: *Biology, STEAM, lesson, quality, teacher*

Аннотация. Применение методологии STEAM в подготовке учителей биологии играет важную роль как в развитии педагогических инноваций, так и в повышении качества образования. Этот подход способствует освоению учащимися межпредметной интеграции, развитию практических навыков и формированию творческого мышления. В результате качество педагогической практики повышается, а будущие учителя становятся профессиональными педагогами, отвечающими современным требованиям образования. Применение методики STEAM сопровождается активным участием и мотивацией учащихся. Школьники с большим энтузиазмом выполняют групповые задания, уроки становятся более интерактивными. Кроме того, использование методики STEAM положительно влияет на усвоение учебного материала. Однако при её применении возникают определённые трудности. Они связаны главным образом с ограниченными ресурсами и техническими возможностями школ, что является одним из факторов, препятствующих эффективному использованию данной методики.

Ключевые слова: *биология, STEAM, урок, качество, учитель*

Biologiya müəllimlərinin hazırlanmasında müasir pedaqoji yanaşmaların tətbiqi təhsil sisteminin keyfiyyət göstəricilərinə birbaşa təsir göstərir. Bu baxımdan STEAM me-todologiyasının biologiya ixtisası üzrə pedaqoji təcrübəyə inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. STEAM yanaşması elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın sintezini nəzərdə tutur və bu inteqrasiya biologiya fənninin tədrisində daha geniş dünyagörüş formalaşdırmağa imkan verir. Müəllim hazırlığında bu metodologiyanın tətbiqi tələbələrin yalnız nəzəri biliklər əldə etməsini deyil, həm də həmin bilikləri praktik mühitdə tətbiq etməsini təmin edir. Təcrübə prosesində STEAM yanaşmasının istifadəsi biologiya dərslərinin daha maraqlı, yaradıcı və interaktiv şəkildə keçirilməsinə şərait yaradır. Bu isə gələcək müəllimlərin pedaqoji bacarıqlarının inkişafına, onların dərs planlaşdırma və tədris prosesini təşkil etmə qabiliyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir. Biologia ixtisası üzrə pedaqoji təcrübədə STEAM metodologiyasının tətbiqi tələbələrin fənlərarası əlaqələri daha dərindən dərk etməsinə kömək edir.[6] Məsələn, biologiyada hüceyrə quruluşunun öyrənilməsi zamanı texnologiya vasitələri ilə mikroskopik müşahidələr aparmaq, mühəndislik yanaşması ilə laboratoriya eksperimentlərini dizayn etmək, incəsənət elementləri ilə vizual modellər hazırlamaq və riyazi hesablamalarla nəticələri təhlil etmək mümkündür. Bu cür inteqrasiya tələbələrin tədris prosesinə daha fəal qoşulmasına, analitik düşünmə və problem həll etmə bacarıqlarının inkişafına şərait yaradır.[3] Müəllim hazırlığında bu yanaşma onların gələcəkdə şagirdlərə yalnız bilik ötürən deyil, həm də onları araşdırma aparmağa, yaradıcı düşünməyə və praktiki nəticələr çıxarmağa yönəldən pedaqoqlar kimi yetişməsinə zəmin yaradır.

STEAM metodologiyasının tətbiqi pedaqoji təcrübənin keyfiyyət göstəricilərini yüksəldir. Ənənəvi tədris üsullarında müəllim namizədləri daha çox nəzəri biliklərə əsaslanır, lakin STEAM yanaşması onların təcrübə zamanı real problemləri həll etmə bacarıqlarını inkişaf etdirir. Bu isə pedaqoji keyfiyyətin əsas göstəricilərindən biri olan praktik hazırlığın güclənməsinə səbəb olur. Biologiya müəllimlərinin hazırlanmasında bu metodologiyanın tətbiqi onların dərs prosesində şagirdlərin maraqlarını nəzərə alma, müxtəlif fənlərarası əlaqələri qurma və müasir texnologiyalardan istifadə etmə bacarıqlarını artırır.[4] Nəticədə pedaqoji təcrübə daha məhsuldar olur və müəllim namizədləri öz peşəkar fəaliyyətlərinə daha hazırlıqlı şəkildə başlayırlar. STEAM yanaşmasının biologiya ixtisası üzrə pedaqoji təcrübəyə təsiri həm də motivasiya aspektində özünü göstərir. Müəllim namizədləri bu metodologiya vasitəsilə dərslərin monotonluqdan uzaq, daha dinamik və yaradıcı şəkildə təşkil olunduğunu müşahidə edirlər. Bu isə onların öz peşələrinə marağını artırır, tədris prosesinə daha məsuliyyətli yanaşmalarını təmin edir. [7] Təcrübə zamanı əldə

edilən bu motivasiya gələcəkdə onların şagirdlərə də ötürülür və nəticədə tədris mühitində daha yüksək keyfiyyət formalaşır.

"Energetik mübadilənin mexanizmi" mövzusunun STEAM metodologiyasının tətbiqi ilə 5E dərs modelində tədrisinə baxaq.

Sinif: 10

Altstandart: 2.1.1. Bioloji proseslərin mexanizmini şərh edir, məruzə və tədqiqatlar hazırlayır.

Mövzu: Energetik mübadilənin mexanizmi

1. Cəlbetmə (Engage). Şagirdlərə tanış situasiya əsasında suallar verilir: "Hansı meyvə və ya tərəvəz elektrik cərəyanını ən yaxşı keçirir və niyə?" Eksperimentin məqsədi və əhəmiyyəti izah olunur. İstifadə olunacaq materiallar göstərilir və qısa müzakirə aparılır.

2. Araşdırma (Explore). Şagirdlər qruplarla limon, portağal və kartof kimi meyvələrlə praktiki təcrübə aparırlar. Mis və sink elektrodları meyvələrə yerləşdirilir, LED lampaya qoşulur və müşahidələr qeydə alınır. Bu mərhələ şagirdlərə elektrokimyəvi enerjinin çevrilməsini kəşf etməyə imkan verir.

3. İzah etmə (Explain). Müşahidələrə əsaslanaraq, elektrokimya və redoks reaksiyaları izah olunur. Elektron axını, elektrolitlər və elektrod potensialı kimi anlayışlar aydınlaşdırılır. Limonun tərkibindəki turşuların enerji çevrilməsi və hüceyrə metabolizması ilə əlaqəsi vurğulanır.

4. Dərinləşdirmə (Elaborate). Şagirdlər əldə etdikləri bilikləri real tətbiqlərlə əlaqələndirir, məsələn, LED işıqlar və ekoloji cihazlar. Qrup müzakirələrində bu enerjinin praktik istifadəsi və nəticələri təhlil olunur.

5. Qiymətləndirmə (Evaluate). Şagirdlər öyrəndiklərini yazılı və ya şifahi təqdimatlar, konseptual xəritələr vasitəsilə nümayiş etdirirlər. Bu, mövzunun nə dərəcədə mənimsənildiyini göstərir.

Nəticə: STEAM metodikasının tətbiqi şagirdlərin mənimsəmə səviyyəsinə müsbət təsirinin göstəricisidir. Bu nəticə, STEAM metodologiyasının inteqrativ və praktik bacarıqların inkişafına şərait yaratması ilə izah oluna bilər. Beləliklə, əldə edilən nəticələr tədris keyfiyyətinin yüksəldilməsi məqsədilə STEAM metodunun daha geniş tətbiqinin zəruriliyini əsaslandırır. [9]

Problemin aktuallığı. Biologiya müəllim hazırlığında STEAM yanaşması şagirdlərin əldə etdikləri nəzəri bilikləri praktik tətbiq etməsinə imkan yaradır və onları real həyat problemlərini həll etməyə hazırlayır.

Problemin elmi yeniliyi. STEAM təhsilinin tətbiqinin ənənəvi üsullar ilə müqayisədə tədrisin keyfiyyətinə müsbət təsir göstərdiyi aydındır. Lakin, bu metodikanın tətbiqi zamanı yaranan çətinliklər effektivliyi azalda bilər. Buna görə də, mövcud olan problemlərə həll yollarının təklif edilməsi, bu metodun daha uğurlu tətbiqinə imkan yaradacaqdır.

Problemin praktik əhəmiyyəti və tətbiqi. STEAM yanaşması fənlərarası inteqrasiyanı təmin etməklə şagirdlərin yaradıcı və tənqidi düşünmə, problem həll etmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Biologiya müəllimləri mütəmadi olaraq bu yanaşmanı tətbiq etməli, dərslərin tədrisini praktik olaraq keyfiyyətini artırmalıdırlar.

Ədəbiyyat

1. Alışova, Z. Təbiət fənlərinin hibrid tədrisi və onlayn ünsiyyət. / Z. Alışova, G. Şıxməmmədova – Bakı, 2024. – 243 s.
2. Babayev, M.Ş. Biologiyanın tədrisi metodikası / M.Ş. Babayev, M.M. Məcidov. –Bakı, 2005. –184 s.
3. Bayramova, L.B. Kurikulum və pedaqogika: Ali məktəb tələbələri və müəllimlər üçün nəzərdə tutulmuş vəsait / L.B. Bayramova. –Bakı: Nurlar, –2020. –s.110-115.
4. Balaxanova Q.V. Məmmədova, G. Orta məktəblərdə ekosistemlər və ekoloji biliklərin formalaşdırılması // –Bakı: Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, -2025. 5(2), –s.125-128.
5. B.M. Tezeren. STEAM bütünleşik öğrenme modelinin çerçevesi ve yetenek gelişimi için önemi. / Tezeren B. M, S. Balım; K. Yürümezoğlu // BAUN Fen Bil.Enst.Dergisi, – İzmir, 2022. 24(2), – s. 857-868.
6. Cavadov, E.M. Steam interaktiv təhsil / Məmmədova R. –Bakı: Müəllim, –2024. –284 s.
7. Qarayeva S. "STEAM layihəsi şagirdlərdə müasir bacarıqların inkişafına təkan verir". – Bakı, 2021. –9s.
8. Hacıyeva, G.N. Biologiyanın tədrisi metodikası (dərslik) / G.N. Hacıyeva –Bakı: Müəllim, –2019. –380 s.
9. Hacıyeva, G.N. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər (dərs vəsaiti) / G.N. Hacıyeva, Səfərova E.F, Axundova S.M. –Bakı: Müəllim nəşriyyatı, –2020. –204 s.
10. Mahmudova K.F. Biologiyanın tədrisinə yeni baxış // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2017. № 3, –112-118 s.

Redaksiyaya daxil olub: 23.01.2026

UOT 372.857

Xoşqədəm Qonaq qızı İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5987-3346
E-mail:xosqedem.ibrahimova59@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).111-115

BİOLOGİYANIN TƏDRİSİNDƏ AÇIQ DƏRSLƏRİN TƏŞKİLİNİN ASPEKTLƏRİ

Khoshgadam Gonag Ibrahimova
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

ASPECTS OF ORGANIZING OPEN LESSONS IN TEACHING BIOLOGY

Хошгадам Гонаг гызы Ибрагимова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике,

АСПЕКТЫ ОРГАНИЗАЦИИ ОТКРЫТЫХ УРОКОВ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

Xülasə. Açıq dərs – müəllim tərəfindən təlim-tərbiyənin keyfiyyətcə yüksəldilməsinə, yeniliklərin tətbiq edilməsinə yönəlmis dərs nümunəsinin təqdim edilməsidir. Məqalə açıq dərslərin keçirilməsinin bütün aspektlərini – mövzu və forma seçimindən tutmuş, qeydlər aparmağa, təhlil və özünütəhlil etməyə qədər məsələləri əhatə edir. Müəllimin açıq dərsi düzgün tərtib etməsi, təşkili, yerinə yetirəçək tapşırıqları və nail ola biləcəyi nəticələr açıqlanır. Müxtəlif açıq dərs formaları və istifadə oluna biləcək tapşırıq növləri araşdırılmışdır. Həmçinin uğurlu açıq dərsi hazırlaşmağa kömək edəcək çoxlu faydalı məsləhət və tövsiyələr təqdim edilir.
Açar sözlər: *açıq dərs, aspekt, özünütəhlil, metod, texnologiya, müzakirə, dərs nümunəsi, innovativ, kurikulum*

Abstract. An open lesson is a teacher's presentation of a sample lesson aimed at improving the quality of education and introducing innovation. This article examines all aspects of conducting open lessons – from choosing a topic and format to note-taking, analysis, and self-reflection. It explains the teacher's approach to structure and organization, the tasks to be solved, and the results achieved. Various open lesson formats and the types of assignments that can be used are discussed. It also provides numerous helpful tips and recommendations to help prepare a successful open lesson.
Key words*: open lesson, aspect, self-analysis, method, technology, discussion, example lesson, innovative, curriculum*

Аннотация. Открытый урок – это презентация учителем образца урока, направленная на повышение качества образования и внедрение инноваций. В статье рассматриваются все аспекты проведения открытых уроков – от выбора темы и формы до конспектирования, анализа и самоанализа. Объясняются правильный подход учителя к построению, организации, решаемые задачи и достигаемые результаты. Рассматриваются различные формы открытых уроков и типы заданий, которые можно использовать. Также дается множество полезных советов и рекомендаций, которые помогут подготовить успешный открытый урок.
Ключевые слова: *открытый урок, аспект, самоанализ, метод, технология, обсуждение, образец урока, инновационный, курикулум*

Açıq dərs metodiki təcrübə mübadiləsi məqsədi ilə həmkarları, rəhbərlik və ya ekspertlərin iştirak etdiyi nümunəvi təlim məşğələsidir.

Açıq dərs zamanı müəllim öz innovativ təcrübəsini, metodik ideyanın həyata ke-çirilməsini, metodik texnikanın və ya təlim metodunun

tətbiqini həmkarlarına nümayiş etdirir. Bu yalnız dərsin struktur elementlərini deyil, həm də müəllimin pedaqoji yeniliklərini nümayiş etdirmək imkanı verir. Açıq dərsin səmərəliliyinin qiymətləndirilməsinin əsas meyarları müəllimin rəhbərliyi altında şagirdlərin peşə və ümumi səriştələrinin, bilik, bacarıq və təcrübənin inkişaf keyfiyyəti olmalıdır. Təhsil sistemində müxtəlif açıq dərs növlərindən istifadə olunur:

1. Məktəb metodbirləşməsi və ya fənn metodkomissiyaları üçün açıq dərs;

2. Gənc müəllimlər üçün açıq dərs (gənc müəllimlərin təlimi çərçivəsində klassik dərsin nümayişi);

3. Professor-müəllim heyəti üçün innovativ fəaliyyətə yiyələnmək bacarıqlarının nümayişi üçün açıq dərs;

4. İxtisas kateqoriyası üzrə attestasiya məqsədi ilə keçirilən açıq dərs; 5. Təhsil müəssisəsində və ya şəhər səviyyəsində "İlin müəllimi" müsabiqəsi üçün açıq dərs.

Açıq dərslərin tədrisi bir sıra tələblərin yerinə yetirilməsi ilə həyata keçirilir. Açıq dərs innovativ olmalıdır. Bu yenilik tədris materialının məzmunu və ya tədris metodları ilə bağlı ola bilər. Bununla belə, istənilən halda açıq dərsdə iştirakçılar üçün yenilik olmalıdır. Açıq dərs müəllimin üzərində işlədiyi metodik problemin həllini əks etdirir. Açıq dərs innovasiyanın üstünlüklərini (yüksək effektivliyini) nümayiş və sübut etdirməlidir. Buna görə də açıq dərsi təqdim edən müəllim məzmunu buna imkan verən mövzu seçir [3, s. 37, 54].

Açıq dərs keçirərkən tədris prosesi üçün bütün tələblər yerinə yetirilir. Dərs standart şəraitdə, ümumi qəbul olunmuş müddətlə həyata keçirilir. Açıq dərs şagirdlərin mövcud bilik, bacarıq və vərdişlərinə xələl gətirməməlidir. Şagirdlər mövzundan öyrənəcəkləri qədər bilik əldə etməlidirlər. Açıq dərs və məzmunu kurikuluma zidd olmamalıdır. Tədris materialının məzmunu yeni metodikanı nümayiş etdirmək üçün həddindən artıq genişləndirilməməlidir və kurikuluma daxil olmayan problemlərin öyrənilməsi yolverilməzdir. Mövzuların öyrənilməsi üçün ayrılan vaxtın artırılması da tövsiyə edilmir.

Açıq dərsin planlaşdırılması

Açıq dərslərin effektivliyi onların düzgün təşkilindən çox asılıdır. Açıq dərslərin mövzuları və dərs deyən müəllimlər məktəb metodbirləşməsi və fənn metodbirləşmələrinin iclasında müəyyənləşdirilib direktora təqdim edilməlidir.

Tədris ilinin sonunda fənn metodkomissiyasının və ya məktəb metodbirləşməsinin iclasında müəllimlərin qarşılıqlı dərs dinləmələri təhlil edilir və bunun əsasında təcrübədə özünü doğrultmuş və növbəti tədris ilində nümayiş etdirilə bilən maraqlı dərs nümunələri müəyyən edilir, təsdiq edilir və məktəbin elanlar lövhəsindən asılır. Onun bir surəti təhsil şöbəsinin metod mərkəzinə göndərilir ki, məktəbdəki açıq dərslərlə digər məktəblərin müəllimləri, əməkdaşları tanış olsunlar.

Açıq dərslər üçün plan hazırlanır və dərslərin hansı səviyyədə keçiriləcəyi müəyyən edilir. Açıq dərslər ümumi qəbul edilmiş tələblərə uyğun olaraq planlaşdırılır. Struktur olaraq açıq dərslərin adi dərslərdən heç bir fərqi yoxdur. Açıq dərslərin metodik məqsədi var, ona nail olmaq üçün tədris materialının məzmununun və şagirdlərin bilik, bacarıq, vərdişlərinin, idraki və praktiki tədqiqat fəaliyyətinin təşkilini rəhbər tutur [1, s.4].

Dərs növlərinin hər biri müəllim və şagird fəaliyyətlərinin xarakterindən və istifadə olunan bilik mənbələrindən asılı olaraq müxtəlif dərs növlərinə bölünür. Dərsin növü, müəllim və şagirdlərin qarşılıqlı əlaqəli fəaliyyətlərinin təşkili üçün əsas metod və dərsdə istifadə olunan əsas bilik mənbəyi ilə müəyyən edilir. Dərsin əsas metodiki məqsədini müəyyən etmək, onun nəyə yönələcəyini müəyyən etmək deməkdir (yeni materialın öyrənilməsi, mövcud materialın möhkəmləndirilməsi, təkrarlanması və sistemləşdirilməsi, şagirdin öyrənməsinin qiymətləndirilməsi və korreksiyası) [1, s.5].

Dərsin əsas metodiki məqsədinə əsasən aşağıdakı dərs növləri müəyyən edilə bilər:

Dərsin tipi	**Dərsin növü**	**Məqsədi**
Yeni biliklərin öyrədilməsi	mühazirə, ekskursiya, tədqiqat işi, praktiki dərs	yeni biliklərin öyrənilməsi və ilkin möhkəmləndirilməsi
Biliklərin möhkəmləndirilməsi	praktiki dərs, ekskursiya, laboratoriya işi, müsahibə, praktiki məşğələ	biliklərin tətbiqi bacarıqlarının inkişaf etdirilməsi.

Biliklərin inteqrasiya edilməsi	praktik dərs, laboratoriya işi, seminar	bilikləri kompleks şəkildə, yeni şəraitdə müstəqil tətbiq etmək bacarığını inkişaf etdirilməsi
Bilikləri ümumiləşdirilməsi və sistemləşdirilməsi	seminar, konfrans, dəyirmi masa və s.	bilikləri vahid bir sistemdə ümumiləşdirilməsi
Biliklərin monitorinqi və qiymətləndirilməsi	yoxlama işi, test, kollokvium, biliklərin nəzərdən keçirilməsi	bilik, bacarıq və vərdişlərə yiyələnmə səviyyəsini müəyyənləşdirilməsi

Açıq dərsin hazırlanması və təşkilinin əsas mərhələləri.

Müəllim materialın təhlilini nəzərə alaraq açıq dərs üçün mövzunu müstəqil şəkildə seçir ki, bu da onun işləyib hazırladığı yenilikləri, metod və texnikaları, həmçinin dərsin müxtəlif mərhələlərində şagirdlərin təlim fəaliyyətinin təşkilini nümayişini daha yaxşı həyata keçirsin.

Açıq dərsə hazırlaşarkən müəllim müasir informasiyalardan istifadə etməli, pedaqoji, elmi, texniki və metodiki ədəbiyyatdan materiallar seçməli, texniki və ya metodik sərgi nümunələrindən və qabaqcıl tədris müəssisələrinin təcrübəsindən, nəticələrindən istifadə etməlidir. Bütün bunlar dərsin maraqlı və məlumatlı olmasına kömək edir və şagirdlərə müasir nailiyyətlərdən xəbərdar olmağa imkan verir. Vizual vəsaitlər və audiovizual resurslar elə seçilməlidir ki, onların istifadəsi qarşıya qoyulan məqsədlərə nail olmaq üçün optimal şəkildə effektiv olsun. Həddindən artıq əyani vəsait şagirdlərin diqqətini yayındırır.

Açıq dərsin məqsədlərinin müəyyən edilməsi

Açıq dərsin məqsədinin formalaşdırılması mühüm addımdır. Dərsin məqsədi müəllim tərəfindən müəyyən edilmiş, dərsin sonunda müəllim və şagirdlər tərəfindən əldə edilməli olan əvvəlcədən müəyyən edilmiş nəticədir. Düzgün formalaşdırma iki addım tələb edir.

Addım 1: Hazırlıq açıq dərsin metodik məqsədinin formalaşdırılması ilə başlayır. Metodiki məqsəd dərsin keçirilməsinin əsas texnoloyasını əks etdirir. Bu, özünü təhlilə və dərsin təhlilinə daha konstruktiv və obyektiv yanaşmanı asanlaşdırmağa, seçilmiş metod, üsulların və təşkilati formaların uyğunluğunu qiymətləndirməyə kömək edəcəkdir.

Müəllim dərsin metodik məqsədinə uyğun olaraq onların təlim bacarıqlarının əsasını təşkil edən metod, üsul və vasitələri və tətbiq etdiyi texnologiyanı ən dolğun şəkildə üzə çıxaracaq tədris materiallarını seçir.

Addım 2: Üç əsas məqsədi formalaşdırmaq (Təhsil prosesi öyrədici, tərbiyəedici və inkişafetdirici xarakter daşıyır.):

Təlimverici məqsədi şagirdlərin peşə və ümumi səriştələrini, praktiki təcrübələrini, elmi biliklər sistemini və s. inkişaf etdirmək məqsədi daşıyır. O, verilmiş dərs mövzusu ilə bağlı dəqiqləşdirilməlidir.

İnkişafetdirici məqsədi dərs zamanı şagirdlərin idraki psixi proseslərini, bacarıqlarını, şəxsi keyfiyyətlərini (iradə, müstəqillik, məsuliyyət və s.) inkişaf etdirmək məqsədi daşıyır.

Tərbiyəedici məqsədləri şagirdlərin spesifik şəxsi keyfiyyətlərini və xarakterini inkişaf etdirmək məqsədi daşıyır. Həqiqətən inkişafetdirici öyrənmə inkişaf üçün zəruridir. Müəllim hər dərsdə şagirdlərində ən yaxşı keyfiyyətlərin formalaşmasına çalışmalıdır, ona görə də hər dərsdən əvvəl tərbiyə məqsədləri qoyulmalıdır [3, s. 88].

Açıq dərs üçün müəllim dərsin metodik təminatını müəyyən edən sənədlərin tam dəstini hazırlayır, bu sənədlərə aşağıdakı sənədlər daxildir (dərsin növündən və xarakterindən asılı olaraq əlavə oluna bilər): – təqvim-tematik plan; – dərsin planı(icmalı); – mühazirə qeydləri; – müxtəlif qiymətləndirmə növləri üçün materiallar toplusu; – didaktik və paylama materialları; – müstəqil iş üçün tapşırıqlar;– video materiallar toplusu; – sinifdənkənar müstəqil iş üçün tapşırıq və ya sual variantları [3, s. 37]. VII sinifdə "Sürünənlər sinfi" mövzusunun tədrisində quru mühitində həyatı ilə əlaqədar bədən formasında, xarici quruluşunda və daxili orqanlarındakı uyğunlaşmalara əsasən mətn təhlil olunur. Sürünənlərin quruluş xüsusiyyətlərində, həyat fəaliyyətindəki fərqlər müqayisəli təhlil edilir, fərqlərin səbəbləri araşdırılır, nəticələr çıxarılır.

VIII sinifdə "Bədənimizin dirəkləri" mövzusunun tədrisi zamanı müəllim maraqlı təcrübə (sümüyün tərkibindəki üzvi və qeyri-üzvi maddələr) aparır, sümüklərin kimyəvi tərkibi, onların xassələri və xüsusiyyətləri, növləri, insan skeleti haqqında bilikləri və bu biliklərin gündə-

lik həyatda necə tətbiq oluna biləcəyini nümayiş etdirə bilər. Eyni zamanda müxtəlif tapşırıqlarla mövzunu möhkəmləndirə və genişləndirə bilər [2, s. 45].

Açıq dərslərin mövzuları proqramın nisbətən çətin bölmələrindən seçilir ki, onun keçilməsi nümunəsində müəllimlərə müvafiq mesajlar verilsin. Müəllim nəzərdə tutulan açıq dərsin planını əvvəlcədən tərtib edir. Planda dərsin məntiqi quruluşu, didaktik prinsipləri, əsas anlayışları, o cümlədən aşılanacaq bacarıq və vərdişlərin həcmi özünün dəqiq, yığcam ifadəsini tapır. Müəllim plan əsasında dərsə ciddi hazırlaşır, dərs prosesində ən səmərəli vasitə və metodları bacarıqla tətbiq edir. Açıq dərsin təhlili:

Açıq dərsin müzakirəsi adətən onun keçirildiyi gün aparılır. Müzakirəni fənnin metodisti təşkil edir. Müzakirənin məqsədi dərsin məqsədinin qoyulmasının düzgünlüyünü, seçilmiş metod və vasitələrin məqsədəuyğunluğunu qiymətləndirmək, istifadə olunan fərdi metodik üsullara diqqəti yönəltməkdə müəllimə kömək etmək və verilən tapşırıqlar baxımından onların effektivliyini nəzərə almaqdır. Dərsin müzakirəsi zamanı dərsi aparan müəllimə verilən suallar konkret (texnika və iş üsulları, bu dərsin konkret hadisələri haqqında) olmalıdır və müzakirəni məqsəddən yayındırmamalıdır. Dərsin müzakirəsində iştirak edənlərin çıxışlarının açıq dərsi aparan müəllim, dəvət olunmuş müəllimlər olmaqla ardıcıllıqla çıxış etmələri tövsiyə olunur [4, s. 276].

İştirak edənlərin hamısının iştirakı ilə açıq dərsin təhlili mütləqdir. İlk söz müəllimə – dərsin müəllifinə verilir. O, dərsə öz qiymətini aydın şəkildə verməli, metod və vasitələrin seçilməsini, onların tətbiqinin keyfiyyətini əsaslandırmalı, təlim məşğələsinin keçirilməsi və seçilmiş materialın məzmunu barədə tənqidi şərhlər verməlidir. Müəllimin nitqi orada olanlara onun pedaqoji niyyətini, istifadə etdiyi metod və üsulların xüsusiyyətlərini, işinin əsasını təşkil edən aparıcı məqsədləri anlamağa kömək etməlidir. Müəllim xoş qarşılama atmosferi yaratmalı, şagirdləri cəlb etməli, yeni materialı əlçatan, vizual və cəlbedici şəkildə təqdim etməli, şagirdlərlə fəal şəkildə ünsiyyət qurmalı, onların anlama səviyyələrini başa düşməli, dərsin strukturuna ciddi şəkildə əməl etməli və sanitariya-gigiyena standartlarına riayət etməlidir. O metodiki məqsədini təsvir edir və ona nail olmaq üçün işi təsvir edirlər. Onun təqdimatı açıq dərsin metodik məqsədinə nail olunub-olunmaması və tədris prosesinin məqsədləri yerinə yetirilib-yetirilməməsi suallarına cavab verməlidir. İştirakçılar həm də dərsi metodik məqsədə nail olmaq baxımından qiymətləndirirlər. Monitorinq məqsədilə keçirilən dərslərin təhlilindən fərqli olaraq, burada ən vacib cəhət fikir mübadiləsi, müzakirələr, debatlar və s. təşkil edir. Müəllimin dərsinin özünütəhlili ekspert üçün əhəmiyyətli bir üstünlükdür. Özünütəhlil müəllimin iş sistemi, yaradıcılıq prosesi, dərsin dizaynı və planı haqqında məlumat əldə etmək üçün unikal bir fürsət yaradır. Özünütəhlil müəllimin işini təkmilləşdirmək üçün məsləhət və tövsiyələrin mənimsənilməsinə kömək edir, həmçinin qabaqcıl pedaqoji təcrübələrinin mənimsənilməsinə və pedaqogika elmdəki nailiyyətlərin və müxtəlif innovasiyaların təhsil təcrübəsinə tətbiqinə kömək edir [4, s. 128]. Çıxış edən müəllimlər açıq dərsin müsbət və mənfi tərəflərini təhlil etməli, öyrədici, tərbiyəedici və inkişafetdidrici kimi qarşıya qoyulan məqsədlərə nail olunmasına, istifadə olunan metodların səmərəliliyinə, multimedia kompüter texnologiyasından istifadənin məqsədəuyğunluğuna xüsusi diqqət yetirməlidirlər. Təhlil zamanı natiqlər dərsin təkcə təlimverici deyil, həm də tərbiyəedici rolunu, fənnin mənimsənilməsi üçün əhəmiyyətini qiymətləndirməlidirlər [5, s. 241]. Müəllimlər üçün açıq dərslərin əhəmiyyəti ondan ibarətdir ki, onlar öz işlərinə başqalarının gözü ilə baxmağa və rəy almağa imkan verir. Bu, müəllimlərə tədris metodlarını təkmilləşdirməyə, bacarıqlarını təkmilləşdirməyə və öz fəaliyyətlərinə inam qazanmağa kömək edir. Açıq dərslər həm də müəllimlərin işini müşahidə etməklə digər həmkarlarından yeni ideyalar və ilham almağa kömək edir. Nəticədə müəllimlər öz kurikulumlarını, metodlarını və tədris yanaşmalarını təkmilləşdirə bilərlər ki, bu da şagird nailiyyətlərinə və motivasiyasına müsbət təsir göstərə bilər. Bundan əlavə, açıq dərslər müəllimlər, şagirdlər, valideynlər və ictimaiyyət arasında münasibətlərin mühüm elementidir. Onlar iştirakçılara bir-birini daha yaxşı başa düşməyə, inamı və əməkdaşlığı artırmağa imkan verir.

Problemin aktuallığı. Açıq dərs müəllimin öz peşə şəriştələrini və təhsil sahəsində nailiyyətlərini nümayiş etdirmək üçün həmkarları və məktəb rəhbərliyi qarşısında keçirilən xüsusi dərs formatıdır. Müəllimlər üçün tədris metodlarını yeniləmək, tədris prosesini daha effektiv və maraqlı etmək üçün açıq dərslər əvəzsiz fürsət yaradır. Düzgün hazırlıq və

planlaşdırma ilə açıq dərsin keçirilməsi müəllimlərə öz bacarıqlarını təkmilləşdirməyə və daha peşəkar olmağa kömək edə bilər.

Problemin yeniliyi. Açıq dərslər müəllimlər üçün vacib bir vasitədir, onların inkişafına, təkmilləşməsinə və işlərində daha səmərəli olmasına kömək edir. Valideynlər və ictimaiyyət tədris prosesinin sinifdə necə cərəyan etdiyini və bu prosesdə şagird və müəllimin rolunu izləyə bilirlər.

Problemin praktik əhəmiyyəti. Məqalədə qeyd olunan fikirlərdən ali və ümumtəhsil məktəblərinin müəllimləri, tələbələr, magistrant və doktorantlar faydalana bilərlər.

Ədəbiyyat

1. “Açıq dərslərin təşkili, keçirilməsi və qiymətlənlirilməsi qaydaları". Tədris Mərkəzinin "2" dekabr 2015-ci il tarixli 1595040100218400 nömrəli əmrinə 1 saylı Əlavə. –Bakı: 2015. –6s.
2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya fənni üzrə təhsil proqramı (kurikulum)" (VII-XI siniflər). –Bakı: –2023. –57s.
3. Методика преподавания биологии: практическое пособие для студентов специальности 1-31 01 01-02 "Биология (научнопедагогическая деятельность" / Составители: И. И. Концевая, Ю. М. Бачура, А. М. Будов, А. А. Горносталев, Н. М. Дайнеко, С. В. Жадько.– Гомель: ГГУ им. Ф. Скорины, –2011. – 156 с.
4. Пидкасистый, П. И. Организация учебно-познавательной деятельности студентов / П. И. Пидкасистый. - Изд. 2-е, доп. и перераб. –М.: Пед. общество России, –2005. –144 с.
5. Решетников, П. Е. Нетрадиционная технологическая система подготовки учителей. Рождение мастера: кн. для преподавателей высш. и сред. пед. учеб. заведений / П. Е. Решетников. –М.: ВЛАДОС, –2000. –301 с.

Redaksiyaya daxil olub: 05.12. 2025

UOT 372.881.111.1

Günel Hüseyn qızı Eyvazlı
Azərbaycan Dillər Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-2276-3012
E-mail: gunel.xudayarova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).116-121

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MOTİVASİYANIN ROLU

Gunel Huseyn Eyvazli
doctorial student in the program of doctor of philosophy
at Azerbaijan University of Languages

ROLE OF MOTIVATION IN ENGLISH LANGUAGE TEACHING

Гюнель Гусейн гызы Эйвазлы
докторант по программе доктора философии
Азербайджанского Университета Языков

РОЛЬ МОТИВАЦИИ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Xülasə. Motivasiya tələbələri uğura aparan yoldur. Nəzərdə tutulan təlim nəticələrini əldə etmək üçün tələbələri motivasiya etmək olduqca vacibdir. Onların təlim uğurlarını artırmaq üçün dərsin bütün mərhələlərində motivasiyanın formalaşdırılması və onun qorunması əhəmiyyətlidir.

Aparılan araşdırmada tələbələri motivasiya etməyin əhəmiyyəti müxtəlif yollarla təhlil olunur. Məqalədə ingilis dili dərslərində tələbələri motivasiya etmək üçün müxtəlif vasitələrin əhəmiyyəti və onlara təsir göstərən amillərin xüsusiyyətləri araşdırılır. İngilis dilinin tədrisində motivasiyanın formalaşdırılması prinsipləri məqalədə təhlil edilir. Bu məqalədə motivasiyanın formalaşdırılması metodları, onun mərhələləri barədə nəzəri faktlar tədqiq olunur və müxtəlif alimlərin bu barədə araşdırmaları qarşılıqlı müqayisə edilir. Burada, həmçinin, müəllimlərin tələbələri motivasiya etmək üçün müxtəlif keyfiyyətlərə malik olması məsələləri də araşdırılır.

Açar sözlər: *motivasiyanın təsiri, motivasiyanın prinsipləri, müəllimin keyfiyyətləri, motivasiyaedici metodlar, motivasiya mərhələləri*

Abstact. Motivation is the path that leads students to success. Motivating students is very important to achieve the intended learning outcomes. In order to increase their learning success, it is important to form and maintain motivation at all stages of the lesson.

In the conducted study, the importance of motivating students is analyzed in various ways. The article examines the importance of various means of motivating students in English lessons and characteristics of the factors that affect them. Principles of forming motivation in English teaching are analyzed in the article. This article examines the theoretical facts about the methods of forming motivation, its stages, and compares the research of various scientists on this subject. It also examines the issues of teachers having different qualities to motivate students.

Keywords: *the effect of motivation, principles of motivation, teacher qualities, motivational methods, stages of motivation*

Аннотация. Мотивация – это путь, ведущий студентов к успеху. Мотивация студентов крайне важна для достижения запланированных результатов обучения. Для повышения их успеваемости важно формировать и поддерживать мотивацию на всех этапах урока.

В проведенном исследовании анализируется важность мотивации студентов с различных точек зрения. В статье рассматривается значение различных средств мотивации студентов на занятиях английского языка и характеристика факторов, влияющих на них. В статье анализируются принципы формирования мотивации в преподавании английского языка. В данной статье рассматриваются теоретические положения о методах формирования мотивации, ее этапах, а также сравниваются исследования различных ученых по данной теме. Также рассматриваются вопросы наличия у преподавателей различных качеств для мотивации студентов.

Ключевые слова: *влияние мотивации, принципы мотивации, качества учителя, мотивационные методы, этапы мотивации*

Xarici dillərin tədrisini motivasiya qurmadan təsəvvür etmək mümkün deyil. Tədrisin yekununda əldə edilən nəticələrin məqsədlərlə vəhdət təşkil etməsi üçün motivasiya prosesinin uğurlu təşkil olunması olduqca əhəmiyyətlidir. Tələbələrin müstəqil şəkildə diqqətlə və yüksək iradə ilə dərsdə fəal iştirakını təmin etmək üçün motivasiyanın qurulması vacib hesab olunur. Gözlənilən təlim nəticələrinin əldə edilməsini təmin edən motivasiya prosesi tələbələrin maraq və tələbatlarına uyğun qurulur. Dilöyrənənləri fəal araşdırmaya sövq edən bu proses onların bu istiqamətdə arzuolunan nəticəni əldə etməsini asanlaşdırır.

Motivasiya ingilis dili dərslərinin vacib komponentidir. Bu proses bizi xarici təsirlər vasitəsilə müəyyən fəaliyyətə sövq edən daxili hissdir. O, tələbələrin davranışlarını tənzimləyərək onları fəaliyyət qabiliyyətinə cəlb edir, istəksizliyi aradan qaldırır. Motivasiya öyrənmə prosesində özünü müxtəlif formalarda təcəssüm etdirir. Bunlar aşağıdakılardır:

1. Motivasiya insanlarda aktivlik və enerji səviyyəsini yüksəldir;

2. Fərdin müəyyən istiqamətlərə yönəlməsinə təsir edir. Onların seçimlərini istiqamətləndirir və nəticələr əldə etməsini təmin edir;

3. Bu proses müəyyən fəaliyyətə başlamaq üçün təşəbbüsü artırır və həmin fəaliyyəti əzmkarlıqla davam etdirməyə kömək edir;

4. Motivasiya öyrənmə prosesi və fərdin idraki fəallıq nümayiş etdirməsinə təsir göstərir.

Araşdırılan mənbələrdə motivasiyanın nəzəri məsələlərinin təhlilinin ilk dəfə ötən əsrin ortalarında Lambert və Qardner tərəfindən aparıldığı vurğulanır. Onların tədqiqatlarında motivasiya üç əsas prinsipə əsaslanır:

1. Motivasiyanın təsir gücü,

2. Dilöyrənmə istəyinin mövcudluğu,

3. Dilöyrənmə zamanı nümayiş etdirdiyimiz şəxsi mövqeyimiz [1, s.133].

Beləliklə, motivasiya dilöyrənmə zamanı tələbələrin gözləntiləri və bu istiqamətdə nümayiş etdirdikləri şəxsi mövqeyi ilə birgə təlim prosesinin vacib komponentinə çevrilir. Nəticədə, ingilis dili dərslərində əldə edilməsi nəzərdə tutulan təlim nailiyyətləri reallaşdırılır.

Daxili və xarici amillərin vəhdət şəkildə hərəkətə gətirildiyi motivasiya prosesi müəyyən davranış və fəaliyyətlərin təşkil edilməsini həyata keçirir. O, tələbələrin daxili stimullar əsasında görüləcək işə xarici təsirlər vasitəsilə təkan verir. Bu prosesdə müəllimlərin gözləntiləri və özlərinin şəxsi keyfiyyətləri də xüsusi rola malikdir. Bu keyfiyyətləri belə vurğulamaq olar:

- *geyim tərzi – səliqəli və sadə geyim tərzi tələbələrin dərsdə müəllimi diqqətlə dinləməsi üçün vacib hesab olunur. S. Qaqne qeyd edir ki, tələbələr müəllimi təqlid edərək öyrənirlər. Onların diqqətini cəlb etmək üçün müəllimin görünüşü önəmlidir;*
- *özünəinam və emosional təsir – müəllimin nitqini sərbəst ifadə etməsi, öz fənni üzrə yüksək savada və metodoloji biliklərə malik olması onun özünəinamla dərs deməsinə kömək olur. Müəllimin emosional təsiri isə etdiyi səhvlərə verilən reaksiyalar və ya onun tələbələrin səhvlərini düzəltmək tərzini nümunə kimi qeyd etmək olar. Düzgün emosional təsir qəzəbli və stressli təlim mühitinin aradan qaldırılmasına kömək edir;*
- *həvəslilik – öyrədilən fənni dərs deyən müəllim ona olan sevgisini və həvəsini göstərərsə tələbələr də dərsə diqqətlə yanaşar;*
- *konstruktiv tənqid və düzəlişlər – sinfi idarəetmə bacarığına malik müəllimlər tələbələrin uğursuzluqlarından nəticə çıxararaq daha irəli getmələrinə kömək edirlər. Onlara deyilən tənqidi fikirlərə əsasən inkişaf etməyə təşəbbüs göstərirlər;*
- *yaxşı rəftar – buna səbəb müxtəlif amillər ola bilər: öz daxili aləmin, digərləri ilə ünsiyyət tərzi, sosial mühit, əməkdaşlıq edilən*

insanların xarakteri, təhsil səviyyəsi və s. Yaxşı rəftarı tənzimləyən vacib komponentlərdən biri tələbələrin fəaliyyətini öncədən araşdırmaq və münasibət bildirməkdir;

- *tələbələrə hörmət – səmimi münasibətlə tələbələrə yanaşmaq əməkdaşlığı gücləndirir [2, s.43].*

Motivlərin təsir gücü müəllimlərin peşəkarlığının artırılmasına kömək edir. Tələbələrin həm daxili motivasiyaya malik olması, həm da xarici təsirlər əsasında həvəslə çalışmaları təhsilverənlərin sərişləliliyinin nəticəsidir.

Unutmaq olmaz ki, motivasiya dilöyrənmə prosesinin məhsuldarlığına təkan verən ünsürdür. Təhsil proqramları üzrə nəzərdə tutulan biliklərin fəal mənimsənməsinə təsir göstərən motivasiya prosesi təlim metodlarının, üsul və vasitələrinin səmərəli şəkildə fəal qurulmasına kömək edir. Bu baxımdan təlim zamanı tələbələrin motivasiyasının qiymətləndirilməsi və onları fəaliyyətə sövq edən tapşırıqların seçilməsi xüsusi əhəmiyyətə malikdir.

Məlum məsələdir ki, dilöyrənmə prosesinin müvəffəqiyyətli olması üçün tələbələrdə motivasiyanın yüksəldilməsi mühüm rola malikdir. Yüksək motivasiyaya malik olan tələbələrin şəxsiyyət kimi formalaşması da səmərəli olur.

Müşahidələr əsasında qeyd olunur ki, xarici dil dərslərində tələbələrin əvvəldə fəaliyyəti yüksək dəyərləndirilsə də, sonra geriləmələr hiss olunur. Bunun nəticəsində, belə qənaətə gəlinir ki, təlim zamanı seçilən metodların fərqliliyi təmin edilərsə, nəticə də effektiv olar. Aparılan xarici dil dərslərinin müşahidələrinə əsasən qeyd etmək olar ki, təcrübəli müəllimlərin dərslərində belə hallara az təsadüf olunur. Buna səbəb isə dərsdə monoton öyrədici tapşırıqlar deyil, daima fərqli həvəsləndirici fəaliyyətlərin yerinə yetirilməsidir. Motivasiyanın uğurlu olması onun tələbələri məqsədəyönəlmiş fəaliyyətləri yerinə yetirməyə həvəsləndirməsi və təlim uğurlarını artırmasıdır [3].

Bu istiqamətdə aparılan araşdırmalarda K.D.Uşinski bildirir ki, dərslərin müxtəlif metodlarla həyata keçirilməsi, tələbələrin fərqli fəaliyyətlər icra etməsi onların məhsuldarlığını artırır. Bu fikrə istinad edərək əlavə etmək istərdik ki, dərslərdə ənənəvi sxemdən uzaqlaşaraq yeniliklər icra etmək təlimin inkişafetdirici xarakterə malik olmasını təmin edir [4, s.82].

Təlimin inkişafetdiricilik prinsipinin izlənməsi üçün motivasiyanın uğurlu təşkil olunması zəmin rolunu oynayır. Bu proses tələbələrin görülən işə həvəslə yanaşaraq fəaliyyətə təhrikedici təsir göstərir, onların passiv davranışlarını məhdudlaşdırır. Müəyyən fəaliyyətlərin icrası üçün tələb edilən situativ motivasiya dilöyrənənləri təlim zamanı prosesə cəlb edir və onların inkişafını dəstəkləyir. Tələbələri motivasiya edərək təlim prosesini idarə etmək müsbət gözləntilərin demək olar ki, tam şəkildə həyata keçirilməsinə dəstək olur və hədəfləri reallaşdırır.

Qeyd etməliyik ki, uğursuz təşkil olunmuş motivasiya prosesi təlimin yekun nəticələrinin səmərəsiz olmasına gətirib çıxarır. Fəal təlim mühitində motivasiya açar rola malikdir. Dilöyrənənlərin motivasiyasını artırmaqla onlara təsir etmək daha da asanlaşır və qoyulan məqsədlərin reallaşması təmin olunur. Motivasiya təlim mühitinin müsbət atmosferə malik olmasını təmin edir. Öyrənənlər yaxşı əhval-ruhiyyə ilə dərsə cəlb olunaraq təqdim olunan tapşırıqları həvəslə icra edirlər.

Təlim zamanı çətinliklər və maneələr qaçılmazdır. Güclü motivasiya tələbələrin bu çətinliklərin öhdəsindən gəlməsində və enerji ilə fəaliyyətlərini icra etməsində faydalıdır. Dilöyrənənləri həvəsləndirən vacib motivasiyaedici məsələlərdən biri də onların daim yeniliklər axtarışında olmaları və öyrəndikləri biliklərin həyatda istifadəsini müşahidə etməlidir. Bu zaman onlar özləri faydalı olacaq məlumatları qruplaşdıraraq daha uzunmüddətli yaddaşa keçirməyə cəhd edirlər. Onları təhrik etməklə bilikləri bacarıq və qabiliyyətə çevirmək mümkün olur. Təbii ki, bu zaman öz potensiallarının artdığını və inkişaf dinamikasını müşahidə etmək dilöyrənənlərin məqsədlərinə çatmasına yüksək təkan verir.

Psixoloji ədəbiyyatda motivasiya məsələsi geniş araşdırılır. Burada qeyd olunur ki, adamı öyrənməyə, oxumağa təhrik edən daxili psixoloji qüvvəyə motiv deyilir və onun müəyyən motivləri vardır. Oxumaq motivləri belə müəyyənləşdirilir: bilikdən zövq almaq, savadlı olmaq, çox dil bilmək, uşaqlarla ünsiyyət qurmaq, müəllimin müsbət rəyini əldə etmək, valideynləri sevindirmək, sayılıb-seçilmək, sosial mühitdə yaxşı mövqe qazanmaq, vətənə faydalı olmaq və s. üçün oxumaq. Bu motivləri müəyyən edərək tələbələrə uyğun metodoloji yanaşma nümayiş

etdirmək təlimin uğurla həyata keçirilməsini təmin edir. Onlara həmin fənn üzrə əldə etdikləri bilikləri həyatda tətbiq edəcəkləri sahələri, onların əhəmiyyətini açıqlamaq təlim zamanı əvvəlcədən qoyulan məqsədlərə çatmaqda effektiv hesab olunur [5, s.203].

Xarici dillərin tədrisi zamanı tələbələrə verilən motivasiya onların dildən sərbəst şəkildə istifadəsini təmin edir və ünsiyyət prosesini təkmilləşdirir. Ünsiyyətin qurulmasına kömək edən motivasiya prosesinin təsnifatını məşhur alim P.B. Qurviç belə şərh edir:

✓ *tam motivasiya – aydın məqsədlərin olması və onların reallaşmasını təmin edən tapşırıqların verilməsi işin tamamlanmasını həyata keçirir;*

✓ *uğurlu motivasiya – məqsədə çatmaq üçün fəaliyyətləri ardıcıl şəkildə və inamla icra etməlidir. Dilöyrənmə prosesində motivasiya yalnız dərsdə biliklərin istifadəsinə deyil, həm də dərsdənkənarda onları tətbiq etməyə dəstək olur;*

✓ *ölkəşünaslıq motivasiya – öyrənilən dilin daşıyıcısı olduğu xalqa məxsus fakt və hadisələri araşdırmaq dilə olan marağı artırır. Həmin ölkə ilə bağlı mədəni və milli xüsusiyyətləri dildən istifadə üçün vacib hesab olunur;*

✓ *estetik motivasiya – rahat və dəstəkləyici təlim şəraitinin yaradılmasıdır. Buraya dil öyrənmək üçün lazım olan avadanlıqların təmin edilməsi də aid edilir. Məsələn: şəkillər, slaydlar, musiqi, video və s. əşyalar [6, s.104].*

Öyrənənlərin motivasiya olmaq yolları fərqlidir. Onları həvəsləndirən mənbələrin fərqli olması daxili və xarici amillərin təsirini ön plana çəkir. Təlim mühitinin dilöyrənənlərin maraqlarını təmin etməklə təşkil olunması xarici təsiredici qüvvələr vasitəsilə daxili motivasiyanın da inkişafını həyata keçirir. Uyğun metodlar vasitəsilə tələbələrin öz fəaliyyətlərlərini qiymətləndirməsinə, uğurlarından və irəliləyişlərindən effektiv nəticə çıxarmağa, uğursuzluqlarını konstruktiv formada aradan qaldırmağa kömək etmək mümkündür.

Uğursuzluq müşahidə olunan zaman tələbələrin cəzalandırılması ilə bağlı fəaliyyətlər də ön plana çəkilməli olan məsələlərdəndir. Məlum olduğu kimi, tələbələri yoldaşlarının qarşısında və ya toplum içərisində tənbeh etmək yolverilməzdir. Yüksək təsirə malik xarici motivasiya faktorlarının köməyi ilə tələbələri ruhlandırmaq və təlim nailiyyətlərini artırmaq mümkündür. Motivasiya tələbələrin bacarıqlarını üzə çıxarır və onları uğur qazanmaq üçün istiqamətləndirir [7]. Öz zəif cəhətlərini aşkara çıxararaq onları aradan qaldırmağa cəhd edən tələbələr ye-tişdirmək üçün onlara nəvazişlə yanaşmaq və dil materiallarını təmkinlə öyrətmək lazımdır. Tələbələri motivasiya edən mühüm məqamlardan biri də onların uyğun təlim materialları ilə təmin edilməsidir. Təlim zamanı öyrənilən materialların asan və anlaşıqlı dildə yazılması mühüm məqamlardan hesab olunur. Tələbələr üçün qavranılması rahat olan mənbələri araşdırmaq onların xarici motivasiya amillərindən hesab olunur və onların daxili motivlərinin fəaliyyətinə təkan verir. Dil materiallarının uyğun təlim metodları vasitəsilə mənimsənməsi dərsin gedişatına, qoyulan hədəflərin reallaşmasına və səmərəli nəticələrin əldə edilməsinə təsir edir. Təlim metodlarının motivasiya ilə vəhdətdə seçilməsi mühüm əhəmiyyət kəsb edir. Bu barədə aparılan araşdırmalarda motivasiyanı müxtəlif kvalifikasiyalar üzrə təsvir edirlər:

- *tələbatların ödənilməsini təmin edən birbaşa motivasiya,*
- *tərbiyəçinin şəxsi fəaliyyətinə uyğun müəyyən etdiyi konkret metodlar,*
- *perspektivləri üzə çıxaran motivasiya,*
- *gələcək hədəflərə fokuslanan motivasiya,*
- *müsbət emosiyaları özündə ehtiva edən motivasiya,*
- *meyl və maraqdan yaranan motivasiya [1, s.135].*

Motivasiya tələbələri özlərinin aşkar edilməmiş xüsusiyyətlərini üzə çıxarmaqla fəaliyyətə cəlb edir. Təlim zamanı kifayət qədər araşdırma tələb edən tapşırıqların icrası müsbət təsirləri artırır. Onların passiv dinləyici kimi deyil, birbaşa prosesin iştirakçısı olaraq fəaliyyətlərə cəlb etmək təlim prosesinin rəngarəngliyini artırır. Qeyri-adi, cəlbedici suallar vasitəsilə tələbələrin diqqətini dərsə yönəltməklə onların fəallığını təmin etmək olar. Tələbələrin özlərinin araşdırma üçün sualları və mənbələri müəyyənləşdirməsi daha effektiv hesab olunur. Təbii ki, təqdim olunan mövzu barədə araşdırma aparan tələbələr üçün bəzi məsələlərin əvvəlcədən aydın olması, həmin istiqamətdə müəyyən təsəvvürlərin olması da mühüm rola malikdir. Öyrənənlərin dil bilikləri və fikirlərini ifadə edə bilmək potensialı

onların bilikləri əldə etmək tempinə müsbət təsir göstərir. Onların inkişafını dəstəkləyən motivasiyaedici fəaliyyətlər dil biliklərini zənginləşdirmək baxımından yüksək dəyərləndirilir.

Tələbələri həvəsləndirmək üçün metodların seçimi aşağıda verilən məsələlərə uyğun olaraq həyata keçirilir:

- *həvəsləndiricilər,*
- *eksperimental tədris və ya özünütəhsil,*
- *ortaq hədəflər və vəzifələr,*
- *dəyişkən və ya yerində simulyasiya, interaktivlik,*
- *şifahi ünsiyyət,*
- *obyektiv meyarlar,*
- *ruhlandırma və mükafatlandırma,*
- *situativ fəaliyyət,*
- *bələdçilik,*
- *inkişaf strategiyaları,*
- *müsbət sosial ünsiyyət,*
- *hekayə danışmaq,*
- *genişləndirilmiş müzakirə,*
- *qarşılıqlı sorğu-sual [8, s.14].*

İngilis dilində ünsiyyətə əsaslanan bu metodlar tələbələr üçün yeni bilik qazanmağa stimul verir. Tədris metodları ilə motivasiyanın formalaşdırılması təlim proqramı haqqında dərin məlumatları təhlil etməyə imkan yaradır. Xüsusilə yuxarıda qeyd olunan metodlar dillərin tədrisində dildən geniş istifadəyə kömək edir. Lai də vurğulayır ki, tələbələrin motivasiyasına mükafatlandırma metodu vasitəsilə təsir etmək olur. Mükafatlar tələbələrə deyilən tərifləra, təlim şəraitinə uyğun olaraq onları həvəsləndirə və ya ruhdan sala bilər. Dilöyrənənlərin özlərinin prosesi idarə etməsi və onların sərbəstliyinin təmin edilməsi üçün imkanlar yaradılması məqsədəuyğundur [9, s.543].

H. Qardner qeyd edir ki, motivasiya mürəkkəb prosesdir. Motivasiyası olan adam məqsəd müəyyənləşdirir və bu məqsədə çatmaq üçün çox çalışır [10]. Z.Dörnyeyi motivasiyanın formalaşmasını 3 əsas mərhələdə şərh edir. Bu mərhələlər aşağıdakılardan ibarətdir:

1. Sosio-psixoloji mərhələ – motivasiya və məqsədin əlaqələndirilməsidir. Bu mərhələdə davranışlar və hissləri idarə etmək araşdırılır. Dildaşıyıcılarının mədəni dəyərlərinə hörmətlə yanaşmaq nəzərdə tutulur;

2. Koqnitiv-situativ mərhələ – öyrənənlərin dil səviyyəsini və öyrənmə məzmununu təhlil edir;

3. Proses əsaslı mərhələ – dilöyrənənlərin maraq və tələbatlarını, təlim mühitini müəyyənləşdirir və ona uyğun fəaliyyətlər həyata keçirir [10].

Yuxarıda qeyd edilən bu mərhələlər tələbələrin hərtərəfli motivasiya olmasına, onların təlim fəaliyyətlərini mükəmməl şəkildə və həvəslə yerinə yetirməyə kömək edir. Ümumiyyətlə, dilöyrənənlərin bütün xüsusiyyətlərini nəzərə alaraq onları motivasiya etmək tələbələrin təlim nailiyyətlərini artırmaqda və qarşıya qoyulan hədəflərə qısa müddət ərzində nail olmaqda xüsusi rola malikdir.

Problemin aktuallığı. Tələbələrin dərsdə fəallığının artırılması və ingilis dilini sevərək mənimsəməsi üçün motivasiyanın rolu danılmazdır. Öyrənənlərin həvəslə verilənləri araşdırması və dil biliklərini təkmilləşdirməsi üçün onların düzgün motivasiya olunması vacib sayılır.

Problemin yeniliyi. Məqalədə tələbələrdə motivasiyanın formalaşdırılmasının nəzəri və praktik əsasları qarşılıqlı təhlil edilir.

Problemin praktik əhəmiyyəti. Tələbələrdə motivasiyanın formalaşdırılması mərhələli şəkildə həyata keçirilir. Burada motivasiyanın formalaşdırılması mərhələləri həm psixoloji, həm də metodoloji baxımdan araşdırılır və təkliflər irəli sürülür.

Ədəbiyyat

1. Həsənova, M.A. Motivasiya və onun təlim prosesində rolu // –Bakı: Magistrant, Pedaqoji-psixoloji elmlər, ADPU, –2023. №2, –s.133-136
2. Shiralıjev, A. Teaching Practice Handbook / A. Shiralıjev. –Bakı: Mutarcim, –2012. –180 p.
3. https://www.google.com/search?q=the+role+of+motivation&oq=the+role+of+motivation&gs_lcrp=EgZjaHJvbWUyCQgAEEUYORiABDIHCAEQABiABDIHCAIQABiABDIHCAMQABiABDIHCAQQABiABDIHCAUQABiABDIHCAYQABiABDIICAcQABgWGB4yCAgIEAAYFhgeMggICRAAGBYYHtIBCTk1NTVqMWoxNagCCLACAfEFxpMoOBrg3cg&sourceid=chrome&ie=UTF-8
4. Xarici dil dərslərinin müşahidəsi və təhlili / Ş.Ə. Şirəliyev, Q.N. Heybətov və b. – Bakı: Mütərcim, –2023. –128 s.
5. Kazımov, N. Ali məktəb pedaqogikası / N. Kazımov –Bakı: Çıraq, –2011. –392 s.

6. Qəribova, M. Ali məktəblərdə alman dilinin tədrisi metodikası. / M. Qəribova. –Bakı: Mütərcim, – 2022. –172 s.
7. https://psycnet.apa.org/record/2017-32525-013
8. Williams C.K., Williams C.C. Five key ingredients for improving student motivation//Research Higher Education Journal, 11, University of Albany./ K.C. Williams, C.C. Williams. - 2011 – pp. 1-23
9. Purmama A.N., Rahayu S.N., Yugafiati R. Students` Motivation in Learning English//Project – Professional Journal of English Education//(V2.) N4, / N.A. Purmama, N.S. Rahayu, R. Yugafiati - İndonesia, –2019 – pp. 539-544
10. file:///C:/Users/hp/Downloads/Dialnet-MotivationInSecondLanguageLearning-5249752.pdfhttps://www.researchgate.net/publication/363252279_Importance_of_Motivation_in_Learning_English_Language

Redaksiyaya daxil olub: 02.12.2025

UOT 372.881.111.1

Tahirə Tahir qızı Axundova
Azərbaycan Dillər Universitetinin müəllimi,
fəlsəfə doktoru proqramı üzrə dissertant
https://orcid.org/0009-0005-148207097
E-mail: axundova-t@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).122-126

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ ŞİFAHİ NİTQİN KOMMUNİKATİVYÖNÜMLÜ STRATEJİ SƏRİŞTƏSİNİN FORMALAŞMASI İLƏ BAĞLI PROBLEMLƏR

Tahira Tahir Akhundova
lecturer at Azerbaijan University of Languages,
doctorial student in the program of doctor of philosophy

THE FORMATION OF COMMUNICATION-ORIENTED STRATEGIC COMPETENCE OF ORAL SPEECH IN STUDENTS IN TEACHING ENGLISH

Тахира Тахир гызы Ахундова
преподаватель Азербайджанского Университета Языков,
диссертант по программе доктора философии

ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ КОММУНИКАТИВНО-СТРАТЕГИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ УСТНОЙ РЕЧИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

Xülasə. Tələbələrin şifahi ingilis nitqində kommunikasiyayönlü strateji kompetensiyanın formalaşdırılması ali məktəb səviyyəsində xarici dil tədrisinin əsas nəzəri-metodoloji istiqamətlərindən birini təşkil edir. Kommunikativ sərişdə müəyyən bir mədəniyyət kontekstində səmərəli ünsiyyət və informasiya mübadiləsini təmin edən bilik, bacarıq və fəaliyyət strategiyalarının məcmusudur. Bu sərişdə kompleks xarakter daşıyır və kommunikativ məsafənin adekvat qorunması, ünsiyyətin tonunda baş verən dəyişikliklərə çevik reaksiya verilməsi, konkret mədəniyyətin daşıyıcısından gözlənilən bilik və sosial davranış normalarının mənimsənilməsi, nitq aktlarının mövzuya uyğun şəkildə təşkili, eləcə də sosial qəbul olunmuş ünsiyyət formullarının məqsədyönlü tətbiqi kimi komponentləri özündə birləşdirir. Bundan əlavə, situasiyaya uyğun effektiv qarşılıqlı təsir üçün zəruri olan verbal və qeyri-verbal vasitələrin optimal istifadəsini də tələb edir.

Ali məktəbdə ingilis dili tədrisi zamanı tələbələrdə kommunikativ-strateji sərişdənin inkişaf etdirilməsi onların sosial-mənəvi inkişafının dəstəklənməsi, təhsilin humanist məzmununun gücləndirilməsi və hər bir tələbənin kommunikativ potensialının maksimum səviyyədə reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu səbəbdən universitetdə ingilis dili tədrisinin əsas məqsədi tələbələrin şifahi nitqində kommunikativ və strateji sərişdənin formalaşdırılması, onların mədəniyyətlərarası ünsiyyətdə fəal iştirak edə bilən, kommunikativ fəaliyyətini müstəqil şəkildə təkmilləşdirə bilən şəxsiyyət kimi yetişdirilməsidir.

Açar sözlər: *kommunikasiya, strategiya, nitq, ünsiyyət, şəxsiyyət*

Abstract. The formation of students' communicative strategic competence in oral English speech is one of the main theoretical and methodological directions of foreign language teaching at the higher education level. Communicative competence is a set of knowledge, skills and action strategies that ensure effective communication and information exchange in a given cultural context. This competence is complex in nature and combines such components as adequate maintenance of communicative distance, quick response to changes in the tone of communication, mastering the knowledge and social behavior norms expected from the bearer of a particular culture, organization of speech acts in accordance with the topic, as well as the purposeful

application of socially accepted communication formulas. In addition, it also requires the optimal use of verbal and non-verbal means necessary for effective interaction, appropriate to the situation.

Developing students' communicative-strategic competence during English language teaching in higher education is of great importance in terms of supporting their social-spiritual development, strengthening the humanistic content of education, and realizing the communicative potential of each student to the maximum level.

For this reason, the main goal of teaching English at the university is to form students' communicative and strategic competence in oral speech, to develop them as individuals who can actively participate in intercultural communication and independently improve their communicative activities.

Key words*:communication,strategy,oration,relation,character*

Аннотация. Формирование у студентов коммуникативно-стратегической компетенции в устной английской речи является одним из основных теоретико-методических направлений обучения иностранным языкам в высшей школе. Коммуникативная компетенция представляет собой совокупность знаний, умений и стратегий действий, обеспечивающих эффективное общение и обмен информацией в заданном культурном контексте. Эта компетенция носит комплексный характер и объединяет такие компоненты, как адекватное поддержание коммуникативной дистанции, быстрое реагирование на изменения тональности общения, владение знаниями и нормами социального поведения, ожидаемыми от носителя той или иной культуры, организация речевых актов в соответствии с темой, а также целенаправленное применение социально принятых формул общения. Кроме того, она требует оптимального использования вербальных и невербальных средств, необходимых для эффективного взаимодействия, адекватного ситуации.

Развитие коммуникативно-стратегической компетентности студентов в процессе обучения английскому языку в высшей школе имеет большое значение для содействия их социально-духовному развитию, усиления гуманистического содержания образования, максимальной реализации коммуникативного потенциала каждого студента.

Именно поэтому основной целью преподавания английского языка в вузе является формирование у студентов коммуникативной и стратегической компетентности в устной речи, развитие их как личностей, способных активно участвовать в межкультурном общении и самостоятельно совершенствовать свою коммуникативную деятельность.

Ключевые слова*: коммуникация, стратегия, речь, связь, личность*

Kommunikativ sərişdə anlayışı dilçi şəxsiyyət mövqeyindən müvafiq mədəniyyət çərçivəsində ünsiyyəti və məlumat mübadiləsini təmin etmək üçün zəruri olan bilik, bacarıq və bacarıqlara sahib olmağı ifadə edir. Kommunikativ sərişdə, zəruri kommunikativ məsafəni saxlamaq, dəyişən ünsiyyət tonuna adekvat reaksiya vermək, müəyyən bir mədəniyyətin daşıyıcısının nə bilməli olduğunu bilmək, nitq mövzusunu müəyyən bir şəkildə ünsiyyət qurmaq, qəbul edilmiş ünsiyyətdən istifadə etmək bacarığı daxil olmaqla kompleks bir təhsildir. Ünsiyyət formulları, habelə müəyyən bir vəziyyətdə uğurlu ünsiyyət üçün zəruri olan şifahi və şifahi olmayan vasitələrdən istifadə.

Müasir dilçilikdə kommunikativ sərişdə linqvistik sərişdəyə malik olmaq, başqa sözlə, linqvistik xarakterli müəyyən miqdarda məlumat, linqvistik vasitələri ünsiyyətin vəzifələri və şərtləri ilə əlaqələndirmək bacarığı, habelə şifahi ünsiyyəti təşkil etmək bacarığı kimi başa düşülür. Sosial davranış normalarını və bəyanatın kommunikativ məqsədəuyğunluğunu nəzərə almaq" (N.İ.Gəz, s.66-68.).

"Kommunikativlik kateqoriyası bu gün dünya metodologiyasını birləşdirən əsas platformadır" (V.G.Kostomarov, O.D.Mitrofanova, s. 35-75.).

Pifo (səh. 32-38) kommunikativliyi "möhtəşəm üsul" adlandırır (A.N. Leontiev, s. 8-12). – "nitq fəaliyyəti nəzəriyyəsinin əsas prinsipləri" (N. Rivers, s. 28-33) – "tərbiyə hərəkətlərinin məqsədi və əsas məzmunu".

Mədəniyyətlərarası ünsiyyət məqsədləri üçün şifahi ünsiyyətin öyrədilməsi problemi çox mürəkkəbdir və bu problemi cəmiyyətin müasir sosial sifarişi işığında həll etmək zərurəti çox aktualdır və geniş beynəlxalq əlaqələrlə bağlıdır. Tədqiqatçılar bu problemi həll etmək üçün çoxsaylı cəhdlər edirlər. Müxtəlif mədəniyyətlərin nümayəndələri arasında ünsiyyət üçün kommunikativ sərişdəyə sahib olmağın prioritetini dərk edən tədqiqatçılar onu bir sıra komponentlərə ayırmağa çalışırlar.

Avropa Şurası tələbələrin kommunikativ qabiliyyətinin inkişafına töhfə verən kompo-

nentlər arasında strateji səriştəni, yəni "istifadəçinin kod biliklərindəki boşluqları doldurmaq/kompensasiya etmək üçün şifahi və qeyri-verbal strategiyalardan istifadə etmək bacarığını" müəyyən edir. (Avropa Şurası, səh.2-8).

Strateji səriştə, ilk növbədə şifahi ünsiyyət prosesində müəyyən çətinliklərin yarandığı hallarda kiminsə bəyanatını başa düşmək və nitq ifadələrini özünüz yaratmaq qabiliyyətini nəzərdə tutur.

"Strategiya" anlayışı linqvistika, sosiolinqvistika və linqvodidaktika vasitələrinə nisbətən yaxın vaxtlarda daxil edilmişdir və tədqiqatın məqsədlərindən asılı olaraq fərqli şəkildə müəyyən edilir.

Linqvistik didaktikada strategiyanın ümumi qəbul edilmiş və tez-tez istinad edilən tərifi S.Faerx və C.Kasperə məxsusdur, onlar üçün strategiya problemin həlli, ünsiyyətin müəyyən kommunikativ məqsədinə nail olmaq üçün şüurlu plandır, əgər ünsiyyətin pozulması təhlükəsi varsa səs-küyə, iştirakçıların kifayət qədər hazır olmamasına və s. "Nitqin səlisliyinin olmaması, söhbət apara bilməmək və ya söhbətdə iştirak edə bilməmək strateji səriştənin zəif inkişafının nəticəsidir" (Faerch C., Kasper G., s. 25-30).

Strateji səriştə anlayışı, konkret ünsiyyət dilindən asılı olaraq linqvistik davranış səviyyəsində dəyişdirilə bilsə də, Avropa mədəniyyəti daxilində az və ya çox dərəcədə universal olan bəzi fundamental ünsiyyət qaydalarının mövcudluğunu nəzərdə tutur.

Strateji səriştə anlayışı xarici dilin tədrisi üçün çox vacibdir. Bu tip səriştələrin kifayət qədər inkişaf etdirilməsi, hətta yaxşı qrammatika biliyi və böyük lüğəti olan tələbələri kommunikativ niyyətlərini yerinə yetirə bilməməsinə gətirib çıxarır. Belə bir bacarıqsızlıq müxtəlif, lakin həmişə xoşagəlməz nəticələrə səbəb ola bilər: yaxşı hazırlanmış bir tələbənin imtahanda uğursuz olmasından tutmuş, məhdud mövzular daxilində belə ana dili danışan şəxslə məqbul söhbət apara bilməməsinə qədər. Digər tərəfdən, çox məhdud söz ehtiyatına və qrammatik quruluşa malik insanların məhz inkişaf etmiş strateji səriştələrinə görə xarici dildə uğurla söhbət apara bildiyi hallar var.

Strateji səriştə (və ya onun olmaması) tələbənin bu və ya digər şifahi mesajı çatdırmaq istədikdə, lakin onun linqvistik imkanları, bilik və bacarıqları ona öz fikrini uğurla ifadə etməyə və onu həyata keçirməyə imkan verməddikdə xüsusilə aydın görünür.

Strateji səriştədən istifadə ideyası ingilisdilli alimlərin tədqiqatlarında fəal şəkildə inkişaf etdirildiyindən, bu növ səriştənin xüsusiyyətləri və məqsədi ingilisdilli insanların, yəni ABŞ və ABŞ-ın təhsil məkanına münasibətdə aydınlaşdırılır. Böyük Britaniya. Xarici metodoloqlar E.Tarone, S.Roberts (s. 71-74) əksər hallarda strateji səriştənin iki növünü fərqləndirirlər:

- mesajın tənzimlənməsi strategiyası;
- dil resurslarının genişləndirilməsi strategiyası (resurs genişləndirilməsi strategiyası).

Nitq mesajının tənzimlənməsi strategiyası mesajın formasının danışanın/dinləyicinin imkanlarına uyğunlaşdırılmasını nəzərdə tutur. Xarici dil öyrənən insan başa düşməlidir ki, o, adətən istədiyini və ya istədiyini deyil, yalnız bacardığını söyləyir. Bu strategiya mesajın cüzi dəyişdirilməsini və ya qısaldılmasını nəzərdə tutur.

Dil resurslarının genişləndirilməsi strategiyası həm də natiqin öz dil imkanlarının məhdudiyyətlərini dərk etməsini nəzərdə tutur. Bununla belə, eyni zamanda, uğursuzluğa hazır olmaqla, o, hələ də fəal şəkildə söhbəti davam etdirməyə və nitq niyyətinin sonradan həyata keçirilməsi ilə həmsöhbətin anlayışına nail olmağa çalışır. Bu zaman o, tez-tez yardım üçün həmsöhbətinə müraciət edə bilər. Belə müraciət birbaşa formada, şifahi şəkildə ifadə edilə bilər (məsələn, What do you call....? What's the word...? English what's for....?) və ya dolayı formada (pauzalar, xüsusilə pauzalar) ola bilər. tərəddüd, üz ifadələri, jestlər, baxışlar və s.)

Dolayı forma mütləq birbaşa köməyə çağırışı əks etdirmir, bəyanatın aktiv daxili "yenidən planlaşdırılması" və zəruri dil vasitələrinin axtarışı yolu ilə problemi müstəqil həll etmək cəhdinin siqnalı ola bilər. Buraya çətin vəziyyətlərdə (dialoqun iştirakçısı fikrini aydın şəkildə ifadə edə bilmədikdə və ya sadəcə deyəcək bir şeyi olmadığı zaman) diqqəti özündən yayındırmaq, həmsöhbətə çevirmək bacarığı da daxildir, məsələn: Yaxşı, mən deyiləm. əmin; Nə düşünürsən, A? B ilə razıyam; Bəs siz? və s.

Dil vasitələrinin genişləndirilməsi strategiyası müxtəlif texnikaların istifadəsini əhatə edir. Bunlara, məsələn:

- parafrazalar;
- yaxınlaşdırma;
- -danışıq doldurucuları;

– söz yaradıcılığı;
– paralinqvistik vasitələr (mimika, jestlər, imitasiya və s.)

Xarici dildə ünsiyyət prosesində çətinliklərin həlli üçün sadalanan bütün üsullar tez-tez natiq tərəfindən kortəbii olaraq intuitiv olaraq, sadəcə ünsiyyət vəziyyətinin təsiri altında istifadə olunur.

İngilis dilin şifahi nitqin tədrisində tələbələrlə kommunikasiyayönlü strateji səriştənin formalaşması prosesinin çətin vəziyyətdən çıxmaq üçün bu üsullardan istifadəyə keçmək məqsədəuyğundur

Kommunikativ yanaşmanın əsas ideyaları xarici dilin tədrisində strateji səriştədən istifadənin məqsədlərini müəyyən etməyə imkan verir:

1. Ünsiyyət vahidi nitq aktları – ifadələrdir (bəyanat, xahiş, sual və s.).

2. Nitq aktlarının seçilmə vahidi nitq niyyəti – natiqin fikrin məzmununu şifahi və ya yazılı formada çatdırmaq niyyətidir. Nitq niyyəti danışanın nitq davranışını təşkil edir və tənzimləyir.

3. Xarici dilin ünsiyyət vasitəsi kimi mənimsənilməsi tələbələr arasında şifahi və qeyri-verbal ünsiyyət strategiyalarının formalaşmasını nəzərdə tutur.

Strateji səriştələrdən istifadə zamanı şəxsiyyətyönlü təlim prinsipi tələbələrin intensiv koqnitiv və emosional inkişafını, ümumi təhsil üfüqlərinin genişlənməsini nəzərdə tutur. Fərdi meyl və imkanların inkişafı, öyrənilən mövzuya maraq aşılamaq. Bu prinsip ünsiyyət zamanı böyük çətinliklərlə həyata keçirilir. Zehni və fiziki gücün maksimum intensivliyi və mühüm həvəsləndirici amil kimi xidmət edir. Onun həyata keçirilməsi tələbələrin uzunmüddətli inkişafını, linqvistik istedadın, linqvistik təxminlərin, təhlil və sintez bacarıqlarının formalaşmasını, paralel biliklərin müqayisəsini və cəlb edilməsini əhatə edir.

İngilis dilin şifahi nitqin tədrisində tələbələrdə kommunikativyönlü strateji səriştədən istifadə etmək, dünyagörüşünün genişləndirilməsi, tarixi, mədəniyyəti, adət-ənənələrini, şəxsiyyətlərini tanımaq və s.

Strateji səriştədən istifadənin kontekstindən biz müəyyən bir ixtisaslaşmanı başa düşürük, yəni bir neçə vəzifə eyni vaxtda həll edildikdə – ümumi təhsil və peşə oriyentasiyası – "biri digərinin kontekstində" (A.A. Verbitsky, s. 19-23) tələbələrin gələcək peşəsinə diqqət yetirmək. Həqiqətən, strateji səriştə onların gələcək peşəkar fəaliyyətinin modelinin formalaşmasına kömək edə bilər: görüşlərin, danışıqların, konfransların təşkili. Alqı-satqı əməliyyatları və s.

Yuxarıda qeyd olunan prinsiplər tələbələrin strateji səriştələrindən istifadə üzrə iş sisteminin motivasiya və məzmun-proses komponentlərinin fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Xarici dillərin tədrisində məzmun problemi bu gün metodologiya elminin ən aktual problemlərindən biri olmaqda davam edir.

DİL universitetdə İngilis dilinin şifahi nitqin tədrisində tələbələrdə kommunikativyönlü strateji səriştədən istifadə etmək, sahəsində sosial sifariş hazırda tələbələrin mənəvi sferasının inkişaf etdirilməsi, təhsilin humanist məzmununun artırılması, fənnin tədris potensialının daha dolğun şəkildə həyata keçirilməsi vəzifəsini qarşıya qoyur hər bir tələbənin şəxsiyyəti.

Buna görə də universitetdə İngilis dilin tədrisinin əsas məqsədi tələbənin mədəniyyətlərarası ünsiyyətdə iştirak etmək və bu prosesdə müstəqil şəkildə təkmilləşmək qabiliyyətinə malik və həvəsli şəxsiyyətini inkişaf etdirməkdir.

Problemin aktuallığı. Hal-hazırki dövrdə, İngilis dilinin tədrisində tələbələrdə şifahi nitqin kommunikativyönlü strateji səriştəsinin formalaşması aktual problemdir. Eyni zamanda önəmli məsələdir.

Problemin yeniliyi. İngilis dilini öyrənən tələbələrdə strateji səriştəsinin olması, onlarda dil bacarıqlarının inkişaf etdirilməsi və formalaşdırılması mümkün olur.

Problemin praktik əhəmiyyəti. İngilis dilini öyrənən tələbələrdə şifahi nitqin inkişaf etməsi üçün müsbət təsir göstərəcək.

Ədəbiyyat

1. Астафурова Т.Н. Стратегии коммуникативного поведения и профессионально-значимых ситуациях межкультурного общения (лингвистический и дидактические аспекты -Дис…доктора пед.наук. –М., 1997. –325 с.
2. Верещагин Е.М., Костомаров В.Г. Лингвострановедческая теория слова. –М.: Русский язык,1980. –320 с.
3. Верещагин Е.М, Костомаров В.Г., (1988 с. 117-125). Язык и культура.–М.: МГУ. –1973. –232с.

4. Верещагин Е.М., Костомаров В.Г., 1990 с.26. Язык и культура.-Лингвострановедение в преподавании русского языка как иностранного. -4е изд.перераб. –М.: Рус.яз. –1990. –246с
5. Гез Н.И, Роль ситуативности в формировании речевой компетенцию//сб .науч.трМГПИИЯ им. М. Тореза, –1979. –66 с.
6. Гез. Н.И 1979.с.66 Текст лекций по курсу «Методика обучения иностранным языкам в высшей школе» М.МГПИИЯ им.М.Тореза,1979.–210 с.
7. Исмаилова Д. А. Методика обучения диалогической речи современного английского языка на начальных курсах языковых вузов (I-II кусов). –Баку: Мутарджим, –2002. –248 с.
8. Исмаилова Д. А. Общетеоретические аспекты культуроведческого общения иноязычной коммуникативной практики учащихся //Иностранные языки в Азербайджане //, 2007, № 1. –с.55-64.
9. Костомаров В.Г., Верещагина (Е.М, 1988, с 117-125).Язык и культура._–М.:МГУ..197 –с .35-75).
10. Леонтьев А.А. Основы психолингвистики –М.: Смысл, –1999. –191с.
11. Леонтьев А.Н. Национальные особенности коммуникации как междисциплинарная дисциплина. Объем. Задачи и методы этнопсихологии//национально-культурная специфика речевого поведения.–М.,1977. –с.8. 235 с.
12. Леонтьев А.Н. Деятельность. Сознание.Личность. –М.,1977. –с. 74
13. Леонтьев А.Н. Национальные особенности коммуникации как междисциплинарная дисциплина. Объем. Задачи и методы этнопсихологии. //национально-культурная специфика речевого поведения. –М., 1977. –с.8.
14. Леонтьев А.Н. Проблемы развития психики.–М.:Изд-во МГУ, –1981.-4-е изд.-е –с. 312-320.

Redaksiyaya daxil olub: 08.12. 2025

UOT 796.853.23.(479.24)(091)

İlham Əzizağa oğlu Zəkiyev
Azərbaycan İdman Akademiyasının fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org0009-0003-6432-8750
E-mail: ilhamzakiyev@yahoo.com
https://doi.org/10.69682/arti.2026.93(1).127-130

AZƏRBAYCANDA CÜDONUN YARANMA VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Ilham Azizagha Zakiyev
doctorial student in the program of doctor of philosophy
of Azerbaijan Sports Academy

DIRECTIONS OF THE ESTABLISHMENT AND DEVELOPMENT OF JUDO IN AZERBAIJAN

Ильхам Азизага оглу Закиев
докторант по программе доктора философии
Азербайджанской Академии Спорта

НАПРАВЛЕНИЯ СТАНОВЛЕНИЯ И РАЗВИТИЯ ДЗЮДО В АЗЕРБАЙДЖАНЕ

Xülasə. Məqalədə Azərbaycanda cüdonun yaranma və inkişaf mərhələləri ardıcıl şəkildə təhlil olunur. Beynəlxalq Cüdo Federasiyasının (1951) və Avropa Cüdo Birliyinin (1952) yaradılmasından sonra bu idman növü 1964-cü ildə Olimpiya Oyunlarının proqramına daxil edilmiş və 1972-ci ildən etibarən Azərbaycan ərazisində planlı şəkildə inkişaf etdirilməyə başlanmışdır. Respublikada ilk cüdo bölmələrinin açılması, məşqçi və hakim kadrlarının hazırlanması, klubların təşkili və geniş coğrafiyada yayılması məqalədə faktlarla göstərilir. Azərbaycan Cüdo Federasiyasının 1996-cı ildə rəsmən qeydiyyata alınması, müxtəlif dövrlərdə federasiyaya rəhbərlik edən şəxslər və idarəetmə strukturundakı dəyişikliklər haqqında məlumat verilir. Məqalədə həmçinin tanınmış məşqçilərin fəaliyyətləri, ilk beynəlxalq dərəcəli idmançılar və hakimlər, SSRİ dövründə əldə olunan nailiyyətlər və cüdonun ölkədə formalaşmasında mühüm rol oynayan şəxslər qeyd olunur. Araşdırmada Azərbaycan cüdoçularının Olimpiya Oyunları, dünya və Avropa çempionatlarında qazandıqları yüksək nəticələr geniş şəkildə təqdim edilir. Nazim Hüseynov, Elnur Məmmədli, Mövlud Mirəliyev, Zəlim Kotsoyev, Elxan Məmmədov və digər idmançıların qazanılmış qızıl, gümüş və bürünc medalları ölkənin cüdo tarixinin əhəmiyyətli nailiyyətləri kimi vurğulanır. Nəticə olaraq, məqalə Azərbaycanda cüdonun təşəkkülü, təşkilati quruculuğu, kadr hazırlığı və beynəlxalq uğurlarını əhatəli şəkildə əks etdirir.

Açar sözlər: *cüdo, Azərbaycan Cüdo Federasiyası, Olimpiya Oyunları, beynəlxalq çempionatlar, məşqçilər, idman nailiyyətləri, idman klubları, SSRİ dövrü, idman tarixi, idman idarəçiliyi*

Abstract. The article provides a sequential analysis of the stages of the emergence and development of judo in Azerbaijan. Following the establishment of the International Judo Federation (1951) and the European Judo Union (1952), judo was included in the Olympic Games program in 1964, and its systematic development in Azerbaijan began in 1972. The article presents facts on the opening of the first judo sections, the training of coaches and referees, the organization of clubs, and their widespread dissemination across the country. Information is provided on the official registration of the Azerbaijan Judo Federation in 1996, the federation's leadership over different periods, and changes in its management structure. The activities of prominent coaches, the first international-level athletes and referees, achievements during the USSR period, and key figures who played an important role in the development of judo in the country are also discussed.

The study highlights the significant achievements of Azerbaijani judokas in the Olympic Games, World Championships, and European Championships. Notable results of athletes such as Nazim Huseynov, Elnur Mammadli, Movlud Mireliyev, Zelim Kotsoyev, and Elkhan Mammadov, who won gold, silver, and bronze medals, are emphasized as major milestones in the history of judo in Azerbaijan. In conclusion, the article comprehensively reflects the formation, organizational structure, training of personnel, and international successes of Azerbaijani judo.

Keywords: *judo, Azerbaijan Judo Federation, Olympic Games, international championships, coaches, sports achievements, sports clubs, USSR period, sports history, sports management*

Аннотация. В статье последовательно анализируются этапы возникновения и развития дзюдо в Азербайджане. После создания Международной федерации дзюдо (1951) и Европейского союза дзюдо (1952) этот вид спорта был включен в программу Олимпийских игр в 1964 году, а с 1972 года в Азербайджане началось его планомерное развитие. В статье представлены факты об открытии первых дзюдо-секций, подготовке тренеров и судейских кадров, организации клубов и их широком распространении по территории страны. Приводится информация о официальной регистрации Федерации дзюдо Азербайджана в 1996 году, руководителях федерации в разные периоды и изменениях в структуре управления. Также рассматривается деятельность известных тренеров, первых спортсменов и судей международного уровня, достижения во времена СССР и значимые личности, сыгравшие важную роль в формировании дзюдо в стране. Исследование подробно освещает высокие достижения азербайджанских дзюдоистов на Олимпийских играх, чемпионатах мира и Европы. Подчеркиваются значимые результаты спортсменов, таких как Назим Гусейнов, Эльнур Мамедли, Мовлуд Мирəлиев, Зелим Котсоев, Эльхан Мамедов, завоевавших золотые, серебряные и бронзовые медали, как важные достижения в истории дзюдо страны. В итоге статья всесторонне отражает становление, организационное устройство, подготовку кадров и международные успехи азербайджанского дзюдо.

Ключевые слова: *дзюдо, Федерация дзюдо Азербайджана, Олимпийские игры, международные чемпионаты, тренеры, спортивные достижения, спортивные клубы, период СССР, история спорта, спортивное управление*

Beynəlxalq Cüdo Federasiyası 1951-ci ildə, Avropa Cüdo Birliyi isə 1952-ci ildə yaradıldı.

Azərbaycan Cüdo Federasiası 1996-cı il dekabrın 29-da Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. İlk federasiyanın prezidenti Arif Ələkbərov olub. 1980-ci ildən isə sərbəst güləş üzrə SSRi çempionu Rəhim İsmayılov federasiyaya rəhbərlik edib. Onun rəhbərliyi 16 il çəkib". 1996-cı ildə Füzuli Ələkbərov Azərbaycan Cüdo Federasiyasının prezidenti təyin edildi. 2015-ci ildən 2021-ci ilə qədər federasiyanın baş katibi Elmar Babanlı olmuşdur. Həmin dövrdə federasiyanın prezidenti vəzifəsində Rövnəq Abdullayev təyin edilmişdi. 2021-ci ildə Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsi tərəfindən Rəşad Rəsullu qurumun baş katibi təyin edilib. O, yeni vəzifədə Elmar Babanlını əvəzləyib. Hal-hazırda isə qurumun prezidenti Rəşad Nəbiyev, vitse-prezidentləri isə Rövşən Rüstəmov və Elnur Məmmədlidir. 1992-ci ildən BCŞ, ACŞ-ın üzvüdür (9).

1964-cü ildə Tokioda artıq Olimpiya Oyunları proqramına daxil edilən cüdonu, hələ o vaxtlar Azərbaycanın da daxil olduğu SSRİ məkanında tanımırdılar (6). Bu idman növü Respublikamızda 1972-ci ildən müntəzəm olaraq Olimpiya Oyunlarına daxil olunub və daha da inkişaf edib yayılmağa başlayır. 1972-ci ildə keçmiş SSRİ Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi cüdonun SSRİ ərazisində yayılması haqqında qərar verir. Respublikamızın Bədən Tərbiyəsi və İdman Komitəsində bu növə məsul şəxs kimi Ağarza Əhmədov təyin olunur. Ağarza müəllim az sonra həm də milli komandanın baş məşqçisi təyin olunur (2).

Cüdo üzrə ilk klublar "Dinamo", "Burevestnik", "Lokomotiv", "Vodnik", "Məhsul" cəmiyyətlər Gəncə və Sumqayıt şəhərində fəaliyyət göstərmişdir. Hazırda cüdo üzrə "Attila" İK, AHİTA, "Dinamo" İC, MOİK, "Təhsil", "Neftçi", "Məhsul", "Zenit", "Lokomotiv", "Spartak", "Gənclik" TİC, "Pəhləvan" İK, "Kimyaçı", "Gömrük", "Sərhədçi" klubları fəaliyyət göstərir. Respublikamızın Bakı, Gəncə,, Sumqayıt, Mingəçevir, Yevlax, Xanlar, Şəmkir, Samux, Naftalan, Şəki, Zaqatala, Qəbələ, Şamaxı, İsmayıllı, Şirvan, Saatlı, Quba, Xaçmaz, Dəvəçi, Qusar, Siyəzən, Xızı, Masallı, Yardımlı, Ağdam və başqa rayon və şəhərlərində cüdo idman növü inkişaf etdirilir (3).

1972-ci ilin dekabrında Azərbaycan cüdo məktəbinin ilk məşqçiləri olan Ağarza Əhmə-

dov və Viktor Kuznetsov Tallində təşkil olunmuş məşqçilərin ilk ümumittifaq seminarında iştirak etmişlər. Daha sonra Azərbaycandan iki nəfər – Əhməd Rəcəbli və Viktor Kuznetsov ümumittifaq cüdo hakimləri seminarına göndərildi. 1973-cü ildə Ukraynanın Feodosiya şəhərində keçirilmiş məşqçilərin ikinci ümumittifaq seminarında Tərlan Həsənov, Zair Məmmədov, Rauf Şəfiyev iştirak etmişlər. Seminardan sonra Moskva ətrafında cüdo üzrə I ümumittifaq yarışları keçirildi. Bu yarışa əvvəlki ümumittifaq seminarı bitirən hakimlər də dəvət olunmuşdu. Həmin yarışda həmyerlimiz Sahib İsmayılov üçüncü yeri tutur. 1972-ci ilin 21-22 dekabrında respublika stadionunun idman sarayında Azərbaycan məşqçiləri və hakimlərinin ilk seminarı keçirilir. Bu seminardan sonra Bakı, Sumqayıt, Əli Bayramlı və Gəncədə ilk bölmələr fəaliyyətə başladı (3).

İlk respublika birinciliyi 1973-cü ildə Sumqayıtda keçirilib. İlk çempionat isə 1973-cü ildə respublika stadionunun idman sarayında keçirilib (3).

1974-cü ildə Zakir Kərimov SSRİ birinciliyində 60 kq çəkidə I yer, 1977-ci ildə Gənclərin II Oyunlarında I yerə layiq görülmüşdür (3).

1978-ci ildə – Fərhad Rəcəbli Qrodnoda keçirilən SSRİ birinciliyinin qalibi olur. Macarıstanın Mişkols şəhərində keçirilən Avropa birinciliyində (gənclər) üçüncü yeri tutur (3).

1981-ci ildə ilk dəfə olaraq Minskdə yaşlılar arasında nəticə göstərən Fərhad Rəcəbli üçüncü yerə çıxıb (3).

1979-cu ildə – Əhməd Rəcəbli Moskvada keçirilən Olimpiya hakimləri müsabiqəsinin iştirakçısı olub (3).

1981-ci ildən 1991-ci ilə kimi Azərbaycan Respublikasının əməkdar məşqçisi Zeynalov Fikrət Məmməd Sadıq oğlu cüdo üzrə SSRİ yığma komandasının Azərbaycan üzrə baş məşqçisi vəzifəsində çalışmışdır. F.Zeynalov Meksikanın milli yığma komandasının baş məşqçisi (1991-1996) və Misir Milli yığma komandasının baş məşqçisi vəzifəsində çalışmışdır (2001-2003) (3).

1981-ci ildə Azərbaycan məşqçiləri arasında ilk əməkdar məşqçi adını Əhməd Rəcəbli alıb. Əhməd Rəcəbli cüdo mütəxəssisləri arasında ilk əməkdar bədən tərbiyəsi və idman işçisidir. Ondan sonra isə Ağayar Axundzadə olmuşdur. 1970-ci ildə sambo üzrə prezident beynəlxalq dərəcəli hakim Arif Ələkbərov olub. İlk dəfə SSRİ-nin əməkdar məşqçisi adını Ağayar Axundzadə alıb (3).

Qızlar arasında ilk idman ustası Arzu Atayeva, ilk beynəlxalq dərəcəli idman ustası isə Gülşən Şirinova olmuşdur. İlk ümumittifaq dərəcəli hakim Rauf Şəfiyev, ilk beynəlxalq dərəcəli hakimlər isə Zair Məmmədov və Valeh Məhərrəmov olmuşlar.

Azərbaycanın ilk cüdo məşqçilərindən Rauf Şəfiyev, Ağarza Əhmədov, Tərlan Həsənov, Rauf Şəfiyev, Viktor Kuznetsov, Cərulla Sinqarov, Səməd Şəhriyarov, Əhməddin Rəcəbli, Ənvər İsgəndərov, Kivi Cəlilaşvili, Sergey Seleznyov, Abbas Şahverdiyev, Arkadi Koretski, Fikrət Zeynalov, Ağayar Axundzadə, Hacıağa Hacıəhmədov, Əli Dərvişov, Musa İsmayılov, Tərlan Poladov və başqalarını göstərmək olar (3).

İlk beynəlxalq dərəcəli idman ustası Qüdrət Pəncəliyev, ilk SSRİ əməkdar idman ustası adına Nazim Hüseynov layiq görülmüşlər (3).

1964-cü ildə Tokioda keçirilən XVIII Yay Olimpiya Oyunlarında cüdo ilk dəfə olimpiya oyunları proqramına daxil edilmişdir. Təkcə 1968-ci il Olimpiya Oyunlarında cüdo proqrama daxil olunmamışdır. 1972-ci ildə Münhendə Olimpiya Oyunlarında isə cüdo proqrama yenidən daxil olundu və indiyə qədər də bu davam edir (3).

Azərbaycan cüdosunda 1992-ci ildə Barselonada keçirilən Olimpiadada MDB yığmasını təmsil edən idmançımız Nazim Hüseynov, Elnur Məmmədli 2008-ci ildə Pekin Yay Olimpiya Oyunlarının, Zelim Kotsoyev isə 2024-cü ildə Paris Yay Olimpiya Oyunlarının çempionu olmuşlar.

Mövlud Mirəliyev 2008-ci ildə Pekin Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı, Rüstəm Orucov və Elmar Qasımov 2016-cı ildə Rio-de-Janeyro Yay Olimpiya Oyunlarının gümüş, İrina Kindzerskaya isə 2020-ci ildə Tokio Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı olmuşlar (7).

1956-cı ildə Tokioda ilk dünya çempionatı keçirildi və 1958-ci ildə Parisdə təkrarlandı. Əvvəlcə cüdoda çəki dərəcələrinə bölünmə yox idi və hər iki dünya çempionatında yaponlar qalib gəlmişlər. Lakin 1961-ci ildə keçirilmiş dünya çempionatında Hollandiyalı Anton Hessinkin çempion olması yaponların şöhrətinə zərbə endirdi və bu onları məcbur etdi ki, çəki dərəcələri sistemini yarışlarda tətbiq etsinlər. İlk çəki dərəcələri belə olmuşdur: 68 kq, 80 kq, +80 kq və

mütləq çəki dərəcəsi. Mütləq çəkidə çəkisindən asılı olmayaraq bütün cüdoçular güləşə bilərlər.

2013-cü ildə Elxan Məmmədov müstəqil Azərbaycanın cüdo üzrə ilk dünya çempionu olaraq, adını ölkə idman tarixinə yazıb (8).

Elxan Məmmədov, Hidayət Heydərov, Zəlim Kotsoyev, Nazim Hüseynov, Elnur Məmmədli, Mövlud Mirəliyev, Elxan Rəcəbli, Rəsul Səlimov, Nicat Şıxəlizadə, Ramilə Yusubova, İlqar Mişkiyev, Orxan Səfərov, Firudin Dadaşov, və b. dünya çempionu və mükafatçısı olmuşlar (9).

Nazim Hüseynov, Hidayət Heydərov, Mehman Əzizov, Elnur Məmmədli, Rəsul Səlimov, Elçin İsmayılov, Kifayət Qasımova, Tərlan Poladov, Elxan Məmmədov, İlqar Müşkiyev, Uşanqi Kokauri, Elmar Qasımov, Mehman Sadıqov, Hüseyn Rəhimli, Gülşən Şirinova, Telman Vəliyev, Hidayət Heydərov, Davud Məmmədova, Rüstəm Orucov, Orxan Səfərov, Telman Vəliyev, Kəramət Hüseynov, Məmmədəli Mehdiyev, Nicat Şıxəlizadə, Zəlim Kotsoyev, İrina Kindzerskaya və b. Avropa çempionu və mükafatçısı olmuşlar (9).

Sahib İsmayılov, Zakir Kərimov, İsmət İsgəndərov, İlqar İsmayılov, Qüdrət Pəncəliyev, Rasim Ağamirov, Musa İsmayılov, Valeh Məhərrəmov, İlqar İsgəndərov, Abdulla Mirzəliyev, Nurəddin Səlimov beynəlxalq turnirlərin, Turan Musayev, Namiq Sultanov, Rəşad Quliyev, Müseyib Cəfərov, Rza Əliyev, Xəyal Qəhrəmanov, Nigar Cabbarova, Namiq Sultanov, Fariz Ramizzadə, Nicat Şıxəlizadə, Elman Nəsibov, Elşən Kərimov, Seymur Rzayev, Timur Alixanov, Anar Əliyev, Mehman Novruzov və başqaları gənclər arasında Avropa birinciliklərinin qalibi və mükafatçısı olmuşlar (2).

Problemin elmi yeniliyi. Məqalə Azərbaycanda cüdonun yaranması və inkişaf tarixini, ilk məşqçilərin, beynəlxalq dərəcəli idmançı və hakimlərin fəaliyyətini, federasiyanın idarəetmə strukturunun dəyişikliklərini sistemli şəkildə təqdim edir. Bununla yanaşı, Azərbaycan cüdoçularının dünya və Avropa çempionatları, eləcə də Olimpiya Oyunlarındakı uğurlarının tarixçəsi və nailiyyətləri ilk dəfə əhatəli şəkildə bir mənbədə toplanmışdır. Bu, ölkə cüdo tarixi və idman inkişafı sahəsində elmi baza yaradır.

Problemin aktuallığı. idman növünün Azərbaycanda inkişafı həm milli idman siyasətinin, həm də beynəlxalq uğurların qiymətləndirilməsi baxımından aktualdır. Məqalə gənc idmançılar, məşqçilər və idman rəhbərləri üçün Azərbaycanın cüdo tarixini, nailiyyətlərini və uğurlu idarəetmə təcrübələrini öyrənmək baxımından aktuallığını qoruyur. Bununla yanaşı, ölkənin idman tarixi və beynəlxalq idman əlaqələrinin inkişafı kontekstində əhəmiyyətlidir.

Problemin praktik əhəmiyyəti. Tədqiqat nəticələri Azərbaycan cüdo federasiyası və digər idman təşkilatları üçün idarəetmə strategiyalarının hazırlanmasında, məşqçi və idmançı hazırlığında, gənc kadrların yetişdirilməsində praktiki tövsiyə kimi istifadə oluna bilər. Həmçinin, məqalə beynəlxalq yarışlara hazırlıq, idmançıların inkişaf proqramları və idman klublarının fəaliyyətinin optimallaşdırılması üçün faydalı məlumat bazası təqdim edir.

Ədəbiyyat

1. Quliyev, D.Q. Əsgərov A. “Azərbaycanda cüdo” (1972-2002): Monoqrafiya // Bakı Universitetinin” nəşriyyatı, –2002. –168 s.
2. Quliyev, D.Q. Azərbaycan Respublikasının İdman Federasiyaları».// Monoqrafiya. –Bakı: “Təknur” MMS-nin mətbəəsi, –2012. –175 s.
3. Qurbanov, X.K. və b. İdman güləşi: Dərslik// –s. 5-58.
4. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_C%C3%BCdo_Federasiyas%C4%B1.
5. https://www.facebook.com/100063523212569/posts/811807585525398/
6. https://az.wikipedia.org/wiki/R%C3%BCst%C9%99m_Orucov.
7. .https://az.wikipedia.org/wiki/Elxan_M%C9%99mm%C9%99dov_(c%C3%BCdo%C3%A7u)
8. (https://az.wikipedia.org/wiki/Kateqoriya:C%C3%BCdo_%C3%BCzr%C9%99_d%C3%BCnya_%C3%A7empionlar%C4%B1).

UOT 34

Gülbaba Balasoltan oğlu Quliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
Azərbaycan Respublikasının Əməkdar məşqçisi,
Əməkdar Bədən tərbiyəsi və İdman xadimi
https://orcid.org/0009-0001-5665-827X
E-mail: gulbaba56@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).131-134

FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ GÜLƏŞ ÜZRƏ TEXNİKİ ELEMENTLƏRİN ÖYRƏDİLMƏSİNİN ƏSAS PEDAQOJİ ŞƏRTLƏRİ

Gülbaba Balasoltan Quliyev
associate professor at Azerbaijan State Pedagogical University
Honored Coach of the Republic of Azerbaijan,
Honored Worker of Physical Education and Sports

BASIC PEDAGOGICAL CONDITIONS FOR TEACHING TECHNICAL ELEMENTS OF WRESTLING IN PHYSICAL EDUCATION LESSONS

Гюльбаба Баласолтан оглы Гулиев
доцент Азербайджанского Государственного Педагогического Университета
Заслуженный тренер Азербайджанской Республики,
Заслуженный деятель Физической культуры и Спорта

ОСНОВНЫЕ ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ОБУЧЕНИЯ ТЕХНИЧЕСКИМ ЭЛЕМЕНТАМ БОРЬБЫ НА УРОКАХ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ

Xülasə. Məqalədə güləş idman növünün səciyyəvi xüsusiyyətlərindən, xüsusən onun məktəblilərin fiziki hazırlığında, fiziki inkişafında, sağlamlığın möhkəmləndirilməsində və gigiyena mədəniyyətinin yüksəldilməsindəki əhəmiyyətindən bəhs edilir. Güləşin böyüməkdə olan gənc nəslin şəxsiyyət kimi formalaşdırılmasında, cəmiyyət üçün faydalı vətəndaşlar yetişdirilməsi rolundan danışılır. Həmin yazıda fiziki tərbiyə dərslərində güləşin oynadığı rol açıqlanır. Göstərilir ki, söylənilənlərin reallaşdırılması həmin sahədə dərslərin düzgün və səmərəli təşkili vacib şərt hesab edilir. Bunun üçün də güləş üzrə texniki elementlərin mənimsədilməsi xüsusi zərurət kəsb edir. Təlim prosesində texniki elementlərin səmərəli surətdə öyrədilməsində onun müntəzəm və ardıcıllıqla reallaşdırılması, eyni zamanda tədris məşğələlərdə fəal (interaktiv) metodla təşkil olunması şagirdlərin anatomik-fizioloji və psixoloji xüsusiyyətlərinin nəzərə alınması vacib pedaqoji şərtdir.
Açar sözlər: *interaktiv, texnologiya, orqanizm, fiziki hazırlıq, fiziki inkişaf, fiziki tərbiyə, güləş, Olimpiya, fiziki hərəkətlər, sağlamlıq*

Abstract. This article examines the specifics of wrestling, particularly its importance in physical education, the physical development of schoolchildren, promoting health, and raising hygiene standards. The role of wrestling in shaping the personality of the younger generation and cultivating citizens who are useful to society is discussed. The article explores the role of wrestling in physical education classes. It demonstrates that the implementation of the above is an important condition for the proper and effective organization of classes in this area. Mastering the technical elements of wrestling is of particular importance. For effective teaching of technical elements in the training process, an important pedagogical condition is their regular and consistent implementation, as well as organizing classes using an active (interactive) method, taking into account the anatomical, physiological, and psychological characteristics of students.
Keywords: *interactive technologies, body, physical fitness, physical development, physical education, wrestling, Olympics, motor movements, health*

Аннотация. В статье рассматриваются особенности спортивной борьбы, особенно её значение в физическом воспитании, физическом развитии школьников, укреплении здоровья и повышении гигиенической культуры. Обсуждается роль борьбы в формировании личности подрастающего поколения и воспитании полезных для общества граждан. В статье раскрывается роль борьбы на занятиях по физическому воспитанию. Показано, что реализация вышеизложенного является важным условием правильной и эффективной организации занятий по этому направлению. Особое значение при этом имеет освоение технических элементов борьбы. Для эффективного обучения техническим элементам в тренировочном процессе важным педагогическим условием является их регулярное и последовательное выполнение, а также организация занятий активным (интерактивным) методом с учётом анатомо-физиологических и психологических особенностей обучающихся.

Ключевые слова: *интерактивные технологии, организм, физическая подготовка, физическое развитие, физическое воспитание, борьба, олимпиада, двигательные движения, здоровье*

Məktəblilərin güləşçilərin fiziki hazırlığı və fiziki inkişafını təmin etmək müasir dövr üçün çox vacib və əhəmiyyətlidir. Buna görə də məktəbdə həmin işə xüsusi diqqət yetirilməlidir. Məktəblilərin hərtərəfli və ahəngdar inkişafı, düzgün tərbiyələndirilməsi onların fiziki tərbiyəsindən çox asılıdır. Bu işin lazımı səmərə verməsi məqsədi ilə orta məktəbin fiziki tərbiyə proqramına bir sıra idman növləri daxil edilmişdir. Məsələn: gimnastika, atletika, idman oyunları, kross hazırlığı, üzgüçülük, mütəhərrik oyunları və s.

Həmin fiziki tərbiyə proqramına güləş idman növü də daxil edilmişdir. Çünki güləş özünəməxsus idman növü olub, bir sıra müsbət keyfiyyətlərinə görə başqa idman növlərindən əsaslı sürətdə fərqlənir. İndi də bu məsələlərə qısa da olsa, öz münasibətimizi bildirək. Aşağıda söylənilənlərdən yalnız və yalnız məşğul olanlarda ilk təsəvvürlər yaratmaq məqsədi daşıyır. Güləş beynəlxalq miqyasda tanınır və onun özünəməxsus qaydaları mövcuddur. Buna görə də güləş idman növlərinin hər biri insan cəmiyyətinin sivilizasiyasında əhəmiyyətli dərəcədə mühüm rol oynamışdır.

Güləşdə belə bir qayda vardır ki, burada qalib gələn və məğlub olan müəyyənləşdirilir. İşin bu cür təşkili maraqlı bir baxış, zövq almaq, güləşmək kimi insanlara lazım olan mənəviyyat bəxş edir. Güləş üzrə yarış və turnirlərinin təşkili, şagirdlərin idman növləri ilə məşğul olmaları onların tərbiyəsinə, təhsilinə müsbət təsir göstərir. Güləş ən qədim zamanlardan insanların bədəncə möhkəm olmasına, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına, düşmənə qalib gəlməkdə başlıca vasitələrdən biri olmuş və hazırda da olmaqdadır. Xüsusi ilə yeniyetmələrin və gənclərin təhsil, tərbiyə və ahəngdar inkişafında əvəzedilməz rol oynayır. Çünki güləş idman növləri güc nümayiş etdirmək, cazibədar incəsənət, mədəniyyət, cəsarət, mərdlik məktəbidir.

Güləşdə qazanılan qabiliyyət nəinki hərəkətlər, idman üzrə hətta əmək fəaliyyətindən ötrü vəzifənin həyata keçirilməsində zəruri şərtdir. Bütün bunlar nəzərə alınaraq, ölkəmizdə güləşin inkişafına xüsusi diqqət yetirilir. Yay Olimpiya oyunlarında güləşçilərimizin misilsiz şücaət göstərib yüksək nailiyyət qazanmaları buna canlı misal ola bilər. Tanınmış sərbəst güləşçilər Namiq Abdullayev 54 kq çəkidə Atlanta-1996 Amerikada keçirilən XXVI Yay Olimpiya Oyunlarında gümüş, Sidney-2000 Avstraliyada keçirilən XXVII Yay Olimpiya Oyunlarında isə qızıl medala layiq görülmüşdür. Afına-2004 XXVIII Yay Olimpiya Oyunlarında Yunan-Roma güləşi üzrə Fərid Mansurov 66kq çəkidə I yeri tutmuşdur.

Pekin-2008 XXIX Yay Olimpiya Oyunlarında çəkisi 96 kq Xetaq Qazimov və 48 kq çəkidə Mariya Stadnik III yerə layiq görülmüşlər. London-2012 XXX Yay Olimpiya Oyunlarının qalibləri Toğrul Əsgərov, Şərif Şərifov və qadın güləşçi dünya çempionu Mariya Stadnik 48 kq çəkidə II yer, Xetaq Qazimov 96 kq çəkidə III yerə layiq görülmüşlər. RİO-2016 XXXI Yay Olimpiya Oyunlarında Hacı Əliyev 57 kq çəkidə, Cəbrayıl Həsənov 74 kq çəkidə III yer, Mariya Stadnik 48 kq və Xetaq Qazimov 97 kq çəkidə II yeri tutmuşlar.

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında Hacı Əliyev 65 kq, Mariya Stadnik 50 kq çəkidə II yeri tutmuşlar. Eyni zamanda Hacı Əliyev 61kq çəkidə 3 dəfə Dünya və 4 dəfə Avropa Çempionu olmuşdur.

Qadın güləşçi Mariya Stadnik iki qat dünya çempionu, dörd qat Olimpiya Oyunlarının mükafatçısı, on qat Avropa çempionu adına layiq görülmüşdür.

Bu ibrətamiz nümunədir, daha doğrusu qəhrəmanlıq nümunəsidir. Bütün bunlar nəzərə alınaraq ümumtəhsil məktəblərinin fiziki tərbiyə proqramlarına güləş tədris proqram materialı kimi bir daha daxil olmuş və özünə möhkəm yer tutmuşdur. Həmin vaxtdan onun qarşısına digər idman növləri kimi mühüm vəzifələr qoyulmuşdur.

1. Şagirdlərin sağlamlığını möhkəmləndirməklə onların iş qabiliyyətini artırmaq;

2. Məktəblilərdə yüksək əxlaqi-fiziki keyfiyyətlər tərbiyə etməklə, onlarda öz sağlamlığını qorumağın ictimai borc olmasına inam hissi tərbiyə etmək;

3. Fiziki tərbiyənin elmi-nəzəri əsaslarına, ayrı-ayrı fənlərlə əlaqəsinə, tibbi- gigiyenik bilikləri formalaşdırmaq;

4. Şagirdlərdə cəldlik, çeviklik, elastiklik, qüvvə, dözümlülük kimi fiziki hərəkət qabiliyyətlərinin yaranmasını təmin etmək;

5. Məktəblilərin anatomik-fizioloji cəhətdən normal inkişafında onlarda mövcud olan qeyri-normal halların (onurğa sütununda müşahidə olunan "qozbellik", "yastı kürəklik", çiyin qurşağının yanlara əyilməsi; ayaq pəncəsində "yastıayaqlılıq". gözdə "yaxıngörmə" və.s kimi) aradan qaldırılmasına nail olmaq.

6. Bir sıra müvafiq hərəkətlər vasitəsilə (müvazinət hərəkətləri, akrobatik və s.) uşaqlarda müvazinət hissəsinin möhkəmlənməsinə, eləcə də onurğa sütununun və bütün oynaq-bağ aparatının da elastiklik qabiliyyətinin möhkəmlənməsinə nail olmaq;

7. Gimnastika, atletika, idman oyunları, milli marş yürüşü, üzgüçülük və.s kimi fiziki hərəkətlər vasitəsilə şagirdlərdə qaçmaq, tullanmaq, dartınmaq, maneələrdən keçmək, uzağa və hədəfə cisim atmaq kimi ən vacib fiziki hazırlıq keyfiyyətlərinin yaradılmasını təmin etmək.

Qeyd etmək lazımdır ki, fiziki tərbiyə üzrə hər hansı bir praktik materialı öyrədərkən iki böyük vəzifəni icra etmək təxirə salınmazdır. Həmin vəzifələr hansılardır? Bura, ilk növbədə, proqram materiallarının hansı bir müntəzəm və ardıcıllıqla mənimsədilməsi daxildir. Yəni fiziki hazırlığın çətinliyindən asılı olaraq onun ardıcıllıq və müntəzəm surətdə məktəblilərə öyrədilməsi problemi ortaya çıxır. Məsələ bununla bitmir. Əsas işlərdən biri də proqram fəndlərinin hər birinin hansı metodika ilə mənimsədilməsidir. Əlbəttə, birinci istərsə də ikinci vəzifənin yerinə yetirilməsi üçün məqsədyönlü işin aparılmasına böyük ehtiyac vardır. Yəni bunlardan hər biri diqqət mərkəzində olmalı və məqsədəuyğun şəkildə yerinə yetirilməlidir.

Bunlardan isə güləş dərslərində orqanizmdə gedən anatomik-fizioloji dəyişikliklərin nəzərə alınması çox vacibdir. Güləş idman növü məzmun, mahiyyət və tətbiq olunan texniki fəndlər, eyni zamanda taktikasına görə digər idman növlərindən fərqlənir. Çünki güləş məşğələlərində daha xarakterik və müxtəlif növ fiziki hərəkətlər tətbiq olunur. Güləş məşğələlərində məktəblilərin idman fəaliyyəti bütövlükdə dinamik və statik hərəki fəaliyyətlərin məcmusundan ibarətdir. Ona görə də həmin hərəki fəaliyyət bir növ uzun müddətli olmaqla, eləcə də gərgin fiziki işin yüksək intensivliklə yerinə yetirilməsi ilə səciyyələnir. Bunların nəticəsində mərkəzi sinir sistemi, daxili üzvlər, skelet əzələləri intensiv fiziki iş görür, maddələr mübadiləsi isə yüksək enerji hasilatına malik olur. Bütün bunlar isə nəticə etibarilə bədənin harmonik. hərtərəfli inkişaf etməsinə, təkmilləşməsinə, fiziki mədəniyyətin, fiziki kamilliyin qazanılmasına zəmin yaradır.

Göründüyü kimi, güləş məşğələləri zamanı fiziki yükün nəticəsində orqanizmdə anatomik-fizioloji cəhətdən dəyişikliklər baş verir. Qeyd etmək vacibdir ki. normal təşkil olunmuş məşğələ prosesində qanın tərkibində, qan dövranı sistemində, ürəyin fəaliyyətində, maddələr mübadiləsi, tənəffüsdə və enerjinin istifadəsində problem meydana çıxmır, əksinə onların həyatı və funksional imkanları bir daha genişlənir, yüksək idman ustalığı artır. Sağlamlığı möhkəmlənir. Hər hansı bir məşğələdən sonra qanda hemoqlobinin, eritrositlərin, leykositlərin miqdarı yüksəlir.

Müşahidələr göstərir ki, güləşçilərdə nəbzin sayı əsasən onun fiziki fəaliyyətinin müddətindən və bu fəaliyyətin intensivliyindən mühüm dərəcə asılıdır. Məşğələlərdən sonra nəbzin sayı təxminən dəqiqədə 170-190-na qalxa bilər. Yarışdan sonra isə artıb 230-a çata bilər. Nəticədə arterial qan təzyiqi yüksəlir, sistolik təzyiq isə azalır. Lakin müşahidə olunmuşdur ki, təxminən 10-15 dəqiqə keçdikdən sonra qan dövranında meydana çıxmış bütün dəyişikliklər bərpa olunur.

Məlumdur ki, güləş zamanı sərf olunan enerji sakitlik dövrünə nisbətən 10-12-dəfə artır. Sakitlik vaxtı tənəffüs 20-22-yə, intensiv əzələ fəaliyyətində isə bu rəqəm 40-a qədər çata bilir.

Güləşçilərin qısa müddətli çıxışı ərzində o, orta hesabla 10-12 kaloriyə bərabər enerji itirir. Qeyd etmək lazımdır ki, güləş məşğələləri sümüyün böyüməsinə, əzələ-bağ aparatının möhkəmlənməsinə, eləcə də bunların hər biri ayrılıqda və bütövlükdə intensiv fəaliyyət göstərməsinə şərait yaradır. Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək mümkündür ki, təşkil olunan güləş məşğələləri yeniyetmə və gənclərin ümumi və xüsusi fiziki hazırlığına və fiziki inkişafına uyğun gəlirsə, öyrədilən texniki fəndlərin və taktikanın məqsəd və vəzifələrinə müvafiq təlim metod və prinsiplərindən istifadə olunursa, orqanizmdə heç bir təhlükəli, zərərli, xoşa gəlməyən hadisə baş verə bilməz. Əksinə məşğələlərin başdansovdu, maraqsız, gərgin təşkili, yaxud yaşa və fiziki hazırlığa uyğun keçirilmədikdə, bu orqanizmə zərərli təsir etmiş olar, zədələnmələr və bədbəxt hadisələr baş verə bilər. Bundan əlavə, idmanda tezliklə yüksək nailiyyət əldə etmək məqsədilə, olduqca böyük həcmdə fiziki yük qəbul edib gərgin fəaliyyət göstərənlər buna dözə bilmir, tezliklə idmanı tərk edirlər. Buna səbəb yeniyetmənin vaxtından əvvəl ağır fiziki yükə düçar olması, özünü "yandırması", nəticə etibarilə həddindən artıq yorulmasıdır. Bu cür xoşagəlməz amillərin qarşısını almaq üçün güləşçilər üzərində müntəzəm həkim və pedaqoji nəzarət olmalıdır. Burada məşğul olanlar arasında fiziki yükün dozalaşdırılması da vacib pedaqoji-fizioloji tədbirlərdən sayılır. Bütün bunlardan aydın olur ki, güləş təliminin müvəffəqiyyətlə yerinə yetirilməsində iki məsələyə fikir verilməlidir. Bunlardan biri öyrədilən hər bir element istər texniki element olsun, istərsə də taktiki eyni ardıcıllıqla təlim olunmalıdır. Bu sahədə düzgün mövqe tutulmalıdır. Digəri isə ümumiyyətlə götürüldükdə texniki-taktiki fəaliyyətlər üçün müvafiq bütöv bir təlim sistemi tapılmalıdır. Bütün bunların reallaşdırılması üçün proses dövrün və ictimai quruluşun tələblərinə uyğun təşkil olunmalı, məzmun milli bəşəri ruha söykənməli, zənginləşdirilməlidir.

Eyni zamanda təlim məşqlər fəal (interaktiv) metodla təşkil olunmalıdır. Xüsusən təlim-məşqlər yeni pedaqoji texnologiyalarla həyata keçirilməlidir. Bu şərtlə ki, təlim-tərbiyə prosesində məktəblilərin anatomik-fizioloji və psixoloji yaş xüsusiyyətləri nəzərə alınmış olsun.

Problemin elmi yeniliyi. Məqalədə güləşin tədrisində interaktiv metodların tətbiqi, şagirdlərin anatomik-fizioloji və psixoloji xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyi elmi əsaslarla əsaslandırılmışdır. Müəllif tərəfindən güləş texnikasının mərhələli və ardıcıl mənimsədilməsinə dair praktiki-pedaqoji model təklif edilmişdir ki, bu da mövcud tədris metodikasına yenilik gətirir.

Problemin aktuallığı. Güləşin fiziki tərbiyə proqramına daxil edilməsi həm şagirdlərin sağlamlığının möhkəmlənməsi, həm də milli idman ənənələrinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Buna görə də fiziki tərbiyə dərslərində güləş üzrə texniki elementlərin öyrədilməsi prosesinin elmi-pedaqoji əsaslarının işlənməsi müasir təhsil sisteminin aktual məsələlərindəndir.

Problemin praktik əhəmiyyəti. Tədqiqat nəticələri fiziki tərbiyə müəllimləri, idman təlimçiləri və pedaqoji fakültələrin tələbələri üçün metodik vəsait kimi istifadə oluna bilər. Məqalədə təklif olunan interaktiv təlim metodları və pedaqoji şərtlər güləşin tədrisində səmərəliliyi artırmağa, şagirdlərin fiziki və psixoloji inkişafını təmin etməyə imkan verir.

Ədəbiyyat

1. Платонов, В.Н. Теория и методика спортивной тренировки / В.Н. Платонов. – Киев: Здоровье, – 1984. – 320 с.
2. Билатов, М.М. Силовая подготовка борца / М.М. Билатов – Москва: Фис, –1983. – 150 с.
3. Quliyev, G.B. Çağırışaqədər dövrdə gəclərin güləş üzrə məşğələlərin təşkili / G.B. Quliyev. –Bakı: ADPU, –2005. – 112 s.
4. Quliyev, B.S. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları / B.S. Quliyev. –Bakı: ADPU, –2009. –180 s.
5. Quliyev, B.S. İbtidai sinif şagirdlərinin fiziki tərbiyəsinin aktual problemləri / B.S. Quliyev. –Bakı: Elm. –2013. – 156 s.

Redaksiyaya daxil olub: 08.12.2025

UOT 616-016.8+613.7

Rüfət Azər oğlu Əkbərov,
Azərbaycan İdman Akademiyasının Fiziki hazırlıq kafedrasının baş müəllimi
https://orcid.org/0000-0003-2885-7770
E-mail: rufat.akbarov@sport.edu.az

Xanlar Ramiz oğlu Qocayev,
Azərbaycan İdman Akademiyasının Fiziki hazırlıq kafedrasının baş müəllimi
https://orcid.org/0000-0001-5633-8455
E-mail: khanlar.gocayev@sport.edu.az

Orxan Mübariz oğlu Muxtarov
Azərbaycan İdman Akademiyasının Fiziki hazırlıq kafedrasının müəllim-metodisti
https://orcid.org/0000-0001-6938-4266
E-mail: orxan.muxtarov@sport.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).135-139

FİZİKİ MƏHDUDİYYƏTLİ ŞAGİRDLƏRİN FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Rufat Azer Akbarov
senior lecturer at the department of Physical training
of the Azerbaijan Sports Academy

Khanlar Ramiz Gocayev,
senior lecturer at the department of Physical training
of the Azerbaijan Sports Academy

Orkhan Mubariz Mukhtarov
teacher-methodologist at the department of Physical training
of the Azerbaijan Sports Academy

FEATURES OF THE ORGANIZATION OF PHYSICAL EDUCATION CLASSES FOR STUDENTS WITH DISABILITIES

Руфат Азер оглы Акперов,
старший преподаватель кафедры Физической подготовки
Азербайджанской Академии Спорта

Ханлар Рамиз оглы Годжаев,
старший преподаватель кафедры Физической подготовки
Азербайджанской Академии Спорта

Орхан Мубариз оглы Мухтаров
преподаватель-методист кафедры Физической подготовки
Азербайджанской Академии Спорта

ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ ЗАНЯТИЙ ПО ФИЗИЧЕСКОМУ ВОСПИТАНИЮ УЧАЩИХСЯ С ОГРАНИЧЕННЫМИ ФИЗИЧЕСКИМИ ВОЗМОЖНОСТЯМИ

Xülasə. Fiziki məhdudiyyətləri olan uşaqların cəmiyyətə inteqrasiya olunmalarında, onlarda idmanın müxtəlif növlərinə maraq yaradılmasında valideynlərinin və məktəblərdə fiziki tərbiyə müəllimlərinin də

üzərinə böyük məsuliyyət düşür. Məktəblərdə fiziki məhdudiyyətli şagirdlərlə fiziki tərbiyə dərsləri onların sağlamlıqlarına və fiziki hazırlıq səviyyələrinə görə müxtəlif qruplara ayrılaraq keçirilməsi onların sağlamlıqlarının möhkəmləndirilməsinə, hərəki qabiliyyətlərinin inkişaf etdirilməsinə və fiziki hazırlığının artırılmasına xidmət edir. Sağlamlığında, fiziki hazırlığında cüzi geriləmələri olan şagirdlərlə fiziki hərəkətlərin təlimi və icrası zamanı fiziki yük aşağı səviyyəyə endirilir, dərsin məzmunu sadələşdirilir.

Məqalədə fiziki məhdudiyyətləri olan şagirdlərin fiziki tərbiyə dərslərinin təşkili xüsusiyyətləri araşdırılır.

Açar sözlər: *fiziki məhdudiyyətli şagirdlər, fiziki tərbiyə dərsləri, xüsusi tibbi qruplar, fiziki hərəkətlərin təlimi, dərsin məzmunu, inklüziv təhsil*

Abstract. Both their parents and physical education teachers in schools have a great responsibility in integrating children with physical disabilities into society and developing their interest in various sports. Conducting physical education classes in schools with students with disabilities, divided into different groups according to their state of health and level of physical fitness, serves to strengthen their health, develop motor abilities, and increase physical fitness. When teaching and performing physical exercises with students with minor deviations in health and physical fitness, physical activity is reduced to a low level, and the lesson content is simplified.

The article discusses the specifics of the organization of physical education lessons for students with physical disabilities.

Key words: *students with physical disabilities, physical education classes, special medical groups, physical exercise training, lesson content, inclusive education*

Аннотация. Большая ответственность в интеграции детей с физическими ограничениями в общество, формировании у них интереса к различным видам спорта лежит и на их родителях, и на учителях физической культуры в школах. Проведение в школах уроков физкультуры с учащимися с ограниченными физическими возможностями, разделенными на различные группы по состоянию их здоровья и уровню физической подготовленности, служит укреплению их здоровья, развитию двигательных способностей, повышению физической подготовленности. При обучении и выполнении физических упражнений с учащимися, имеющими незначительные отклонения в состоянии здоровья, физической подготовленности, физическая нагрузка снижается до низкого уровня, упрощается содержание урока.

В статье рассматриваются особенности организации уроков физического воспитания учащихся с физическими ограничениями.

Ключевые слова: *учащиеся с физическими ограничениями, занятия по физическому воспитанию, специальные медицинские группы, обучение физическим упражнениям, содержание урока, инклюзивное образование*

Statistik göstəricilərə əsasən, Azərbaycan Respublikasında təqribən 620.000 nəfərə yaxın fiziki məhdudiyyətli insan yaşayır. Bu sayın 62.000 nəfərini isə uşaqlar təşkil edir. Onlardan 9.355-i evdə təhsilə, 2.725-i yardımçı internat məktəblərinə, 2.558-i yardımçı məktəblərə, 412-si qarışıq tipli internat məktəblərinin xüsusi siniflərinə, 298-i inklüziv təhsilə cəlb olunan uşaqlar, 46.652-si isə təhsildən kənar qalan əlilliyi olan uşaqlardır.

2006-cı ildə BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına qoşulan Azərbaycan fiziki məhdudiyyətli şəxslərin hüquqlarının qorunması, onların sağlamlığının bərpası, sosial rifahının yüksəldilməsi, peşəkar ixtisasların əldə edilməsi, bir sözlə, onların tamhüquqlu üzvlər kimi cəmiyyətə inteqrasiyası istiqamətində tədbirlər görür. Məhz bu məqsədlə ölkəmizdə əlillər üçün reabilitasiya mərkəzi, əlillərin inkişaf mərkəzləri və Heydər Əliyev Fondu tərəfindən yaradılmış "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzləri" fəaliyyət göstərir.

Fiziki imkanları məhdud olan şəxslər üçün bədən tərbiyəsi və idman sahəsində təminatlar "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Bu baxımdan da, fiziki məhdudiyyətləri olan uşaq və yeniyetmələrin fiziki tərbiyəsi xüsusi əhəmiyyət daşıyır. Bu məqalənin **məqsədi** fiziki məhdudiyyətli şagirdlərin fiziki tərbiyə dərslərinin təşkili xüsusiyyətlərini tədqiq etməkdən ibarətdir.

Məlum olduğu kimi, fiziki tərbiyə pedaqoji bir prosesdir. Lakin bu prosesin özü böyüməkdə olan bədənin üzv və sistemlərinə vacib qida maddələrinin tədarükünü fəallaşdırmaq üçün fiziki yükün tətbiqi ilə məhdudlaşmır. Metodiki cəhətdən düzgün təşkil edilmiş fiziki tərbiyə

dərsi adi halda aşkarlanması mümkün olmayan şagird psixologiyasının xüsusiyyətlərini müəyyən etməyə, proqnozlaşdırmağa və düzgün istiqamətləndirməyə imkan verir [1].

Hər bir sinifdə dərsin təşkili, tədris vahidlərinə əsaslanaraq həyata keçirilir. Tədris vahidi qismində şagirdlərin fiziki hazırlığının əsas komponentləri olan sürət, sürət-güc, bədənin əyilmə qabiliyyəti, qüvvə, çeviklik və dö-zümlülük kimi hərəki qabiliyyətlər seçilir [1].

Şagirdlər, sağlamlıq vəziyyətlərinə və fiziki hazırlıq səviyyələrinə əsasən, 3 əsas tibbi qrupa bölünürlər: əsas qrup (sağlam şagirdlər), hazırlıq qrupu və xüsusi qrup [2, 3].

Hazırlıq qrupuna daxil olan şagirdlərdə sağlamlıq vəziyyətində, hərəki qabiliyyətlərin inkişafında və fiziki hazırlıqda müəyyən zəifləmələr müşahidə olunur. Bu qrupda fiziki tər-biyənin əsas məqsədi şagirdlərin sağlamlığını gücləndirmək, hərəki qabiliyyətlərini inkişaf etdirmək və fiziki hazırlıqlarını yaxşılaşdırmaqla onları əsas qrupa keçirməyi təmin etməkdir. Fiziki hərəkətlərin öyrədilməsi və icrası zamanı fiziki yük aşağı səviyyədə tutulur, şagirdlərə qarşı normativ tələblər azaldılır. Dərslər sadələşdirilmiş formada keçirilir, təkrar sayı və müddəti azaldılır, böyük əzələ gərginliyi tələb edən hərəkətlərdən qaçınılır. Estafet yarışları, ağırlıq qaldırma, sürətli qaçış və maneələri aşma kimi fəaliyyətlər məhdudlaşdırılır. Bu qrupdakı şagirdlərə hərəkət fəaliyyəti fərdi və ya qrup şəklində təyin edilə bilər.

Xüsusi tibbi qruplarda olan şagirdlər yüksək fiziki yüklərə tab gətirə bilməzlər, çünki bu, onların sağlamlığına zərər verə bilər. Xüsusi tibbi qrupa daxil edilmə müvəqqəti və ya daimi ola bilər, bu, xəstəliyin növündən və ya digər sağlamlıq məhdudiyyətlərindən asılıdır. Bu qruplarda məşğələlərin vəzifələri orqanizmin gücləndirilməsi, düzgün fiziki inkişafın dəstəklənməsi, xəstəlik nəticəsində zəifləmiş orqan və sistemlərin funksiyalarının bərpası, əqli və fiziki iş qabiliyyətinin artırılması, immunitetin gücləndirilməsi, duruşun formalaşdırılması və ya düzəldilməsi, səmərəli tənəffüsün öyrədilməsi, əsas hərəkət bacarıqlarına yiyələnmə, mənəvi keyfiyyətlərin tərbiyəsi, müstəqil məşğələlərin təşviqi və gələcək əmək fəaliyyətinə hazırlıqdan ibarətdir. Bu məqsədlərə nail olmaq üçün müalicəvi bədən tərbiyəsi məşğələləri təşkil edilir, məşğələlərin məzmunu müəllim və həkim tərəfindən birgə hazırlanır [3, 4].

Şagirdin xəstəliyindən asılı olaraq, xüsusi tibbi qruplar yarımqruplara bölünə bilər: ürək, ağciyər, mədə-bağırsaq xəstəlikləri, piylənmə və gözlə əlaqəli anomaliyalar. Sağlamlıq məhdudiyyətləri olan şagirdlər üçün fiziki tərbiyənin əsas forması üç hissədən ibarət olan dərsdir: hazırlıq, əsas və tamamlayıcı. Lakin adi dərslərdən fərqli olaraq hazırlıq və tamamlayıcı hissələr daha uzun sürür. Hazırlıq hissədə ümumi inkişafetdirici hərəkətlər aşağı və orta sürətlə 20 dəqiqəyə qədər tənəffüs hərəkətləri ilə əvəzlənərək keçirilir. Fiziki yük tədricən artırılır, bütün orqan və sistemləri əsas hissəyə hazırlayan hərəkətlər seçilir. Əsas hissədə şagirdin imkanları daxilində hərəkət bacarıqları inkişaf etdirilir, sadə hərəkət vərdişlərinə yiyələnmə təmin edilir. Daha çox gimnastika hərəkətlərindən istifadə olunur, çünki onlar daha yaxşı tənzimlənir və orqanizmə müsbət təsir göstərir. Məşğələlərdə atletika, oyunlar da istifadə edilə bilər. Akrobatik, gərginlik tələb edən hərəkətlər istisna olunur. Tamamlayıcı hissədə rahat yerimə və bərpaedici tənəffüs hərəkətləri verilir. Sağlamlığı zəif olan şagirdlərlə hərəkət rejimi dəqiqədə 120-130 ÜDS və tədricən əsas hissədə dəqiqədə 140-150 ÜDS qədər intensivliyi artırmaq olar. Dəqiqədə 130-150 ÜDS aerob tənəffüsdə kardiorespirator sistemi üçün optimal şərait olub, yaxşı məşq etmə effekti yaradır.

Fiziki tərbiyə müəllimi şagirdin ÜDS, tənəffüsünə, xarici görünüşünə diqqət yetirməlidir [3] (cədvəl 1).

Cədvəl 1.
Yorğunluğun xarici əlamətləri

Əlamətlər	**Yorğunluğun səviyyəsi**		
	yüngül	**orta**	**böyük**
Üz dərisinin və bədənin rəngi	Azca qızarma	Əhəmiyyətli dərəcədə qızarma	Birdən qızarma, ağarma, dodaqların göyərməsi
Tər	Azca, əsasən üzdə	Baş və bədənin çox	Həddən çox, duzun bədəndən çıxması

Tənəffüs	Tez-tez rəvan	Əhəmiyyətli dərəcədə tez-tez	Hərəkət koordinasiyasının pozulması, ətrafların əsməsi
Diqqət	Səhvsiz	Komandaların səhv icrası	Adətən təkrar komandadan sonra hərəkətlərin ləng icrası,
Əhval	Şikayət yoxdur	Təngnəfəslikdən, ürək döyüntülərindən və yorğunluqdan və s. şikayət	Bərk yorğunluq, baş fırlanması, ayaqlarda ağrılar, təngə nəfəslik, qulaqlarda səs, baş ağrıları ürək bulanma

Fiziki tərbiyə dərslərindən əlavə fiziki tərbiyənin digər formalarından da istifadə edilir: səhər gigiyenik gimnastikası, dərslərə qədər gimnastika, dərs daxili bədən tərbiyə dəqiqələri; ev tapşırıqlarının icrası zamanı bədən tərbiyə fasilələri, dərslər arası fasilələrdə az intensivli mütəhərrik oyunlar, ilin bütün fəsillərində təmiz havada müxtəlif idman əyləncələri.

Fiziki inkişaf xüsusiyyətləri olan uşaqlar müəyyən təhsil ehtiyacları olanlar kimi qəbul edilir. İnklüziv təhsil sistemi bir çox ölkələrdə uğurla tətbiq edilmişdir. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" 2017-ci ildə təsdiq edilib.

İnklüziv təhsilin inkişafını təmin etmək üçün respublikada müxtəlif təşəbbüslər həyata keçirilir. 2021-ci ildən "inklüziv siniflərlə ümumi təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi" layihəsinə start verilib. Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən Elm və Təhsil Nazirliyi, eləcə də BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıqda həyata keçirilir [4, 5].

Bu layihə 2021-2022-ci tədris ilindən qüvvədədir. Hazırda bu layihə çərçivəsində fiziki imkanları məhdud şagirdlər artıq Azərbaycanın 22 regionunda 10 ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb olunublar. Bu məktəblərdə həmyaşıdları ilə yanaşı, 160 fiziki məhdudiyyəti olan uşaq təhsil alır. Layihə çərçivəsində inklüziv siniflərin izlənildiyi monitorinqlər aparılıb, məktəb rəhbərliyindən və müəllimlərdən, eləcə də valideynlərdən müvafiq məlumatlar toplanıb. Əldə olunan məlumatlara əsasən, fiziki məhdudiyyəti olan uşaq-ların sosial uyğunlaşmasının kifayət qədər uğurlu olduğu qənaətinə gəlmək olar [6, 7].

İnklüziv təlimin həyata keçirilməsinin əsas metodikası olan TOPs Böyük Britaniyanın Gənclər İdman Fondunun mütəxəssisləri tərəfindən hazırlanmış və artıq uzun illərdir ki, dövlət səviyyəsində tətbiq olunan ən uğurlu fiziki tərbiyə metodikası hesab olunur. Bu metodika Britaniyada 10000-dən çox ümumtəhsil məktəbində tətbiq edilir. Metodika fiziki tərbiyədə inklüziv tədrisin həyata keçirilməsini təmin edən təlim üsullarını da özündə birləşdirir. Bu metodika fiziki tərbiyədə həm də inklüziv tədrisin həyata keçirilməsini təmin edən təlim metodlarını da özündə birləşdirir. TOPs proqramı tədris metodudur. STEPS (Addım) və SMİLES (Təbəssüm) Prinsipləri və Metodiki Tədris Kartları TOPs layihəsinin əsasını təşkil edir. Bu prinsiplərdən istifadə etməklə müəllimlər tədrisdə lazım olan nəticələrin əldə edilməsinə və dərsin interaktiv şəkildə "Şən", "Təhlükəsiz" və "İnklüziv" tədris olunmasına nail ola bilirlər [4, 8].

Təhsil müəssisələrində fiziki tərbiyə və şəxsiyyətin formalaşması üzrə vəzifələrin həyata keçirilməsi, fiziki məhdudiyyətləri olan şagirdlərin fiziki tərbiyəsinə yönəlmiş müalicəvi və adaptiv fiziki tərbiyə məşğələləri də daxil olmaqla, təhsil prosesinin bütün formalarını əhatə edən bütöv pedaqoji sistemin yaranmasına imkan verir [7, 9].

Nəticə. Beləliklə, fiziki məhdudiyyətləri olan uşaqların cəmiyyətə inteqrasiyası və idmanla maraqlanması kompleks və həssas bir yanaşma tələb edir. Valideynlərin və fiziki tərbiyə müəllimlərinin birgə səyləri bu prosesdə həlledici rol oynayır. Uşağın fərdi ehtiyacları və qabiliyyətləri nəzərə alınaraq, fərdi idman proqramları hazırlanmalıdır. Fiziki tərbiyə müəllimləri bu uşaqlarla işləmək üçün xüsusi ba-carıqlara sahib olmalı, təhlükəsizliyi təmin etməli və zədələnmə riskini azaltmalıdırlar.

Problemin aktuallığı. Ölkəmizdə təqri-bən 620.000 nəfər fiziki məhdudiyyətli vətəndaş qeydə alınıb. Onların arasında 62.000 nəfəri uşaqlardır. Fiziki məhdudiyyətli uşaqların cəmiyyətə inteqrasiyası və onların idmana həvəsləndirilməsində valideynlərlə yanaşı, məktəblərdə çalışan fiziki tərbiyə müəllimləri də mühüm rolu oynayır. Fiziki məhdudiyyətli uşaqların sağlamlığına qayğı və onların fiziki tərbiyəsinin səmərəli təşkili olduqca aktualdır və geniş tədqiqat mövzusudur.

Problemin elmi yeniliyi. Məktəblərdə fiziki məhdudiyyətli şagirdlərlə fiziki tərbiyə dərsləri, onların sağlamlıq vəziyyəti nəzərə alınaraq ayrı-ayrı

qruplarda keçirilməsi, onların sağlamlıqlarının möhkəmləndirilməsinə və hərəki qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradır. Problemin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq bu məsələ dərindən təhlil edilərək konkret təkliflər və metodiki göstərişlər verilmişdir.

Problemin praktik əhəmiyyəti. Məktəblərdə fiziki tərbiyə dərslərinin fərdi sağlamlıq və fiziki hazırlıq səviyyələrinə uyğun qruplara bölünməsi, hər bir uşağın ehtiyaclarına cavab verən, təhlükəsiz və effektiv məşqlərin təmin edilməsi üçün vacibdir. Fiziki yüklənmənin tənzimlənməsi və dərslərin sadələşdirilməsi, sağlamlıqlarında cüzi geriləmələri olan şagirdlərin də bu prosesə rahatlıqla qoşulmasına imkan yaradır. Məqalədən orta ümumtəhsil məktəblərində çalışan fiziki tərbiyə müəllimləri və gənc tədqiqatçılar yararlana bilərlər.

Ədəbiyyat

1. Hüseynov, F.A. və b. Ümumtəhsil məktəblərinin V-XI siniflərində Fiziki tərbiyə / –Bakı: Müəllim, –2012. –168 s.
2. Nəsrullayev, M.Ə. və b. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası (dərs vəsaiti)/ –Bakı: Araz, –2012. –372 s.
3. Məcidov, N.B. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası, dərslik, II hissə / N.B. Məcidov. –Bakı, 2020. –224 s.
4. Cəfərov, Q.M. Adaptiv bədən tərbiyəsinin əsas müddəaları (tədris-metodiki vəsait) / Q.M. Cəfərov, R.A. Əkbərov, X.R. Qocayev. –Bakı: Müəllim, –2024. –268 s.
5. Qasımov, S.Ə. Talıbov Y. Anomal uşaqların əlahiddə pedaqogikasının əsasları / S.Ə. Qasımov, Y. Talıbov. –Bakı: Çaşıoğlu, –2000. – 125 s.
6. Məmmədova Ə. Əqli və fiziki inkişafdan geri qalan uşaqların yardımçı məktəbə seçilməsi qaydaları //– Bakı: Bakı Universitetinin xəbərləri. Sosial-elmlər seriyası. –2014, № 2.
7. Rüstəmova, L.H. Xüsusi pedaqogika/ L.H. Rüstəmova, N.T. Hüseynova. –Bakı, 2007. – 147 s.
8. Hüseynova, N.T. Xüsusi pedaqogikanın müasir problemləri. / N.T. Hüseynova, M.Ş. Məlikov. –Bakı: ADPU, –2018, –230 s.
9. Babanlı Y.M. Orta məktəblərdə fiziki tərbiyənin məzmunu, inkişafı və təkmilləşdirilməsi // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2018. №8, –s. 260-264.

Redaksiyaya daxil olub: 09.12.2025

UOT 378.12

Müjkan Əbüləli qızı Məmmədzadə
Hərbi Elmi Tədqiqat İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5693-3748
E-mail: mujkan@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).140-145

AZƏRBAYCANIN HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN HƏRBİ PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

Mujkan Abdulali Mammadzadeh
doctorial student in the program of doctor of sciences,
of the Military Research Institute,
doctor of philosophy in pedagogy

TRAINING OF MILITARY-PEDAGOGICAL PERSONNEL FOR AZERBAIJAN'S MILITARY EDUCATIONAL INSTITUTIONS

Мужкан Абдулали гызы Мамедзаде
доктор философии по педагогике,
диссертант по программе доктора наук
Военного Научно-Исследовательского Института

ПОДГОТОВКА ВОЕННО-ПЕДАГОГИЧЕСКИХ КАДРОВ ДЛЯ ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ АЗЕРБАЙДЖАНА

Xülasə. Bu məqalə Azərbaycanın hərbi təhsil müəssisələrində pedaqoji kadrların hazırlanmasının aktual problemlərini, mövcud vəziyyətini və inkişaf perspektivlərini sistemli şəkildə araşdırır. Tədqiqatın əsas məqsədi müasir döyüş əməliyyatlarının mürəkkəbliyi, regional təhlükəsizlik mühitinin dəyişməsi və yüksək texnologiyaların rolunu nəzərə alaraq zabit-müəllimlərin hazırlığında milli və beynəlxalq təcrübənin inteqrasiyasını təhlil etməkdir. Məqalədə hərbi pedaqogikanın nəzəri-metodoloji əsasları, pedaqoji fəaliyyətin strukturu və funksiyaları, normativ-hüquqi baza, pedaqoji kadrların peşəkar profili və tədris metodlarının səmərəliliyi qiymətləndirilir.

Məqalədə həmçinin beynəlxalq təcrübə və rəqəmsal təlim texnologiyalarının inteqrasiyası əsasında zabit-müəllimlərin hazırlığı üçün elmi əsaslı metodik tövsiyələr təqdim olunmuşdur. Aparılan tədqiqatın nəticələri hərbi təhsil prosesinin keyfiyyətini artırmaq və Silahlı Qüvvələrin döyüş hazırlığını optimallaşdırmaq baxımından praktiki əhəmiyyət kəsb edir.

Açar sözlər: *ali hərbi təhsil müəssisələri, tədris fəaliyyəti, hərbi pedaqogika, kadr hazırlığı, elmi-metodiki baza*

Abstract. The article systematically examines the current challenges, status, and development prospects of pedagogical personnel training in Azerbaijan's military educational institutions. The main objective of the study is to analyze the integration of national and international experience in officer-teacher training, taking into account the complexity of modern combat operations, changes in the regional security environment, and the role of advanced technologies. The article evaluates the theoretical and methodological foundations of military pedagogy, the structure and functions of pedagogical activity, the regulatory framework, the professional profile of pedagogical personnel, and the effectiveness of teaching methods.

The study also provides scientifically based methodological recommendations for officer-teacher training through the integration of international experience and digital learning technologies. The results of the research are of practical importance for improving the quality of the military education process and optimizing the combat readiness of the Armed Forces.

Keywords: *higher military educational institutions, teaching activity, military pedagogy, personnel training, scientific-methodological basis*

Аннотация. Статья системно исследует актуальные проблемы, текущее состояние и перспективы развития подготовки педагогических кадров в военных образовательных учреждениях Азербайджана. Основная цель исследования заключается в анализе интеграции национального и международного опыта подготовки офицеров-преподавателей с учетом сложности современных боевых операций, изменения региональной среды безопасности и роли высоких технологий. В статье оцениваются теоретико-методологические основы военной педагогики, структура и функции педагогической деятельности, нормативно-правовая база, профессиональный профиль педагогических кадров и эффективность методов обучения.

Также представлены научно-обоснованные методические рекомендации по подготовке офицеров-преподавателей на основе интеграции международного опыта и цифровых образовательных технологий. Результаты проведенного исследования имеют практическое значение для повышения качества образовательного процесса в военных учебных заведениях и оптимизации боевой готовности Вооруженных Сил.

Ключевые слова: *высшие военные учебные заведения, учебная деятельность, военная педагогика, подготовка кадров, научно-методическая база*

Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsi, regional güc balansının dəyişməsi və müasir döyüş əməliyyatlarının xarakterinin qloballaşması hərbi təhsil sisteminin elmi-metodoloji əsaslarının yenilənməsini zəruri edir. Bu gün ordu qarşısında duran strateji və taktiki vəzifələrin icrası zabit heyətinin yalnız döyüş vərdişlərinə deyil, həm də inkişaf etmiş pedaqoji, psixoloji, kommunikativ və idarəetmə bacarıqlarına malik olmasını tələb edir. Çünki müasir əməliyyat mühiti çoxşaxəli, dəyişkən və yüksək riskli situasiyalarla səciyyələnir və bu, şəxsi heyətlə işləyən zabit-müəllimlərin multidissiplinar səriştələrə sahib olmasını şərtləndirir.

Azərbaycan ordusunda aparılan islahatlar göstərir ki, hərbi pedaqoji kadr hazırlığı Silahlı Qüvvələrin ümumi döyüş qabiliyyətinin artırılmasında həlledici faktorlardan biridir. Zabit-müəllimlərin hazırlıq səviyyəsi bilavasitə şəxsi heyətin psixoloji dayanıqlığına, döyüş hazırlığına, nizam-intizamına və döyüş tapşırıqlarının icra keyfiyyətinə təsir göstərir. Bu səbəbdən hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının elmi əsaslarda təşkil olunması, beynəlxalq standartlara uyğunlaşdırılması və müasir təlim texnologiyalarına inteqrasiyası strateji əhəmiyyət kəsb edir.

Qlobal təhlükəsizlik mühiti, xüsusilə Cənubi Qafqaz regionunda hərbi-siyasi proseslərin dinamikası zabit-müəllimlərin fəaliyyətində çeviklik, situasiyayönlü qərarvermə, eləcə də şəxsi heyətin psixoloji idarə olunması kimi bacarıqları ön plana çıxarır. Müharibələrin hibridləşməsi, informasiya təsirlərinin artması, döyüşün fiziki və psixoloji stressinin yüksəlməsi hərbi pedaqoji kadrların daha dərindən hazırlaşmasını tələb edir. Buna görə də hərbi pedaqogika yalnız didaktik biliklər sistemi deyil, həm də liderlik, sosiopsixoloji proseslərin idarə olunması və döyüş psixologiyasının tədrisi kimi sahələri özündə birləşdirən kompleks fəaliyyət sahəsinə çevrilir.

Beynəlxalq təcrübə, xüsusilə NATO ölkələrinin hərbi təhsil modelləri göstərir ki, pedaqoji hazırlıq zabit fəaliyyətinin əsas komponentlərindən biri kimi formalaşdırılır və xidmət boyunca davam edən sistemli inkişaf proqramları ilə dəstəklənir. Simulyasiya texnologiyalarının tətbiqi, situativ təlim modulları, psixoloji davamlılıq proqramları və komanda idarəçiliyi üzrə təlim paketləri zabit-müəllimlərin hazırlığında xüsusi rol oynayır. Azərbaycanın hərbi təhsil sistemində aparılan islahatlar da məhz bu qabaqcıl yanaşmalarla uzlaşmağı hədəfləyir.

Hərbi pedaqogikanın nəzəri-metodoloji əsasları

Hərbi pedaqogika tətbiqi və nəzəri aspektləri ilə fərqlənən multidissiplinar elmdir. O, şəxsi heyətin döyüş xidməti mühitində təlim, tərbiyə və psixososial inkişafını öyrənir, zabit-müəl-

limlərin hazırlığı, təlim prosesinin idarə olunması, döyüş hazırlığının psixopedoqoji təminatı və kollektiv münasibətlərin formalaşdırılması kimi məsələləri əhatə edir. Hərbi pedaqogikanın predmeti yalnız biliklərin ötürülməsi deyil, həm də psixoloji, etik və sosial komponentləri ilə birlikdə şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasına yönəlmiş sistemli fəaliyyətləri özündə birləşdirir.

Elmi ədəbiyyatda hərbi pedaqogikanın əsas funksiyalarının tədris, tərbiyə, psixoloji hazırlıq, idarəetmə və araşdırma fəaliyyətləri kimi təsnif edilməsi bu sahənin çoxşaxəli və kompleks mahiyyətini aydın şəkildə əks etdirir. Hərbi pedaqogika yalnız bilik ötürülməsi ilə məhdudlaşmayan, eyni zamanda şəxsiyyətin formalaşmasını, döyüş şəraitinə uyğun psixoloji dayanıqlığın inkişafını və hərbi təhsil prosesinin elmi əsaslarla idarə olunmasını təmin edən sistemli elmi-praktik fəaliyyət sahəsidir [6].

Tədris funksiyası hərbi pedaqogikanın aparıcı istiqamətlərindən biri kimi zabit-müəllimlərin peşəkar bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasına yönəlir. Bu funksiya çərçivəsində taktiki hazırlıq, hərbi texnika və silah sistemlərinin mənimsənilməsi, normativ sənədlərin öyrədilməsi və müasir döyüş konsepsiyalarının tədrisi həyata keçirilir. Elmi tədqiqatlarda qeyd olunur ki, hərbi tədris mülki təhsildən fərqli olaraq, yüksək intizam, vaxt məhdudiyyəti və risk amilləri ilə səciyyələnir ki, bu da tədris metodlarının xüsusi yanaşmalar əsasında qurulmasını zəruri edir [3]. Bu baxımdan, problem əsaslı təlim, situativ tapşırıqlar və simulyasiya texnologiyaları tədris funksiyasının effektivliyini artıran əsas vasitələr kimi çıxış edir.

Tərbiyə funksiyası hərbi pedaqogikanın ideya-mənəvi əsasını təşkil edir və hərbi qulluqçularda vətənpərvərlik, məsuliyyət, kol-lektivçilik, intizam və xidmət borcuna sədaqət kimi keyfiyyətlərin formalaşdırılmasına xidmət edir. Hərbi tərbiyə prosesi yalnız nəzəri ideoloji təsir vasitələri ilə deyil, həm də gündəlik xidmət fəaliyyəti, nümunəvi davranış və komandir–müəllim nüfuzu əsasında həyata keçirilir. Bir sıra tədqiqatçılar vurğulayırlar ki, hərbi tərbiyə funksiyası milli təhlükəsizlik maraqları ilə birbaşa bağlıdır və ordunun mənəvi-psixoloji potensialının əsas dayaqlarından biri hesab olunur [8].

Psixoloji hazırlıq funksiyası müasir dövrdə hərbi pedaqogikanın ən aktual istiqamətlərindən biri kimi dəyərləndirilir. Döyüş şəraiti, yüksək stress, risk və qeyri-müəyyənlik amilləri hərbi qulluqçulardan güclü emosional stabillik və qərarvermə bacarığı tələb edir. Bu baxımdan, hərbi pedaqogika çərçivəsində psixoloji hazırlıq funksiyası stressə davamlılıq, döyüş qorxusunun idarə olunması, kollektiv daxilində psixoloji uyğunluğun təmin edilməsi və liderlik keyfiyyətlərinin inkişafını əhatə edir [5]. Elmi mənbələrdə qeyd olunur ki, psixoloji hazırlığın tədris və tərbiyə funksiyaları ilə inteqrasiyası ümumi hərbi hazırlığın keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

İdarəetmə funksiyası hərbi pedaqogikanın təşkilati-strateji aspektini əks etdirir və təlim-tərbiyə prosesinin planlaşdırılması, koordinasiyası, monitorinqi və qiymətləndirilməsi ilə bağlıdır. Bu funksiya zabit-müəllimlərin yalnız pedaqoji deyil, eyni zamanda menecerlik səriştələrinin formalaşdırılmasını tələb edir. Müasir hərbi təhsil sistemlərində idarəetmə funksiyası nəticəyönlü planlaşdırma, keyfiyyətə nəzarət və resursların səmərəli istifadəsi prinsiplərinə əsaslanır [2]. Tədqiqatlar göstərir ki, effektiv pedaqoji idarəetmə olmadan hərbi təhsilin digər funksiyalarının məqsədyönlü şəkildə reallaşdırılması mümkün deyil.

Araşdırma funksiyası isə hərbi pedaqogikanın elmi inkişafını və innovativ yenilənməsini təmin edən əsas mexanizm kimi çıxış edir. Bu funksiya çərçivəsində təlim metodlarının təkmilləşdirilməsi, yeni pedaqoji texnologiyaların tətbiqi, hərbi təhsildə qarşıya çıxan problemlərin elmi təhlili və təcrübə əsasında həll yollarının hazırlanması həyata keçirilir. Elmi ədəbiyyatda vurğulanır ki, araşdırma fəaliyyəti zabit-müəllimlərin reflektiv düşünmə qabiliyyətini artırır və onların peşəkar inkişafını davamlı prosesə çevirir.

Hərbi pedaqogikanın tədris, tərbiyə, psixoloji hazırlıq, idarəetmə və araşdırma funksiyaları bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla zabit-müəllimlərin çoxsahəli səriştələrinin formalaşmasını təmin edir. Bu funksiyaların sistemli və balanslı şəkildə həyata keçirilməsi hərbi təhsil prosesinin effektivliyini yüksəldir və nəticə etibarilə ordunun peşəkar, intellektual və mənəvi potensialının gücləndirilməsinə xidmət edir.

Hərbi pedaqoji fəaliyyət müxtəlif tədris və tərbiyə proseslərini birləşdirən kompleks sistemdir. Tədris fəaliyyəti nəzəri və praktiki bilik-

lərin mənimsənilməsi ilə bağlıdır, burada əsas məqsəd hərbi biliklərin şəraitə uyğun tətbiqidir. Tərbiyə fəaliyyəti isə şəxsi heyətin mənəvi, döyüş və etik keyfiyyətlərinin inkişafına yönəlir. Psixoloji hazırlıq, stressə davamlılıq, qərarvermə və komanda daxilində liderlik bacarıqlarının formalaşdırılması kimi cəhətləri əhatə edir. İdarəetmə fəaliyyəti isə qrup dinamikasının qorunması, motivasiya, səmərəli kommunikasiya və təlim prosesinin monitorinqi ilə bağlıdır. Araşdırma fəaliyyəti isə müasir təlim texnologiyalarının tətbiqi və tədris metodlarının təkmilləşdirilməsi üçün elmi əsaslar təqdim edir [10, s.24].

Bu komponentlərin hər biri akademik yanaşma və praktik bacarıqları birləşdirir. Hərbi pedaqoji fəaliyyət təkcə bilik ötürülməsi deyil, həm də liderlik nümunəsi, etik davranış və psixoloji dayaq funksiyalarını özündə birləşdirir ki, bu da zabit-müəllimlərin fərdi və qrup səriştəsini yüksəldir.

Beynəlxalq təcrübə göstərir ki, hərbi pedaqoji hazırlıq zabitlərin xidməti dövrü boyunca davam edən sistemli proqramlar əsasında həyata keçirilir. NATO ölkələrində bu proqramlar liderlik, pedaqoji bacarıqlar, psixoloji davamlılıq, komanda idarəçiliyi və müasir təlim texnologiyalarının tətbiqi modullarını əhatə edir [9].

Türkiyə, ABŞ və Almaniya hərbi təhsil sistemləri göstərir ki, pedaqoji hazırlıq yalnız ali məktəb səviyyəsində deyil, eyni zamanda xidmət müddətində də ixtisasartırma kursları, simulyasiya təlimləri və modul əsaslı proqramlar vasitəsilə dəstəklənir. Bu yanaşmalar zabit-müəllimlərin praktiki hazırlığını gücləndirir və döyüş qabiliyyətinin artırılmasına birbaşa təsir göstərir. Azərbaycan ordusunda aparılan islahatlar da məhz bu qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi ilə uzlaşmağa yönəlmişdir.

Hərbi pedaqogikanın nəzəri-metodoloji əsaslarının möhkəmləndirilməsi, pedaqoji və psixoloji təlim metodlarının inteqrasiyası, tədris prosesinin sistemli idarə olunması zabit-müəllimlərin hazırlığında müasir tələblərin yerinə yetirilməsini təmin edir və Silahlı Qüvvələrin ef-fektivliyini yüksəldir. Bu kontekst, tədqiqatın elmi və praktiki əhəmiyyətini bir daha təsdiqləyir.

Azərbaycanın hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının vəziyyəti

Azərbaycanın hərbi təhsil sistemi son onilliklərdə strateji, struktur və məzmun baxımından əhəmiyyətli dəyişikliklər keçirmişdir. Regional hərbi-siyasi proseslərin dinamikası, müasir döyüş əməliyyatlarının texnoloji və psixoloji çətinlikləri, hibrid müharibə şəraitinin tələbləri zabit-müəllim kadrlarının hazırlığına yeni yanaşmaların tətbiqini zəruri edir. Bu fəsildə mövcud vəziyyət institusional, kadr, metodoloji və elmi-metodiki aspektlər üzrə sistemli şəkildə təhlil olunur.

Azərbaycan Respublikasında hərbi təhsil sahəsinin hüquqi təminatı "Hərbi qulluqçuların statusu haqqında" qanun [4], Müdafiə Nazirliyinin təlimatları və ali hərbi məktəblərin daxili nizamnamələri ilə tənzimlənir. Milli Müdafiə Universitetinin tabeçiliyində olan tədris müəssisələri pedaqoji kadr hazırlığının əsas institusional dayaqlarıdır. Bu qurumlar zabit-müəllimlərin nəzəri, metodik və psixoloji hazırlığının həyata keçirilməsi üçün müxtəlif proqramlar tətbiq edirlər. Lakin mövcud proqramların bir hissəsinin sovet dövrünün modelinə əsaslanması müasir tələblərə uyğunlaşma prosesini ləngidir.

Hərbi təhsil müəssisələrində pedaqoji hazırlıq əsasən pedaqogika, psixologiya, didaktika və metodika üzrə fənlərin tədrisi vasitəsilə həyata keçirilir. Kursantların pedaqoji fəaliyyətə hazırlığı, xüsusilə müəllim-vəzifəli zabitlərin hazırlığı üçün xüsusi ixtisasartırma proqramları mövcuddur. Buna baxmayaraq, bəzi tədris proqramlarının məzmunu müasir pedaqoji texnologiyalar, rəqəmsal təlim mühiti və situativ tədris modelləri baxımından kifayət qədər yenilənməmişdir [1, s.83]. Mütəxəssislər qeyd edir ki, zabit-müəllimlərin funksional və psixopedaqoji hazırlığı daha çox praktiki situasiyalar üzərində qurulmalıdır.

Hərbi pedaqoji kadr hazırlığının keyfiyyəti birbaşa müəllim heyətinin peşəkarlığından asılıdır. Müasir hərbi pedaqoq yalnız bilik ötürən deyil, həm də psixoloji dayaq və liderlik nümunəsi rolunu oynayan mütəxəssis olmalıdır. NATO standartları müəllim kadrlarından pedaqoji bacarıqlarla yanaşı analitik qərarvermə, stressin idarə edilməsi, kommunikasiya və missiyayönlü hazırlıq bacarıqlarını tələb edir [7]. Azərbaycanın hərbi təhsil müəssisələrində bu istiqamət üzrə müəyyən inkişaf olsa da, müəllim heyətinin sertifikasiya sisteminin olmaması, xarici ölkələrdə ixtisasartırma imkanlarının məhdudluğu kimi problemlər qalmaqdadır.

Analiz göstərir ki, hərbi məktəblərdə ənənəvi mühazirə-seminar forması üstünlük təşkil

edir. Halbuki müasir hərbi təhsil təlimin tətbiqiyönülü, situasiya mərkəzli və problem həlli əsaslı olması prinsipini tələb edir. Simulyasiya texnologiyalarının, döyüş oyun modellərinin, virtual təlim platformalarının tətbiqi bəzi bölmələrdə həyata keçirilsə də, geniş miqyasda tətbiq olunmur [1, s.28]. Bu isə kadr hazırlığında real döyüş şəraitinə uyğunlaşdırılmış təcrübə çatışmazlığı yaradır.

Hərbi pedaqoji kadr hazırlığının mühüm komponentlərindən biri elmi-metodiki fəaliyyətin inkişaf etdirilməsidir. Azərbaycanda hərbi təhsil müəssisələrində elmi tədqiqat işlərinin aparılması üçün struktur bölmələr mövcuddur, lakin tədqiqatların NATO və digər beynəlxalq elmi mərkəzlərlə inteqrasiyası zəifdir. Elmi nəşrlərin, konfrans iştirakçılığının azlığı, metodiki vəsaitlərin yenilənməsində ləngimə mövcuddur. Bu vəziyyət pedaqoji prosesdə innovativ yanaşmaların tətbiqinin qarşısını qismən məhdudlaşdırır.

Aparılan tədqiqat göstərir ki, müasir geosiyasi reallıqlar, hərbi əməliyyatların xa-rakterində müşahidə olunan dinamik dəyişikliklər və yüksək texnologiyaların artan rolu Azərbaycanda hərbi pedaqoji kadr hazırlığının sistemli şəkildə yenilənməsini zəruri edir. Hərbi təhsil müəssisələrində pedaqoji kadr potensialının formalaşdırılması təkcə bilik və bacarıqların mənimsədilməsi ilə məhdudlaşmır; bu proses zabit-müəllimlərin strateji düşünmə qabiliyyətinin, çevik qərarvermə mədəniyyətinin, yüksək emosional dözümlülüyün və döyüş şəraitinə uyğunlaşdırılmış təlim metodologiyasının inkişafını da əhatə edir. Mövcud vəziyyət göstərir ki, Azərbaycanda hərbi təhsil sistemi böyük potensiala malik olsa da, pedaqoji kadr hazırlığının məzmunu, metodik təminatı və rəqəmsal texnologiyaların tətbiqi sahəsində modernləşmə ehtiyacı hələ də aktual olaraq qalır.

Tədqiqatın nəticələri təsdiqləyir ki, hərbi pedaqoji kadrların hazırlanması prosesində kompleks və innovativ yanaşmanın tətbiqi – modullar üzrə kompetensiya əsaslı tədris, real döyüş situasiyalarını modelləşdirən simulyatorların istifadəsi, hibrid və distant təlim imkanlarının yaradılması, eləcə də psixopedoqoji dəstək mexanizmlərinin tətbiqi tədris prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. Bu baxımdan, beynəlxalq NATO standartlarının, qabaqcıl Türkiyə və Avropa hərbi akademiyalarının təcrübəsinin adaptasiyası, milli hərbi pedaqogikanın elmi-nəzəri bazasının gücləndirilməsi və kadr hazırlığının uzunmüddətli inkişaf strategiyasının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir [7].

Eyni zamanda, tədqiqat göstərir ki, pedaqoji kadrların elmi-tədqiqat fəaliyyətinə cəlb olunması, onların metodik hazırlığının sistemli qiymətləndirilməsi və peşəkar inkişaf proqramlarının genişləndirilməsi hərbi təhsilin keyfiyyətinə bilavasitə təsir göstərir. Bu istiqamətdə institusional koordinasiyanın gücləndirilməsi, beynəlxalq təlim proqramlarına inteqrasiya və rəqəmsal resurslardan istifadə səviyyəsinin artırılması prioritet istiqamət kimi ön plana çıxır. Ümumilikdə, Azərbaycanın hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının modernləşdirilməsi ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində, zabit heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsində və müasir ordu modelinə keçiddə strateji əhəmiyyət daşıyır. Bu kontekstdə, təqdim olunan araşdırma hərbi pedaqogika üzrə elmi-nəzəri diskursun genişləndirilməsinə, təlim-tədris prosesinin optimallaşdırılmasına və uzunmüddətli inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm töhfə verir.

Problemin aktuallığı. Azərbaycanın hərbi təhsil müəssisələri üçün hərbi pedaqoji kadr-ların hazırlanması mövzusu, müasir hərbi əməliyyatların yüksək texnologiyalara əsaslanması, dəyişən təhlükəsizlik mühiti və qeyri-ənənəvi çağırışlar Azərbaycanın hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının yenilənməsini zəruri edir. Mövcud tədris proqramlarının məzmunu və metodik təminatının beynəlxalq standartlarla uyğunlaşdırılması ehtiyacı hərbi pedaqogikanın elmi-metodoloji əsaslarının gücləndirilməsini tələb edir. Bu sahədə kadr potensialının təkmilləşdirilməsi ordunun peşəkarlığının və milli müdafiə qabiliyyətinin artırılmasında strateji əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi. Aparılan tədqiqat Azərbaycanın hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının sistemli şəkildə təhlilini apararaq, mövcud modelin struktur, metodik və rəqəmsal komponentlərini elmi əsaslarla yenidən qiymətləndirməklə fərqlənir. Tədqiqat həmçinin hərbi pedaqoji hazırlığın modernləşdirilməsi üçün milli və beynəlxalq təcrübənin inteqrasiyasına əsaslanan yeni konseptual yanaşma və inkişaf istiqamətləri təklif edir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri hərbi təhsil müəssisələrində pedaqoji kadr hazırlığının məzmununun, təlim metodlarının və rəqəmsal resursların tətbiqinin təkmilləşdirilməsi üçün konkret elmi-metodik tövsiyələr təqdim edir. Məqa-

lədə irəli sürülən yanaşmalar zabit-müəllimlərin peşəkar səriştələrinin artırılmasına, tədris prosesinin səmərəliliyinin yüksəldilməsinə və təlimin real döyüş tələblərinə uyğunlaşdırılmasına praktiki imkan yaradır. Həmçinin, təqdim edilən model və metodik baza hərbi təhsil müəssisələrinin idarəetmə sistemində qərarvermə proseslərini optimallaşdırmaq və kadr hazırlığının keyfiyyətini yüksəltmək üçün tətbiq oluna bilər.

Ədəbiyyat

1. Ağayev, Ş. O., Həşimov, E. Q., Talıbov, Ə. M. Hərbi təhsildə müasir pedaqoji texnologiyalar. – Bakı: Hərbi Nəşriyyat, 2016. – 152 s.
2. Əliyeva, V. Tələbə şəxsiyyətinin formalaşmasında sosial-mədəni amillər // Milli Müdafiə Universiteti Heydər Əliyev adına Hərbi İnstitutun Elmi Əsərləri. – 2024. – Cild 22, xüsusi nömrə. – S. 53–56
3. Hacıyeva, S. Hərbi xidmətçilərin döyüşə psixoloji hazırlığı // Qədim Diyar Beynəlxalq onlayn elmi jurnal. – 2023. –№ 8. – s. 20–25. –
4. Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı: Azərbaycan Respublikasının Prezidenti, 25 dekabr 1991.
5. Mammadzada, M. A. New approaches in military personnel training: a pedagogical evaluation of teaching methods // Social Development and Security. – 2025. – Vol. 15, No. 4. – P. 72–78.
6. Məmmədzadə, M. Ali hərbi təhsil müəssisələrində tədris prosesində idarəetmə bacarıqlarının formalaşdırılması // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri. – 2025. – Cild 92, №1. – S. 105–110.
7. Məmmədzadə, M. Hərbi təhsilin nəzəri və metodoloji əsasları: müasir yanaşmalar və mənbə bazasının təhlili // Qədim Diyar Beynəlxalq Elmi Jurnal. – 2025. – Cild 7, №5. – S. 7–11. – Elektron resurs. – URL: https://aem.az/uploads/posts/2025/05/QD.%207.5_fulll-1-5.pdf
8. Nağızadə, A. Hərbi lisey kursantlarında milli-mənəvi dəyərlərin təbliği: istiqamətlər və təkliflər // Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi Əsərlər. – 2025 №1. – s. 111–116.
9. NATO Education & Training. NATO Military Education and Training Standards. – Brussels: NATO, 2022.
10. Piriyev, H. K., Həmidov, M. P., Həşimov, E. Q. Hərbi təhsildə təlim metodları: metodiki vəsait. – Bakı: Hərbi nəşriyyat, 2016. – 55 s.

Redaksiyaya daxil olub: 25.12.2025

UOT 364.04

Севиндж Хазай гызы Джалилова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике
https://orcid.org0000-0002-4753- 2835
E-mail: sevinjjalilova@yahoo.com
https://doi.org/10.69682/arti.2026.93(1).146-152

ИНТЕГРАЦИЯ АНАЛОГО-ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕСС ОБУЧЕНИЯ ФИЗИКЕ В ПЕДАГОГИЧЕСКОМ ВУЗЕ

Sevinc Xazay qızı Cəlilova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru

ANALOQ-RƏQƏMSAL TEXNOLOGİYALARIN PEDAQOJİ UNİVERSİTETDƏ FİZİKANIN TƏDRİSİ PROSESİNƏ İNTEQRASİYASI

Sevinj Xazay Jalilova
associate professor at
Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

INTEGRATION OF ANALOG-DIGITAL TECHNOLOGIES INTO THE PHYSICS TEACHING PROCESS AT A PEDAGOGICAL UNIVERSITY

Аннотация. Актуальность исследования обоснована необходимостью разрешения выявленного противоречия между своевременностью применения ИКТ в сфере профессионального образования и недостаточной конкретизацией множественности существующего «цифрового» инструментария для роста образовательной «производительности», выраженной в росте значений качества предоставляемых в высшей школе образовательных услуг. Важность своевременного решения проблемных аспектов в организации образовательного процесса позволила сформулировать цель исследования – выявление дидактических возможностей аналого-цифровых преобразований информации на примере профессиональной подготовки студентов педагогического вуза в обучении физике. Опора на результаты исследовательской деятельности других авторов в контексте темы настоящей работы позволила создать и обосновать возможность применения алгоритма организации образовательного процесса через аналого-цифровые и цифро-аналоговые преобразования учебной информации. Результатом исследования стал вариант алгоритма организации образовательного пространства, позволяющий преодолевать препятствия на пути к увеличению значений в качественных показателях в обучении физике студентов педагогического вуза.
***Ключевые слова**: аналого-цифровые преобразования: цифро-аналоговые преобразования; физика; дидактические возможности; студенты; педагогический вуз*

Xülasə. Tədqiqatın aktuallığı peşə təhsili sahəsində İKT-nin vaxtında tətbiqi ilə mövcud "rəqəmsal" alətlərin çoxluğunun təhsil "məhsuldarlığının" – ali məktəblərdə göstərilən təhsil xidmətlərinin keyfiyyət göstəricilərinin artımı baxımından – kifayət qədər konkretləşdirilməməsi arasında aşkar edilmiş ziddiyyətin aradan qaldırılması zərurəti ilə əsaslandırılır. Təhsil prosesinin təşkili ilə bağlı problemli məqamların vaxtında həllinin vacibliyi tədqiqatın məqsədini formalaşdırmağa imkan vermişdir – fizikanın tədrisi zamanı

pedaqoji universitet tələbələrinin peşə hazırlığı nümunəsində analoq-rəqəmsal informasiya çevrilmələrinin didaktik imkanlarının müəyyənləşdirilməsi. Mövcud mövzu üzrə digər müəlliflərin tədqiqat nəticələrinə istinad edilməsi tədris informasiyasının analoq-rəqəmsal və rəqəmsal-analoq çevrilmələri əsasında təhsil prosesinin təşkili alqoritminin yaradılmasını və tətbiq imkanlarının əsaslandırılmasını mümkün etmişdir. Tədqiqatın nəticəsi olaraq pedaqoji universitetdə fizikanın tədrisi zamanı keyfiyyət göstəricilərinin artırılmasına mane olan çətinliklərin aradan qaldırılmasına imkan verən təhsil məkanının təşkili alqoritmi təklif olunmuşdur.

Açar sözlər: *analoq-rəqəmsal çevrilmələr; rəqəmsal-analoq çevrilmələr; fizika; didaktik imkanlar; tələbələr; pedaqoji universitet*

Abstract. The relevance of the study is justified by the need to resolve the revealed contradiction between the timeliness of the use of ICT in the field of vocational education and the insufficient specification of the multiplicity of existing "digital" tools for the growth of educational «productivity», expressed in the growth of the quality values of educational services provided in higher education. The importance of timely solving problematic aspects in the organization of the educational process allowed us to formulate the purpose of the study to identify the didactic possibilities of analog-digital transformations of information on the example of professional training of students of a pedagogical university in teaching physics. Relying on the results of the research activities of other authors in the context of the topic of this work allowed us to create and justify the possibility of using an algorithm for organizing the educational process through analog-to-digital and digital-to-analog transformations of educational information. The result of the study was a variant of the algorithm for organizing the educational space, which allows overcoming obstacles on the way to increasing the values in qualitative indicators in teaching physics to students of a pedagogical university.

Keywords: *analog-to-digital transformations: digital-to-analog transformations; physics; didactic possibilities; students; pedagogical university*

Введение. Повышение качества образовательных услуг в высшей школе, занятой профессиональной подготовкой будущих специалистов по отраслям знаний и сферам жизнеобеспечения цифрового общества, невозможно без полного, детального анализа самого процесса и оптимизации содержания, составляющего его дидактические основы, объединяющие в себе действенные педагогические методы и приемы, служащие инструментами достижения образовательных целей.

До настоящего времени в контексте обсуждаемых вопросов, затрагивающих выбор стратегические направления при смене используемых «парада парадигм», характеризуемых в большей степени методологическими признаками, указывается недостаточность включения в цифровую образовательную среду (далее - ЦОС) процесса профессиональной подготовки высшей школы [2; 5; 6; 10]. Отмечается «многослойность» в перераспределении содержания базовых компонентов, сопряженных с информационно-коммуникационными технологиями (далее – ИКТ) и IT-технологиями, что в конечном итоге приводит к перенасыщению его цифровыми технологиями при неудовлетворительных результатах в качественных значениях профессиональной подготовки [4, с. 21].

Таким образом, ***актуальность*** темы настоящего исследования обусловлено острой необходимостью разрешения выявленного в ходе предварительного анализа в контексте обозначенных вопросов ***противоречия*** между своевременностью применения ИКТ в сфере профессионального образования и недостаточной конкретизацией множественности существующего «цифрового» инструментария для роста образовательной «производительности», выраженной в росте значений качества предоставляемых в высшей школе образовательных услуг.

Цель исследования заключается в выявлении дидактических возможностей аналого-цифровых преобразований информации на примере профессиональной подготовки студентов педагогического вуза в обучении физике.

Теоретическое обоснование проблемы исследования. Анализ результатов исследовательского труда отечественных и зарубежных авторов в контексте темы настоящего исследования, позволил обоснованно констатировать наличие лишь общих представлений об организации обучающего процесса в высшей школе в период смены образовательных парадигм [2;7;9]. Сложившаяся ситуация, на наш взгляд, обусловлена отсут-

ствием единого мнения исследователей в планировании и непосредственно организации образовательного процесса в условиях, предлагаемых ЦОС, где значительный объем педагогических «манипуляций» реализуется посредством инструментария ИКТ и IT-технологий [2, с. 87].

Учитывая незыблемость параметров оценки качества процесса обучения, согласно которым степень конкурентоспособности выпускников высшей школы на международном рынке труда определяется уровнем усвоения программного материала, следует найти оптимальное решение по обновлению модели цифровой образовательной среды с учетом консолидации механизмов передачи, восприятия и закрепления дидактического материала [8, с. 254]. Причиной подобной формулировки задачи является отсутствие научной обоснованности в выборе нового педагогического инструментария аналоговой и цифровой формы, что приводит к нарушению систематизации и целесообразности его применения в конкретном образовательном пространстве с учетом специфических условий реализации профессиональной подготовки будущих специалистов [6, с. 322].

Ключевые термины, используемые в рамках «новой» педагогики - «аналоговый» и «цифровой», устанавливают способ транслирования информации, предусматривающий ее преобразование каналами взаимосвязи в технических устройствах между субъектами образовательного процесса [11, с. 1182]. В ходе трансляции информации, реализуемой на основании принципов ее аналого-цифрового (далее–АЦП) и цифро-аналогового (далее–ЦАП) преобразования, весь требуемый к освоению студентами материал представлен в виде цифрового кода, физическая величина которого выводится для восприятия посредством технических средств [3, с. 7]. Данный процесс является естественным в силу природного аналогового характера процесса восприятия (посредством «образов») информации, сопровождающий человека на протяжении всей его жизнедеятельности [1, с. 339].

Организация образовательного процесса через АЦП и ЦАП преобразования информации осуществляется в виде алгоритма, в который наряду с компьютерными технологиями включен человек. Взаимодействия внутри цепи обмена информацией реализуются посредством цифрового и аналогового общения, посредниками в котором выступают специализированные программы. Особенности процесса обучения студентов педагогического вуза физике в условиях цифровой образовательной среды и соответственно педагогическая модель их профессиональной подготовки характеризуются рядом признаков существенно отличающиеся от традиционно используемых [9, с. 49].

Контактность перечисленных процессов обеспечивается путем выявления максимально сопряженных условий воплощения дидактических возможностей аналого-цифрового механизма в образовательном пространстве педагогического вуза, что предполагает создание педагогической модели аналого-цифровой парадигмы. В рамках такой модели, процесс обучения характеризуется рядом признаков, среди которых нами выделен ведущий – неограниченные рост транслируемой информации за счет сокращения временных параметров ее передачи и ограниченные возможности усвоения объема информации [5, с. 31].

Выявленное в рамках исследовательской деятельности противоречие с нашей точки зрения и составляет проблемное поле реализации широкого спектра дидактических возможностей аналого-цифровых преобразований информации в образовательном процессе педагогического вуза.

Результаты исследования. Результаты теоретического осмысления проблемы исследования позволяю в первом приближении представить процесс обучения физике студентов педагогического вуза в виде схемы (см. рисунок 1).

Рисунок 1 – Алгоритм организации обучения физике студентов педагогического вуза в условиях аналого-цифровой среды

Реализация представленного на рисунке 1 алгоритма предусматривает наличие у преподавателя знаний по применению аналого-цифрового инструментария, требуемого для компоновки дидактического материала (1этап),и трансляции информации до студен-

та посредством видео-(зрение) и аудио-(слух) каналов (2 этап).

В ходе построения трансферного кана-ла (2 этап) следует, признавая индивидуальные различия студентов в ограничении пропускной способности восприятия, и учитывая возможности технических средств, служащих для компоновки и передачи информации, обратить внимание на инерционное звено процесса обучения, «производительность» которого ог-раничивается адаптивностью информационного восприятия [7, с. 321]. В этом случае компьютерная система приобретает новую дидактическую функцию, позволяющую изучать физические и технические процессы в реальном времени и в рамках междисциплинарной интеграции теоретических и практических занятий.

Дидактические возможности аналого-цифровых преобразований информации в обучении физике студентов педагогического вуза в этом случае заключаются в од-новременном исследовании физических объектов и математических дефиниций за счет действия внешнего сигнала на реальную и виртуальную систему [10, с. 17].

Рост производительности аналого-цифровых преобразований без утраты качества трансляции информации и учета ин-дивидуальных возможностей каждого студента осуществляется за счет расширения функциональности – «кибернетический вариант» путем преобразования сигнала управления (педагогического воздействия со стороны преподавателя) в непосредственно цифровой среде (см. рисунок 2) [1, с. 343].



Рисунок 2 – Кибернетический вариант аналого-цифровых преобразований учебной информации

Предложенный вариант (см. рисунок 1 и 2) позволяет преодолеть препятствие на пути к увеличению значений в качественных показателях, изменение которых невозможно в условиях применения современных технические средства аналого-цифровых преобразований при организации обучения физике студентов педагогического вуза с использованием устаревших методических приемов.

Формулирование основополагающих принципов аналогово-цифровой парадигмы с учетом реальных возможностей восприятия человеком информационного потока позволит адаптировать его обработку к текущим условиям образовательного процесса в педагогических вузах, тем самым повысить качество профессиональной подготовки будущего специалиста.

Заключение. Перенос технологий аналого-цифровой парадигмы в образовательное пространство педагогического вуза позволяет адекватно сложившимся на сегодняшний день условиям реализовать принцип единства эмпирического и теоретического познания, тем самым расширяя диапазон возможностей учебно-познавательной деятельности студентов за счет:

1) АЦП и ЦАП преобразования информации техническими средствами обучения;

2) акцентированного внимания аналоговой форме восприятия учебной информации студентами с учетом индивидуальных возможностей каждого;

3) реализации временных параметров презентационного материала, не требующего конспектирования и расширяющего интенсивность восприятия информационного потока;

4) предоставления учебной информации в аналоговой форме.

Актуальность проблемы повышения качества образовательных услуг в высшей школе, особенно в контексте подготовки специалистов в области физики, связана с необходимостью адаптации образовательных процессов к новым условиям цифровой трансформации. В частности, успешное внедрение информационно-коммуникационных технологий (ИКТ) и их интеграция в образовательную среду требуют внимательного анализа и оптимизации содержания учебных курсов.

Новизна проблемы. Новизна исследо-вания заключается в разработке концепции использования аналогово-цифровых преобразований (АЦП и ЦАП) в процессе обучения студентов педагогического вуза физике. Предлагаемая модель образования, включающая элементы кибернетического подхода, подразумевает расширение функциональности образовательных технологий, что позволяет более эффективно работать с различными типами восприятия информации, учитывая индивидуальные особенности студентов. Исследование также вносит вклад в теорию и практику педагогики, расширяя рамки традиционных дидактических методов и подходов к организации учебного процесса в условиях цифровой образовательной среды.

Практическая значимость проблемы. Практическая значимость исследования заключается в возможности применения предложенной дидактической модели в реальной образовательной практике. Внедрение аналогово-цифровых преобразований, как описано в модели, позволит преподавателям педагогических вузов использовать более гибкие и эффективные инструменты для передачи знаний студентам, учитывая их индивидуальные особенности восприятия информации. Это, в свою очередь, способствует улучшению качества профессиональной подготовки будущих специалистов. Применение АЦП и ЦАП преобразований,

а также внимание к индивидуальным образовательным потребностям студентов позволит повысить результативность образовательных процессов и обеспечить более высокие конкурентные позиции выпускников на рынке труда.

Литература

1. Алюшин, А.В. Структура искусственной нейросети для обработки сигналов на основе квантового нейроморфного процессора / А.В. Алюшин // Доклады XXV Международной конференции: Цифровая обработка сигналов и ее применение DSPA –2023. –М., 2023. –С. 338-343.
2. Джалилова. С.Х. Педагогическая стратегия интегрированного обучения студентов педагогического направления физике // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – Bakı, 2025. № 3, –c. 126-132.
3. Джалилова. С.Х. Принципы модульности в реализации нтегри- рованного обучения физике //– Bakı, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. 2025. № 4, – c. 70-78.
4. Назарова, О.Ю., Сукиязов, А.Г. Аналогово-цифровая парадигма организации учебного процесса в цифровой образовательной среде / О.Ю. Назарова, А.Г. Сукиязов // Сборник статей XXXIII Международной научно-практической конференции: Наука и образование: сохраняя прошлое, создаём будущее. –Пенза, 2021. –С. 85-88.
5. Сучилин, В.А. Норма энтропии и цифровая обработка сигналов / В.А. Сучилин // Современные научные исследования и инновации. –2020. № 3 (107). –С. 7.
6. Ramalingam, M., Kasilingam, G., & Chinnavan, E. (2014). Assessment of Learning Domains to Improve Student's Learning in Higher Education. Journal of Young Pharmacists, 6, P. 27-33. doi:10.5530/JYP.2014.1.5
7. Scager, K., Boonstra, J., Peeters, T., Vulperhorst, J., & Wiegant, F. (2016). Collaborative Learning in Higher Education: Evoking Positive Interdependence. CBE life sciences education, 15(4), P. 69-78. doi:10.1187/cbe.16-07-0219
8. Sonia, B. & Lotfi, B. (2016). The importance of prosody in a proper English pronunciation for EFL learners. Arab World English Journal (AWEJ), 7(2), P. 318-325. doi:10.2139/ssrn.2814804
9. Swanson, P. & Mason, S. (2017). The world language teacher shortage: Taking a new direction. Foreign Language Annals, 51(1), P. 252-258. doi:10.1111/flan.12321

Redaksiyaya daxil olub: 27.01.2026

UOT 364.04

Bahar İsmayıl qızı İsmayılova
Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının baş müəllimi,
Əməkdar müəllim
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0007-0327-5551
E-mail: bahar_ismayilova @yahoo.com
https://doi.org/10.69682/arti.2026.93(1).152-156

GƏNCLƏRİN RƏQƏMSAL BACARIQLARININ ARTIRILMASINDA MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ YOLLARI, PROBLEMLƏR, PERSPEKTİVLƏR

Bahar Ismayil Ismayilova
Zagatala branch of the Azerbaijan State University of Economics,
senior lecturer, Honored teacher
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan

WAYS, PROBLEMS, AND PERSPECTIVES OF USING MODERN TECHNOLOGIES IN IMPROVING YOUTH'S DIGITAL SKILLS

Вахар Исмаил гызы Исмаилова
старший преподаватель Загатальского филиала
Азербайджанского Государственного Экономического Университета,
Заслуженный учитель,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ПУТИ, ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ В ПОВЫШЕНИИ ЦИФРОВЫХ НАВЫКОВ МОЛОДЕЖИ

Xülasə. Məqalədə müasir dövrdə rəqəmsal texnologiyaların təhsilə inteqrasiyasının sürətlənməsi vurğulanır. Gənclərin öyrənmə motivasiyasının artmasına çox böyük təsir edən, onların dərsdə aktiv iştirakçıya çevrilməsinə, yüksək keyfiyyətli bilik, bacarıqlar əldə etməsinə geniş imkanlar yaradan, öyrənmə prosesini daha vizual, interaktiv edən, öyrənənlərin həyati bacarıqlarını artıran və onlarda mövzunun yaddas saxlama faizini 30-50% artıran Virtual Reallıq (VR) texnologiyasının təhsildə tətbiqi, istifadəsi, üstünlükləri, Beynəlxalq təcrübədə müxtəlif sferalarda VR texnologiyalarının tətbiqi nəzərdən keçirilir və qarşıya çıxan çətinliklər təhlil olunur, problemin həlli ilə bağlı görülən bəzi işlər qeyd olunur, müəyyən təkliflər irəli sürülür.
Açar sözlər: *rəqəmsal texnologiyalar, Virtual Reallıq, motivasiya, krossvord özünüqiymətləndirmə, özünütəkmilləşdirmə tədrisyönlü 3D film, videovəsait*

Abstract. The article emphasizes the acceleration of the integration of digital technologies into education in modern times. The application, use, and advantages of Virtual Reality (VR) technology in education, which has a great impact on the increase of young people's motivation to learn, creates wide opportunities for them to become active participants in the lesson, acquire high-quality knowledge and skills, makes the learning process more visual and interactive, increases the vital skills of learners, and increases their retention of the subject by 30-50%, are noted. The application of VR technologies in various spheres in international practice is reviewed and the difficulties encountered are analyzed, some work done to solve the problem is noted, and certain proposals are put forward.
Keywords: *digital technologies, Virtual reality, motivation, crossword, self-assessment, self-improvement educational 3D film, video resources*

Аннотация. В статье подчёркивается ускорение интеграции цифровых технологий в образование в современных условиях. Отмечены применение, использование и преимущества технологии виртуальной реальности (VR) в образовании, которая оказывает существенное влияние на повышение мотивации к обучению молодёжи, создаёт широкие возможности для активного участия в учебном процессе, приобретения качественных знаний и навыков, делает процесс обучения более наглядным и интерактивным, развивает жизненно важные навыки учащихся и повышает усвоение ими материала на 30-50%. Рассматривается применение технологий VR в различных сферах в международной практике, анализируются возникающие трудности, отмечается работа по решению проблемы и вносятся предложения.

Ключевые слова: *цифровые технологии, виртуальная реальность, мотивация, кроссворд, самооценка, самосовершенствование, обучающий 3D-фильм, видеоресурсы*

Müasir dövrdə texnoloji tərəqqinin inkişaf səviyyəsi, rəqəmsallaşma səviyyəsi müxtəlif ölkələrdə fərqlidir. İnkişaf etmiş bəzi ölkələr kimi, bir çox layihələrin təşəbbüskarı olan Azərbaycanda da artıq "Dördüncü Sənaye İnqilabı" prosesində liderlərdən biri olmaq üçün bütün sahələrdə rəqəmsallaşmaya keçid, xüsusilə rəqəmsal iqtisadiyyatın qurulması, təhsildə innovasiyaların tətbiqi prioritetlər sırasındadır. Bu gün idarəetmənin müasir texnologiyalar üzərindən həyata keçirilməsi, rəqəmsal iqtisadiyyat quruculuğu həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə geniş vüsət alaraq yeni qlobal trendə çevrilib. Ölkə başçısı Möhtərəm Prezident İ. H. Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd olunduğu kimi, perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaqdır [1]. Buna görə də ölkəmizdə rəqabətli insan kapitalı və innovasiya məkanının yaradılması üçün in-teqrativ tədris təcrübəsi inkişaf etdirilməli, də-qiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə XXI əsrin tələb etdiyi səriştələrə, sosial vərdişlər və bacarıqların inkişafına əsaslanan təhsilə xüsusi önəm verilməlidir.

Tədqiqatçıların fikirlərinə, yanaşmalarına görə, rəqəmsallaşma müasir rəqəmsal texnologiyaların həyatın və iqtisadiyyatın müxtəlif sahələri-nə tətbiqidir. Rəqəmsallaşma rəqəmsal texnologiyalardan istifadə strategiyası, prosesidir. Qlobal mənada rəqəmsallaşma həyatın və iqtisadiyyatın müxtəlif sahələrinə tətbiq edilən rəqəmsal texnologiyalara əsaslanan iqtisadi fəaliyyət konsepsiyaşıdır. Bu konsepsiya istisnasız olaraq bütün ölkələrdə həyata keçirilir. IKT rəqəmsal iqtisadiyyatın inkişafının əsasını təşkil edir və iqtisadi artıma getdikcə daha mühüm töhfə verir [2, 4-5].

Bütün dünyada rəqəmsallaşmanın intensiv inkişaf etdiyi müasir dövrdə XXI əsrin tələb etdiyi səriştələrə (bilik, bacarıq, vərdiş, dəyərlər) malik olan, xarici ölkələrdə, eləcə də ölkəmizdə reallaşan texnoloji üstünlüklərdən, müxtəlif sahələrdə gedən rəqəmsallaşma prosesindən xəbərdar olan, sürətlə dəyişən dünyaya çevik uyğunlaşa bilən, problemləri vaxtında hiss etmə və optimal qərar vermə qabiliyyətinə, fərqli düşüncə tərzinə, rəqəmsal səriştələrə, rəqəmsal həyati bacarıqlara malik gənclərin formalaşması və təkmilləşməsi üçün təhsilalanların məntiqi, tənqidi, yaradıcı təfəkkürü, İKT-dən istifadə bacarıqları yüksək səviyyədə olmalıdır. Gənclər dəqiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə bilik və bacarıqlarını, həyati bacarıqlarını davamlı olaraq artırmaqla, müasir dövrün tələblərinə cavab verən mütəxəssislər kimi formalaşa və təkmilləşə bilərlər.

Müxtəlif istiqamətli, inteqrativ biliklərin dərinləşdirilməsi, bacarıq və səriştələrin ümumtəhsil məktəblərində, ali təhsil dövründə daha da təkmilləşdirilməsi yüksək səviyyəli mütəxəssislər hazırlanmasına güclü təkan verir. Süni intellektin imkanlarından, Bulud texnologiyalarından, müxtəlif bulud xidmətlərindən, bulud yaddaşından istifadə edən şagird və tələbələrin sayı gündən – günə artır.

Öyrənənləri, gəncləri maraqlandıran istiqamətlərdən biri də Artırılmış və Virtual reallıq texnologiyalarıdır. Artırılmış reallıq məlumatlara və ya əşyalara qrafik dizayn və ya səs effektləri əlavə edərək real dünyanın vizual effektlər vasitəsilə daha da interaktivləşdirilməsini təmin edir [2]

Virtual reallıq (VR) – kompüter texnologiyası ilə yaradılmış süni, real dünya ilə əlaqəsi olmayan, amma reala çox bənzəyən, interaktiv 3D (yəni istifadəçi ətrafını 360 dərəcə görə bilir), 5D, 8D mühitidir. Bu texnologiyanın məqsədi

istifadəçiyə özünü sanki həmin süni mühitin içindəymiş kimi hiss etdirməkdir. Təhsildə bu texnologiyanın məqsədi "Öyrənməni hiss etmək, araşdırmaqla, təcrübə aparmaqla öyrənmək" ideyasıdır. Virtual reallıq sistemləri insanda xəyali dünyada mövcudluq illüziyasını yaradır.

Virtual reallıq sistemləri iki əsas hissədən ibarətdir:

✓ avadanlıq (məsələn, VR Başlığı, VR Eynəyi, sensorlar, kontrollerlər, joysticklər, hərəkət sensorlu əlcəklər, səs sistemləri və s.);

✓ proqram təminatı. [6, 7]

VR texnologiyaları harada istifadə olunur?

✓ Oyun və əyləncə sferasında;

✓ Təhsildə:

- tarix, coğrafiya dərslərində müxtəlif dövrləri VR ilə "canlandırmaq", məsələn, Roma imperiyası dövrünə, ikinci dünya müharibəsi dövrünə "səyahət etmək", Misir piramidalarını "ziyarət etmək", vulkanların partlamasını, zəlzələ anını təhlükəsiz şəkildə "yaşamaq" üçün [11, 12];
- biologiya dərslərində insan bədənində "səyahət etmək", insan anatomiyasını 3D mühitində öyrənmək, hüceyrələrin daxilini, DNT quruluşunu araşdıra bilmək üçün [10];
- kimyəvi reaksiyalar və laboratoriya təcrübələrini VR vasitəsilə interaktiv şəkildə, təhlükəsiz öyrənmək, hiss etmək üçün [9];
- fizika və astronomiya dərslərində kainatı 3D olaraq izləmək, qara dəlik, planetlər və orbit hərəkətlərini vizual olaraq izah etmək, təcrübələri VR mühitində interaktiv şəkildə yerinə yetirmək və s. mümkündür. Bu tip dərslər şagirdlərdə dərsə marağı artırır, öyrənməni daha əyləncəli edir [8].

✓ Təlimlərdə:

- pilotlar üçün təlimlərdə real təyyarə əvəzinə simulyatorla məşqlər zamanı**;**
- **y**anğınsöndürmə ilə bağlı təlimlərdə**,** zəlzələ zamanı təhlükəli şəraitləri risksiz şəkildə öyrətmək üçün və s.

✓ Səhiyyədə:

- VR cərrahlıq simulyatorları vasitəsilə tibbi təhsil alan tələbələr əməliyyatı virtual şəkildə yerinə yetirməklə müxtəlif istiqamətli bacarıqlar qazana bilirlər;
- psixoloji terapiya, reabilitasiya zamanı tibbi simulyatorla məşqlərdən istifadə olunur [8].

✓ Memarlıq və dizayn işlərində dizaynerlər və müştərilər evləri, ofisləri və ya obyektləri tikilmədən əvvəl virtual olaraq "gəzə" bilirlər. Material seçimi, ölçülərin yoxlanması, vizual effektlərin testi rahat şəkildə aparılır;

✓ Xarici dil öyrənən şagird, tələbə VR sistemlərin köməyi ilə o dildən istifadə olunan bir ölkəyə "səyahət" edə bilir. Bu zaman mədəniyyətləri interaktiv formada tanımaq imkanı yaranır, rəsm, musiqi və teatr kimi sahələrdə yaradıcılıq imkanları artır;

✓ Beynəlxalq təcrübədə VR texnologiyası peşə təhsili sahəsində də geniş tətbiq olunur. Mühəndislik, tibb və aviasiya kimi sahələrdə tələbələr risksiz mühitdə real həyatda qarşılaşacaqları vəziyyətləri təcrübədən keçirə bilirlər.

Tədqiqatlar göstərir ki, VR ilə öyrənmə zamanı:

✓ öyrənənlərdə mövzunu yadda saxlama faizi 30-50% daha yüksək olur;

✓ Təhsil motivasiyası və maraq əhəmiyyətli dərəcədə artır;

✓ VR, inklüziv təhsildə (fiziki qüsurlu, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş zamanı) daha effektiv nəticələr verir.

VR texnologiyalarının tətbiqi ilə bağlı çətinliklər və məhdudiyyətlərə nümunə olaraq aşağıdakıları qeyd etmək olar:

- Maliyyə problemi – VR avadanlıqlarının bəziləri kifayət qədər bahadır;
- İnfrastruktur – VR texnologiyalarının tətbiqi üçün sürətli internet, güclü kompüterlər tələb olunur;
- Müəllim hazırlığı – müəllimlərin texnologiyadan effektiv istifadə etməyi öyrənməsi vacibdir;

Qeyd etmək lazımdır ki, bu texnologiyalardan istifadə zamanı sağlamlıqla bağlı problemlər yarana bilər, yəni uzun müddət VR-dan istifadə bəzi istifadəçilərdə göz yorğunluğu və başgicəllənmə yarada bilər.

Virtual Reallıq təhsildə inqilabi bir texnologiyadır. Bu texnologiya öyrənənlərə sadəcə məlumat verməklə reallaşmır, onlara öyrənmənin "içinə daxil olmaq, təcrübə aparmaq" imkanı yaradır. Müasir təhsilin məqsədi də məhz budur – öyrənəni passiv dinləyicidən aktiv iştirakçıya çevirmək.

Nəticə

Virtual reallıq texnologiyası təhsildə yeni dövrün başlanğıcı kimi qiymətləndirilə bilər. Bu texnologiya yalnız öyrənməni vizuallaşdırmır, həm də tələbəni öyrənmənin aktiv iştirakçısına

çevirir. şagird və tələbələr mövzunu sanki "içindəymiş" kimi öyrənirlər. İnteraktiv mühit öyrənmə motivasiyasını, dərketməni artırır, təcrübə əsaslı öyrənmə –"nə isə edərək öyrənmə" imkanı yaradır.

Qeyd etdiyimiz kimi, beynəlxalq təcrübədə təhsil, səhiyyə, memarlıq, hərbi və digər sferalarda VR texnologiyalarından, tədrisyönlü 3D filmlərdən, VR oyunlarından uğurla istifadə olunur və bu formada təhsil, özünütəhsil insanların düsünmə və öyrənmə fəaliyyətində çox böyük keyfiyyət dəyisikliklərinə səbəb olur. 15 ildən artıqdır ki, tədrisyönlü oyunlardan istifadə ilə bağlı beynəlxalq konfranslar, çempionatlar, müsabiqələr keçirilir [5]. Tədrisyonlü filmlər, VR oyunları gənclərin öyrənmə motivasiyasının, müxtəlif istiqamətli həyati bacarıqlarının artmasına çox böyük təsir edir.

Problemin aktuallığı. Gənclərin kom-püter oyunlarına aludəçiliyindən, virtual oyunlara olan marağından tədrisyönlü məqsədlərlə istifadə edilməsi müxtəlif fənlərin tədrisində keyfiyyət göstəricilərinin yüksəlməsinə təsir edə bilər və bu istiqamətdə tədqiqatların genişləndirilməsinə, öyrənənlərin İT mütəxəssisləri ilə birgə fəaliyyətinin təşkilinə ehtiyac vardır.

Problemin elmi yeniliyi. İnformasiya Texnologiyalar, rəqəmsal texnologiyalar gündən-günə təkmilləşir, onlardan tədrisyönlü istifadə üçün yeni imkanlar açılır. İnformatika, tarix, coğrafiya, biologiya, fizika, kimya və s. fənlərin tədrisində məqsədəmüvafiq şəkildə, tədris olunan mövzulara uyğun olaraq, beynəlxalq təcrübədə istifadə olunan 3D filmlərdən, tədrisyönlü VR oyunlarından istifadə bir çox problemlərin tədqiqində xüsusi maraq doğurur və gənc nəsildə İnformasiya Texnologiyalarına, rəqəmsal texnologiyalara yeni yanaşmanın formalaşmasına şərait yarada bilər. Virtual reallıq texnologiyasının müxtəlif sektorlarda, xüsusilə təhsil sistemində istifadəsi ilə bağlı xarici ölkələrin təcrübəsini araşdırmaq, tədrisyönlü 3d filmlərin, VR oyunlarının tədrisə inteqrasiyası ilə bağlı layihələr həyata keçirmək, bəzi qurumların nümayəndələri ilə artıq aparılmaqda davam edən müzakirələrin, rəsmi danışıqların nəticəsi olaraq UNEC Zaqatala filial üçün VR eynəyinin alınması, tədrisyönlü 3D filmləri çəkmək üçün kameranın qısamüddətli kirayə götürülməsi filial tələbələrinin rəqəmsal bacarıqlarının artmasına, filialda tədris olunan Virtual reallıq fənni üzrə keyfiyyət göstəricilərinin yüksəlməsinə təkan verə bilər.

Problemin praktik əhəmiyyəti. İT mütəxəssisləri, ölkəmizdə fəaliyyət göstərən VR əyləncə məkanlarının və s. kimi qurumların nümayəndələri ilə birgə informatika, tarix, biologiya, və digər fənlərin tədrisi zamanı müxtəlif mövzular üzrə, bəzi ali təhsil ocaqları, biznes fəaliyyəti göstərən müəssisələrin (məsələn, "Ləcheq Farm and Distillery" MMC) fəaliyyəti, reklamı ilə bağlı 3D filmlər, işgüzar oyunlar hazırlamaq və məqsədəuyğun şəkildə dərs prosesində, dərsdənkənar tədbirlərdə istifadə etmək o qədər də çətin məsələ deyil. Bu istiqamətdə fəaliyyət gənclərin tədrisyönlü rəqəmsal texnologiyalara daha çox maraq göstərməsinə, rəqəmsal bacarıqlarının artmasına, müxtəlif istiqamətli tədrisyönlü video vəsaitlərin hazırlanmasına, təhsilalanların, həm də müəllimlərin rəqəmsal əsrin tələblərinə uyğun formalaşmasına kömək edə bilər.

Təbii ki, ilk növbədə şagird və tələbələrin VR-ın əsas anlayışları, müxtəlif sektorlarda tətbiqnin üstünlükləri, faydaları, tədrisyonlü VR filmlər, qarşıya çıxan problemlər və s. ilə bağlı məlumatının olması, özünüqiymətləndirməsi, özünütəkmilləşdirməsi üçün müxtəlif səviyyəli tədrisyönlü krossvordların hazırlanmasının vacib məsələlərdən biri olduğunu düşünürük və bu istiqamətdə tələbə tədqiqatlarının nəticəsi olaraq broşurun hazırlanması prosesi gedir. İnformatika fənninin tədrisində Almaniya təcrübəsini araşdıran, orta məktəb şagirdləri, müəllimləri ilə vaxtaşırı əlaqə saxlayan tələbələrimiz informatika, biologiya, fizika müəllimləri ilə birgə keçirilən inteqrativ məşğələlərdə beynin quruluşu, neyron şəbəkələr, bəzi bioloji, fiziki proseslər, Süni intellekt, Bulud texnologiyaları, Virtual reallıqla bağlı müxtəlif müzakirələr aparırlar. Bu dərs ilinin sentyabr ayında UNEC Zaqatala filialında dünya şöhrətli riyaziyyatçı alim, fizika-riyaziyyat elmləri doktoru, professor Məsud Əfəndiyevlə görüş keçirildi, çox maraqlı çıxışlar oldu, müzakirələr aparıldı. Tələbələrimiz növbəti görüşdə bioriyaziyyat, bioinformatika ilə əlaqəli apardıqları tədqiqatlar, əldə etdikləri nəticələrlə bağlı çıxış etmək üçün yorulmadan fəaliyyət göstərirlər. Oktyabr ayında İnformasiya Texnologiyaları ixtisası üztə təhsil alan 3 nəfər birinci kurs tələbəmiz "İCPC –Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsi"nin təsnifat mərhələsində iştirak etdilər və gələcəkdə daha uğurlu iştirakçı olmaq üçün tələbələr davamlı olaraq bilik və bacarıqlarını artırmağa çalışır, proqramlaşdırma ilə bağlı videovəsaitlər hazırlayırlar. Bir tələbəmizin menecment fənninin tədrisində istifadə üçün hazırladığı nəzəri materiallar, tədrisyönlü krossvordlardan ibarət 104 səhifəlik broşur artıq nəşr olunnmuşdur. Başqa bir tələbəmizin VR haqqında hazırladığı ilk videovəsaiti mütəxəssislərə rəy üçün təqdim etdik. Tələbə tövsiyələrə uyğun şəkildə redaktə etdi, "Rəqəmsal savadlılıq" adlı YouTube kanalı açaraq vəsaiti İnternetdə (həmin kanalda) yerləşdirdi. Tələbələrimiz Bulud texnologiyaları, Süni intellekt, VR, Bioriyaziyyatla bağlı belə video vəsaitlər hazırlayırlar. Bir tələbəmiz artıq könüllü olaraq bu istiqamətdə təlimçi işləyir, arzulayan tələbələr üçün təlimlər ke-

çir. 3 nəfər İT ixtisası üzrə təhsil alan tələbəmiz (bir qız, iki oğlan) tələbə könüllü olaraq filialın İT mütəxəssisi ilə birgə müxtəlif istiqamətli fəaliyyət göstərir. Tələbələrin mütəxəssis kömək-çisi kimi könüllü fəaliyyətini daha da genişləndirmək üçün tələbələrin arzu və təklifləri nəzərə alınaraq fəaliyyət planı hazırlamışıq.

Ədəbiyyat

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" https://president.az/az/articles/view/50474
2. Qasımlı V., Talıbova M. və b. Rəqəmsal iqtisadiyyat. Bakı, 2023. https://ereforms.gov.az/files/publications/pdf/az/9d03c762a9342224168be0a2ffc4e26a.pdf
3. http://www.academic-conferences.org/conferences/ecgbl/
4. https://www.walkme.com/glossary/digitalization/
5. https://center2m.ru/digitalization-technologies
6. https://www.vrs.org.uk/virtual-reality/history.html
7. https://www.pwc.com/us/en/tech-effect/emerging-tech/virtual-reality-study.html
8. https://www.interaction-design.org/literature/topics/virtual-reality
9. https://asfanco.com/vir-tualreality/experience-education
10. https://www.youtube.com/watch?v=2Ffhr1-P1ZE
11. https://www.youtube.com/watch?v=sPyAQQklc1s&list=PLe2QTEWuVb-uYqfd7iBfnjOFZu-cxl6Cw
12. https://capsulesight.com/vrglasses/soras-role-in-virtual-reality-vr-based-learning

Redaksiyaya daxil olub: 25.12.2025

UOT 378

Zəkiyyə Azər qızı Abdullayeva
Naxçıvan Müəllimlər İnstitutunun müəllimi
Naxçıvan Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0002-8558-5858
E-mail: zəkiyyə.abdullayeva@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).157-160

PEDAQOJİ TEXNOLOGİYALARIN FUNKSİYALARI, TƏSNİFATI VƏ APARILAN İDRAKİ ƏMƏLİYYATLAR

Zakiya Azer Abdullayeva
teacher of Nakhchivan Teachers' Institute
doctorial student in the program of doctor of philosophy
of Nakhchivan State University

FUNCTIONS OF PEDAGOGICAL TECHNOLOGIES, CLASSIFICATION AND PERFORMED COGNITIVE OPERATIONS

Закия Азер гызы Абдуллаева
преподаватель Нахчыванского Института Учителей
дисертант по программе доктора философии
Нахчыванского Государственного Университета

ФУНКЦИИ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ, КЛАССИФИКАЦИЯ И ВЫПОЛНЯЕМЫЕ КОГНИТИВНЫЕ ОПЕРАЦИИ

Xülasə. Müasir informasiya və texnologiyalar dövründə təhsil prosesində yeni pedaqoji texnologiyalardan istifadə etmək, təhsilin keyfiyyətini xeyli yüksəldir, təhsil alanların bilik və dünyagörüşlərini genişləndirir. Pedaqoji texnologiyalar daim artır, yeniləşir və təkmilləşir. Bu cəhətdən pedaqoji texnologiyaların tətbiqi daim müəllimin öz üzərində çalışması, özünü təkmilləşdirməsi, yeni pedaqoji texnologiyaları dərindən mənimsəməsi və yaradıcılıqla tətbiq etməsi mühüm vəzifələrdəndir.
Açar sözlər: *pedaqoji texnologiyalar, pedaqoji proses, idarəetmə, kompetensiyalar*

Abstract. In the era of modern information and technologies, using new pedagogical technologies in the educational process significantly improves the quality of education, expands the knowledge and worldview of students. Pedagogical technologies are constantly increasing, updating and improving. In this regard, the application of pedagogical technologies is one of the important tasks of the teacher, which is to constantly work on himself, improve himself, deeply master new pedagogical technologies and apply them creatively.
Keywords: *Pedagogical technologies, pedagogical process, management, competencies*

Аннотация. В эпоху современных информационных технологий использование новых педагогических технологий в образовательном процессе значительно повышает качество образования, расширяет кругозор и мировоззрение обучаемых. Педагогические технологии постоянно совершенствуются, обновляются и развиваются. В связи с этим применение педагогических технологий является одной из важных задач педагога, которая заключается в постоянной работе над собой, самосовершенствовании, глубоком освоении новых педагогических технологий и их творческом применении.
Ключевые слова: *педагогические технологии, педагогический процесс, управление, компетенции*

Giriş: Hazırkı dövrümüzdə pedaqoji prosesin təşkilində yeni pedaqoji texnologiyalardan, innovasiyalardan, fəal və interaktiv təlim metodlarından, İKT və multimediyalardan geniş istifadə edilir. Bu da təhsilin mütərəqqi prinsiplər, səmərəli üsullar əsasında qurulmasına real imkanlar yaradır. Pedaqoji texnologiyalar təhsil alanların şəxsiyyətinin formalaşmasında, dünyagörüşlərinin genişləndirilməsində, təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

Əsas mətn. Texnologiya yunan sözü olub (tecno-sənət,incəsənənt,loqos-anlayışı, elm söz), peşə, elm, təlim mənasını verir. Bu gün bütün beynəlxalq aləmdə pedaqoji texnologiyaların yeni məzmunda, yeni anlamda mənasını tapmaq mümkündür. Belə ki, pedaqoji texnologiya sadəcə olaraq təlimdə texniki vasitələrdən və kompüterdən istifadə dairəsi deyil. O, təlim zamanı pedaqoji prinsipləri aşkara çıxarır, təhlil edir, tədrisin səmərəsini yüksəldən imkanları araşdırır, təhsil prosesinin optimal və səmərəli yollarını, imkanlarını müəyyənləşdirir və bütövlükdə tədris prosesinin tam idarə edir. Pedaqoji texnologiya pedaqogikaya, xüsusilə didaktikaya sistemli yanaşmadır, təhsil müəssisəsində əlverişli öyrətmə – öyrənmə mühitinin yaradılması idraki təfəkkür qaydalarının geniş tətbiq edilməsidir. Pedaqoji texnologiyalar təlim prosesinə yeni təfəkkürlü baxışdır və müasir texnologiya zamanı təlim prosesi ənənəvi təlimdən fərqli olaraq, maksimum yaradıcı idarə olunan pedaqoji prosesdir. Pedaqoji texnologiyalara yiyələnmək pedaqoji ustalığın, peşəkarlığın əsası hesab olunur. Müasir məktəb elə didaktik yanaşmalar, elə vasitələr axtarır ki, təlim bütövlükdə bir növ istehsalat-texnoloji proses olsun.

Müasir dövrdə yeni texnologiyaların, yeni təlim metodlarının tətbiqi müəllimin, onun pedaqoji əməyinin, iş üslubunun nəticə etibarilə şagirdlərin iş üslubunun əsaslı surətdə dəyişməsini tələb edir. Şagirdlərin hazır şəkildə biliklərin almalarına, bilik almaq üçün müstəqil axtarışlar aparmalarına yenidən hasil etmə və yaradıcı fəaliyyətlərinə yaddaşa, təfəkkürə istinad etmələrinə, öyrənməyə maraqlarına, nəzarət və qiymətləndirməyə münasibətləri dəyişməli, fəaliyyətləri yeniləşməlidir.

Pedaqoji texnologiyaların əsas vəzifəsi təlim sisteminin bütün elementlərini öyrənmək, ona yaradıcılıqla yanaşmaq və təlim prosesini layihələşdirməkdir. Təlim prosesinin texnologiyası dedikdə bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün müxtəlif təfəkkür əməliyyatlarının aparılması kompleksi nəzərdə tutulur.

Uzun illərin təcrübəsinə əsasən deyə bilərik ki, bu gün pedaqoji prosesə əsasən üç prinsip əsasında yanaşılır:

- tərbiyəedici təlim prinsipi;
- inkişafetdirici təlim prinsipi;
- şəxsiyyətyönlü təlim prinsipi.

Müasir təhsil nəzəriyyəsi bu üç vacib bünövrə üzərində inkişafı əsas götürür. Hal-hazırda başlıca vəzifə onların pedaqoji texnologiyalarının yaradılmasıdır.

Pedaqoji texnologiyalar həm bir elm sahəsi kimi, həm öyrənmənin səmərəli yollarının məcmusu kimi, həm də nəticəyönlü təlimin prinsiplərini, metodlarını, üsullarını özündə əks etdirən sistem kimi başa düşülür. Belə ki, pedaqoji texnologiyalar üç aspektdə təqdim oluna bilər:

1. Pedaqogika elminin ayrılmaz hissəsi kimi;
2. Hər hansı bir fəaliyyətin məzununun və alqoritminin təsviri kimi;
3. Qaydalar sistemi kimi.

Pedaqoji texnologiyalardan üç səviyyədə istifadə olunur:

1. Ümumi pedaqoji səviyyədə. Bu, pedaqoji sistemin sinonimi kimi anlaşılır.

2. Metodik səviyyədə. Bu, bir fənnin məzmunu çərçivəsinə qarşıya qoyulan məqsədlərə çatmaq üçün metodların məcmusu kimi başa düşülür.

3. Lokal səviyyədə. Bu, təlim-tərbiyə prosesinin hər hansı konkret sahəsinə aid olan texnologiyalardır. Məsələn, dərsin texnologiyası, müstəqil işlərin texnologiyası, yeni bilikləri mənimsətmə texnologiyası və s.

Qeyd edək ki, texnologiya hər hansı bir prosesin maksimum idarəedilən olmasını təmin edən əməliyyatlar sistemidir. Görkəmli pedaqoq K.D.Uşinskinin pedaqogika elmini incəsənət adlandırırdı. İncəsənət xüsusi istedada, qabiliyyətə, intuisiyaya malik insanların əməyi sayəsində yaranır və inkişaf edir. Texnologiya isə elmə, biliyə əsaslanır. Deməli, yaxşı pedaqoq olmaq üçün ilk növbədə elmə və ixtisas biliklərinə yiyələnmək lazımdır. Elmə və didaktik prinsiplərə əsaslanmış təlim və tərbiyə prosesini idarə etmək, pedaqoji prosesdə yeni pedaqoji texnologi-

yalardan istifadə etmək müəllimdən yüksək səriştəlilik və peşəkarlıq tələb edir.

Pedaqoji texnologiyaların tətbiqi təhsilin bütün sahələrində – təlim, tərbiyə, dərsdənkənar, sinifdənxaric işlər, məktəbdənkənar tərbiyəvi işlər, idarəetmə prosesi və s. sahələrdə uğurla tətbiq edilə bilər.

Pedaqoji texnologiyalar haqqında Azərbaycan pedaqoqları dəyərli əsərlər, elmi məqalələr, monoqrafiyalar yazmış, dissertasiyalar müdafiə etmişlər. Texnologiya predmeti üzrə Azərbaycanda aparılan axtarışlar içərisində professorlardan. A.O.Mehrabovun, Ə.Ə. Ağayevin, A.N.Abbasovun, M.İ.İlyasovun, dosentlər B. Həsənlinin, İ.Cavadovun mövqeləri böyük olmuş, dəyərli, faydalı məqalə və kitablar yazmış, pedaqoji texnologiyaları geniş və ətraflı təhlil etmişlər. Bu sahədə digər pedaqoqlar da, təhsil işçiləri də tədqiqatlar aparmış, məqalə və kitablar yazmış, dissertasiya müdafiə etmişlər (Ayşə Emre, Z.Əsgərova, C.Oricova, M. Məmmədzadə, S.Əliyeva və başqaları). Onların əsərlərinin geniş təhlili və əsərlərinin məzmunu haqqında prof. Akif Abbasov öz dəyərli məqaləsində ətraflı təhlil etmiş ümumiləşdirmələr aparmış və məqaləsində çox maraqlı və yeni bir məsələyə toxunmuşdur. O "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası: mahiyyəti, məqsəd və vəzifələri, məzmunu" adlı məqaləsində yeni elmi fikirlərlə diqqətimizi cəlb etmişdir. Prof. A. Abbasov yazır: "Tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması və daha da inkişaf etdirilməsi mümkündür. Bu sahədə tər-əfimizdən müəyyənləşdirilmiş "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının özünəməxsus rolu vardır. Təhsilalanlarda vətənpərvərlik, düzlük və doğruçuluq, böyüyə hörmət, gözütoxluq, xeyirxahlıq və yaxşılıq, humanizm, vicdanlılıq, alicənablıq, mərdlik, insanpərvərlik və s. mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının tətbiqi səmərəli nəticələr verir[4].

Prof. A.O.Mehrabov problemə geniş planda yanaşmış texnologiyanın mahiyyətini daha konseptual planda açmağa çalışmış və texnologiyanın ümumi konsepsiyasını təhlil etmişdir[5]. O, ilk növbədə, ümumiyyətlə texnologiyanın nə demək olduğu üzərində geniş dayanmış və qeyd etmişdir ki, texnologiyalar ümumi halda ətraf aləmin öyrənilməsinin dəyişikliklərin aparılması materiallar istehsalı və mənəvi dəyərlər sisteminin formalaşması ilə bağlı insanlar tərəfindən tətbiq olunan eyni ilə praktik cəhətdən əsaslandırılmış fəaliyyət sistemidir[6].

Təcrübələrə əsasən pedaqoji prosesdə tətbiq edilən pedaqoji texnologiyaları aşağıdakı kimi təsnif etmək olar: 1. Təlim texnologiyaları - bu təhsil alanlarda bilik, bacarıq və vərdişlər formalaşdırmaq üçün müxtəlif idraki əməliyyatlar kompleksi nəzərdə tutulur. 2. Tərbiyə texnologiyası–təlim və sinifdənxaric, məktəbdənkənar işlər prosesində **təhsil alanların mənəvi-əxlaqi tərbiyəsi ilə davamlı və sistemli məşğul olmaq deməkdir. 3. İ**nkişafetdirici texnologiyalar – dedikdə yeni texnologiyalardan səmərəli istifadə edərək təlim və tərbiyə prosesində təhsil alanların idraki, zehni, fiziki, psixoloji, intellektual, estetik inkişafını təmin etməkdir. 4. Diaqnostik texnologiyalar – şəxsin hazırlığının hərtərəfli ölçülməsi, onun istedadı, qabiliyyəti, fiziki hazırlığı, zehni fəallığı, psixoloji hazırlığı və s. əvvəlcədən yoxlanılır, müəyyənləşdirilir, ümumiləşdirilir və gələcək fəaliyyət üçün diaqnoz qoyulur, planlar hazırlanır. Diaqnostik məlumatlar təhsil alanların "Portfolio"larında – yəni şagird qovluqlarında toplanılır və saxlanılır.

Pedaqoji texnologiyalardan istifadə zamanı müəllimin fəaliyyətinin aşağıdakı funksional komponentlərini ayırmaq olar: 1. Qnostik (idraki) komponent – yəni müəllimin idraki fəaliyyəti, təhsil alanları yeni biliklərlə zənginləşdirməsi, yeni texnologiyalara əsaslanaraq yeni biliklərin verilməsi deməkdir. 2. Layihələşdirici komponent – yəni müəllimin texnologiyalardan istifadə edərək öz işini düzgün qurması, yeni layihələr üzərində işləməsi, yaradıcı fəaliyyətlə məşğul olmasıdır. 3. Konstruktiv komponent – müəllimin öz işini düzgün planlaşdırması, gələcək işinə rahatlıqla yanaşmasıdır. 4. Təşkilatçılıq və idarəetmə komponenti- müəllimin yeni texnologiyalardan istifadə edərək pedaqoji prosesi düzgün təşkil etməsi və səmərəli idarəetməsidir. 5. Kommunikativ (ünsiyyət) komponent isə müəllimin ünsiyyət mədəniyyəti, təhsil alanlarla düzgün, səmimi, ədalətli əməkdaşlıq etməsi və xoş münasibətlər qurmasıdır.

Tədqiqat metodları. Tədqiqatda müşahidə, müqayisə, təhlil, ümumiləşdirmə, induktiv və deduktiv metodlarından istifadə edilmişdir. Tədqiqat həm ümumi təhsil müəssisələri, həm

də ali məktəblərdə tədris prosesinin təşkili və aparılması nəticələri əsasında hazırlanmışdır.

Problemin aktuallığı. XXI yüzilliyi Birləşmiş Millətlər Təşkilatı "Elm və texnika əsri", "Təhsil əsri", "İntellekt əsri" adlandırmışdır. Bəli, kim biliklidirsə o qalibdir, Zəfər onun əlindədir. Qloballaşan dünyamızda zəngin informasiya axını, istehsal sahələrinin istifadə olunan texnologiyalarının yeniləşməsini tələb edir. İctimai həyatın bütün sahələrində, o cümlədən təhsil sahəsində də yeni pedaqoji texnologiyalardan səmərəli istifadə etmək təhsilin keyfiyyətinə, tədrisin səmərəliliyinə, təhsil alanların elmi dünyagörüşlərinin artmasına, müəllimlərin yaradıcı fəaliyyətinə xeyli dərəcədə müsbət təsir göstərmiş olur. Bu barədə dövlətimizin təhsil haqqında müvafiq qərar sərəncamlarında, xüsusilə ulu öndər Heydər Əliyevin *"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda təhsil işçilərinin qarşısında mühüm vəzifələr qoyulmuşdur. Proqramda deyilir:* "Yeni təhsil texnologiyasının əsas komponentlərindən biri olan multimedia, monitorinq və sair sistemlərin yaradılması məqsədi ilə təhsil sistemi müəssisələrinin kompüterləşdirilməsi və mərkəzləşdirilmiş informasiya sistemləri proqramını hazırlamaq və tətbiq etmək" lazımdır [1].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamında beş mühüm strategiyadan biri – ikinci strateji istiqamət təhsil sahəsində insan resurslarından səmərəli istifadə etmək və innovativ təlim texnologiyalarından geniş istifadə edilməsini nəzərdə tutur "[2].

Təsadüfi deyildir ki, ölkəmizin prezidenti İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsini Azərbaycanın gələcək inkişafının əsas şərti kimi göstərir və hesab edir ki, Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, intellektual əməyin inkişafından, informasiya texnologiyasından, kompüter texnologiyalarının geniş tətbiqindən keçir. Bu da təlim tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin aktuallığını artırır. O demişdir: *"Müasir dünyada bilik və yeni pedaqoji texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyildir" [3].*

Problemin elmi yeniliyi. Müəllimlərin yeni təlim texnologiyalarından, İKT-dən istifadə etməsi bir sıra idraki əməliyyatlar kompleksini özündə birləşdirir ki, onlara aiddir: biliklərin toplanması, sistemləşdirilməsi, qruplaşdırılması; təlimin, təhsil və tərbiyənin məqsədlərini, məzmununu layihələndirmək üçün aparılan zehni əməliyyatlar; təlim, təhsil-tərbiyə prosesini təşkil etmək üçün fəal öyrənmə-idrak əməliyyatları; bilikləri kommunikatordan, fasilitatordan (müəllimdən) alaraq araşdırmalar, tədqiqatlar aparmaq üçün təhsil alanlara təqdim etmək əməliyyatları**.**

Problemin praktik əhəmiyyət. Məqalədə pedaqoji texnologiyaların mahiyyət və məqsədindən irəli gələn, texnologiyaların məzmun, forma və metodları, texnologiyaların təsnifatı, onların funksiyalarına uyğun tətbiqi məqaləmin praktik əhəmiyyətini göstərmiş olur.

Nəticə. Beləliklə, göründüyü kimi, pedaqoji prosesin hər üç mərhələsində (hazırlıq mərhələ, əsas mərhələ, yekun mərhələ pedaqoji texnologiyalardan istifadə etmək müəllimdən yüksək səriştəlilik və peşəkarlıq, lazımi pedaqoji səriştələr, pedaqoji ustalıq tələb olunur[7, s.130]. Bu prosesdə təhsil verən və təhsil alanlar arasında qarşılıqlı fəal idraki münasibətlərin, yaradıcı fəaliyyətin və öyrədici, idraki mühitin yaradılması əsas mühüm şərtlərdən hesab edilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. –Bakı: Çaşıoğlu, –1999. –65 s.
2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. // "Xalq qəzeti". –2013, 25 oktyabr.
3. Əliyev İlham. Dünya Azərbaycanlılarının III qurultayında nitq // "Xalq qəzeti". – 2011, 5, 6 iyul.
4. Abbasov A. N. "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası: mahiyyəti, məqsəd və vəzifələri, məzmunu" // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. № 5.
5. Mehrabov, A. O. Müasir təhsilin konseptual problemləri / A. O. Mehrabov. –Bakı: Mütərcim, –2010. – 516 s.
6. Mehrabov, A. Pedaqoji texnologiyalar / A. Mehrabov, Ə. Abbasov, S. Zeynalov. – Bakı: Mütərcim, – 2006. – 372 s.
7. İbrahimov F.N. Pedaqogika: Dərslik / F.N. İbrahimov, R.L. Hüseynzadə. –Bakı: Mütərcim, –2021, – 488 s.

Redaksiyaya daxil olub: 26.01.2026

UOT 159.9.07

Ayşən Kənan qızı Məmmədova
Azərbaycan Dillər Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0001-5144-1581
Email: aysenmemmedova99@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(1).161-165

TƏLİM ÇƏTİNLİKLƏRİ PROBLEMİNİN PEDAQOJİ- PSİXOLOJİ MAHİYYƏTİ VƏ SƏBƏBLƏRİ

Ayshan Kanan Mammadova
doctorial student in the program of doctor of philosophy
at Azerbaijan University of Languages

PEDAGOGICAL AND PSYCHOLOGICAL ESSENCE AND CAUSES OF THE PROBLEM OF LEARNING DIFFICULTIES

Айшан Кянан гызы Мамедова
докторант по программе доктора философии
Азербайджанского Университета Языков

ПСИХОЛОГО- ПЕДАГОГИЧЕСКАЯ СУЩНОСТЬ И ПРИЧИНЫ ПРОБЛЕМЫ УЧЕБНЫХ ТРУДНОСТЕЙ

Xülasə. Məqalədə təlim çətinlikləri probleminin pedaqoji və psixoloji mahiyyəti elmi-nəzəri yanaşmalar əsasında kompleks şəkildə araşdırılır. Tədqiqat göstərir ki, təlim çətinlikləri şagirdlərin idrak fəaliyyətinin səviyyəsi, motivasiya sistemi, emosional sabitlik, sosial münasibətlər və təlim mühitinin keyfiyyətindən asılı olaraq formalaşır. Məqalədə təlim prosesində müşahidə olunan əsas problemlər sistemləşdirilərək onların aradan qaldırılması üçün fərdiləşdirilmiş təlim, psixopedaqoji dəstək, motivasion yanaşmalar və müəllim-şagird əməkdaşlığına əsaslanan inteqrativ model təklif olunur. Bu yanaşma təlim prosesinin səmərəliliyinin artırılması və şagirdlərin davamlı inkişafının təmin edilməsinə yönəlib.
Açar sözlər: *təlim çətinlikləri; pedaqoji-psixoloji səbəblər; idrak prosesləri; motivasiya; fərdiləşdirilmiş təlim; psixopedaqoji dəstək*

Abstract. The article provides a comprehensive examination of the pedagogical and psychological essence of learning difficulties based on scientific and theoretical perspectives. The study demonstrates that learning difficulties are shaped by factors such as students' cognitive functioning, motivational system, emotional stability, social relationships, and the quality of the learning environment. The article systematizes the main challenges observed in the educational process and proposes an integrative model grounded in individualized instruction, psychopedagogical support, motivational approaches, and teacher–student collaboration. This approach aims to enhance the effectiveness of the learning process and ensure the sustainable development of learners.
Keywords: *learning difficulties; pedagogical-psychological causes; cognitive processes; motivation; individualized learning; psychopedagogical support*

Аннотация. В статье комплексно исследуется педагогическая и психологическая сущность проблемы учебных трудностей на основе научно-теоретических подходов. Исследование показывает, что учебные трудности формируются в зависимости от уровня познавательной деятельности учащихся, их мотивационной системы, эмоциональной устойчивости, качества социальных отношений и образовательной среды. В статье систематизированы основные проблемы, наблюдаемые в учебном процессе, и предложена интегративная модель, основанная на индивидуализированном обучении, психолого-педагогической поддержке, мотивационных подходах и сотрудничестве «учитель–ученик». Данный подход направлен на повышение эффективности учебного процесса и обеспечение устойчивого развития учащихся.

Ключевые слова: *учебные трудности, педагогико-психологические причины, познавательные процессы, мотивация, индивидуализированное обучение, психолого-педагогическая поддержка*

Müasir dövrdə təlim prosesinin keyfiyyətinin yüksəldilməsi pedaqoji və psixoloji elmin ən mühüm istiqamətlərindən biri hesab olunur. Təlimdə çətinliklərin yaranması problemi bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir, çünki təlim çətinlikləri yalnız fərdi öyrənmə tempinin ləngiməsi ilə deyil, həm də şəxsiyyətin inkişaf dinamikasının pozulması ilə əlaqələndirilir [12]. Təlimdə qarşılaşılan çətinliklər, bir qayda olaraq, şagirdin idrak, emosional və iradi sferalarının kompleks qarşılıqlı təsirindən doğur və bu, pedaqoji müdaxilələrin sistemli şəkildə həyata keçirilməsini zəruri edir.

UNESCO-nun 2023-cü il hesabatına əsasən, təlimdə çətinliklərin vaxtında müəyyənləşdirilməsi və aradan qaldırılması təhsil sistemlərinin inklüzivliyinin əsas göstəricisidir. Bu baxımdan təlim çətinlikləri təkcə fərdi psixoloji məsələ deyil, həm də sosial-pedaqoji prosesin keyfiyyət göstəricisidir [16].

Təlim çətinliklərinin yaranmasının pedaqoji və psixoloji səbəbləri

Psixoloji aspektdən baxıldıqda, təlim çətinlikləri idrak fəaliyyətinin komponentləri – diqqət, hafizə, təfəkkür, qavrayış və nitqin inkişaf səviyyəsi ilə sıx bağlıdır. Pedaqoji baxımdan isə, təlim çətinlikləri tədris metodlarının, təlim materialının təqdimat formasının, müəllim-şagird qarşılıqlı əlaqəsinin və motivasiya sisteminin səmərəliliyindən asılı olur [12].

Təlim çətinliklərinin pedaqoji-psixoloji mahiyyəti onların yalnız öyrənmə fəaliyyətində yaranan mexaniki maneələrlə məhdudlaşmadığını, əksinə, bütövlükdə təlim mühitinin keyfiyyəti və şagirdin şəxsiyyət inkişafı ilə əlaqəli olduğunu göstərir.

"Təlim çətinlikləri" anlayışı müxtəlif elmi məktəblərdə fərqli şəkildə izah edilir. L.S. Vıqotski bu anlayışı "uşağın inkişafının aktual səviyyəsi ilə potensial inkişaf səviyyəsi arasındakı ziddiyyət" kimi dəyərləndirərək "yaxın inkişaf zonası" konsepsiyasını irəli sürmüşdür [17, s.184]. Piaget isə təlim çətinliklərini koqnitiv inkişaf mərhələlərinin təbii keçidlərində baş verən disbalansla əlaqələndirmişdir [10, s.28].

Müasir Azərbaycan pedaqoji elminə görə, təlim çətinlikləri şagirdin idrak fəaliyyətinin motivasion, əməli və refleksiv komponentləri arasında harmoniyanın pozulması nəticəsində yaranan öyrənmə maneələridir [3, s.28]. Həmçinin, bu çətinliklər funksional (idrak, diqqət, hafizə ilə bağlı), motivasion (öyrənməyə maraq və məqsədyönlülük səviyyəsi ilə bağlı) və sosial (ailə, müəllim, sinif mühiti ilə bağlı) aspektlərdə təsnif edilir.

Təlim çətinliklərinin çoxşaxəli olması onu göstərir ki, bu problem nə yalnız psixoloji, nə də sırf pedaqoji müstəvidə izah oluna bilər. Əksinə, o, hər iki elmin inteqrativ müstəvisində öyrənilməli və tədris prosesinə kompleks yanaşma tələb edir.

Təlim çətinliklərinin tədqiqi problemi XIX əsrin sonlarından etibarən pedaqoji psixologiyanın mühüm istiqamətlərindən biri kimi formalaşmışdır. Əvvəlcə bu problem əsasən "uğursuz şagird" fenomeni kontekstində izah olunurdu [13], lakin XX əsrin ortalarından başlayaraq psixoloji və sosial faktorların qarşılıqlı təsirinə diqqət yönəldilmişdir.

Təlim çətinliklərinin pedaqoji-psixoloji mahiyyətinin tədqiqi müasir təlim nəzəriyyələrinin mərkəzində dayanır və bu problemə inteqrativ, sistemli yanaşma zərurəti meydana çıxarır.

Təlim çətinliklərinin yaranma səbəbləri çoxfaktorludur və bu faktorlar pedaqoji, psixoloji, sosial və mədəni mühitin qarşılıqlı təsiri nəticəsində formalaşır. Müasir elmi ədəbiyyatda bu səbəblər iki əsas istiqamətdə təsnif edilir: pedaqoji səbəblər və psixoloji səbəblər [5]. Bu təsnifat, təlim çətinliklərinin yalnız şagirdin fərdi

xüsusiyyətləri ilə deyil, həm də təlim prosesinin təşkilati və metodoloji keyfiyyətləri ilə əlaqəsini üzə çıxarır.

Pedaqoji aspektdən təlim çətinliklərinin əsas səbəbi, təlim prosesinin planlaşdırılması və həyata keçirilməsində didaktik prinsip pozuntuları və ya metodoloji uyğunsuzluqlardır. Məsələn, təlim məqsədlərinin şagirdlərin idrak səviyyəsinə uyğun müəyyən edilməməsi, təlim materialının həcmcə çox və ya məzmun baxımından abstrakt olması öyrənmə prosesini çətinləşdirir.

Bir sıra tədqiqatlar göstərir ki, müəllimlərin çoxu tədris prosesində fərdiləşdirilmiş və diferensiallaşdırılmış yanaşmanı yetərincə tətbiq etmir. Bu isə fərqli idrak potensialına malik şagirdlər üçün eyni təlim strategiyasının istifadəsinə gətirib çıxarır ki, nəticədə bəzi şagirdlər üçün təlim prosesi ləngiyir, digərləri isə motivasiyasını itirir [15].

Digər mühüm pedaqoji səbəb müəllimin kommunikativ üslubu və pedaqoji münasibətlər sistemidir. Müəllimin sərt nəzarətə əsaslanan, avtoritar idarəetmə tərzi çox vaxt şagirdlərdə qorxu, özünə inamsızlıq və öyrənmə passivliyi yaradır [2, s.348]. Əksinə, demokratik və empatik ünsiyyət tərzi öyrənməyə marağı, iştirakçılığı və sosiomotiv komponentləri gücləndirir.

Azərbaycan təhsil sistemində aparılmış empirik tədqiqatlara əsasən, təlim çətinliklərinin formalaşmasında təlim mühitinin struktur problemi də mühüm rol oynayır. Tədqiqatçılar göstərir ki, siniflərin sıxlığı, dərs vaxtının azlığı, təlim vəsaitlərinin köhnəlmiş olması kimi amillər öyrənmənin keyfiyyətinə mənfi təsir göstərir. Bu isə xüsusilə zəif akademik hazırlığa malik şagirdlərdə təlim çətinliklərinin daha da dərinləşməsinə səbəb olur [3, s. 84].

Pedaqoji səbəblərdən biri də motivasiya sistemi və qiymətləndirmə mexanizmlərinin düzgün qurulmamasıdır. Əgər tədris prosesi yalnız nəticəyönlü qiymətləndirmə ilə məhdudlaşırsa, prosesual nailiyyətlər, yaradıcılıq və fərdi irəliləyişlər kölgədə qalır. Bunun nəticəsində şagirdlər öz potensiallarını reallaşdıra bilmir və təlimdə çətinliklər qaçılmaz olur.

Bütün bunlar göstərir ki, pedaqoji mühitin səmərəliliyi ilə təlim çətinlikləri arasında birbaşa asılılıq mövcuddur. Müəllimin tədris strategiyası, təlim mühitinin təşkili və motivasion strukturun balanslaşdırılması təlim çətinliklərinin qarşısının alınmasında əsas amillərdəndir.

Təlim çətinliklərinin psixoloji səbəbləri şagirdin fərdi-idrak xüsusiyyətləri, emosional vəziyyəti, motivasiya səviyyəsi və sosial-psixoloji adaptasiyası ilə sıx bağlıdır. Psixoloji amillər çox zaman pedaqoji faktorların nəticəsi kimi meydana çıxsa da, onların müstəqil rolu da danılmazdır.

İlk növbədə qeyd edilməlidir ki, idrak proseslərinin inkişaf səviyyəsi təlim çətinliklərinin başlıca psixoloji səbəblərindəndir. Diqqətin qeyri-sabitliyi, hafizənin zəif həcmi, məntiqi təfəkkürün kifayət qədər inkişaf etməməsi öyrənmənin strukturunda boşluqlar yaradır [7]. Bu kimi hallar nəticəsində şagird informasiyanı qavramaqda, onu analiz və sintez etməkdə çətinlik çəkir.

Digər mühüm psixoloji səbəb emosional gərginlik və özünə inamsızlıqdır. Bandura (1997) "özünəsəmərə" (self-efficacy) anlayışını irəli sürərək göstərmişdir ki, fərdin öz qabiliyyətinə inam səviyyəsi onun öyrənmə motivasiyasını və nailiyyətlərini birbaşa müəyyənləşdirir. Təlimdə müvəffəqiyyətsizlik yaşayan şagirdlərdə özünəsəmərə səviyyəsi aşağı düşür, nəticədə yeni tapşırıqlara münasibətdə qorxu və qaçınma davranışı yaranır.

Bəzi hallarda təlim çətinlikləri neyropsixoloji və fizioloji amillərlə də əlaqədardır. Bu halda diqqət çatışmazlığı, qavrama pozuntuları və ya yüngül öyrənmə geriliyi kimi hallar müşahidə olunur [9]. Belə hallarda pedaqoji müdaxilə ilə yanaşı psixoloji dəstək proqramlarının tətbiqi zəruridir.

Təlim çətinliklərinin yaranması prosesində pedaqoji və psixoloji amillər bir-birindən asılı şəkildə fəaliyyət göstərir. Tədris metodikasının uyğunsuzluğu psixoloji gərginlik yaradır, psixoloji uyğunsuzluq isə pedaqoji nəticələrin səmərəsini azaldır. Məsələn, müəllimin sərt tənqidi yanaşması (pedaqoji faktor) şagirdin özünə inamını azaldır (psixoloji nəticə), bu isə növbəti mərhələdə idrak aktivliyini zəiflədir [1].

Bu baxımdan təlim çətinliklərinin səbəblərinin analizi sistem yanaşma tələb edir. Bu yanaşmada tədris mühitinin struktur elementləri – müəllim, şagird, məzmun, metod və şərait – qarşılıqlı təsir sistemi kimi nəzərdən keçirilir.

Təlim çətinliklərinin aradan qaldırılması üçün pedaqoji mühitin humanistləşdirilməsi, psixoloji dəstəyin institusional səviyyədə təmin edilməsi və müəllimlərin psixopedoqoji hazırlıq səviyyəsinin artırılması mühüm şərtdir. Bu istiqamətdə həm milli, həm də beynəlxalq təcrübə-

nin inteqrasiyası təlim prosesinin effektivliyinə mühüm töhfə verə bilər.

Təlim çətinliklərinin aradan qaldırılması pedaqogika və psixologiyanın kəsişməsində duran ən aktual tədqiqat istiqamətlərindən biridir. Müasir dövrdə bu məsələ yalnız şagirdlərin akademik uğursuzluqlarının korreksiyası kimi deyil, həm də onların şəxsiyyət inkişafı, emosional sabitliyi və sosial adaptasiyası ilə əlaqəli kompleks problem kimi qiymətləndirilir [16]. Təlimdə çətinliklərin aradan qaldırılması, bir tərəfdən, tədris prosesinin struktur və məzmun elementlərinin optimallaşdırılmasını, digər tərəfdən isə şagirdin psixoloji ehtiyaclarının nəzərə alınmasını tələb edir.

Pedaqoji baxımdan təlim çətinliklərinin aradan qaldırılması üçün ən effektiv istiqamətlərdən biri fərdiləşdirilmiş və diferensial təlim modelidir. Tədqiqatçıların fikrincə, öyrənmə prosesində şagirdin maraqları, təcrübəsi və idrak tərzi nəzərə alınmalıdır [14]. Müəllim tədris prosesini yalnız bilik ötürmək vasitəsi kimi deyil, həm də inkişafedici fəaliyyət kimi qurmalıdır.

Azərbaycan təhsil sistemində fərdiləşdirilmiş təlim prinsipi "Təhsil haqqında Qanun" (2009) və "Ümumtəhsil sisteminin kurikulum konsepsiyası"nda (2013) öz əksini tapmışdır. Bu sənədlərdə qeyd olunur ki, təlim prosesi şagirdin fərdi inkişaf trayektoriyasını dəstəkləməli, onun idrak potensialına uyğun metod və resurslardan istifadə etməlidir. Belə ki, fərdiləşdirilmiş təlim şəraitində müəllim-şagird münasibətləri transformativ xarakter daşıyır və bu, təlim çətinliklərinin azalmasına səbəb olur.

Digər mühüm pedaqoji yanaşma inklüziv təlim modelidir. UNESCO-nun 2023-cü il hesabatına görə, təlimdə çətinlikləri olan şagirdlərin təhsil prosesinə tam inteqrasiyası üçün inklüziv mühitin yaradılması əsas prioritet istiqamətlərdən biridir [16]. İnklüziv yanaşma fərqliliklərin aradan qaldırılmasına deyil, onların tədris prosesində nəzərə alınmasına yönəlir. İnklüziv pedaqogika yalnız xüsusi təhsil ehtiyaclı uşaqlar üçün deyil, həm də öyrənmə tempində və motivasiyada fərqlənən bütün şagirdlər üçün effektivdir.

Bütün bu pedaqoji yanaşmaların səmərəsi müəllimin peşəkar səriştəsindən, psixopedaqoji hazırlığından və reflektiv düşüncə qabiliyyətindən asılıdır. Tədqiqatçılar vurğulayır ki, müasir müəllim yalnız bilik ötürən deyil, həm də öyrənməni fasilitasiya edən şəxs kimi çıxış etməlidir [6]. Bu yanaşma müəllimin həm pedaqoji, həm də psixoloji funksiyasını genişləndirir.

Təlim çətinliklərinin aradan qaldırılmasında psixoloji yanaşmalar əsasən emosional, motivasion və sosial-psixoloji dəstək mexanizmlərinə yönəlmişdir. Psixoloji dəstəyin məqsədi yalnız çətinliklərin simptomlarını aradan qaldırmaq deyil, həm də onların dərin psixodinamik səbəblərini müəyyənləşdirməkdir.

Digər mühüm istiqamət emosional-psixoloji sabitliyin formalaşdırılmasıdır. Təlimdə uğursuzluq yaşayan şagirdlərdə özünəinamsızlıq, qorxu və narahatlıq kimi emosional gərginliklər yaranır. Bu vəziyyətlərdə psixoloji konsultasiya, qrup terapiyası və emosional dəstək proqramları mühüm rol oynayır [11]. Təhsil müəssisələrində psixoloq-müəllim əməkdaşlığı bu funksiyanı həyata keçirən əsas mexanizmdir.

Azərbaycan təcrübəsində psixoloji dəstək mexanizmlərinin institusional formalaşması son illərdə inkişaf etmişdir. Təhsil Nazirliyinin 2022-ci il hesabatına əsasən, ümumtəhsil məktəblərində psixoloji xidmətlərin keyfiyyətinin artırılması istiqamətində yeni standartlar hazırlanmış, "Psixoloji Xidmət Mərkəzləri" şəbəkəsi genişləndirilmişdir. Bu təşəbbüslər təlimdə çətinlikləri olan şagirdlər üçün psixoloji yardımın əlçatanlığını artırmağa yönəlib.

Təlim çətinliklərinin aradan qaldırılmasında pedaqoji və psixoloji yanaşmaların bir-birindən ayrılmaz şəkildə tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan interdisiplinar pedaqoji-psixoloji modellər (məsələn, "təlim mentorluğu", "inklüziv psixopedaqogika" və s.) son illərdə beynəlxalq təhsil sistemlərində geniş tətbiq edilir [8]. Bu modellər müəllim və psixoloq əməkdaşlığını, eləcə də valideynlərin təlim prosesinə aktiv qoşulmasını nəzərdə tutur.

Aparılan elmi-nəzəri təhlillər göstərdi ki, təlim çətinlikləri problemi müasir pedaqoji və psixoloji elmin kəsişməsində duran kompleks və çoxşaxəli məsələdir. Bu çətinliklər yalnız şagirdin fərdi qabiliyyətləri ilə deyil, həm də təlim prosesinin məqsəd, məzmun, metod və təşkilati mühit amillərinin qarşılıqlı təsiri ilə bağlıdır. Təlimdə çətinliklərin aradan qaldırılması istiqamətində aparılan tədqiqatlar göstərir ki, problemin həlli yalnız formal pedaqoji müdaxilələrlə deyil, həm də şəxsiyyətyönlü, inteqrativ və inkişafetdirici yanaşmalarla mümkündür.

Təlim çətinliklərinin pedaqoji-psixoloji mahiyyəti onların iki əsas səviyyədə – idrak (koqnitiv) və motivasion-emosional səviyyələrdə formalaşdığını təsdiqləyir. Bu baxımdan, tədris prosesində yaranan çətinliklərə sırf nəticəyönlü deyil, prosesyönlü yanaşma zəruridir.

Problemin aktuallığı. Təlim çətinlikləri müasir təhsil sistemində şagirdlərin akademik nailiyyətlərinə və sosial-emosional inkişafına birbaşa təsir göstərən əsas problemlərdən biri kimi aktuallığını qorumaqdadır. İnformasiya yükünün artması, tədris prosesinin mürəkkəbləşməsi və fərdi fərqlərin nəzərə alınmaması şagirdlərdə idrak və motivasiya səviyyəsində əlavə çətinliklərin yaranmasına səbəb olur. Bu problemin pedaqoji-psixoloji aspektdə araşdırılması təlimin keyfiyyətinin yüksəldilməsi və diferensial yanaşmaların tətbiqi baxımından xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi. Tədqiqatda təlim çətinliklərinin pedaqoji və psixoloji amillər əsasında inteqrativ təsnifatı verilmiş və onların yaranmasını şərtləndirən amillər yeni elmi-metodoloji yanaşma ilə sistemləşdirilmişdir. Həmçinin fərdiləşdirilmiş təlim, motivasion dəstək və psixopedaqoji müşayiətin birləşdirildiyi kompleks model hazırlanaraq təlim çətinliklərinin aradan qaldırılmasında tətbiq üçün elmi əsaslandırma təqdim edilmişdir.

Problemin praktik əhəmiyyəti. Araşdırmada müəyyənləşdirilən pedaqoji-psixoloji mexanizmlər müəllimlərin təlim çətinliklərini daha operativ şəkildə diaqnostika etməsinə və onların aradan qaldırılması üçün məqsədyönlü metodik qərarlar qəbul etməsinə imkan yaradır. Tədqiqat nəticəsində təklif olunan diferensial və fərdiləşdirilmiş təlim modeli real tədris prosesində tətbiq oluna biləcək səmərəli pedaqoji texnologiyaların formalaşdırılmasına xidmət edir. Eyni zamanda hazırlanan psixopedaqoji dəstək yanaşmaları şagirdlərin emosional sabitliyinin və öyrənmə motivasiyasının yüksəldilməsinə praktik töhfə verir.

Ədəbiyyat

1. Bandura A. Perceived self-efficacy in cognitive development and functioning // *Educational Psychologist*. –1993. Vol. 28, № 2. –P. 117–148.
2. Bandura, A. Self-efficacy: The Exercise of Control. – New York: W. H. Freeman, –1997. – 604 p.
3. Əhmədov, M. Pedaqoji psixologiya. / M. Əhmədov. – Bakı: Çıraq, –2010. –324 s.
4. ERIC. Educational Resources Information Center (ED385379).
5. Hallahan D. P., Kauffman J. M., Pullen P. C. Exceptional Learners: An Introduction to Special Education. 12th ed. – Boston: Pearson, –2015.
6. Hattie J. Visible Learning: A Synthesis of Over 800 Meta-analyses Relating to Achievement. – London: Routledge, –2009.
7. International Dyslexia Association. Dyslexia in the Classroom: What Every Teacher Needs to Know. – Baltimore, MD: IDA, –2015.
8. OECD. Teachers and School Leaders as Lifelong Learners: International Summit on the Teaching Profession. – Paris: OECD Publishing, –2020.
9. Pennington B. F. Diagnosing Learning Disorders: A Neuropsychological Framework. 2nd ed. – New York: Guilford Press, 2009.
10. Piaget, J. Psychology and Pedagogy. – New York: Viking Press, –1972. – 189 p.
11. Reynolds, C. R., Fletcher-Janzen E. Handbook of School Psychology. 4th ed. – New York: Wiley, –2011.
12. Snow, C. E., Burns M. S., Griffin P. Preventing Reading Difficulties in Young Children. – Washington, DC: National Academy Press, –2005.
13. Thorndike, E. L. Educational Psychology: The Psychology of Learning. – New York: Teachers College, Columbia University, –1913.
14. Tomlinson, C. A. How to Differentiate Instruction in Academically Diverse Classrooms. 3rd ed. – Alexandria, VA: ASCD, –2017.
15. Tomlinson, C. A. The Differentiated Classroom: Responding to the Needs of All Learners. 2nd ed. – Alexandria, VA: ASCD, –2014.
16. UNESCO. Global Education Monitoring Report 2023: Inclusion and Education. – Paris: UNESCO Publishing, –2023.
17. Vıqotskiy, L. S. Myšleniye i reč. – Moskva: Pedagogika, 1991. – 287 s.
18. Zhou M., Brown D. (Eds.) Educational Learning Theories. 2nd ed. – Oregon: Education Open Textbooks, –2017.

Redaksiyaya daxil olub: 10.12.2025

UOT 159.9.07

Nabat Ayaz qızı Qəhrəmanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
fəlsəfə doktoru proqramı üzrə doktorant
https://orcid.org/0009-0008-9073-2016
E-mail: nabat.gahramanova@yahoo.no
https://doi.org/10.69682/arti.2026.93(1).166-171

GƏLƏCƏK TƏRBİYƏÇİ-MÜƏLLİMLƏRİN İNKLÜZİV FƏALİYYƏTƏ HAZIRLIĞININ MAHİYYƏTİ

Nabat Ayaz Gahramanova
doctorial student in the program of doctor of philosophy
lecturer at the Azerbaijan State Pedagogycal Univercity

THE ESSENCE OF PREPARING FUTURE EDUCATOR-TEACHERS FOR INCLUSIVE ACTIVITES

Набат Аяз гызы Гахраманова
преподаватель Азербайджанского Государственный Педагогического Университета,
докторант по программме доктора философии

СУЩНОСТЬ ПОДГОТОВКИ БУДУЩИХ ВОСПИТАТЕЛЕЙ-УЧИТЕЛЕЙ К ИНКЛЮЗИВНОЙ ДЕЯТЕЛЬНОСТИ

Xülasə. Məqalədə tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının pedaqoji-mahiyyəti araşdırır, onun sosial, psixoloji və peşəkar aspektləri sistemli şəkildə təhlil edilir. İnklüziv fəaliyyətə hazırlıq yalnız nəzəri biliklərlə məhdudlaşmır, həm də empatiya, dözümlülük, əməkdaşlıq, fərqliliyə hörmət kimi insani keyfiyyətlərin formalaşmasını tələb edir. Gələcək tərbiyəçi-müəllimlərin bu istiqamətdə hazırlığı onların pedaqoji səriştələrinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunur.
Açar sözlər: *tərbiyəçi-müəllim, inklüziv fəaliyyət, məzmun, məktəbəqədər təhsil müəssisəsi, funksiya*

Abstract. The article explores the pedagogical essence of preparing preschool teachers for inclusive activity and systematically analyzes its social, psychological, and professional aspects. Preparation for inclusive activity is not limited to theoretical knowledge; it also requires the development of human qualities such as empathy, tolerance, cooperation, and respect for diversity. The preparation of future preschool teachers in this direction is presented as an integral part of their pedagogical competencies.
Key words: *preschool teacher, inclusive activity, content, preschool educational institution, function*

Аннотация. В статье исследуется педагогическая сущность подготовки воспитателей к инклюзивной деятельности, системно анализируются её социальные, психологические и профессиональные аспекты. Подготовка к инклюзивной деятельности не ограничивается только теоретическими знаниями, но требует формирования таких человеческих качеств, как эмпатия, терпимость, сотрудничество и уважение к различиям. Подготовка будущих воспитателей в этом направлении рассматривается как неотъемлемая часть их педагогических компетенций.
Ключевые слова: *воспитатель-учитель, инклюзивная деятельность, содержание, дошкольное образовательное учреждение, функция*

Təhsilin bütün pillə və səviyyələrində inklüzivliyin tətbiqi və cəmiyyət tərəfindən qəbulu uzunmüddətli, mürəkkəb və çoxamilli bir prosesdir. Bu prosesin həyata keçirilməsindəki çətinliklər bir tərəfdən cəmiyyətin mental dəyərləri, digər tərəfdən mövcud təhsil ənənələri, ictimai münasibətlər və inklüzivliyin özünəməxsus spesifik xüsusiyyətləri ilə bağlıdır. İnklüziv təhsil hər bir şagirdin fərdi xüsusiyyətlərinə və imkanlarına adekvat olan şəxsi inkişaf, təhsil təcrübəsinin formalaşması, sosial inkişafı və sosiallaşması üçün xüsusi psixoloji, pedaqoji, fiziki, fizioloji "*şəraitin yaradılmasını*" [1, s.34] nəzərdə tutur. "*Sağlamlığı, potensial imkanı və maddi təminatından asılı olmayaraq uşaqların birgə təhsil almaq hüququnun (inklüzivliyin) təmin edilməsi*" [2] təhsil müəssisələrinin infrastrukturunun inklüzivlik prinsiplərinə uyğunlaşdırılmasını, fərdi tədris planının tutulmasını, təhsil proqramının uyğunlaşdırılmasını və sadələşdirilməsini, təhsilalanlara fərdi dəstək göstərən assistant sisteminin yaradılmasını, kompensator texnologiyaların tətbiqini nəzərdə tutur. İnklüziv təhsil prosesinin səmərəli təşkili bir tərəfdən zəruri infrastruktur və tədris resursları ilə bağlıdırsa, digər tərəfdən müəllim-tərbiyəçilərlə valideynlərin əməkdaşlığının səviyyəsindən asılıdır. Bu prosesinin iştirakçılarının hər birinin fərdi maraqları, baxışları və dəyərləri olsa da, burada dominantlıq tətbiyəçi-müəllimə məxsusdur. Tərbiyəçi-müəllim təhsil prosesinin təşkili ilə kifayətlənmir, şagirdlərin sosiallaşmasını, onlara psixoloji dəstəyin göstərilməsini, fərdi yanaşmanın həyata keçirilməsini, qarşılıqlı ünsiyyətin qurulmasını və "inklüziv münasibətlərin formalaşdırılmasını" [3,s.129] təmin edir.

Müasir dövrdə inklüziv təhsilin səmərəli şəkildə həyata keçirilməsi tərbiyəçi-müəllimlərin peşəkar fəaliyyətə sistemli şəkildə hazırlanmasını tələb edir. "Hazırlıq" anlayışı həm lüğəvi, həm də psixoloji baxımdan çoxaspektli xarakter daşıyır. Hazırlıq "Azərbaycan izahlı lüğəti"ndə *"bir işi icra etmək üçün hər şeyi olan; bir işi görməyə razı olan, həvəs, meyl göstərən*" [3,s.338], psixoloji lüğətlərdə isə "*şəxsiyyətin özünü konkret fəaliyyət növünə hazır və bacarıqlı hesab etməsi"* [4, s. 90] onu yerinə yetirmək istəməsi ilə əlaqələndirilir. Bu isə inklüziv mühitdə fəaliyyət göstərəcək tərbiyəçi-müəllimlərin elmi-idraki, metodiki və texniki bacarıqları ilə yanaşı, həm də psixoloji və mənəvi hazırlığının vacibliyini göstərir.

Ümumiyyətlə, peşəkar fəaliyyətə hazırlıq çoxkomponentli, qurluşca mürəkkəb və mərhələli şəkildə formalaşan bir prosesdir. Bu proses yalnız bilik və bacarıqların mənimsənilməsini deyil, eyni zamanda sosial-mənəvi motivasiyanı, psixoloji hazırlığı və şəxsiyyətin peşəkar mövqeyinin inkişafını ehtiva edir.

M. İlyasov müəllimin pedaqoji peşəkarlığını "*pedaqoji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi prosesində baş verən hadisə*" [6, s.20], A. Mehrabov onun pedaqoji fəaliyyətinin vacib komponentləri olan *"bilik, bacarıq, münasibət və şəxsi keyfiyyətlərin vəhdəti"* [7, s.76] hesab edirdi. Y.P. Povarenkov [5, s.34] peşəkar fəaliyyətə hazırlığı mənəvi-iradi keyfiyyətlər, sosial motivlər, peşəyə dair biliklər, praktik bacarıqlar, ümumi əmək vərdişləri, eləcə də fəaliyyət üçün zəruri psixoloji funksiyalar və qabiliyyətlərdən ibarət mürəkkəb struktur kimi xarakterizə edirdi.

Tərbiyəçi-müəllimin inklüziv təhsilə hazırlığı yalnız informasiyanın mənimsənilməsi deyil, həm də dəyərlərə, münasibətlərə və sosial mövqeyə əsaslanan psixoloji hazırlıq vəziyyətidir. Davranışa istiqamət verən bu keyfiyyətlər həm əvvəlki təcrübədən formalaşır, həm də gələcək fəaliyyəti istiqamətləndirir. Deməli, inklüziv fəaliyyətə hazırlıq yalnız nəzəri bilikləri deyil, həm də sosial-emosional və adaptasiya bacarıqlarını nəzərdə tutur. Bəzi tədqiqatlarda pedaqoji hazırlıq *ümumi uzunmüddətli* (fəaliyyətə sabit ehtiyac), *xüsusi uzunmüddətli* (konkret fəaliyyət növünə yönəlmiş hazırlıq) və *qısamüddətli* (konkret tapşırığın yerinə yetirilməsinə hazırlıq) olmaqla təhlil edilir. Bu modellər tərbiyəçi-müəllimlərin müxtəlif səviyyələrdə fəaliyyətə motivasiyasını və peşəkar hazırlıq dərəcəsini müəyyən etməyə imkan verir.

Müasir pedaqoji və psixoloji tədqiqatların təhlili göstərir ki, "hazırlıq" anlayışı müxtəlif meyarlar əsasında fərqli növlərə ayrılaraq sistemləşdirilir. Bu yanaşmalarda hazırlığın *ümumi və xüsusi* [9], *funksional və şəxsi* [8], *psixoloji və praktik* [10], *mənəvi-psixoloji, informasiya-məzmunlu, əməli və peşəkar* [11] kimi formaları fərqləndirilir. Bu təsnifatlar müxtəlif elmi-metodoloji yanaşmaların nəticəsi olmaqla yanaşı, hazırlığın çoxaspektli xarakterini və onun struktur komponentlərinin qarşılıqlı əlaqəsini əks etdirir. Belə yanaşmalar gələcək mütəxəssislərin kompleks

şəkildə formalaşmasına, onların peşə fəaliyyətinə hərtərəfli hazır olmalarına xidmət edir.

Beləliklə, tərbiyəçi-müəllimlərin inklüziv təhsilə hazırlığı yalnız bilik və bacarıqlarla məhdudlaşmır, həm də sosial-psixoloji vəziyyət, dəyərlər sistemi, motivasiya və fəaliyyətə istiqamət verən peşəkar mövqelərlə sıx bağlı olan kompleks, çoxkomponentli bir prosesdir. Bu səbəbdən, hazırlıq prosesi davamlı, məqsədyönlü və funksional baxımdan zəngin bir sistem əsasında qurulmalıdır.

Tədqiqatlarda pedaqoji fəaliyyətə hazırlığın mühüm tərkib hissəsi olan psixoloji-pedaqoji hazırlıq bir sıra əsas aspektlərlə xarakterizə olunur. Bu aspektlərə aşağıdakılar daxildir: 1) şəxsin fəaliyyətinə təsir edən daxili potensial və motivasiya; 2) fəaliyyətin necə yerinə yetiriləcəyinə dair təsəvvürün və ona yönəlmiş davamlı düşüncənin mövcudluğu; 3) hazırlığın nəticəsi kimi formalaşan və konkret məqsədə yönəlmiş münasibət; 4) şəxsin uğurlu fəaliyyətinə şərait yaradan şəxsi keyfiyyətlər.

Bununla yanaşı, qeyd etməliyəm ki, mövcud yanaşmaların əksəriyyətində hazırlıq anlayışı ilə mütəxəssisin peşə səriştələri arasında olan qarşılıqlı əlaqə dərindən və hərtərəfli araşdırılmayıb. Halbuki səriştə müəllimin bilik, bacarıq, praktiki təcrübə və şəxsi keyfiyyətləri əsasında konkret sosial və ya peşə fəaliyyətində səmərəli iştirak etmə bacarığını və bu fəaliyyətə hazırlıq səviyyəsini əks etdirir. Buna görə də pedaqoji hazırlığın gələcək tərbiyəçi-müəllimlərin peşə-səriştə baxımından araşdırılması, məzmununu və funksional əlaqələrini elmi cəhətdən aydınlaşdırılması mühüm əhəmiyyət daşıyır. Fəaliyyətə hazırlığın məzmunu əsasən həmin fəaliyyətin xüsusiyyətləri, iştirak edən subyektlərin keyfiyyət göstəriciləri, onların qarşılıqlı münasibətlərinin xarakteri və digər mühüm amillərlə müəyyən olunur.

Normativ-hüquqi sənədlərdə "*inklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsi"* [10] kimi səciyyələndirilir. Elmi araşdırmalarda isə inklüziv təhsil mühiti müxtəlifliyə malik və çoxsaylı subyektlərin iştirakı ilə xarakterizə olunan kompleks bir sistem kimi təsvir edilir. Bu mühitdə hər bir iştirakçı məqsədinə, marağına, roluna və səlahiyyətinə uyğun şəkildə fəaliyyət göstərdiyindən əməkdaşlıq prosesində onların hər birinin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

İnklüziv təhsil mühitində ənənəvi "*müəllim-tərbiyəçi – uşaq* (yaşına, inkişaf səviyyəsinə və digər xüsusiyyətlərinə görə oxşar olan uşaqlar)", "*müəllim-tərbiyəçi – valideyn* (oxşar sosial, mədəni, iqtisadi və təhsil baxımından eyni xüsusiyyətlərə malik valideynlər)", "*tərbiyəçi-müəllim – tərbiyəçi-müəllim* kimi ikitərəfli münasibətlər tədricən öz aktuallığını itirir və onun yerinə çoxvektorlu qarşılıqlı əlaqələr formalaşır və yeni münasibətlər qurulur. Yeni formalaşmaqda olan münasibətlər sistemində tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı onların pedaqoji fəaliyyətə hazırlığının ayrılmaz və vacib hissəsi kimi diqqəti cəlb edir.

M.Y. Aybazova və K.Y. Lavrinets müəllimin inklüziv təhsil mühitində fəaliyyətə hazırlığını "bu fəaliyyəti uğurla həyata keçirməyə imkan verən mürəkkəb, dinamik bir şəxsi formalaşma" prosesi kimi qiymətləndirirlər. Bu, olduqca mürəkkəb prosesdir. Bu səbəbdəndir ki, Avstriyalı tədqiqatçılar R. Rosenberg, K. D.Bruin və M. Ludecke tərbiyəçi-müəllimlərin universitet təhsili zamanı inklüziv yanaşma ilə bağlı kifayət qədər praktiki bacarıqlar əldə etmədiklərini müəyyən etmişlər. L.Florian və H.Linklater (Böyük Britaniya) gələcək müəllimlərin hər bir uşağın imkanına uyğun tədris mühiti yarada bilməməsidəki çətinlikləri ali təhsil müddətində "İnklüziv pedaqogika"nın nəzəri və praktik problemlərini dərindən öyrənməməsi ilə əlaqələndirirlər. Y.V. Şumilovskayanın araşdırmalarında məhdud imkanlı uşaqların fərdi xüsusiyyətləri barədə bilik və təsəvvürlərin formalaşması, onlarla işləmək üçün zəruri olan metodların mənimsənilməsi, eyni zamanda bu fəaliyyətin həyata keçirilməsi üçün şəxsi keyfiyyətlərin olması inklüziv pedaqoji fəaliyyət üçün zəruri şərtlərdən biri kimi dəyərləndirilir.

Bəzi araşdırmalarda xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün inklüziv təhsilin həyata keçirilməsi ilə bağlı müəllimin peşəkar-şəxsi hazırlığı aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: 1) müəllimin inklüziv təhsil prosesinə könüllü və motivasiyalı şəkildə qoşulması; 2) müəllim xüsusi təhsil ehtiyacları olan uşaqların xüsusiyyətlərini, ehtiyaclarını və onların təliminə dair nəzəri bilikləri mənimsəmiş olması; 3) müəllimin bu kateqoriyadan olan uşaqlarla səmərəli işləməsi üçün praktik bacarıq və peşə

vərdişlərinə malik olması; 4) müəllimin öz elmi-praktik hazırlığını təhsil-tərbiyə fəaliyyətinə inteqrasiya edərək səmərəli şəkildə həyata keçirməsi; 5) inteqrativ peşəkar-şəxsi formalaşma (yəni bu keyfiyyətlərin müəllimdə formalaşması).

Diqqət yetirsək görərik ki, bunlar tərbiyəçi-müəllimlərin inklüziv təhsil şəraitində fəaliyyətə hazırlığının mahiyyətini tam əhatə etmir, gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı ilə onların səriştələrinin və peşə-pedaqoji hazırlıq səviyyəsinin qarşılıqlı əlaqəsi kifayət qədər dolğun şəkildə əks olunmur. Bu yanaşmalar tərbiyəçi-müəllimlərin şəxsi keyfiyyətlərinə, məhdud imkanlı uşaqlar haqqında bilikləri mənimsəməyi və onlarla işləməyə hazır olmağı nəzərdə tutur. Bu təriflərdə gələcək pedaqoqların inklüziv fəaliyyətə hazırlığı ilə onların səriştələrinin və peşəkar-pedaqoji hazırlıq səviyyəsinin qarşılıqlı əlaqəsi kifayət qədər dolğun şəkildə əks olunmur. Bəzi tədqiqatlarda tərbiyəçi-müəllimlərin "inklüziv fəaliyyətə hazırlığı" ilə onun "kompetentliyi" anlayışları eyniləşdirirlər. Halbuki bunlar tamamilə fərqli məsələlərdir. Diqqət yetirmək lazımdır ki, məktəbəqədər təhsil ilə bağlı 2020-ci ildə təsdiq edilmiş Təhsil Proqramı məzunun peşə səriştələri, proqramın və fənnin təlim nəticələri əsasında formalaşmışdır.

"Məktəbəqədər təhsil" (050112) Təhsil Proqramında gələcək tərbiyəçi-müəllimlərin "*müxtəlif, çoxşaxəli və multikultural mühitlərdə səmərəli işləmə, fərqli fikir və perspektivlərə hörmət etmə və anlama"* [12] keyfiyyətinə malik olmaları xüsusi səriştə kimi önə çəkilir. Təhsil Proqramında gələcək tərbiyəçi-müəllimlərin "İnklüziv təhsil" fənninin tədrisində inklüziv təhsilin mahiyyəti, məqsədi və prinsiplərinin, bərabər imkanlar, əlçatanlıq və fərdi yanaşma anlayışlarının, xüsusi təhsil ehtiyacları olan uşaqların xüsusiyyətlərinin, diferensiallaşdırılmış və uyğunlaşdırılmış tədris metodikasının, kommunikasiya və qarşılıqlı münasibət bacarıqlarının, pedaqoji dəstək və korreksiya metodlarının öyrədilməsi nəzərdə tutulur. İnklüziv təhsil şəraitində xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləməyəcək gələcək tərbiyəçi-müəllimlərin hazırlığı kompleks xarakter daşıyır və 3 əsas komponenti (pedaqoji, psixoloji, sosial) əhatə edir:

1) tərbiyəçi- müəllimlərin didaktik və metodik bacarıqlara malik olması, məşğələlərdə inklüzivliyi təşkil etmək üçün zəruri təlim strategiyalarını mənimsəməsi (pedaqoji hazırlıq);

2) tərbiyəçi- müəllimin xüsusi təhsilə ehtiyacı olan uşaqları emosional baxımdan qəbul etməsi, inklüziv təhsilin dəyərlərinə əsaslanan motivasiya və mənəvi-etik baxışlara malik olması, uşaqları olduğu kimi qəbul etməsi, fiziki məhdudiyyətli uşaqlara həssas, qayğılı və peşəkar münasibət göstərməsi (psixoloji hazırlıq);

3) tərbiyəçi- müəllimin təhsil mühitinin bütün iştirakçıları ilə (uşaqlar, valideynlər, həmkarlar və mütəxəssislərlə) səmərəli ünsiyyət və qarşılıqlı fəaliyyət göstərməsi (sosial hazırlıq).

Bu komponentlər tərbiyəçi- müəllimlərin inklüziv təhsildə səmərəli fəaliyyət göstərməsi üçün zəruri şərait yaradılmasında, onların şəxsi, sosial və peşə hazırlığının səviyyəsinin inkişafında əhəmiyyətli rol oynayır.

İnklüziv hazırlığın mahiyyətini başa düşməyə kömək edən bu yanaşma mütəxəssis hazırlığı prosesində formalaşan iki əsas nəticə – hazırlıq və peşəkar kompetentlik arasında qarşılıqlı əlaqəni əks etdirir. Yəni, inklüziv hazırlıq tərbiyəçi-müəllimin həm bilik və bacarığa yiyələnməsi, həm də bu bilik və bacarıqları təhsil-tərbiyə prosesində istifadə etməyə hazır olması ilə bağlıdır. Deməli, inklüziv hazırlıq və inklüziv səriştə bir-biri ilə sıx bağlıdır, biri digərini tamamlayır və inkişaf etdirir. Kompetensiya, şəxsin müəyyən sosial və ya peşə sahəsində səmərəli fəaliyyət göstərməsi üçün bilik, bacarıq, təcrübə və şəxsi keyfiyyətlərini məqsədyönlü şəkildə tətbiq etmə qabiliyyəti və hazırlığı kimi başa düşülür. Onların formalaşması pedaqoji hazırlığın inkişaf qanunauyğunluqları ilə sıx bağlıdır. Bu baxımdan kompetensiyalar aşağıdakı qruplara ayrılır:

- ***Akademik səriştələr*** – konkret elmi sahənin metodologiyası və terminologiyasına yiyələnmək, sahə daxilindəki sistemli qarşılıqlı əlaqələri müəyyənləşdirmək və bu bilikləri praktik problemlərin həllində tətbiq etmək bacarığıdır.
- ***Peşəkar səriştələr*** – real pedaqoji vəziyyətlərdə məqsədyönlü, adekvat və effektiv fəaliyyət göstərmək üçün zəruri olan bilik və bacarıqların, həmçinin həmin vəziyyətlərə uyğun davranışın formalaşmış səviyyəsidir.
- ***Sosial-şəxsi səriştələr*** – şəxsin özünü şəxsiyyət kimi dərk etməsi, fərdlərlə, kollektivlə və cəmiyyətlə qarşılıqlı münasibətlər qurmaq və

əməkdaşlıq etmək bacarıqları ilə bağlı səriştələr toplusudur.

İnklüziv fəaliyyətə hazırlıqda müəllimin sosial mövqeyi, təhsil situasiyalarının dəyərləndirilməsi, uşağın şəxsiyyətinin inkişafı, sosiallaşması və potensialının reallaşdırılması üçün zəruri şəraitin yaradılması da əhəmiyyətli rol oynayır. Təhsil situasiyası iştirakçılar arasında qarşılıqlı münasibət formasını və inkişaf istiqamətini müəyyən edən didaktik və sosial komponentlərin vəhdəti kimi başa düşülür. Onun formalaşmasına sosial-iqtisadi və demoqrafik amillər, habelə subyektiv amillər təsir edir. Bu situasiya müxtəlif şəraitlərdə – *tam uyğun, qismən uyğun* və *uyğun olmayan* formada inkişaf edə bilər. N.V. Kuzmin müəllimin inklüziv hazırlığını *"peşəkar pedaqoji fəaliyyətə hazırlığın tərkib hissəsi"* kimi dəyərləndirir. Yəni pedaqoji fəaliyyətə hazırlıq müəllimin şəxsi keyfiyyətlərinin məcmusu olub, pedaqoji fəaliyyətin strukturunu, onun bütün komponentlərini (konstruktiv, təşkilati, kommunikativ) əhatə edir. İnklüziv təhsil mühitində çalışan tərbiyəçi – müəllimlərə yuxarıda sadalananlardan başqa yeni peşə tələbləri verilir. Bu tələblər müəllimin yalnız fənn biliyinə deyil, həm də müxtəlif təhsil ehtiyaclarına malik uşaqlarla işləmə bacarığına malik olmasını zəruri edir. Tərbiyəçi-müəllimlərə verilən həmin tələblərə diqqət yetirək:1) *didaktik və metodiki çevikliyə malik olmaq* (yəni müxtəlif öyrənmə ehtiyaclarını nəzərə alaraq fərdiləşdirilmiş tədris metodları seçmək, diferensiallaşdırma təlim strategiyalarından istifadə etmək, universal dizayn prinsiplərinə əsaslanan təlim təşkil etmək); 2) *psixoloji-pedaqoji biliklərin genişliyi* **(**xüsusi təhsil ehtiyacları olan uşaqların psixoloji xüsusiyyətlərini bilmək, inklüziv mühitdə uşaqların emosional və sosial rifahını təmin etmək, davranış pozuntularına düzgün yanaşma və münaqişə vəziyyətlərini idarə etmək); 3) *empatiya və inklüziv münasibət* **(**hər bir uşağı potensiala malik fərd kimi qəbul etmək, hər bir uşağı olduğu kimi qəbul etmək, onlara qarşı anlayışlı, dözümlü və inklüziv mövqe nümayiş etdirmək, ayrı-seçkiliyə yol verməmək), 4) *komanda ilə işləmək və əməkdaşlıq bacarığı* **(**defektoloq, loqoped, psixoloq və valideynlərlə effektiv əməkdaşlıq qurmaq, komanda üzvü kimi pedaqoji qərarların verilməsində iştirak etmək, müxtəlif mütəxəssislərin tövsiyələrini nəzərə alaraq fəaliyyət planı qurmaq), 5) *hüquqi və etik biliklər* (inklüziv təhsil sahəsində yerli və beynəlxalq normativ sənədləri bilmək, uşaqların hüquqlarını qorumaq və etik prinsiplərə riayət etmək, təhsil hüququ, ayrı-seçkiliyə yol verilməməsi və bərabər imkanlar məsələlərində maarifləndirmək), 6) rəqəmsal və texnoloji savadlılıq (xüsusi təhsil ehtiyaclarını qarşılayan texnologiyalardan istifadə etmək (məsələn, alternativ və artırılmış kommunikasiya vasitələri), İKT vasitəsilə fərdi təlim istiqamətlərini planlaşdırmaq). Bu tələblər müəllimin inklüziv mühitdə səmərəli fəaliyyət göstərə bilməsi üçün vacib sayılır. Müəllimin inklüziv hazırlığını təhsil situasiyasının obyektiv amilləri ilə şərtlənmiş bir elmi-pedaqoji kateqoriya kimi dəyərləndirmək mümkündür. Bu proses həm müəllimlik fəaliyyətinin yeni təhsil şəraitindəki xüsusiyyətlərini, həm də müəllimdən tələb olunan şəxsi keyfiyyətləri və peşə bacarıqlarını əks etdirir.

Nəticə olaraq qeyd edək ki, tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı çoxkomponentli və dinamik bir prosesdir. O, pedaqoji, psixoloji və sosial hazırlıq elementlərinin vəhdəti əsasında formalaşır və gələcək mütəxəssisin peşə səriştələrinin inkişafı ilə sıx bağlıdır. İnklüziv mühitdə tərbiyəçi-müəllimdən yalnız bilik və metodik bacarıqlar deyil, həm də sosial-emosional sabitlik, empatiya, əməkdaşlıq və adaptasiya qabiliyyəti tələb olunur. Bu hazırlığın elmi əsaslarla təşkili, pedaqoji təhsilin keyfiyyətinin və məktəbəqədər təhsil müəssisələrində inklüzivliyin səmərəliliyinin əsas şərtidir.

Problemin aktuallığı. Məqalədə gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının mahiyyəti, onun pedaqoji məzmunu və funksiyaları araşdırılır. Məktəbəqədər təhsil müəssisələrində inklüziv mühitin formalaşdırılmasında tərbiyəçi-müəllimin rolu və peşəkar hazırlığının əhəmiyyəti əsaslandırılır.

Problemin elmi yeniliyi. Məqalədə gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı anlayışı ilk dəfə pedaqoji sistem kimi təhlil edilir, onun struktur komponentləri və funksional istiqamətləri müəyyənləşdirilir, məktəbəqədər təhsildə inklüziv mühitin formalaşmasına təsir edən amillər elmi əsasda izah olunur.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr pedaqoji kolleclər və universitetlərdə gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlanması prosesində istifadə oluna bilər. Təklif olunan yanaşmalar tədris proqramlarının təkmilləşdirilməsinə və inklüziv təlim mühitinin formalaşdırılmasına kömək edir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə. II cild. –Bakı: Şərq-Qərb, –2006. –792 s.
2. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: monoqrafiya / M. İ. İlyasov; elmi red., ön sözün müəl. F. A. Rüstəmov. –Bakı: Elm və təhsil, –2018. –208 s.
3. Mehrabov, A.O. Səriştəli müəllim hazırlığının problemləri / A. Mehrabov. –Bakı: Elm və təhsil, –2015. –286 s.
4. "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/37269
5. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasinin Qanunu. https://e-qanun.az/framework/35791
6. Ананьев, Б. Г. Человек как предмет познания /Б. Г. Ананьев. –СПб.: Питер, –2001. –288 с.
7. Гребнева, В.В. Психологическая готовность студентов к личностно- центрированному взаимодействию в процессе образования в вузе: дис. канд. пед. наук: 13.00.08/Гребнева Валентина Викторовна. –Белгород, 2003. –229 с.
8. Психологический словарь / В.Н. Копорулина, М.Н. Смирнова, Н.О. Гордеева, Л.М. Балабанова; под общей ред. Ю.Л. Неймера. –Ростов-на-Дону: Феникс, –2003. –640 с.
9. Поваренков, Ю.П. Профессиональное становление личности: дис. д-ра психол. наук: 19.00.03, 19.00.07 /Поваренков Юрий Павлович. –Ярославль, 1999. –359 с.
10. Сластенин, В.А. Профессионально-педагогическая подготовка современного учителя/В.А. Сластенин, А.И. Мищенко. –Москва: Логос, –2000. –422 с.
11. Шпилевая, С.Г. Формирование готовности студентов к реализации интегрированного обучения в начальной школе: дис.канд. пед. наук: 13.00.01/Шпилевая Светлана Геннадьевна. – Калининград: Изд-во КГУ
12. Rosenberg R., De Bruin K., Ludecke M. Beginning teacher preparation and readiness for the profession as inclusive educators//Australian Journal of Education, 2024. № 1. –p. 45–60.

Redaksiyaya daxil olub: 27.01.2026

UOT 378

Məhərrəm Sabir oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
dosenti, psixologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universitetinin
elmlər doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).172-178

GƏNCLƏRDƏ İNTİHAR RİSKİ, ZAMAN QAVRAYIŞI VƏ ZAMAN DÜŞÜNCƏSİ PROBLEMİ

Maharram Sabir Aliyev
associate professor at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology
doctoral student of the doctor of science program at
Azerbaijan University of Languages

THE RISK OF SUICIDE, THE PROBLEM OF TIME PERCEPTION AND THINKING ABOUT TIME IN YOUTH

Магеррам Сабир оглы Алиев
доцент кафедры Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по психологии,
докторант по программе доктора наук
Азербайджанского Университета Языков

РИСК СУИЦИДА, ПРОБЛЕМА ВОСПРИЯТИЯ ВРЕМЕНИ И МЫШЛЕНИЯ О ВРЕМЕНИ У МОЛОДЕЖИ

Xülasə. Zaman qavrayışı hissi idrakın səviyyələrindən biri olan qavrayışın mürəkkəb növlərindən biri kimi insan həyatında önəmli rol oynayır. Zamanın qavranılması ideyasının idealist və materialist yanaşmalar kontekstində nəzərdən keçirilməsi müvafiq anlayışın insan psixikasının xüsusiyyəti olması yaxud ondan asılı olmayaraq mövcud olması ehtimalına söykənir. Bu anlamda, subyektiv və obyektiv zaman anlayışları fərqləndirilir. Apardığımız tədqiqat nəticəsində müəyyən edilmişdir ki, gənclərin zaman düşüncəsi ilə intihar riski arasında ikitərəfli çox zəif mənfi yönlü və anlamlı əlaqə ($r_{spearman}$ = -.081, p = .020) vardır. Keçmiş zaman düşüncəsinə və gələcək zaman düşüncəsinə sahib qrupların göstəriciləri (p = .006), indiki zaman düşüncəsinə və gələcək zaman düşüncəsinə sahib qrupların göstəriciləri (p = .002) arasında anlamlı fərqliliyin olduğu aşkar edilmişdir. Nəticə ondan ibarətdir ki, gələcək zaman düşüncəsinə sahib gənclərin intihar riski ortalaması keçmiş və indiki zaman düşüncəsinə sahib gənclərlə müqayisədə daha aşağıdır.

Açar sözlər: *intihar, intihara meyllik, intihar riski, zaman qavrayışı, obyektiv zaman, subyektiv zaman*

Abstract. Time perception plays an important role in human life as one of the complex types of perception, which is one of the levels of sensual cognition. Consideration of the idea of time perception in the context of idealistic and materialistic approaches is based on the assumption that the corresponding concept is a feature of the human psyche or exists independently of it. In this sense, the concepts of objective time and subjective time are distinguished. As a result of our study, it was determined that there is a two-way very weak negative and significant relationship ($r_{spearman}$ = -.081, p = .020) between young people's thinking about time and suicide risk. It was found that there was a significant difference between the scores of groups with past tense thinking and future thinking (p = .006), the scores of groups with present tense thinking and future thinking (p = .002). As a result, the mean suicide risk of youth with future-oriented thinking was lower than that of youth with past and present-oriented thinking.

Key words: *suicide, suicidal tendency, the risk of suicide, time perception, objective time, subjective time*

Аннотация. Восприятия времени играет важную роль в жизни человека как один из сложных видов восприятия, являющийся одним из уровней чувственного познания. Рассмотрение идеи восприятия времени в контексте идеалистического и материалистического подходов основано на предположении, что соответствующее понятие является особенностью психики человека или существует независимо от нее. В этом смысле различают понятия объективное время и субъективное время. В результате проведенного нами исследования было определено, что между мышлением о времени у молодых людей и риском самоубийства существует двусторонняя очень слабая отрицательная и значимая связь ($r_{spearman}$ = -.081, p = .020). Было обнаружено, что существует значимая разница между показателями групп с мышлением в прошедшем времени и мышлением в будущем (p = .006), показателями групп с мышлением в настоящем времени и мышлением в будущем (p = .002). В результате средний риск самоубийства у молодых людей с мышлением, ориентированным на будущее, ниже, чем у молодых людей с мышлением, ориентированным на прошлое и настоящее.

Ключевые слова: *самоубийство, склонность к сущиду, риск самоубийства, восприятие времени, объективное время, субъективное время*

Giriş

Zamanın qavranılması həyat fəaliyyətimizin ən mühüm funksiyalarından biridir (1). Q.D. Elkin yazır ki, *"Zamanın qavranılması reallıq hadisələrinin obyektiv müddətinin, sürətinin və ardıcıllığının beyində əks olunmasıdır"* (2, s. 15). Ümumiyyətlə, zamanın qavranılmasına idealist və materialist yanaşma mövcuddur.

İdealist istiqamətə (I. Kant, H. Bergson, P. Janet və b.) görə, zaman insan ruhunun xassəsi və ya insan psixikasının xüsusiyyətidir. Bu istiqamət daxilində obyektiv zamanın mövcudluğu inkar edilir. Deməli, müvafiq yanaşmaya görə, zamanın qavranılması haqda məsələ də ola bilməz, çünki yalnız obyektiv olan nəyisə qavramaq mümkündür (2). İdealist istiqamət psixologiyada zamanın qavranılması ilə bağlı iki cərəyanın inkişafına təkan vermişdir: nativizm və genetizm. Nativizm tərəfdarları (W. James, Q.İ. Çelpanov və b.) zamanı müəyyən müddətlilik ilə xarakterizə olunan duyğularımızın ilkin xüsusiyyəti kimi nəzərdən keçirmişdir. Genetizm tərəfdarları (H. Munsterberg, N.N. Lanqe və b.) da zamanı insan şüurunun xüsusiyyəti kimi nəzərdən keçirmişdir, lakin onlar zamanın qavranılması üçün bu və ya digər duyğunun yetərli olmadığı, duyğular arasında müəyyən əlaqənin gərəkdiyi fikrindən yola çıxmışlar (2).

Materialist istiqamətə (İ.M. Seçenov, İ.P. Pavlov, K.D. Uşinski, V.M. Bexterev və b.) görə, zamanın obyektivliyi varlığın əsas formalarından biri kimi, başqa sözlə, zamanın insan beynindən kənarda mövcudluğu fikri qəbul edilir. Bu istiqamət kontekstində zamanın qavranılması obyektiv zamana görə ikincidir (2).

Əgər məsələyə fizioloji aspektdən yanaşsaq, qeyd edə bilərik ki, oyanma və ləngimə prosesləri müəyyən zaman daxilində baş verdiyindən məhz sinir sistemində həmin proseslərin dinamik dəyişməsi zamanın qavranılmasının fizioloji əsasını təşkil edir. Beyində sanki "zamanın geri sayımı" baş verir (2). Əsas məqamlardan biri də odur ki, insanın keçmişlə bağlı yaşantılarının xatirələri film kadrları kimi zamanda ardıcıl şəkildə anbaan və önəmlisi, keçmişə aid olsa da, həmişə irəliyə doğru gedir, əsla əks istiqamətə deyil (3). Başqa sözlə, istənilən insan yaşadığı hər anı başdan sona qədər ardıcıl şəkildə zehnində izləyə bilir. Bu anlamda, zamanın qavranılması və ümumən zaman düşüncəsi insan həyatında xüsusi çəkiyə malikdir. Xüsusilə gənclərdə intihar riskinə münasibətdə zamanın

qavranılmasında nə kimi fərqlərin olması problem olaraq tədqiqatçıları uzun illər düşündürmüşdür.

Tədqiqatlardan birində intihara meylli xəstələr üçün zaman yavaşlamasının digərlərinə nisbətən daha sürətli olduğu müəyyən edilmişdir. Həmçinin zamanın yavaşlamasının depressiya dərəcəsindən asılı olmayaraq intihar düşüncəsinin dərəcəsi ilə müsbət əlaqələndiyi aşkar edilmişdir. Belə nəticə çıxarılmışdır ki, zamanın yavaşlamasının qavranılması intihar prosesinin həm intensivliyinə, həm də müddətinə təsir göstərə bilər (4).

Bir digər tədqiqatda psixi pozğunluqları olan xəstələrdə zaman qavrayışı xüsusiyyətləri müəyyən edilmişdir, hansı ki, intihar riskinin erkən aşkarlanması üçün yeni davranış göstəricisi kimi xidmət edə bilər. NPC (psychiatric disorders comorbidity) olan yeniyetmələr daha aşağı reproduksiya əmsalı (DRR) və daha yüksək variasiya əmsalı (CV) ilə zaman qavrayışında əhəmiyyətli xüsusiyyətlər nümayiş etdirmişlər (5).

Müsbət və mənfi keçmişə oriyentasiyalar intihar düşüncəsi olan və intihara meylli olmayan şəxslər arasında böyük fərqlərə gətirib çıxarmışdır. İntihara meylli olmayan iştirakçılar arasında müsbət keçmişə, intihar düşüncəlilər arasında isə mənfi keçmişə oriyentasiya daha yüksək idi, hansı fərqlər ki, depressiya və ya narahatlıqla izah edilməmişdir (6).

Digər müəlliflər belə fərziyyə irəli sürürlər ki, sosial cəhətdən təcrid olunmuş fərdlər mənalandırılmış düşüncələrdən, emosiyalardan və Mənlik şüurundan qaçan, həmçinin letargiya (süstlük) və dəyişmiş zaman axını ilə xarakterizə olunan koqnitiv dekonstruksiyasının müdafiə vəziyyətinə daxil olurlar. Müəyyən edilmişdir ki, sosial rəddedilmə (ostrakizm) zaman intervallarının şişirdilməsinə, gələcəyə deyil, indiki zamana fokuslanmağa və həzzi gecikdirməyə qeyri-qabilliyə gətirib çıxarmışdır. Eyni zamanda kənarlaşdırılan iştirakçılar daha az söz yazmış və daha yavaş reaksiya zamanı göstərmişlər (7).

COVİD-19 pandemiyası dönəmində zamanın qavranılması və intihar düşüncələri arasında əlaqənin öyrənilməsi ilə bağlı aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, hökumət məhdudiyyətləri zamanın subyektiv axınını əhəmiyyətli dərəcədə dəyişmiş və zaman qavrayışının intihar düşüncələri ilə əlaqədar olan pozuntuları özünü göstərmişdir. Həmçinin depressiya və yuxusuzluğun zamanın subyektiv axınının intihar düşüncələrinə təsirinin vasitəçiləri olduğu təsbit edilmişdir (8).

Metod

Tədqiqatda 753 nəfəri (90,2%) qadın, 82 nəfəri (9,8%) kişi olmaqla, cəmi 853 nəfər gənc iştirak etmişdir. Tədqiqatın məqsədindən asılı olaraq, "Suisidal düşüncələr şkalası" (A.Bek) (9) və "Sizi hansı zaman daha çox düşündürür?" sorğusu (10) keçirilmişdir. Gənclərin hamısı sorğuda könüllü iştirak etmişdir. Sorğuda iştirak edən gənclərin 308 nəfəri (36,9%) "İntihar etməklə bağlı düşüncəniz olubmu?" sualına bəli, 527 nəfəri (63,1%) isə xeyr cavabı vermişdir. "İntihara cəhd etmisinizmi?" sualına isə gənclərin 93 nəfəri (11,1%) bəli cavabını vermişdir. Sorğulardan əldə olunan məlumatlar İBM SPSS 27.0 kompüter proqramı ilə riyazi-statistik təhlil edilmişdir. Təhlil zamanı təsviri statistikadan, Spearman'ın Ranq Korrelyasiya əmsalından, Kruskal-Wallis H testindən və Post Hoc Çoxlu müqayisələr Tamhane's T2 meyarından istifadə olunmuşdur. Asılı olmayan (müstəqil) dəyişən timsalında zaman düşüncəsi, asılı olan dəyişən timsalında isə intihar riski götürülmüşdür.

Nəticə

Zamanın obyektiv qavranılması zaman dilimləri arasında tarazlığın gözlənilməsini nəzərdə tutur. Sadə dildə desək, insan sadəcə bir zamana fokuslanıb qala bilməz, baxmayaraq ki, günümüzdə populyarlaşdırılan ideyalardan biri məhz "İndiki anda olun (yaşayın)" ifadəsidir. İndiki anda olmaq keçmiş və gələcəyi indiki anda özündə birləşdirməkdir, yəni hər üç zaman insan düşüncəsində eyni anda mövcud olur. Önəmli olan insanın öz zehnində daha çox hansı zamanın komponentlərini daşımasıdır.

Zaman düşüncəsi ilə gənclərdə intihar riski arasındakı əlaqənin yoxlanılması məqsədilə keçirdiyimiz tədqiqat nəticəsində əldə etdiyimiz göstəricilər normal paylanmadığına və sıra şkalasına aid olduğu üçün statistik təhlildə qeyri-parametrik meyarlardan istifadə olunmuşdur. Aşağıdakı cədvəl 1-də iki sorğunun nəticələrinin orta qiymət, standart kənaraçıxma, minimum və maksimum kimi bəzi təsviri statistik göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 1.

Təsviri statistika

	N	Mean	Std. Deviation	Min	Max

İntihar riski	835	9.10	6.938	0	42
Zaman düşüncəsi	835	2.74	.976	1	4

İlk öncə, gənclərin zaman düşüncəsi ilə intihar riski arasında hər hansı korrelyasiyanın olub-olmaması məqsədilə Spearman'ın Ranq Korrelyasiya əmsalı tətbiq edilərək təhlil aparılmışdır. Təhlil nəticələrini aşağıdakı cədvəl 2-də görmək mümkündür.

Cədvəl 2.

Korrelyasiya

			İntihar riski
Spearman's rho	Zaman düşüncəsi	Correlation Coefficient	-.081*
		Sig. (2-tailed)	.020
		N	835

Cədvəl 2-dən göründüyü kimi, gənclərin zaman düşüncəsi ilə intihar riski arasında ikitərəfli çox zəif mənfi yönlü və anlamlı əlaqə ($r_{spearman}$ = -.081, p = .020) müşahidə olunmuşdur. Başqa sözlə deyə bilərik ki, gənclərin zaman düşüncələri dəyişdikdə, intihar riski onun tam əksinə dəyişir. Lakin burada hansı zaman (keçmiş, indiki, gələcək və ya qeyri-müəyyən) düşüncəsinin intihar riskinə daha çox və ya az yol açа biləcəyi ilə bağlı dəqiq fikir söyləyə bilmədiyimiz üçün, bunu aşkara çıxarmaq məqsədilə, öncə Kruskal-Wallis H testindən istifadə olunmuşdur. Əsas məqsədimiz zaman düşüncəsinin intihar riski üzərində hər hansı təsirinin olub-olmadığını üzə çıxarmaq olmuşdur. Cədvəl 3-də düşüncəsi müxtəlif zaman dilimlərinə uyğun gələn gənclərin sayı və cavablarının sıra saylarının ortalaması təsvir olunmuşdur.

Cədvəl 3.

Ranqlar

	Zaman düşüncəsi	N	Mean Rank
İntihar riski	keçmiş zaman düşüncəsi	130	464.03
	indiki zaman düşüncəsi	144	463.01
	gələcək zaman düşüncəsi	374	381.26
	qeyri-müəyyən zaman düşüncəsi	187	424.82
	Total	835	

Cədvəl 4-dən gördüyümüz kimi, Kruskal-Wallis H dəyəri 18.637 olaraq tapılmışdır. Df sərbəstlik dərəcəsi anlamını verir və qarşılaşdırılan qrup sayından bir çıxılaraq müəyyən edilir; bizim halda dörd qrup olduğu üçün df = 3 olmuşdur. P < .001 olduğu üçün cədvəl 3-də qarşılaşdırılan dörd zaman düşüncəsinə sahib qruplar arasında anlamlı fərqin olduğunu söyləmək mümkündür. Deyə bilərik ki, intihar riski göstəriciləri gənclərin zaman düşüncəsinə görə anlamlı fərqlilik daşıyır.

Cədvəl 4.

Test Statistics

	İntihar riski
Kruskal-Wallis H	18.637
df	3
Asymp. Sig.	.000

Məlumatlar sıra şkalasına aid olmaqla yanaşı, həmçinin qruplar üzrə sınanılanlar say olaraq bərabər paylanmadığı üçün (cədvəl 3-ə bax) daha sonra təhlil zamanı konkret hansı zaman düşüncələri arasında anlamlı fərqlərin özünü ifadə etməsini müəyyən etməklə bağlı Post Hoc Çoxlu müqayisələr testinin Tamhane's T2 meyarından istifadə olunmuşdur. Qeyd etməyi məqsədəuyğun sayırıq ki, aralarındakı anlamlı fərqi müəyyən etmək məqsədilə qrupları qarşılaşdırmaq üçün Mann-Whitney U Testi də tətbiq oluna bilər. Nəticələr cədvəl 5-də təqdim olunmuşdur. Cədvəl 5-dən göründüyü kimi, keçmiş zaman düşüncəsinə və gələcək zaman düşüncəsinə sahib qrupların göstəriciləri (p = .006), indiki zaman düşüncəsinə və gələcək zaman düşüncəsinə sahib qrupların göstəriciləri (p = .002) arasında anlamlı fərqlilik özünü göstərir.

Cədvəl 5.

Post Hoc Tests

Multiple Comparisons						
Dependent Variable: İntihar riski						
Tamhane						
(I) Zaman düşüncəsi	(J) Zaman düşüncəsi	Mean Difference (I-J)	Std. Error	Sig.	95% Confidence Interval	95% Confidence Interval
					Lower Bound	Upper Bound
keçmiş zaman düşüncəsi	indiki zaman düşüncəsi	-.361	.912	.999	-2.78	2.05
	gələcək zaman düşüncəsi	2.335*	.704	.006	.46	4.21
	qeyri-müəyyən zaman düşüncəsi	.884	.824	.866	-1.30	3.07

indiki zaman düşüncəsi	keçmiş zaman düşüncəsi	.361	.912	.999	-2.05	2.78
	gələcək zaman düşüncəsi	2.697*	.729	.002	.76	4.63
	qeyri-müəyyən zaman düşüncəsi	1.245	.846	.601	-1.00	3.49
gələcək zaman düşüncəsi	keçmiş zaman düşüncəsi	-2.335*	.704	.006	-4.21	-.46
	indiki zaman düşüncəsi	-2.697*	.729	.002	-4.63	-.76
	qeyri-müəyyən zaman düşüncəsi	-1.452	.617	.110	-3.08	.18
qeyri-müəyyən zaman düşüncəsi	keçmiş zaman düşüncəsi	-.884	.824	.866	-3.07	1.30
	indiki zaman düşüncəsi	-1.245	.846	.601	-3.49	1.00
	gələcək zaman düşüncəsi	1.452	.617	.110	-.18	3.08

Bu fərqin intihar riski fonunda hansının lehinə olduğunu rahat şəkildə anlaya bilmək üçün əslində cədvəldəki ortalamalara baxmaq kifayət edər. Lakin daha da əyani nümayiş məqsədilə aşağıda qrafik əyri təsvir edilmişdir (Şəkil 1).

Şəkil 1-dən gördüyümüz kimi, intihar riski ortalaması ən aşağı olan gənclər gələcək zaman düşüncəsinə sahib qrupların tərkibinə daxildir. Deməli, gələcək planları olmayan, gələcəyə ümid etməyən və gələcəkdən nəsə, xüsusən də yaxşı nəsə gözləməyən gənclərin intihar etmə riski artır. Bu halda deyə bilərik ki, zaman düşüncəsi intihara birbaşa səbəb olmasa da, intihar riskini artıran və ya azaldan əsas amillərdən biri rolunda çıxış edir.



Şəkil 1. *Zaman düşüncəsinə görə intihar riskinin göstəriciləri.*

Müzakirə

Müasir dövrdə Azərbaycan gənclərinin əksəriyyətinin istəklərini qısa zamanda həyata keçirməklə bağlı düşüncəyə sahib olduqları müşahidə edilir. Bunun səbəbi, ilk öncə, gənclərin zehnində zamanın fərqli, daha sürətli şəkildə cərəyan etməsidir. Zamanın sürətlə axması adekvat olaraq həyatın sürətli keçməsi anlamına gəlir və bu sürətə gənclərin ayaq uydurması önəmli məsələyə çevrilir. Gənclərin əksəriyyəti və ya tamamı mövcud obyektiv zaman axınında öz subyektiv zamanlarını yaşayırlar və iki zaman arasında keçid konfliktli situasiyanın yaranmasına gətirib çıxara bilir. Nəticədə gənclər "zaman çıxmazı"na daxil olur və onların zaman yolu dəyişir.

Gənclərin zaman qavrayışı onların zaman düşüncəsinə yön verdiyindən, intihar riskinə qarşı önləyici tədbirlər çərçivəsində zaman amilinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Problemin aktuallığı. Gənclər arasında intihara meylliyin, intihar riskinin artması tendensiyası məsələyə yeni radikal yanaşmaların formalaşdırılmasını aktual edir. Bu anlamda, zaman qavrayışı və zaman düşüncəsi prizmasından intihar hadisəsinin öyrənilməsi böyük önəm kəsb etmiş olur.

Problemin elmi yeniliyi. İlk dəfə məqalədə zaman qavrayışı və zaman düşüncəsi kontekstində gənclərdə intihar riski statistik məlumatlarla təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti. Gənclərdə intihar riskinin aradan qaldırılması istiqamətində atılacaq addımların və görüləcək tədbirlərin, o cümlədən tövsiyələrin hazırlanmasına töhfə və təkan verir.

Ədəbiyyat

1. Солодкова, А.В. Исследования восприятия времени в современной психологии: [Electronic resource] // Современная зарубежная психология. 2017. № 3. С. 77-85. doi:10.17759/jmfp.2017060309
2. Элькин, Д.Г. Восприятие времени / – Москва: Издательство академии педагогическнх наук РСФСР, – 1962. – 308 с.
3. Вулдридж, Д.Е. Механизмы мозга / – Москва: Мир, – 1965. – 344 с.
4. Cáceda, R., Carbajal, J.M., Salomon, R.M., Moore, J.E., Perlman, G., Padala, P.R., ... & Delgado, P.L. (2020). Slower perception of time in depressed and suicidal patients. *European Neuropsychopharmacology*, *40*, 4-16.
5. Li, J., Wang, Y.J., Liu, X.L., Zhang, Y., Zhu, X.N., Zhao, D., ... & Zhou, D.S. (2025). Characteristics of time perception in adolescents with non-suicidal self-injury and psychiatric disorders comorbidity. *Psychiatry and Clinical Neurosciences*.
6. Shahnaz, A., Saffer, B.Y., & Klonsky, E.D. (2019). Examining time perspective orientation in suicide ideation and suicide attempts. Journal of Social and Clinical Psychology, 38(8), 627-646.
7. Twenge, J.M., Catanese, K.R., & Baumeister, R.F. (2003). Social exclusion and the deconstructed state: time perception, meaninglessness, lethargy, lack of emotion, and self-awareness. *Journal of personality and social psychology*, *85*(3), 409.
8. Sanz-Gómez, S., Dubois, J., Alacreu-Crespo, A., Giner, L., Lengvenyte, A., Olié, E., & Courtet, P. (2025). Time perception and suicidal ideation during COVID-19 pandemic: A longitudinal study. Journal of Affective Disorders, 369, 1045-1052.
9. Когнитивная терапия депрессии: [Electronic resource] / А. Бек, А. Раш, Б. Шо, Г. Эмери. – Санкт-Петербург: Питер, – 2003. – 304 с. : ил.
10. URL:https://sptcentre.ru/wp-content/uploads/Бек-А-Раш-А-Шо-Б-Эмери-Г-Когнитивная-терапия-депрессии.pdf
11. Alıyev, C. İnsanı tanımağın yolları / C. Alıyev, R. Mirzəyev. – Bakı: Hərbi nəşriyyat, – 2011. – 404 s.

Redaksiyaya daxil olub: 02.12.2025

UOT 372.894

Validə Rəcəb qızı Əliyeva
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-3036-4874
E-mail: validaaliyeva8687@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).179-185

MÜASİR TƏHSİLDƏ FƏAL TƏLİM: TƏNQİDİ VƏ YARADICI DÜŞÜNCƏNİN PSİXOLOJİ MEXANİZMLƏRİ

Valida Rajab Aliyeva
associate professor of the Azerbaijan State University of Economics,
doctor of philosophy in psychology

ACTIVE LEARNING IN MODERN EDUCATION: PSYCHOLOGICAL MECHANISMS OF CRITICAL AND CREATIVE THINKING

Валида Раджаб гызы Алиева
доцент Азербайджанского Государственного Экономического Университета,
доктор философии по психологии

АКТИВНОЕ ОБУЧЕНИЕ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ: ПСИХОЛОГИЧЕСКИЕ МЕХАНИЗМЫ КРИТИЧЕСКОГО И ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ

Xülasə. Son illərdə qlobal təhsil islahatlarının psixoloji aspektdə sürətlənməsi təhsil fəlsəfələrinin dəyişməsinə səbəb olmuşdur. Bu dəyişikliklər arasında "tələbə mərkəzli" yanaşma beynəlxalq təhsilin əsas istiqamətlərindən birinə çevrilmişdir. Konstruktiv nəzəriyyəyə əsaslanan bu psixoloji yanaşma tələbənin təlim prosesində subyekt kimi rolunu vurğulayır və biliklərin aktiv şəkildə mənimsənilməsini əsas götürür.
Açar sözlər: *Fəal təlim, müasir təhsil, tənqidi təfəkkür, yaradıcı düşüncə, idrak fəaliyyəti, psixoloji aspektlər, konstruktivist yanaşma*

Abstract. In recent years, the acceleration of global educational reforms has led to significant changes in educational philosophies. Among these transformations, the student-centered approach has emerged as one of the core directions in international education. This approach, grounded in constructivist theory, emphasizes the learner's active role as a subject in the learning process and prioritizes the independent and active acquisition of knowledge.
Keywords: *active learning, modern education, critical thinking, creative thinking, cognitive activity, psychological aspects, constructivist approach*

Аннотация. В последние годы ускорение глобальных образовательных реформ в психологическом аспекте привело к изменению образовательных философий. Среди этих изменений подход «ориентированный на студента» стал одним из основных направлений международного образования. Эта психологическая концепция, основанная на конструктивистской теории, подчеркивает роль студента как субъекта в учебном процессе и основывается на активном усвоении знаний.

Ключевые слова: *активное обучение, современное образование, критическое мышление, творческое мышление, познавательная деятельность, психологические аспекты, конструктивистский подход*

Fəal təlim müasir təhsil sistemində tələbələrin bilikləri hazır şəkildə qəbul etməsi deyil, onları öz təcrübəsinə əsaslanaraq psixoloji istiqamətdə kəşf etməsini nəzərdə tutan öyrənmə modelidir. Bu yanaşmada əsas məqsəd tədris prosesinin mərkəzinə müəllimi deyil, öyrənəni yerləşdirməkdir. Fəal təlimdə tələbə dinləyici olmaqla bərabər, həm də iştirakçı, araşdırıcı, problem həll edən və nəticəni qiymətləndirən tərəfdir. Bu təlim modeli tələbənin təfəkkürünü, yaradıcı fəaliyyətini, kommunikasiya bacarıqlarını və əməkdaşlıq qabiliyyətini inkişaf etdirir. Müasir pedaqogika-psixologiya fəal təlimi XXI əsr bacarıqlarının – tənqidi düşünmə, analitik təhlil, yaradıcı yanaşma və ünsiyyət – formalaşdırılmasında ən səmərəli metodlardan biri hesab edir. Fəal təlim ümumiyyətlə, tələbələrin bilik və təxəyyül yaratmaq üçün etdikləri fəaliyyətlər kimi müəyyən edilir. Psixoloji istiqamətdə fəaliyyət müxtəlifdir, lakin tələbələrdən daha yüksək səviyyəli düşüncə tələb edir. Həmişə açıq şəkildə qeyd edilməsə də, tələbələrin özünü dərketmə haqqında düşüncələri – fəaliyyət və öyrənmə arasında əlaqə təmin edən vacib bir elementdir.

Fəal təlimin nəzəri bazası konstruktivizmə söykənir. Konstruktivizm təlim nəzəriyyəsi olaraq öyrənmənin passiv bilik qəbulu deyil, tələbənin öz təcrübəsinə əsaslanaraq bilik yaratması prosesi olduğunu vurğulayır. Konstruktivizmin banilərindən biri sayılan Paulo Freire təhsilin mahiyyətinin tədris deyil, məhz öyrənmə olduğunu irəli sürmüşdür. Freire-yə görə, öyrənmə fərdlərin bilikləri həm fərdi, həm də sosial qarşılıqlı əlaqə vasitəsilə qurduğu mühitdə baş verir. Konstruktiv yanaşmanın tətbiq olunduğu təhsil mühitlərində diqqət əsasən tələbənin davranışına, öyrənmə prosesinə və idrak fəaliyyətinə yönəlir. Bu modeldə müəllim tamamilə arxa plana keçmir, əksinə, onun rolu dəyişərək ekspert, bələdçi və fasilitator arasında formalaşır. Başqa sözlə, müəllimin əsas vəzifəsi bilik təqdim etməkdən daha çox tələbələrdə öyrənmə prosesini təşkil etmək və yönləndirməkdir.

Konstruktiv öyrənmə mühitinin effektiv olması üçün müəyyən şərtlər tələb olunur:

- tələbələr üçün daxili motivasiya yaradan tapşırıqlar,
- özünüidarəetmə bacarığı formalaşmış öyrənənlər,
- müəllim tərəfindən təqdim olunan fəal dəstək, uyğun kontekst, real həyatla əlaqə və müntəzəm rəy.

Belə mühitlərdə tələbələr əvvəlki biliklərinə əsaslanaraq yeni bilik qurmağa, tənqidi düşünməyə, fərdi və qrup halında fikir bildirməyə təşviq olunurlar. Tələbələrin potensialı artdıqca onlar həm öyrənmənin məzmununa, həm də prosesə daha çox məsuliyyətlə yanaşırlar. Bu isə müəllimin daha çox fasilitator rolunda çıxış etməsinə imkan verir. Konstruktiv təlimdə qiymətləndirmə adətən ənənəvi testlərdən çox, özünüqiymətləndirmə və həmyaşıd qiymətləndirməsi ilə əvəz olunur. Bu yanaşma tələbənin öyrənmə motivasiyasını artırır, onun daxili öyrənmə məsuliyyətini gücləndirir və uzunmüddətli perspektivdə özünüidarəetməni inkişaf etdirir. Konstruktivizm bəzən tənqid də olunur. Bəzi tədqiqatçılar tələbənin çox yüksək səviyyədə iştirakının iş yaddaşını yükləyə biləcəyini və uzunmüddətli yaddaşa bilik ötürülməsini çətinləşdirə biləcəyini iddia etmişdir. Lakin bu iddialar empirik sübutların zəifliyi səbəbindən ciddi qəbul olunmamışdır. Əksinə, aparılan bir sıra tədqiqatlar aktiv təlimin müxtəlif fənlər üzrə bilik transferini artırdığını, eləcə də uzunmüddətli yaddaşın möhkəmlənməsini gücləndirdiyini göstərmişdir. Konstruktivizmin tətbiqi zamanı yaranan çətinliklər – xüsusilə iş yaddaşı ilə bağlı məsələlər – müəllim tərəfindən düzgün skala qurulması, tələbənin əvvəlki biliklərinə uyğunlaşdırılmış tədris planı və mərhələli dəstək vasitəsilə asanlıqla idarə oluna bilir.

Son illərdə qlobal təhsil islahatlarının sürətlənməsi təhsildə psixologiyanın, fəlsəfənin dəyişməsinə səbəb olmuşdur. Bu dəyişikliklər arasında "tələbə mərkəzli" yanaşma beynəlxalq təhsilin əsas istiqamətlərindən birinə çevrilmişdir. Konstruktiv nəzəriyyəyə əsaslanan bu yanaşma tələbənin təlim prosesində subyekt kimi rolunu vurğulayır və biliklərin aktiv şəkildə mənimsənilməsini əsas götürür. Bir çox ölkələr kimi Çin də təhsilini modernləşdirdikcə bu fəlsəfənin tətbiqinə xüsusi diqqət yetirməyə başlamışdır. "Təhsil Planlaşdırma Planı" və "Yeni Dövrdə Təhsilin Qiymətləndirilməsi İslahatının

Dərinləşdirilməsi üzrə Ümumi Plan" kimi sənədlərdə tələbənin tədris prosesinin mərkəzinə qoyulması, onların hərtərəfli inkişafının təmin edilməsi və tədris metodlarının yenilənməsi xüsusi vurğulanmışdır. Bir tərəfdən, konsepsiyanın əsas məzmunu və nəzəri bazası sistemli şəkildə təhlil edilir; digər tərəfdən isə beynəlxalq təcrübə və yerli vəziyyət müqayisə edilərək tətbiq zamanı meydana çıxan problemlər və onların həlli yolları müzakirə olunur. Bundan əlavə, Çinin hazırkı təhsil reallığı nəzərə alınaraq, tələbə mərkəzli yanaşmanın tədrisdə konkret tətbiq formaları və mümkün islahat istiqamətləri irəli sürülür. Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, "tələbə mərkəzli" yanaşma haqqında akademik müzakirələri genişləndirir və konstruktiv təlim nəzəriyyəsinin tətbiqi baxımından yeni elmi dəlillər təqdim edir. Fərqli ölkələrin təcrübəsinin müqayisəsi bu fəlsəfənin müxtəlif mədəni mühitlərdə necə həyata keçirildiyini ortaya qoyur və təhsil nəzəriyyəsinin inkişafına töhfə verir. Praktik baxımdan isə "tələbə mərkəzli" yanaşma tədrisin keyfiyyətini artırmaq və fərdiləşdirilmiş öyrənməni təşviq etmək üçün mühüm vasitədir. "Tələbə mərkəzlilik" anlayışı 19-20-ci əsrin əvvəllərində Con Dyuinin ideyaları ilə formalaşmışdır. Dyuinin "tələbə mərkəzli, təcrübə mərkəzli və fəaliyyət mərkəzli" yanaşması ənənəvi bilik ötürmə modelindən kənara çıxaraq tələbənin öyrənmədə aktiv iştirakını əsas götürürdü. Bu yanaşmanın nəzəri təməli olan konstruktivizmə görə, tələbə bilikləri passiv qəbul etmir, onları şəxsi təcrübələr əsasında aktiv şəkildə qurur. Buna görə müəllimin rolu bilik verən deyil, öyrənməni təşkil edən, mühit yaradan və tələbəni istiqamətləndirən fasilitatora çevrilir.

Problem Əsaslı Təlim (PƏT) pedaqogikanın eləcə də psixologiyanın əsas istiqamətlərindən biri olaraq öyrənməni tələbəyönlü, aktiv və araşdırmaya əsaslanan bir psixoloji prosesə çevirən effektiv təlim modelidir. Bu yanaşmanın əsas prinsipi biliklərin əvvəlcədən hazır şəkildə tələbəyə verilməsi deyil, əksinə öyrənmənin mərkəzinə real və kompleks problemlərin yerləşdirilməsi və həmin problemlərin həlli üçün idrak fəaliyyətlərinin təşkili ilə bağlıdır. PƏT-in məqsədi tələbələri mövcud bilikləri təkrar etməkdən çox, problemi anlamağa, araşdırmağa, fərziyyələr irəli sürməyə, dəlilləri təhlil etməyə və öz nəticələrini əsaslandıraraq yeni biliklər yaratmağa təşviq etməkdir. PƏT-in əsas prinsiplərindən biri ondan ibarətdir ki, öyrənmə prosesini istiqamətləndirən problemlər adətən açıq, çoxşaxəli və bir neçə mümkün həll yolu olan situasiyalar olur. Bu cür problemlər tələbələri tənqidi və yaradıcı düşünməyə, məlumat toplamağa, tapıntılarını müqayisə etməyə və əldə etdikləri bilikləri real həyatda tətbiq oluna biləcək şəkildə modelləşdirməyə sövq edir. Nəticədə, bu təlim yanaşması yalnız nəzəri biliklərin mənimsənilməsini deyil, eyni zamanda tədqiqat aparma, məntiqi təhlil, qərarvermə, əməkdaşlıq və yaradıcı problem həll etmə kimi fundamental bacarıqların inkişafını dəstəkləyir. Problem əsaslı təlimdə müəllimin rolu ənənəvi "bilik verən" funksiyasından fərqlənir və bələdçi prinsipi üzərində qurulur. Müəllim öyrənməni istiqamətləndirən suallar təqdim edir, problemi anlamaq üçün tələbələri düşünməyə sövq edir, qrup içi əməkdaşlığı koordinasiya edir və tələbələrin araşdırma prosesini lazımi məqamlarda dəstəkləyir. Bu prinsip müəllimi öyrənmənin mərkəzindən kənara çəkərək tələbənin aktiv iştirakını və məsuliyyətini artırır. Tələbələr isə həm fərdi, həm qrup şəklində problemi təhlil edir, fikir mübadiləsi aparır, sübutlar toplayır və öz həll modellərini formalaşdırırlar. PƏT-in tətbiqi müəyyən çətinliklər yarada bilər; xüsusən də problem kifayət qədər aydın qurulmadıqda və ya tələbələrə yetərli istiqamətverici dəstək verilmədikdə prosesdə çaşqınlıq və ləngimə yarana bilər. Buna baxmayaraq, tədqiqatlar göstərir ki, modelin prinsiplərinə uyğun şəkildə mərhələli və sistemli tətbiq problemləri aradan qaldırır və tələbələrin həm akademik, həm də sosial-idrak bacarıqlarını əhəmiyyətli dərəcədə yüksəldir. Bu yanaşma biliklərin daha davamlı mənimsənilməsini, fənlərarası əlaqələrin qurulmasını və real həyatda istifadə edilə bilən bacarıqların inkişafını təmin edən təsirli təlim prinsipi kimi qəbul edilir.

Tənqidi və yaradıcı düşüncə prinsipinin psixoloji istiqamətləri müasir təlim sistemində tələbələrin idrak fəaliyyətini stimullaşdıran, onların müstəqil düşünmə, təhlil etmə, qiymətləndirmə və yeni situasiyalara yaradıcı şəkildə uyğunlaşma bacarıqlarını inkişaf etdirən əsas istiqamətlərdən biridir. Bu prinsip, xüsusilə hibrid və qarışıq təlim modellərinin tətbiqi fonunda daha da aktuallaşmışdır. Müasir tədqiqatlarda qarışıq təlim mühitinin tələbələrdə analitik düşün-

mə, refleksiv yanaşma və idrak aktivliyini artırdığı göstərilir. Bu təlim şəraitində həm onlayn, həm də üz-üzə fəaliyyətlər bir-birini tamamlayır və tələbələrə daha çevik, fərdiləşdirilmiş və interaktiv öyrənmə imkanı yaradır.

Müxtəlif təlim resurslarının istifadəsi, interaktiv fəaliyyətlər, qrup müzakirələri və tələbələrin öz öyrənmə tempinə uyğun irəliləməsi onların motivasiyasını artırır və iştirakçılığını gücləndirir. Bu prosesin nəticəsi olaraq tələbələr məlumatı daha dərindən təhlil edir, fərqli mənbələri müqayisə edir, alternativ həllər formalaşdırır və yeni biliklər yaradırlar. Tənqidi düşüncə təfəkkür tələbənin informasiyanı kor-koranə qəbul etməsinə deyil, onu aktiv şəkildə dərk etməsinə əsaslanır. Bu bacarıq müşahidəetmə, analiz, sintez və qiymətləndirmədən ibarət məqsədyönlü zehni prosesdir.

Müasir araşdırmalar göstərir ki, tələbələr ümumilikdə tənqidi düşüncə və problem həll etmə bacarıqlarına meyllidir, lakin bu bacarıqların yüksək səviyyədə formalaşması təlim prosesinin metodoloji cəhətdən düzgün qurulmasından asılıdır. Burada müəllimin rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllim ənənəvi bilik verən deyil, tələbələrin düşünməsini stimullaşdıran, onları suallar vasitəsilə yönləndirən, müzakirələri idarə edən və idrak fəaliyyətini təşkil edən fasilitator rolunda çıxış etməlidir. Səmərəli tədris metodlarının seçilməsi tələbənin idrak müstəqilliyini artırır və onun yeni situasiyalarda yaradıcı düşünmə bacarığını gücləndirir.

Beləliklə, tənqidi və yaradıcı düşüncə prinsipi müasir təhsilin ayrılmaz komponentidir və tələbələrin həm akademik, həm də praktiki həyatda uğurlu fəaliyyət göstərməsi üçün zəruri idrak bacarıqlarını inkişaf etdirir. Bu prinsipin reallaşdırılması təlim metodlarının yenilənməsi, təlim mühitinin modernləşdirilməsi və müəllim-tələbə qarşılıqlı əlaqəsinin təkmilləşdirilməsi ilə sıx bağlıdır. Qarışıq təlim modeli isə bu məqsədin həyata keçirilməsi üçün ən təsirli mühitlərdən biri kimi qiymətləndirilir.

Fəal təlimin tənqidi və yaradıcı düşüncə prinsipinin psixoloji aspektləri göstərir ki, praktiki tətbiq və təcrübəyə əsaslanan təlim prinsipi müasir pedaqogikanın-psixologiyanın əsas istiqamətlərindən biri kimi tələbənin bilikləri real situasiyalarda tətbiq etməsinə, öyrəndiklərini təcrübə mühitində sınamasına və praktik bacarıqlar formalaşdırmasına əsaslanır. Yaradıcı düşüncə prinsipinə görə öyrənmə yalnız nəzəri məlumatların mənimsənilməsi ilə məhdudlaşmır, əksinə, tələbənin real problemlərlə üzləşməsi, situasiya analizi aparması, qərar verməsi və nəticəyə əsaslanaraq öz fəaliyyətini qiymətləndirməsi ilə daha dərin və davamlı olur.

Təfəkkür tərzinə görə öyrənmə tələbənin idrak prosesinə aktiv şəkildə qoşulmasını təmin edir, onu məsələlərə müxtəlif tərəflərdən yanaşmağa, yaradıcı həll yolları hazırlamağa və biliklərini həyatla əlaqələndirməyə sövq edir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, tələbə öyrəndiyini real kontekstdə tətbiq etməklə bilikləri daha yaxşı mənimsəyir və onların istifadə sahəsini genişləndirir. Təfəkkürə və təcrübəyə əsaslanan öyrənmə, həmçinin tələbənin müstəqilliyini artırır, məsuliyyət hissini gücləndirir və öyrənmə prosesində aktivlik yaradır. Tələbə yalnız məlumatı qəbul etmir, həm də onun psixoloji-praktik dəyərini qiymətləndirir, real situasiyalarda tətbiq edərək öz bacarıqlarını formalaşdırır və inkişaf etdirir.

Müəllim tələbəni real təcrübəyə yönləndirən, praktiki fəaliyyət üçün şərait yaradan və tələbənin təcrübə əsasında düşünməsini stimullaşdıran fasilitator rolunda çıxış edir. O, tələbəyə yalnız tapşırıq vermir, həm də həmin tapşırığın həyata keçirilməsi prosesini izləyir, rəy təqdim edir və əldə olunan nəticələrin təhlilinə rəhbərlik edir. Müəllimin yaratdığı praktiki öyrənmə mühiti tələbəyə özünü sınaqdan keçirmək, səhvlərini görmək və öz fəaliyyətini təkmilləşdirmək imkanı yaradır. Praktiki tətbiqə əsaslanan təlim həmçinin tələbələrdə əməkdaşlıq bacarıqlarının formalaşmasına töhfə verir. Çünki bir çox tətbiqi tapşırıqlar qrupda işləməyi, fikir mübadiləsini, birgə qərarverməni və sosial ünsiyyət bacarıqlarını tələb edir. Bu isə tələbələrin sosial-psixoloji səriştələrinin inkişafına səbəb olur və onların gələcək iş mühitinə daha rahat uyğunlaşmasına şərait yaradır. Nəticə etibarilə, praktiki tətbiq və təcrübəyə əsaslanan təlim prinsipi tələbənin bilik və bacarıqlarının real həyatla inteqrasiyasını təmin edən, öyrənməni daha mənalı və davamlı edən əsas pedaqoji-psixoloji yanaşmalardan biridir. Bu prinsip öyrənməni daha şəxsiləşdirilmiş, məqsədyönlü və nəticəyönlü edir və müasir təhsil sistemində tələbələrin həm akademik, həm də praktik bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır.

Psixoloji refleksiya və özünüqiymətləndirmə, müasir təhsil sistemində tələbələrin öz öyrənmə prosesini dərk etməsinə, şəxsi inkişafını izləməsinə və öyrənmə fəaliyyətini məqsədyönlü şəkildə tənzimləməsinə imkan verən əsas pedaqoji yanaşmalardan biridir. Bu prinsipə görə tələbə yalnız bilik əldə edən deyil, həm də öz fəaliyyətini təhlil edən, güclü və zəif tərəflərini müəyyənləşdirən, gələcək öyrənmə strategiyalarını planlaşdıran və bunun əsasında davamlı inkişaf edən aktiv subyektdir. Refleksiya tələbənin öz təcrübəsinə nəzər salmasını, öz qərarlarını və düşüncə prosesini dəyərləndirməsini əhatə edir. Özünüqiymətləndirmə isə tələbənin fəaliyyətini müəyyən standartlarla və əvvəlki nailiyyətləri ilə müqayisə etməsinə əsaslanır və bu zaman tələbə öz irəliləyişinə obyektiv yanaşmağa çalışır. Özünüqiymətləndirmə "öyrənmə üçün qiymətləndirmə" konsepsiyasının mühüm komponenti hesab edilir. Bu proses tələbəyə məqsəd qoymaq, uyğun öyrənmə strategiyalarını seçmək, irəliləyişi izləmək, alınan rəyin mahiyyətini anlamaq və gələcək fəaliyyətinə düzəlişlər etmək kimi özünütənzimləmə bacarıqları formalaşdırır. Beləliklə, tələbə öyrənmədə yalnız nəticəyə deyil, prosesə də diqqət yetirir, öyrənmə fəaliyyətinin arxasında duran düşüncə mexanizmini anlamağa çalışır. Bu bacarıqlar tələbənin həm akademik fəaliyyətində, həm də gələcək peşə fəaliyyətində müstəqilliyini və məsuliyyətini artırır. Refleksiya və özünüqiymətləndirmə xüsusilə problem əsaslı təlim mühitində daha da vacib rol oynayır. Çünki bu model tələbənin araşdırma aparmasını, məntiqi təfəkkürünü işə salmasını, həll yolları formalaşdırmasını və öz fəaliyyətini davamlı şəkildə dəyərləndirməsini tələb edir. Buna görə də problem əsaslı təlimin mərhələləri – məsələn, problemin təhlili, məlumatın toplanması, qrup müzakirələri, hesabatın hazırlanması və nəticələrin təqdimatı – özünüqiymətləndirmə üçün geniş imkanlar yaradır. Lakin aparılmış tədqiqatlar göstərir ki, bu prosesin effektivliyi çox vaxt istifadə olunan özünüqiymətləndirmə alətlərinin keyfiyyətindən asılı olur. Əgər bu alətlər məqsədyönlü şəkildə hazırlanmayıbsa və tələbələri təfəkkür prosesinə yönəltmirsə, özünüqiymətləndirmə gözlənilən nəticəni verməyə bilər. Məhz buna görə təhsil mühitində özünüqiymətləndirmə vasitələrinin məqsədli şəkildə dizayn edilməsi mühüm əhəmiyyət daşıyır. Bu alətlər yalnız bilik qazanılması ilə məhdudlaşmamalı, daha geniş idrak fəaliyyətini – analitik düşüncə, tənqidi yanaşma, strateji planlaşdırma və öyrənmə prosesinin meta-idrak səviyyədə dərkini əhatə etməlidir. Alətin tətbiqi zamanı tələbəyə mütəmadi rəy verilməsi, özünüqiymətləndirmənin məqsədinin aydın izah olunması və tələbənin bu prosesin dəyərini anlaması xüsusi əhəmiyyət kəsb edir. Bu cür sistemləşdirilmiş yanaşma tələbənin özünü daha obyektiv dəyərləndirməsinə, öz fəaliyyətini tənqid etməsinə və növbəti mərhələlərdə daha effektiv öyrənmə qərarları verməsinə şərait yaradır. Refleksiya və özünüqiymətləndirmə prinsipi tələbənin öyrənmə prosesinə yanaşmasını dəyişdirir: o, passiv bilik alıcısından aktiv öyrənmə iştirakçısına çevrilir. Bu prinsip tələbəyə öz idrak fəaliyyətini izləmək, düşüncə prosesinin keyfiyyətini qiymətləndirmək, öyrənmə nəticələrini təkmilləşdirmək və şəxsi inkişafını davamlı şəkildə idarə etmək imkanı verir. Bu isə çağdaş təhsil sistemində tələbənin həm akademik, həm də sosial-mədəni səriştələrinin formalaşması üçün mühüm şərtdir.

Müasir təhsil mühitində müəllimin rolu ənənəvi bilik ötürücüsündən daha geniş və çoxşaxəli funksiyaları əhatə edən bələdçi, fasilitator və dəstəkverici bir şəxsiyyətə çevrilmişdir. Qlobal təhsil tendensiyalarının sürətlə dəyişdiyi bir dövrdə müəllim yalnız məlumat verən tərəf deyil, həm də öyrənənlərin idrak inkişafını istiqamətləndirən, onların potensialını üzə çıxaran və təlim prosesini məqsədyönlü şəkildə təşkili edən əsas fiqurdur. Müasir pedaqoji yanaşmalar çərçivəsində müəllim UNESCO-nun təhsilin dörd əsas sütunu – "bilməyi öyrənmək", "etməyi öyrənmək", "birlikdə yaşamağı öyrənmək" və "olmağı öyrənmək" – prinsiplərini nəzərə alaraq təlimə rəhbərlik etməlidir. Bu yanaşma tələbələrin yalnız akademik biliklər qazanmasını deyil, həm də sosial, emosional və peşə bacarıqlarını inkişaf etdirməsini təmin edir. Aktiv və ağıllı təlim metodologiyalarının tətbiqi müəllimin sinifdəki funksiyasını köklü şəkildə dəyişir. Bu modeldə müəllim tədrisin əsas subyekti olmaqdan çıxaraq öyrənmə prosesini tənzimləyən, mənbələr təqdim edən, müzakirələri təşviq edən və tələbələrə konstruktiv rəy verən şəxs rolunu oynayır. Öyrənməni asanlaşdırmaq məqsədilə müəllim müxtəlif interaktiv strategiyalardan – qrup işləri, müzakirələr, zehni xəritələr, layihə işi və problemyönlü tapşırıqlardan – istifadə edir. Bu

yanaşma tələbələrin yaradıcılıq, tənqidi təfəkkür və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir və onları öyrənməyə daha fəal şəkildə cəlb edir. Layihə əsaslı və əməkdaşlıqyönlü təlim formaları müəllimin fasilitator rolunu xüsusilə ön plana çıxarır. Bu metodlarda tələbələr öyrənmə prosesinin əsas təşəbbüskarları kimi çıxış edir, mövzunu seçir, araşdırma aparır və nəticələri təqdim edirlər. Müəllim isə bu prosesdə psixoloji aspektdə istiqamət verən, resurs təmin edən, problem həllində dəstək göstərən bələdçi funksiyasını icra edir. Beləliklə, müəllim öyrənməni idarə etmir, onu təşkil edir və tələbələrin öz təcrübələri əsasında bilik qurmasına şərait yaradır. Müəllimin bələdçi rolu həm də psixoloji və sosial dəstəyin təmin edilməsini əhatə edir. Müxtəlif sosial mühitlərdən gələn tələbələrin fərqli ehtiyac və çətinlikləri ola bilər. Müəllim bu ehtiyacları vaxtında müəyyənləşdirən, tələbələri motivasiya edən, onların emosional rifahını qoruyan və öyrənməyə mane ola biləcək problemləri aradan qaldırmağa çalışan məsləhətçi rolunu daşıyır. Eyni zamanda müəllim tələbələrə təhlükəsiz və inklüziv təlim mühiti yaratmaqla onların özünüifadə və özünüinkişaf imkanlarını genişləndirir. Beləliklə, müəllimin bələdçi və dəstəkverici rolu müasir təhsilin əsas prinsiplərindən biri olmaqla, öyrənənlərin müstəqil düşünən, yaradıcı və sosial cəhətdən yetkin fərdlər kimi formalaşmasına mühüm töhfə verir. Bu rolun effektiv həyata keçirilməsi müəllimin peşəkar hazırlığından, pedaqoji-psixoloji yeniliklərə açıq olmasından və davamlı inkişafı prioritet hesab etməsindən asılıdır. Müəllim bu funksiyanı uğurla yerinə yetirdikdə təlim prosesinin keyfiyyəti artır, tələbələrdə öyrənməyə davamlı motivasiya formalaşır və təhsilin məqsədlərinə nail olmaq daha real olur.

Aparılan təhlil göstərir ki, müasir təhsil sistemində fəal təlim, konstruktivist yanaşma və problem əsaslı təlim modelləri tələbələrin idrak fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin edən əsas pedaqoji-psixoloji mexanizmlərdir. Məqalədə vurğulandığı kimi, ənənəvi bilik ötürmə modelində tələbə əsasən passiv mövqedə qalır və bu, yüksək səviyyəli düşünmə bacarıqlarının formalaşmasını məhdudlaşdırır. Fəal təlim isə tələbəni öyrənmə prosesinin mərkəzinə yerləşdirərək onu bilik yaradan, araşdıran və qiymətləndirən subyektə çevirir.

Konstruktiv təlim nəzəriyyəsi çərçivəsində öyrənmə prosesi tələbənin əvvəlki bilikləri, şəxsi təcrübəsi və sosial qarşılıqlı əlaqələri əsasında yeni biliklərin qurulması kimi izah olunur. Bu yanaşma psixoloji baxımdan tələbənin motivasiyasını, idrak fəallığını və özünütənzimləmə bacarıqlarını gücləndirir. Təhlil göstərir ki, müəllimin fasilitator rolunda çıxış etməsi tələbələrdə müstəqil düşünmə, refleksiya və məsuliyyət hissinin formalaşmasına müsbət təsir edir.

Problem əsaslı təlim modeli təhlilin digər mühüm istiqamətini təşkil edir. Bu modeldə real və açıq problemlərin öyrənmənin başlanğıc nöqtəsi kimi seçilməsi tələbələrin tənqidi və yaradıcı düşünmə mexanizmlərini aktivləşdirir. Problemin təhlili, fərziyyələrin irəli sürülməsi, məlumatın toplanması və nəticələrin əsaslandırılması kimi mərhələlər tələbənin analitik təfəkküründə və bilik transferi bacarığını inkişaf etdirir. Psixoloji aspektdən PƏT tələbənin idrak yükünü balanslaşdırmaqla yanaşı, onun uzunmüddətli yaddaşında biliklərin daha möhkəm formalaşmasına şərait yaradır.

Təhlil nəticəsində aydın olur ki, refleksiya və özünüqiymətləndirmə fəal və problem əsaslı təlim mühitində xüsusi əhəmiyyət daşıyır. Bu mexanizmlər tələbənin öz öyrənmə fəaliyyətini dərk etməsinə, zəif və güclü tərəflərini müəyyənləşdirməsinə və gələcək strategiyalarını planlaşdırmasına imkan verir. Müasir tədqiqatların nəticələri göstərir ki, məqsədyönlü şəkildə təşkil olunmuş reflektiv fəaliyyətlər tələbənin meta-idrak bacarıqlarını gücləndirir və öyrənməni daha davamlı edir.

Ümumilikdə təhlil sübut edir ki, fəal təlim və ona əsaslanan pedaqoji yanaşmalar yalnız biliklərin mənimsənilməsinə deyil, həm də tələbənin şəxsiyyət kimi formalaşmasına, sosial-psixoloji səriştələrinin və XXI əsr bacarıqlarının inkişafına xidmət edir.

Nəticə etibarilə, aparılan araşdırma göstərir ki, fəal təlim müasir təhsil sistemində tənqidi və yaradıcı düşüncənin formalaşdırılması baxımından ən səmərəli pedaqoji-psixoloji yanaşmalardan biridir. Konstruktiv və problem əsaslı təlim modellərinə əsaslanan tələbə mərkəzli yanaşma öyrənməni passiv bilik qəbulu prosesindən çıxararaq, tələbənin aktiv idrak və praktik fəaliyyətinə əsaslanan dinamik bir prosesə çevirir.

Problemin aktuallığı. Müasir dövrdə qlobal təhsil islahatlarının intensivləşməsi təlim prosesinə yeni psixoloji yanaşmaların tətbiqini zəruri etmişdir.

İnformasiya bolluğu, rəqəmsal transformasiya və əmək bazarının dəyişən tələbləri tələbələrdə tənqidi və yaradıcı düşüncə kimi yüksək səviyyəli idrak bacarıqlarının formalaşdırılmasını xüsusi aktuallaşdırır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, burada fəal təlim, tənqidi düşüncə və yaradıcı təfəkkürün psixoloji mexanizmləri ilk dəfə kompleks şəkildə təhlil edilir və onların idrak fəaliyyətinə təsiri həm nəzəri, həm də praktik aspektdən əsaslandırılır. Məqalədə həmçinin tənqidi və yaradıcı düşüncə bacarıqlarının formalaşmasına təsir edən psixoloji faktorların yeni təsnifatı irəli sürülür və bu faktorların təlim mühitində praktik tətbiqi modelləşdirilərək müasir təhsil sistemində istifadəsi üçün metodoloji çərçivə təqdim olunur.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, müəllimlər üçün konkret və tətbiqolunan metodiki tövsiyələr təqdim olunur, dərs prosesində tənqidi və yaradıcı düşüncəni inkişaf etdirən fəaliyyətlərin həyata keçirilməsi üçün real əsaslar müəyyən edilir. Araşdırma təlim prosesinin təşkilində konstruktiv və problem əsaslı yanaşmaların optimal tətbiq mexanizmlərini göstərərək təhsilin keyfiyyətinin yüksəldilməsinə praktiki töhfə verir.

Ədəbiyyat

1. Əlimuradova, A.F. I sinif şagirdlərinin məktəbə adaptasiyası zamanı onlara psixo-pedaqoji dəstəyin təşkili və vasitələri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2021. № 6, –s. 71-75.
2. Alimuradova, A.F. Features of the psychologıcal and pedagogıcal adaptatıon of students1st grade to study ın a comprehensıve school // Revista Universidad & Sociedad, “Hacia la socializacion de resultados cientificos en Scopus”, –2020. Vol. 12, № 6, –p. 404-410
3. Brame, Cynthia. "Active learning." Vanderbilt University Center for Teaching (2016): 1-6.
4. Hood Cattaneo, Kelsey. "Telling active learning pedagogies apart: From theory to practice." Journal of new approaches in educational research 6.2 (2017): –144-152.
5. Ci, Xiangyi, and Xi Li. "Student-centeredness: Connotation, Logic, and Practical Path." Educational Innovation Research 3.2 (2025): –46-55.
6. Laal, Marjan, and Seyed Mohammad Ghodsi. "Benefits of collaborative learning." Procedia-social and behavioral sciences 31 (2012):– 486-490.
7. Solovyeva, Nataliya, Olga Tapalova, and Sergei Smirnov. "Specifics of the students’ critical thinking formation within active learning space." Frontiers in Education. Vol. 8. Frontiers Media SA, –2023.
8. Khoiriyah, Umatul, et al. "Enhancing students’ learning in problem based learning: validation of a self-assessment scale for active learning and critical thinking." BMC medical education 15.1 (2015): –140.
9. Jagtap, Prakash. "Teachers role as facilitator in learning." Scholarly Research Journal 3.17 (2016): –3903-3905.

Redaksiyaya daxil olub: 23.01.2026

UOT 37

Dilqəm Məzahir oğlu Məmmədov
Bakı Dövlət Universitetinin müəllimi,
fəlsəfə doktoru proqramı üzrə doktorant
https//orcid.org/0009-0009-3837-487X
E-mail : mmmdovdilqm857@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).186-191

ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏR FONUNDA ŞƏXSİYYƏTİN İNKİŞAF NƏZƏRİYYƏSİ (HARRY STACK SULLİVAN)

Dilgam Mazahir Mammadov
lecturer at Baku State University,
doctorial student in the program of doctor of philosophy

THE THEORY OF PERSONALITY DEVELOPMENT WITHIN THE FRAMEWORK OF INTERPERSONAL RELATIONS (HARRY STACK SULLIVAN)

Дильгам Мазахир оглы Мамедов
преподаватель Бакинского Государственного Университета,
докторант по программе доктора философии

ТЕОРИЯ РАЗВИТИЯ ЛИЧНОСТИ В КОНТЕКСТЕ МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЙ (ГАРРИ СТЕК САЛЛИВАН)

Xülasə. Şəxsiyyətlə bağlı yanaşmalardan biri də Sullivanın az populyar olsa da dəyər yüklü olan şəxsiyyətlərarası yanaşmasıdır. Bu yanaşmada şəxsiyyətin inkişafına daha çox vurğu edilir. Sullivan libido anlayışını rədd etmişdir. Şəxsiyyətin inkişafı zamanı narahatlıq fonunda baş verən təşviş hissi mənlik sisteminin formalaşmasının əsasında dayanır. Şəxsiyyətlərarası münasibətlər şəxsiyyətin formalaşmasında vacib rola malikdir. Şəxsiyyətin mənlik sisteminin əsas məqsədi təşviş hissinin azaldılmasına yönəlmək olub daxili sabitliyi təmin etməkdir. Sullivan psişik enerji anlayışını rədd edərək şəxsiyyəti davranışın reallaşan fiziki enerji dəyişimləri (dinamizmlər) modeli ilə izah etməyə çalışmışdır. Şəxsiyyətin əsas dinamizmi mənlik sistemidir. Sullivan dinamizm adlandırdığı enerji dəyişimlərini şəxsiyyətin genital bölgələri və gərginliklə əlaqələndirmişdir. Şəxsiyyətin inkişafının yeddi mərhələdən ibarət olduğunu vurğulayan Sullivan koqnitiv inkişaf mərhələlərini prototaksik, prataksik, sintaksik olmaqla üç dövrə bölmüşdür. Şəxsiyyətin təməl kateqoriyalarının formalaşmasında fərdiləşdirmənin rolu vacib amillərdəndir. Bu mərhələdə şəxsiyyətin özü və digərləri ilə bağlı əsas inancları formalaşır. Sullivan hər insanın müəyyən potensialla doğulduğunu və bunun şəxsiyyətin yetkinləşməsi ilə reallaşdığını izah edirdi. Sullivan yetkinlik dönəmində potensialın reallaşması ilə insanların psixiatra daha az ehtiyac duyduğunu insanların qiymətləndirmə etalonunun formalaşdığını qəbul edirdi. Koqnitiv pozuntuların və bir çox pozuntuların yaranmasının əsas səbəbi kimi Sullivan sintasik mərhələnin məhdud inkişafı ilə əlaqələndirirdi.

Açar sözlər: *enerji dəyişilmələri, dinamizm, mənlik sistemi, təşviş hissi, gərginlik duyğusu, prototaksik, prataksik, sintaksik, inkişaf mərhələləri*

Abstract. One of the less popular, yet value-laden, approaches to personality is Harry Stack Sullivan's Interpersonal Theory. This approach places a greater emphasis on the development of personality. Sullivan explicitly rejected the Freudian concept of libido. The feeling of anxiety, which arises against the backdrop of tension during personality development, forms the foundation of the Self-System.

Interpersonal relationships play a vital role in the formation of personality. The core objective of the Self-System is to focus on the reduction of anxiety and thereby ensure internal stability. Rejecting the notion of psychic energy, Sullivan sought to explain personality through a model of realized physical energy transformations, which he termed dynamisms, manifesting as behavior. The primary dynamism of personality is the Self-System. Sullivan associated these energy transformations, or dynamisms, with the personality's genital areas and states of tension.

Sullivan emphasized that personality development comprises seven stages and divided the stages of cognitive development into three eras: prototaxic, parataxic, and syntaxic. The role of individualization is a crucial factor in the formation of the personality's fundamental categories. During this stage, the individual's core beliefs about themselves and others are formed.

Sullivan posited that every individual is born with a certain potential which is realized through personality maturation. He maintained that with the realization of this potential during adulthood, individuals require a lesser need for psychiatric intervention, and a frame of reference (evaluation standard) for individuals is established. Sullivan linked the genesis of cognitive disorders and various other disorders primarily to the limited development of the syntaxic phase.

Key words: *energy transformations, dynamism, Self-System, anxiety, tension, prototaxic, parataxic, syntaxic, developmental stages*

Аннотация. Одним из менее популярных, но ценностно-нагруженных подходов к личности является интерперсональный подход Гарри Стэка Салливана. В этом подходе уделяется больше внимания развитию личности. Салливан открыто отвергал понятие либидо. Чувство тревоги (anxiety), возникающее на фоне напряжения в процессе развития личности, лежит в основе формирования Системы-Я.

Межличностные отношения играют важную роль в становлении личности. Основная цель Системы-Я состоит в том, чтобы сосредоточиться на снижении чувства тревоги и тем самым обеспечить внутреннюю стабильность. Отвергая понятие психической энергии, Салливан пытался объяснить личность через модель реализованных изменений физической энергии, которые он называл динамизмами (dynamisms), проявляющимися как поведение. Основным динамизмом личности является Система-Я. Салливан связывал эти энергетические изменения, или динамизмы, с генитальными областями личности и состояниями напряжения.

Салливан подчеркивал, что развитие личности состоит из семи стадий и разделил стадии когнитивного развития на три периода: прототаксический (prototaxic), паратаксический (parataxic) и синтаксический (syntaxic). Роль индивидуализации является важным фактором в формировании основных категорий личности. На этой стадии формируются ключевые убеждения индивида о себе и других.

Салливан утверждал, что каждый человек рождается с определенным потенциалом, который реализуется посредством созревания личности. Он считал, что с реализацией этого потенциала во взрослом возрасте у людей возникает меньшая потребность в психиатрическом вмешательстве, и формируется эталон оценки (стандарт оценивания) для индивидов. Основную причину возникновения когнитивных и многих других расстройств Салливан связывал с ограниченным развитием синтаксической фазы.

Ключевые слова: *энергетические изменения, динамизм, Система-Я, тревога, чувство напряжения, прототаксический, паратаксический, синтаксический, стадии развития*

Şəxsiyyəti insanlararası münasibət kontekstindən izah edən bu nəzəriyyə çox populyar olmasa da dəyər yüklüdür. Şəxsiyyətlərarası problemlərin əsl səbəbinin əlaqə mexanizmləri ilə bağlı olduğu düşünülür, iki və üç insan arasındakı əlaqənin qanunauyğunluqlarını əlində əsir tutaraq daha geniş toplumlar arasındakı münasibətləri və davranış problemlərini izah etməyə çalışılır bu nəzəriyyə istiqamətində. Bu nəzəriyyə istiqamətində aparılmış araşdırmalar iki əsas təklifə istinad edir :

1) Şəxsiyyətlərarası münasibətlər təşviş hissinin təsiri ilə pozulur və mental pozuntuların böyük bir hissəsi məhdud əlaqə formasından qaynaqlanır.

2) İki şəxsiyyət arasındakı münasibət zamanı hər iki insan həm təsir edən, həm də təsir olunandır, onlar ayrılıqda deyil bu sistemin bir hissəsi olaraq çıxış edirlər.

Sullivan şəxsiyyətin inkişafına daha çox diqqət yetirir, bu istiqamətdə nitqin inkişafından əvvəl yenidoğulmuş və erkən uşaqlıq dönəminin rolunun həyatın digər dövrlərinin formalaşmasında əhəmiyyətli olduğunu vurğulayır. Nitqin inkişafından əvvəl ana və uşaq arasındakı vasitəsiz emosional mərhələ şəxsiyyətin mexanizm-

lərinin əsasını təşkil edir. Sullivana görə bu dövrdəki problemlər psixotik pozuntuların əksəriyyətinin yaranmasına səbəb olur. Şəxsiyyətin inkişafında dilin kritik rola malik olduğunu vurğulayan bu nəzəriyyəyə görə erkən uşaqlıq dönəmindəki təcrübələr prototaksik, prataksik, sintastik olmaqla üç formada özünü göstərir [1, s. 271-301].

Nəzəriyyənin digər əsas anlayışlarından biri olan dinamizm anlayışıdır ki, bu şəxsiyyətin inkişafı və onun varlığını təşkil edən şəxsiyyətlərarası münasibətləri xarakterizə edən anlayışdır. Şəxsiyyətlərarası münasibətlər zamanı yaranan təşviş erkən uşaqlıq dönəmindəki fiziki asılılığın davamlılığından, ana və uşaq arasındakı bioloji və psixoloji doyumluluğun keyfiyyətindən qaynaqlı olaraq yaranır.

Bu nəzəriyyə psixoterapiya zamanı klinik söhbət əsnasında pasientin nitqinin necə davam etməsi, təşvişin ortaya çıxması ilə kəsilməsi, onun somatik simptomlarının nədən ibarət olmasını diqqətə alaraq şəxsiyyətin indiki halı ilə premorbid xüsusiyyətlərinə və dəyişilmə dinamikasına nəzər yetirir. Təşvişin aşırı təsiri altında insan davranışının inam, qarşılıqlı doyum axtarma, kollektiv münasibətlər fonunda problemlərə meylli olacağı qaçınılmazdır [3, s. 1-5].

Sullivan şəxsiyyətin sosial mühitdən kənarda mövcud ola bilməyəcəyini uğurlu şəxsiyyətin yaranmasında rəqabət, iş birliyi, sağlam sosial mühitin olmasının vacibliyini vurğulayır.

Bu nəzəriyyədə şəxsiyyət bir enerji sistemi olaraq görülür. Enerji ya gərginlik formasında mövcud olur, bu halda o hər hansı hərəkətin potensial prediktorudur, digər bir halda enerji hərəkətlərin özündə, reallığında mövcud olur. Gərginliklərin reallaşması zamanı enerji potensialları aşkar və gizli davranışlara çevirilir. Enerji dəyişilmələri hərəkətləri reallaşdırır və təşvişi azaltmağa xidmət edir. Gərginliklər hər zaman şüur sferasında olmur. Onlar iki formada özünü göstərir. Ehtiyaclar və təşviş, ehtiyaclar əksər hallarda məmnunluqla sonlanan davranışlara təşviş isə neqativ davranışlara yol açmaqdadır.

Ehtiyaclar təkcə bioloji sfera ilə əlaqədar olmayıb şəxsiyyətlərarası münasibətlər sferasından təsirlənir. Onlar təmin olunduqları zaman müvəqqəti olaraq sönürlər, lakin bir müddət sonra yenidən gərginlik yaranmasına səbəb olurlar. Bu sfera ehtiyacların çoxu cüt, qarşılıqlı hərəkətlərin varlığı ilə mövcud olur. Yenidoğulmuş uşaq şəfqət ehtiyacı ilə doğulur. Bu ehtiyacı ağlama, gülmə, aclıq və sair formada göstərir. Buna qarşılıq ana da təbii olaraq oxşama, toxunma ilə bu ehtiyaca cavab verir.

Gərginliyin digər növü olan təşviş qeyri-müəyyən və xaotikdir. Təşvişin reallaşması üçün davamlı davranışlara ehtiyac yoxdur. Təşviş öyrənmə prosesini pozmaqla inkişafı əngəlləyir və infantil xüsusiyyətlərin ortaya çıxmasına səbəb olur. Koqnitiv proseslərin normal dinamikasını pozaraq təşviş hafizənin və rasional düşüncənin daralmasına səbəb olur. Xüsusilə də ilk uşaq zamanı təşviş empatiya yolu ilə anadan uşağa ötürülür. Yenidoğulmuş uşağın müdafiə mexanizmləri mövcud olmadığından o təşvişlə mübarizə apara bilmir. Təşviş ana və uşaq arasındakı qarşılıqlı əlaqənin doyumunu məhdudlaşdırır.

Sullivanın şəxsiyyətlərarası münasibətlər nəzəriyyəsində şəxsiyyətlərarası münasibətlərin əsas hərəkətverici qüvvəsi olan enerji dəyişim modelidir. Sullivan bunu dinamizm termini ilə ifadə etmişdir [1, s. 271-301]. Dinamizm davranış qəlibləri olaraq mövcud olmaqdadır. Dinamizm özü də iki sinfə ayrılır :

1) Ağız, anal bölgə, cinsiyyət orqanları kimi bədənin müəyyən hissələri ilə əlaqədar olan dinamizlər

2) Gərginlik hissi ilə əlaqədar olan sinif. Hansı ki, bu sinifdə üç kateqoriyadan təşkil olunur:

- Təhlil edici (deviant, neqativ davranış qəlibləri ilə əlaqədar dinamizmlərdir)
- İzolyator (şəxsiyyətlərarası münasibətlərlə əlaqəli olmayan davranış qəlibləri ilə əlaqədardır)
- birləşdirici (səmimiyyət və mənlik sistemi ilə bağlı pozitiv davranış qəlibləri ilə əlaqədardır)

Nifrət və neqativ davranışlarla əlaqədar olan dinamizmlər 2-3 yaş ərəfəsində formalaşır. Bu dinamizmlərin yaranma səbəbi uşağın təməl ehtiyaclarının ana tərəfindən rədd edilməsi və kifayət qədər təmin olunmamasıdır. Valideynlər tərəfindən edilən cəzalandırıcı sanksiyaların tətbiq edilməsi, uşağın mənliyinə xələl gətirən sözlü idarə üsulları ilə formalaşan uşaqlar özünümüdafiə üsulları mənimsəyir. Bu cür davranışlar uşaqlarda dünyaya qarşı neqativ inanc yaratmaqla onlarda utancaqlıq, asosial və antisosial meyllər yaratmaqdadır.

Yaxınlıq duyğusunun inkişaf etməsi və aktuallaşması iki eyni statusa malik olan şəxsiyyət arasında gerçəkləşir. Bu yaşlı və uşaq arasında bərabər eqo səviyyəsi olmadığından yarana bilmir. Əsasən yeniyetməlik dövründə uşağın öz həmyaşıdlarından gözlədiyi sevgi dolu davranışlardır. Yaxınlıq dedikdə sadəcə cinsəl dinamizmlər nəzərdə tutulmur. Lakin yeniyetməlik zamanı davamlı rəddedilən cinsəl istəklər şəxsiyyətin inamının sarsılmasına və özünü aşağı qiymətləndirməyə səbəb ola bilər.

Şəxsiyyətin digər dinamizmi mənlik sistemidir. Mənlik sistemi insanın inam anlayışının formalaşma mərhələlərini ehtiva edərək onun təşvişlə mübarizə aparmasına kömək edir. Mənlik sistemi inkişaf etdikcə şəxsiyyətin təşviş yaradan və azaldan davranışları öyrənməsi də inkişaf edir. Mənlik sistemi dəyişimlərə qarşı olub şəxsiyyətin daxili tarazlığını qoruma funksiyası daşıyır. Sullivan inanma prosesini təhlil etmə və seçici diqqətsizlik olaraq xarakterizə etmişdir. Təhlil etmə kateqoriyasında uşağın davranışlarının cəzalandırılma və rəğbətləndirilmədiyi halda onun pis və yaxşını ayırd edə bilməməsi və bu səbəbdən bu təcrübələrin mənlik sistemində yer almamasından danışılır. Bu kateqoriyadakı təcrübələr şüur mərkəzində olmayaraq xəyallarda, yuxu görmələrdə və sair kimi büruzə olunur. Məqsədi şəxsiyyətlərarası münasibətləri inamlı qurmağa kömək etməkdir.

Təhlil edici mərhələdən fərqli olaraq seçici diqqətsizlik kateqoriyası mənlik sistemi formalaşdıqdan sonra işə düşür. Bu zaman şəxsiyyətin istiqamətinə uyğun olmayan təcrübələr kənarlaşdırılır. Bu mərhələdəki dinamizmlər şüurlu olaraq baş verir.

Şəxsiyyətin digər mexanizmi isə fərdiləşdirmədir. Fərdiləşdirmə insanın inkişaf zamanı özü və başqaları haqqında mənimsədiyi təsəvvürlərdən ibarətdir. Bu təsəvvürlər nisbətən doğru ola və ehtiyacların və təşvişin təsiri ilə formalaşa bilər. Sullivan erkən uşaqlıq dönəmindəki fərdiləşdirmələri üç kateqoriyaya ayırmışdır: pis ana, yaxşı ana, mən.

Yaxşı və pis ana uşağın oral inkişafı zamanı ananın məməsi və ya qidalandığı əmziklə əlaqədar formalaşdırdığı təsəvvürlərdir, uşaq kifayət qədər doymadıqda pis məmə-pis ana fərdiləşdirməsi yaradır. Qidalanma ilə əlaqədar olmayan digər şəfqətli davranışlar isə yaxşı ana təsəvvürünü formalaşdırır. Bu təsəvvürlər ayrılıqda və eyni zamanda mövcud ola bilir.

Mənlik fərdiləşdirməsi pozitiv mən, neqativ mən, mən deyiləm kimi komponentlərdən formalaşır. Pozitiv mən müsbət təcrübələrdən qaynaqlanıb məmnunluq hissi ilə əlaqədardır. Neqativ mən təvişin ütsün olduğu təcrübələrə dayanır, şəxsiyyətin şüur sferasına aid olmayan anlayışlardan ibarətdir. Digər növ fərdiləşdirmələr isə xəyali fərdiləşdirmələr olub yetkinlik çağında da görülür. Onlar şəxsiyyətin inkişafında müstəsna rola malikdir.

Sullivana görə təcrübələr gərginliklərdən, ehtiyaclardan, dinamizmlərdən təşkil olunur. Bu təcrübələr prototaksik, parataksik, sintaksik olmaqla üç mərhələdən keçir. Prototaksik mərhələdə uşağın ətraf mühiti qavraması məhdud olub mən və başqaları kimi ayırd etmə bacarığının olmadığı mərhələdir. Bu mərhələ sadəcə daxili proseslərdən ibarətdir. Parataksik mərhələdə məntiqilik hələ inkişaf etməmişdir. Bu mərhələdə uşağın mən və başqaları haqqında olan təsəvvürləri formalaşmağa başlayır. Buna baxmayaraq autistik simvollarla xarakterizə olunan düşüncə tərzi bu dövrə xasdır. Batil inanclar, gün ərzində reallaşması mümkün olmayan düşüncələr də bu qəbildəndir. Sintaksik mərhələdə uşaq səbəb və nəticə ardıcıllığını dərk edə bilir. 12-18 yaşlarına rastlayan bu mərhələdə sosial olaraq başa düşülən simvollar inkişaf edir.

Sullivan şəxsiyyətin formalaşmasını yeddi mərhələyə bölmüşdür. Yeni doğulmuş, birinci uşaqlıq, ikinci uşaqlıq, yeniyetməlik öncəsi, ilk yeniyetməlik, ikinci yeniyetməlik və yetişkinlik olan bu yeddi mərhələdən yeniyetməlik və ikinci uşaqlıq dönəmində baş verən dəyişikliklər daha mühümdür. Yenidoğulmuş mərhələsi infantil mərhələ olub, uşağın anadan tamamilə asılı olduğu mərhələdir. Bu mərhələdə uşaq təşviş və aclığını ağlayaraq bildirir. Uşağın potensialı təşviş duyğusu ilə başa çıxmaq üçün kifayət deyildir. 18-24 aya kimi davam edən bu mərhələ sintasik mərhələnin başlamasıyla sona çatır. Uşaq ağlayan zaman sadəcə aclıq ehtiyacını ifadə etmir, bu zaman uşağın ac olduğunu düşünən ana onu məcbur əmməyə sövq edə bilər ki, bu da uşaqda pis məmə və pis ana imajını yaradır. Uşağın tələbatlarını ödəyə bilmədiyini düşünən ananın təşvişi artır, bu zaman empatiya yolu ilə bu uşağa da ötürülür. 1.5 yaşında artıq uşaqda sosial olaraq başa düşülən simvollardan ibarət

dil inkişaf edir və yeni doğulmuş mərhələsi sonlanır [2, s. 172-188].

Birinci uşaqlıq dönəmi 18-24 aylığından 5-6 yaşlarına kimi olan mərhələni əhatə edir. Düşüncənin formalaşdığı bu dövrdə uşaqlar pislik və yaxşılıq anlayışlarını mənlik anlayışı ilə qarşılaşdıraraq mücərrəd formada anlamağa başlayırlar. Bəzi uşaqlarda bu zaman xəyali yaxın dostlar olur. Sullivana görə, bu patoloji hal olmayıb uşağın sosial ünsiyyətinin daha yaxşı inkişaf etməsinə kömək edir. Bu dövrdə uşaqlar cinsiyyət rolları ilə bağlı anlayışları da mənimsəyirlər. Bu yaş dönəmində pis və yaxşı anlayışları təşvişlə bağlı deyil sosial və əxlaqi məna kəsb edir. Bu dövrdə uşaqların mənlik dinamizmləri formalaşır [2, s. 188-203].

İkinci uşaqlıq dönəmi 5-6 yaşından 7-8 yaşına kimi olan mərhələni əhatə edir. Bu dövrdə uşaqlar eyni statusda olan uşaqlarla oynamağa, iş birliyi qurmağa ehtiyac duyurlar. Rəqabət duyğusunun yarandığı bu mərhələdə uşaqlarda özünə inamda formalaşır. Bu dövrdə uşaqlar özlərinə ideal insan modeli seçirlər. Əks cins nümayəndələri ilə iş birliyi nadirdir. Qurulan əlaqələr əksərən qarşılıqlı çıxar üçün qurulur. Uşaqlar bərabər statuslu yaşıdlarını və yetkinləri fərqləndirə bilirlər.

Yeniyetməlik öncəsi mərhələ əsas qəliblərin formalaşdığı mərhələdir. Bu mərhələdə sadəcə qarşılıqlı çıxara əsaslanan əlaqələr deyil səmimi ehtiyac duyulan əlaqələrin yarandığı mərhələdir. Eyni cins nümayəndəsinə duyulan maraq və yaxınlıq duyğusu bu mərhələyə xasdır. 8-9 yaş dönəmində başlayan bu mərhələdə cinsəl ehtiyaclar dərk olunmadan ilk sevgi təcrübələri yarana bilər. Məhrəmiyyət duyğusunun formalaşması da bu mərhələyə xasdır.

İlk yeniyetməlik mərhələsi zamanı cinsi istəklərin baş qaldırdığı dönəm olub, genital bölgələrə olan maraqla əlaqədardır. Cinsi sferada inkişaf və istəklərlə əlaqədar təşviş hissinin formalaşması ilə stresin yaranması bu mərhələyə xarakterikdir. Stres bu dövrdə üç formada özünü göstərir. Cinsəl istəklərə qarşılıq olaraq yaranan utanc, günahkarlıq və narahatlıqla əlaqədar yaranan stress. İkincisi yaxınlıq ehtiyacından əlavə əks cins nümayəndələrinə olan maraq özünə inamı sarsılda bilər ki, buda stress və aşağı özünü qiymətlədirmə ilə nəticələnə bilər. Üçüncüsü isə bu zaman gənclərdə tanımadıqları insanlara belə cinsəl istək duymaları, hər nə qədər basdırsalar, belə yaxınlıq duyğusu ilə bərabər cinsəl istəklərin də meydana çıxması ilə bağlı yaranan stressdir.

İkinci yeniyetməlik mərhələsi cinsəl istək və yaxınlıq duyğusunun eyni fərdə qarşı hiss olunması ilə başlayır. Bu mərhələ cinsəl təcrübələrin başladığı mərhələdən 15,16-17,18 yaşlarına kimi olan mərhələləri əhatə edir. Qarşı cins nümayəndəsinə sadəcə cinsəl obyekt kimi deyil sevgi və bağlılıq obyekti kimi yanaşıldığı bir mərhələdir. Bəzi nevrotik simptomların görülməsi bu dövrdə şəxsiyyətin mənlik sisteminin qorunması naminə baş verir. Bioloji amillərin üstün olduğu əvvəlki dönəmdə doyurulmayan ehtiyaclar üzündən bu dövrdə yaxınlıq, inam hissi olmadan təsadüfi cinsəl əlaqələrin yaranması baş verə bilər.

Sullivana görə, yetişkinlik mərhələsi sintaksik düşüncənin yetərincə yaxşı inkişaf etdiyi mərhələdir. Bu mərhələdə olan insanlar sabit dəyərləndirmə etalonuna sahibdirlər [2, s. 297].

Problemin elmi yeniliyi. Şəxsiyyətlə bağlı bir sıra məşhur yanaşma və nəzəriyyələr mövcuddur. Sullivanın şəxsiyyətə yanaşması onu inkişafda araşdırmaqdır. Sullivana görə, şəxsiyyətin mövcudluğu sosial qarşılıqlı əlaqələr fonunda mümkündür. Bu səbəbdən o şəxsiyyəti şəxsiyyətlərarası münasibətlər fonunda inkişaf edən bir sistem kimi araşdırmışdır. Həyəcan və narahatlıq duyğusunun. şüurlu və şüursuz meyllərin olması ilə bu yanaşma From, Freyd və Horninin nəzəriyyələrinə bir qədər yaxındır. Həyəcan hissinin şəxsiyyətin inkişafında rolunu böyüdən bu nəzəriyyədə təşviş hissinin müəyyən mərhələdə şəxsiyyətin əsas təməl ehtiyaclarının yaranmasında mühüm rol oynadığı vurğulanır. Yenidoğulmuş dövründən yetkinlik dövrünə kimi təşviş hissini izləyən bu yanaşmaya görə şəxsiyyət formalaşdıqca təşviş hissinin yükü azalmağa sosial və əxlaqi anlayışların rolu artmağa başlayır.

Problemin aktuallığı. Digər yanaşmalardan fərqli olaraq bu yanaşmaya görə yetkinlik yaşına çatma ilə əlaqədar insanların sintaksik koqnitiv mexanizmləri kifayət qədər yaxşı inkişaf edir, bu səbəbdən onlar fikir mübadiləsi edə bilirlər. Sullivanda Freyd kimi yetərincə doyrulmayan ehtiyacların növbəti yaş dönəmlərində reallaşa biləcəyini vurğulayır. Zehni və psixi pozuntuların, xüsusilə də, şizofreniya kimi psixotik pozuntuların sintaksik inkişafla əlaqədar olduğunu vurğulayan Sullivana görə, bu şəxsiyyətlərarası qeyri-müəyyənlikdən qaynaqlanır. Bu zaman o nitqin şəxsiyyəti ifadə etmədə olan ихркфт roluna dayanır.

Problemin praktik əhəmiyyəti. şəxsiyyətin formalaşması və şəxsiyyətlə bağlı nəzəriyyələr bio-

loji və sosial olaraq qruplaşdırılır. Bioloji nəzəriyyələrə qarşılıq olaraq sosial nəzəriyyələr şəxsiyyətin sosial varlıq olmasına inanaraq onu bu kontekstdən izah edirlər. Sullivanın nəzəriyyəsi də sosial təməlli nəzəriyyə olub şəxsiyyəti qarşılıqlı münasibətlər fonunda inkişafda öyrənir. 0-1 yaş aralığını təşviş və həyəcanla əlaqələndirən Sullivanda bu dövrdə yaxşı və pis anlayışlarının məhz həyəcan hissinə bağlı olaraq yaranmasını vurğulayır. Sullivana görə, dinamizmlər şəxsiyyətin əsas mexaznizmləri olub onun inkişafı zamanı enerji dəyişilmələrini özündə ehtiva edir. Digər nəzəriyyələrlə oxşar və fərqli tərəflərə malik olmasına baxmayaraq Sullivan şəxsiyyətin inkişafı ilə bağlı yaş dövrləşməsi təklif edir, hansı ki bu dövrləşmədə yeniyetməlik və yenidoğulmuş əsas mərhələlərdən hesab edilir. Populyar olmamasına baxmayaraq bu nəzəriyyə əsas dəyər yüklü nəzəriyyələrdən hesab edilir.

Ədəbiyyat

1. Geçtan, E. Psikanaliz ve sonrası. / E. Geçtan. –İstanbul: Remzi Kitabevi. –1993. –354 s.
2. Sullivan, H. S. The inter personal theory of psychiatry. / H.S. Sullivan. –New York: Norton. –1955. –414 s.
3. Morgan, J. H. The interpesonal psychotherapy of Harry Stack Sullivan: Remembering the legacy. // Journal of Psychology and Psychotherapy. –2014), –4(162), –1-5.
4. Hopwood, C. J., Pincus, A.L. The interpersonal core of personality pathology. // Personality Disorders: Theory, Research, and Treatment, –2013. – 201–212 s.
5. Duggan, C. The contribution of interpersonal theory to personality disorders diagnosis and treatment. // BJPsych Advances, –2026. – 8-9 s
6. Sullivan, H. S. The Interpersonal Theory of Psychiatry. // Psychiatry, –1953/1954. – 223–227 s .
7. Sullivan, H. S. & Goldberg, J. Self System Concept in Interpersonal Theory, –1950. – 8-15 s.

Redaksiyaya daxil olub: 10.12.2025

Gülər Qismət qızı Nuriyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0001-3926-480X
E-mail: gulernuri871@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(1).192-196

NEYROPEDAQOJİ YANAŞMALAR VASİTƏSİLƏ ÖYRƏNMƏ PROSESİNİN EFFEKTİVLİYİNİN ARTIRILMASI

Guler Gismet Nuriyeva
lecturer at Azerbaijan State Pedagogical University
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan,

IMPROVING THE EFFICIENCY OF THE LEARNING PROCESS USING NEUROPEDAGOGICAL APPROACHES

Гюлер Гисмет гызы Нуриева
преподаватель Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ ПРОЦЕССА ОБУЧЕНИЯ ПОСРЕДСТВОМ НЕЙРОПЕДАГОГИЧЕСКИХ ПОДХОДОВ

Xülasə. Neyropedaqogika, beynin çoxfunksiyallığı, öyrənmədə duyğuların rolu, fərdi fərqlər və neyroplastiklik kimi prinsiplər əsasında qurulur. Bu yanaşma, şagirdlərin öyrənmə tərzlərini, motivasiyalarını və emosional vəziyyətlərini nəzərə alaraq, fərdiləşdirilmiş təlim strategiyalarının tətbiqinə imkan yaradır. Neyrotəhsil tədris və öyrənmənin qarşılıqlı transformativ proseslər kimi qəbul edildiyi bir təhsil paradiqmasını müdafiə edir. Pedaqoji təcrübəni nevrologiya prinsipləri ilə birləşdirməklə müəllimlər maraq, emosional rifah və dərin, davamlı öyrənməni təşviq edən mühitlər yarada bilərlər. Araşdırma göstərir ki, neyropedaqogikanın tətbiqi, təkcə akademik nailiyyətləri yox, həm də şagirdlərin sosial-mənəvi inkişafını və uyğunlaşma qabiliyyətini gücləndirir. Bu baxımdan, təhsil sistemində neyropedaqoji prinsiplərin inteqrasiyası, müəllimlərin xüsusi hazırlığı, fərdiləşdirilmiş təlim mühitlərinin yaradılması və ailə-məktəb əməkdaşlığının gücləndirilməsi kimi tədbirlər zəruridir. Məqalədə göstərilir ki, oyun, multisensor mühit, layihə əsaslı öyrənmə və emosional dəstək kimi üsullar vasitəsilə beyin inkişafı stimullaşdırılır.
Açar sözlər: *neyropedaqogika, neyrotəhsil, beyin, öyrənmə, emosional dəstək*

Abstract. Neuropedagogy is based on the principles of the brain's multifunctionality, the role of emotions in learning, individual differences, and neuroplasticity. This approach enables the application of personalized teaching strategies that take into account the learning styles, motivation, and emotional state of students. Neuroeducation advocates an educational paradigm in which teaching and learning are viewed as mutually transformative processes. By integrating pedagogical practice with the principles of neuroscience, teachers can create an environment conducive to the development of curiosity, emotional well-being, and deep, lifelong learning. Research shows that the application of neuropedagogy not only contributes to improved academic performance but also to the social and spiritual development of students, as well as their adaptive abilities. Therefore, measures such as the integration of neuropedagogical principles into the education system, specialized teacher training, the creation of a personalized learning environment, and the strengthening of family-school interactions are necessary. The article demonstrates that brain development is stimulated by methods such as play, multisensory environments, project-based learning, and emotional support.

Keywords: *neuropedagogy, neuroeducation, brain, learning, emotional support*

Аннотация. Нейропедагогика основана на принципах многофункциональности мозга, роли эмоций в обучении, индивидуальных различиях и нейропластичности. Этот подход позволяет применять персонализированные стратегии обучения, учитывающие стили обучения, мотивацию и эмоциональное состояние учащихся. Нейрообразование отстаивает образовательную парадигму, в которой преподавание и обучение рассматриваются как взаимопреобразующие процессы. Объединяя педагогическую практику с принципами нейронауки, учителя могут создавать среду, способствующую развитию любознательности, эмоциональному благополучию и глубокому, непрерывному обучению. Исследования показывают, что применение нейропедагогики не только способствует повышению академической успеваемости, но и социально-духовному развитию учащихся, а также их адаптивным способностям. В связи с этим необходимы такие меры, как интеграция нейропедагогических принципов в систему образования, специальная подготовка учителей, создание персонализированной среды обучения и укрепление взаимодействия семьи и школы. В статье показано, что развитие мозга стимулируется такими методами, как игра, мультисенсорная среда, проектное обучение и эмоциональная поддержка..

Ключевые слова: *нейропедагогика, нейрообразование, мозг, обучение, эмоциональная поддержка*

Neyropedaqogika, təhsil nevrologiyası kimi də tanınır, neyrologiya, koqnitiv psixologiya və təhsil nəzəriyyəsinin kəsişməsində yerləşən fənlərarası bir sahədir. Onun əsas məqsədi neyron prosesləri və beyinin plastikliyi haqqında bilikləri sinif təcrübəsinə tətbiq etməklə tədrisdə inqilab etməkdir. Bu sahə şagirdlərin motivasiyasını, iştirakını və öyrənmə nəticələrini artırmaq üçün eksperimental tədqiqatları praktik pedaqogika ilə birləşdirməyi hədəfləyir. Balanslı və sübutlara əsaslanan yanaşma tənqidi düşüncəni stimullaşdırır, aktiv iştirakı təşviq edir və öyrənməni gücləndirir. Bu potensialı reallaşdırmaq üçün neyrologiya və koqnitiv psixologiyadan əldə edilən empirik tədqiqatların təhsil dizaynlarına və tədris metodlarına inteqrasiyası tələb olunur.

Neyropedaqogika və ya neyrotəhsil 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində təhsil diskursunda ortaya çıxmağa başlamışdır. Lakin, onun konseptual əsaslarını 1980-ci illərin beyinə əsaslanan öyrənmə hərəkatına aid etmək olar ki, bu da öyrənməni optimallaşdırmaq üçün tədris metodlarının nevroloji proseslərlə uyğunlaşdırılmasının vacibliyini vurğulamışdır. İlkin tədqiqatlar beyin inkişafının başa düşülməsinin vacibliyini vurğulamış və nevrologiya anlayışlarının öyrənənlərin ən effektiv şəkildə necə öyrəndiklərini həll etməklə tədris strategiyalarını əhəmiyyətli dərəcədə yaxşılaşdıra biləcəyini iddia etmişdir [1, s.6].

Neyrotəhsil, çox vaxt öyrənmə və təhsil elmi kimi adlandırılan, təhsil, psixologiya və nevrologiyadakı irəliləyişlərdən istifadə edərək öyrənmə proseslərini və beyin inkişafını öyrənən fənlərarası bir sahədir. Bu dinamik sahə ətraf mühit və kontekstual amillərin beyin quruluşuna və funksiyasına necə təsir etdiyini və nəticədə öyrənmə nəticələrini formalaşdırdığını anlamağa çalışır. “Zəka, Beyin və Təhsil” (Mind, Brain, Education) fənni təhsil prosesləri ilə neyron mexanizmləri arasındakı əlaqəni araşdıran və beyin funksiyasını hədəf alan müdaxilələrin öyrənməni necə artıra biləcəyini araşdıran təməl bir fokus rolunu oynayır.

Neyrogörüntüləmə (neuroimaging) texnologiyalarında son irəliləyişlər tədqiqatçılara neyron fəaliyyətini real vaxt rejimində müşahidə etməyə imkan vermişdir və beynin öyrənmədəki rolu haqqında dəyərli məlumatlar vermişdir. Beyin funksiyası və pedaqoji metodların qarşılıqlı təsirinə inteqrasiya olunmuş yanaşma baxımından, H.Gardner (1983) və Kane-in əsas əsərləri çoxlu zəka nəzəriyyəsini və öyrənmə strategiyalarının beyin prosesləri ilə uyğunlaşdırılmasını vurğulayaraq, təhsil nevrologiyası sahəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir [3, s.47].

Avropada təhsil nevrologiyası əvvəlcə idrak nevrologiyası və inkişaf psixologiyası arasında əməkdaşlıq çərçivəsində inkişaf etmiş və daha sonra təhsil psixologiyası və təhsil nəzəriyyəsini əhatə etmək üçün genişlənmişdir. Bu inteqrasiya beyin elmi və təhsil tədqiqatlarının daha geniş sintezini əks etdirir. Bu sahənin fənlərarası təbiəti neyron mexanizmləri, idrak və öyrənmə arasındakı mürəkkəb əlaqələri daha dərindən anlamağımıza kömək edərək daha effektiv tədris metodları və sübutlara əsaslanan müdaxilələr üçün yol açmışdır.

Təhsil nevrologiyasının əsasını neyroplastiklik anlayışı – beynin öyrənmə və təcrübə vasitəsilə yenidən təşkil etmək və uyğunlaşmaq

qabiliyyəti təşkil edir. Bu prinsip şagirdlərin müxtəlif ehtiyaclarını ödəyən fərdiləşdirilmiş öyrənmə modellərinin yaradılmasını asanlaşdırır. Yaddaş, diqqət və emosiyalarda neyrobioloji kəşfləri tətbiq etməklə müəllimlər həm idrak artımını, həm də sosial-emosional inkişafı təşviq edən mühitlər yarada bilərlər. Nəticə etibarilə, neyrotəhsil təbii beyin prosesləri ilə uyğunlaşan, yalnız akademik nailiyyətləri deyil, həm də emosional rifahı təşviq edən tədris metodlarını müdafiə edir. Bu sahə inkişaf etdikcə, beyin funksiyası və inkişafı ilə bağlı mövcud elmi biliklərə əsaslanan təhsil təcrübələrinin mühüm rolu vurğulanır [2, s.319].

Neyroelmə əsaslanan tədris və öyrənmə metodlarına artan maraq, neyroelmi kəşflərin müəllimlər üçün əlçatan və praktik biliklərə çevrilməsinin təcili ehtiyacını vurğulayır. Eyni zamanda, fərdi öyrənmə ehtiyaclarını ödəmək üçün tədris metodlarının şaxələndirilməsi müəllimlər üçün vacib peşəkar səriştəyə çevrilmişdir. Bu tendensiya müəllim təhsili proqramlarında neyrosavadlılığın artan əhəmiyyətini vurğulayır, tədris planının hazırlanmasında innovasiyanı və uyğunlaşmanı təşviq edir.

Neyroelmi tədqiqatların real dünya təhsil kontekstlərində aktuallığını və tətbiqini təmin etmək üçün üç vacib amil nəzərə alınmalıdır. Birincisi, mürəkkəb neyroelmi kəşflər müəllimlərin asanlıqla başa düşə və tətbiq edə biləcəyi aydın, praktik strategiyalara çevrilməlidir. İkincisi, neyroelmi təcrübələr mövcud pedaqoji prinsipləri pozmadan mövcud təhsil strukturlarına inteqrasiya olunmalıdır. Üçüncüsü, tədqiqat və sinif tətbiqi arasındakı boşluğu aradan qaldırmaq üçün neyroelmlər və müəllimlər arasında davamlı əməkdaşlıq vacibdir [6, s.346].

Nəticə etibarilə, tədris və öyrənmədə mənalı və davamlı irəliləyişlərə nail olmaq üçün nevrologiyaya əsaslanan biliklərin effektiv şəkildə yayılması və kontekstləşdirilməsi tələb olunur ki, bu da bu biliklərin sinifdə tədris və şagirdlərin nailiyyətləri üçün nəzərəçarpacaq faydalar verməsini təmin edir.

Müasir təhsil, vizual təlimatlar və təkrarlanan məşqlər kimi ənənəvi tədris metodlarından kənara çıxan innovativ yanaşmalar tələb edən bir sıra çətinliklərlə üzləşir ki, bu da çox vaxt şagirdlərin metakognitiv fəaliyyətini stimullaşdırmır. Bu kontekstdə neyrotəhsil neyroelmi biliklərin pedaqoji təcrübəyə inteqrasiyası, şagirdlərdə müsbət idrak strukturlarının inkişafını təşviq etmək və tədris və öyrənmənin ümumi keyfiyyətini artırmaq üçün perspektivli bir çərçivə təklif edir.

Neyropedaqogikanın əsas məqsədi öyrənmənin əsasını təşkil edən neyron mexanizmlərini araşdırmaq və təhsil mühitində idrak inkişafını stimullaşdırmaq üçün optimal strategiyaları müəyyən etməkdir. Neyropedaqogika prinsiplərini tətbiq etməklə müəllimlər ənənəvi təlim proseslərini aktiv iştirakı təşviq edən innovativ, yaradıcı və refleksiv təcrübələrə çevirə bilərlər. Bu da öz növbəsində maraq, davamlı diqqət və şagirdlərin yaradıcı, icraçı və emosional qabiliyyətlərinin inkişafını stimullaşdırır və bununla da metakognitiv böyüməni təşviq edir. Effektiv şəkildə tətbiq edildikdə, bu cür yanaşmalar şagirdlərə həm rəsmi təlim daxilində, həm də xaricində muxtar, özünütənzimləyən və daxili motivasiyalı olmağa imkan verir [5, s.4].

Neyropedaqogikanın əsas prinsipi öyrənməni asanlaşdıran emosiyalar və təcrübə arasındakı sıx əlaqədir. Problem əsaslı, layihə əsaslı və əməkdaşlıq əsaslı təlim kimi emosional iştirakı birləşdirən tədris metodları öyrənənləri təhsil prosesinin mərkəzinə yerləşdirir və "edə-edə öyrənməni" təşviq edir. Bu metodlar maraq, minnətdarlıq, ümid və qürur da daxil olmaqla müsbət emosiyalar oyadan orijinal təcrübələr yaradır ki, bu da biliklərin yadda saxlanılmasını və idrak elastikliyini artırır [4, s.412].

Nəticə etibarilə, emosiyaları və idrak proseslərini bir-birinə bağlayan öyrənmə təcrübələri daha dərin anlayışı və davamlı neyron əlaqələrini yaratmağı təşviq edir. Onlar beynin plastikliyindən istifadə edərək, həm peşəkar, həm də şəxsi kontekstlərdə biliklərin ötürülməsini və tətbiqini təmin edir. Virtual və interaktiv simulyasiyalar, rəqəmsal əməkdaşlıq vasitələri (məsələn, Google Workspace) və genişləndirilmiş reallıq mühitləri kimi təhsil texnologiyaları, cəlb olunma, interaktivlik və emosional rezonans təşviq etməklə bu öyrənmə təcrübələrini daha da zənginləşdirə bilər və bununla da müasir pedaqogikada neyrotəhsil prinsiplərini möhkəmləndirə bilər.

Neyropedaqogikadan əldə edilən dəlillər göstərir ki, təlim prosesinə təşviqedici və ya emosional cəhətdən cəlbedici stimulla başlamaq şagirdlərin motivasiyasını və təlim prosesinin kontekstual anlaşılmasını artıra bilər. Bu cür sti-

mullar düşündürücü ifadələr, təsirli görüntülər, düşünməyə təşviqlər və ya şagirdlərin həyat təcrübələri ilə rezonans doğuran real dünya problemləri şəklində ola bilər.

Şagirdlərin maraqlarına və sosiomədəni kontekstlərə uyğun tədris strategiyalarının seçilməsi refleksiv dialoq və analitik düşüncəni inkişaf etdirir. Metaforalar, bənzətmələr və istiqamətləndirici suallar kimi pedaqoji vasitələr müzakirə üçün effektiv katalizator rolunu oynayır və şagirdlərə mövcud anlayışları passiv şəkildə mənimsəmək əvəzinə, mühakimə və özünü kəşf etməklə bilik qurmağa imkan verir. Bu strategiyalar mənalı öyrənmənin açarı olan idrak aktivləşməsini və metakognitiv şüuru təşviq edir.

Neyropedaqoji tədqiqatlar göstərir ki, yaradıcı ifadə və bədii qarşılıqlı təsir emosional stressi azaltmaqda və konsentrasiyanı yaxşılaşdırmaqda mühüm rol oynayır və bununla da idrak qabiliyyətlərini və öyrənmə nəticələrini artırır. Rol oyunları və simulyasiya əsaslı təlim bu baxımdan xüsusilə təsirlidir, çünki onlar öyrənənləri təcrübəyə əsaslanan öyrənməni təşviq edən real, lakin nəzarətli bir mühitə salırlar. Birdən çox perspektiv qəbul edərək və fərqli rolları oynayaraq, şagirdlər problem həllində fəal iştirak edir, empatiya və tənqidi düşüncə inkişaf etdirir və şagirdi öyrənmə prosesinin mərkəzinə qoyurlar.

Dialoq, musiqi, rəqs, tamaşa və ya digər sənətlər vasitəsilə yaradıcı ifadəni təşviq etmək müəllimlərə şagirdlərin idrak və metakognitiv proseslərini daha yaxşı başa düşməyə imkan verir. Bu cür metodlar fənnə xas biliklərin və transversal bacarıqların eyni vaxtda inkişafını asanlaşdırır. İmmersiv virtual mühitlər və oyun əsaslı öyrənmə ssenariləri də daxil olmaqla, təhsil texnologiyalarının inteqrasiyası yaradıcılığı və iştirakı daha da artıra bilər. Məsələn, şagirdlərə simulyasiya edilmiş kontekstlərdə avatar və ya rol oyunu yaratmağa imkan verən virtual dünyalar emosional iştirakı, şəxsi inkişafı və daha dərin öyrənməni təşviq edir.

Neyrotəhsil beyin funksiyasını və öyrənməni optimallaşdırmaq üçün fiziki və zehni fəaliyyət arasında tarazlığın qorunmasının vacibliyini vurğulayır. Dərsin əvvəlində qısa fiziki və ya idrak məşqlərinin yerinə yetirilməsi, diqqəti artıran, stressi azaldan və öyrənməni yaxşılaşdıran dopamin, serotonin, asetilkolin və endorfin kimi neyrotransmitterlərin istehsalını stimullaşdırır.

Fiziki hərəkəti idrak tapşırıqları ilə birləşdirən fəaliyyətlər, məsələn, tapmaca həlli, meditasiya, dartınma məşqləri və ya Sudoku və Rubik kubu kimi məntiq oyunları, sinir yollarını aktivləşdirmək üçün təsirli vasitələrdir. Bu təcrübələr yalnız beyin plastikliyini artırmaqla yanaşı, həm də emosional tənzimləməni və motivasiyanı təşviq edir və nəticədə daha dinamik və vahid öyrənmə prosesini asanlaşdırır.

Neyropedaqogika sahəsində aparılan tədqiqatlar göstərir ki, oyun, zövq və sosial qarşılıqlı əlaqənin təlim prosesinə inteqrasiyası öyrənənlərin idrak və emosional iştirakına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Oyunların təlim mühitinə daxil edilməsi maraq, daxili motivasiya və nailiyyətlə əlaqəli məmnuniyyəti stimullaşdırır ki, bu da birlikdə neyron fəaliyyətini və mükafatla əlaqəli neyrotransmitterlərin istehsalını stimullaşdırır. Bu proseslər yeni sinaptik əlaqələrin formalaşmasına və uzunmüddətli öyrənmə və bacarıqların əldə edilməsi üçün zəruri olan idrak strukturlarının möhkəmlənməsinə kömək edir.

Həm rəqəmsal vasitələr, həm də ənənəvi tədris metodları vasitəsilə tətbiq olunan oyunlaşdırma strategiyaları təlim prosesini təkmilləşdirmək üçün çevik seçimlər təklif edir. Nümunələrə tapşırıqların (şəxsən və ya virtual), cəllad kimi dil oyunlarının və ya Jeopardy kimi viktorinaların istifadəsi daxildir. Bundan əlavə, oyun dizayn elementləri, görkəmli nailiyyətləri tanımaq üçün döş nişanları, simvolik mükafatlar və ya "supergüc" titulları kimi motivasiya mexanizmlərindən istifadə edərək oyun olmayan kontekstlərə asanlıqla inteqrasiya edilə bilər. Bu cür strategiyaların effektivliyi tələbələrin yalnız təlim prosesində fəal iştirak etmələrini deyil, həm də mənalı idrak prosesləri vasitəsilə əldə etdikləri bilikləri mənimsəmələrini və dəyişdirmələrini təmin edən aydın şəkildə müəyyən edilmiş təlim məqsədlərindən asılıdır.

Neyrotəhsilin praktik tətbiqi pedaqoji innovasiya üçün güclü bir yoldur. Lakin, onun tam potensialını reallaşdırmaq həm müəllimlərin, həm də tələbələrin idrak istiqamətlərində transformasiya tələb edir. Müəllimlər tədris dizaynı, şəxslərarası qarşılıqlı əlaqələr və öyrənməyə münasibət vasitəsilə şagirdlərin neyron və emosional inkişafının formalaşmasında əsas rol oynayırlar. Təlim fəaliyyətlərinin dizaynından tutmuş ünsiyyət tonuna qədər hər bir tədris qəra-

rının şagirdlərin beyin funksiyasına təsir göstərə biləcəyini anlamaq, müəllimlərin beyin inkişafının unikal xüsusiyyətlərinə cavab verən effektiv öyrənməni təşviq etmək üçün dərin məsuliyyətini vurğulayır.

Problemin aktuallığı. Müasir təhsildə müəllimlər üçün əsas tələblərdən biri keyfiyyətli tədrisi təmin etmək və şagirdləri təlim prosesinə fəal şəkildə cəlb etməkdir. Tədrisə ənənəvi yanaşmalar getdikcə daha fərdiləşdirilmiş, emosional cəhətdən cəlbedici və beyin əsaslı metodlar tələb edən bugünkü şagirdlərin ehtiyaclarını ödəmir. Bu yanaşma həm idrak, həm də emosional inkişafı dəstəkləyən daha təsirli və inklüziv təlim mühiti yaratmağa kömək edir.

Problemin elmi yeniliyi. Bu tədqiqatın elmi yeniliyi neyrobioloji prinsiplərin öyrənmə və tədrisə inteqrasiyasındadır. Neyrotəhsil beyin funksiyalarının başa düşülməsinin tədrisin effektivliyini necə artıra biləcəyini araşdıran nisbətən yeni bir fənlərarası sahədir. Diqqət, yaddaş, motivasiya və emosiyaların əsasını təşkil edən nevroloji mexanizmləri araşdırmaqla, bu yanaşma müəllimlərə beynin təbii öyrənmə prosesinə uyğun tədris planları hazırlamağa imkan verir. Bu innovativ yanaşma müəllim sərişləsini yenidən təsəvvür edir və müasir, şagird mərkəzli təhsil təcrübələrinin formalaşmasında koqnitiv nevrologiyanın əhəmiyyətini vurğulayır.

Problemin praktik əhəmiyyəti. Bu tədqiqatın praktik əhəmiyyəti müəllimlərə daha effektiv və sübutlara əsaslanan tədris metodlarının hazırlanmasında kömək etmək potensialındadır. Sinifdə neyropedaqogika prinsiplərinin tətbiqi müəllimlərə maraq, özünütənzimləmə və uzunmüddətli öyrənməni təşviq edən dəstəkləyici bir mühit yaratmağa kömək edir. Bu, həmçinin məktəblərdə sağlam psixoloji və emosional iqlimə töhfə verir. Nəticədə, bu yanaşma müəllimlərə şagirdlərin idrak ehtiyaclarını daha yaxşı başa düşmək, beyin fəaliyyətini stimullaşdıran dərslər hazırlamaq və vahid təlim nəticələrinə nail olmaq üçün vasitələr təqdim edir.

Ədəbiyyat

1. Bruer, J. T. Education and the brain: a bridge too far. Educ. Res. 26, 1997, pp. 4-16.
2. Dubinsky, J. M., Roehrig, G., and Varma, S. Infusing neuroscience into teacher professional development. Educ. Res. 42, 2013, pp.317-329.
3. Gardner, H. Artistic intelligences. Art Educ. 36, 1983, pp. 47-49.
4. Mayer, R. E. Using multimedia for e-learning. J. Comput. Assist. Learn. 33, 2017, pp.403-423.
5. Peregrina Nievas, P., & Gallardo-Montes, C. P. The neuroeducation training of students in the degrees of early childhood and primary education: A content analysis of public universities in Andalusia. Education Sciences, 13*(10)*, 2023, 1006, pp.1-17
6. Qafa, A., Treska, T., Sina, Z., Kosova, R., & Şahini, M. Neuroeducation in the Classroom: From Theoretical Foundations to Practical Challenges. Journal of Educational and Social Research, 15(4), 2025, pp. 343-357
7. Tokuhama-Espinosa, T. The New Science of Teaching and Learning: Using the Best of Mind, Brain, and Education Science in the Classroom, 2010. 190 p.

Redaksiyaya daxil olub: 01.12.2025

UOT 37

Афсана Эльшад Ализад-Гусейнли
докторант по программе доктора философии
Нахчыванского Института Учителей
https://orcid.org/0009-0006-7410-5974
E-mail: alizadeEfsane@nmi.edu.az
https://doi.org/10.69682/arti.2026.93(1).197-201

РАСПРОСТРАНЕНИЕ ПРОСВЕТИТЕЛЬСКИХ ИДЕЙ В ИРЕВАНЕ ПОСРЕДСТВОМ ПРЕССЫ

Əfsanə Elşad Əlizadə Hüseynli
Naxçıvan Müəllimlər İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı

İRƏVANDA MAARİFÇİLİK İDEYALARININ MƏTBUAT VASİTƏSİLƏ YAYILMASI

Afsana Elshad Alizadeh Huseynli
doctorial student in the program of doctor of philosophy
of Nakhchivan Teachers Institute

SPREADING ENLIGHTENMENTAL IDEAS IN YEREVAN THROUGH THE PRESS

Аннотация. В статье исследуется процесс формирования и распространения идей просвещения на фоне социально-политических и культурных процессов, происходивших в городе Иреване в конце XIX и начале XX веков. Рассматривается роль интеллектуалов эпохи просвещения в развитии общественной мысли, укреплении национального пробуждения и распространении образования посредством прессы. Особо подчеркивается важность газет и журналов, издававшихся в Иреване, в продвижении идей просвещения. В статье отмечается, что благодаря этим изданиям велась борьба с неграмотностью, прививалось национальное самосознание, светское образование и интерес к науке. Одновременно затрагиваются и трудности, с которыми сталкивались азербайджанцы Иревана в своей образовательной деятельности. В целом, исследование показывает, что пресса в Иреване являлась мощным общественным средством распространения идей просвещения.

Ключевые слова: *просвещение, национальное пробуждение, образование и грамотность, иреванская интеллигенция, средства массовой информации, просвещение общества, культурное возрождение*

Xülasə. Məqalədə XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvan şəhərində baş verən ictimai-siyasi və mədəni proseslər fonunda maarifçilik ideyalarının formalaşması və yayılması prosesi tədqiq olunur. Tədqiqatda maarifçi ziyalıların ictimai düşüncənin inkişafında, milli oyanışın güclənməsində və təhsilin yayılmasında oynadığı rolu mətbuat vasitəsilə izah edilir. Xüsusilə İrəvanda nəşr olunan qəzet və jurnalların maarifçilik ideyalarının təbliğində əhəmiyyəti vurğulanır. Məqalədə qeyd olunur ki, bu nəşrlər vasitəsilə savadsızlığa qarşı mübarizə aparılır, xalq arasında milli özünüdərk, dünyəvi təhsil və elmə maraq aşılanırdı. Məqalədə eyni zamanda, İrəvan azərbaycanlılarının maarifçilik fəaliyyətində qarşılaşdığı çətinliklərə də toxunulur. Araşdırma ümumilikdə göstərir ki, İrəvanda mətbuat maarifçi ideyaların yayılmasında güclü ictimai vasitə olmuşdur.

Açar sözlər: *Maarifçilik, milli oyanış, təhsil və savadlanma, İrəvan ziyalıları, mətbuat orqanları, cəmiyyətin maariflənməsi, mədəni dirçəliş*

Abstract. This article examines the formation and dissemination of enlightenment ideas against the backdrop of socio-political and cultural processes occurring in the city of Yerevan in the late 19th and early 20th centuries. It examines the role of Enlightenment intellectuals in the development of social thought, strengthening national awakening, and spreading education through the press. Particular emphasis is placed on the importance of newspapers and magazines published in Yerevan in promoting enlightenment ideas. The article notes that these publications combated illiteracy, instilled national self-awareness, secular education, and an interest in science. The article also touches on the difficulties faced by Azerbaijanis in Yerevan in their educational endeavors. Overall, the study demonstrates that the press in Yerevan was a powerful public means of disseminating enlightenment ideas.

Keywords: *enlightenment, national awakening, education and literacy, Yerevan intelligentsia, mass media, public education, cultural revival*

Город Иреван всегда являлся одним из мест, имевших важное этническое, культурное и социально-политическое значение в истории Азербайджана. В конце XIX и начале XX веков в Иреване возрос интерес к прессе. Именно в этот период газеты и журналы стали наиболее эффективным средством распространения идей просвещения. На страницах этих газет и журналов критиковались невежество и неграмотность, защищались женское образование и права, подчеркивалась необходимость разделения религии и образования, пропагандировалась важность открытия новых типов школ. Обращения к людям основывались не на национализме, а на национальном самосознании и гуманистических ценностях. Благодаря таким статьям идеи просвещения распространялись среди азербайджанского населения, менялся их образ мышления и зарождалась новая волна национального возрождения [3].

Одновременно с этим пресса выполняла и свою просветительскую функцию посредством перевода и адаптации. Произведения русских и европейских авторов переводились в национальной прессе, прививая читателям новое мировоззрение. Рассказы, фельетоны, эпистолярные и журналистские статьи, написанные в духе просвещения, стали важными средствами, повлиявшими на мировоззрение азербайджанцев Иревана.

Иреванская интеллигенция сотрудничала с издававшимися в то время газетами и журналами, такими как «Экинчи», «Каспий», «Фююзат», «Шарги-Рус», «Молла Насреддин», «Иршад» и др., и таким образом сыграла незаменимую роль в распространении идей просвещения.

Естественно, эти идеи не нравились многим невежественным людям, некоторым религиозным деятелям и руководителям администрации, которые не хотели, чтобы народ был образован. Ведь чем неграмотнее нация, тем легче ею управлять. По мере того, как люди становятся образованными, они смогут добиваться и требовать свои права. Несмотря на все это, просвещенные интеллектуалы Иревана пытались раскрывали глаза своему народу, даже ценой собственной жизни, открывая школы и создавая печатный орган.

Первое печатное издание на родном языке в Иреване, сатирический журнал «Лек-Лек», занимает уникальное место в истории азербайджанской прессы. Этот журнал печатался в типографии «Льюс» в Иреване и был представлен широкой читательской аудитории. «Лек-Лек», отличающийся глубоким социальным содержанием и острым сатирическим языком, отражал многие проблемы своего времени и сыграл важную роль в распространении идей просвещения. В своем отношении к социально-политическим событиям, происходившим вокруг него, журнал считал своим ориентиром в языке и стиле путь «Моллы Насреддина» и оставался верен этому обещанию в своей практической деятельности. Переняв едкую сатиру «Моллы Насреддина» и стиль выражения народной скорби, «Лек-Лек» выбрал в качестве объекта критики события, происходящие в Иреване, отсталые слои общества, существующую социальную несправедливость,

невежество, религиозный фанатизм и политическую реакцию. В частности, одним из главных приоритетов «Лек-Лек» был вопрос просвещения общества. В своих статьях он подчеркивал необходимость образования и призывал людей спастись от неграмотности и невежества. В то время основными объектами критики журнала стали реакционные круги, игравшие роль в отвлечении населения от просвещения, и те, кто лицемерно действовал под видом религии.

Одной из областей, которой журнал «Лек-Лек» уделял особое внимание, была защита родного языка. Редакторы и авторы журнала резко критиковали беев, мулл и интеллигенцию, которые считали постыдным говорить на родном языке и предпочитали русский, арабский и персидский, представляя их позицию как предательство национальной идентичности. Любовь и преданность родному языку отчетливо ощущались во всех статьях «Лек-Лек». Это еще больше усилило роль журнала в движении национального пробуждения и культурного возрождения. Кроме того, журнал общался с читателями посредством стихов, фельетонов, объявлений о социально-культурных событиях, притч, рассказов и сатирических монологов различного содержания, критически освещая социально-политические события того времени. «Лек-Лек» был не просто журналом – это была культурная трибуна, несущая в себе просвещающий дух своего времени и боровшаяся за то, чтобы открыть глаза народа [8].

В заголовке всех номеров «Лек-Лек» повторялось объявление: «Страницы журнала открыты для любых новостей, имеющих отношение к нашей профессии и полезных для нашей страны. Статьи без подписи публиковаться не будут, письма, отправленные без интереса, также не принимаются. Статьи должны быть написаны простым турецким языком. Те, кто меняет адрес, должны прислать семь экземпляров с почтовой маркой. Неопубликованные статьи не принимаются» [4, с. 7].

Этим заявлением редакторы журнала донесли до общественности свою точку зрения и четко обозначили главную цель издания. Предпочтение будет отдаваться статьям, соответствующим идеологии газеты и полезным для страны; неподписанные и неинтересные статьи публиковаться не будут; статьи, присланные в журнал, должны быть написаны на «открытом турецком» (то есть простым и понятным языком).

Это отражает просветительскую и националистическую функцию прессы того времени, а также редакционную культуру. В объявлении запрашивались статьи, «полезные для нашей нации». Это демонстрирует влияние тюркизма и националистического течения. Позже стали запрашиваться статьи на «открытом турецком языке», что означало выбор доступного стиля для просвещения народа. Журнал публиковал интересные и сатирические статьи о тяжелом образе жизни, вызванном невежеством, чистоте нашего языка и простоте нашего алфавита. Потому что арабский алфавит создавал большие трудности в просвещении народа. Для решения вопроса национального языка и национальной культуры было необходимо очистить наш язык от иностранных элементов. Главной причиной популярности и успеха журнала было то, что он был простым, понятным и близким к народному языку. Это ясно видно в фельетонах, опубликованных в журнале, под названиями «Обновление» [5, с. 30] и «Языковой вопрос» [5, с. 32].

С момента своего издания сатирический журнал «Лек-Лек» дистанцировался от абстрактных, легкомысленных идей и жалостливой риторики, заняв реалистическую позицию. Статьи и сатирические материалы, представленные на страницах журнала, основаны на событиях и социально-политических процессах в обществе, а также на конкретных фактах. Эта особенность показала, что «Лек-Лек» – это не просто издание, а зеркало своего времени, эффективное средство формирования общественного мнения.

Главная цель и критическое направление журнала были ясны и последовательны от начала до конца – он открыто боролся с невежеством, суевериями и невежеством. В частности, распространение идей просвещения оценивалось как важнейший шаг на пути к возрождению общества. В своих статьях «Лек-Лек» постоянно подчеркивал, что прогресс, развитие и свобода народа возможны только при модели общества, основанной на

науке, образовании и свободе мысли. Журнал считал путь просвещения единственным выходом и твердо заявлял, что неграмотность и фанатизм являются главными препятствиями на пути национального прогресса.

Несмотря на очень короткий срок существования, журнал «Лек-Лек» занял уникальное место в формировании истории азербайджанской прессы и литературной мысли. Его деятельность по национальному пробуждению, сохранению языка, развитию культурных ценностей и социальной справедливости является важным этапом для азербайджанской журналистики. Этот журнал стал идеологической платформой, служащей пробуждению национальной мысли и формированию национального самосознания не только у азербайджанцев, проживающих в Иреване, но и у всех остальных.

Наследие «Лек-Лек» актуально и сегодня. Его призывы к просвещению, принципы свободы мысли и верность родному языку также принимаются как образцовые идеологические линии в современном информационном обществе. Этот короткий, но глубокий след в истории прессы еще раз подтверждает важность журнала в нашей национальной и культурной памяти.

Слово «Бурхан» происходит от арабского и означает «доказательство, свидетельство». «В 1914 году, после закрытия «Лек-Лек» в конце июня, они всерьез попытались издать в городе новый журнал на тему «доказательство, свидетельство». После долгой переписки и множества споров им наконец удалось получить разрешение на издание журнала «Бурхани-хакикат» в 1916 году» [4, с. 159].

Редакционная статья под названием «Хакикат» в первом номере журнала «Бурхани-Хакикат» четко обозначила главную цель издания. Авторы отмечают, что название журнала совпадает с его содержанием и идеологической линией, и подчеркивают, что это обещанное единство будет доказано читателям фактами в последующих номерах. Такой амбициозный и целенаправленный подход ясно демонстрирует позицию журнала в отношении просвещения и развития общественной мысли.

Политическая, историческая и научная деятельность издания превратила его не только в журналистскую, но и в научную и интеллектуальную площадку. Издание «Бурхани-Хакикат» стало важным событием в жизни города с многонациональной и сложной социально-политической обстановкой, каким был Иреван. Начало деятельности журнала дало толчок развитию новой литературно-культурной среды, формировавшейся в то время в Иреване, и сыграло значительную роль в формировании общественного сознания.

«Бурхани-Хакикат» выступала важной платформой для просвещения и социальной критики, не только распространяя информацию, но и обсуждая актуальные проблемы своего времени. Таким образом, это издание служило трибуной, оказавшей серьезное идеологическое и культурное влияние в свое время.

Тематика журнала «Бурхани-Хакикат» была довольно широкой и отличалась статьями о повседневных проблемах, воспитании детей в духе национальной идеологии и вопросах просвещения. Также, чтобы простые люди могли усвоить некоторые сатирические приемы, встречавшиеся в журнале, заголовок «Словарь словарей» объяснял эти выражения простым и сатирическим языком.

Выводы. Подытоживая вышеизложенное, мы пришли к такому заключению, что в то время город Иреван был одним из важных культурных центров с высокой плотностью азербайджанского населения, и происходящее здесь просветительское движение имело огромное значение для национального пробуждения.

Интеллектуалы – учителя, поэты и журналисты, которые были главной силой в распространении идей просвещения, работали над тем, чтобы избавить население от неграмотности, освоить современные науки и укрепить национальное самосознание. Эти интеллектуалы оказали серьезное влияние на формирование общественного мнения и углубление национального самосознания. Одним из главных направлений их деятельности было широкое распространение идей просвещения посредством прессы. Ведь в то время через прессу затрагивались такие вопросы, как неграмотность, права женщин, национальная идентичность, религиозная терпимость и интерес к европейской науке.

Данная деятельность осуществлялась в сложных условиях – на фоне как давления царского российского правительства, так и сопротивления местных армянских церковных кругов. Пресса также стала общественной трибуной просветителей в условиях этих трудностей.

Просвещенная среда, сформировавшаяся в Иреване в конце XIX и начале XX веков, имела не только местное значение, но и сыграла важную роль в национальном пробуждении азербайджанского народа в целом, в формировании просвещенных традиций и в сохранении его национальной идентичности.

Таким образом, пресса была не только средством информации, но и одним из главных средств распространения идей просвещенной интеллигенции, пробуждения народа и сохранения национальной культурной идентичности. Эта просвещенная среда, сформировавшаяся в Иреване, представляла собой важную ветвь национального просвещения.

Научная новизна статьи. Журналы «Лек-Лек» и «Бурхани-Хакикат» стали главной печатной площадкой просвещенческого движения, сформировавшегося в Иреване в начале XX века, и сыграли важную роль в истории азербайджанской прессы. Оба издания способствовали формированию и обновлению общественного сознания, освещая в сатирическом и журналистском стиле такие темы, как социальная отсталость, невежество, права женщин, чистота языка и национальная идентичность.

Актуальность статьи. Благодаря едкой сатире «Лек-Лек» и просвещающей и научной позиции «Бурхани-Хакикат», пресса послужила не только средством информирования, но и идеологической платформой для борьбы с социальной несправедливостью. В частности, через рубрику «Словарь словаря» были выявлены противоречия в повседневной жизни людей, несправедливость и дискриминация в отношении женщин, а также выдвинута глубокая социально-политическая критика.

Практическая значимость статьи. Передавая людям идеи просвещения простым и понятным языком, эти журналы заложили основу для нового национального пробуждения, а также создали важный этап в развитии азербайджанской журналистики и общественного мнения. Их деятельность сыграла важную историческую роль в содействии народу в осознании своей идентичности, понимании своих прав и построении свободомыслящего общества.

Литература

1. Джафаров, Дж.А. «Обстановка национального просвещения в Иреване» / Дж.А. Джафаров, Дж.В. Аллахвердиев. – Баку: Шарг-Гарб, – 2017. – 440 с.
2. Мамедов, И. «Иреванская тетрадь. Странные горизонты нашей истории общественной мысли. Том I» / И. Мамедов. – Баку: Адилоглу, – 2008. – 216 с.
3. Махаррамов З. Литературный памятник иравийским туркам «Журнал «Лек-Лек»». – Баку: Открытый мир, – 2008. – 79 с.
4. Мустафа, Н. Ю. (Назим Мустафа). Город Иреван. / Н. Ю. Мустафа. – Баку: Красная Н-линия. ММК, –2020. – 292 с.
5. Махаррамов, З. Образование и просвещение в Иреване (литературно-культурная среда 1800-1920-х годов). / З. Махаррамов. – Баку: Нурлан, – 2010. – 320 с.
6. Рустамов, Ф. Иреванская педагогическая семинария и её выпускники / Ф. Рустамов. – Баку: Наука и образование, 2022. – 240 с.
7. Рустамов, Ф., История педагогики / Ф. Рустамов. – Баку: Наука и образование, – 2015. – 748 с.
8. Ализаде Гусейнли, А. Роль журнала «Лек-Лек» в развитии образования в Иреване // Научные труды Института Образования Азербайджанской Республики, -2025. № 5, -с. 215.
9. Величко, В.Л. Кавказ. Российское дело и межплеменные вопросы, –Баку: из-во: Азербайджан, – 1995, –87 с.
10. Гусейнзаде, Р.Л. История азербайджанской школы и педагогической мысли / Р.Л. Гусейнзаде. – Баку: АГПУ, –2021. –538 с.

Redaksiyaya daxil olub: 26.01.2026

MÜNDƏRİCAT
ОГЛАВЛЕНИЕ
CONTENTS

BAŞ REDAKTORDAN
ОТ ГЛАВНОГО РЕДАКТОРА
FROM THE EDITOR-IN-CHIEF

PROFESSOR MUSEYİB İBRAHİM OGLU İLYASOV – 75
PROFESSOR MÜSEYİB İBRAHİM İLYASOV – 75
ПРОФЕССОР МУСЕЙБ ИБРАГИМ ОГЛУ ИЛЬЯСОВ – 75

Akif Abbasov
Xeyirxah insan, təcrübəli müəllim, istedadlı alim
A kindly person, experienced teacher, talented scientist 5
Добрый человек, опытный преподаватель, талантливый ученый

ÜMUMPEDAQOJİ PROBLEMLƏR
GENERAL PEDAGOGICAL PROBLEMS
ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

İlham Cavadov
Müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin təhsilin keyfiyyətinə təsiri
The impact of a teacher's pedagogical practice and professional competence on the quality of education 8
Влияние педагогической деятельности учителя и уровня его профессионализма на качество образования

Sevinc Axundova
Ali pedaqoji təhsil müəssisələrində “Pedaqogika” fənninin tədrisinin optimallaşdırılmasında sərişтəəsaslı yanaşma
A competent approach to optimizing the teaching of “Pedagogy” in higher pedagogical educational institutions 15
Компетентностный подход в оптимизации преподавания предмета «Педагогика» в высших педагогических учебных заведениях

Aişə Allahverdiyeva
Azərbaycanın pedaqoji universitetlərində maliyyə resurslarının idarə olunmasının optimallaşdırılması mexanizmləri
Механизмы оптимизации управления финансовыми ресурсами в педагогических университетах Азербайджана 22
Mechanisms for optimizing financial esource management in Pedagogical Universities of Azerbaijan

Tura Əliyeva
Yeniyetmələrin sosiallaşmasının mərhələləri və funksiyaları
Stages and functions of socialization of teenagers 26
Этапы и функции социализации подростков

TƏRBİYƏ MƏSƏLƏLƏRİ
EDUCATIONAL ISSUES
ВОПРОСЫ ВОСПИТАНИЯ

Şiruyə Azadəliyeva
Ali məktəbdə təlim prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılacaq təlim-tərbiyə işlərinə hazırlanmaları 31
Preparation of students for conducting educational work with adolescents in need of repair, in the process of studying at a higher educational ınstıtution

Подготовка студентов к проведению учебно-воспитательной работы с подростками, нуждающимися в перевоспитании, в процессе обучения в высшем учебном заведении
Lalə Məmmədli.
Yeni pedaqoji təfəkkürün tələbi – tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması
The requirement of a new pedagogical thinking is the formation of an active life position in students
Требование нового педагогического мышления – формирование активной жизненной позиции у студентов 38

Rəhiməxanım Məmmədzadə
Tərbiyə texnologiyalarından istifadə etməklə tələbələrin mənəvi keyfiyyətlərinin formalaşdırılması üzrə işin səmərəlilik göstəriciləri: Yoxlayıcı eksperimentin təşkili və nəticələri
Indicators of the effectiveness of work on the formation of national qualities of students using educational technologies: Organization and results of the testing experiment 43
Показатели эффективности работы по формированию нравственных качеств учащихся с использованием образовательных технологий: Организация и результаты проверочного эксперимента

Sevinc Vəliyeva.
Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları
Possibilities and ways of developing a caring attitude towards the flora, fauna and nature of Azerbaijan in extracurricular activities on the subject "Exploring the World 50
Возможности и пути формирования бережного отношения к флоре, фауне и природе Азербайджана во внеклассной деятельности по предмету «Познание мира»

Dilşad Talıbova
Ağıl tərbiyəsinin məntiqi kökləri
Logıcal roots of mind education 57
Логические основы умственного воспитания

MƏKTƏBƏQƏDƏR TƏHSİL
PRESCHOOL EDUCATION
ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ

Şahkərəm Məmmədov, Nadir Babayev
Azərbaycanda məktəbəqədər təhsil sahəsində həyata keçirilən islahatlar
Reforms implemented in the field of preschool education in Azerbaıjan 62
Реформы, реализованные, в сфере дошкольного образования в Азербайджане

PEDAQOJİ AKMEOLOGİYA
PEDAGOGICAL ACMEOLOGY
ПЕДАГОГИЧЕСКАЯ АКМЕОЛОГИЯ

Kəmalə Quliyeva
Pedaqoji akmeologiyanın inteqrativ xarakteri və əsas prinsipləri
Integrative character and basic principles of pedagogical acmeology 67
Интегративный характер и основные принципы педагогической акмеологии

EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏ
ECOLOGICAL EDUCATION AND UPBRINGING
ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ

Ləman Mustafayeva
Ali təhsildə ekoloji savadlılığın formalaşdırılması
Formation of ecological literacy in higher education 72
Формирование экологической грамотности в высшем образовании

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Asif Hacıyev (Şirvanelly)
Latın qrafikalı Azərbaycan əlifbasına keçidin bəzi özünəməxsus cəhətləri
Some special aspects of the switch to the latın graphic Azerbaijan alphabet
Некоторые специфические особенности перехода к азербайджанскому алфавиту по латинской графике 76

RİYAZİYYATIN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHİNG MATHEMATİCS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

Firidə Mustafayeva
Riyaziyyat təlimində iqtisadi savadlılığın formalaşdırılması: müasir pedaqoji yanaşmalar
Formation of economic literacy in mathematics education: modern pedagogical approaches
Формирование экономической грамотности в математическом образовании: современные педагогические подходы 82

Fəxrəddin Əliyev, Ülkər Babayeva, Röya Hətəmova
Beynəlxalq riyaziyyat olimpiadalarına hazırlıq məqsədli müxtəlif məsələlər
Various issues in preparation for the international mathematical olympiads
Различные вопросы подготовки к международным математическим олимпиадам 88

COĞRAFİYANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING GEOGRAPHY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ

Namiq Ağaməmmədov
Litosfer tavalarının hərəkəti və yerin geoloji inkişafı coğrafi inteqrasiya aspektində
Lithospheric plate movement and geological development of the Earth from the aspect of geographical integration
Движение литосферных плит и геологическое развитие земли в аспекте географической интеграции 94

Aytac Tağıyeva
5E təlim modelinin Azərbaycan coğrafiyasına aid mövzularda təhlili
Analysis of the application of the 5E instructional model in topics related to the geography of Azerbaijan
Анализ применения учебной модели 5E в темах, связанных с географией Азербайджана 100

BİOLOGİYANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING BIOLOGY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

Qəzənfər Əliyev
Biologiyanın tədrisində kosmos–yer əlaqələrinin biosferə təsiri və ekoloji nəticələri haqqında
On the impact of space-earth relations on the biosphere and the ecological consequences in the teaching of biology
О влиянии связей космоса и земли на биосферу и экологических последствиях в преподавании биологии 105

Elnurə Səfərova, Günel Məmmədova
Biologiya müəllimi hazırlığında STEAM metodologiyasının tətbiqinin keyfiyyətə təsiri
The impact of applying STEAM methodology on the quality of biology teacher training
Влияние применения методологии STEAM на качество подготовки учителей биологии 109

Xoşqədəm İbrahimova
Biologiyanın tədrisində açıq dərslərin təşkilinin aspektləri
Aspects of organizing open lessons in teaching biology 112
Аспекты организации открытых уроков в преподавании биологии

XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING FOREIGN LANGUAGES
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

Günel Eyvazlı
İngilis dilinin tədrisində motivasiyanın rolu
Role of motivation in the English language teaching 117
Роль мотивации в преподавании английского языка

Tahirə Axundova
İngilis dilinin tədrisində tələbələrdə şifahi nitqin kommunikativyönlü strateji səriştəsinin formalaşması ilə bağlı problemlər
The formation of communication-oriented strategic competence of oral speech in students in teaching English 123
Проблемы формирования коммуникативно-стратегической компетентности устной речи студентов при обучении английскому языку

FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING PHYSICAL CULTURE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ

İlham Zəkiyev
Azərbaycanda cüdonun yaranma və inkişaf istiqamətləri
Dırections of the establishment and development of judo in Azerbaijan 128
Направления становления и развития дзюдо в Азербайджане

Gülbaba Quliyev
Fiziki tərbiyə dərslərində güləş üzrə texniki elementlərin öyrədilməsinin əsas pedaqoji şərtləri
Basic pedagogical conditions for teaching technical elements of wrestling 132
Основные педагогические условия обучения техническим элементам борьбы на уроках физической культуры

Rüfət Əkbərov, Xanlar Qocayev, Orxan Muxtarov
Fiziki məhdudiyyətli şagirdlərin fiziki tərbiyə dərslərinin təşkili xüsusiyyətləri
Features of the organization of physical education classes for students with disabilities 136
Особенности организации занятий по физическому воспитанию учащихся с ограниченными физическими возможностями

HƏRBİ PEDAQOGİKA
MILITARY PEDAGOGY
ВОЕННАЯ ПЕДАГОГИКА

Müjkan Məmmədzadə
Azərbaycanın hərbi təhsil müəssisələri üçün hərbi pedaqoji kadrların hazırlanması
Training of military-pedagogical personnel for Azerbaijan’s military educational instıtutions 141
Подготовка военно-педагогических кадров для военных учебных заведений Азербайджана

RƏQƏMSAL BACARIQLAR VƏ TEXNOLOGİYALAR
DIGITAL SKILLS AND TECHNOLOGY
ЦИФРОВЫЕ НАВЫКИ И ТЕХНОЛОГИИ

Sevinc Cəlilova
Analoq–rəqəmsal texnologiyaların Pedaqoji Universitetdə fizikanın tədrisi prosesinə inteqrasiyası
Integration of analog–digital technologies into the physics teaching process at a Pedagogical Universıty 147
Интеграция аналого-цифровых технологий в процесс обучения физике в педагогическом Вузе

Bahar İsmayılova
Gənclərin rəqəmsal bacarıqlarının artırılmasında müasir texnologiyalardan istifadə yolları, problemlər, perspektivlər
Ways, problems, and perspectives of using modern technologies in improvıng youth's digital skills 153
Пути, проблемы и перспективы использования современных технологий в повышении цифровых навыков молодежи

PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ
APPLICATION OF PEDAGOGICAL TECHNOLOGIES
ПРИМЕНЕНИЕ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ

Zəkiyyə Abdullayeva
Pedaqoji texnologiyaların funksiyaları, təsnifatı və aparılan idraki əməliyyatlar
Functions of pedagogical technologies, classification and performed cognitive operations 158
Функции педагогических технологий, классификация и выполняемые когнитивные операции

İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ
ISSUES IN INCLUSIVE EDUCATION
ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Ayşən Məmmədova
Təlim çətinlikləri probleminin pedaqoji-psixoloji mahiyyəti və səbəbləri
Pedagogical and psychological essence and causes of the problem of learning difficulties 162
Психолого- педагогическая сущность и причины проблемы учебных трудностей

Nabat Qəhrəmanova
Gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının mahiyyəti
The essence of preparing future educator-teachers for inclusive activites 167
Сущность подготовки будущих воспитателей-учителей к инклюзивной деятельности

PSİXOLOGİYA
PSYCHOLOGY
ПСИХОЛОГИЯ

Məhərrəm Əliyev
Gənclərdə intihar riski, zaman qavrayışı və zaman düşüncəsi problemi
The risk of suicide, the problem of time perception and thinking about time in youth 173
Риск суицида, проблема восприятия времени и мышления о времени у молодежи

Validə Əliyeva
Müasir təhsildə fəal təlim: tənqidi və yaradıcı düşüncənin psixoloji mexanizmləri
Active learning in modern education: psychological mechanisms of critical and creative thinking 179
Активное обучение в современном образовании: психологические механизмы критического и творческого мышления

Dilqəm Məmmədov
Şəxsiyyətlərarası münasibətlər fonunda şəxsiyyətin inkişaf nəzəriyyəsi (Harry Stack Sullivan)
The theory of personality development within the framework of interpersonal relations (Harry Stack Sullivan) 186
Теория развития личности в контексте межличностных отношений (Гарри Стек Салливан)

KORREKSİYA PEDAQOGİKASI
CORRECTIONAL PEDAGOGY
КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА

Gülər Nuriyeva
Neyropedaqoji yanaşmalar vasitəsilə öyrənmə prosesinin səmərəliliyinin artırılması
Improving the efficiency of the learning process using neuropedagogical approaches 192
Повышение эффективности процесса обучения посредством нейропедагогических подходов

MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ
HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT
ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

Əfsanə Əlizadə Hüseynli
İrəvanda maarifçilik ideyalarının mətbuat vasitəsilə yayılması
Spreading enlightenmental ideas in Yerevan through the press 197
Распространение просветительских идей в Иреване посредством прессы

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Məqalələrin yazılışına verilən tələbləri‖ əks etdirmişik. Bəzi müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda digər müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir.

Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir.

Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr.

Tələblərə diqqət yetirək:

Çoxcildli nəşrlər belə yazılır: 1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. 2013. – 384 s.

2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

Müəllifi göstərilməyən nəşrlər: Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI Yeni nəşrlər evi, – 2004. – 304 s.

Müəllifi dörd nəfərədək olan nəşrlər, o cümlədən bir müəllifli nəşrlər:

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

İki və üç müəllifli nəşrlər:

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

Müəllifi dörd və daha çox olan nəşrlər. Dörd və beş müəllifli nəşrlər: Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48

Beşdən çox müəllifli nəşrlər:

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

Jurnal məqalələri: Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. № 6, – s. 59-62.

Müəllifi üçdən çox olan jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

Konfrans materialları: Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 89 , № 6, 2022, № 5

Dissertasiyalar: Əmirəliyeva, İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2013. – 147 s.

Dissertasiyanın avtoreferatı: Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.; 218

Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, Volume: 90, Number: 2, 2023

Elektron resurslar: Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CDROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T. Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm

Normativ-hüquqi sənədlər: Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

Qəzet məqalələri: Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. -2020, 22 avqust. – s. 6

Arxiv materialları: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq 1.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi əsərlər"inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalələrdə öz əksini tapan fikirlər müəlliflərə aid olmalıdır. İstifadə edilmiş fotolar açıq mənbələrdən götürülməlidir. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması məqalə müəlliflərinin məsuliyyətindədir.
4. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
5. Təqdim olunan məqalələrdə müəlliflərə aid Orcid öz əksini tapmalıdır.
6. Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir Hər məqaləyə adları çəkilən dillərdə xülasələr və açar sözlər yazılır. Xülasədə irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
7. Məqalələr Azərbaycan. dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman - 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (filəşkartda) təqdim olunmalıdır.
8. Məqalə A4 formatında hazırlanmalı, səhifə kənarları aşağıdakı kimi müəyyən edilməlidir: sol kənar – 3 sm, sağ kənar – 1,5 sm, yuxarı və aşağı kənarlar – hər biri 2 sm.
9. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə müəllif(lər)in adı, atasının adı və soyadı; ikinci sətirdə elmi dərəcəsi və elmi adı (yaxud doktorant də dissertant olması və s.); üçüncü sətirdə iş yeri, vəzifəsi; dördüncü sətirdə böyük hərflərlə məqalənin adı. Daha sonra bu qaydada həmin məlumatlar rus və ingilis dillərində təkrar edilir.
10. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
11. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və ümumtəhsil, yaxud orta ixtisas təhsili müəssisəsinin pedaqoji şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
12. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
13. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Daha sonra istinad olunmuş ədəbiyyatın siyahısı verilir.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda “ardı növbəti nömrədə” adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Təqdim olunan məqalələrdə Web of Science və ya SCOPUS bazasında yerləşən jurnalların ayrı-ayrı nömrələrində və eyni zamanda Azərbaycan Respublikasının Təhsil İnstitutun Elmi əsərlərinin müxtəlif nömrələrində dərc olunmuş məqalələrə istinadlar vacibdir.
21. Məqalənin sonunda rəyçilərin adı, atasının adı və soy adı, elmi dərəcəsi və elmi adı; sonrakı sətirdə məqalə müəllifinin elektron ünvanı (E-mail) göstərilməlidir.
22. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar əlavə olunur: məqalə müəllif (lər)inin adı, atasının adı soyadı, işlədiyi müəssisə (hansı müəssisədə doktorant və dissertant olması) və müəssisənin ünvanı, müəllif(lər)in vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ev ünvanı, elektron poçt ünvanı (Email).

REQUIREMENTS FOR SUBMITTED ARTICLES

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3. The opinions reflected in the articles should belong to the authors. The used photo materials must be taken from open sources. Ensuring compliance with anti-plagiarism and other research ethics requirements is the responsibility of the article authors.
4. When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
5. Submitted articles must include the ORCID of the authors.
6. The text of the article should be about 6-8 pages. Keywords for the article should be presented in three languages: Azerbaijani, Russian and English.
7. The text of the article should be presented on the flash card together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
8. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented. The article must be prepared in A4 format, the page margins must be defined as follows: left margin – 3 cm, right margin – 1.5 cm, top and bottom margins – 2 cm each.
9. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
10. It is undesirable to have more than three co-authors.
11. The Editorial Board has the right to make changes and reductions in the article.
12. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
13. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
14. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example [1] or [1, p. 119]. If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
15. The journal publishes articles related to its profile.
16. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
17. Then a list of references is provided.
18. The rights of the authors of the article are protected.
19. The journal does not publish a series of articles under the heading “continued in the next issue”.
20. Summary of articles in different languages should be the same and consistent with the content of the article.
21. In the presented articles, references to articles published in individual issues of journals included in the Scopus and Web of Science database, as well as in various issues of the Institute of Education of the Republic of Azerbaijan's scientific papers, are important.
22. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.
23. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.
2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.
3. Идеи, отраженные в статьях, должны принадлежать авторам. Используемые фотоматериалы должны быть взяты из открытых источников. Авторы статьи несут ответственность за соблюдение антиплагиатных и других требований исследовательской этики.
4. При обнаружении фактов плагиата публикация статьи прекращается.
5. В представленных статьях должен быть указан ORCID авторов.
6. Текст статьи должен составлять восемь и более страниц. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском.
7. Текст статьи должен быть представлен на флеш-карте вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке
8. Статья должна быть подготовлена в формате A4, поля страниц должны быть определены следующим образом: левое поле – 3 см, правое поле – 1,5 см, верхнее и нижнее поле – по 2 см каждое.
9. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.
10. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.
11. Нежелательно иметь более трех соавторов.
12. Редакция имеет право вносить необходимые изменения, сокращения и правки в статью. Статьи сопровождаются отзывами двух специалистов, выдержками из протоколов заседаний кафедры или факультета, а также Ученого совета высшего учебного заведения и педагогического совета общеобразовательного или среднего специализированного учебного заведения.
13. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны принадлежать автору и должен быть указан источник используемых теоретических идей.
14. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например [1] или [1, стр. 119]. Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.
15. Журнал публикует статьи, имеющие отношение к его профилю.
16. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.
17. Затем предоставляется список использованной литературы.
18. Права авторов статьи защищены.
19. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем номере».
20. Аннотация статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.
21. В представленных статьях важны ссылки на статьи, опубликованные в отдельных выпусках журналов, размещенных в базах данных Web of Science или SCOPUS, а также в различных номерах «Научных трудов» Института Образования Азербайджанкой Республики..
22. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.
23. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (E-mail).

e-mail: gulizade.gunel@mail.ru
https://journals.arti.edu.az/

Çapa imzalanıb: 20.02.2026
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 13 ç.v. Tiraj: 200. Sifariş № 51.

MÜTƏRCİM TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
(012) 596 21 44;
e-mail: mutarjim@mail.ru
www.mutercim.az